NİZAMİ XUDİYEV

SEÇİLMİŞ əsərləri

IV CİLD

NİZAMİ XUDİYEV ❋ SEÇİLMİŞ əsərləri

IV

Nizami Xudiyev

ZAMANIN AXARI İLƏ

(I hissə)

Məqalələr
Rəylər
Müsahibələr
Xatirələr
Çıxışlar
Ssenarilər

SEÇİLMİŞ ƏSƏRLƏRİ

IV cild

«Elm və təhsil»
Bakı – 2013

ББК 46.2
Х-90

Elmi redaktoru: **Qəzənfər Kazımov**
filologiya elmləri doktoru, professor

Rəyçilər: **Adil Babayev**
filologiya elmləri doktoru, professor

İsmayıl Məmmədov
filologiya elmləri doktoru, professor

Х-90
N.M.Xudiyev.
Zamanın axarı ilə (IV cildd) I hissə .
Bakı, "Elm və təhsil", 2013. – 788 səh.

Kitaba müəllifin müxtəlif illərdə qələmə aldığı Azərbaycan ədəbi dili, onun problemləri, inkişaf və zənginləşmə yolları, ədəbi dilin tarixi, nitq mədəniyyəti və s. mövzularda apardığı bir qisim araşdırmaları, təhsil sisteminin qayğı və problemlərinə həsr olunmuş məqalə və müsahibələri daxil edilmişdir.

Zamanın yaddaşını vərəqləyən müəllif mənalı ömür sürmüş bir sıra görkəmli insanların həyat yoluna nəzər salmış, onlarla bağlı xatirələrini təqdim etmişdir. Həmçinin kitabda oxucular sənədli televiziya filmlərinin ssenarilərilə də tanış ola biləcəklər.

Kitabdan tələbələr, aspirantlar, elmi işçilər, geniş oxucu kütləsi faydalana bilər.

$\frac{4702000000}{N098-2013}$ ***qrifli nəşr***

© Azərnəşr, 2004
© «Elm və təhsil», 2013

MÜQƏDDƏS YOLUN YOLÇUSU

İti ağıl və aydın dərrakə sahibi, saf və güclü fikir yiyəsi, işıqlı ideyalar müəllifi, görkəmli elm adamı… Ana dilimizin saflığı keşiyində sərhəd əsgəri kimi sərvaxt dayanan cəfakeş alim… Bacarıqlı, işgüzar və sədaqətli dövlət adamı… Cəmiyyətin qəbul etdiyi ictimai xadim və ləyaqətli ziyalı… Millətin varlığım qoruyan və onun ruhunu yaşadan şəxsiyyət… Bu fikirlərin hamısını heç bir mübaliğəsiz-filansız ona şamil etmək olar. O, elə Azərbaycan övladlarındandır ki, artıq onu dünyada tanıyır və hörmət edirlər. Azərbaycana başucalığı gətirən, onu şərəfləndirən bu cür həmvətənlərimizin həyat yolu, təcrübəsi hər zaman örnəkdir…

Onun ömrü düz 55 il əvvəl uzaq Şahbuzdan, qeyrətli bir Azərbaycan kişisinin, Azərbaycan ziyalısının halal ocağından başlayıb. Şahbuzdan baş alan kiçik bir cığır onu geniş yollara qovuşdurub. Deyirlər, insan gərək getdiyi yolun sonunu bilsin. Bu yolun onu hara aparacağını düşünsün, yüz ölçüb, bir biçsin. Axı, yol boyu heç də hər şey hamar, dümdüz, səliqə-sahmanlı olmur. Bu yolun kələ-kötürü, eniş-yoxuşu, dolanbacları var. O da düz 37 il əvvəl kiçik bir əyalət cığırından nəhəng yola çıxanda bu yolun onu hara aparacağını yaxşı bilirdi, çünki hər şeyi yaxşı götür-qoy etmişdi. Və bu yolda iz qoyacağına əmin idi. Qoydu da. İzlər isə həmişəlik qalır: yaxşısı yaxşı kimi, pisi pis kimi. Əlbəttə, onun izi birincilərdəndir…

İndi onun qovuşduğu nəhəng yolun ucu-bucağı görünməsə də, aydınlığı heç kimə sirr deyil. Bu yolun yolçusu isə filologiya elmləri doktoru, professor, millət vəkili, Dövlət Teleradio Verilişləri Şirkətinin sədri, əməkdar elm xadimi Nizami Xudiyevdir.

…O, 1970-ci ildə indiki Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsini fərqlənmə diplomu ilə

bitirir, müəllimləri onun savad və biliyini, təşkilatçılıq qabiliyyətini, gözəl insani keyfiyyətlərini yüksək qiymətləndirir və onu "Azərbaycan dilçiliyi" kafedrasında müəllim saxlayırlar. Və bu seçimdə, bu etimadda yanılmırlar da. Çünki təhsil illərində "Nizami Gəncəvi" təqaüdü ilə oxuyan istedadlı tələbə elmin yollarında da çətinlik çəkmir, inamla irəliləyir, 1978-ci ildə namizədlik, 1990-cı ildə doktorluq dissertasiyası müdafiə edir. ADPU-da müxtəlif məsul vəzifələrdə çalışır, 1979-1991-ci illərdə Həmkarlar İttifaqı Komitəsinin sədri, 1991-1994-cü illərdə birinci prorektor, 1994-96-cı illərdə rektor olur, özünü dərin elmi təfəkkürlü alim, yüksək təşkilatçılıq bacarığına malik rəhbər işçi kimi göstərir. Bu gərgin çalışmalar həm də onun ardıcıl elmi fəaliyyətində özünü göstərir. Bu gün artıq görkəmli alim 40-a yaxın monoqrafiya, dərslik, dərs vəsaitinin, o cümlədən orta məktəb dərsliklərinin, 300-dən artıq elmi məqalənin, 25-dən artıq sənədli filmin ssenari müəllifidir. N.Xudiyevin bir sıra kitab və məqalələri xarici ölkələrdə (İran, Türkiyə, Rusiya, Almaniya, İraq, İsveçrə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və s.) nəşr edilmişdir.

Professor Nizami Xudiyev türkoloq alim kimi Vətənimizdə və digər ölkələrdə, o sıradan, Moskva, Nalçik, Bişkek, Ufa, Aşqabad, Daşkənd, Gülüstan, Alma-Ata, Ankara, Konyada keçirilən elmi konfrans, türkoloji qurultay və beynəlxalq simpoziumların nümayəndəsi olur, bu mötəbər toplantılarda sanballı elmi məruzələrlə çıxış edir, türkologiya sahəsində tədqiqatları ilə diqqəti cəlb edir və artıq elmi ictimaiyyət onu həm də türkoloq alim kimi tanıyır…

"Azərbaycan ədəbi dilinin təşəkkülü", "Tərcümə ədəbiyyatı və ədəbi dilimiz", "Azərbaycan ədəbi dilinin sovet dövrü", "Azərbaycan ədəbi dili tarixi", "Heydər Əliyev və Azərbaycan dili", "Yazıçı dili və üslubu", "Xalqın tarixi haqqı: dilimiz, varlığımız" isə nüfuzlu dilçi alim, professor

Nizami Xudiyevə sözün həqiqi mənasında böyük şöhrət gətirir…

Hərtərəfli fəaliyyəti, elmi yaradıcılığı ilə diqqət mərkəzində olan professor Nizami Xudiyev iki dəfə dalbadal (1995, 2000) 2 saylı Şərur-Babək seçki dairəsindən Milli Məclisə deputat seçilir. Elə ictimai-siyasi fəaliyyətinin ilk dövrlərində də qanunvericilik sahəsində səriştəliliyini, dövlətçilik və vətəndaşlıq mövqeyini sübut edir. Milli Məclisdə dövlət quruculuğu, iqtisadi islahatlar, mədəniyyət və təhsil sahəsində qanun layihələrinin müzakirəsi zamanı tutarlı təklif və mülahizələri, işgüzar çıxışları ilə seçilir, fəal mövqeyi ilə yadda qalır.

Professor Nizami Xudiyev, habelə, ölkəmizin ən nüfuzlu partiyası olan Yeni Azərbaycan Partiyasının sadiq və layiqli üzvlərindən, onun ali orqanlarında (İdarə Heyətinin üzvü) təmsil olunan partiyadaşlarından biridir. Və böyük bir məktəb – Heydər Əliyev məktəbi keçdiyini, bu məktəbə sadiq qalldığını dəfələrlə sözdə deyil, həm də əməli işdə təsdiqləyir…

Dövlət Teleradio Verilişləri Şirkətinə sədr təyin olunanda (sentyabr, 1996) professor Nizami Xudiyev artıq görkəmli dilçi-türkoloq alim, ictimai xadim, nüfuzlu ziyalı idi. Lakin bu təyinat həm televiziyanın "ömrü"nə, həm də alimin özünün yeni araşdırmalarına, yeni uğurlarına təkan verdi, ekran-efirin problemlərinin həllini daha da tezləşdirdi, bu mühüm ideoloji mərkəzə yenilik, təzə yaradıcılıq ab-havası gətirdi. Və indiyədək istedadlı pedaqoq, nüfuzlu elm adamı, böyük təfəkkürlü, zəkalı alim, son dərəcə ciddi simalı millət vəkili imici qazanan Nizami Xudiyevi, həm də mahir televiziyaçı kimi tanıtdı. Onun ideyası, məsləhəti, xeyir-duası ilə həyata keçirilən böyük telelayihələr, ekran-efirə vəsiqə qazanan yeni-yeni verilişlər, radio və televiziyaya aid yazdığı son dərəcə dəyərli kitablar, bir sıra irihəcmli

teleproqramların və aktual mövzuda sənədli filmlərin ssenarisi dediklərimizin sübutudur. Həmişə ana dilimizi uca tutan, onun saflığı, gözəlliyi uğrunda "çarpışan" professor Nizami Xudiyevin fikrincə, "…səlis dildə hazırlanmış ekran-efir məhsulunu dinləyərkən bu qənaətə gəlirsən ki, əsrlərin sınağından uğurla keçərək cilalanmış bugünkü danışıq və yazı dilimiz yüksək bir romantikanın, ən təsirli bir realizmin dilidir".

Professorun Azərbaycan radiosunun 75, Azərbaycan televiziyasının 45 illiyi qarşısında çap etdirdiyi, böyük və ağır zəhmətin bəhrəsi olan sanballı "Radio, televiziya və ədəbi dil" adlı elmi-publisistik kitabı bu unikal sahənin ədəbi dil xəzinəsini kompleks elmi-praktik tədqiqata cəlb etdi və bu toplu alimlər, mütəxəssislər, dilçilər, radio, televiziya dilinin tədqiqatçıları tərəfindən yüksək qiymətləndirildi. Filologiya elmləri doktoru, professor Müseyib Məmmədovun və filologiya elmləri namizədi Qulu Məhərrəmovun qeyd etdikləri kimi, bu kitab "…Nizami Xudiyevin 1996-cı ilin sentyabrından Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinə sədr təyin edildikdən sonra ekran, efir dili ilə bağlı apardığı fəal müşahidələrin nəticəsi olan tədqiqat əsəridir".

Bəli, bu gün Dövlət Teleradio Verilişləri Şirkətində apardığı islahatlar, paralel olaraq elmdə, siyasətdə qazandığı uğurlar, mötəbər qurumda – Milli Məclisdəki fəaliyyəti, onun tribunasından ağıllı, cəsarətli, dərrakəli, məntiqi çıxışları, habelə dövlət, hökumət və parlament nümayəndə heyətlərinin tərkibində xarici ölkələrdə, nüfuzlu beynəlxalq təşkilatlarda Vətənimizi ləyaqətlə təmsil etməsi professor Nizami Xudiyevin hərtərəfli, çoxşaxəli fəaliyyətindən xəbər verir.

Üstəlik, görkəmli alim BDU nəzdində filologiya üzrə elmlər namizədi və elmlər doktoru alimlik dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən Təhsil Nazirliyi və

Milli Elmlər Akademiyasının birləşmiş ixtisaslaşmış şurasının üzvü (1997), Azərbaycan Ziyalılar Cəmiyyəti İdarə Heyətinin (1998), Jurnalistlər (1998) və Yazıçılar Birliyinin (1999) üzvü, Lütfi Zadə adına Amerika Beynəlxalq Müasir Elmlər Akademiyasının həqiqi üzvü (2001), Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü (2001), İngiltərənin Kembric Beynəlxalq Bioqrafiya Mərkəzinin baş direktorunun müavini (2002), ABŞ Bioqrafiya İnstitutunun üzvüdür (2002)… O, dəfələrlə Maarif, Ali məktəb, Elmi İdarə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin üzvü, Azərbaycan Həmkarlar İttifaqının XVI qurultayında gənclər arasında iş komissiyasının sədri, Ümumittifaq Maarif, Ali Məktəb, Elmi İdarə İşçiləri Həmkarlar İttifaqının qurultaylarının, Azərbaycan müəllimləri qurultaylarının, Dünya azərbaycanlılarının I qurultayının nümayəndəsi olub.

Bu sıranı Nizami Xudiyevin redaksiya heyətinin üzvü olduğu nüfuzlu qəzet və jurnalların adlarını sadalamaqla xeyli uzatmaq olar. Bu sıranı onun layiq görüldüyü mükafatlarla genişləndirmək olar. Amma bu mükafatlardan bir neçəsini xatırlatmaq kifayətdir: Ali Sovetin fəxri fərmanı (1981), İngiltərənin Kembric Beynəlxalq Bioqrafiya Mərkəzi tərəfindən 2001-ci il üçün "İlin beynəlxalq ziyalısı" diplomu və "Qızıl medal"ı, yenə həmin mərkəzin 2002-ci ildə "XXI əsrin intellektualı" ali dərəcəli diplomu və xüsusi medalı, akademik Yusif Məmmədəliyev adına medal və mükafat (1996), "Qızıl qələm" (2001), Abdulla Şaiq adına mükafat (2001), Həsən bəy Zərdabi adına fəxri diplom və medal (2004)…

Bəli, indi ona dilçiliyimizin fəxri də deyirlər, dövlətçiliyimizin, müstəqilliyimizin qorunması və inkişafı yolunda əvəzsiz bir missiyanın daşıyıcısı olan teleradioya məharətlə rəhbərlik edən bacarıqlı təşkilatçı da, mahir televiziyaçı da, islahatçı sədr də, vətənpərvər ziyalı, ağıllı

siyasətçi də, cəsarətli millət vəkili, fəal ictimai xadim də… Amma nə deyirlər-desinlər, fərq etməz, çünki o, fəaliyyət göstərdiyi hər bir sahədə özünü peşəkar kimi göstərə bilib, böyük hörmət və nüfuz qazanıb…

Düşünürsən, görəsən, Nizami Xudiyevin tez bir zamanda (55 yaş nədir ki…) vətənimizdə və dünya miqyasında bunca məşhurlaşmağının, bu qədər etimad qazanmağının səbəbi nədir? Fikrimizcə, bu suala cavab üçün çox baş sındırmaq lazım deyil. Heç vaxt sərf edib çox araşdırma aparmaq da gərək deyil. Çünki hər şey göz önündədir, hər şey göz qabağındadır. "Zəhmət üz ağardar" kəlamını da nahaq deməyiblər… Elə sözümün bu yerində Nizami Xudiyevi yaxından tanıyan alimlərdən birinin fikri yada düşür: "… Çox az adamlarda pedaqoji fəaliyyət, alimlik və təşkilatçılıq işi üst-üstə düşür. Hərədə bu məziyyətlərdən biri üstün olur. Amma Nizami Xudiyevin şəxsində bu üç meyar vəhdət təşkil edir". Dəqiq deyilib…

Bəli, o, aşıb-daşan, tükənməz enerji ilə çalışdığı və bütün həyatını həsr etdiyi işinə çox bağlıdır. Ağlı kəsəndən müqəddəs bir yolun yolçusu olmağa qərar verib, elmə sarı gedib. Elmə sarı gedənlər isə Allaha tərəf yol gedənlərdir… O da illər boyu axtarışda olub, istirahətindən, dincliyindən kəsib gecəsini gündüzə qatıb, yorulmadan, bezmədən araşdırmalar aparıb, tədqiqatla məşğul olub… Atası Mənaf müəllimin məsləhəti, tövsiyəsi isə həmişə qulaqlarında olub: "Elm bir sərvətdir ki, biçildikcə daha bol məhsul verər…".

Onun uğurlarının bir səbəbi isə, seçdiyi yola bütün varlığıyla inamıdır. Elə bu inam və *cəfakeşliklə də o, istədiyinə nail olub. Azərbaycan dilçilik elminə, türkologiyaya, televiziyaya, radioya zaman keçsə də, dəyərini itirməyəcək sanballı töhfələr verib, təhsilimizə elə onun adını da öz pozulmaz səhifələrində əbədiləşdirən dəyərli kitablar bəxş edib.*

Həyatının leytmotivi sayılan bu xidmətlər isə onun ömrünə, Azərbaycan elmi və mədəniyyəti yolundakı böyük xidmətlərinə çox aydın və parlaq işıq salır…

Beləcə, çox az hissəsi sadalanan bu işləri 55 yaşlı alimin, ictimai xadimin ömrünə və elə bu 55 rəqəminin sayına sığışdırmaq olmur… Əslində bu cəfakeşlik ölçüyəgəlməzdir. Amma faktlar bu böyük həqiqəti təsdiqləyir: iki mindən çox işçisi olan bir şirkətə rəhbərlik, Milli Məclisin iclasları, xarici səfərlər, alim kimi qayğıları, yeni kitablar, yeni ssenarilər… Nizami müəllimin saya gəlməyən xidmətlərinə bütövlükdə nəzər salanda isə düşünürsən ki, o, zirvələri çoxdan aşıb və tarixdə yer alanların sırasına düşüb. Tarix isə hər kəsə bu sırada yer ayırmır. Amma qarşıda hələ keçiləsi yollar çoxdur. Keçmək gərək!.. Onu da deyirlər ki, bütün yolların son ucu məbədlərə aparıb çıxarar. Müqəddəsliyə üz tutan yolçuların isə arxasınca saflıq, şəffaflıq, aydınlıq rəmzi olan su atar, ona yaxşı yol arzulayarlar. Yolunuz açıq olsun, hörmətli professor!..

Alqış Musayev,
Firuzə Nadir
2004-cü il

OXUCULARA

Tale elə gətirib ki, gözümü açandan həmişə elmi-yaradıcı mühitdə olmuşam. İnsana mənəvi cəhətdən çox şey verən bu mühitə doğru açılan cığırı, atılan ilk addımları adam heç vaxt yaddaşından çıxara bilmir. Tələbə elmi cəmiyyətindəki ilk araşdırma, geniş toplantıda ilk məruzə, qəzetdə çıxan ilk məqalə, nəhəng yazıçılarla keçirilən görüşdə ilk həyəcanlı çıxış məhz insanı elm və yaradıcılıq dünyasına aparan addımlardandır. Bütün bunlar barədə ona görə söz açıram ki, bu kitaba daxil etdiyim materialların arasında ilk qələm təcrübələrim – ədəbi dil tarixi, türkologiya, yazıçı dili, bədii dil problemləri və s. mövzularda yazılarım da var. Əslində kitabda yer alan məqalə, elmi araşdırma və müsahibələrin çoxu məhz bu mövzulardadır. Sadəcə olaraq müxtəlif mətbuat orqanlarında çap edilmiş yazılarımın bir hissəsini bu kitabda cəmləşdirməklə qarşıya xalqımızın tarixi, ədəbi dilimiz və mənəvi dəyərlərimizlə bağlı bu gün gedən prosesləri oxucuların daha ardıcıl izləməsinə kömək etmək məqsədini qoymuşam.

Müxtəlif vaxtlarda qələmə alınmış ayrı-ayrı materialları gözdən keçirərkən bir daha bu qənaətə gəldim ki, hər bir yazı öz dövrünün ruhunu, düşüncə tərzini, həmin dövrün təfəkkürünü əks etdirir. Ona görə də yazıları toplayarkən onlara əl gəzdirməyi, yenidən işləməyi, hətta müəyyən cəhətdən bu günlə

səsləşməyən nüansları ixtisar etməyi məqbul saymadım. Ona görə də kitaba daxil edilmiş bu yazıların hər birinə öz dövrünün ab-havası çöküb.

Tarix təkcə hadisələrin müəyyən xronologiya üzrə düzülməsi deyil, həm də bu hadisələrin ruhunun, mahiyyətinin açılması, insanların həmin dövrü öz duyğu və düşüncələrindən keçirərək yaşamasıdır. Bu yaşantılar isə təkcə bədii əsərlərdə yox, həm də publisistikada özünü göstərir. Bu mənada bizim hər birimiz tarixin adi günlərini yaşayır və dövrümüzün ruhunu, həyatımızın nəbzini həm də qəzetlərdən, publisistik materiallardan duymağa çalışırıq. Axı heç bir vətəndaş, ilk növbədə isə ziyalı cəmiyyətdə yaşayıb onun qayğılarından, problemlərindən kənarda qala bilməz. O, mütləq bu problemlərə öz münasibətini bildirir. Vaxtaşırı dil, ədəbiyyat, incəsənət, təhsil, mənəviyyat problemləri ilə bağlı mətbuatda çoxsaylı dərc etdirdiyim məqalə və müsahibələr də mənim öz axarı ilə gedən hadisələrə münasibətimdir.

Uzun müddət çalışdığım təhsil ocaqlarında görkəmli yazıçılar və alimlərlə ünsiyyətdə olmuş, onların bəziləri haqqında xatirə-məqalələr çap etdirmişəm. Bundan başqa, Azərbaycanın bir sıra görkəmli elm adamları, Rusiyanın, İranın, Türkiyənin mədəniyyət xadimləri ilə görüşlərim, bir sıra qəzet, jurnal əməkdaşları ilə müsahibələrim, alimlərlə mübahisələrim də olub. Bütün bunlar əksəriyyət etibarı ilə mətbuatda öz izlərini saxlayıb. Çünki, həqiqətən, bizim dövrümüzdə problemləri publisistik materialların vasitəsilə aşkarlamaq və xalqın ictimai şüuruna bu yolla

nüfuz etməkdən təsirli vasitə yoxdur.

Biz bu yazıları tarixi xronologiyaya görə deyil, mövzulara görə qruplaşdırmağa üstünlük vermişik. Buna baxmayaraq, kitabda verilmiş materiallar toplusuna, müəyyən mənada, həm də son dövr tariximizin kiçik bir salnaməsi kimi baxırıq.

Kitaba son dövrlərdə yazdığım ssenariləri də daxil etmişəm.

Əziz oxucu! Belə hesab edirik ki, kitabdakı yazılar hansı mövzuya toxunmasından asılı olmayaraq, öz dövrünün məhsuludur. Deməli, bu kitabı vərəqləməklə biz həm dünənimizə bağlanacaq, həm də sabahımız haqqında düşünə biləcəyik.

Müəllif
15 aprel 2004-cü il

DİL SİYASƏTİNİN UĞURLARI

“Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm…”. Bu müdrik sözlər Azərbaycan prezidenti, dahi rəhbərimiz Heydər Əliyevə məxsusdur. Bütün həyatını doğma xalqının, vətəninin inkişafına, intibahına həsr edən, bu yolda misilsiz tarixi uğurlar qazanan Heydər Əliyev Azərbaycan dilinə həmişə layiqincə diqqət yetirib, tükənməz övlad məhəbbəti, rəhbər uzaqgörənliyi ilə xüsusi qayğı göstərib. Hələ sovet dövründə, imperiya qadağalarına baxmayaraq, dilimizin dövlət dili statusu alması, Azərbaycan dilçi alimlərinin yüksək dövlət mükafatlarına layiq görülərək daha böyük tədqiqat işlərinə ruhlandırılması, nəticədə Azərbaycan dilçiliyinin sürətli inkişafı, eləcə də dahiyanə nitq mədəniyyəti ilə hamıya nümunə göstərməsi Heydər Əliyevin şərəfli xidməti idi. Azərbaycan dilinə o tarixi xidmət bu gün, müstəqillik dövründə daha böyük miqyasda davam etdirilir. “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası prezidentinin 18 iyun 2001-ci il tarixli fərmanı, dahi şairimiz Məhəmməd Füzulinin 500, Azərbaycan varlığının ensiklopediyası sayılan “Dədə Qorqud” eposunun 1300 illiyinin dünya miqyasında təntənə ilə qeyd edilməsi, respublikamızda Azərbaycan dili haqqında qanunun ciddi elmi-praktik müzakirələri bunu bir daha təsdiq etdi. Müdrik prezidentimiz Heydər Əliyevin doğma Azərbaycan dili uğrunda on illər boyu necə şərəflə, cəsarətlə, elmi-nəzəri əsaslara söykənən prinsipiallıqla mübarizə aparması, obyektiv, real nəticələrə nail olması dünyada yaşayan bütün azərbaycanlılara, 50 milyonluq Azərbaycan

xalqına ən gözəl nümunədir. Onun dil siyasətinin uğurları bütün incə, "görünməz" məqamları ilə öyrənilməli, ciddi elmi-analitik təhlil, tədqiq yolu ilə xalqımıza, xüsusilə, gənc nəslə çatdırılmalıdır.

Yeni Azərbaycan Partiyasının yaradıcısı və lideri, Azərbaycan Respublikasının prezidenti, ali baş komandanımız, dahi öndərimiz Heydər Əliyevin öz doğma dilinə – Azərbaycan dilinə on illər boyu davam edən misilsiz qayğı və diqqəti tarixdə az-az hallarda təsadüf olunan nadir mədəniyyət faktı, fenomenal hadisədir.

Azərbaycan prezidenti Heydər Əliyevin bitkin elmi-nəzəri əsaslara, praktik tətbiqə əsaslanan Azərbaycan dili siyasəti böyük uğurlar qazanıb desək, yanılmarıq. Vaxtı ilə öz doğma dilində danışa bilməyən, yaxud danışmaq istəməyən bir sıra yüksək vəzifəli dövlət məmurları Heydər Əliyevin ciddi tələbkarlığı nəticəsində indi Azərbaycan dilində sərbəst danışırlar; ümumiyyətlə, dövlət dilimizə kompaniyaçılıqdan uzaq olan daimi diqqət və qayğı cəmiyyətimizin milli dil mühitinin – dövlət dili mühitinin əsaslı şəkildə genişlənməsinə, əsl ümumdövlət xarakteri almasına gətirib çıxarmışdır. Bu, həm də Heydər Əliyevin dil siyasətini həyata keçirən, bu günlərdə on yaşı tamam olan Yeni Azərbaycan Partiyasının uğurudur.

"Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası prezidentinin 18 iyun 2001-ci il tarixli fərmanını Heydər Əliyevin on illər boyu davam edən uğurlu dil siyasətinin fundamental yekun sənədi adlandırmaq olar. Dilimizin ən qədim tarixinə obyektiv elmi-tarixi qiymət verən, Azərbaycan dilinin türk köklü müstəqil dil olmasını bir daha təsdiqləyən, onun əsas təkamül mərhələlərini, inkişaf yollarını dahiyanə bir müdrikliklə, elmi-nəzəri əsaslarla izləyərək son söz deyən, rəsmi dövlət münasibəti bildirən bu fundamental tarixi sənəd Heydər

Əliyevin dil siyasətinin uğurlar miqyasını daha da genişləndirdi. Dil haqqında XIII əsrin Məhəmməd bəy Qaramanoğlu, XVI yüzilliyin Şah İsmayıl Xətai fərmanlarını yada salan, lakin o tarixi göstərişlərdən daha bütöv, daha bitkin olan Heydər Əliyev fərmanı inanıram ki, on illər, yüz illər boyu Azərbaycan dili, Azərbaycan milli mənəviyyatı naminə iş görəcək, uğurlar qazanacaq…

Müstəqilliyini təzəcə qazanmış Azərbaycan 1992-ci ildə faciəli günlər yaşayır, sosial-siyasi burulğanlar, dərəbəylik və anarxiya məngənəsində sıxılırdı. Cəmiyyətin həqiqi milli liderə, əsl rəhbərə, müdrik yolgöstərənə ehtiyacı vardı. Azərbaycanın 91 nəfər görkəmli ziyalısı, alimi, sənətkarı bir araya gələrək dünya miqyaslı liderə – xalqın yeganə ümidi, pənahı, xilaskarı Heydər Əliyevə üz tutduq. Bu təkcə 91 nəfər ziyalının yox, əslində bütün xalqın dar ayaqda ümidi, tələbi, xahişi, təkidli çağırışı idi.

Heydər Əliyev xalqın səsinə səs verdi, Azərbaycanın xilası, dirçəlişi, böyük intibahı, əbədi azadlığı naminə zamanın sözünü dedi, Yeni Azərbaycan Partiyasını yaratdı. Qısa bir tarixi dövrdə çox böyük uğurlar, ümumxalq, ümumdövlət miqyaslı qələbələr qazanan bu partiya möhtərəm prezidentimizin, zəmanəmizin Atatürkü Heydər Əliyevin Azərbaycan xalqına misilsiz töhfəsidir, tarixi xidmətidir.

Məmnuniyyətlə bildirirəm ki, dahi dövlət xadimi Heydər Əliyevin yaratdığı, bu günlərdə təntənə ilə 10 illik yubileyini qeyd etdiyimiz Yeni Azərbaycan Partiyası müasir dövrdə Azərbaycanın ən böyük, ən kütləvi partiyası, əsas, həlledici siyasi qüvvəsidir. O, cəmiyyətimizin bütün təbəqələrini əhatə edən, xalqımızın arzu və istəklərinin ifadəçisi olan partiyadır, bu günün və sabahın partiyasıdır. Bu məqamda YAP-ın sədr müavini, ARDNŞ-in birinci vitse-prezidenti, Milli Məclisin deputatı İlham Əliyevin sözlərini

xatırlayıram: "Əminik ki, Yeni Azərbaycan Partiyası öz fəaliyyəti ilə uzun illər Azərbaycan xalqına xidmət edəcək. Bizim məqsədimiz budur. Biz ümumxalq partiyasıyıq. Çünki xalqla birik, xalqa arxalanırıq və xalq üçün də xidmət edirik".

Bu, bütün həyatını xalqına, onun əbədi azadlığına, milli müstəqilliyinə həsr edən fədakar bir insanın, artıq dünya miqyasında tanınan, etiraf və qəbul olunan regional-praqmatik bir siyasətçinin mövqeyi, missiyasıdır. İstər ABŞ-da nüfuzlu siyasət, politologiya dairələrindəki çoxsaylı görüşləri, istər Avropa Şurasındakı gərgin, cəsarətli, qalib fəaliyyəti onu dünya miqyasında yeni, çox böyük perspektivləri olan siyasət və dövlət adamı, milli lider kimi tanıtmışdır. Dahi xilaskar Heydər Əliyevin həyat, hakimiyyət, siyasət, diplomatiya universitetlərini uğurla bitirən, Heydər Əliyev ideyalarının xilaskarlıq qüdrəti ilə, tükənməz Azərbaycan sevgisilə silahlanan İlham Əliyev sabahlarımızın ən ümidverici, ən real, əsl ümumxalq sevgisi qazanan lideridir.

* * *

Azərbaycan dili zaman-zaman tənə və təhqirlərlə, planlı assimilyasiya hücumları ilə, qəsd və repressiyalarla da üzləşdi. Ədəbiyyatımız, mədəniyyətimiz bu bədnam basqılara, mənəvi repressiyalara, assimilyasiya hücumlarına qarşı həmişə etiraz səsini qaldırdı. Bu yerdə dahi Səməd Vurğunun "Yandırılan kitablar" şeirindən misralar yada düşür:

Sənmi türkə xər deyirsən, mənim şeir dilimə?!
Qoca Şərqin şöhrətidir Füzulinin qəzəli!
Dahilərə süd vermişdir Azərbaycan gözəli!

Tarix boyu Azərbaycanın dahi oğulları Azərbaycan dilinin keşiyində, müdafiəsində mətanətlə dayandı, onun təəssü-

bünü çəkdi, şərəfini, şöhrətini, halal haqqını, hüquqlarını hünərlə qorudu. Bu baxımdan, Azərbaycan dilinə Heydər Əliyev sevgisi bütün dövrlərə, bütün zamanlara örnək ola bilər.

Azərbaycan dilinə yüz illərin, min illərin Qorqud və Füzulilər sevgisini, qayğısını bu gün prezident Heydər Əliyev şərəflə, müdrik uzaqgörənliklə davam və inkişaf etdirir.

"Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası prezidentinin 18 iyun 2001-ci il tarixli fərmanı Azərbaycan dilinə dövlət qayğısının, Heydər Əliyev sevgisinin bariz nümunəsi, daha bir təsdiqidir. Bu doğma ana dilinin qədim tarixinə, çətin və şərəfli inkişaf yollarına, misilsiz uğurlarına dərindən bələd olan dahi dövlət xadiminin bütün dünya azərbaycanlılarına örnək, nümunə ola biləcək dəyişməz mövqeyidir.

Bütün bunlara, çoxsaylı uğurlarımıza görədir ki, dövlətimiz getdikcə öz böyük tarixinə, güclü mədəniyyətinə, doğma dilinə daha çox qovuşur, bu özünəqayıdışla ruhən daha da ucalır, mətinləşir, məğlubedilməz olur. "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası prezidentinin 18 iyun 2001-ci il tarixli fərmanında deyilir: "… Dilimiz xalqın keçdiyi bütün tarixi mərhələlərdə onunla birgə olmuş, onun taleyini yaşamış, üzləşdiyi problemlərlə qarşılaşmışdır. O, xalqın ən ağır günlərində belə onun milli mənliyini, xoşbəxt gələcəyə olan inamını qoruyub möhkəmləndirmişdir. İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalan bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir. Bu, onun müqəddəs vətəndaşlıq borcudur".

Bu vətəndaşlıq borcunun necə, hansı miqyasda həyata keçirilməsinin ən gözəl nümunəsini möhtərəm prezidentimiz Heydər Əliyev göstərib və bu gün də göstərməkdədir.

* * *

On yaşı tamam olan Yeni Azərbaycan Partiyası Heydər Əliyev kimi banisi, dahi öndəri ilə güclüdür, qalib və qüdrətlidir. Heydər Əliyevin böyük Azərbaycan sevgisi ilə, saf, sağlam tarixi köklərə əsaslanan Azərbaycançılıq ideyaları ilə silahlanan Yeni Azərbaycan Partiyası milli-mənəvi dəyərlərimizə, tarix və mədəniyyətimizə, xüsusilə, dilimizə elmi-praktik münasibəti ilə də digər kiçik partiyalardan seçilir, yüksəkdə durur. Respublikamızın dövlət dilinə, doğma Azərbaycan dilinə həqiqi övlad, əsl vətəndaş münasibəti, dilimizin tarixi və çağdaş maraqlarını layiqincə qorumaq, onu daim inkişaf etdirmək xətti Yeni Azərbaycan Partiyasının strateji hədəflərindən biridir. Hamıya çox yaxşı məlumdur ki, bu strateji xəttin istiqamətvericisi, elmi-nəzəri və praktik nizamlayıcısı dahi dövlət xadimi Heydər Əliyevdir. Yeni əlifbaya – latın qrafikalı yeni Azərbaycan əlifbasına keçidi özünəməxsus elmi-nəzəri təmkinlə, cəsarətli prinsipiallıqla reallaşdıran, dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi işi ilə bağlı xüsusi fərman imzalayan və bunu daim nəzarətdə saxlayan Heydər Əliyev on illər boyu Azərbaycan dilinin ən böyük müdafiəçisi olub.

Bu məqamda qısaca da olsa tarixi ekskursa ehtiyac var.

Azərbaycan KP MK-nın 1969-cu il iyul plenumunda respublikanın rəhbəri seçilən Heydər Əliyevin gündəlik fəaliyyətində, ümummilli siyasi xəttində Azərbaycan dilinə qayğı mühüm yer tuturdu. Heydər Əliyev dünyaya gəldiyi torpağa, ana dilinə, xalq danışıq dilinin incəliklərinə, özünəməxsus mülayimliyinə, səmimiyyətinə, eyni zamanda sərt məntiqinə məhəbbətlə böyümüş bir azərbaycanlı kimi həmin dilin daşıdığı psixoloji gücü, mənəvi enerjini mənimsəmişdi. Rus dilini nə qədər gözəl öyrənib, həmin dildə ölkənin tanınmış ictimai-siyasi xadimlərinin belə qibtə

etdikləri bir səviyyədə danışsa, nitqlər söyləsə, məruzələr etsə də doğma Azərbaycan dilinin cazibəsindən heç zaman qopmamışdı.

1970-ci ildə Azərbaycan Dövlət Universitetinin 50 illiyi münasibətilə keçirilən təntənəli toplantıda Azərbaycan dilində çıxış edən Heydər Əliyev incə siyasətlə respublikanın elmi, ədəbi ictimaiyyətinin, bütöv ziyalı ordusunun diqqətini doğma ana dilinə yönəltdi. "Kitabi-Dədə Qorqud" dastanlarını ittiham edən, "kimin arvadı rusdur, onun işi dürüstdür" tipli qondarma, gülünc zərb-məsəllər yaratmaqla ruslaşdırma siyasətinə sosial dayaqlar axtaran əvvəlki manqurt rəhbərlərdən fərqli olaraq, Heydər Əliyev ümumrespublika tədbirlərində azərbaycanca danışmaqdan çəkinmədi, cəsarətli, qeyrətli şəxsi nümunəsi ilə milyonlarla ürəkdə öləziyən Azərbaycan dili sevgisini, milli ruh çırağını yenidən yandırdı.

70-ci illərdən etibarən Azərbaycanın müxtəlif ali məktəblərində "Ana dili və ədəbiyyat" ixtisası üzrə tələbə qəbulunun həcmi artırıldı; qəbulda ana dilində yazılı imtahan ən müxtəlif ixtisaslar üzrə məcburi hesab edildi. Təəssüf ki, o vaxt Azərbaycan rəhbərinin "millətçi mövqeyi barədə" Moskvaya "donos" yazan ziyalılar da vardı. Bəzi elm, ədəbiyyat və mədəniyyət xadimləri isə hadisələrin axarından qıraqda, gözləmə mövqeyində dayanmağı üstün tuturdular. Məhz buna görə, 70-ci illərin ikinci yarısında Azərbaycan SSR-in Konstitusiyası (Əsas Qanunu) hazırlanarkən respublika rəhbəri Heydər Əliyev özü yaradıcı ittifaqlara xəbər göndərməli olmuşdu ki, Konstitusiyaya Azərbaycan SSR-də dövlət dilinin Azərbaycan dili olması barədə xüsusi maddə salınmasını tələb etsinlər. Yalnız bu xəbər-işarədən sonra yaradıcılıq ittifaqları hərəkətə gəlmiş və Moskvanın, imperiya strukturlarının ciddi, ardıcıl müqavimətini qırmaq mümkün olmuşdur. "Pərdə arxasında" gedən, cəmiyyətdən gizlədilən bu mübarizədə o vaxtkı SSRİ rəhbərliyi dəfələrlə

Heydər Əliyevi öz sərt mövqeyindən çəkindirməyə çalışsa da, nəticədə Heydər Əliyev iradəsi, Heydər Əliyev cəsarəti qalib gəldi: Konstitusiyada 73-cü maddə – "Azərbaycan SSR-in dövlət dili Azərbaycan dilidir" maddəsi təsdiq olundu, tarixi fakta çevrildi. Təxminən 20 il sonra – 1995-ci il oktyabrın 31-də Azərbaycan Elmlər Akademiyasında keçirilən ümumrespublika müzakirəsində prezident Heydər Əliyev o gərgin mübarizəni və qələbəni bir daha yada saldı.

70-ci illər Azərbaycan dili və milli dilçilik elmimizlə bağlı itirilənlərin bərpası, səhvlərin, saxtakarlıqların düzəlişi dövrü oldu. Milli-mənəvi mühitin, elmi, ədəbi, mədəni iqlimin dərin zəkalı, ideoloq, analitik qüdrəti ilə, Heydər Əliyevə məxsus müdrik uzaqgörənliklə proqnozlaşdırılması, əsas inkişaf meyillərinin müəyyənləşdirilib səfərbər edilməsi ciddi yüksəlişə təkan verdi. Əslində, 30-cu illərdə Azərbaycanda qadağan edilən, arzu olunmaz "qara sahə" adlandırılan türkologiya 70-ci illərdə əsaslı inkişaf dövrünə qədəm qoydu. Əsrin əvvəllərində olduğu kimi Bakı yenidən dünya türkologiya elminin mərkəzinə çevrildi. Heydər Əliyev bunu sonralar yüksək qiymətləndirərək deyəcəkdi: "Azərbaycanda türkologiya da çox inkişaf edibdir… Təsadüfi deyildir ki, Sovetlər İttifaqında buraxılan yeganə "Türkologiya" jurnalı Azərbaycanda nəşr edilirdi".

70-ci illərin sonlarında Heydər Əliyevin təşəbbüsü ilə dördcildlik "Müasir Azərbaycan dili" dərsliyinə Dövlət mükafatı verilməsi Azərbaycan dilinə böyük qayğının, əsl rəhbər diqqətinin, övlad məhəbbətinin nəticəsi idi. Bu yolda qazanılan uğurlar həm dövlət səviyyəsində qiymətləndirilir, həm də Azərbaycan dilçilik elminin bütün potensial imkanları səfərbər edilir, daha sanballı, fundamental tədqiqatlara istiqamətləndirilir, ruhlandırılırdı. Heydər Əliyevin dil siyasəti 70-ci illərin sonlarına doğru Azərbaycanda milli dil təfəkkürünün yüksəlməsinə o qədər böyük təsir göstərdi ki,

bunu ancaq XVI əsrin əvvəllərindəki – Şah İsmayıl Xətainin hakimiyyəti dövründəki, yaxud XX əsrin əvvəllərindəki vəziyyətlə müqayisə etmək mümkün idi.

Heydər Əliyevin Azərbaycana, onun sosial-mədəni, elmi intellektual, iqtisadi, siyasi inkişafına, milli-mənəvi intibahına həsr olunan, xalqımızın tarixində bütöv mərhələ təşkil edən fenomenal fəaliyyətində milli dil siyasəti həmişə həlledici mövqe, aparıcı yer tutur. Təkcə yaşanılan dövrü, müasir mərhələni yox, Azərbaycan ədəbiyyat və mədəniyyətinin bütöv milli mühitini əhatə edən dil siyasəti xalqın tarixi uğurlarına əsaslanaraq, söykənərək, böyük perspektivlərə istiqamətlənib. Müəyyən qədər unudulan, tarixin gizlinində xalqdan ayrı salınan milli ədəbiyyat və mədəniyyət nəhənglərinin üzə çıxarılması, bu yolla Azərbaycan dilinin böyük ədəbi yaddaşının, qanunauyğun bədii şüur hərəkətinin bərpası, nəticədə dilin daxili enerjisinin min illər boyu yığılan etnogenetik, ruhi-mənəvi potensialının oyadılması, hərəkətə gətirilməsi Heydər Əliyevin misilsiz xidmətlərindən biridir. Bakıda, respublikanın digər şəhərlərində xalqın ədəbiyyat və mədəniyyət xadimlərinə ucaldılan çoxsaylı heykəllər, həm də Azərbaycan dilinin halal haqqını, uca şərəfini təsdiqləyən abidələr idi. Yubileylər vasitəsilə xalqa yenidən bütün böyüklüyü, əzəməti ilə, olduğu kimi qaytarılan İmadəddin Nəsimilər, Molla Pənah Vaqiflər, Həsən bəy Zərdabilər… Onların heykəlləri Azərbaycan dilinin tarixi uğurlarını, sənət zirvələrini milli mühitin daimi, əbədi enerji mənbəyinə çevirir, ümummilli intibahda "gizli" iş görürdü. Beləliklə, Heydər Əliyevin Azərbaycan dili siyasəti çox geniş mənası, elmi-konseptual əsasları ilə, əslində Azərbaycanı xilasetmə yolunun mühüm tərkib hissəsi idi.

"Azadlıq, istiqlaliyyət hər bir xalqın milli sərvətidir" deyən Azərbaycan prezidenti Heydər Əliyev bütün varlığı ilə azadlığımızın, dövlət müstəqilliyimizin əbədi və dönməz

xarakter almasına çalışır, bu müqəddəs yolda tarixi uğurlar qazanır. Qədim tarixli gənc dövlətimizin, azad, müstəqil Azərbaycan Respublikasının ən güclü partiyası olan Yeni Azərbaycan Partiyasının on illik yubileyini bayram etdiyimiz bu günlərdə tam cəsarətlə deyə bilərik ki, tarixi şəxsiyyətlər yaradır, istiqamətləndirir. Bu baxımdan, son on illik dövr – sosial-siyasi fikrimizin YAP dövrü Heydər Əliyev müdrikliyindən güc almış, onun uzaqgörən strateji ideyaları ilə silahlanmış, bütövlükdə Heydər Əliyev qələmi ilə yazılmışdır.

"Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır. Tariximiz bizim üçün dərs olmalıdır". Dahi dövlət xadimi Heydər Əliyev bu müdrik sözləri ilə xalqımızı, müasir cəmiyyətimizi ayıq-sayıq olmağa, dünən, bu gün və sabah miqyasında düşünməyə, keçmişin ibrət dərslərini tam öyrənməklə gələcəyin qapılarını açmağa, böyük, dönməz, əbədi intibah, inkişaf yollarına çıxmağa çağırır. O, bütün görüşlərdə, toplantılarda, eləcə də xarici səfərlərdə Azərbaycanın dövlət müstəqilliyinin əbədi və dönməz olduğunu vurğulayır, diqqəti bu əsas, taleyüklü məsələyə cəlb edir, bunu Azərbaycan varlığının, Azərbaycan perspektivlərinin ən mühüm amili, dayaq nöqtəsi, xilas yolu kimi qiymətləndirir, milli-mənəvi dəyərlərimizin əsas xəzinəsi, canlı daşıyıcısı olan Azərbaycan dilinin bu baxımdan misilsiz örnək olduğunu, qlobal mənəvi iş gördüyünü aşkarlayır. Azərbaycançılıq istiqamətində bütövləşən, konseptual milli-mənəvi xilas yollarını ehtiva edən Heydər Əliyev ideyaları bütünlükdə Azərbaycanın azadlığına, milli istiqlalına, dövlət müstəqilliyinə və bu azadlığın, istiqlalın, müstəqilliyin, suverenliyin əbədi və dönməzliyinə əsaslanır. Heydər Əliyev ideyalarının əsas, bütöv, son məqsədi, məramı Azərbaycanın əbədi azadlığıdır.

* * *

Artıq on ildir ki, Yeni Azərbaycan Partiyası – Heydər Əliyev partiyası fəaliyyətdədir. On ildən artıqdır ki, Azərbaycan müstəqildir; keçid dövrünün bütün çətinliklərinə, ağrı-acılarına, müharibənin vurduğu sarsıdıcı yaralara, işğal və qaçqınlıq faciələrinə baxmayaraq, xalqımız müstəqillik, azadlıq yolları ilə əzmlə, inadla, inamla irəliləyir. Müstəqilliyimizin təhlükə altında olduğu vaxtda – 1993-cü ilin iyununda xalqın çağırışı ilə Heydər Əliyevin hakimiyyətə xilaskar qayıdışı əslində əsl müstəqillik dövrünün başlanğıcı oldu. "Ömrümün qalan hissəsini də xalqıma qurban verirəm" deyib Azərbaycanın xilası, əbədi qurtuluşu naminə mübarizə meydanına atılan Heydər Əliyev tarixdə misli görünməyən fədakarlıq, siyasi müdriklik nümunəsi göstərdi. Bir daha vurğulamaq istəyirəm ki, 18 oktyabrda bünövrəsi qoyulan, 15 iyunla məhvolmadan xilas edilən Milli Qurtuluş yolu günbəgün, aybaay, ilbəil möhkəmləndi, davam və inkişaf etdirildi. 1994-cü ilin mayında atəşkəsə nail olunması, həmin ilin sentyabrında dünyanın aparıcı neft şirkətləri ilə böyük beynəlxalq iqtisadi sazişin – "Əsrin müqaviləsi"nin imzalanması, milli ordunun yenidən qumlması, ölkə daxilində dağıdıcı anarxiyaya, hərc-mərcliyə son qoyulması, sosial-siyasi, iqtisadi sabitliyin bərqərar edilməsi, xüsusilə, iqtisadi dirçəlişin başlanması, Lissabon sammitində 53 aparıcı dövlətin dəstəyinə nail olunması, böyük İpək yolunun bərpası istiqamətində həlledici addımlar atılması, lap bu yaxınlarda dünya miqyaslı nəhəng bir layihənin – Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru xəttinin təməl daşının qoyulması, qlobal tikinti işlərinə start verilməsi, praktik başlanılması – bütün bunlar Milli Qurtuluş günü ilə başlayan tarixi uğurların bir hissəsidir. Bəli, indi tam cəsarətlə deyə bilərik ki, Heydər Əliyevin xilaskarlıq missiyası, böyük perspektivlərə hesablanan uzaqgörən, müdrik siyasəti nəticəsində müstəqilliyimiz qorundu, Milli Qurtuluş yolumuz davam etdi, əbədi və dönməz xarakter aldı. Onu

da məmnuniyyətlə vurğulamaq, səmimiyyətlə bildirmək istəyirəm ki, azad, müstəqil Azərbaycan dövlətini yeni XXI əsrə prezident Heydər Əliyev apardı. XXI əsrin ilk günlərindən başlayan bu yolun öndəri, dahi yol göstərəni də Heydər Əliyevdir. – Bu yolun böyük uğurlara, əbədi xoşbəxtliyə qovuşacağına inamrıq. Buna Heydər Əliyevi özünə prezident seçən Azərbaycan xalqı, dünyanın 50 milyonluq bütün azərbaycanlıları inanır. Buna 10 illiyini bayram edən, zamanın sınaqlarından şərəflə çıxan Yeni Azərbaycan Partiyası bütün varlığı ilə inanır, bu inam və ümidlə, qalib və qüdrətli Heydər Əliyev ideyaları ilə silahlanaraq, dahi öndərin – Heydər Əliyevin ətrafında sıx birləşərək, səfərbər olaraq azad, müstəqil, daha xoşbəxt Azərbaycan naminə mübarizə aparır. İnanırıq ki, on yaşlı Yeni Azərbaycan Partiyası əbədi qalib partiya olacaq.

1969-cu ilin yayından Azərbaycana rəhbərlik edən, 70-ci illərdə respublikamızı sözün həqiqi mənasında bütöv inkişaf, intibah yollarına çıxaran Heydər Əliyev 1993-cü ilin faciəli, böhranlı günlərində xilaskar qayıdışı ilə Azərbaycanı yenidən müdrik uzaqgörənlik, dahiyanə bir ağılla, siyasi diplomatik ustalıqla xilas etdi. Ötən il on illik yubileyini təntənə ilə qeyd edən azad, müstəqil Azərbaycan Respublikası möhtərəm prezidentimizin, bütün dünya azərbaycanlılarının yeganə ümummilli lideri Heydər Əliyevin şah əsəridir desək, yanılmarıq. O, Azərbaycanı yenidən yaradan, quran, yaxın-uzaq, gizli-aşkar imperiya maraqlarına cəsarətlə, mərdanəliklə sinə gərərək sosial-siyasi sabitlik, iqtisadi dirçəliş, tarixi intibah yollarına çıxaran dövlət xadimidir. Və mən bu sözləri yaza-yaza Heydər Əliyevin Azərbaycan xalqına bəxş etdiyi ən böyük töhfə, ən layiqli davamçı haqqında da düşünürəm. Bu, İlham Əliyevdir.

Heydər Əliyev evində, ocağında dünyaya gələn, onun həyat, siyasət, diplomatiya universitetlərində dərs alıb

yetişən, kamilləşən İlham Əliyev müasir Azərbaycan siyasi reallığının ən perspektivli, ümummilli sevgi, ümid, inam qazanan ən nüfuzlu gənclər lideridir. "Gənclər lideri" ifadəsi, əslində, onun geniş miqyaslı fəaliyyət dairəsini tam dolğunluğu ilə əks etdirmir; o, artıq dünyanın ən məşhur siyasətçiləri, siyasi-analitik təfəkkür mərkəzləri tərəfindən qəbul olunan, etiraf edilən, layiqincə qiymətləndirilən, dünya diplomatiya meydanında özünəməxsus yeri, mövqeyi olan nüfuz sahibidir. O, istedadı ilə intellekti, elmi-nəzəri dünyagörüşü ilə praktik-praqmatik fəaliyyəti bütöv vəhdət yaradan fenomenal siyasətçi, ləyaqətli dövlət xadimidir.

İnsanın böyüklüyü, dühası hər şeydən əvvəl onun mənsub olduğu xalqa xidmətinin miqyası, əhatə dairəsi, praktik nəticələri, tarixi perspektivləri ilə ölçülür. Xalqının, millətinin tarixi yolunda müstəsna rol oynayan, taleyüklü vəzifələr, epoxal missiyalar həyata keçirən, beləliklə, ümumxalq, ümummilli dayağa, xilaskara dönən insanlar dünyanın ən böyük, əbədi xoşbəxtləridirlər. Bu baxımdan, "yola saldığımız və hazırda yaşadığımız əsrlərin ən xoşbəxti kimdir?" sualına tam cəsarətlə və məsuliyyətlə belə cavab verə bilərəm: HEYDƏR ƏLİYEV!

O, Azərbaycan tarixinin tək-tək dahilərinə, böyük dövlət xadimlərinə nəsib olan qlobal işlər görmüş, doğma Azərbaycan xalqı, Azərbaycan milli mənəviyyatı, Azərbaycan dili naminə misilsiz titanik fəaliyyət göstərmişdir. 70-ci illərdə Azərbaycanda reallaşan geniş miqyaslı sosial-mədəni, iqtisadi, tikinti-quruculuq işləri, bütöv milli-mənəvi oyanış, dirçəliş, xalqın tarixi potensial imkanlarının, yaddaş enerjisinin müdrik uzaqgörənliklə səfərbər edilərək ümumi inkişaf, intibah yoluna istiqamətləndirilməsi – dərin sosial-psixoloji analitik təhlilə, ciddi elmi tədqiqata ehtiyacı olan bu fenomenal fəaliyyət Heydər Əliyevə məxsusdur. Əvvəlki yazılarımda qeyd etdiyim bir fikri bir daha vurğulamaq istəyirəm: 1969-cu

ilin yayında Azərbaycanda hakimiyyətə gələn Heydər Əliyev tariximizə taleyin xoş töhfəsi, əvəzolunmaz qisməti idi, hətta deyərdim ki, xalqı daxilən, ruhən səfərbər edib böyük işlərə, böyük inkişafa istiqamətləndirmək üçün Tanrı göndərişi idi.

Azərbaycan xalqı xoşbəxtdir ki, onun Heydər Əliyev kimi dahi dövlət xadimi, müdrik prezidenti var. Yeni Azərbaycan Partiyası xoşbəxtdir ki, onun Heydər Əliyev kimi banisi, yaradıcısı, sədri, öndəri var. Bu hər bir YAP üzvünün qəlbini qürur hissi ilə döyündürür, bizi daim mətin, mübariz, səfərbər olmağa səsləyir. Biz dahi xilaskarımız, müdrik prezidentimiz Heydər Əliyevdən doğma xalqa, vətənə, Azərbaycana yorulmadan xidmət etməyi, milli-mənəvi dəyərlərimizin keşiyində dayanmağı, müqəddəs sərvətimiz olan Azərbaycan dilini sevməyi, bu dildə danışmaqdan qürur duymağı öyrənməliyik. Biz Heydər Əliyevdən əsl Azərbaycançılığı, vətənçiliyi, milliliklə dünyəviliyin ahəngdar vəhdətini, bir sözlə Heydər Əliyevçiliyi öyrənməliyik. Mən bu yolda xalqımıza, dünyada yaşayan bütün azərbaycanlılara, eləcə də bu günlərdə on illiyini təntənə ilə bayram etdiyimiz Yeni Azərbaycan Partiyasına böyük uğurlar, yeni-yeni qələbələr arzulayıram.

"Azərbaycan" qəzeti,
27 oktyabr 2002-ci il

ƏDƏBİ VƏ BƏDİİ DİL MƏSƏLƏLƏRİ

İNSANLAR, GÖRÜŞLƏR…

“Gənclik” nəşriyyatı tərəfindən bu yaxınlarda buraxılmış “İnsanlar, görüşlər…” kitabı gənc yazıçı Yasif Nəsirlinin ilk iri həcmli əsəridir. Kitabda sənədli hekayələr və xatirələr toplanmışdır.

Məlumdur ki, xatirə yazmaq yazıçıdan böyük müşahidə qabiliyyəti, hadisələri oxucuya artırıb əksiltmədən və eyni zamanda bədii şəkildə çatdırmağı tələb edir. Bu baxımdan “İnsanlar, görüşlər…” kitabındakı xatirələrin əksəriyyəti yaxşı təsir bağışlayır.

“Şults atasını axtarır” adlı xatirədə yazıçı maraqla bir hadisədən söhbət açır. Xatirənin lirik qəhrəmanı – müəllif Leninqrad şəhərində olduğu müddətdə Pisqaryev qəbiristanlığına gedir. Bu qəbiristanlıq 26 hektarlıq bir sahəni təşkil edir. Burada 470 min qəhrəman əbədi yuxuya dalmışdır. Müəllif qəbiristanlıq səhnəsini təsvir edərkən lirik ricətə çıxır: “Sanki nakam ölmüş adamların nəfəsi torpağı qızdırmış, yağan qarı əridib yox etmişdir” – deyir. O, qəbirləri ziyarət edərkən bir almanla rastlaşır. Alman da fikirli-fikirli qəbiristanlığı dolaşır. Onun bu görkəmi müəllifi istər-istəməz maraqlandırır. Sonra onlar mehmanxanada. təsadüfən tanış olurlar. Məlum olur ki, Şults Almaniya Federativ Respublikasından gəlmişdir. O, Böyük Vətən müharibəsi zamanı Leninqrad ətrafında həlak olmuş atasının qəbrindən bir nişanə axtarır. Müəllif xatirəni maraqlı bir bədii sual-sonluqla bitirir: “Mənə hələ də məlum deyil ki, Şults faşizmin qurbanı olan atasının məzarını tapdı, ya yox?”.

“Mənim Petrom” adlı xatirədə isə müəllif sevimli şairimiz S.Vurğunun yaxın dostu, Moldaviya şairi Petr Kruçenyukla tanışlığından danışır. O qeyd edir ki, 40-dan

artıq şeir kitabının müəllifi olan bu şair Azərbaycanda bir neçə dəfə olmuş, onun qonaqsevər adamlarına, gözəl təbiət mənzərələrinə vurulmuşdur. P.Kruçenyuk S.Vurğunla olan görüşlərində şairin onu "Mənim Petrom" deyə çağırmasından, Göy-Göldə birlikdə gecələmələrindən həvəslə danışır.

Kitabdakı "Nazim Hikmət Vətənə qayıdır", "Kosmonavt özü haqqında" kimi xatirələr də maraqlıdır.

Sənədli hekayələr yazmaq bizə elə gəlir ki, daha çətindir. Çünki burada yazıçı bir sıra çətinliklərlə üzləşir. Hadisə və faktların təhrif edilmədən, eyni zamanda bədii şəkildə çatdırılması müəllifdən ciddi səy, xüsusi bacarıq və istedad tələb edir. Bu cəhətdən Yasif Nəsirlinin sənədli hekayələri müvəffəqiyyətlidir.

"Qayğı" hekayəsi də maraqlı bir süjet xəttinə malikdir. Qəbul imtahanlarına gecikmiş bir orta məktəb məzunu xalq şairi Səməd Vurğuna müraciət edir. Şair onun istedadını yoxlamaq üçün bir neçə sual verir. Aldığı cavablarla kifayətlənib, onun qəbul imtahanlarına buraxılmasını universitetin rektorluğundan Ali Sovetin deputatı kimi xahiş edir. Sonra bu oğlan universitetə qəbul olunur. Təhsildə böyük müvəffəqiyyətlər qazanır, alim olur.

Hekayədə böyük şairimizin insanpərvərliyi və gənc nəslə göstərdiyi atalıq qayğısı bədii şəkildə təsvir edilmişdir.

Lakin bəzi hekayələrdə sözçülüyə, dil xətalarına yol verilmişdir. Bu kiçik qüsurlar isə kitabın ümumi dəyərinə bir o qədər də xələl gətirmir. Biz əminik ki, Yasif Nəsirlinin bu kitabı geniş və tələbkar oxucu kütləsinin rəğbətini qazanacaqdır.

Məqalə "Gənc müəllim" qəzetində
"Tələbələrimiz yeni kitablar haqqında"
rubrikası ilə dərc olunmuşdur.
11 dekabr 1969-cu il

FƏRDİ-ÜSLUBİ NEOLOGİZMLƏR

Başqa dillərdə olduğu kimi, Azərbaycan dilində də linqvistik neologizmlərlə yanaşı, okkazionalizmlərə də təsadüf edilir. Bunların mühüm bir qismi həqiqətən ancaq yazıçı təxəyyülünün məhsulu olub, bu və ya digər müəllifin bədii yaradıcılığına xasdır. Hətta belə neologizmlərin müəyyən qismi məhz onu yaradan yazıçının əsərlərində də süni görünür və təkrar işlədilmə lüzumu qazana bilmir. Okkazionalizmlərin bəziləri isə ümumdil səciyyəli neologizmlərdən prinsipcə fərqlənmir və ədəbi dilə keçmək imkanına malik olur.

Okkazional neologizmlər bir qayda olaraq, dilçilik ədəbiyyatında yazıçıların fərdi üslubuna məxsus sözlər kimi qiymətləndirilir. Okkazional neologizmlərlə linqvistik neologizmləri fərqləndirən əsas cəhət birincilərin ədəbi. dilə daxil olmaması xüsusiyyəti ilə izah edilir. Lakin okkazionalizmlərin hər hansı yazıçının özünün lüğət tərkibinə daxil olması fikrini heç kəs inkar etmir. Okkazional neologizmlər fərdi yaradıcılıq məhsulu olmaqla, nitq faktı kimi nəzərə alınır. Okkazional söz sırf nitq hadisəsi kimi dilə məxsus deyil: o lüğətdən götürülmür, yaradılır, ondan istifadənin hər konkret şəraitində yenidən yaradılır. Təsadüfi deyil ki, okkazionalizm tez-tez fərdi yaradıcılıq məhsulu kimi qiymətləndirilir. Bəzi hallarda okkazionalizmlər bu və ua digər hadisəni ifadə etmək üçün düzəldilən üslubi səciyyəli sözlər də adlandırılır.

Azərbaycan dilçiliyində də linqvistik neologizmlərlə okkazionalizmlərin əsaslı fərqi bu cəhətlə bağlı izah edilir. Okkazionalizmlər, bir qayda olaraq üslubi neologizmlər hesab edilir və onların bədii təsvir vasitəsi kimi işlənməsi fikri təqdir olunur.

Ümumiyyətlə, götürdükdə isə istər linqvistik, istərsə də

okkazional neologizmlərin yaranmasında dil qanunlarından kənar heç nə yoxdur. Yəni bu sözlər dilin qanunauyğunluqlarına müvafiq olaraq ya sözdüzəldici şəkilçilər vasitəsilə, ya da analitik üsulla əmələ gətirilir. Başlıca fərq ondan ibarətdir ki, linqvistik neologizmlərin ümumxalq dilinə daxil olma imkanları daha çoxdur. Fərdi neologizmlərdə isə bu imkan aşağı səviyyədədir. Hər halda, istər linqvistik və istərsə də okkazional neologizmlər dildə yeni yaranan vahidlər kimi maraqlıdır. N.M.Şanski rus dili üçün yeni olan sözlərlə əlaqədar yazır: "Rus dili leksikasında zühur edən hər bir neologizm rus dili sözdüzəltmə, rus dili semantik sistemi və qrammatik quruluşunun qayda və qanunlarından kənar yeni söz hesab edilə bilməz".

Azərbaycan dilində də ədəbi dilin inkişafı prosesində linqvistik neologizmlərlə yanaşı, okkazionalizmlər də meydana gəlmişdir. Bunların mühüm bir qismi həqiqətən ancaq yazıçı üslubunun məhsulu olduğuna görə bu və ya digər müəllifin bədii yaradıcılığına xasdır. Hətta belə neologizmlərin müəyyən qismi məhz onu yaradan yazıçının əsərlərində də süni görünür və təkrar işlədilmə lüzumu qazana bilmir. Okkazionalizmlərin bəziləri isə ümumdil səciyyəli neologizmlərdən prinsipcə fərqlənmir və ədəbi dilə keçmək imkanına malik olur. (S.Cəfərov. Müasir Azərbaycan dili. "Maarif", Bakı, 1970, səh.71-72).

Həqiqətən də Azərbaycan yazıçılarının düzəltdiyi bir çox neologizmlər üslubi məqsədlə yanaşı, dildə məna təravəti ilə diqqəti cəlb edir və lüğət tərkibinin zənginləşməsinə təsir göstərir. Ümumdil neologizmləri bilavasitə alınma sözü əvəz edir, tam hüquqlu vahid kimi, ədəbi dildə onun yerində işlədilir. Okkazional neologizmlər isə ədəbi dildən alınma sözü sıxışdırıb çıxara bilmir, əksinə, həmin sözlə birlikdə dilin leksik-semantik potensialını genişləndirən sinonim cərgə əmələ gətirir. Əlbəttə, ümumdil neologizmləri kimi, okkazio-

nalizmlər də dildə müəyyən leksik-semantik normalara müvafiq yaranır və buna görə də ədəbi dilə keçə bilmək imkanına malik olur. Ümumi halda, okkazional neologizmlərin hamısını ədəbi dilə daxil olmaq hüququ baxımından eyniləşdirmək mümkün deyildir. Belə ki, okkazional sözlərin bir qismi həqiqətən uydurma təsiri bağışlayır. Buna görə də yazıçı dilində özünü göstərən okkazional neologizmləri aşağıdakı kimi qruplaşdırmaq olar:

Ümumxalq səciyyəsi qazanmağa meyilli olan okkazionalizmlər. Okkazional neologizmlərin bu tipinə aşağıdakıları misal göstərmək olar:

Əyləclənmək. Əyləclənmək sözü ədəbi dildə hələlik ümumdil neologizm kimi işlədilən və lüğətlərdə qeydə alınmış əyləc sözü əsasında düzəlmişdir. Bu sözlə yazıçı dilində *tormozlanmaq* sözü əvəz edilir:

Bütün bunlara vaxtında əməl edilməyəndə yedəklənən maşın dartınırdı, ə y l ə c l ə n i r d i və til yoxuşda yedəkçini möhkəm dara salırdı (B.Bayramov);

Ədəbi dildə *əyləc* sözünün ümumişlək leksik vahid kimi işlədiləcəyi halda, *əyləclənmək* sözünün də ədəbi dilə daxil olma imkanları genişlənəcəkdir.

Asmalıq. Asmalıq fars mənşəli zivə sözünü əvəz etmək məqsədilə yazıçı dilində işlədilir. Qeyd etməliyik ki, zivə sözünün özü də dialekt səciyyəsi daşıyır, ümumxalq xarakterli vahid kimi hamı tərəfindən işlədilmir. Azərbaycan dilinin leksik-semantik tələbləri ilə tam şəkildə uyğun gələn *asmalıq* sözü ifadə və anlayış cəhətdən uğurlu hesab edilə bilər:

A s m a l ı q d a n quru dəyişək gətirib kağızların arasına atdı (B.Bayramov).

Asmalıq sözü 1940-cı ildə nəşr edilmiş "Azərbaycan dilinin orfoqrafiya lüğəti"ndə, habelə 1951 və 1962-ci illərdə nəşr edilmiş azərbaycanca-rusca lüğətlərdə qeydə alınsa da *paltar sərilən ip* mənasında deyil, qaşıq-çəngəl qoymaq üçün

ipdən toxunmuş əşya, habelə qurudulmuş meyvə mənalarında verilmişdir. *Paltarasılan ip* mənasında *asmalıq* sözü yenidir. Hələlik bədii ədəbiyyatda işlədilən bu sözün ədəbi dilə daxil olmaq imkanı genişdir.

İşıqlı. Mövcud lüğətlərdə qeydə alınmış *işıqlı* sözü "işığı olan" anlayışını bildirir. Yazıçı qələminin məhsulu kimi meydana gələn işıqlı sözü isə ərəb mənşəli ziyalı sözünü əvəz etmək məqsədi daşıyır: *Əri fəhlə fakültəsini bitirmişdi. Elmli, i ş ı q l ı hesab olunurdu* (B.Bayramov); *Özü də elmli, i ş ı q l ı adam olmuşdu* (M.İbrahimov); *…özünü gəldi-gəlmədi qabağa dürtməyi, gözəsoxmağı sevən bəzi "ziyalılardan " qat-qat mədəni, işıqlı, mənəviyyatlı adamlardır* (Anar) və s.

İstiölçən. Yazıçı üslubunun məhsulu olan bu söz ədəbi dildə işlədilən termometr sözünün əvəz edilməsi məqsədilə düzəldilmişdir: *Evə gəldim. İ s t i ö l ç ə n ə baxdım* (R.Rza).

Təqdirəlayiq haldır ki, bu söz *termometr* sözünün əvəzedicisi kimi "Azərbaycan dilinin izahlı lüğəti"nə (III c, 1983) daxil edilmişdir.

Rus dilindən kalka yolu ilə alınıb işlənən *radioqəbuledici* (radiopriyomnik) sözünün əvəzinə, bədii ədəbiyyatda "radiotutan" sözünün də işlədilməsinə rast gəlinir: *Gülsənəm arvad bucaqdakı nikel çarpayını da, r a d i o t u t a n ı da builki qazancı hesabına almışdı* (M.Hüseyn); *Axı o, radiotexnika dərnəyinə getmişdi, r a d i o t u t a n l a r d a n başı çıxırdı* (M.İbrahimov).

Bədii əsərlərin leksik tərkibi səviyyəsi ilə məhdudlaşan okkazionalizmlər. Bədii ədəbiyyatda bəzən ifrat yeni sözdüzəltmə meyillərini də müşahidə etmək olur. Yeni söz düzəltmək təşəbbüsü altında bəzən elə leksik vahidlər meydana gətirilir ki, onlar hətta əvvəldən mövcud olan qarşılığının mənasını ya tam vermir, ya da onu təhrif edir. Bəzi hallarda paralel okkazionalizmlər düzəldilir. Okkazionalizmlərin müəyyən bir qismi isə ədəbi dildəki formalara bənzədilərək

analitik yolla düzəldilir. Lakin bir çox hallarda bu tipli okkazionalizmlər də ədəbi dilin tələbləri baxımından leksik-semantik cəhətdən özünü doğrultmur. Xüsusən son dövrlərdə yazıçı dilində yeni okkazional sözlərin yaradılması meyilinin artdığı müşahidə edilir. Ümumiyyətlə, bu cür okkazionalizmləri aşağıdakı kimi qruplara bölmək olar:

a) *Dildə mövcud qarşılığına semantik cəhətdən tam bərabər olmayan okkazionalizmlər.* Bədii ədəbiyyatda bir sıra elə okkazionalizmlərə təsadüf edilir ki, onlar ümumdil neologizmləri kimi, bilavasitə dildəki alınma sözü əvəz etmək məqsədi ilə düzəldilmişdir. Lakin bu və ya digər yazıçı tərəfindən düzələn yeni sözlərin bu qismi mənanı təhrif edir və dilin ifadəlilik imkanlarının genişlənməsinə təsir göstərə bilmir. Bu cəhətdən bədii əsərlərdə təsadüf edilən *sığalsızlıq, dincliksiz, yöndəmləmək, ömürlük, soyutmaz* və s. kimi sözlər xüsusilə səciyyəvidir.

Sığalsızlıq sözü ədəbi dildə kökü ərəb mənşəli olan *səliqəsizlik* sözünü əvəz etmək üçün işlədilmişdir: *Hər səmtdə sərtlik, dəmir qarışıqlığı, s ı ğ a l s ı z l ı q hökmfərma idi* (B.Bayramov); *Sığalsızlıq* sözünün kökü olan *sığal* heç də eynilə səliqə mənası daşımır. Bunlardan birində hamarlıq, digərində təmizlik çaları üstünlük təşkil edir. Bununla da sığalsızlıq sözünün ədəbi dildə səliqəsizlik sözü yerinə işlədilməsi ehtimalı və imkanları azalmış olur.

Eyni fikri *dincliksiz* sözü barədə də demək olar. *Dincliksiz* sözünün işlədilməsi ilə yazıçı ərəb mənşəli *istirahətsiz* sözünü əvəz etmək istəmişdir: *Övlad istəyən ana özünə əzab istəyir, yuxusuz gecələr, dincliksiz gündüzlər istəyir.* (B.Bayramov). Bununla belə həmin sözlər yazıçı dilinin fərdi xüsusiyyətlərini səciyyələndirən faktlar kimi maraqlıdır.

Bədii ədəbiyyatda ədəbi dildəki *tərcümeyi-hal* sözünün *ömürlük* sözü ilə əvəz edilməsi təşəbbüsünü də müşahidə etmək olur:

Nəsimi ömürlüyünün bu gücündə olmuş faktı sonralar əfsanələrə çevrilə bilərdi (Anar); Lakin ömürlük sözü də yalnız yazıçı üslubunu səciyyələndirən fakt səviyyəsində qalır. Çünki bir tərəfdən, lüğətlərdə ömürlük sözü daimilik və ömür yolu mənalarında işlədilir, digər tərəfdən ədəbi dildə *tərcümeyi-hal* əvəzinə beynəlmiləl termini olan *avto-bioqrafiya* sözünün işlədilməsinə üstünlük verilməsi müşahidə edilir. *Avtobioqrafiya* sözünün son dövrdə buraxılan lüğətlərdə öz əksini tapması da bunu sübut edir.

Bədii əsərlərdə mənaca özünü doğrultmayan okkazionalizmlərlə yanaşı, hətta bəzən əvəz ediləcək sözün mənasını təhrif edənlərlə də rastlaşmaq olur. Bu cəhətdən B.Bayramovun işlətdiyi *soyutmaz* sözü xarakterikdir. Yazıçı bu sözü ədəbi dildə artıq lüğət tərkibinə daxil olmuş və ümumxalq səviyyəsi qazanmış *termos* sözü yerinə işlətmişdi. *Yemək s o y u t m a z ı n d a ona dolma, büküm-büküm fətir-yuxa, pendir və qeyri-yol azuqəsi qoymuşdular* (B.Bayramov).

Termos istini isti, soyuğu soyuq saxlama xüsusiyyətinə malik olduğu halda (termos – "ərzaq məhsullarını sabit temperaturda saxlamaq üçün ikiqat divarlı qab" – ASE, IX c, 212), soyutmaz sözündə bunun yalnız bir tərəfi, istini isti saxlamaq mənası bildirilir.

Deməli, yazıçılar tərəfindən dilə gətirilən söz dilin daxili ruhuna uyğun olmalı, onun qrammatik normalarına müvafiq gəlməli, həm də sözün təbiətində zəruri olan yenilik duyulmalıdır. Təbii ki, belə olmadıqda o, dildə qərar tuta bilmir, çox keçmir ki, dildən çıxır və unudulur. Belə uğursuz neologizmlərə misal olaraq *işıqfor* (R.Rza), *kəfkirli aftava* (susəpən), *buz dolabı* (soyuducu), *yazı cihazı* (M.Hüseyn), *süpürücü* (maşınla yağış təmizləyən) (Anar) sözlərini misal göstərmək olar.

Odur ki, okkazional neologizmlər alınma sözləri əvəz etmək məqsədindən irəli gəlsə də, həmişə müvəqqəti sayıl-

mışdır. Azərbaycan ədəbi dilinin inkişafının ilk mərhələsində puristlərin yaratdığı və sonradan unudulmuş olan sözlər də məhz bu qəbildəndir.

b) *Paralel okkazionalizmlər.* Bədii əsərlərdə bəzən alınma sözləri əvəz etmək məqsədi ilə paralel okkazionalizmlərdən də istifadə edilir. Məsələn, son dövr Azərbaycan bədii ədəbiyyatında ərəb mənşəli *əbədi* sözünü əvəz etmək məqsədi ilə *yaşarı (yaşarılıq)* və *ölməz (ölməzlik)* sözlərindən paralel şəkildə istifadə olunur:

Mənə elə gəlir ki, uaşarılıq, dirilik ümumən həyatın qələbəsini simvolizə edir (Anar); *Ölməzlik önündə baş əymək üçün Basdım bu dünyanı bağrıma* (Z.Yaqub).

Əbədi sözü quruluş və semantik cəhətdən, həmçinin ümumxalq səciyyəsi qazanması etibarilə daha çox üstünlüyə malikdir. Bu söz ədəbi dilimizdə əsrlərdən bəri işlədilir və demək olar ki, ərəb mənşəli olması da unudulmuşdur. Buna görə də dilimizin lüğət tərkibində özünəməxsus yer tutan *əbədi* sözünün əvəz edilməsi təşəbbüsü də özünü doğrultmur.

Bədii ədəbiyyatda paralel işlədilmiş *işıqfor – işıqları* (svetofor əvəzinə) və *bugünlük – çağdaş (müasir* əvəzinə) sözləri də dildə mövcud olan müvafiq alınmaları leksik-semantik cəhətdən əvəz edə biləcək iqtidarda deyildir. Çünki istər *svetofor,* istərsə də *müasir* sözləri Azərbaycan ədəbi dili leksikasının tərkibinə qaynayıb qarışmış, ictimai praktikada sınaqdan çıxmış sözlər sırasına keçmişdir. İstər *işıqfor – işıqları,* istərsə də *bugünlük – çağdaş* paralelləri svetofor və müasir sözlərinin əvəzində süni təsir bağışlayır. Bunu məhz, aşağıdakı faktlardan da görmək olar:

Heç olmazsa, işıqforun qırmızısı, sarısı var, yaşılı var (R.Rza); *Göy işıqlanları sönmüş, nə gedən var, nə gələn; Sevda yollarında nə işıq, nə işıqlan* (M.Müşfiq); *Anar yaradıcılığının həyatiliyi, bugünlülüyü bizə əsl ədəbiyyat haqqında danışmağa tam haqq verir.* (Y.Sə-

mədoğlu); *Nəsiminin bir misrasını onun düşünə bilmədiyi, lakin bizim kosmik əsr çağdaşlarının düşünə biləcəyi bir mənada qavrayırıq* (Anar).

Təəssüf ediləcək haldır ki, bəzən elmi üsluba aid nümunələrin dilində də artıq Azərbaycan ədəbi dilində sabitləşmiş, norma hüququ qazanmış, ümumxalq xarakteri daşıyan ərəb-fars mənşəli sözlərin əvəz edilməsi cəhdlərinə rast gəlmək olur. Bu cəhdlər bəzi sözlərin süni şəkildə müasir türk dilindən götürülərək işlədilməsinə də gətirib çıxarır. Belə sözlərə aid *dürlü* (müxtəlif), *ilişgə* (əlaqə), *anlam* (məna), *əski* (köhnə), *dayanmaq* (əsaslanmaq) və s. göstərmək olar. (Qeyd etməliyik ki, bu cür sözlər artıq dilimizdə çoxdan sabitləşmiş sözləri əvəz etmək üçün yox, dilin leksik-semantik potensialını genişləndirən sinonim cərgə əmələ gətirmək baxımından maraqlı ola bilər). Bəzi hallarda elə süni sözlər işlədilir ki, onların mənası, ümumiyyətlə, geniş oxucu kütləsi üçün qaranlıq qalır. Məsələn, *biçimlənmək, suyum* və s. kimi sözlər bu qəbildəndir.

Qeyd etməliyik ki, bəzi sözlərin türk dilindən süni şəkildə alınıb işlədilməsi Azərbaycan ədəbi dili lüğət tərkibində yalnız qarışıqlıq əmələ gətirir. Çünki türk dilində həmin sözlər, hələ XX əsrin ilk onilliklərindən bəri işlədilir və həmin dildə ümumxalq xarakteri daşıyır. Azərbaycan dilində isə *müxtəlif, əlaqə, məna, köhnə, əsaslanmaq* kimi sözlər ümumxalq xarakteri almışdır. Bunları yenidən türkcələşdirmək tamamilə əsassızdır. İstənilən şəkildə özündən yeni sözlər qondarıb ədəbi dil faktı kimi elmi üslubda işlətməyin heç bir əhəmiyyət və lüzumu yoxdur.

Z.İ.Budaqova bu cür sözlərlə əlaqədar haqlı olaraq göstərir ki, belə sözlər ədəbi dilin zənginləşməsini təmin etmək əvəzinə, onun leksik-semantik inkişafı yolunda süni təsir bağışlayır.

c) *Azərbaycan dilində mövcud olan sözdüzəltmə üsulları*

əsasında yaradılan okkazionalizmlər. Bədii ədəbiyyatda təsadüf edilən bu tipli neologizmlərin səciyyəvi xüsusiyyətləri ondan ibarətdir ki, belə neologizmlər yazıçı təxəyyülünün məhsulu olmaqla dilin məna potensialının genişlənməsinə təsir göstərir və bilavasitə yeni bədii, obrazlı anlayışların ifadəsinə xidmət edir. Belə okkazionalizmlər nəinki təkcə yazıçı dilini səciyyələndirir, həm də onlar bədii üslubun ifadə imkanlarının artmasında mühüm rol oynayır.

Fərdi yaradıcılıq məhsulu olan bu cür okkazionalizmlər XX əsrin görkəmli inqilab carçıları olan M.Qorki, V.Mayakovski kimi ədiblərin də əsərlərində işlənmişdir.

Yaradıcılığının əsas dövrü XX əsrin əvvəllərinə təsadüf edən bir çox Azərbaycan yazıçılarının əsərlərində də bu cür uğurlu okkazional neologizmlərin işləndiyini görmək mümkündür. Məsələn, C.Məmmədquluzadənin o dövrdə ərəb-fars dillərindən alınmış *didə, çeşm, eyn* kimi sözlər əvəzinə, Azərbaycan dilinə məxsus *göz* sözünü *gözlük, gözlüklü, gözüaçıqlı, gözcük, gözətçi* və s. kimi düzəltmə formalarını işlətməsi yeni söz yaradıcılığı sahəsində müvəffəqiyyətlərdən sayıla bilərdi. O dövrdə N.Vəzirovun, Ə.Haqverdiyevin və başqalarının da əsərlərində yeni dövrü əks etdirən belə fərdi neologizmlərə təsadüf olunurdu. (Э.М.Алибейзаде. Борьба Джалила Маммедкулизаде за развитие азербайджанского литературного языка. АКД, Баку, 1953, səh.8).

Fərdi neologizmlərə Azərbaycan yazıçılarının əsərlərində son dövrlərdə daha çox rast gəlmək olur. Belə hallarda, bir qayda olaraq, dilin lüğət tərkibinin yeni sözlərlə zənginləşdirilməsi meyili üstünlük təşkil edir. Bilavasitə üslubi-emosionallıq xatirinə işlənmiş fərdi neologizmlər bunların içərisində azdır. Daha çox poeziya dilində təsadüf olunan üslubi neologizmlərdə belə yeni söz yaradıcılığı təşəbbüslərini görmək mümkündür. Bu cəhətdən

C.Cabbarlının, S.Vurğunun, R.Rzanın yaradıcılığında təsadüf olunan və Azərbaycan dilində mövcud söz yaradıcılığı qaydaları əsasında qurulan bir çox sözləri misal göstərmək olar. Bu cəhətdən *-daş* şəkilçili yeni sözlər daha maraqlıdır. Azərbaycan dilində bu şəkilçi vasitəsilə şəriklik bildirən *qardaş, sirdaş, yoldaş* kimi isimlər yaradılmışdır. Yazıçılarımız tərəfindən də bir sıra belə yeni sözlər düzəldilərək işlədilmişdir:

Üstündə salxım-salxım işıq, Biz sənlə həmşəhərik, Gündaş, ildaş, vətəndaşıq (R.Rza); *Faşistlərə ölüm yazır mürəkkəbim, qələmdaşım* (S.Vurğun).

Daş şəkilçisi ilə H.Cavid də vaxtilə *könüldaş, sinifdaş, vaxtdaş, əsrdaş* və s. kimi sözlər düzəldərək işlətmişdir.

-ıcı və *-lıq* şəkilçiləri ilə düzəldilən və əsasən üslubi məqsədlə işlədilmiş aşağıdakı neologizmlər də leksik-semantik baxımdan uğurlu sayıla bilər:

Görkəmilə andırar düşündüyü sözləri, Kəmbaxıcı, evyıxısı, canyaxıcı gözləri (C.Cabbarlı); *Dostluq müxtəlif olur, düşmənlik kimi, Dost var ayrılmaz səndən sümükdən ilik kimi* (R.Rza).

Son zamanlar yaradılan okkazional neologizmlərin bir qismi bilavasitə yazıçı dilinin lüğət tərkibi üçün maraqlıdırsa, digər qismi ümumi ədəbi dil baxımından də əhəmiyyətli hesab edilə bilər. Yazıçı dilini səciyyələndirən neologizmlərə dair aşağıdakıları göstərmək olar:

-daş şəkilçisi ilə: *Qapıçı öz saqqaldaşına sataşdı* (B.Bayramov); *Bu il düz doxsan yaşım tamam olur. Daha üzü qocalığa gedirəm. Saqqaldaşlarım da bu mahalda az qalıb.* (S.Qədirzadə); *Hərə öz həmpeşələrinin, işdaşlarının arasında idi* (Anar).

-laş şəkilçisi ilə: *Əri, ayrılıqları, soyuqlaşmaları ilə əlaqədar olan fikirlər onu bədii hissədə rahat buraxdı* (B.Bayramov); *Həm də necə deyərlər, qonaqsızlaşmışdı* (B.Bayramov).

-ıntı şəkilçisi ilə: *O, təsərrüfata, detala, a y r ı n t ı y a varmağı bacarır* (Anar).

Fərdi söz yaradıcılığı təşəbbüsü ilə meydana gələn və bədii dildə üslubi cəhətdən mühüm rol oynayan okkazionalizmlərə dair aşağıdakıları da misal göstərmək olar:

-çı şəkilçisi ilə: *L a v a ş ç ı dükana çatanda Mirzə Qulam gülümsəyərək dedi: – Kababla bütürşmə lavaşın ayrı ləzzəti olur* (M.Cəlal).

-qan şəkilçisi ilə: *Anlaşılmazlıq, u n u t q a n l ı q, yalqızlıq – həqiqi şairin bəxtinə düşən bunlardır* (Anar).

-li şəkilçisi ilə: *Kənd b i ç i m l i bir şəhərin, Lövhəsini çəkirəm mən* (S.Vurğun).

Bədii dilin ifadəlilik imkanlarının artmasına təsir göstərən bu tipli okkazionalizmlərin müəyyən qisminə hətta lüğətlərdə də təsadüf olunur. Məsələn, "Azərbaycan dilinin izahlı lüğəti"ndə (II s., 1980) və "Azərbaycan dilinin orfoqrafiya lüğəti"ndə (1975) qeydə alınmış *yançı* sözü bu qəbildəndir.

"Ədəbiyyat və incəsənət" qəzeti,
15 avqust 1986-cı il

ƏDƏBİYYATDA OBRAZLILIQ

Poetik obrazlılıq – söz sənətinin döyünən ürəyi, bütün ədəbi növ və janrlarda əbədi gözəllik tacıdır. Onsuz bədii yaradıcılıq yoxdur. Onun mahiyyətinə və yaranmış sirlərinə vaqif olmaq baxımından X.Cabbarovun "Yazıçı" nəşriyyatında yenicə çapdan çıxmış "Bədii ədəbiyyatda obrazlılıq" adlı monoqrafiyası son illərdə üslubiyyat və poetika istiqamətində aparılan uğurlu tədqiqatlardan biridir. Dilçilik və ədəbiyyatşünaslığın, üslubiyyat və poetikanın, estetika və sənətşünaslığın ortaqlı şəkildə öyrənməli olduğu bu vacib problemə hərtərəfli tədqiqatçı baxışı əsərin ən yaxşı məziyyətidir.

Kitabın əvvəlində Aristoteldən bu günə qədər uzun bir inkişaf yolu keçmiş poetika və üslubiyyat elmləri tarixindən məzmunlu və əhatəli xülasə verilir. Bu xülasədən və əsərin əsas bölmələrindən göründüyü kimi, müəllif hər bir problemin elmi təhlilində ilk növbədə marksizm klassiklərinin yaradıcılığına, bir çox görkəmli sovet filoloqlarının bilavasitə üslubiyyatla, poetika ilə bağlı nəzəri baxışlarına istinad edir, birbaşa yazıçı və dil, dil və üslub, fitri istedad və yaradıcılıq, obrazlı sözün qüdrəti ilə əlaqədar tədqiqatlara arxalanır, yeri gəldikcə bədii üslubda obrazlılıq problemi ilə bağlı yanlış fikirlərə, nəzəri səhvlərə ciddi etiraz edir, özünün tənqidi münasibətini bildirir.

Xüsusən üslubiyyat və ədəbiyyatşünaslıqda ortaqlı şəkildə işlənən "bədii və bədiyyə", "obraz və obrazlılıq", "surət və surətlilik", "obraz və tip", "mimesis, təqlid və bənzətmə", "poet, poeziya və poetika", "müqayisə və təşbeh", "trop və poetik fiqur", "portret, gözəllik və ülvilik", "karikatura, eybəcərlik və rəzillik" terminlərinin qarşılıqlı əlaqəsi, oxşar və fərqli mənaları yaradıcılıqla təhlil olunur,

daha inandırıcı, dəqiq və yeni fikirlər söylənilir. “Müqayisə” filologiyada indiyə qədər olduğu kimi, məcazın bir növü tək götürülmür, bütün məcaz növlərinin yaranış üsulu, poetik obrazlılığın başlıca qəlibi kimi izah edilir.

Müəllif iyirmiyə qədər poetik fiqur növü, iyirmidən çox məcaz növü, onların oxşar və fərqli xüsusiyyətləri haqda geniş söhbət açır, təşbeh (*Dahilər torpağa ölü kimi yox, bəlkə basdırılır xəzinə kimi. Nəsimi tək bu aşiq yolunda soyulandır),* metafora *(Bir ceyrandım, hürkütdülər yatağımdan… Gündə bir kərpic düşür ömrümün sarayından. Söz də güclü silahdır…),* təşxis *(Həyat dəniz kimi təmizlik sevir. Yalan ayaq tutar, yeriyə bilməz),* antiteza *(Quzuya şir kimi nərə çəkdirir, Şiri quzu kimi mələdir həyat),* mübaliğə və litota *(Bir sözdən yüz gəmi batar dəryada… Bir elin gücü var bir ər qolunda. Sağlığımda iynə boyda hörməti mən, Ölən zaman min heykələ dəyişmərəm)* kimi obrazlılıq yaradan poetik vasitələrin say-seçmə nümunələr əsasında müfəssəl izahını verir. Məcazları poetik icad, nadir tapıntı, sənətdə möcüzə tək izah edir. Bu məqsədlə yüzdən çox müəllif yaradıcılığından çoxlu misallar gətirilir, ən gənc qələm sahibləri belə axtarış orbitindən kənarda qalmır. Ədəbi şəxsiyyət, fitri istedad və fərdi üslub, söz seçmək məharəti məsələlərinə sanki “ən kiçik dağda da qiymətli sərvətlər yatağı ola bilər” prinsipi əsasında dərin hörmətlə yanaşılır.

“Obrazlılıq və insan” bəhsində, ümumiyyətlə, nitqin, eləcə də poetik fikrin ikili məzmunundan, əksiliklərin vəhdəti və mübarizəsi qanununa uyğun şəkildə insana ikili təsirindən bəhs edilir, bədii üslubda bu ikili təsiri şərtləndirən səbəblər 10-12 yerdə qruplaşdırılır. Elmi şəkildə əsaslandırılır ki, bütün məcaz növləri sırasında həm evfemizm mahiyyətli, həm də tabu mahiyyətli təsvir vasitələri vardır.

Şifahi xalq ədəbiyyatının və yazılı ədəbiyyatımızın bütün növ və janrları, əfsanə və əsatirlər, ümumən sovet

xalqları və dünya ədəbiyyatı, dünya mütəfəkkirlərinin müdrik fikirləri əsərdə obrazlı fikrin əsas qaynaqları kimi götürülür, bədii üslubda söz rəngkarlığı məsələləri sadə və aydın, sistemli və məntiqli bir dildə şərh edilir.

Bütün bunlarla yanaşı, kitabda tək-tək nəzəri fikir təkrarları, müxtəlif məqsədlə olsa da, eyni bədii nümunələrin təkrarı, orfoqrafiya və durğu işarəsi (səh. 7, 23, 58, 93, 115, 189, 201) və üslubi qrammatik səhvlər də (səh. 9, 66, 149, 188, 208, 211) getmişdir. Lakin bunlar əsərin elmi dəyərinə xələl gətirmir.

"Bədii ədəbiyyatda obrazlılıq" kitabı adından görün-düyü kimi, çox vacib bir problemin tədqiqinə həsr olunub və biz inanırıq ki, nəinki geniş oxucu kütlələri, həmçinin bütün sənətsevərlər, yaradıcı gənclik poetik obrazlılığın sirlərinə yi-yələnmək yolunda çox faydalanacaqlar. Kitab orta və ali məktəblərdə üslubiyyat, ədəbiyyatşünaslığın əsasları, poetika və nitq mədəniyyətinin əsasları fənlərinin dərindən mənim-sənilməsi üçün də faydalı və lazımlıdır.

Linqvistik poetika dilçiliyin ən yeni sahələrindən biridir və bu sahənin gələcək tədqiqatçılarına bələdçilik baxımından da X.Cabbarovun bədii üslubda obrazlılıq probleminə həsr olunmuş bu monoqrafiyası səmərəli mənbə olacaqdır.

"Azərbaycan müəllimi" qəzeti,
14 noyabr 1986-cı il

ƏDƏBİ DİLİMİZİN İNKİŞAFI VƏ NİTQ MƏDƏNİYYƏTİ MƏSƏLƏLƏRİ

Sosializm dövründə ədəbi dil ictimai həyatın, demək olar ki, bütün sahələrinə nüfuz etməklə geniş xalq kütləsinin əsas ünsiyyət vasitəsi olmuşdur. Azərbaycan ədəbi dili respublikamızın dövlət dili olmaq etibarilə orta və ali məktəblərdə tədris olunur. Radio və televiziyada, teatrda, mətbuatda, bədii əsərlərdə, dərsliklərdə, inzibati və elmi idarələrdə ədəbi dilimizin mətbuat, bədii, elmi, idarə üslublarından geniş surətdə istifadə olunur.

Ədəbi dilimizin belə yüksək inkişaf səviyyəsinə çatması birdən-birə deyil, uzun bir tarixi inkişaf prosesinin nəticəsidir. Belə ki, uzun əsrlərin "məhsulu" kimi, dilimizdə yaşamaq hüququ qazanmağa can atan əcnəbi ünsürlər tədricən öz yerini daha çox milli sözlərə vermişdir ki, bu əsasda dilimizin lüğət tərkibi öz daxili imkanları hesabına daha da zənginləşmiş, onun qrammatik, orfoqrafik və s. normaları dürüstləşmiş, təkmilləşmiş, sabitləşərək möhkəmlənmişdir.

Müasir ədəbi dilimiz elə bir inkişaf səviyyəsinə çatmışdır ki, artıq nitq mədəniyyəti ilə bağlı məsələlərin əsaslı şəkildə tədqiqinə, dildə özünü göstərərək bu və ya digər hadisə və proseslərə şüurlu müdaxiləyə, daha doğrusu, bu hadisə və prosesləri müəyyən mənada nizamlamağa, inkişaf meyillərini qabaqcadan müəyyənləşdirməyə ciddi ehtiyac duyulur.

Bütünlükdə mədəniyyətin, o cümlədən ədəbi dilin müasir inkişaf səviyyəsi tələb edir ki, nitqimiz (istər yazı, istərsə danışıq qolu) dilimizin milli xüsusiyyətlərini bütünlüklə özündə əks etdirməklə yanaşı, zəngin, düzgün, səlis və axıcı olsun. Müasir ədəbi dilimizi bu tələblərə uyğun şəkildə inkişaf etdirmək üçün nitqimizi (yazıda və danışıqda) bir sıra

qüsurlardan xilas etmək lazımdır. Bu qüsurlar başlıca olaraq iki səbəbdən irəli gəlir:

1) Arxaizm və dialektizmlərə yersiz yol verilməsindən;

2) Ədəbi dil normalarının əsassız olaraq subyektivcəsinə pozulmasından.

Məlum olduğu kimi, əsrlərdən bəri ərəb və fars dillərinin güclü təsiri nəticəsində dilimizə, xüsusən ədəbi dilimizə bu dillərdən çoxlu sayda sözlər keçmişdir. Onların bir qismi tədriclə zamanın sınaqlarından çıxa bilmiş və dilimizin daxili inkişaf qanunlarına, fonetik-qrammatik xüsusiyyətlərinə uyğunlaşaraq milli sözlərimizlə qaynayıb-qarışmış, dilimizdə daimi yaşama hüququ qazanmış, bəziləri ümumxalq danışıq dilinin güclü təsiri altında ədəbi dildən çıxmışdır. Lakin buna baxmayaraq, müasir ədəbi dilimizdə yazılışı və deyilişi çətin olan ərəb-fars alınmalarına yenə də təsadüf edilir. Məsələn: *məzuniyyət, ezamiyyət, vəkalətnamə, müvəffəqiyyət, tərxis, peydərpey aşüftəhal, ovqattəlxlik, hifzüssəhhə, kəsafət, pasiban, riqqət, təfavüt, möhtəviyyat* və s. Bu tipli sözləri ya dilimizin lüğət tərkibində olan müvafiq sözlərlə, ya da geniş söz yaradıcılığı imkanlarından istifadə etməklə mənaca daha aydın, deyilişcə asan sözlərlə əvəz etmək mümkündür. Məsələn: *dincəliş* (məzuniyyət), *səfər* (ezamiyyət), *azad* (tərxis), *gözətçi* (pasiban), *bəzək, yaraşıq* (rövnəq) və s.

Eyni hal lüğət tərkibinin terminologiya sahəsində də özünü göstərir. Belə ki, bəzən internasional sözlər yersiz olaraq vaxtı keçmiş, məzmunca anlaşılmayan arxaizmlərlə əvəz edilir, yaxud onlar paralel şəkildə işlədilir. Məsələn: *aptek* əvəzinə *əczaxana, resept* əvəzinə *nüsxə, operasiya* əvəzinə *cərrahiyyə əməliyyatı, proporsiya* əvəzinə *tənasüb* və s. M.Qasımov haqlı olaraq qeyd edir ki, Azərbaycan dilinin terminologiyası sahəsindəki başlıca nöqsanlardan biri eyni məfhumu bildirmək üçün bəzən iki və ya üç müxtəlif termindən istifadə edilməsidir.

Halbuki geniş xalq kütləsinin dilində işlənən, hamının asanlıqla başa düşdüyü və tələffüz etdiyi sözləri vaxtı keçmiş və bugünkü anlayışları tam ifadə edə bilməyən sözlərlə əvəz etməyə ehtiyac yoxdur. Digər tərəfdən isə, terminoloji leksikanın əsas əlamətlərindən biri müxtəlif variantlılığa yol verməməkdir. Düzdür, ümumişlək sözlərdə sinonim-dubletlərin olması dilin zənginliyini, onun ifadə imkanlarının genişliyini və rəngarəngliyini təmin edir. Terminologiya sahəsində isə belə deyil. Eyni anlayışın bir neçə terminlə ifadəsi yalnız dolaşıqlıq yaradır, fikrin tez və asan qavranmasına maneçilik törədir.

Alınma sözlərə münasibətdə müəyyən qayda-qanuna, prinsipə riayət olunmalıdır. Belə ki, əgər alınma sözün qarşılığı ümumxalq dilində yoxdursa və dilimizin sözyaratma imkanlarından istifadə edərək onu əvəz etmək mümkün deyilsə, alınma söz və ya terminin dildə işlədilməsi zərurəti meydana çıxır. Məsələn: *elektron, optika, ampula, estrada, improvizasiya, süni peyk, kosmos, kosmonavtika, kosmonavt, kosmodrom, kibernetika, ekskavator, kompressor, traktor, kultivator, raket, komet, asteroid, meteorit, alqoritm* və s.

Sovet dövrü ədəbi dilimizin inkişafının birinci mərhələsində yazıçılarımız, alimlərimiz başqa dillərdən hətta termin xarakterli söz alınmasına qarşı çıxaraq, bir çox hallarda ədəbi dilimizdə işlədilməsi vacib olan başqa dillərə məxsus sözlərin çox dəqiq qarşılığını tapır və mətndə işlədərək belə yeni sözlərə vətəndaşlıq hüququ verirdilər. Onların böyük əksəriyyəti dilimizin fonetik-qrammatik qaydalarına tam uyğun şəkildə düzəldildiyi, dilə yatımlı, aydın, anlaşıqlı olduğu, bir çoxu isə kalkanın tələblərinə tam cavab verdiyi üçün geniş kütlə tərəfindən asanlıqla mənimsənilir və həqiqi mənada vətəndaşlıq hüququ qazanaraq, dilimizdə özünə daimi yer tuturdu. Bir-iki nümunəyə müraciət edək. Rus dilindəki “настройка” sözü

qurmaq mənalı “строить” felindən düzəldilmişdir. *Üst* sözü “настройка” sözündəki nad ön şəkilçisinin, *qurmaq* felindən yaranmış *qurum* (müq. et: *baxmaq-baxım, ölmək-ölüm)* sÖzü isə *стройка* feli isminin tam qarşılığıdır. Deməli, 30-cu illərdən dilimizdə işlənməyə başlayan və hazırda ümumişlək söz olan *üstqurum* – “настройка” sözünün tam kalkasıdır və əvəz etdiyi sözün mənasını tamamilə ehtiva edir. Eyni fikri *tənlik* – “уровнение”, *adlıq* – “именительный”, *bağlayıcı* – “союз”, *budaq cümlə* – ”придаточное предложение”, *göndəriş* – “направление”, *özfəaliyyət* – “самодеятельность”, *həqiqisevər* – “правдолюбец”, *məqsədyönlü* – “целенаправленный”, *arayış* – “справка”, *cərəyanyığan* – ”токособиратель” və s. söz və söz birləşmələri haqqında da demək olar. Təsadüfi deyil ki, belə sözlər indi də dilimizin fəal fondunda geniş işlənmə dairəsinə malik sözlərlə eyni cərgədə durur. Artıq ümumişlək, ümumxalq səciyyəsi qazanmış bu sözlərin qısa bir vaxtın məhsulu olduğunu söyləmək çətindir. Kalka üsulu ilə yeni söz yaradıcılığı ən məhsuldar yollardan olub, dilin lüğət tərkibinin zənginləşməsində mühüm rol oynayır.

Dilin ən mütəhərrik, tezdəyişən hissəsi lüğət tərkibidir və təbii ki, müasir dövrdə də onun zənginləşməsində daimi bir irəliləyiş var. Ədəbi dilimizin indiki inkişaf mərhələsində onun daxili imkanlarından istifadə ilə söz yaradıcılığı prosesi daha üstün mövqeyə malikdir. Bu sahədə həm semantik və qrammatik, həm də kalka üsulu ilə söz yaradıcılığı diqqəti çəkir. Bütün bu halları nəzərə alaraq Azərbaycan SSR EA Terminologiya Komitəsi bir sıra alınma sözlərin dilimizin daxili söz yaradıcılığı imkanlarından istifadə edərək öz sözlərimizlə əvəz edilməsində xeyli iş görmüşdür *(путёвка-yollayış, интуиция-duyum, профориентация-peşəyönümü, контракт-bağlaşma, отгул-əvəzgün, доверенность-inanış, платеж-ödənc, матрика-yaş kağızı* və s). Bu üsulla yeni sözlərin yaradılması və bəzən onların əvvəlki sözləri əvəz et-

məsi ümumi anlaşmanın, ünsiyyətin yaxşılaşmasına öz müsbət təsirini göstərir. Belə ki, öz sözlərimiz əsasında yaranan sözlər, təbii ki, xalq kütləsi tərəfindən daha asan və tez mənimsənilir. Bu qəbildən olan sözlərə misal olaraq *çağdaş, əsrdaş, əyləc, sayğac, çimərlik, nəfəslik* və s. göstərmək olar. Onlar uğurlu yaradıldığı üçün hamı tərəfindən qəbul edilmiş və dilimizdə özünə yer tapmışdır.

Müasir ədəbi dilimizdə, xüsusən onun bədii üslubunda gözə çarpan nöqsanlardan biri də dialektizmlərə yerli-yersiz yol verilməsidir. Bədii əsərlərdə dialekt və şivə leksikasından istifadə həmişə olmuş və bu fakt heç vaxt etiraz doğurmamışdır. Əksinə, obrazın dilində işlədilən dialektizmlər onun daha canlı və real, əsərin dilinin rəngarəng və oxunaqlı olmasını təmin edir. Lakin bu sahədə də müəyyən ölçü gözləmək tələb olunur. Biz bugünkü bədii əsərlərdə (həm nəsr, həm də nəzm əsərlərində) dialektizmlərə yalnız ayrı-ayrı obrazların dilində, onların fərdiləşdirmə vasitəsi kimi deyil, yazıçı və şairlərin öz nitqində, təhkiyələrində də tez-tez təsadüf edirik. Əlbəttə, bu hal təəssüf doğurur. Azərbaycan dilinin tarixi inkişafında onun müxtəlif səviyyələri – ədəbi dil, ümumxalq danışıq dili və dialektlər arasında gedən proseslər də, onların istifadəsindəki qarşılıqlı nisbətlər də tədriclə dəyişilir. Müasir dövrdə ədəbi dillə ümumxalq danışıq dili arasında qarşılıqlı əlaqə o qədər qüvvətlidir ki, bunun nəticəsində artıq dialektlərin ədəbi dilə təsiri, demək olar ki, yox dərəcəsinə enmişdir. İndiki şəraitdə dialektlərdən ədəbi dilə sözlərin, ifadələrin keçmə potensialı, demək olar ki, tamamilə zəifləmişdir; tarixən ədəbi dilin zənginləşməsində fəal rol oynayan bu qol arxa plana keçmişdir. İndi ədəbi dil daha çox ümumxalq danışıq dili hesabına zənginləşir, inkişaf edir.

Müasir ədəbi dilimizdə ümumxalq danışıq dilinin güclü təsiri altında gedən canlı proseslərdən biri Azərbaycan dili üçün xarakterik olmayan analitzm qalıqlarının da tədricən

aradan qaldırılmasıdır. Məlum olduğu üzrə, Azərbaycan dili öz qrammatik quruluşuna görə sintetik dillərə daxildir. Deməli, analitik dillərdən fərqli olaraq, müəyyən qrammatik formalar, quruluşlar iki və daha artıq sözlə deyil, Azərbaycan dilində bu sözün iştirakı ilə formalaşır. Daha doğrusu, analitik dillərdə sözlərin, yaxud artikllərin köməyi ilə yaranan, formalaşan hər hansı qrammatik quruluş, forma sintetik dillərdə şəkilçilər vasitəsilə meydana çıxır. Rus dilində ön qoşmalar (предлоги) sözdən ayrı deyilir və ayrı yazılırsa, Azərbaycan dilində bunların əvəzinə, sözə bitişmiş bir şəkilçi işlənir. Məsələn: rusca *в школе, при школе* ifadələri azərbaycanca *məktəbdə;* rusca *для учебы* azərbaycanca *oxumağa,* rusca *за водой* azərbaycanca *suya* şəklində ifadə olunur.

Azərbaycan dilini səciyyələndirən bu xüsusiyyəti nəzərdən qaçıran bəzi tərcüməçilər heç bir ehtiyac olmadan hərfi tərcüməyə uyaraq bir sıra söz və ifadələri düzgün işlətmirlər. Bunun nəticəsində, məsələn, *beşilliklərdə* əvəzinə *beşilliklər ərzində* (в течение пятилеток), *mayın 2-dən* əvəzinə *mayın 2-dən etibarən* (с 2-го мая) kimi ifadələr meydana çıxır. Bu isə hər şeydən əvvəl, dilimizin qrammatik normalarını süni şəkildə pozmaq, yerli-yersiz analitizmə yol vermək deməkdir.

İkinci tərəfdən isə, ayrı-ayrı sözlər əvəzinə, söz birləşmələrindən istifadə edilməsi yersiz sözçülüyə aparıb çıxarır və dilin pozulmaz tendensiyalarından biri olan qənaət meyilini pozur.

Əlbəttə, bütün bu qüsurlar ondan irəli gəlir ki, bəzən əsərlərin tərcümə edilməsi bu sahədə heç bir səriştəsi olmayan, istər tərcümə olunan və istərsə də tərcümə edilən dillərin qrammatik qayda-qanunlarını, normalarını bilməyən, tərcümə işinə həqiqi yaradıcılıq, bədii-mənəvi sərvət kimi baxmayan adamlara tapşırılır.

Ədəbi dilimizdə narahatlıq doğuran qüsurlardan biri də

söz və ifadələrin yerində işlədilməməsi, bir çox hallarda isə bunun hətta gülüş doğurmasıdır. Misallara müraciət edək:

1. "Həbib hamıdan çox *özünü itirmişdi".* (Ə.Əylisli) 2. "…telefon dəstəyindən gələn boğanaqlı küləyin səsindən *nə qulaq qulağı eşidirdi,* nə də göz gözü görürdü" (Y.Səmədoğlu). 3. "Gördün, mən *deyəsiydi*? Qaralar qaraları qırır, ağlar ağları. Çünki qağa, genə mən deyəndi: adamlar adamlıqdan çıxıb" (Y.Səmədoğlu) 4."Pis qırxdığı *əzik,* yorğun sifəti həmişə qayğılı idi" (N.Rəsulzadə)

Mətnin ümumi məzmunundan birinci cümlənin ifadə etdiyi fikri-mənanı başa düşmək olur. Müəllif demək istəyir ki, hamı özünü itirmişdi, lakin daha çox Həbib özünü itirmişdi. Bəs yuxarıdakı misal hansı mənanı ifadə edir: Həbib başqalarını da itirmişdi, amma daha çox özünü itirmişdi. Göründüyü kimi, gülünc bir məna meydana çıxır, "özünü itirmək" frazeoloji vahidi həmin cümlədə sabit birləşməlikdən uzaqlaşıb həqiqi mənanı ifadə edir.

İkinci misalda isə xalq ifadəsi düzgün işlədilməmişdir. Məlumdur ki, "nə qulaq qulağı eşidirdi" demək olmaz; "nə ağız deyəni qulaq eşidirdi" formasında işlədilməli idi.

Üçüncü misalda qrammatik forma səhv verilmişdir. Aydındır ki, *-ası, -əsi,* felin lazım şəklinin morfoloji əlaməti olub, gələcək zamanla bağlanır. Cümlədəki fakt isə keçmiş, yaxud indiki zamanla əlaqədardır. Ona görə də fikir oxucuya çatmır.

Nəhayət, dördüncü misalda söz düzgün verilməmişdir; *əzik yox, əzgin* işlədilməli idi.

Azərbaycan ədəbi dilinin əsrlərdən bəri yaranıb formalaşmış və təkmilləşmiş qayda-qanunları, normaları var ki, bunlar müasir ədəbi dilimizin bütün üslublarında geniş şəkildə tətbiq olunmaqdadır. Ədəbi dilin qrammatik normaları cərgəsində sabitləşmiş ən mühüm qaydalardan biri cümlədə və söz birləşmələrində söz sırasının gözlənilməsidir; məsə-

lən, təyin təyin olunan sözdən əvvəl gəlir, mübtəda xəbərdən əvvəl işlənir, xəbər cümlənin axırında olur və s.

Bununla yanaşı, üslubiyyata dair əsərlərdə, habelə bir sıra qrammatika kitablarında göstərilir ki, üslubi məqamlarda söz sırası pozula bilər. Belə ki, məsələn, şeirdə, şüarlarda məntiqi vurğu xəbərin üzərinə düşdükdə xəbər cümlənin əvvəlində də gələ bilir: "Danışır Bakı". "Mən düşmənəm sizin insan əti yeyən iki başlı qartalınıza!" (C.Cabbarlı).

Söz sırasının bu şəkildə pozulması dilin özünün digər fonetik-qrammatik norma və qaydaları ilə şərtləndiyi üçün burada qüsurdan, nöqsandan danışmaq olmaz. Lakin bu sahədə elə hallarla da qarşılaşmalı oluruq ki, açıq-aşkar dil normalarından kənara çıxılır.

Son zamanlar bir sıra gənc yazıçıların nəsr əsərlərində "novatorluq" pərdəsi altında Azərbaycan ədəbi dili üçün xarakterik olan söz sırasının qorunması halı kobudcasına pozulur. Məsələn: *"Elə buna görə də kəndin adını "Qartal yuvası" qoymuşdu babalar". "Biri də yanıma axşam lampalar yananda gəldi, çəkinə-çəkinə". "Məktəbdə bircə direktor geyinərdi bu plaşdan "* və s.

Bu müəlliflərə görə, dilçilər ədəbi dili dar çərçivədə "quru formada" saxlamağa çalışır, onun qol-qanad açmasına mane olurlar. Onlar danışıq dili ilə ədəbi dil arasındakı səddi tamam uçuraraq, belə hesab edirlər ki, danışıq dilindəki cümlə quruluşu, guya olduğu kimi, ədəbi dilə də gətirilməlidir. Deməli, sözlərin sırasında da tam sərbəstlik olmalı, "hər kəs istədiyi şəkildə yazmalıdır".

Seçmə və əvəzetmə əməliyyatı ilə həyata keçirilən və sabitləşmiş normalar əsasında formalaşmış ədəbi dilə danışıq dilinin bütün xüsusiyyətləri gələ bilməz və bu mümkün də deyil. Çünki o vaxt ədəbi dil olmaz, dildə hərc-mərclik meydana gələr, bu əsasda isə ünsiyyət, anlaşma çətinləşər. Ona görə də hər kəs ədəbi dilə istədiyi qayda gətirə bilməz və

onu istədiyi şəklə sala bilməz.

Danışıq dili üçün (həm də yalnız müəyyən zonada) əsas olan bəzi cəhətlərin ədəbi dilə gətirilməsi çox vaxt cümlə quruluşu ilə onun ifadə etdiyi fikir əsasında ziddiyyətin yaranmasına gətirib çıxarır. Bəzən də məhəlli sözlərin heç bir ehtiyac olmadan işlədilməsi bütünlükdə fikrin anlaşması üçün əngəl törədir.

"İdeoloji işi və siyasi tərbiyə işini daha da yaxşılaşdırmaq haqqında"kı qərarda deyilir: "Çox vaxt təsadüf edilən formalizm, sözçülüyə və gurultuya, hər cür təbliğat ştamplarına meyil, materialın sönük "rəsmi" üslubu, məlum həqiqətləri yaradıcılıqla dərk etmək və canlı, aydın forma əvəzinə, bu həqiqətlərin dəfələrlə mexaniki təkrarı adamların şüuruna və hissinə tərbiyə işinin təsirinin səmərəliliyini xeyli zəiflədən böyük nöqsandır".

Müşahidələr göstərir ki, orta məktəb müəllimlərinin yazılı dil materialını danışıq dili tələblərinə uyğunlaşdırmadan, yazıldığı kimi oxuması, quru ştamp xarakterli söz və ifadələri şagirdləri yorur, usandırır, bezdirir və nəticədə mövzu nə qədər aktual olur-olsun, o, dinləyiciyə – şagirdə heç nə vermir və deməli, müəllim istədiyinə nail ola bilmir.

Bütün bunlar orta məktəb müəllimlərindən, ilk növbədə Azərbaycan dilini tədris edən müəllimlərdən ədəbi dil qaydalarına ciddi əməl etməyi, dilimizə, xüsusilə ədəbi dilə qayğı və məhəbbətlə yanaşmağı, onun qayda-qanunlarına, normalarına riayət etməyi tələb edir.

"Azərbaycan dili və ədəbiyyat tədrisi".
"Azərbaycan məktəbi" jurnalına əlavə,
1987, №3, səh. 59-63

ELMİ-TEXNİKİ TƏRƏQQİ VƏ DİLİN LÜĞƏT TƏRKİBİ

İqtisadi və elmi tərəqqi ilə bağlı olan dilxarici amillər istehsalat leksikasına daha dinamik təsir edir. Belə ki, elmi-texniki inqilab əsrində sənayenin fasiləsiz inkişafı bir tərəfdən istehsalat leksikasını zənginləşdirir, ikinci tərəfdən müxtəlif maşın və avadanlıqların istehsal prosesində təkmilləşdirilməsi, modifikasiyası, onların nominativ adlarının da leksik təkamülünə gətirib çıxarır.

İstehsalat leksikası hazırda geniş anlayışdır. Məlum həqiqətdir ki, əmək alətləri insanın insan kimi formalaşdığı ən ibtidai dövrlərdən mövcud olmuşdur. Lakin minilliklər ötdükcə bu alətlərin adlarının demək olar ki, hamısı tədricən adi məişət sözlərinə çevrilmiş, dilin leksik tərkibi dəyişdikcə (statistik hesablamalar göstərir ki, hər min ildən bir dünya dillərinin 81,2 faizi dəyişir) həmin alətlərin adları da hissə-hissə, yaxud bütövlükdə dillərdən silinib getmişdir. Hazırda "əmək alətlərinin adları" dedikdə, əsasən son onilliklərdə elmi-texniki tərəqqi ilə bağlı olan kibernetika, elektronika, telemexanika, elektrotexnika, radiotexnika, bionika, avtomatlaşdırma, avtomatik idarəetmə, robot texnikası və s. adlarla yanaşı, məişət texnikasına aid adlar da nəzərdə tutulur.

Hələlik Azərbaycan dilinin istehsalat leksikası və elmi üslubu kifayət qədər geniş şəkildə tədqiq edilməmişdir. İbtidai araşdırmalar milli dilimizdə müasir əmək alətlərinin leksikasının bilinqvizm, hətta polilinqvizm nümunələri ilə zəngin olduğunu göstərir. Bu nümunələrin hamısı Azərbaycan dilində yazılmış, eləcə də dilimizə tərcümə edilmiş elmi və elmi-kütləvi ədəbiyyatlarda, dərsliklərdə, başqa ixtisas yazılarında öz işlənmə mövqeyini sabitləşdirdiyindən müasir ədəbi dilin lüğət tərkibinin zənginləşdirilməsində onların iştirak

etdiyini etiraf etməliyik.

Müxtəlif cihaz və aparatların nomenklatur adları da ədəbi dilin terminoloji sisteminin formalaşmasında özünəməxsus rol oynayır. Məlumdur ki, nominasiyanın iki və daha artıq üsulla ifadəsi kompleks və ya kombinə edilmiş nominasiya adlanır. Kompleks nominasiyanın bir nümunəsi kimi nomenklatur maraq doğurur. Lakin nomenklaturlar dildə bir sıra problemlərin meydana gəlməsinə şərait yaradır. Belə ki, "nomenklatur adlar daha çətin tələffüz edilir və bir növ tapmacaya çevrilir. Məsələn, belə nomenklatur terminlər kimə aydın ola bilər? X17N10M5AzT2YUBR və ya AKSRQB". Tələffüzü çətin olan, xarici formasının yadda qalması problemə çevrilən, şifahi nitqdə demək olar ki, işlənməyən bu cür nomenklatur leksik vahid rolunu oynaya bilmir, sözün əlamətləri onlarda geniş miqyasda özünü göstərmir.

Beləliklə, hərf və rəqəmlərin məcmusundan ibarət nomenklaturlarla yanaşı, müəyyən alət və cihazların adlarını danışıqda işlətmək üçün dildə onların ümumi sözlərlə adlandırılmasına ehtiyac yaranır. Lakin əşyaya verilən ümumi ad (söz) ilə həmin əşyanın adlandırılması arasında müəyyən fərqlər vardır. Bu fərqlərin aradan qaldırılması üçün üçüncü növ adlar da formalaşır. Məsələn, "Jiquli" – marka, həmin maşının nomenklaturu VAZ-2101, VAZ-2103, VAZ-2106 və s.-dir Marka ilə nomenklatur arasında isə 01 "Jiquli", 03 "Jiquli", 06 "Jiquli" orta mövqe tutur, dildə həm "Jiquli"nin markasını, həm də qısa şəkildə nomenklaturunu ifadə edir. "Jiquli" addır, demək termin deyil. VAZ-2101, VAZ-2103, VAZ-2106 və s. isə artıq xüsusiləşmiş, anlayışı dəqiq ifadə etmiş definitiv məna, başqa sözlə, xüsusi məzmun kəsb etmiş texniki oreollu termindir.

Bu baxımdan hesablama texnikası cihaz və avadanlıqlarının elmi-texniki inqilab dövründə durmadan artıb çoxalmaqda və fasiləsiz təkmilləşdirilməkdə olan növlərinin nomenk-

latur adlarının araşdırılması böyük əhəmiyyət kəsb edir.

Məlumdur ki, hesablama texnikası öz inkişafında dördbarmaq hesabı, mexaniki üsulla hesablama, elektromexaniki hesablama və elektron hesablama (EHM-lər) dövrünü keçirmişdir.

Hesablama alət və maşınlarının inkişaf yolu paralel şəkildə dildə də öz əksini tapır, onların modelləri təkmilləşdirildikcə adları da dinamik olaraq iki formada dəyişir:

1) Bir əşyanın adlandırılması üçün tətbiq edilmiş nominasiya həmin əşyanın yeni variantını adlandırdıqda təkrar edilə bilər: bu zaman həmin nomenə fərqləndirici, distributiv səciyyəli rəqəm əlavə edilir və ya əgər müəyyən modelin nömrəsini bildirən həmin rəqəm əvvəldən vardısa, onda həmin rəqəm yeni modelə müvafiq olaraq dəyişdirilir. Məsələn, məlumdur ki, "Nairi" elektron hesablama maşını və ya VK-1, SM, KEV, KELR hesablama maşınları dedikdə, biz onların ilkin modellərini nəzərdə tuturuq. Lakin elektron-hesablama texnikası inkişaf etdikcə "Nairi-2", "Nairi-3", KELR-1 "Nairi-S" tipli EHM-lər, VK-2, VK-3, KEV-1, KEV-2 və s. hesablama maşınları yaradılmış, onların adları da münasib şəkildə dəyişilmişdir. Göründüyü kimi, gətirilmiş nümunələr içərisində abreviasiya (ixtisar) məhsulları üstünlük təşkil edir. Adətən texniki abreviaturların daxili mənası yalnız müvafiq mütəxəssislərə məlum olur və ixtisas leksikasının "sirri" kimi gizli qalır. Daxili mənanın geniş ünsiyyət zamanı motivləşməməsi bu cür vahidləri emosionallıq və ekspressivlik yükündən qoruyur, "quru" saxlayır, deməli, onların sırf termin funksiyası daşımasında mühüm rol oynayır. Digər tərəfdən, ixtisar söz şəklində terminlərin daxili formasının həmin xüsusiyyəti elmi dildə rus dili və ya əcnəbi dil vahidlərinin orijinalda olduğu kimi, hətta transliterasiya etmədən saxlanmasını reallaşdırır. Təsadüfi deyildir ki, V.S.Mixalsonun dilimizə tərcümə edilmiş

“Hesablama riyaziyyatının elementləri” əsərində (Bakı, 1966) 44M avtomatik hesablama maşını ENİAK rəqəm elektron-hesablama maşını, “BESM-2M” qəbilindən olan vahidlərlə rastlaşırıq. Göstərilən terminlər məhz həmin şəkildə Azərbaycan ədəbi dilinin elektron-hesablama texnikasına aid leksik layında üslubi bir norma kimi ümumqəbul hal almışdır və bütün müvafiq elmi mənbələrdə eyni şəkildə işlədilir. Düzdür, məsələn, BESM (большая електронно-счетная машина) və MESM (малая електронно-счетная машина) abreviaturları “Böyük elektron hesablama maşını” və “Kiçik elektron-hesablama maşını” terminləri ilə arzuedilməz dublet təşkil edir, lakin onlardan hər birinin ayrı-ayrılıqda elmi dildə (abreviaturların daha böyük tezliklə) işləndiyi bir fakt olaraq qalır. Müşahidələr göstərir ki, hətta çox vaxt abreviatur şəklində nomenlə söz birləşməsi şəklində termin eyni vaxtda işlədilir və müvəffəqiyyətlə bir-birini tamamlayaraq, kompleks nominasiya əmələ gətirir.

2) Əşya ilə bağlı olan yeni əşyanı adlandırmaq lazım gəldikdə bəzi hallarda birinci əşyanı ifadə etmək üçün tətbiq olunmuş nominasiya üsulundan fərqli üsuldan istifadə olunur. Köhnə əşyanın nominativ adını formal-struktur cəhətdən dəyişdirməklə yeni ad yaradılır.

Doğradan da, QİYŞ ölkələrinin iştirakı ilə elektron hesablama maşınlarının vahid sistemi yaradılandan sonra əvvəlki EHM adı əsasında VSEHM – “Vahid sistemli elektron hesablama maşınları” adı formalaşmışdır. Bütün bunlar Azərbaycan dilinin daxili qaydalarını pozsa da, elmi dilin özünəməxsus spesifik üsluba malik olduğu da nəzərə alınmalıdır.

Müasir hesablama texnikasının müxtəlif sistemlərinin adları, hesablama maşınlarında istifadə olunan xüsusi dillərin adları və s. öz orijinallığı ilə diqqəti cəlb edir. ALQOL, FORTRAN, BEYSİK, ALQAMS, DJOVİAL, PL-1 kimi

alqoritmik dii adları, SSRİ-də yaranan “Rapira”, DKOİ və EVSD S kod adları. MİQ (mərkəzi idarə qurğusu), HMQ (hesab-məntiq qurğusu), PİP (prosessor idarə pultu), SK (selektor kanalı), MK (multipleks kanalı), OS-IO/ES əməliyyat sistemi, MOS/ES kiçik əməliyyat sistemi, DOS/ES disk əməliyyat sistemi və s. kimi terminlər aberivasiyanın bu və ya digər üsulu ilə yaradılmış VS EHM-lərlə bağlı olan leksikada geniş şəkildə işlədilir. Göstərilən proqramlaşdırma dillərinin hər birinin özünəməxsus xüsusi sözləri, lüğət fondu yaradılmışdır.

Göründüyü kimi, yuxarıda sadalanan vahidlər Azərbaycan ədəbi dilinin leksik xəzinəsinin zənginləşməsində özünəməxsus bir rol oynayır.

“Elm və həyat” jurnalı,
1987-ci il, № 10, səh.20-21

TƏRCÜMƏ ƏDƏBİYYATI VƏ ƏDƏBİ DİLİMİZ
(EKZOTİZMLƏR)

Tərcümə ədəbiyyatı vasitəsilə ədəbi dilimizə əcnəbi söz daxil olmasının və bu əsasda onun leksik-semantik potensialının zənginləşməsinin özünəməxsus cəhətləri vardır. Məlumdur ki, indi tərcümə ədəbi dilin bütün sahələrini əhatə edir. Belə ki, Azərbaycan dilinə bir çox dillərdən, xüsusən rus dilindən elmi-texniki, ictimai-siyasi, publisist, bədii əsərlər tərcümə edilir. Elmi-texniki, ictimai-siyasi, publisist mətnlərin tərcüməsi ilə dilimizə bir sıra yeni söz birləşməsi və müstəqil leksik vahidlər kimi terminoloji səciyyə daşıyan elementlər daxil olur və onlar bilavasitə aid olduğu sahələrdə işlədilməyə başlayır. Bədii mətnlərin tərcüməsi ilə dilə gətirilən yeni vahidlər isə daha çoxcəhətlidir. Bu isə ilk növbədə onda özünü göstərir ki, bədii mətnlərin tərcüməsi zamanı dilimizə daxil olan sözlər və ifadələrin əhatə dairəsi istər məna-məzmun, istərsə də struktur-formal cəhətdən daha geniş olub, bir növ konkret hüdud tanımır. Bunun səbəbi isə bədii əsərlərin həyatın bütün sahələrini əhatə edə bilməsidir. Bədii əsərlər dilində yarandığı hər hansı konkret bir xalqın, millətin tarixinin, dünəninin və bu gününün, həyat tərzinin, dünyabaxışının, sosial-mənəvi aləminin tərcümAnıdır. Bu mənada bədii əsərlərin dilində həmin xalqın, millətin milli məişətinə dair söz və ifadələrin işlədilməsi təbiidir. Dilimizə tərcümə zamanı belə söz və ifadələr – ekzotizmlər olduğu kimi saxlanır. Bir çox halda isə, hətta, terminoloji səciyyə daşıyan və terminoloji səciyyə daşımayan vahidlər bədii tərcümədə ekzotik xarakterə malik olur.

Ekzotizmləri ayrıca leksik qrup kimi səciyyələndirən iki əsas cəhət vardır. Birinci cəhət ondan ibarətdir ki, onlar milli

kolorit yaratmaq məqsədilə işlədilir və məzmunlarının açılması üçün izaha ehtiyac vardır. İkinci tərəfdən isə, ekzotizmlər lüğətlərdə qeydə alınsa da, qeyri-milli dilin ədəbi dil faktı olmayıb, yalnız situativ xarakter daşıyır.

Ekzotizm yunan sözüdür. Mənaca yad, qəribə anlayışlarını ifadə edir. Ekzotizmlər müəyyən bir xalqa, millətə aid olan, izah vermədən mənası başqaları üçün yad və anlaşılmaz qalan sözlərdən ibarətdir. Ekzotizmlər adətən başqa xalqların həyatı ilə əlaqədar olan mətnlərdə işlədilir. Ekzotizmlər sırf milli səciyyə daşıdığına, habelə başqa dillərdə onların motivasiya xüsusiyyətləri olmadığına görə tərcümə edilə bilmirlər. Həmin söz və ifadələrin tərcümə edilməməsi səbəblərindən biri sırf milli səciyyə daşımasıdırsa, ikinci səbəb onların hər birinin spesifik, fərdi xüsusiyyətlərlə fərqlənməsidir. Məsələn, dövlət müəssisəsi – bundestaq (alman), rinsdaq (isveç), xural (monqol), vəzifə – samuray (yapon), klerk, konstebl (ingilis), yaşayış məskənləri – yurt (Cənubi Sibir), viqvam (hindu); paltar, geyim-beşmet (Qafqaz), frank (fransız), yuan (Çin) belə sözlərdəndir və leksikaya daxil edilir.

Tərcümə əsərlərinin dilindəki ekzotik sözlərin ədəbi dilin lüğət tərkibinin zənginləşməsində müəyyən rolu vardır. Məsələn, *"aul"* sözü əsasən Dağıstan MSSR-də yaşayan İber-Qafqaz dilli xalqların dilində işlənən ümumişlək xarakterli sözdür. Bu söz eyni zamanda tərcümə ədəbiyyatı vasitəsilə Azərbaycan dilinə daxil olmuş və dilin leksik sistemində fəal mövqe tutmuşdur. Məsələn: *"Həmzət də bəzi qonşuları kimi evindən heç yana tərpənmədi. Axşamüstü düşmənlər* ***aula*** *dolmuşdu"* (M.Hüseyn).

Bədii tərcümədə bəzən ekzotizmləri ikinci dilin daxili imkanları ilə ifadə etmək mümkün olur. Lakin tərcümədə onların milli etnik xüsusiyyəti itə biləcəyi və məfhumu tam ehtiva edə bilməyəcəyi ehtimalına görə onların orijinal milli forması saxlanılır. Bu cəhətdən aşağıdakı faktlar səciy-

yəvidir: ***Briçkaların*** *yanına qayıtdım, oradakı oğlandan soruşdum* (M.Şoloxov. "Oyanmış torpaq"). ***Kroket*** *meydançasında, hər yerdə eyni bir sükut, eyni bir kimsəsizlik vardı* (V.Katayev. "Tənha yelkən ağarır"). *O, öz adına gələn* ***depeşanı*** *götürüb oxumağa başladı* (L.Tolstoy. "Hərb və sülh"). *Baloya getmək üçün geyindiyi* ***balo*** *paltarını göstərmək məqsədi ilə onu öz yanına çağırtdırmışdı* (L.Tolstoy. "Dirilmə"). *Görürsünüzmü, əziz knyajnam və* ***kuzinam*** *– belə dəqiqələrdə hər şeyi düşünmək lazımdır* (L.Tolstoy. "Hərb və sülh"). *Altından isə üstünü toz basmış bir dəstə* ***immotrel*** *asılmışdı* (L.Tolstoy. "Dirilmə"). *Bu qədər təntənə ilə başlayan gün müsamirə və* ***feyerverklər*** *də bitdi* (V.Katayev. "Tənha yelkən ağarır"). *Bizim o* ***ryabina*** *yanıb sərasər, pəncərə önünə de töküldümü?* (S.Yesenin. "Şeir və poemalar").

Bu misallarda verilən *briçka* sözünü ifadə etdiyi mənaya uyğun olaraq, açıq və yüngül araba, *kroket* sözünü xüsusi idman oyunu, *depeşa* sözünü təcili diplomatik xəbər və ya təcili diplomatik məlumat, *balo* və *feyerverk* sözlərini xüsusi zadəgan məclisi, *kuzina* sözünü müvafiq şəkildə əmiqızı, dayıqızı, bibiqızı və ya xalaqızı, *immotrel* sözünü quruyandan sonra da öz təbii rəngini və şəklini saxlayan çiçək növü, *ryabina* sözünü isə üvəz ağacı kimi tərcümə edib əsərlərdə işlətmək olardı. Lakin bu halda həmin sözlərlə ifadə olunan yerli və milli xüsusiyyətlər, həmçinin etnik və regional anlayışlar bəlkə də itərdi. Tərcümə ədəbiyyatında məhz bu cəhət nəzərə alındığı üçün həmin sözlər tərcümə edilməmiş, onların ekzotik xarakteri mühafizə olunmuşdur. Həmin sözlərlə əlaqədar oxucunun müəyyən izahlara müraciət etməsi isə təsəvvür və təfəkkür genişliyinin yaranmasının başlıca amillərindən biri kimi özünü göstərir.

Azərbaycan dilində ekzotik leksikanın işlədilməsi tarixi çox qədimdir. Azərbaycan xalqı başqa xalqlarla, xüsusilə qonşu

xalqlarla daim təmasda, əlaqədə olmuş və bu əsasda ekzotik sözlər dilimizə yol tapa bilmişdir. Ekzotik leksikanın Azərbaycan dilində işlədilməsini şərti olaraq 2 dövrə ayırmaq olar:

1. XI-XIII əsrlərdən başlayaraq XIX əsrin birinci yarısınadək ekzotik sözlərin işlədilməsi;

2. XIX əsrdən sonrakı dövrdə ekzotik sözlərin işlədilməsi.

Birinci dövrdə Azərbaycan dilinin yazılı və şifahi danışıq dili – folklor dili kimi iki qolu mövcud idi. Həmin dövrdə Azərbaycan dilinin yazılı qolunda ərəb və fars dillərinin təsiri daha böyük idi. Çünki həmin dövrdə Azərbaycanda ərəb və fars dilləri hakim idi. Həqiqi Azərbaycan dili isə daha çox milli folklor dili kimi inkişaf edir, zənginləşirdi. Həmin dövrdə ərəb və fars dillərinə məxsus ekzotik səciyyəli sözlər sürətlə Azərbaycan dilinə keçir və yayılırdı. Bu gün də müasir Azərbaycan dilində işlənən *molla, ruhani, axund, məscid, came, cənnət, cəhənnəm, behişt, zünnar* və s. kimi söz və ifadələr ilkin vaxtlarda dilimizdə məhz ekzotik vahidlər kimi işlədilmişdir.

Ekzotik sözlər Azərbaycan ədəbiyyatının klassik üslubda yazılmış şeir qolunda (qəzəl, qəsidə, rübai, mərsiyə, mədhiyyə və s.) və eyni zamanda tərcümə əsərlərində, nəsr formasında yazılmış dibaçələrdə, hədislərdə və s. işlədilmişdir. Maraqlıdır ki, dilimizin şifahi qolunda ekzotik leksikanın nümunələri özünə bir o qədər də mövqe qazana bilməmişdir.

XIX əsrin birinci yarısında Şimali Azərbaycanın Rusiya tərkibinə daxil olması ilə mədəni-iqtisadi əlaqələr xeyli genişləndi. Azərbaycan ziyalılarının rus mədəniyyətinə, rus ədəbiyyatına marağı xeyli artdı, ədəbi əlaqələr genişləndikcə dillərin qarşılıqlı təsiri də artmağa başladı. A.Bakıxanovun, M.F.Axundovun, S.Ə.Şirvaninin, H.Zərdabinin, N.B.Vəzirovun, Ə.Haqverdiyevin, M.Ə.Sabirin və C.Məmmədquluzadə-

nin yaradıcılığında rus dilinə məxsus ekzotizmlər özünə yer tutmağa başladı. Lakin ekzotik sözlərin böyük bir qismi Azərbaycan dilində də kütləvi şəkildə yalnız tərcümə əsərlərində işlənmişdir ki, bu da xüsusilə sovet dövrü ilə əlaqədardır.

L.N.Tolstoy, V.Mayakovski, M.Qorki, V.Katayev və başqa rus, həm də xarici ölkə yazıçılarından edilən tərcümələrin dilində işlədilən ekzotik sözlər nədənsə bu gün bütöv, geniş linqvistik filoloji tədqiqatdan kənarda qalmışdır. Tərcümə ədəbiyyatında işlədilən ekzotik sözlərin tədqiqi əsasən iki aspektdən əhəmiyyətlidir: ekzotik sözlərin bir tərəfdən mahiyyəti açılır, digər tərəfdən onlar oxucunun bilik dairəsini genişləndirir və ekzotik sözlərin işlədilməsi Azərbaycan ədəbi dilinin üslubi imkanlarını daha da genişləndirir, onu əlvanlaşdırır.

Ekzotik leksikanın dildə ən geniş yayılmış növü realiyalardır. Hər hansı xalqın dilində, bədii söz sərvətlərində işlənən, onun həyat tərzi, məişəti, milli təsərrüfatı və s. ilə bağlı sözlər realiyalar adı altında qruplaşdırılır. Realiyalardan bəhs edərkən onları bəzən "başqa xalqa məxsus spesifik anlayışlar bildirən" söz qrupları, digər halda isə "başqa dillərdə ekvivalenti olmayan xüsusi, milli sözlər adlandırırlar" (A.V.Fyodorov).

Realiyalar elə leksik vahidlərdir ki, həmin vahidlərin başqa dildə paralelini tapmaq olmur və yaxud digər dilə tərcümə etmək mümkün deyil. Məsələn:

…Qaç aşağı, mənim şlyapamı və ***amazonkamı*** *gətir* (M.Rid. "Başsız atlı"). *Bu, maslenitsa bayramında yumruqlaşanların davasına bənzəmirdi* (M.Şoloxov. "Sakit Don").

Bu cümlələrdə *amazonka* və *maslenitsa* sözləri realiyalar olub, dilimizdə qarşılığa malik deyil. Onları tərcümə edib izahlı formada vermək isə üsluba xələl gətirər, əsərin bədii dəyərini aşağı salar. Ona görə də həmin söz əsərdə olduğu kimi saxlanır, lakin onun izahı ayrıca verilir. Birinci söz "at minərkən qadınların geydiyi uzun paltar", ikinci söz

isə “xristianlarda pəhriz bayramı” deməkdir.

Tərcümə prosesində realiyalar bəzi hallarda orijinaldakı formasını itirir, daha doğrusu, mənasına uyğun olan yeni leksik vahidlərlə əvəz olunur. Məsələn: *“Biz **onurğa cəzası** haqda danışırdıq”* (Stivens. “Dəfinələr adası”) cümləsində verilən “onurğa cəzası” anlayışı azərbaycanlı üçün yaddır. Bu cəza növü yalnız XVIII əsrdə ingilis dəniz donanmasında həyata keçirilirdi. Lakin “onurğa” sözünün dilimizdə mövcudluğu həmin cəza növünün adının azərbaycanca ifadə olunmasına imkan verir.

Bəzi hallarda realiyalar söz birləşməsi formasında olur. Belə hallarda söz birləşməsinin tərəflərindən biri tərcümə edilir. Lakin bütövlükdə realiyanın məzmunu dəyişmir, yəni formaca əvəzlənmə semantikaya təsir edə bilmir. Məsələn, *“Qabağında yoğun hərflərlə “**Volost idarəsi**” yazılmış bir daxmanın yanında üç at bağlanmışdır”* (V.Katayev. “Tənha yelkən ağarır”) cümləsində *volost idarəsi* söz birləşməsinin ikinci tərəfi tərcümə olunmuşsa da, anlayışın ümumi məzmununu saxlamışdır. Tərcüməçilər bəzi hallarda realiyanın ekvivalenti olaraq süni söz yaradırlar. Lakin bu “süni” sözlər çox vaxt uğurlu alınır. Məsələn:

– Hansı stanitsadansan?

– Vyoşenskidən.

– ***Quyruğukəsiklərdənsən*** (M.Şoloxov. “Sakit Don”).

Burada *“quyruğukəsiklər”* ifadəsi süni yolla yaradılmış realiyadır. Amma əsərdə təbii səslənir.

Dilimizə tərcümə ədəbiyyatı hesabına keçən realiyalar leksik-semantik cəhətdən də müxtəlifdir.

Realiyaların bir qrupu mənsub olduğu xalqın milli musiqisi ilə bağlıdır. Məsələn: *“Bir saatdan sonra isə torpaq döşəmə üzərində “**kazaçka**” rəqsi oynayırdı”* (M.Şoloxov. “Sakit Don”); *“O **balalayka** haradadır, göstər onu görüm!”* (L.Tolstoy. “Kazaklar”). Bu cümlələrdə *“kazaçka”* rəqsi,

balalayka realiyaları rus milli musiqisilə bağlıdır. Realiyaların digər qrupu dini mərasimlərlə, adət-ənənələrlə bağlı olaraq işlədilir. Belə realiyalar çox zaman tərcümə ədəbiyyatında izahla verilir. Məsələn: *"**Rojdestvo** gəlib çıxdı* (V.Katayev. "Tənha yelkən ağarır"), *"Toyu axırıncı **spasa** kimi təxirə salmalıdır* (M.Şoloxov. "Sakit Don") və s. cümlələrdə *rojdestvo, spasa* sözləri yalnız xristianlara aid realiyalardır.

Tərcümə ədəbiyyatı vasitəsilə dilimizə keçən realiyaların bəzilərində heyvandarlıqla bağlı sözlər də işlədilir. Belə realiyalara aşağıdakıları nümunə göstərmək olar: *Əsli **lovtavro** atıdır. Mən belə atların həvəskarıyam* (L.Tolstoy. "Kazaklar"). *Lovtavro* kabardin atları zavodudur. Lova Qafqazda ən yaxşı at cinsidir.

Ümumiyyətlə, realiyalar leksik-semantik xüsusiyyət etibarilə hərbi sahələrə, sənayeyə, milli etnoslara və s. aid olur. Tərcümə ədəbiyyatı vasitəsilə dilimizdə işlənən realiyaların bir hissəsi artıq hamı tərəfindən başa düşülür: *aul, stanitsa, qarderob, pasxa, hədis, ataman, kazaçka rəqsi, ekipaj, furqon, kibitka, fligel, bumajnik, kurqan* və s. bu qəbildəndir.

Lakin dilimizə tərcümə ədəbiyyatı ilə keçən elə realiyalar da var ki, onlar yalnız işləndiyi əsərlə əlaqədar dildə yaşayır. Belə sözlərə dar sahə realiyaları da demək olar. Məsələn: *"Mənə bax, **şlyaxtiç**! – deyə kobud tərzdə onun sözünü kəsdi"* (M.Şoloxov. "Oyanmış torpaq"). *"**Şevalyenin** pəncərələrinin birindən… işıq düşürdü"* (L.Tolstoy. "Kazaklar").

Göründüyü kimi, ekzotik leksika dilimizdə xüsusi lay olub, onun ifadə imkanlarını genişləndirən vahidlər kimi xüsusi əhəmiyyət daşıyır. Tərcümə əsərlərinin bədii sənətkarlıq xüsusiyyətlərindən danışarkən ekzotik leksikaya toxunmadan ötmək olmaz.

"Ulduz" jurnalı,
1988, №2, səh. 93-94

DİLİMİZİN ZƏNGİNLƏŞMƏSİ MƏSƏLƏLƏRİ

Müasir dövrdə dillərin bir-birinə qarşılıqlı təsiri, sözalma prosesi mühüm əhəmiyyət kəsb edir və qəti şəkildə demək olar ki, bu, qanunauyğun bir haldır. Ən qədim dövrlərdən özünü göstərən bu proses millətlərarası əlaqələrin, ünsiyyət əlaqələrinin durmadan genişləndiyi və möhkəmləndiyi müasir dövrdə daha da sürətlənmişdir. Sözalma prosesi dilə, xüsusilə lüğət tərkibinə ciddi təsir edir, onun beynəlmiləl səciyyə daşımasına güclü təkan verir. Təsadüfi deyil ki, artıq sovet hakimiyyəti illərində SSRİ xalqlarının hamısının ədəbi dillərində ümumi leksik fond yaranmışdır. *Sovet, sosializm, kommunizm, fabrik, zavod, telefon, teleqraf, bilet, plenum, komsomol, televizor, klub, musiqi, traktor, avtobus, trolleybus, tramvay, metro* və s. çoxlu sayda sözlər bu və ya digər dərəcədə bütün SSRİ xalqları dillərində işlənir.

Azərbaycan dili dünyanın ən qədim dillərindən olub, geniş və zəngin daxili imkanlara malikdir. Buna baxmayaraq, bütün digər dillər kimi, Azərbaycan dili də təsirlərdən kənarda qalmamış, dünyanın bir sıra yaxın və uzaq dilləri bilavasitə, yaxud dolayı yolla bu və ya digər dərəcədə Azərbaycan dilinə öz təsirini göstərmişdir.

Sovet dövründə Azərbaycan ədəbi dili öz inkişafının yeni mərhələsinə qədəm qoydu. SSRİ xalqları dillərindən biri kimi, Azərbaycan ədəbi dili də məhz inqilabdan sonra əsrlərlə məruz qaldığı assimilyativ təsirlərdən xilas oldu, real zənginləşmə imkanları qazandı və xəlqi prinsiplər əsasında yeni normalaşma prosesinə daxil oldu.

Bütün əvvəlki dövrlərdə olduğu kimi, sovet dövründə də Azərbaycan dili lüğət tərkibinin inkişafı dilin digər səviyyələrinə nisbətən daha sürətli, daha mütəhərrik olmuşdur. Həm

də bu sürət öz keyfiyyətinə görə əvvəlki dövrlərdən fərqlənir. Bu sürət ictimai-siyasi həyatdakı dinamikaya uyğundur.

Bu dövrün leksikası üslubi rəngarəngliyə malik dinamik variantlarla zəngindir. İlkin dövrlər leksik normadakı qeyri-sabitlik, dəyişkənlik nitqin müxtəlif sahələrində onun rədd edilməsindəki özünəməxsusluq, ictimai quruluşla əlaqədar yaranmış anlayışları dolaşıqlıq ilə xarakterizə olunur.

Azərbaycan ədəbi dili lüğət tərkibinin zənginləşməsi və inkişafında alınmalar mühüm rol oynamışdır. Ölkəmizdə sosializm quruculuğu perspektivləri ilə əlaqədar olaraq rus dilindən alınan sözlər kənar dil elementləri timsalında ön sıraya keçmiş, ərəb və fars dillərinə məxsus sözlərin alınması ilə məhdudlaşdırılıb minimuma endirilmişdir. Bununla belə, ilk onilliklərdə ərəb və fars mənşəli sözlərin böyük bir qismi hələ də ədəbi dilimizdə işlənməkdə davam edirdi. Ümumxalq dilində anlaşıqlı olan və dilimizdə vətəndaşlıq hüququ qazanan belə sözlər hətta müasir ədəbi dilimizdə belə, öz işləklik xüsusiyyətini itirməmişdir. İnqilabdan əvvəlki dövrlərdən fərqli olaraq, ərəb və fars mənşəli sözlərin müəyyən bir qismi yeni ictimai quruluşla əlaqədar yaranmış anlayışları ifadə etməyə başlamışdır. Ədəbi dili sosializm quruculuğuna dair anlayışlar baxımından zənginləşdirən ərəb-fars mənşəli sözlər öz yaşamaq hüququnu təmin etmiş və Azərbaycan dilinin qayda-qanunlarına uyğunlaşdırılaraq işlədilmişdir.

İctimai-siyasi və elmi-texniki inqilablar, geniş elmi kəşflər ölkəsi olan SSRİ-də rus dilinin təsir dairəsi çox böyükdür. Bu isə ilk növbədə həmin dilin zənginliyi, böyük yayılma arealı, geniş istifadə imkanları ilə əlaqədardır. Rus dilinin bu xüsusiyyətlərinə toxunan V.İ.Lenin göstərirdi ki, iqtisadi faktor bir dövlət tərkibində yaşamalı olan millətlərdən üstünlük təşkil edən bir dili öyrənməyi tələb edir. İqtisadi faktor deyəndə o, ölkənin iqtisadi potensialını əlaqələndirməyi ardıcıl demokratizm və dili könüllü öyrənmək kimi faktorları nəzərdə tuturdu və belə

nəticəyə gəlirdi ki, böyük və əzəmətli rus dili bu tələbatı yerinə yetirə bilər.

Qeyd edək ki, rus dilindən türk dillərinə keçən sözlər daha çox terminoloji xarakter daşıyır. Bu da təbiidir. Belə ki, sovet dövründə rus dilindən türk dillərinə keçən sözlərin böyük əksəriyyəti bilavasitə elmi-texniki inqilabla əlaqədardır.

Fərqli səciyyəyə malik olsalar da, ümumiləşən alınmalarla termin alınmasının ən müsbət cəhəti dilin lüğət tərkibini zənginləşdirməsidir. Təcrübə göstərir ki, alınmaların çoxu terminologiyada baş verir, ona görə də, ümumiyyətlə, alınmalar haqqında elmi ədəbiyyatda deyilənlərin, demək olar ki, hamısı terminlərə aiddir. Rus dilindən alınan terminoloji səciyyəli sözlər xüsusilə türk dilli xalqların ədəbi dillərinin inkişafına müsbət təsir göstərmişdir.

Rus dili sözləri Azərbaycan dilinə sistemli şəkildə hələ XIX əsrdən keçməyə başlamış, onun lüğət tərkibinin yeni sosial anlayışlı sözlərlə zənginləşməsində başlıca rol oynamışdır.

Lakin istər kəmiyyət, istərsə də keyfiyyət etibarilə sovet dövründə alınan leksik vahidlər inqilabdan əvvəlki alınmalardan əsaslı şəkildə fərqlənir. Təbii ki, bu fərq bilavasitə iki xalqın – rusların və azərbaycanlıların qarşılıqlı münasibəti ilə əlaqədardır.

Məlumdur ki, başqa dildən sözalınması iki yolla həyata keçir:

1) Danışıq yolu ilə, daha doğrusu, şifahi ünsiyyətlə; 2) Yazılı ədəbiyyat yolu ilə. Alınma sözlərin mənimsənilməsində bu iki yol bir-birindən müəyyən dərəcədə fərqlənir. Belə ki, əcnəbi sözdə daha köklü dəyişikliyin baş verməsi onun şifahi yolla alındığını göstərir. Belə halda alınan sözün səs tərkibində ciddi dəyişiklik olur, onun mənası nəzərə çarpacaq dərəcədə dəyişir. Yazılı dil vasitəsilə alınmalarda isə sözü alan dilin fonetik-qrammatik-orfoqrafik xüsusiyyətləri nəzərə alınsa da, etimon dil xüsusiyyətlərini qorumağa da meyil güclü olur.

İnqilabdan əvvəl Azərbaycan dili üçün birinci yol əsas olub; rus dilindən alınmalar üçün, demək olar yeganə yol şifahi yol idi ki, bu da alınmaların kəmiyyət və keyfiyyətində öz əksini tapırdı. İnqilabdan sonra rus dilində olan bir sıra əsərlərə də geniş yer verilmişdir.

Onu da deyək ki, sözalması prosesində ikidillilik əsas rol oynayır. İkidillilik dillərin adi kontaktından hər cəhətdən, o cümlədən söz alınmasına görə fərqlənir. Belə ki, ikidillilik şəraitində dillərin yaxınlaşması, qovuşması daha güclü olur və ümumi elementlər daha intensiv inkişaf edir. Ölkəmizdə 130-dan çox xalq yaşayır ki, onların hamısının milli dilləri, hər bir milli dilin geniş imkanları, hüquqları, nəhayət muxtariyyəti vardır. Bunlarla yanaşı, son vaxtlar rus dili hər hansı xalq, millət üçün ikinci ana dilinə çevrilmişdir. Hər şeydən əvvəl, ona görə ki, rus dilini mənimsəmək tarixi bir zərurət olmuşdur. Bu dilini mənimsəmədən, öyrənmədən Soveetlər ölkəsinin digər millət və xalqları ilə ünsiyyət yaratmaq, vüsətli sosializm quruluşunda birgə addımlamaq mümkün olmadığı kimi, müasir dünya hadisələrindən, o cümlədən dünya mədəniyyətinin nailiyyətlərindən tam mənası ilə xəbərdar olmaq da qeyri-mümkündür.

Qeyd etmək lazımdır ki, bilinqvizm şəraitində yalnız rus dili milli dillərə təsir etmir, habelə özü onlardan mənimsəyir, bəhrələnir. Heç də təsadüfi deyil ki, rus dilində Azərbaycan dilinə məxsus onlarca söz işlənməkdədir. Buna baxmayaraq, birinci istiqamət, daha doğrusu, rus dilinin milli dillərə təsiri xüsusi şəkildə özünü göstərir.

Cəmiyyətin daim inkişafı, elmi-texniki tərəqqinin daha da yüksəlməsi və müxtəlif xalqların, millətlərin getdikcə artan sıx əlaqələri sözalınması prosesinə də öz ciddi təsirini göstərir. Sözalınması, deməli, dillərin qarşılıqlı əlaqəsi hələ də davam edir və daha da təkmilləşir.

"Azərbaycan müəllimi" qəzeti,
9 sentyabr 1988-ci il

MÜASİR AZƏRBAYCAN DİLİNİN LEKSİKASI

Azərbaycan dilinin leksik qatı bu dilin qədimliyi və zənginliyini göstərən ilkin göstəricilərdəndir. Məhz buna görədir ki, dilimizin leksikası müxtəlif aspektlərdən işlənmiş külli miqdarda tədqiqatın mövzusu və predmeti olmuşdur.

Məlumdur ki, müəyyən bir sahə üzrə dərslik və ya dərs vəsaiti hazırlamaq hər hansı sırf elmi-tədqiqat işinə nisbətən çox çətin və məsuliyyətlidir. Bu cəhətdən H.Həsənovun "Müasir Azərbaycan dilinin leksikası" ("Maarif", 1988) adlı dərs vəsaiti böyük maraq kəsb edir.

"Müasir Azərbaycan dilinin leksikası" istər ali məktəb dərsliyi kimi, istərsə də akademik səviyyədə bir neçə dəfə və müxtəlif müəlliflər tərəfindən işlənib nəşr edilmişdir. Elə görünə bilər ki, belə bir mövzuya qayıtmağa daha heç bir ehtiyac yoxdur. H.Həsənovun adı çəkilən kitabını oxuduqda isə başqa qənaət hasil olur. Hiss edirsən və aydın olur ki, hər hansı mövzu, məsələ hər dəfə yeni müəllif tərəfindən işləndikdə yeniləşir, daha da zənginləşir və təkmilləşir.

Vəsaitdə nəzəri cəlb edən ilkin cəhət onun məhz yeni şəkildə, daha doğrusu, geniş aspektdə işlənməsidir. Qeyd edək ki, bəzi məsələlər leksikanın mövzusu, obyekti, yaxud sahəsi kimi ilk dəfə məhz bu vəsaitdə işıqlandırılır. Etimologiya, sözün təhlil növləri, söz və morfem və s. məsələlər belələrindəndir.

Vəsaitin ikinci spesifik cəhəti ayrı-ayrı mövzuların (həm də əksəriyyətinin) köhnə dərsliklərdə və digər normativ əsərlərdə olduğu şəkildə deyil, yaradıcı şəkildə işlənməsidir. Burada xüsusilə semasiologiya, onomasiologiya, frazeologiya, söz yaradıcılığı və s. bölmələr yeniliyi və orijinallığı ilə diqqəti cəlb edir.

Azərbaycan dilinin genezisi, tarixi təkamül yolu və müasir vəziyyətinə ötəri nəzər salan müəllif leksikologiyanın pred-

meti və vəzifəsindən, leksikologiya və semasiologiyanın kəsişən və ayrılan tərəflərindən, leksikologiya və leksika termini və məfhumlarının qarşılıqlı münasibətlərindən bəhs edir.

Vəsaitdə ətraflı, məntiqi ardıcıllıq və elmi izahlarla işlənmiş bölmələrdən biri semasiologiyadır. Leksikanın bu və ya digər dildə sözlərin sadəcə toplusu olmayıb, bir-biri ilə qarşılıqlı əlaqə və münasibətdə olan dil faktlarının müəyyən sistemi olduğu fikrindən çıxış edən müəllif həmin sistemin öz ifadəsini eyni və ya müxtəlif sözlərin müxtəlif mənalarında tapdığını göstərir. Burada Azərbaycan dilində sözlərin əlamətləri, məfhumla sözün fərqi, sözün mənaca dəyişməsi, sözün mənasını müəyyənləşdirən amillər, onun leksik mənasının komponentləri, leksik və qrammatik mənanın qarşılıqlı münasibəti və s. haqqında müfəssəl məlumat verilir.

Məlumdur ki, sözün mənalarından danışarkən, onun həqiqi və məcazi mənası, bu əsasda isə polisemiya (çoxmənalılıq) ön plana çəkilir. Bu məsələyə toxunan müəllif təkmənalı və ya çoxmənalı sözlərin işlənmə yeri və mövqeyini müəyyənləşdirərək göstərir ki, sözlər nitqdə təkmənalı, dildə isə çoxmənalı olur. Başqa cür desək, söz nitq vahidi kimi tək, dil vahidi kimi isə çoxmənalıdır.

Vəsaitdə təqdir olunmalı cəhətlərdən biri məsələlərin bölmə kimi ilk dəfə verilməsidirsə, digəri onların haqqındakı məlumatın nisbətən ətraflı, geniş şəkildə öz şərhini tapmasıdır. Bu da təbiidir. Məsələn, “Etimologiya” bölməsi “Leksikologiya”da ilk dəfə verildiyi üçün onun izaha, əlavə məlumata ehtiyacı da vardır. Məhz buna görədir ki, müəllif etimoloji tədqiqatın tarixinə ötəri nəzər salır, etimologiya sahəsində meydana çıxan bəzi mübahisəli məsələlərə toxunur.

Leksikologiya dedikdə, hər şeydən əvvəl, dilin lüğət tərkibi haqqında elm başa düşülür və bu mənada kitabda lüğət tərkibinə böyük yer ayrılması təbiidir. Burada ümumi leksik fond və beynəlmiləl leksikanın qarşılıqlı münasibəti, lüğət tərkibinin təkamül istiqamətləri, lüğət fondu və lüğət tərkibi,

əsas lüğət fondunun səciyyəvi əlamətləri haqqında müfəssəl məlumat verilir. Dilimizdə sözlərin mənşəyindən bəhs edən müəllif haqlı olaraq monqol, digər türk dillərində və müasir Azərbaycan dilində olan sözləri alınmalar kimi deyil, Azərbaycan sözləri kimi izah edir və onlardan ümumtürk mənşəli sözlər, monqol dili ilə ümumilik təşkil edən sözlər başlığı altında bəhs edir.

Vəsaitdə yaxşı işlənmiş sahələrdən biri də "Alınma sözlər" bəhsidir. Alınma sözlərin xarakter xüsusiyyətlərindən bəhs edən müəllif onları keçmə yollarına görə 2 qrupa bölür: gəlmə və alınma sözlər. Bu iki qrup sözlər və bu sözlərin fərqli cəhətləri verilsə də nədənsə də gəlmə sözlərə aid burada ayrıca olaraq nümunəyə rast gəlinmir. Halbuki fikrin izah və təsdiqi üçün belə nümunələr zəruridir.

Azərbaycan ədəbi dilinin aktiv və passiv leksikası işlədilmə dairəsinə görə leksikası, ekpressiv-üslubi leksikası haqqında verilmiş məlumat da elmi səviyyəsi, praktik izahı cəhətdən seçilir. Frazeologiya, frazeoloji vahidlərin təsnifi, xüsusilə də onların sözlərin məna qruplarına münasibəti, frazeoloji variantlardan danışarkən müəllifin orijinal dəst-xətti görünür. Ümumiyyətlə, hansı məsələyə toxunur-toxunsun, müəllif tapdanmış yolla getmir, köhnənin əsasında yenini qurur, öz mövqeyini müəyyənləşdirir, dəqiqləşdirir.

Vəsaitdə diqqətimizi cəlb edən xırda iradımızı da demək istərdik. Çoxmənalılığın növlərindən biri kimi, metonimiyadan bəhs edərkən onun yaranma yollarına aid verilmiş izahla dil faktları bir-birini ehtiva etmir (səh. 39). OnomAstikanın antroponimika və toponimika ilə məhdudlaşdırılması da özünü heç cür doğrulda bilməz.

Bu tənqidi qeydlərə baxmayaraq, H.Həsənovun "Müasir Azərbaycan dilinin leksikası" adlı dərs vəsaiti orijinallığı, yeni ruhu ilə seçilir və dilçiliyimizə dəyərli bir töhfədir.

"Azərbaycan müəllimi" qəzeti,
26 oktyabr 1988-ci il

İNİSİALLAR VƏ NİTQ MƏDƏNİYYƏTİ

1. İnisiallar söz birləşməsi ilə ifadə olunmuş adların bütün əsas komponentlərinin baş hərflərinin seçilərək yeni bir fonetik tərkib – söz əmələ gətirməsi yolu ilə yaranır. İnisialların müasir Azərbaycan dilində üç növü məlumdur: əlifbeizmlər, akronimlər və qarışıq inisiallar. Bu müxtəliflik onlardan hər biri üçün müfəssəl orfoepiya qaydasının tərtibini şərtləndirir.

2. ƏLİFBEİZMLƏR – abreviatur formalaşandan sonra tərkibində yalnız samitlər olan vahidlərdir. Məlumdur ki, bu cür fonetik tərkib Azərbaycan dili üçün yaddır. Odur ki, bəzən belə leksik vahidləri oxuyarkən hər bir samit elementdən sonra "z" saitinin artırılması halları ilə qarşılaşırıq. Ümumiləşdirilmiş bir qayda olmadan dilimizdəki 9 saitdən hər birini belə müvəffəqiyyətlə işlətmək olar, bu isə əlifbeizmi leksik vahidlikdən uzaqlaşdırır. Odur ki, dünyanın bütün dillərində tətbiq edilən qaydanın Azərbaycan dili üçün də rəsmiləşməsi aktualdır: əlifbeizmin hər bir elementi dilimizin əlifba sistemindəki hərf adına müvafiq tələffüz olunmalıdır. Lakin bu zaman abreviaturun tam şəkildə tələffüzünə də nail olmaq lazımdır. Unutmaq olmaz ki, əlifbeizm sözdür və bir əsas vurğu altında səslənməlidir. Məs.: XTŞ (Xalq Təsərrüfatı Şurası) – [XeTeŞe], KP (Kəndli Partiyası) – [KePe]. Burada əlifba sistemi və respublikada ikidillilik şəraitindən irəli gələn nüansları da mütləq nəzərə almaq lazımdır.

2.1. Məlumdur ki, *L, M, N* kimi samitlər əlifbamızda *[eL], [eM], [eN]*… adlanır. Onların iştirak etdiyi əlifbeizmlərdə hərf adından doğan *[e+e]* kombinasiyası yaranır. Belə hallarda yanaşı düşən iki *"e"* səsi bir məxrəcdə uzun [e:] şəklində tələffüz olunmalıdır, məs.: BMT – [BeeMTe] yox, [Be:MTe], KTN – [KeTeeN] yox, [KeTe:N] və s.

2.2. İnisialın tərkibindəki *K* hərfi dilimizə əslən milli və ya şərq dillərindən alınma sözdən saxlanmışdırsa, *[Ke]* kimi,

rus dili və ya Avropa dillərindən alınma sözdən ixtisar olunmuşdursa, *[Ka]* kimi tələffüz olunmalıdır; məs.: *KTN* (Kənd Təsərrüfatı Nazirliyi) – [KeTe:N], KTN (Kommunal Təsərrüfatı Nazirliyi) – [KaTe:N] və s.

2.3. Əlifbeizmə morfoloji əlamət son saitin ahənginə uyğun seçilir, məs.: *BK-[BeKa]-> BK-nın, KP-[KaPe]-KP-nin* və s.

3. Akronimlər Azərbaycan dilinin adi sözlərindən yalnız orfoqrafik cəhətdən fərqlənir. Onlar adi sözlər kimi tələffüz olunur; məs.: *ADU, APİ, DETİ, SƏDM, OMİK və* s. Burada sait və samitlər bir-birini əsasən səliqə ilə izləyir. Bununla belə, saitlərin və samitlərin yanaşı düşməsi də səciyyəvidir; məs.: *EA, OİK, ABŞ, XMA, ÜİHİMŞ* və s. Burada əsas məsələ aşağıdakılarla bağlıdır:

3.1. Samitlər yanaşı düşdükdə tələffüz ağırlaşmırsa, inisial dilin adi sözlərinə oxşayırsa və pis assosiasiya vermirsə, abreviatur akronim kimi tələffüz edilir. Məs.: *ÜİLKGİ* inisialında *[-LKG]* samitləri yanaşıdır. Bu abreviaturun *[ÜİLKGİ]* (K-nı *[Ke]*-ləşdirmə yolu ilə) tələffüzü müşahidə olunur. Lakin bu, unifikasiya qaydasını pozur. *[-LKG]* tələffüzü burada mümkündür, lakin bu zaman *[Ke]* tələffüzü informasiyanı dolaşdırır, "Kommunist" komponentini təhrif edir. Odur ki, dəqiq deyildir. *ÜHİMŞ* inisialını isə olduğu kimi tələffüz etmək çətin deyildir, deməli, bu akronimdir.

4. Qarışıq inisialların tərkibi əlifbeizmlərlə akronimlərin kombinasiyası təsiri bağışlayır. Bu növ inisialların əlifbeizm hissəsinin hər bir elementini əlifba adına uyğun, akronim hissəsini isə leksem parçası kimi tələffüz etmək və bir vurğu altında birləşdirmək lazımdır, *məs.: ADR-[ADe:R], ÜİLKGİ-[ÜİLKaGi], OADKYC-[OADKeYeCe], RATSC-[RATSeCe]* və s.

Məqalə M.M.Adilovla birgə yazılmışdır.
"Azərbaycan nitq mədəniyyəti problemləri".
Elmi-metodik konfransın materialları
(18 dekabr 1987-ci il). APİ nəşri, 1988, səh. 189-190

ALINMA SÖZLƏRİN EMOSİONAL-ÜSLUBİ XÜSUSİYYƏTLƏRİ VƏ NİTQ MƏDƏNİYYƏTİ

I. Azərbaycan ədəbi dilindəki alınma sözlər lüğət tərkibinin zənginləşməsində mühüm rol oynamaqla yanaşı, bədii ədəbiyyatda üslubi səciyyələndirmə vasitəsi kimi də xüsusi əhəmiyyət kəsb edir.

Bədii ədəbiyyatda, bir çox hallarda, rus dilindən alınan sözlərdən istifadə ilə sadə danışıq koloriti yaradılır. Müəyyən hisslərin ifadə vasitəsi kimi işlədilən, emosionallıq bildirən bu cür sözlər, bir qayda olaraq, surətin dilində verilir. Surətin daxili aləminin açılması, onun bilik və dünyagörüşünün aşkarlaşması üçün üslubi vasitə kimi rus dili alınmalarının fonetik cəhətdən təhrif olunmuş formada verilməsi geniş yayılmışdır. Tipikləşdirmə məqsədilə *aptek, proqram, kooperativ, komissiya, pasport, teatr* kimi sözlər *həftik, pirğırım, qəfrətin, qəmsiyə, başbilit, tiyatr* kimi işlədilir.

II. Azərbaycan bədii ədəbiyyatında ərəb-fars mənşəli sözlərdən üslubi məqsədlə istifadənin iki başlıca xüsusiyyəti vardır. Bir tərəfdən, bu sözlər klassik şeir ənənəsinə uyğun olaraq işlədilirsə, digər tərəfdən, müəyyən kolorit yaratmaq üçün onlara müraciət edilir. Klassik şeir dili ənənəsi ilə bağlı olaraq işlədilən sözlərə, demək olar ki, poeziya dilində daha çox təsadüf olunur. Belə sözlər, bir qayda olaraq, Azərbaycan dilinə məxsus leksik vahidlərin yerinə işlədilir və bir növ, onların poetik sinonimləri kimi çıxış edir.

Sovet dövründə şeir dilində poetik ənənə ilə əlaqədar işlədilən ərəb-fars mənşəli sözlərə aid *cilal, xamuş, təshih, seşənbə, düşənbə, istiqbal, pəjmürdə* və s. kimi sözləri misal göstərmək olar.

Bəzən ədəbi dildə ümumxalq səciyyəli qarşılığı olduğu

halda, müəyyən emosional təsir yaratmaq məqsədilə klassik şeir dilində çox işlənmiş leksik vahidlərdən istifadə olunur: *qəmli* əvəzinə *məhzun, göy* əvəzinə *səma, payız* əvəzinə *xəzan, stol* əvəzinə *masa, gizli* əvəzinə *pünhan, ağ* əvəzinə *bəyaz, xəbər* əvəzinə *müjdə* və s. şeir dilində bu cür sözlər onun emosional təsirini bir qədər artırır.

Bəzən poeziyamızda bir-birinin tam qarşılığı olan *jalə, şəbnəm, şeh* kimi alınmalar poetik sinonim kimi işlədilir. Məsələn:

Titrəyən kipriklərimdə
qanlı ***jaləm*** *var mənim.*
İç, Süleyman, dilə gəl, çünki
piyaləndəki mey
Bülbülün göz yaşıdır, qönçə
gülün ***şəbnəmidir****.*
(S.Rüstəm)

Nəsr dilində müasir ədəbi dil üçün məqbul olmayan müəyyən qisim ərəb-fars mənşəli sözlər inqilabdan əvvəlki dövrün siyasi-ictimai mənzərəsini vermək, təsvir edilən dövrə məxsus tipik insan surətləri yaratmaq məqsədilə işlədilir. *Məxşuşluq, məmləkət, müzürr, şərməndə, rəxnələnmiş, məhzun, mükəddər* və s. onlarca bu qəbildən olan sözün işlədilməsi məhz üslubi-emosional səciyyə daşıyır.

Şeir dilində olduğu kimi, nəsr dilində də ərəb-fars mənşəli sözlərin poetik səciyyə ilə əlaqədar işlədilməsinə təsadüf olunur. Artıq belə sözlər inqilabdan əvvəlki dövrün "yüksək üslub" ənənəsinin davamı kimi deyil, təsvirdə emosionallıq yaradan vahidlər kimi özünü göstərir. Sovet dövrünə, xüsusən də son dövrlərə aid nəsr əsərlərinin dilində işlənmiş belə sözlərə aid *ahənrüba, pərgar, qafiyəpərdaz, təbəxxür, ziya* və s. göstərmək olar.

Əgər inqilabdan əvvəl ümumxalq zəminindən çıxış edən demokratik yazıçıların bədii dilində xalis Azərbaycan sözləri və alınmalar az qala bərabər kəmiyyətdədirsə və alınmalar içərisində ərəb-fars mənşəli olanlar üstünlük təşkil edirsə, sovet dövründə 30-cu illərdən başlayaraq, bu nisbət xalis Azərbaycan sözlərinin və rus dili vasitəsilə alınan beynəlmiləl terminologiyanın xeyrinə sürətlə dəyişmişdir.

"Azərbaycan nitq mədəniyyəti problemləri".
Elmi-metodik konfransın materialları
(18 dekabr 1987-ci il).
APİ nəşri, 1988, səh. 190-191

ZAMANIN AXARI İLƏ

Dilə müstəqillik verilməsi, hətta ən müxtəlif baxımlardan onun inkişafına şərait yaradılması o zaman əhəmiyyətlidir ki, dilin daxili inkişaf potensialı mövcud olsun. Azərbaycan dili elə inqilabın ilk illərində xalqa milli ədəbi-bədii, elmi-nəzəri və ictimai-publisist təfəkkürün ifadə forması kimi xidmət etdi. Bu isə o demək idi ki, Azərbaycan dili tarixi stixiyasını həmişə olduğu kimi ləyaqətlə yerinə yetirir. İctimai şüurun dəyişməsi isə, əlbəttə, ədəbi dilə həm norma, həm də funksiya-üslub planında təsirsiz qalmadı; dil quruculuğu ilə əlaqədar xüsusilə fonetik-orfoqrafik, eləcə də leksik-terminoloji məsələlər ətrafında ciddi mübahisələr gedirdi. İş burasında idi ki, bu cür mübahisələrdə təkcə dilçilər deyil, mədəniyyət xadimləri, dövlət nümayəndələri, xalq kütlələri iştirak edirdilər, yəni problemlərin həllində demokratizm prinsipləri bir qayda olaraq gözlənilirdi. Başqa sözlə, xalq öz dilinin taleyini həll etməyə cəlb olunmuşdu. Beləliklə, inqilab ədəbi dili kütlələrə yaxınlaşdırırdı; bu öz yerində, eyni zamanda xalqda öz dilinə yetkin münasibət tərbiyə etdi. Elə məsələlər kütləvi müzakirəyə verilirdi ki, bir neçə on il əvvəl heç bir ziyalını, hətta mütəxəssisi də düşündürmürdü… Kütlə elə problemləri müzakirə edirdi ki, ədəbi dil "tezislər"i hazırlamış M.F.Axundov belə həmin problemlərlə maraqlanmamışdı. Zaman hökmünü verirdi: XIX əsrin ortalarında ərəb əlifbasının islahı mümkün deyildi, XX əsrin 20-ci illərində isə, əksinə, ərəb əlifbasını müdafiə etmək çətin idi.

Məktəb-təhsil sisteminin genişləndirilməsi ədəbi dilin inkişafı üçün etibarlı baza idi. Əslində, xalqın ədəbi dil zövqünün tərbiyəsi məktəbdən, savadlanma kurslarından başlayırdı. Eyni zamanda, ədəbi-bədii normaya yazıçı müdaxiləsi

də bir qayda olaraq məktəb vasitəsi ilə gedirdi, – dövrün görkəmli yazıçılarından çoxu müəllim idi.

Əminliklə demək olar ki, ədəbi dilin praktik məsələlərinin əksər qismi məktəb təcrübəsi əsasında həll olunmuşdu, çünki məktəb kütlə ilə rəsmi orqanlar arasında mütəşəkkil vasitə idi; əlifba məsələsi isə dövrün daha çox diqqəti çəkən məsələsi idi. Məktəblə yanaşı mətbuat da XVI, hətta XIII-XIV əsrlərdən bəri müxtəlif mübahisələr doğuran bu məsələnin həllinə səfərbər olunmuşdu, işin gedişinə hökumət rəhbərləri başçılıq edirdilər.

1921-ci il dekabrın 30-da Azərbaycan Xalq Komissarları Sovetinin qərarı ilə yeni Əlifba Komitəsi yaradılır və həmin Komitəyə Azərbaycan dili üçün latın əlifbası əsasında yeni əlifba tərtib etmək tapşırılır. Düz bir il sonra Komitə tərtib etdiyi yeni əlifbanın layihəsini müzakirəyə verir və 1924-cü ildən Azərbaycan hökuməti həmin əlifbadan istifadə etmək barədə rəsmi şəkildə qərar çıxarır.

1926-cı ildə Bakıda Birinci türkoloji qurultay çağırılır. Burada latın qrafikası əsasında yeni əlifbaya keçmək qərara alınır və beləliklə, türkdilli xalqların ədəbi dillərinin inkişafı üçün yollar müəyyənləşdirilir.

I türkoloji qurultay əlifba məsələsinin, eləcə də ədəbi dilin strukturu ilə bağlı məsələlərin elmi-nəzəri həllini verir, – kütlənin, ziyalıların rəyi nəzərə alınır, praktik baxış unudulmur, bununla belə elmi-nəzəri prinsiplər əsas götürülür.

Latın qrafikası əsasında tərtib edilmiş yeni əlifbanın qəti həyata keçirilməsi barədə 1928-ci il iyulun 2-də qərar qəbul edilir. Bu qərara görə 1929-cu il yanvarın 1-dən Azərbaycanda olan bütün idarələr, nəşriyyatlar, məktəblər, təhsil ocaqları və s. öz işlərini yeni əlifba ilə aparmalı idi. Latın qrafikası əsasında düzəlmiş yeni əlifbada Azərbaycan ədəbi dilinin xüsusiyyətlərini əks etdirən 32 fonem üçün 32 hərf qəbul olunmuşdu.

1939-cu il mayın 8-də SSRİ Elmlər Akademiyası Azərbaycan filialının və Azərbaycan Sovet Yazıçılar İttifaqının idarə heyətinin təşəbbüsü ilə çağırılmış ziyalılar yığıncağında rus qrafikası əsasında düzəldilmiş yeni Azərbaycan əlifbasına keçmək məsələsi və layihə müzakirə edilir.

1940-cı il yanvarın 1-dən isə yeni əlifbaya keçilir. Göstərmək lazımdır ki, ərəb əlifbasının latın əlifbası ilə əvəz olunması kifayət qədər geniş müzakirə olunduğu, elmi prinsiplərlə həyata keçirildiyi halda, latın əlifbasından imtina ciddi şəkildə əsaslandırılmamışdı; ona görə də rus qrafikası əsasında düzəldilmiş əlifbada sonralar dəfələrlə təkmilləşdirmə işi aparmaq lazım gəlmişdi.

Sovet dövründə Azərbaycan ədəbi dilinin inkişafı, xüsusən lüğət tərkibinin zənginləşməsi müəyyən mərhələlərlə bağlıdır. Ayrı-ayrı sosial-iqtisadi, mədəni-kütləvi və elmi-texniki tərəqqi dövrləri dildə müəyyən izlər buraxsa da, sovet dövründə lüğət tərkibinin inkişafı prosesini iki əsas mərhələyə bölmək olar. Birinci mərhələ 1920-1940-cı illəri əhatə edir. Bu mərhələni ədəbi dilin normalaşması dövrü də adlandırmaq olar. O illərdə ədəbi dildə inqilabdan əvvəlki dövrün bir sıra ənənələri saxlanılır. Lakin 20-ci illərin sonuna doğru bu ənənə kəskin şəkildə pozulmağa başlayır. Ədəbi dildə lüzumsuz şəkildə işlədilən ərəb-fars sözlərinin, habelə, osmalı-türk təsirlərinin sürətlə aradan çıxması, onların əvəzinə Azərbaycan dilinin öz sözlərinin işlədilməsi meyilinin gücləndiyi müşahidə olunur. Bu dövrdə Azərbaycan dilinin daxili imkanları əsasında yaranan sözlərlə yanaşı, rus dilindən alınan sözlərin də potensialı artır.

İkinci mərhələ 1940-cı ildən sonrakı dövrü əhatə edir. Bu mərhələni ədəbi dilin lüğət tərkibinin sabitləşməsi və zənginləşməsi dövrü də adlandırmaq olar. 1940-cı ildən sonrakı dövrdə, artıq ədəbi dildə ərəb-fars təsiri görünmür. İctimai-siyasi inkişaf, elmi-texniki tərəqqi, sosializmin nailiy-

yətlərinin durmadan artması sayəsində dildə yeni sözlər meydana gəlir və bunlar ümumxalq səciyyəsi daşıyaraq sabitləşməyə başlayır.

Beləliklə, hər iki mərhələnin özünəməxsus xüsusiyyətləri olmuşdur ki, bunlar ayrı-ayrı dövrlərdə dilin zənginləşməsində mühüm rol oynamışdır. Buna görə də hər bir ayrıca mərhələdə lüğət tərkibindəki dəyişmələrin və inkişafın öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir.

Birinci mərhələ (1920-1940-cı illər). Azərbaycan ədəbi dilinin normalaşma dövrü kimi səciyyələnən bu mərhələnin ilk onilliyi sonrakı onilliklərdən bir sıra əlamətlərinə görə fərqlənir. Belə ki, 20-ci illərə nisbətən 30-cu illərdə lüğət tərkibində daha çox xəlqiləşmə özünü büruzə verir. 20-ci illər ədəbi dilinin xalq kütlələri üçün anlaşılma səviyyəsi nə qədər aşağı idisə, 30-cu illərdə xəlqiləşmə bir o qədər güclənmişdi. Beləliklə, 40-cı illərin ədəbi dil səviyyəsinin meydana gəlməsində 20-30-cu illər, bir növ, keçid dövrü olmuşdur. Məhz bu dövrdən sonra ədəbi dildə sabitləşmə və normalaşma güclənir.

20-ci illərdə ədəbi dilin lüğət tərkibinin mənzərəsi. XX əsrin əvvəllərində ədəbi dilə münasibətdə ziyalılar arasında vahid mövqe, vahid meyil olmadığı kimi, inqilabdan sonrakı ilk dövrdə də bu hal davam edirdi. Ədəbi dildə XX əsrə qədər kök salmış ərəb və fars elementləri, XX əsrin ilk onilliklərində meydana çıxmış purizm elementləri bu dövrdə bir-biri ilə culğaşmışdı.

20-ci illərdə Azərbaycan ədəbi dilində işlədilən ərəb-fars sözləri müxtəlif səciyyəyə malikdir. Bunların bir qismi əsrlərdən bəri işlənərək dilimizin inkişafında mühüm rol oynayanlar, ikincisi isə müasir ədəbi dilimiz üçün məqbul olmayan, mənaca qarşılığı mümkün olan leksik vahidlərdən ibarətdir. Mətbuatda, həmçinin ayrı-ayrı funksional üslublar çərçivəsində leksik-semantik cəhətdən ümumxalq səciyyəsi qa-

zanmış *məmnuniyyət, xalq, əlifba, qəbul, mədəni, inkişaf dövr, vahid, təsərrüfat, qərar, istehsal, ziyalı, idarə, azad, sərf və* s. Bu kimi ərəb-fars mənşəli sözlər işlədilməkdə idi. Bu dövrdə, həmçinin *binagüzarlıq, məbəd, əmələ, mövqüf, füqərayi-kasibə, əfvi-ümumi, əza, bəhriyyun, bilatərəddüd, istiğbarat, münfərid, mühəvvəl, mənqulə, mübzəl* və s. kimi sözlərin də işlədilməsinə təsadüf olunurdu ki, ümumxalq səciyyəsi qazana bilmədiyindən, sonralar bunlar daha anlaşıqlı vahidlərlə əvəz olundu.

20-ci illərdə isə türk dilinə məxsus *şu, pək, əvət, nasıl, yarın, sandalya, əskimək, oda, həp, həpsi, işbu, şimdi, iləri, yapmaq, yavru, kömlək, göy, bulmaq, çınlamaq, qullanmaq* və s. kimi sözlər də işlənilməkdə idi.

Azərbaycanda sosialist inqilabının qələbəsindən sonra rus dilindən alınan sözlərin böyük əksəriyyəti dövrün aktual hadisələrini əks etdirən ictimai-siyasi məzmunlu dil vahidlərdən ibarət idi. Elmi-texniki tərəqqiyə aid beynəlmiləl sözlərin alınmasına inqilabdan əvvəlki dövrə nisbətən indi daha çox ehtiyac vardı. Bu zaman dilə daxil olmuş *bolşevik, bolşevizm, demonstrasiya, konstruksiya, kontrrevolyusiya, koperasiya, kooperativ, koordinasiya, pioner, proletar, sovet, sovetizasiya, metalizasiya, sosial, sosializm, revolyusiya, revolyusioner, absolyut, aqitator, aqressiya, administrasiya, qruppa, distiplina, diskussiya, dokument, jyuri, intervensiya, internasional, informasiya, prezidium* və s. kimi sözlər bilavasitə dövrün ictimai hadisələri ilə səsləşirdi.

Azərbaycanda sosialist inqilabının qələbəsindən sonra yuxarıda göstərilən təmayüllərlə yanaşı, daxili imkanlar hesabına söz yaradıcılığı dilin zənginləşmə prosesində böyük rol oynamışdı. Yeni yaranan sözlərdə, hər şeydən əvvəl, yeni sosial anlayışlar ifadə olunurdu. Bu sözlərin bir qismi Azərbaycan dilinin öz daxili imkanları hesabına yaranırdı. Lakin onlar söz birləşmələrində ərəb-fars mənşəli və ya rus dilindən alın-

mış sözlərlə yanaşı işlədilirdi. Məsələn: *əməkçi, işçi, şura seçkisi, bədən tərbiyəsi, neft komitəsi* və s. kimi vahidlər buna misal ola bilər. Bu dövrdə ədəbi dilə *toplay* (atmosfer), *toplantay* (qurultay), *layölçən* (barometr), *yaşaq* (əhali), *bürüyən* (mühit), *taslıq* (xaritə), *yayxan* (metal), *özüölçən* (masştab), *qırdaş* (paralel), *başqan* (prezident), *quyruqlu* (kometa), *biçimbil* (həndəsə), *özübəlli* (aksiom), *dirgi* (heyvan), *sayıbil* (hesab), *sayaz* (rəqəm) və s. kimi uydurma sözlər də daxil edilirdi ki, sonralar bunların heç biri ümumxalq səciyyəsi qazana bilmədiyindən unudulub getdi.

30-cu illər Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişafında əsl dönüş kimi qiymətləndirilə bilər. Bu dövrdə lüzumsuz əcnəbi sözlər daha fəal surətdə sıradan çıxmağa başlayır. İctimai həyatda baş verən bir çox hadisələrlə əlaqədar Azərbaycan dilinin daxili imkanları hesabına yeni söz birləşmələri yaranır.

Yeni dövrü, yeni ictimai-siyasi hadisələrlə əlaqədar anlayışları ifadə etmək üçün söz və söz birləşmələrinin meydana çıxmasında Azərbaycan dilinin daxili imkanları da mühüm rol oynayırdı. Bunun nəticəsində yaranan söz birləşmələri 20-ci illər üçün səciyyəvi olan ərəb-fars tərkiblərinin çoxunu sıradan çıxarmışdı. Birləşmələrin komponentlərindən bəziləri alınmalardan ibarət olsa da, qrammatik quruluş Azərbaycan dilinin özünə məxsus idi.

Bədii yaradıcılığa sosialist inqilabından əvvəl qədəm qoymuş bəzi şair və yazıçılarımızın əsərlərində ədəbi dilimizə yad olan leksik vahidlər və qrammatik formalar nisbətən geniş işlədilsə də, S.Vurğun, S.Rüstəm, R.Rza, M.Rəhim, H.Mehdi, Ə.Vəliyev, Ə.Əbülhəsən, S.Rəhman və başqa şair və yazıçılarımızın dili canlı xalq dilindən bəhrələnir. Bu dövrdə S.Rüstəm yazırdı:

Dünən şeirimizin bəlli yarısı
Tutulmuşdu ərəb, fars bəlasına.
Mən yaxın qoymaram ərəbi, farsı
Doğma şeirimizin gül bağçasına.

30-cu illərdə ictimai-siyasi hadisələrlə bağlı anlayışları ifadə etmək üçün rus dilindən alınmış bir sıra terminoloji sözlər işlədilir ki, bunlar da sonradan daha müvafiq qarşılıqla əvəz olundu. Bir neçə nümunə gətirək: *otryad, uçastok, xolodilnik, stavka, desyatnik, obort, zaçot, zabor, basacır, qimnastik* və s.

1920-1930-cu illərdə terminologiya sahəsində aparılan müzakirə və mübahisələrin Azərbaycan dilində termin yaradıcılığı işinə olduqca böyük faydası oldu. Belə ki, 30-cu illərdən sonra nəşr olunan dərsliklərdə ictimai-siyasi və elmi-texniki kitablarda, hətta bədii əsərlərin dilində də ərəb və fars mənşəli söz və terminlərin sayı azaldı və Azərbaycan ədəbi dili azərbaycanca, rusca və Avropa dillərindən rus dil vasitəsilə alınan terminlərin hesabına zənginləşdi. 1930-cu illərdə termin yaradıcılığı işində müəyyən nailiyyətlər əldə edildi. 40-a qədər terminoloji lüğət nəşr olundu. Azərbaycan dilinin zəngin söz yaradıcılığı imkanlarından istifadə olunaraq, dilimizin öz sözləri hesabına müxtəlif elm sahələri üzrə bir sıra yeni terminlər yarandı: qrammatika sahəsində *adlıq, yiyəlik, yönlük, yerlik, çıxışlıq, bağlayıcı, qoşma* və s., riyaziyyat sahəsində: *bucaq, üçbucaq, tənlik, çıxma, bölmə, vurma* və s., fəlsəfə və başqa ictimai elmlər sahəsində: *duyğu, bilik, başlıca, çevriliş, anlayış* və s.

Həmin illərdə ərəb-fars mənşəli sözlərin dildən çıxarılması meyili o qədər güclü idi ki, hətta ümumxalq səciyyəsi daşıyan və yeni dövrdə yeni ictimai məzmun qazanan bir çox sözlər də bu meyilin təsiri ilə passiv lüğət fonduna keçirilmişdi. Bu dövrdə rus və başqa qardaş xalqların

ədəbi dilində olduğu kimi bizdə də alınma sözləri dilimizin daxili imkanları hesabına yeni sözlərlə əvəz etmək meyili güclü idi. Milli dilləri alınmalardan xilas etmək və dili yad leksik ünsürlərdən təmizləmək bayrağı altında çıxış edən bu cərəyan purizm adlanırdı. Bu cərəyan Azərbaycan dilində əsrlər boyu dilimizdə işlənmiş, dilimizin qayda-qanunlarına uyuşmuş, özümləşmiş və geniş xalq kütləsinin işlətdiyi ərəb-fars alınmalarını da yeni, süni sözlərlə əvəz etməyi tələb edirdi.

Şübhəsiz, purizmin mütərəqqi tərəfləri də var idi; hər şeydən əvvəl, dilin daxili imkanları üzə çıxarılır, tarixən müəyyənləşmiş milli sözyaratma kodları, başqa sözlə, söz yaratmanın mexanizmi aşkarlanırdı. Lakin dilin immunitetivlik – özünü müdafiə xüsusiyyəti də var, – yaşarı imkanları bütünlüklə büruzə vermir, bəzən "gizlədir", mühafizə edir; dil o vaxta qədər səxavətlidir ki, bu, israfçılığa çevrilməsin. Çox keçmədi ki, passiv lüğət fonduna keçirilmiş ümumxalq səciyyəli ərəb-fars sözlərindən termin yaradıcılığı sahəsində yenidən istifadə edilməyə başladı. İctimai-siyasi, sosial-mədəni, elmi-texniki tərəqqi, habelə inzibati vəzifə, sahə, həcm anlayışı ilə bağlı bir sıra rus dili alınmaları ümumxalq dilində uzun dövrlərdən bəri işlədilərək lüğət tərkibində fəal yer tutan ərəb-fars mənşəli vahidlərlə əvəz olundu. Rus dilindən alınmış *aqressor, zayom, kontrrevolyusioner, stil, propaqanda, deleqasiya, revolyusion, agitasiya, ekonomiya, abliqasiya, sklad, smena, kommersiya, prosent, student, uçastok, okruq* kimi sözlər həmin dövr ədəbi dilinin ayrı-ayrı üslublarında, xüsusən mətbuat dilində geniş işlədilirdi. Ədəbi dilin inkişafının ikinci mərhələsində bu kimi vahidlər, ərəb-fars mənşəli *təcavüzkar, istiqraz, əksinqilabçı, üslub, təbliğat, nümayəndə, inqilabi, təşviqat, iqtisad, istiqraz vərəqəsi, anbar, növbə, ticarət, faiz, tələbə, ərazi, dairə* kimi sözlərlə əvəz edilmişdir.

İkinci mərhələ (1940-1980-ci illər). 1940-1980-ci illər mərhələsi Azərbaycan ədəbi dilinin həqiqi mənada çiçəklənmə dövrü adlana bilər. Bu mərhələnin ən səciyyəvi xüsusiyyətləri söz yaradıcılığı imkanlarının artması ilə birlikdə ədəbi dilin terminoloji potensialının rus dili alınmaları hesabına zənginləşməsindən ibarətdir. Bu mərhələdə ədəbi dildə işlənmiş, lakin ümumxalq malı ola bilməyən bir sıra sözlərin potensialı azalmış, daha məqbul və ümumişlək ərəb-fars mənşəli sözlər yenidən ədəbi dilə qaytarılmışdır.

Cəmiyyət həyatında baş verən bir çox ictimai-siyasi hadisələrlə, elmi-texniki tərəqqi və təsərrüfat-mədəni inkişafla əlaqədar bu mərhələnin ayrı-ayrı dövrlərində ədəbi dilin inkişafında spesifik cəhətlər müşahidə olunur. Məsələn, 1940-45-ci illərdə dilə çoxlu hərbi terminlərin gətirilməsi, 1945-60-cı illərdə kosmik fəzanın tədqiqi, 1960-cı illərdən sonra elmi-texniki tərəqqinin coşğun inkişafı ilə bağlı dildə yeni dövr üçün səciyyəvi olan sözlərin yaranması ikinci mərhələnin əsas xüsusiyyətlərindəndir. Ədəbi dilin 1940-80-ci illərini əhatə edən inkişaf mərhələsində də tam sabitlik olmamışdır. Ədəbi dildən bu və ya digər alınma sözün çıxarılması, onun yerinə başqasının gətirilməsi və ya bu dilin özündə ona qarşılıq axtarılması kimi proseslər daim davam etmişdi. 1960-cı illərdən sonra lüğət tərkibində belə dəyişmələrin nisbətən azalması və ictimai-iqtisadi, habelə, elmi-texniki tərəqqi ilə əlaqədar Azərbaycan dilinin daxili imkanlarına əsaslanan yeni sözlərin yaradılması meyili daha da güclənir. Bu dövrdə rus dilinin təsiri ilə yaranan və rus dilindən alınan yeni terminoloji vahidlərin ədəbi dildə işlədilməsi davam edir. Buna görə də 1940-1980-ci illər mərhələsinin özünü də iki əsas dövr üzrə səciyyələndirmək mümkündür.

1940-1960-cı illər dövrü. Bu, yeni sözlərin, terminoloji söz birləşmələrinin yaranması dövrüdür. Yeni anlayışların ifadəsi üçün yaranmış bir sıra söz birləşmələri mühüm əhə-

miyyətə malik idi. Ədəbi dildə yaranan belə birləşmələr əsasən terminoloji funksiya daşıyırdı. Qeyd etməliyik ki, belə birləşmələr sosialist gerçəkliyinin təntənəsi ilə bağlı anlayışları ifadə etdiyindən ümumxalq səciyyəsi daşımağa daha çox meyilli olmuşdur.

Ümumən, 1940-1960-cı illərdə ədəbi dilin leksikası birləşmələr hesabına genişlənir, yəni müstəqil anlayışlar əvəzinə, onların arasındakı əlaqələrin ifadəsi ön plana keçir. Bu, ictimai-mədəni təfəkkürün qeyd edilən dövrdəki vəziyyətini göstərir; 1940-1960-cı illərdə leksikanın əsas etibarilə birləşmələr hesabına artımı ictimai təfəkkürdə analitizmin güclənməsindən irəli gəlirdi, qanunauyğun hadisə idi.

1940-1945-ci illərdə ədəbi dildə hərbi məzmunlu birləşmələr daha çox işlənirdi. Bununla yanaşı, həmin dövrdə kənd təsərrüfatı və sənayenin irəliləyişi ilə əlaqədar olan yeni terminoloji vahidlər də yaranırdı. Təsərrüfat quruculuğu və sənayenin inkişafı məsələlərini əks etdirən birləşmələrin sayı 1945-ci ildən sonra xüsusilə güclənməyə başlamışdır. Müharibədən sonra da ədəbi dildə hərbi terminlərin işlədildiyinə təsadüf olunurdu. Lakin bu terminlər sülh və əmin-amanlıq dövründə yeni ictimai məzmun kəsb etmişdi. 1940-45-ci illər arasında yaranan terminoloji səciyyəli söz birləşmələrinə aid aşağıdakı misalları göstərmək olar.

a) **hərbi sahədə:** *küçə vuruşmaları, düşmən avtomatçıları, cəbhə xətti, hərbi komendant, komanda məntəqəsi, atıcı diviziya, döyüşən ordu, qərb cəbhəsi, cənub cəbhəsi, avtomatçı qruplar* və s.

b) **təsərrüfat quruculuğu sahəsində:** *dondurma şumu, herik şumu, yarış şərtləri, sosialist əkinçiləri, birinci seyrəltmə, gündəlik tapşırıq, ehtiyat əmək qüvvələri, payızlıq əkini, köndələninə becərmə, dar cərgələr, kompleksli mexanikləşdirmə, texniki kadrlar, kommunist gənclər briqadaları* və s.

c) **ictimai-siyasi və mədəni kütləvi sahədə:** *xalq evi,*

özfəaliyyət dərnəyi, sağlamlıq ocağı, mədəni ocaqlar, siyasi dərnəklər, siyasi biliklər, məktəbdənkənar tərbiyə və s.

ç) **xalq təsərrüfatı sahəsində:** *mənzil tikintisi, istehsal gücü, təsərrüfat xərcləri, sənaye mərkəzləri* və s.

Azərbaycan ədəbi dilinin lüğət tərkibini zənginləşdirmək baxımından, bilavasitə, sosialist təsərrüfatının çiçəklənməsi, elmi-texniki tərəqqi və ümumiyyətlə, ictimai həyatın müxtəlif sahələrinin inkişafı ilə bağlı 1940-45-ci illərdə *yembasdırma, məktəbdənkənar, çoxsahəli, kolxozlararası, pambıqyığan, çiyidsəpən, silosdöyən, bağsalma, bağbecərmə, çaybecərmə, tütünbecərmə, taxılbecərmə* və s. kimi mürəkkəb sözlər meydana gəlmişdir.

1940-cı ildən sonrakı dövrlərdə Azərbaycan ədəbi dilini səciyyələndirən xüsusiyyətlərdən biri də əlavəli mürəkkəb sözlərin yaranmasından ibarətdir. Belə vahidlərin komponentləri Azərbaycan dilinə məxsus sözlərdən, habelə alınmalardan ibarətdir. Bunlardan aşağıdakılar, xüsusilə səciyyəvidir: *satış-sərgi, tikinti-quraşdırma, dayaq-nümunə, yarış-müsabiqə, nəzarət-ölçü, gəmi-peyk, tədris-istehsalat, dəmir-beton, nasos-kompressor, layihə-smeta, mühəndis-texnik* və s. Yeni söz yaradıcılığı prosesində, bir sıra şəkilçilər mühüm rol oynayırdı. Bu şəkilçilər vasitəsilə həmin dövrün ictimai-siyasi hadisələrinə və elmi-texniki tərəqqiyə aid yeni anlayışlar bildirən *üçyüzçü, açarçı, xırmançı, üzümçü, pambıqçı, baramaçı, təsərrüfatçı, hektarçı, istehsalatçı, tədarükçü, mədənçi, rekordçu, təşəbbüsçü, podratçı, təsərrüfatçılıq, pambıqçılıq, əkinçilik, bağçılıq, quşçuluq, ipəkçilik, baramaçılıq, qoyunçuluq, tarlaçılıq, sazlayıcı, iləyici, tozlayıcı* kimi sözlər əmələ gətirilərək işlədilirdi.

1960-1980-ci illər dövrü. Bu dövrün ən səciyyəvi xüsusiyyəti lüğət tərkibində tez-tez baş verən dəyişmələrin aradan qalxmasından ibarətdir. Aydındır ki, ədəbi dilin lüğət tərkibində söz laylarının tez-tez dəyişdirilməsi dilin zənginləş-

məsinə təsir göstərə bilməz. Hər şeydən əvvəl, bu proses ünsiyyətin yaxşılaşmasına öz mənfi təsirini göstərir. Belə ki, tez-tez dəyişən vahidlər hamı tərəfindən qavranıla bilmir, deməli, əslində yaşamaq hüququna malik olmur.

60-cı illərdə ədəbi dilin leksik-semantik sistemində xalq-folklor ifadə tərzinə qayıdış müşahidə edilir; əslində, bu proses 50-ci illərin ortalarından başlasa da (xüsusən bədii dildə), keyfiyyət həddinə 60-cı illərdə çatır. Əlbəttə, folklora qayıdış konseptual-estetik hadisə idi, lakin dil-üslub planını da əhatə edirdi. İ.Hüseynov, S.Əhmədov, Ə.Əylisli, H.Arif, M.Araz, Anar, Elçin, V.Nəsib, M.Süleymanlı kimi yazıçıların lüğət tərkibi folklora, heç olmasa şifahi ədəbi dilə yaxınlaşır, danışıq leksikası hesabına keyfiyyətcə dəyişir. Eyni hadisə SSRİ xalqlarının əksəriyyətinin ədəbi-bədii dilində müşahidə edilir.

Ədəbi-bədii dilin lüğət tərkibinin demokratik prinsiplərə getdikcə daha çox istinad etməsi publisist, eləcə də elmi üslubun leksikasına da təsir edir; belə ki, xüsusilə 70-ci illərin ortalarından publisist dildə, eləcə də elmi mətnlərin dilində danışıq leksikasının çəkisi artır. Nəticə etibarilə, bir tərəfdən şifahi ədəbi dillə yazılı ədəbi dil arasındakı fərqlər azalır, digər tərəfdən lüğət tərkibində müəyyən sabitlik müşahidə edilir. Şübhəsiz, bu, o demək deyil ki, 1960-1980-ci illərdə ədəbi dilin lüğət tərkibində arxaikləşmə, yaxud yeniləşmə prosesi dayanır; məsələ bir qədər başqa cürdür, – sabitləşən bu və ya digər sözün lüğətdəki yeri deyil, sözə ictimai-normativ və fərdi-estetik münasibətin xarakteridir, lüğət tərkibinin mövcudluq prinsipidir. Ədəbi dilin leksikasının sabitləşməsi dərin sosial köklərə istinad edir. Bu, ictimai şüurun özündə gedən bir proseslə – cəmiyyətin hər bir üzvünün ictimai varlığa aktual əqli-zehni münasibətinin getdikcə daha çox müəyyənləşməsi, başqa sözlə, ictimai təfəkkür, potensialının kütləviləşməsi ilə bağlıdır. Ona görə

də vaxtilə ancaq mütəxəssislərin işlətdiyi sözlərin böyük bir hissəsi (və eyni zamanda sözlərin arxasında "gizlənmiş" anlayış potensiyası) – terminoloji vahidlər intensiv şəkildə ümumişlək vahidlərə çevrilir (məsələn, bu gün hamı Azərbaycan televiziyasının "Sağlamlıq" verilişinə baxıb, orada işlədilən tibb terminlərini başa düşmək imkanına malikdir, elmi-kütləvi proqramlar da bunun kimi).

Beləliklə, ədəbi dilimizin lüğət tərkibi sovet dövründə, əslində, mürəkkəb inkişaf yolu keçmiş, ictimai və fərdi şüurun dialektik əlaqəsi zəminində təkmilləşə-təkmilləşə gəlmiş, ifadə-inikas imkanlarını genişləndirmiş, milli mövcudluq forması kimi qüdrətini nümayiş etdirmişdir.

"Azərbaycan "jurnalı,
1988, №4, səh. 179-183

AZƏRBAYCAN ƏDƏBİ DİLİ LÜĞƏT TƏRKİBİNİN İNKİŞAF QANUNAUYĞUNLUQLARI

(SOVET DÖVRÜ)

Azərbaycan ədəbi dili lüğət tərkibinin sovet dövründəki inkişafı müəyyən tarixi-ictimai və linqvistik qneseoloji qanunauyğunluqlara malikdir. Həmin qanunauyğunluqların bəziləri universal səciyyəli olub, sovet dövrü Azərbaycan ədəbi dilini bütövlükdə əhatə edir, bəziləri isə lüğət tərkibinin-leksik normanın spesifikası ilə əlaqədardır. Tarixi-ictimai planla linqvistik-qneseoloji plan biri digərini şərtləndirir; çünki lüğət tərkibinin inkişafı bir tərəfdən ictimai varlıqdan, digər tərəfdən dil təfəkküründən asılıdır, ictimai varlıqla dil təfəkkürü arasında isə mürəkkəb dialektik əlaqə mövcuddur.

Sovet dövründə Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişaf özünəməxsusluğunu müəyyən edən cəhətlərdən birincisi, ədəbi dilin leksik normasının sovet dövründə hansı keyfiyyətdə gəlməsindən ibarətdir; bu məsələnin aydınlaşdırılması və sovet dövrü Azərbaycan ədəbi dili lüğət tərkibinin tədqiqi prosesində daim diqqət mərkəzində olması ona görə lazımdır ki, bir neçə əsrlik tarixə malik leksik-semantik hadisələr sovet dövründə də fəaldır, onların səbəblərinin aşkarlanması zamanı tədqiqatçı dövrün hüdudlarından kənara çıxmağa, səbəbiyyət əlaqələrinin arxasınca daha əvvəlki dövrlərə müraciət etməyə məcburdur.

Leksik normanın inqilabaqədərki vəziyyəti ədəbi dilin özünün vəziyyəti kontekstində, başqa sözlə, funksional üslubların fəaliyyəti hüdudunda təsəvvür edilərsə, biz aşağıdakı mənzərənin şahidi olarıq.

XVI əsrin sonu, XVII əsrin əvvəllərində Azərbaycan ədəbi dilinin leksikasında tarixi dönüş baş verir; yüzlərlə milli

lüğəvi vahidlər ədəbi işləklikdən qalır, ərəb, eləcə də fars mənşəli leksika tədricən kəmiyyətcə azalmağa doğru gedir [I, səh.54].

XVII-XVIII əsrlərdə ədəbi dilin xalq dilinə daha da yaxınlaşması ilə əlaqədar olaraq lüğət tərkibinin – leksik normanın demokratizmi güclənir. XIX əsrin əvvəllərindən etibarən ərəb, fars dilləri ilə yanaşı rus dili də tədricən alınma mənbələri sırasına keçir. XIX əsrin sonu, XX əsrin əvvəllərində rus-Avropa mənbəyi ərəb, fars mənbələri ilə eyni gücdə olur. O mənada yox ki, rus-Avropa dillərindən ədəbi dilə keçən sözlərin kəmiyyəti ərəb, fars dillərindən keçən sözlərin kəmiyyəti ilə eynidir; əslində ərəb, fars sözləri həddindən artıq çoxdur, eyni olan mənbələrin tarixi-psixoloji nüfuzudur; ərəb, fars mənbəyi yüz illər boyu davam edən təsir təcrübəsi – ənənəsi, rus-Avropa mənbəyi isə perspektivi ilə güclüdür, bu mənada təsirlər kompensasiya olunur.

Əsas lüğət fondu-ədəbi dilin leksik normasının istinad etdiyi baza isə millidir, ona görə də iki müxtəlif mədəni-tarixi mühitin təsiri lüğət tərkibini – leksik normanı milli əsaslardan məhrum edə bilmir.

Funksional üslub sferası leksik normanın mövcudluğunun linqvistik şərti kimi onun fəaliyyət dairəsini aşağıdakı şəkildə müəyyən edir: bədii üslub (demokratik və qeyri-demokratik ifadə formaları), publisist üslub (yenə də iki ifadə forması), elmi üslub (olduqca qeyri-diferensial şəkildə); ədəbi dilin lüğət tutumu da bura uyğundur…

Bədii üslubun demokratik ifadə forması (M.Ə.Sabir, C.Məmmədquluzadə, Ə.Haqverdiyev, N.Vəzirov, N.Nərimanov və başqalarının dili) ilə yanaşı, qeyri-demokratik (əsasən romantiklərin dili) ifadə formasının mövcudluğu leksik normanın iki müxtəlif variantını, başqa cür desək, sözə stilistik münasibətin iki tipini təqdim edir. Variantlılıq, müxtəliflik XX əsrin əvvəllərində getdikcə güclənir, eyni zamanda

nəzəri-konseptual şəkildə əsaslandırılır. Publisist üslubda da təxminən eyni hadisə baş verir, lakin demokratik ifadə tərzinin, deməli, həm də leksik normanın demokratizminin publisist dildəki qələbəsi bədii üslubdakına nisbətən asan başa gəlir, çünki publisist üslubda kütləvi anlaşıqlıq əsas şərtdir və mətbuatın dilini kütlə anlamırsa, onun mövcudluğu sadəcə olaraq mümkün deyil. Ona görə də "Molla Nəsrəddin" jurnalı bir neçə on il yaşadığı halda qeyri-demokratik dildə yazan məcmuələr, qəzetlər bir neçə ildə öz ömrünü başa vurur.

İnqilabaqədərki dövrdə elmi üslub, qeyd edildiyi kimi, olduqca qeyri-diferensial şəkildə idi. Elmi üslubun daşıyıcısı olan ictimai qüvvələr – sosium gücsüz idi; ona görə yox ki, milli təfəkkür elmi mədəniyyətdən uzaq düşmüşdü, ona görə ki, elmi təfəkkür ya başqa dillərdə – ərəb, fars, rus, fransız dillərində faktlaşırdı, ya da olduqca publisist şəkildə təzahür edirdi ki, bunu heç cür elmi üslub hesab etmək olmaz (Azərbaycanda elmi müəssisələrin olmaması elmi üslubun taleyinə də həlledici təsirini göstərmişdi). Elmi üslubun qeyri-diferensial şəkildə təzahürü isə terminologiyanın zəif inkişafı demək idi.

İnqilabdan sonra da lüğət tərkibinin bu mənzərəsi bir müddət qalır, xüsusilə 30-cu illərə qədər leksik normaya münasibətdə tarixi tərəddüdlərin davam etməsi özünü göstərir, eyni zamanda mövcud ictimai-siyasi şərait məsələni bir qədər də mürəkkəbləşdirir: ərəb, fars sözlərinə qarşı amansız bir cəbhə açılır, əvəzində isə heç bir linqvistik səbəbi olmadığı halda, ancaq inqilabi dəyişikliyi vulqar məzmunda başa düşməyin nəticəsi olaraq ədəbi dilə rus-Avropa sözləri gətirilir. M.A.Şirəliyev bu cür sözlərin bütöv bir siyahısını təqdim edir (siyahıya böyük işlənmə tezliyinə malik 100-ə qədər söz-termin daxildir) və yazır: "Ərəbçilik-farsçılıq deyə dildə əsrlərdən bəri işlədilmiş istilahları

çıxarmaq iki böyük səhvə: l)Ehtiyac olmadan lüzumsuz Avropa sözləri ilə dilimizin zibilləşməsinə; 2) Bugünkü elmlərimizin, ədəbiyyatımızın onların tarixindən ayrılmasına yol vermişdir" (2, səh.35). Beləliklə, bu çox mühüm bir cəhətdir ki, sovet dövründə Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişafı əvvəlki dövrlərin inkişaf məntiqini də ehtiva edir, davam etdirir, yəni linqvistik-psixoloji varislik əlaqəsi qırılmır. 20-ci, xüsusilə 30-cu illərdə S.Vurğun şeir dilini XVIII əsrin demokratik dilinə – M.P.Vaqif üslubuna istinadən inkişaf etdirir; M.P.Vaqif dili üçün xarakterik olan bir sıra sözləri, ifadələri S.Vurğun da yeni tarixi şəraitin faktı kimi işlədir: *havalanmaq, ağzı şirin sözlü, könüldən könülə yollar görünmək* və s.

Sovet dövründə Azərbaycan ədəbi dilinin lüğət tərkibi inqilabaqədərki dövrlərin lüğət tərkibinin keyfiyyətcə davamıdır; belə ki, leksik-semantik normanın sovet dövründəki keyfiyyəti inqilabdan əvvəlki dövrlərdən formalaşmağa başlayır. XVIII əsrdən lüğət tərkibində özünü göstərən millilik XIX əsr boyu inkişaf edir, XX əsrin əvvəllərində güclənir (3, səh.126) və sovet dövründə sosialist əsaslarına malik olub daha böyük ictimai-demokratik məzmun kəsb edir.

Beləliklə, Azərbaycan ədəbi dili lüğət tərkibi sovet dövrünə istər zənginləşmə mənbələrinə, istərsə də funksional üslubi diferensiasiya səviyyəsinə münasibətdə (deməli, diferensiallıq səviyyəsi ilə də) özünəməxsus tarixi xarakteri ilə gəlir və bu xarakter onun sovet dövründəki inkişafına bilavasitə təsir edir.

Sovet dövründə Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişafı özünəməxsusluğunu müəyyən edən **ikinci cəhət** inqilabdan sonra lüğət tərkibinin fəaliyyət sferasının tədricən genişlənməsindən ibarətdir; bunun həm ekstralinqvistik, həm də linqvistik aspektləri var.

Ekstralinqvistik aspekt dedikdə inqilab gedişində (əsa-

sən, 1905-1920-ci illərdə) və inqilabdan sonrakı dövrdə ədəbi dilin lüğət tərkibinin funksional imkanlarını genişləndirən ictimai-siyasi, ədəbi-mədəni və mənəvi proseslər nəzərdə tutulur.

İnqilabi yüksəliş illərində Azərbaycan dilinin həm siyasi, həm də mədəni nüfuzu artır, inqilabdan sonra isə o, dövlət dili olur. Respublikanın ictimai-siyasi həyatında baş verən dəyişikliklərin sürəti Azərbaycan dilinə, birinci növbədə, onun lüğət tərkibinə də təsir edir (burada bəzi dilçilərin sovet dövrü Azərbaycan ədəbi dilinin tarixini vaxtilə beşilliklər üzrə təsnif etmək cəhdlərini yada salaq), – dil quruculuğu (düzdür, bu proses bir qədər kompaniya şəklində aparılırdı, lakin ədəbi dilin inkişafına şüurlu müdaxilənin başlanğıcı kimi böyük hadisə idi) dövründə terminologiya qaydaya salınır, çoxlu sayda terminoloji lüğətlərin hazırlanmasına qayğı göstərilir.

Azərbaycanda Azərbaycan dilinin dövlət dili olması ilə xalqın ictimai-siyasi mühitə müdaxiləsi genişlənir; istər ədəbi-bədii, istər publisist, istərsə də elmi mühitə kütləvi axın baş verir – məktəblər açılır, elmi-tədqiqat müəssisələri yaranır, mətbuatın fəaliyyət dairəsi genişlənir. Beləliklə, ədəbi dilin lüğət tərkibi də onun sintaksisi ilə birlikdə zənginləşir, elastikliyi artır. Funksional üslub sosiumlarının genişlənməsi (nəzərə alaq ki, bu cür genişlənmə xalq içərisindən çıxmış adamların – fəhlələrin, kəndlilərin hesabına gedir) bir tərəfdən üslubları zənginləşdirir, başqa tərəfdən demokratikləşdirir. Ədəbi-bədii, publisist, hətta elmi dilə, xüsusilə 20-ci, 30-cu illərdə qarşısıalınmaz şəkildə dialekt leksikası gəlir, daha doğrusu, o leksika gəlir ki, onun normativləşmə imkanı qarşısında uzun müddət ictimai-siyasi, mədəni maneələr olmuşdur.

Xalqın dilinə siyasi nüfuz verilməsi az qala stanoqrafik fakta – eksponata çevrilmiş lüğəvi vahidlərin fəal ictimai həyata cəlb edilməsi ilə nəticələnir. Əlbəttə, bu tipli sözlərin

heç də hamısı ədəbi-normativ səviyyədə möhkəmlənə bilmir, ancaq əksər qismi möhkəmlənir və lüğət tərkibinin keyfiyyətinə təsir edir, onu demokratik, xəlqi əsaslara daha möhkəm bağlayır. Həm də məsələ burasındadır ki, xalq dilindən alınmış sözlər təkcə ədəbi-bədii dilə deyil, eyni zamanda publisist, elmi üslublara da daxil olur.

İnqilabdan sonra Azərbaycanın müxtəlif yerlərindən çıxmış ziyalıların Bakıda fəaliyyət göstərməsi, (inqilabi qüvvələrin burada təmərküzləşdiyi vaxtlarda olduğu kimi) lüğət tərkibinin demokratik əsaslar üzərində inkişafının sosial şərti kimi diqqəti cəlb edir.

30-cu illərdə Azərbaycan ədəbi dilinin leksik norması sabitləşir (1, səh.57), "terminoloji hərc-mərclik" (T.Hacıyev) heç olmasa psixoloji baxımdan aradan qalxır, yəni əksəriyyət hansı mənbəyə istinad etməyin optimallığını dərk edir və bundan sonra o vahid ki, artıq qəbul olunub, onu dildən çıxarmaq təklifləri kəsilir. Qeyd etmək gərəkdir ki, bütün bu proseslər – hərc-mərclik də, nizama düşmə də ölkənin ictimai həyatında, mədəni-tarixi ənənələrə münasibətdə baş verən dəyişmələri, ümumən ictimai-siyasi inkişafın qanunauyğunluqlarını əks etdirir.

İctimai-siyasi inkişaf, təsərrüfat həyatının canlanması – kollektivləşmə, sənayenin, mədəniyyətin yüksəlişi ədəbi dilin, birinci növbədə lüğət tərkibinin imkanlarını genişləndirir dedikdə, təkcə o nəzərə tutulmur ki, leksika yeni fəaliyyət sferaları əldə edir; həm də o nəzərdə tutulur ki, söz zövqü, söz duyğusu, hətta söz siyasəti həmin sferalarda yeni cəmiyyətin qurulması uğurundakı mübarizənin gedişini də ehtiva edir və bunun nəticəsində də lüğət tərkibi məzmunca milli əsaslar üzərində yenidən qurulur. Bu, sovet dövründə Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişaf özünəməxsusluğunu müəyyən edən **üçüncü cəhətdir** və bunu şərh etməyə çalışaq…

Əvvəlcə onu qeyd edək ki, hər üç cəhət bir-biri ilə dialektik əlaqədədir və bir-birini şərtləndirir; lüğət tərkibinin ictimai, eləcə də stilistik fəaliyyət sferalarının genişlənməsi, onun məzmunca yeni əsaslar üzərində qurulması ilə bilavasitə bağlıdır. Eyni zamanda bu cür bağlılığın kökləri inqilabdan əvvəlki dövrlərə gedib çıxır. Bizim fikrimizcə, sovet dövründə Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişaf qanunauyğunluqları bu üç metodik cəhətdən, onun müəyyən etdiyi prinsip və parametrlərdən kənarda mövcud ola bilməz. Əslində, burada lüğət tərkibinin inkişaf məntiqini aşkarlayan kontekst təsəvvür edilir. Həmin kontekst həm realdır – ədəbi dilin mövcudluğu, ədəbi dilin arxasında dayanan ictimai-siyasi, ədəbi-mədəni şəraitin mövcudluğu şəklində təzahür edir (yəni konkret ictimai-siyasi, ədəbi-mədəni tədbirlər həyata keçirilir, bu da ədəbi dilə, eləcə də müəyyən spesifikliyi ilə leksik normaya təsir edir), həm də ideal şəkildədir – siyasi mübarizə gedir, ictimai-mədəni şüur dəyişir, təfəkkür dəyişir (əlbəttə, bunun da çoxlu planları var: ictimai-siyasi, estetik, təsərrüfat-texniki və s.).

İndi üçüncü cəhətə qayıdaq. Lüğət tərkibinin sovet dövründə məzmunca sosialist milli əsaslara malik olması nə deməkdir?

Milli şüurun çiçəklənməsi, inqilabi səviyyəyə çatması ilə milli mədəni təfəkkürdə konsentrasiya prosesi gedir, tarixən qazanılmış nə varsa, realist prinsiplərlə yenidən işlənir. Azərbaycanda bu proses 20-ci, 30-cu illərdə özünü daha aşkar şəkildə göstərir. Məsələn, prof. Ə.Dəmirçizadənin təbiri ilə desək, sazlı şeir dili ilə yazılı şeir dili qovuşur və bu qovuşma kontekstində lüğət tərkibinin mənzərəsi müəyyənləşir (əlbəttə, ədəbi-bədii dil hüdudunda). Sazlı şeir dili – folklor əsaslı dil öz xəlqi leksikası ilə gəlir; bu öz yerində, eyni zamanda sözə spesifik münasibəti ilə gəlir. Yazılı şeir dili və onun kimi ancaq yazılı şeir dilinin leksikası ərəb, fars, türk

(osmanlı) elementləri ilə zəngin idi (daha doğrusu, yazılı şeir dili müxtəlif qollara ayrılırdı, hər qolun da öz tarixi, öz keyfiyyəti var idi).

20-ci, eləcə də 30-cu illərdə sosialist milli dilinin, deyək ki, onun ədəbi-bədii ifadə formasının yaranması, ya sazlı, ya yazılı şeir dilinə üstünlük verilməsi, ya da bunların konsentrasiyası hesabına mümkün idi (lüğət tərkibinin keyfiyyəti də burada müəyyən olunacaqdı). Bunu isə dövrün ictimai-estetik şüuru həll etməli idi… İctimai-estetik şüur isə xəlqi olanı əsas götürür, yazılı şeir dilindən isə o formalar qalır ki, onlar xəlqi olanla qovuşa bilər. Yəni, birinci kütləvi anlaşıqlığa üstünlük verilir, ikinci isə estetik baxımdan uğurlu olan götürülür. Ən optimal variant odur ki, həm anlaşıqlıdır, (dövrün mədəni-estetik səviyyəsindən), həm də uğurludur. Ədəbi-bədii dilin leksik norması da bu prinsip əsasında qurulur. O sözlər ki, klassik mətnlərin, eləcə də XX əsrin əvvəllərində romantik şeirin dilində işlənirdi və ərəb, fars dillərinə məxsus idi (poetik potensial da əslində bu sözlərin hesabına güclü olurdu. M.Hadinin bir sıra şeirlərindəki, Ə.Hüseynzadənin Qərb ədəbiyyatından tərcümələrindəki kimi), 20-ci, 30-cu illərdə şeir dilini (konsentrasiya olunmuş, sintezləşmiş dili) tərk edir.

İctimai-siyasi şüurun dəyişməsi, əlbəttə, ictimai-siyasi terminologiyada daha qabarıq şəkildə ifadə olunur. Qeyd etmək lazımdır ki, sosialist dünyagörüşünün anlayışlarını ifadə edən leksika hələ 1905-1920-ci illər ərzində, xüsusilə bolşevik mətbuatının dilində bir sistem kimi müəyyənləşir: *sovet, partiya, kommunist, anarxizm, büro, komitet (komitə), inqilab, klub, bolşevik, azadlıq, mitinq, inqilabçı, tətil, üsyan, üsyançı, nümayiş, nümayişçi, qiyam, qiyamçı, siyasi tətil, fəhlə hərəkatı, Kommunist manifesti* və s. və i.a.

Ədəbi-bədii, publisist, elmi təfəkkürün ümumxalq əsasları üzrə, sosialist məzmununda yenidən qurulması (yeni

ədəbiyyatın, yeni ədəbiyyatşünaslığın, yeni publisistikanın, eləcə də yeni elmi dünyagörüşünün yaranması) lüğət tərkibinə – söz hissəsinə təsir edir.

L.M.Qranovskaya qeyd edir ki, inqilabdan sonrakı onillik neologizmlərin sürətlə tarixizmlərə çevrilməsilə səciyyələnir (4, səh.47); eyni proses Azərbaycan dilində də gedir; kapitalist dünyasının, burjua həyat tərzinin ifadəsi olan, yenicə yaranmış sözlər inqilabdan sonrakı illərdə tarixizmə çevrilir. Həm də bu cür dəyişmə ayrı-ayrı sözlərlə yanaşı, söz assosiasiyalarını də əhatə edir, bütöv ifadələr işləklikdən qalır.

XX əsrin 20-ci, 30-cu illərində klassiklərin əsərlərinin Azərbaycan dilinə tərcümə edilməsi, ədəbi dilin lüğət tərkibinin inkişafında mühüm rol oynadı, birincisi, bu cür tərcümələrdə ana dilinin bütün imkanları səfərbərliyə alınırdı, ikincisi də, tərcümənin keyfiyyəti üzərində nəzarət mövcud idi, yəni həm obyektiv, həm də subyektiv imkanlardan yaxşı istifadə edilirdi. Klassiklərin əsərlərinin tərcüməsi gedişində ictimai-siyasi terminologiya zənginləşdi, lüğət tərkibinin sosial məzmunu artdı – bu isə leksik-semantik normanın keyfiyyətcə yeniləşməsi demək idi. Ona görə ki, ədəbi dilin lüğət tərkibi bütöv bir sistemdir. Funksional üslublara, sahələrə münasibətdə bu sistemin yarım sistemləri ayrılır. Əgər inqilabdan sonra üslubların sosial məzmunu dəyişirsə, sahələr bir sıra hallarda yenidən qurulursa, ədəbi dilə yeni anlayışları ifadə edən yeni sözlər gəlirsə, bu bütövlükdə lüğət tərkibini dəyişdirir, yeni əsaslar üzərinə qaldırır. Lüğət tərkibinin ideoloji məzmununun dəyişməsi təkcə arxaikləşmə, yaxud yeni sözlərin yaranması deyil. Çox mühüm cəhət kimi sözün semantikasında təbəddülat baş verməsini qeyd etmək lazımdır. Ənənəvi olaraq işlənən söz yeni ictimai-mədəni dünyagörüşü kontekstinə düşür, məhz məzmunca dəyişir.

Sovet dövründə cəmiyyət həyatının yeni əsaslar üzərinə qaldırılması ictimai münasibətlərin psixoloji xarakterini

kökündən dəyişir. Buna uyğun olaraq sözün sosial stilizasiya imkanları da dəyişir; məsələn, *ağsaqqal, başçı, xanım, sərvət, var-dövlət* qabilindən olan yüzlərlə sözlər yeni ictimai-siyasi, mədəni-etik təfəkkürün ixtiyarına keçir. Ümumiyyətlə, hər hansı ictimai-siyasi şərait lüğət tərkibinə – leksik normaya birbaşa deyil, məhsulu olan mənəvi-mədəni mühit vasitəsilə daha ardıcıl, daha davamlı şəkildə təsir göstərir. Çünki ictimai-siyasi şəraitin özü həmin mədəni-mənəvi mühitdə dərk olunur, dəyərləndirilir, təsdiq, yaxud inkar edilir. Sözü – leksik vahidi normativləşdirən, ədəbi səviyyə qaldıran da həmin mədəni-mənəvi mühitdir.

ƏDƏBİYYAT

1. T.Hacıyev. Azərbaycan ədəbi dili tarixi. Bakı, ADU nəşri, 1976.
2. M.A.Şirəliyev. İstilahlar yaradılmasındakı əsas prinsiplər. Dil institutunun əsərləri. Bakı, Azərb. SSR EA nəşriyyatı, I c, 1947.
3. M.Cahangirov. Azərbaycan milli ədəbi dilinin təşəkkülü. Bakı, "Elm" nəşriyyatı, I hissə, 1978.
4. Л.М.Грановская. Некоторые особенности развития словарного состава русского языка в 20-е годы XX в. и проблема нормы. – Литературная норма в лексике и фразеологии. М, Изд., Наука, 1983.

"Azərbaycan dili tarixi məsələləri"
(Elmi əsərlərin tematik toplusu).
Azərbaycan Universiteti nəşriyyatı,
1989, səh. 49-56

MÜASİR AZƏRBAYCAN ANTROPONİMİKASINDA PROQRESSİV MEYİLLƏR

Hər hansı xalqın onomastikası həmin xalqın tarixini əks etdirdiyi kimi, zaman keçdikcə müəyyən təbəddülata da məruz qalır və heç şübhəsiz, Azərbaycan onomastikası da bu baxımdan istisna təşkil etmir. Demək lazımdır ki, onomastik vahidlər içərisində ictimai təfəkkürlə bağlı olaraq, ən çox dəyişən antroponimlərdir.

Son illər Azərbaycanda özünü göstərən ictimai dirçəliş, milli idrakın güclənməsi mədəni həyatımızın bir sıra sahələrinin əsaslı şəkildə yenidən qurulmasını tələb edir ki, həmin tələblər içərisində mövcud antroponimik normativlərin yenidən nəzərdən keçirilməsi cəhdləri də vardır. Burada diqqəti cəlb edən cəhət xalqın öz milli mənəviyyatına, tarixən qazanmış olduğu ən yaxşı keyfiyyətlərə, folkloruna, mifologiyasına getdikcə daha ardıcıl, daha şüurlu şəkildə əsaslanmasından ibarətdir.

Müasir Azərbaycan antroponimikasında özünü göstərən proqressiv meyillər aşağıdakılardan ibarətdir:

1) Ərəb, fars konstruksiyalı, yaxud ərəb və fars sözləri ilə türk sözlərinin birləşməsindən yaranan mürəkkəb konstruksiyalı adlardan imtina olunması. Bu proses əsrimizin 20-30-cu illərində başlamışdır, lakin bu gün daha çox milli mövqedən aparılır.

2) Əsrimizin 20-30-cu illərindən etibarən adqoymada istifadə olunan, kifayət qədər vulqar xarakterli sovetizmlərdən (məsələn: *kommunist, sovet, sədr, kolxoz* və s.) imtina olunması – bu proses 60-cı illərin sonu, 70-ci illərin əvvəllərindən başlamışdır və bu gün də davam edir.

3) 40-50-ci illərindən başlayaraq Azərbaycan ono-

mastikasında keyfiyyət faktına çevrilən Avropa-rus adlarından (məsələn: *Robert, Telman, Elza, Amaliya, Svetlana, Larisa* və s.) imtina olunması. Bu proses bizim günlərdə xüsusilə güclüdür.

4) Qədim Azərbaycan antroponimiyasının "oyadılması" və bol-bol işlədilməsinə xüsusi marağın yaranması (məsələn, bu tipli adlar: *Aytən, Selcan, Toğrul, Qorqud, Aysel* və s.). Bu proses 60-cı illərdə meydana çıxsa da, o zaman zəif idi, hazırda xüsusi sürətlə genişlənməkdədir.

Qədim Azərbaycan antroponimiyasının "oyadılması", əslində, mürəkkəb prosesdir. Burada əsasən türk və bir də bəzi qeyri-türk mənşəli (lakin tarixən azərbaycanlıların işlədib orta əsrlərdə "unutduqları") adların fəallaşması başa düşülür. Həmin fəallaşmanı Azərbaycanın qədim tarixinə maraq, türk xalqları ilə əlaqələrin tədricən genişlənməyə başlaması və milli ruhun "həyəcanlan" müəyyən edir.

5) Familyaları, ata adlarını müşayiət edən formantların milli vahidlərə ifadəsinə güclü, lakin hələ "durulmamış" meyil vardır və əslində, həmin meyil yeni meydana çıxmışdır. Bununla belə bizim günlərin narahatlığında xüsusi əlamət kimi diqqəti cəlb edir. Ən çox mübahisə familyalar ilə bağlıdır – mətbuatda bununla əlaqədar müxtəlif müzakirələr də gedir və əsasən, aşağıdakı təkliflər üzərində dayanılır: a) *-lı, -li, -lu, -lü* formasının funksionallığının genişləndirilməsi; b) *-zadə* formasının funksionallığının genişləndirilməsi; c) eksperimental formalara (məsələn, *-soy, -gil: Cəfərsoy, Sadıqgil* və s.) üstünlük verilməsi.

Azərbaycan onomastikası problemləri
(Azərbaycan onomastikası problemlərinə
həsr olunmuş III elmi-nəzəri konfransın
materialları. 28-29 mart 1990-cı il).
Bakı, 1990, səh. 282-283

QƏDİM TÜRK ONOMASTİKASI

1. Məruzədə məqsəd zəngin qədim türk onomastik leksikasının bütün problemlərini təhlil etməkdən ibarət deyil. Biz çalışacağıq ki, həmin hadisənin (qədim türk onomastik leksikasının) tarixi bir sistem olaraq mövcudluğunu şərtləndirən məsələlərə, sadəcə, diqqəti cəlb edək. Yəni, bu məruzə bilavasitə faktlara yox, həmin faktlara analitik münasibətin belə daha düzgün olar deyək ki, ümumi metodologiyasına həsr olunur.

2. "Qədim türk onomastikası" dedikdə ən qədim zamanlardan I minilliyin sonu II minilliyin əvvəllərinə, yəni türklərin islama keçidinə qədərki dövrün türk onomastikası nəzərdə tutulur. Bu, təxminən beş min illik bir dövrün onomastikasıdır ki, aşağıdakı inkişaf mərhələlərindən keçdiyini güman etmək mümkündür:

I. E.ə. V minilliyin sonlarından e.ə. III minilliyin sonu II minilliyin əvvəllərinə qədər;

II. E.ə. III minilliyin sonu II minilliyin əvvəllərindən e.ə. I minilliyin ortalarına qədər;

III. E.ə. I minilliyin ortalarından I minilliyin ortalarına qədər;

IV. I minilliyin ortalarından I minilliyin sonu II minilliyin əvvəllərinə qədər.

Həmin mərhələlər türk cəmiyyətinin tarixi inkişafının, etnik coğrafiyanın genişlənməsinin, kulturoloji sistemin yenidən təşkilinin və s. nəticəsidir.

3. E.ə. V minilliyin sonlarından e.ə. III minilliyin sonu II minilliyin əvvəllərinə qədərki türk onomastikası əsasən Ön Asiya, müəyyən qədər də Orta Asiya ilə əlaqədardır. E.ə. V minillikdən etibarən bütün Ön Asiya yazılı mənbələrində özünü göstərən antroponim, toponim və etnonimlərin poten-

sial olaraq eyni zamanda türk zəminində izahı mövcuddur (bu barədə bax: prof. Y.Yusifovun, prof. Tofiq Hacıyevin, prof. Q.Voroşilin, Q.Qeybullayevin tədqiqatları).

4. E.ə. III minilliyin sonu II minilliyin əvvəllərindən e.ə. I minilliyin ortalarına qədərki dövrü əhatə edən II mərhələdə türk onomastikası ümumi Altay onomastikasının tərkib hissəsi kimi təzahür edir və Asiyanın cənub-qərbindən mərkəzinə qədər (Mərkəzi Asiyaya qədər) uzanan ərazidə faktlaşır. Həm I, həm də II mərhələdə qədim türk onomastikasının mənbə qıtlığı vardır.

5. E.ə. I minilliyin ortalarından I minilliyin ortalarına qədər türk onomastikası əvvəlki mərhələlərdəkindən fərqli olaraq eyni zamanda xüsusilə Şərqi Avropanı da əhatə edir. Hun yürüşləri ilə əlaqədar türk onomastikası Qərbə doğru "köçürülür" və həmin mərhələnin sonlarına doğru (eramızın ilk əsrlərindən başlayaraq) Avropanın şərqində türk-german-slavyan sosial-kulturoloji sistemi formalaşır ki, bu da türk onomastikasına təsir göstərir.

Ümumiyyətlə, bu mərhələdə və bundan sonrakı mərhələdə türk onomastikasının dini-ideoloji əsasını tanrıçılıq təşkil edir.

6. Qədim türk onomastikasının inkişafının sonuncu – IV mərhələsi daha zəngindir, əslində, əvvəlki mərhələlərlə müqayisədə nisbətən az zamanı (I minilliyin ortalarından II minilliyin əvvəllərinə qədər) əhatə etsə də, daha çox materialla təmsil olunur. Müxtəlif dini dünyagörüşlərinə malik olmaqlarına baxmayaraq, bütün türk etnosları üçün təxminən eyni onomastika xarakterikdir, bununla belə V-X əsrlər türk onomastikasının (xüsusilə antroponimikanın) iki tipini ayırmaq mümkündür:

a. Göytürk (oğuz) *onomastikası: Bumın kağan, İstemi kağan, İlteris kağan, İlbilqə katun, Qutluq kağan, Kapağan kağan, Bilqə kağan, Tonyukuk, Kül tiqin; Altun yış, Temir kapıq, Ötükən, Yinçü üqüz, Köçmen yış, Kem üqüz* və s.

b. Uyğur (karluq) onomastikası: *Moyun Çoru, Kuli Çoru, Aprın Çor tiqin* və s.

Lakin müşahidələr göstərir ki, islam dininin qəbuluna qədər türk onomastikası vahid bir sistem olaraq inkişaf edib formalaşmışdır ki, məsələnin metodologiyası tədqiqatların da məhz bu baxımdan, yəni vahid türk onomastik sisteminin tarixi mövcudluğunu qəbul etməklə aparılmasını tələb edir.

7. Qədim türk onomastikası üçün ən universal xüsusiyyətlərdən biri ondan ibarətdir ki, burada antroponim (şəxs adı), etnonim (etnos adı) və toponim (yer adı) adətən eyni vahidlə işarə olunmuşdur. Bizim tədqiqatçılarımız həmin məsələ ilə əlaqədar belə bir sxematik münasibətin mövcudluğunu təsdiq edir ki, qədim türkün təfəkküründə ad birinci növbədə antroponim (şəxs adı) kimi mövcuddur; məsələn: *Oğuz kağan;* sonra etnonimləşir (tayfa, xalq, millət adına çevrilir); məsələn: *Oğuz, Oğuz eli, oğuzlar* (yəni Oğuz kağanın övladları); nəhayət, toponim (yer adı) kimi çıxış edir: *Oğuz, Oğuz yurdu,* yaxud *İç Oğuz, Dış Oğuz* və s.

Qədim türk onomastikasının həm tarixi, həm də sinxron bir sistem olaraq təzahürü haqqında bəhs olunan münasibətdə də özünü göstərir ki, buna kifayət qədər nümunə vardır:

Türk, Uyğur, Karluq… Hətta: Tabğac, Tüpüt (bu sonuncuların şəxs adı kimi mövcud olub-olmadığını bilmirik, ancaq bunlar türkün təfəkküründə etnonimdən toponimə keçir).

8. XI-XII əsrlərdən etibarən türk onomastikası yeni keyfiyyət dövrünə qədəm qoyur, qədim dövr başa çatır. Və bu zamandan başlayaraq müxtəlif türk regionlarında onomastika çeşidlənir, özünəməxsus xüsusiyyətlər meydana çıxır ki, bundan sonra məhz orta əsrlər türk onomastikasından danışmaq mümkündür.

"Azərbaycan onomastikası problemləri"
(Azərbaycan onomastik problemlərinə həsr olunmuş IV elmi-nəzəri konfransın materialları, 26-27 mart, 1992-ci il), Bakı, 1992, səh.186-187

Ə.ƏBÜLHƏSƏN NƏSRİNİN DİLİ

Azərbaycan ədəbi dili tarixinin öyrənilməsi istiqamətindəki araşdırmalar, təbii ki, daha çox müəyyən mərhələlərin dil-üslub mənzərəsini öz əsərlərində əsasən verə bilən və ya həmin mərhələnin ədəbi dilinin cilalanmasında, inkişafında xüsusi xidmətləri ilə seçilən söz sənətkarlarının yaradıcılıqlarını tədqiqat obyektinə çevirir. Klassik yazıçı və şairlərin ədəbi dilin inkişafındakı xidmətləri daha qabarıq görünürsə, XX əsr sənətkarlarında bu hal bir qədər başqadır. Yəni Azərbaycan ədəbi dili XX əsrə qədər böyük bir zaman daxilində iki böyük hadisəni – ümumxalq və milli dil dövrlərini yaşamışdır və bu yaşamada təbii ki, qeyd etdiyimiz klassik sənətkarların (məsələn, Füzuli, Xətai, Vaqif, Axundov və b.) öz mövqeləri olmuşdur. Ədəbi dilin inkişafındakı Füzuli, Xətai, Vaqif, Axundov… mərhələləri də bununla bağlıdır. Nəhayət, XX əsrin 20-ci illərindən sonra öz milli inkişaf yolunu tutan ədəbi dilimizdə, onun inkişafında, zənginləşməsində bütün yazıçıların xidməti gözəçarpan deyil. Yəni 30-cu illərdən Azərbaycan ədəbi dilinin normalarında əsasən sabitləşmə yarandığından onun inkişafında fərdi-bədii üslublar xüsusi mərhələ təşkil etməsə də, əhəmiyyətə malikdir. Ona görə də ədəbi dilin üslublarının inkişaf mərhələləri və tipoloji hüdudlarının müəyyənləşdirilməsi üçün bədii üslubun uğurlu nümunə və nümayəndələrinin dil və üslub xüsusiyyətlərinin öyrənilməsi vacibdir. Bu mənada, Azərbaycan ədəbiyyatında özünəməxsus dəst-xətti olan xalq yazıçısı Ə.Əbülhəsənin dil və üslub xüsusiyyətlərinin öyrənilməsi də aktual məsələlərdəndir. Filologiya elmləri namizədi Misir Səfərov bu yaxınlarda dərs vəsaiti kimi N.Tusi adına ADPU-nun nəşriyyatında çap etdirdiyi "Ə.Əbülhəsən nəsrinin dili" adlı əsəri ilə bu problemin həllində uğurlu bir addım atmışdır. Əsərin elmi re-

daktoru professor A.M.Qurbanov, rəyçiləri professor Q.Xəlilov və dosent Z.Məmmədovdur.

Öncə deyək ki, əsər "Ə.Əbülhəsən nəsrinin dili" adlansa da, burada konkret olaraq müəllifin canlı cəbhə müşahidələrinin bədii ümumiləşdirilməsi (Ə.Bağırzadə) hesab edilən, xalq dili və ruhunun öz geniş və parlaq əksini tapdığı "Dostluq qalası" romanının dil və üslub xüsusiyyətləri araşdırılır; epopeyanın dilinin leksik əsası, söz tutumu ədəbi dilin müharibə dövrü xüsusiyyətlərinin aşkara çıxarılmasına zəngin material verir.

Əsər annotasiya, giriş, üç fəsil və nəticə hissələrindən ibarətdir. Girişdə əsərin yazılmasını şərtləndirən cəhətlər öz əksini tapır və müəllif Ə.Əbülhəsən yaradıcılığı zəminində görkəmli alimlərimizin fikirlərinə söykənməklə "Dostluq qalası" əsasında Azərbaycan ədəbi dilinin öyrənilməsində göstəriləcək xidməti əsaslandırır.

"Ə.Əbülhəsən "Dostluq qalası" romanının dili üzərində necə işləmişdir" adlanan birinci fəsildə, ümumiyyətlə, bədii əsərin dili üzərində işin sənətkarın qarşısında duran ən mühüm və çətin vəzifələrdən biri olduğu, bunun sənətkardan dil fəhmi və dil həssaslığı tələb etdiyi kimi fikirlər nəzərə çatdırıldıqdan sonra, həmin zəmin əsasında Ə.Əbülhəsənin dil və üslub istiqamətlərindəki yaradıcılıq işi üzərində dayanılır.

"Dostluq qalası" üzərində hər yeni – növbəti yaradıcılıq işini, hər dəfə romanın dilinin yeni – növbəti təkmili ilə əlaqəsini müşahidə edən M.Səfərov əsərin ilk çapları, jurnal variantları ilə sonuncu nəşrlərini müqayisə edərək müəyyənləşdirir ki, yazıçı ayrı-ayrı söz və ifadələri, cümlələri daha münasib qarşılığı ilə əvəz etmiş, fikir aydınlığı, məna tamlığı əmələ gətirmək üçün mətnə əlavələr etmiş, uzunçuluqdan, təsvirçilikdən qaçmaq üçün yeri gəldikcə ixtisarlardan da çəkinməmişdir. Bu yaradıcılıq prosesini ümumiləşdirməklə

müəllif yazıçının roman üzərindəki işini belə təsnif edir: Ayrı-ayrı söz, ifadə və cümlələr daha münasib qarşılığı ilə əvəz edilmiş; əsərin mətninə yeni söz, ifadə və cümlələr əlavə olunmuş; romanın mətnindən söz, ifadə və cümlələr çıxarılmışdır.

Müəllif qeyd edir ki, romanın ilk variantlarında fikrin dəqiq və dolğun ifadəsinə imkan verməyən sözlər, ifadələr və hətta şəkilçilər son variantda daha tutarlı və sərrastları ilə əvəz olunmuşdur ki, bunlar "təbii ki, əsərin dilinin zənginləşdirilməsində, onun təsir qüvvəsinin artırılmasında, ideyasının oxucuya daha yaxşı çatdırılmasında mühüm təkmilləşdirmə amili kimi qəbul olunmalıdır". Qarşılaşdırılan onlarca fakt müəllifin fikrini əsaslandırır.

Fikrin tam, bitkin və lakonik ifadə edilməsi üçün bədii təsvirlərin yenidən işləməsi və psixoloji əhval-ruhiyyənin daha sərrast nəzərə çarpdırılması məqsədilə aparılan təshihləri üzə çıxaran müəllif, bütün bunları romanın dilinin son məqamda uğuru kimi qiymətləndirir.

Mətnə əlavə olunan söz, ifadə və cümlələr, eləcə də bəzi söz və ifadələrin sonradan mətndən çıxarılması, üslubu yüngülləşdirmək üçün təkrardan qaçmaq, ixtisarlar aparmaq və s. istiqamətli saysız-hesabsız faktlarla M.Səfərov yazıçının "ehtiyatsız deyilmiş söz hikmətli nitqə daxil olduqda onun mənasını korlayıb məhv edə bilər" (M.Məmmədov) fikrini əsas tutaraq "Dostluq qalası" romanının dili üzərindəki inadlı və ardıcıl işini dolğun əks etdirə bilmişdir.

Vəsaitin, bizcə, daha maraqlı fəsillərindən biri "Dostluq qalası" romanının söz-lüğət tərkibi"dir. Müəllifin araşdırmA-ları, romanın dilinin leksik xüsusiyyətlərini öyrənmək üçün dəyərli faktları üzə çıxarır. Məhz bu faktlar tədqiqatçıya romanın sözlüyünü müəyyən prinsiplə təsnif etməyə imkan yaradır.

Maraqlı cəhətlərdən biri budur ki, müəllif romandakı

ayrı-ayrı sözlərin işlənmə tezliyini müşahidə etməklə, bunun səbəblərini də aydınlaşdırmağa çalışmış, ayrı-ayrı nitq hissələrinin daha çevik məna çalarlığı yaratmaq və müxtəlif üslubi-funksional vəzifə daşıya bilməsi baxımından fərqli cəhətləri olduğunu göstərmiş, fikirlərini əsaslandıran nümunələr vermişdir.

Əsərdə köhnəlmiş sözlər, onların keçid xarakterliliyi, tarixi kolorit yaratması, fərdi üslubla bağlılığı, ekspressiv vəzifə daşıması və s. kimi xüsusiyyətlərini açan M.Səfərov göstərir ki, Ə.Əbülhəsən romanın dilində arxaizmlərdən üslubi tələbdən asılı olaraq zəruri dil vahidləri kimi istifadə etmişdir.

Vəsait müəllifi romandakı loru söz və ifadələrin, ədəbi dildəki bir sıra sözlərin əvəzinə xalq danışıq dilindəki sinonim və qarşılıqlı variantların işlədilməsini ümumxalq danışıq dilinin milli ruhunun gücləndirilməsi, fikrin ifadə rəngarəngliyinə xidmət edilməsi kimi izah edir.

Romanda istifadə olunan dialektizm və xüsusilə hərbi terminlərin quruluş, məna və işləklik nöqteyi-nəzərindən maraqlı keyfiyyətlərini üzə çıxaran M.Səfərov fəslin sonunda bu qənaətə gəlir ki, “Dostluq qalası” romanının söz-lüğət tərkibi, Azərbaycan bədii nəsr dilinin xüsusi bir qolu kimi xalq yazıçısı Əbülhəsənin səciyyəvi-fərdi nəsr dilinin, epik təhkiyəsinin məna-üslub zənginliyi, bu dilin bəhrələndiyi qaynaqlar barədə, onun özünəməxsus təkmilləşmə və cilalanma yolları haqda dolğun və əyani təsəvvür yaradır.

Əsərin üçüncü fəslində “Dostluq qalası” romanında bədii sözün məna incəliklərindən danışılır.

İlk növbədə sözün çoxmənalılığı və bundan istifadə yolları, onun vasitəsilə yaranan üslub keyfiyyətləri barədə söhbət açan müəllif, fikirlərini açıqlamaq üçün romandan nümunələrə müraciət edir.

Ə.Əbülhəsənin “Dostluq qalası”ndakı obrazların daxili-

psixoloji vəziyyətini, düşdüyü şəraitə münasibətini, daha uğurlu üslubi priyom kimi frazeoloji vahidlər, atalar sözü və məsəllər, xalq deyim və ifadələri ilə təqdim etməsini təhlil edən M.Səfərov dilə yaradıcı şəkildə yanaşan bu sənətkarın, yeri gəldikcə əsərin ideyasının açılmasına, fikrin oxucuya tez və aydın çatmasına, əsərin dilində milli koloritin verilməsinə xidmətlə əlaqədar atalar sözü və məsəllərə yaradıcılıqla yanaşmağını da təqdir edir. Bu, həqiqətən belədir.

Təbii ki, əsərdən sadaladığımız və yeri gəldikcə münasibət bildirdiyimiz fikirlər bizdə ümumi bir razılıq hissi doğurdu.

Eyni zamanda, müəllifə irad və arzularımız də var və bəri başdan deyək ki, həmin iradlar problemin həllinə xələl gətirmir. Məsələn, diqqətsizlik üzündən xalq dilində işlədilən "azar" sözünün ədəbi dildə sinonimi "xəstəlik" yox, "xəstə" kimi verilmişdir. "Kədər-qüssə-fikir-xəyal" sözləri sinonim kimi təqdim olunur. Əslində isə, "kədər-qüssə" bir, "fikir-xəyal" isə ayn sinonimlərdir. Əsər boyu müəllifin fakt bolluğuna əmin olduğumuz halda, eyni nümunənin bir neçə dəfə işlənməsini də təqdir etmirik.

Vəsaitin dilini və üslubunu tədqiqatçının uğurlarından hesab edirik. Əsərin bir dərs vəsaiti kimi tədris prosesində qazanacağı uğurlara da inanırıq.

Məqalə F.Şahbazlı ilə birgə yazılmışdır.
"Azərbaycan müəllimi" qəzeti,
31 iyul 1992-ci il

TÜRK XALQLARININ BİRLİYİNƏ VƏ GƏLƏCƏK XOŞBƏXTLİYİNƏ İNAM OLMALIDIR

Məlum olduğu kimi, bu ilin mayında Ankarada türk dili qurultayı keçirilmişdir. Həmin qurultaya Azərbaycandan görkəmli mütəxəssislər, dilçi alimlər də dəvət olunmuşdular. Qurultay nümayəndələrindən biri ilə – N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin birinci prorektoru, filologiya elmləri doktoru, professor Nizami Xudiyevlə söhbətimiz müzakirə edilən məsələlər, çıxarılan nəticələr barədə oldu. Yeri gəlmişkən qeyd edim ki, Nizami müəllim dilçiliyə aid yüzdən çox elmi əsərin, ondan artıq monoqrafiya, dərslik və dərs vəsaitinin müəllifidir. Hazırda Azərbaycan ədəbi dilinin tədqiqi ilə bağlı elmi axtarışlarını davam etdirir.

– Nizami müəllim, iştirakçısı olduğunuz türk dili qurultayının başa çatdığı vaxtdan bir müddət keçmiş olsa da, mənə belə gəlir ki, orada müzakirə olunan məsələlər bu günümüz üçün əhəmiyyətlidir. Türk xalqları arasında güclənən yaxınlaşma, müxtəlif xarakterli əlaqələrin yaranması göz qabağındadır. Türk xalqları arasında əvəzsiz ünsiyyət vasitəsi olan türk dilinin indisi və sabahı dilçi alimlərimizi narahat etməyə bilməz. İştirakçısı olduğunuz mötəbər qurultayla bağlı ilkin təəssüratınız barədə nə deyə bilərsiniz?

– Türkiyəyə Naxçıvandan getdik. Səfər ərəfəsində Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyev bizi qəbul etdi və üç saata qədər davam edən söhbətimizdə Azərbaycanın bu günü, sabahı və gələcəyi ilə bağlı problemlər, elm və mədəniyyətin inkişafına aid aktual məsələlər ətrafında canlı fikir mübadiləsi keçirildi. Etiraf etməliyəm ki, Ali Məclisin sədrinin elmi-siyasi məlumatının genişliyi, məntiqinin

dərinliyi hamınızı heyran etdi. Türk xalqları arasında əlaqə, güclü yaxınlaşma söhbətin əsas mövzusu idi. Bu baxımdan qurultay bizim üçün elə bil Naxçıvandakı səmimi, işgüzar görüşdən başlandı.

Sərhədi keçəndən sonra bizi xalqımızın dostlarından biri olan İbrahim Bozyel qarşılayıb, mənzil başınacan müşayiət etdi. Ankaraya səhər tezdən çatdıq. Mən gündən-günə inkişaf edən, gözəlləşən Türkiyəni necə təsəvvür edirdimsə, o cür, hətta ondan artıq gördüm.

Qurultayda dünyanın bütün türk ölkələrindən, o cümlədən keçmiş İttifaqın türk respublikalarından 400-dək dilçi alim iştirak edirdi.

Türk dili qurultayı açış konuşmaları (plenar iclas) ilə başlandı. Kültür bakanı Fikri Sağların çıxışını dinlədik. Bütün çıxışlarda belə bir fikir öz əksini tapdı ki, türklər bu gün qarşısıalınmaz bir ünsiyyətə, sıx əlaqələrə, birləşməyə can atırlar və bu elə ehtiyacdır ki, bilavasitə etnik təfəkkürdən çağlayıb gəlir. Sonra isə söhbətlər aşağıdakı üç bölmədə daha konkret mövzular ətrafında davam etdirildi: əlifba, orfoqrafiya və yazı dili (ədəbi dil).

– Dediyiniz kimi, əlifba bölməsi də qurultayda əsas məsələlərdən biri kimi müzakirə mövzusuna çevrilib. Ümumiyyətlə, əlifba barəsində nə kimi razılığa gəlindi?

– Əlifba bölməsində diqqət, ümumiyyətlə, bir məsələyə verilmişdi ki, bu da hazırda müxtəlif mübahisələrin, rəsmi qərar və göstərişlərin mövzusu olan ümumi türk əlifbası yaratmaq məsələsidir. Həmin məsələ ətrafında gedən söhbətlər, aparılan polemikalar nəticəsində xüsusi qərar imzalandı. Qeyd olundu ki, 34 işarədən ibarət ümumi türk qrafik fondu qəbul edilsin və hər bir türk dili bu fond əsasında öz əlifbasını yaratsın. Əlbəttə, demək olmaz ki, bu, sonuncu razılaşmadır, ancaq artıq bir neçə ildir gedən mübahisələri, meydana çıxan mülahizələri ümumiləşdirmək

etibarilə əlifba komissiyasının qərarı, heç şübhəsiz, əməli xarakter daşıyır və yerinə yetirilməlidir.

– Bəs orfoqrafiya bölməsinin qərarı barədə nə demək olar?

– Orfoqrafiya bölməsinin qərarında tamamilə təbii olaraq, universallıq – ümumtürklük hələ öz geniş əksini tapmamışdı. Bu da onunla bağlıdır ki, müxtəlif türk dillərinin az və ya çox tarixi yazı ənənələrinə əsaslanan orfoqrafiya qaydaları üçün müştərək cəhətləri aydınlaşdırıb, ümumi prinsiplər müəyyənləşdirmək mümkün olmamışdı. Lakin bölmədə aparılan söhbətlər belə qənaətə gəlməyə imkan verir ki, ümumi qaydalar hazırlamaq nəinki mümkündür, hətta zəruridir.

Görünür, təkcə Azərbaycandan gələn nümayəndələrin deyil, ümumiyyətlə, qurultayın gücü daha çox yazı dili (ədəbi dil) bölməsinə verilmişdi. Ümumi əlifba, ümumi orfoqrafiya qaydaları nə qədər mühüm əhəmiyyətə malik olsa da, ümumi ədəbi dil məsələsi bütün bunların hamısını ehtiva etdiyinə görə daha aktual idi.

– Nizami müəllim, şəxsən siz öz çıxışınızda dilimizin hansı problemlərinə toxundunuz?

– Türk ədəbi dillərinin tarixi, eləcə də müasir problemləri ilə bağlı müəyyən məsələlər var idi ki, məni çoxdan düşündürürdü və çıxışımda məhz bu barədə bəhs etməyi qərara aldım. Hər şeydən əvvəl göstərdim ki, ümumi (ortaq) türk ədəbi dilinin həm nəzəri, həm də əməli ənənələri vardır. XX əsrin ortalarından etibarən müxtəlif mədəniyyət mərkəzlərində türk ziyalıları ümumi türk dilində (ümumən türklər üçün) yazmağa çalışmışlar. Nəticə etibarilə İsmayıl bəy Qaspralının məşhur “Tərcüman”ı meydana çıxmış və XIX əsrin sonu, XX əsrin əvvəllərini əhatə edən mürəkkəb bir dövrdə nəşr olunub, öz böyük tarixi missiyasını həyata keçirmişdir. Əlbəttə, ümumi türk ədəbi dili ayrı-ayrı

türk ədəbi dillərini inkar etmir. Ona görə ki, ayrı-ayrı türk ədəbi dillərinin mövcud keyfiyyətini mühafizə edir. Lakin ayrı-ayrı ədəbi türk dilləri də ümumi (ortaq) türk ədəbi dilini inkar etmir, əksinə, onların inkişafına müxtəlif baxımdan təsir göstərir. Müxtəlif səviyyəli türk ədəbi dillərinin qarşılıqlı əlaqələrini bilavasitə təmin etməklə bir tərəfdən ədəbi dilin genetik əsaslarını möhkəmləndirir, ikinci tərəfdən müştərək zənginləşmə sferası açır… Mənim fikrimcə, ümumi türk ədəbi dilinin üç yolla formalaşması mümkündür:

1. Müasir türk ədəbi dillərindən birinin (birinci növbədə Türkiyə türkcəsinin) ümumtürk ünsiyyəti vasitəsinə çevrilməsi ilə;

2. Müasir türk regionları üçün xarakterik olan bir neçə (oğuz, qıpçaq, karluq-uyğur və s.) türk ədəbi dilinin variantının təşəkkül tapıb, sonradan intensiv qarşılıqlı əlaqədə bir ədəbi dilə çevrilməsi ilə;

3. Türk xalqları arasında iqtisadi-mədəni əlaqələrin güclənməsi ilə əlaqədar olaraq türk cəmiyyətinin vahid ədəbi dil ehtiyacının meydana çıxması və müştərək nitq vərdişlərinə əsaslanan ədəbi dil quruculuğu ilə.

Mənə belə gəlir ki, ümumi türk ədəbi dilinin reallaşması bu sahədə görüləcək konkret işlərdən də bu və ya digər dərəcədə asılıdır. Hər şeydən əvvəl, bizə müştərək (bütün türklər üçün nəzərdə tutulan) qəzetlər, jurnallar, radio, televiziya, məktəblər, müxtəlif şirkətlər və s. lazımdır ki, haqqında danışılan ümumi nitq vərdişləri formalaşsın.

– Nizami müəllim, ümumi (ortaq) türk ədəbi dili barədə qurultayın mövqeyi necə müəyyənləşdi?

– Bu haqda qurultayın mövqeyi yazı dili (ədəbi dil) komissiyasının qərarında öz əksini tapdı. Qərarda göstərilir ki, türk xalqlarının qarşılıqlı əlaqələrinin güclənməsi, vahid məram və məqsəd müştərək ədəbi dilin formalaşmasına gətirib çıxarır. Ancaq onun qısa zamanda gerçəkləşdirilməsi,

zorla ümumi dil yaradılması da mümkün deyil. Siyasət, iqtisadiyyat, turizm, təhsil kimi dil xarici şərtlər bu ehtiyacı sürətləndirəcəkdir qənaətindəyik… Və bu qənaətdən çıxış edərək komissiya bir sıra konkret təkliflər verdi ki, bunlardan ən mühümü "bütün türklərə xitab edən" bir qəzet – "Türk dili" qəzeti nəşr etməkdən ibarətdir. Məktəbin həmin baxımdan çox mühüm amil olduğunu nəzərə alıb ümumiləşmə hərəkatının xüsusilə burada öz əksini daha intensiv tapıb gənc türklərin təfəkküründə möhkəm yer tutmasına çalışmaq tövsiyə edildi.

– Türkiyəyə səfəriniz barədə daha nələri demək istərdiniz?

– Ankaranı birinci dəfə idi ki, görürdüm. Möhtəşəm türk şəhəri məni heyran etdi, ürəyimi qürur hissi ilə doldurdu. Bu şəhərdə türklüyün əzəməti duyulur… Atatürkün məqbərəsində olduq, Azərbaycan demokratik hərəkatının banilərindən biri M.Ə.Rəsulzadənin məzarını ziyarət etdik. Müsavat partiyasının rəhbəri, Azərbaycan türkü Məmməd bəy Kəngərli və onun məsləkdaşları ilə həmsöhbət olduq.

Nəhayət, Kiçik Asiyanın qərbindən şərqinə yola başladıq. Bir zamanlar bu yolu səlcuqlar şərqdən qərbə bir neçə əsrə keçmişdilər, biz isə saatlarla ölçülən vaxta gəldik…

Mən qətiyyən o fikirdə deyiləm ki, türk dili qurultayı hər şeyi həll etdi, türkləri bütünlüklə birləşdirdi. Belə deyil, ancaq bu sahədə mühüm və zəruri, gözlənilən, ehtiyacdan irəli gələn bir addım atdı. Və mən hiss etdim ki, biz Bakıdan Ankaraya hansı inamla getmişdiksə, Ankaradan da Bakıya həmin inamla qayıtdıq. Bu, türk xalqlarının birliyinə və gələcək xoşbəxtliyinə inam idi. Bu özümüzün özümüzə inamımız idi!

Söhbəti yazdı:
Əmrah Fəqanoğlu.
"Nəfəs" qəzeti,
23-29 sentyabr 1992-ci il

TƏRCÜMƏ VƏ TERMİNOLOJİ LEKSİKA

Müasir dövrdə, yəni elm və texnikanın inkişafının hazırkı ən yüksək mərhələsində, heç bir dili terminlərsiz təsəvvür etmək mümkün deyil. Bu mənada Azərbaycan dilinin də özünəməxsus terminoloji sistemi mövcuddur. Demək lazımdır ki, bu sistem xüsusilə Azərbaycan ədəbi dilinin sovet dövründə xeyli inkişaf etmiş və zənginləşmişdir. Hətta qətiyyətlə demək olar ki, hər hansı elm və ya texnika sahəsinə aid terminologiya özü bütünlüklə bir sistem təşkil edir.

Azərbaycan ədəbi dilinin lüğət tərkibinin dinamik bir sahəsi olan terminoloji leksikanın zənginləşmə yolları müxtəlifdir.

Dilimizin terminoloji leksik-semantik potensialını zənginləşdirən ən mühüm vasitələrdən biri de tərcümə ədəbiyyatının dilində işlənən terminlərdir. Lakin bu cür terminlərin əksəriyyəti işləndiyi əsərin dili üçün səciyyəvidir. Yəni dilin inkişafının müəyyən dövrlərində bunlar işlənmiş və bədii ədəbiyyatda da norma kimi onlardan istifadə olunmuşdur. Müəyyən qismi isə ədəbi dilin sonrakı inkişaf dövrlərində öz işləkliyini itirmiş və ya yeni şəkildə modifikasiya olunmuşsa da, hər hansı dövrə aid tərcümə ədəbiyyatında onların mühafizəsi dilimizin leksikasının tarixi inkişafını, habelə alınma sözlərin keçid xüsusiyyətlərini öyrənmək cəhətdən maraqlıdır. Tərcümə ədəbiyyatında mühafizə olunan əcnəbi dil vahidləri, ümumilikdə alınmaların dilə daxil olma və dildənçıxma, həmçinin dilin lüğət fondunun yeniləşməsi proseslərini qiymətləndirməyə də real və geniş imkan yaradır.

Dilçilikdə terminlərin dilin zəruri ehtiyacı nəticəsində yarandığı dəfələrlə qeyd edilmişdir. Bu yaranma isə iki istiqamətdə gedir: birincisi, alınmalar hesabına termin yaradıcı-

lığı, ikincisi, hər hansı dilin mövcud leksik elementləri əsasında söz yaradıcılığı (1, səh.7).

Tərcümə ədəbiyyatında işlənən və ədəbi dilin lüğət tərkibinin leksik-semantik potensialını zənginləşdirən terminlərin öyrənilməsi bu cəhətdən aktual və əhəmiyyətli problemlərdən biridir.

Tərcümə ədəbiyyatı vasitəsilə dilə keçən terminlər digər terminlər kimi elmin bu və ya digər sahəsinə aid olub konkret məna, məzmun ifadə edir.

Tərcümə ədəbiyyatında terminlərin tədqiqi, ümumiyyətlə, bədii dildə onların işlədilməsinin elmi-sənətkarlıq prinsiplərinin meydana çıxarılması üçün şərait yaradır. Məsələn, Azərbaycan ədəbi dilinin lüğət tərkibində "feldşer", "riyaziyyat" terminləri mövcuddur. Lakin tərcümə ədəbiyyatında "feldşer" terminin işlədilməsi, daha doğrusu həmin terminin olduğu kimi saxlanması nə qədər qanunauyğundursa, "riyaziyyat" termini əvəzinə "matematika" işlədilməsi bir o qədər məqsədəmüvafiq deyildir. Lakin faktlar bir çox halla bunun əksini göstərir, belə ki, bəzən tərcümə ədəbiyyatında "matematika" terminindən istifadə edilir. Məsələn: *Kazlada taygöz* ***feldşer*** *Morozov oturmuşdu* (M.Qorki. Artamanovların işi. səh. 240). ***Matematika*** *müəllimi isə gözlüyün dalından kənara baxırdı* (V.Katayev. Tənha yelkən ağarır. səh. 157).

Məsələ burasındadır ki, sovet dövrü Azərbaycan ədəbi dilinin ilkin mərhələlərində lüğət tərkibinə rus dilindən bir çox terminoloji vahidlər daxil olmuşdur. Bunlar bir müddət dildə əvvəlcədən mövcud olan və işləkliyi hamı tərəfindən qəbul edilən ərəb-fars mənşəli sözləri sıxışdırıb çıxartmışdı. Lakin sonralar yeni alınan sözlərin müəyyən bir qismi, xüsusən ifadə çətinlikləri ilə bağlı olaraq işləkliyini itirməyə və yerini yenə də əvvəlki ərəb-fars mənşəli vahidlərə verməyə başladı. Məsələn, *matematika-riyaziyyat, inqilab-revalyusiya, ştab-qərargah, mədəniyyət-kultura* və s. Ədəbi dildə baş

verən belə dəyişmələr indi həmin dövrlərdə tərcümə edilmiş bədii ədəbiyyat nümunələrində də müşahidə olunur.

Tərcümə ədəbiyyatı hesabına dilimizin lüğət tərkibinə keçən terminlər elmin, texnikanın, incəsənətin bu və ya digər mühüm sahələrinə aiddir. Bu terminlər müxtəlif situasiyalarda, müxtəlif üslublarda, həm ayrı-ayrı obrazların dilində, həm də müəllifin öz təhkiyəsində işlədilir. Ona görə də həmin terminlər ümumxalq tərəfindən anlaşıldığı və işlədildiyi halda, bir qismi ancaq müəyyən ixtisas sahəsində çalışan mütəxəssislər tərəfindən başa düşülür və istifadə olunur. Odur ki, tərcümə ədəbiyyatı vasitəsilə dilimizə keçən terminləri şərti olaraq iki yerə bölə bilərik:

1. Hamı tərəfindən nisbətən anlaşılan, başa düşülən terminlər. Məsələn: *Hər gün görürəm ki, qonşularımızla bir yerdə oturub* ***hədis*** *oxuyurdu.* (Ərəb hekayələri. səh. 127); ***Pasxa bayramında*** *Natalyaya təzə paltar tikdirmişdilər* (M.Şoloxov. Sakit Don. II hissə, səh.231); ***Qarderoblar*** *əzirdi, eşirdi insanları* (M.Mayakovski. Seçilmiş əsərləri. I hissə, səh. 169); *Qara qurum buğumları* ***trubalardan*** *bol-bol çıxmağa başladı* (V.Katayev. Tənha yelkən ağarır. səh. 36); *Yalnız* ***artelçi****: "Yox, müqəssir deyildir", – deyə təkid edirdi* (L.Tolstoy. Dirilmə. səh. 124).

Bu nümunələrdə verilən *hədis, pasxa bayramı* (dini terminlər) *qarderoblar, trubalar, artelçi* (texnika və təsərrüfat sahəsinə aid terminlər) sözləri orta savad dairəsinə məxsus adamlar tərəfindən də başa düşülür ki, bu da onların ümumişlək səciyyə qazanması ilə əlaqədardır. Bunların müəyyən hissəsi etnik səciyyə daşısa da, millətlərin yaxınlaşdığı və mehriban qonşuluq şəraitində, birgə yaşadığı indiki dövrdə daha çox anlaşılır. Məsələn, *hədis* və *pasxa* bu qəbildəndir. *Qarderob* sözünün Azərbaycan dilində tam struktur-semantik ekvivalenti olmadığı üçün bu söz alınma söz kimi qəbul olunmuşdur. *Artel* sözü isə ədəbi dilin lüğət tərkibinə daxil

olan alınma vahidlərdəndir. Ümumxalq səciyyəsi qazanmış bu söz hətta milli şəkilçimizlə işlənmişdir. Bədii tərcümədə *truba* sözünün işlədilməsi isə sadə danışıq koloriti yaratmaq məqsədinə xidmət edir. Belə ki, ədəbi dildə onun *boru* qarşılığı olduğu halda *truba* sözünü işlətməyə ehtiyac olmazdı.

2. Tərcümə ədəbiyyatının dilində işlədilən, lakin başa düşülməsi nisbətən çətinlik törədən və yalnız aid olduğu sahələrin mütəxəssisləri tərəfindən işlədilən terminlər. Belə terminlərə aşağıdakıları misal göstərmək olar.

Doğrusunu demək lazımdır ***çudotvoreü*** *axır vaxtlar nədənsə özünü göstərmirdi* (V.Katayev. Tənha yelkən ağarır. səh. 88); *Behişdir, min* ***qaluşki*** *ötürür bir kərəmə* (V.Mayakovski. Seçilmiş əsərləri. II hissə, səh. 47); *Qızıl düymələri və çiynindəki* ***senzellərlə*** *bir sülh hakimini xatırladırdı* (M.Qorki. Artomanovların işi. səh. 212); *Anası dəhşətlə çağırır, atası, öz* ***uçalın*** *yerə tullayır* (Ərəb hekayələri. səh. 242).

Misallardan da göründüyü kimi, bu qəbildən olan terminlərin bir qismi ekzotik xarakter daşısa da onlar terminoloji səciyyəyə malikdir və termin kimi öyrənilir. Lakin onu da demək lazımdır ki, bu sözlərin olduğu şəkildə termin kimi işlədilməsinə bəzən ehtiyac hiss edilmir. Ekzotik xarakterli sözləri saxlamaq mümkündürsə, başqalarını olduğu kimi işlətməyə ehtiyac yoxdur. Onlar Azərbaycan dilinin daxili vahidləri əsasında yaradılan, yaxud əvvəldən mövcud olan vahidlərlə əvəz edilməlidir. Həmin sözlərin etimon dilindəki formasının saxlanması heç bir ehtiyac olmadan əsərin dilinin anlaşılmasını çətinləşdirir, deməli, bütünlükdə dili ağırlaşdırır. Ona görə də əsas olmadan belə sözlərin işlədilməsinə yol vermək olmaz.

Məlumdur ki, terminlər bir dildən başqa dilə keçərkən keçdiyi dilin fonetik-qrammatik normalarına uyğun işlədilməlidir. Əks təqdirdə dil nə zamansa həmin sözlərdən

imtina edir, onu özündən uzaqlaşdırır. Yuxarıdakı misallarda verilmiş terminlər də belələrindəndir. Düzdür, bədii əsərlərdə koloriti saxlamaq və əsərin özünün milli spesifikliyini qorumaq üçün milli səciyyəli sözləri saxlamaq lazım gəlir, bunlar ekzotizmlərdir. Lakin bütün terminlər ekzotizm deyil və çox halda onların tərcüməsinə ehtiyac duyulur.

Tərcümə ədəbiyyatı vasitəsilə dilimizin lüğət tərkibinə keçən terminlər məzmunca müxtəlif sahələrlə bağlıdır. Bunlardan ən çox diqqəti cəlb edən hərbi və ictimai-siyasi terminlərdir.

Karaçay-balkar dilində ictimai-siyasi terminləri təhlil edərək İ.M.Otarov yazır: “Изменения, происходящие в жизни общества, находят свое отражение в лексике языка. Особенно ярко это проявляется в общественно-политической терминологии связанной с производственными отношениями людей и “с различными вытекающими из них проявлениями деятельности во всех сферах общественной жизни” (2, səh. 6).

Bu hal bütün dünya dilləri üçün bu və ya digər dərəcədə eynidir.

Azərbaycan dilinin lüğət tərkibinə daxil olan hərbi və ictimai-siyasi terminlərin böyük əksəriyyəti rus dilindən keçmişdir. Belə terminlərin çoxu beynəlmiləl xarakterli olub, mənşəyinə görə müxtəlif dillərə aiddir.

Məlumdur ki, rus dilindən alınmış bir sıra sözlər vardır ki, onlar müəyyən fonetik-qrammatik dəyişikliyə uğradıqdan sonra dilimizin öz malına çevrilmişdir. Rus dilində olan *komitet* sözü Azərbaycan dilində *komitə* şəklində işlənir ki, bu forma dilimizin fonetik strukturu ilə daha çox uyğunluq təşkil edir. Belə olan halda, tərcümə prosesində komitə sözünün olduğu kimi saxlanması özünü doğrultmur. Bu zaman hətta söz birləşməsi formasında olduqda belə, kalkadan istifadə edilməlidir, yəni inqilabi komitə kimi

işlənməlidir. Kalka üsulundan istifadə birinci misalda xüsusilə özünü göstərir.

Sovet hakimiyyətinin ilk illərində rus dili vasitəsilə dilimizə yerli-yersiz, ehtiyac oldu-olmadı, külli miqdarda sözlər keçmişdi. Onların bəzisi dilimizin fonetik-qrammatik normalarına uyğunlaşdırılmamış, bəzisinin isə dilimizdə daha uğurlu qarşılığı var idi. Ona görə də bir müddət dilimizin leksik qatında hərc-mərclik özünü göstərdi. Düzdür, tezliklə bu hal aradan qaldırıldı, lakin bəzi hallarda həmin vəziyyətin təkrarlandığını müşahidə etmək olur.

Tərcümə ədəbiyyatı vasitəsilə dilimizin lüğət tərkibinə keçən hərbi və ictimai-siyasi terminlər semantik-struktur baxımdan daha maraqlıdır. Həmin terminlərin bir hissəsinin kök və əsasları olduğu kimi saxlanılır, lakin Azərbaycan dilinə məxsus qrammatik formalar qəbul edir. Bunu aşağıdakı nümunələrdən müşahidə etmək olur:

Bu, ***revolyusiyamızın*** *möhkəm iradəsidir* (V.Mayakovski. Seçilmiş əsərləri. I hissə. səh. 134); *Pavel onun özü dediyi kimi "xırda* ***burjua stixiyasına****" qapılmasını bəyənmir* (N.Ostrovski. Polad necə bərkidi. səh. 292); *Onların hamısını "****netovçuluğa****" qapılmaqda ittiham etməyi xüsusilə sevirdi* (M.Qorki. Özgə qapılarında. səh. 213); *Cümhuriyyət hürriyyətdir, firavan, şən yaşamaqdır.* (M.Ə.Əbhər. Könül tərənələri. cəh. 7).

Tərcümə ədəbiyyatında müəyyən dövr hadisələrinə aid terminoloji vasitələr orijinaldakına uyğun şəkildə saxlanılır və müəyyən situativ koloriti canlandırır. Məsələn: *Doğrudur,* ***eser firqəsinə*** *daxil olması ilə əlaqədar bu əməliyyat panomsovniki bir qədər narahat edirdi* (N.Ostrovski. Polad necə bərkidi. səh. 86); *Axı,* ***tufta*** *xalis bürokratdı – deyə Olqa acıqlı-acıqlı söylənməyə başladı* (Yenə orada. səh. 305); *– Yaramaz* ***provokator*** *bizi ələ verdi, gecə ikən hamımızı gəlib apardılar* (Yenə orada. səh. 194); *Açıq-aydın* ***sabotaj*** *etdiyi*

üçün dəmiryol meşə komitəsi rəhbərliyini işdən çıxarmaq, tədqiqat orqanlarına vermək (Yenə orada. səh. 252); *Kəndlilik onu* ***proletar psixolojisindən*** *ayırmırmı?* (Yenə orada. səh. 401); ***Soldatlar****, bolşevikləri müdafiə edin, onlar xain çıxmayacaqlar* (Yenə orada. səh. 125).

Misallardan göründüyü kimi, buradakı terminlərin bir qismi müasir dilimizdə olduğu kimi saxlanmış, digər qismi dilimizi tərk etmiş, nəhayət, üçüncü hissəsi fonetik-qrammatik dəyişikliyə uğramışdır. Məsələn, *eser firqəsi* birləşməsində *firqə* sözü müasir dilimizdə *partiya* sözü ilə əvəz edilmişdir, lakin müəyyən dövrün, yəni inqilabdan sonrakı ilk illərin koloritini yaratmaq üçün həmin sözün (*firqə)* işlədilməsi lazımdır. Müasir dilimizdə həm *psixologiya,* həm *psixoloji* sözləri vardır və bunlar məzmunca eyniləşsə də, əslində başqa-başqa sözlərdir və onları bir-birinin yerinə işlətmək olmaz.

Yuxarıdakı misallarda *proletar psixolojisi* birləşməsində də söz düzgün seçilməmişdir. Burada *psixoloji* əvəzinə, *psixologiya* işlənməli idi.

Beləliklə, bütün bunlar göstərir ki, tərcümə ədəbiyyatının yalnız məzmununa deyil, bütünlükdə sənətkarlıq məsələlərinə, o cümlədən dilinə ciddi fikir vermək lazımdır. Dilin mürəkkəb və dolaşıq sahələrindən olan terminologiya məsələsində isə daha ehtiyatlı olmaq, hər iki dilin xarakter xüsusiyyətlərini nəzərə almaq lazım gəlir.

Bir məsələni qeyd etmək lazımdır ki, son vaxtlar təkcə tərcümə ədəbiyyatı vasitəsilə də dilimizin lüğət tərkibinə ictimai-siyasi terminlər daxil olur. Həmin terminlərin şərhi, izahı, semantikası, orfoqrafiya və orfoepiyası ilə bağlı mükəmməl bir lüğətə böyük ehtiyac hiss olunur. Xatırladaq ki, 1907-ci ildə görkəmli bəstəkar Üzeyir Hacıbəyovun nəşr etdirdiyi "Türki-rusi və rusi-türki lüğəti" əsəri mətbuat, xüsusən qəzet oxuyanlara kömək məqsədilə tərtib

olunmuşdu. Lüğətin lüğətçilik tariximizdə mühüm yer tutmasının əsas səbəbi onun səhifələrində hər iki dilə – Azərbaycan və rus dillərinə dair ictimai-siyasi terminlərin əks olunmasıdır. Mütəxəssislərin qeyd etdiyi kimi, bu lüğət tərcümə lüğətindən çox izahlı lüğət xarakteri daşıyırdı. Məsələn:

İttihamnamə (ər.far.) – bir töhmət və cinayət üstə tutulmuş adam haqqında məhkəməyə verilən təqsir kağızı. Обвинительный акт. İdarə (ər) – dövlət işlərinin dolandırılması, правление və s.

Doğrudur, Azərbaycanda bir sıra ikidilli və izahlı lüğətlər çap olunub və həmin lüğətlərdə az miqdarda ictimai-siyasi terminlər də öz əksini tapıb. Lakin ictimai-siyasi terminləri əks etdirən mükəmməl, xüsusi bir izahlı lüğətə böyük ehtiyac hiss olunur.

ƏDƏBİYYAT

1. Terminologiya məsələləri. Bakı, 1987, seh. 7.
2. Отаров И.М. Очерки карачаево-балкарской терминологии. Нальчик, 1987, стр. 6.

“Nitq mədəniyyəti məsələləri”.
11 buraxılış. “Elm” nəşriyyatı,
1992, səh. 58-67

SƏNƏTKAR, SÖZ, ÜSLUB

Son dövrlərdə Azərbaycan filologiyasında fitri istedad və sənətkar, sözün poetikası, bədii ədəbiyyatın dil və üslub xüsusiyyətləri vahid elmi istiqamətdə, ümumi filoloji planda araşdırılma yoluna düşmüşdür. Filologiya elmləri doktoru, professor Xasay Cabbarovun yenicə çapdan çıxmış "Sənətkar, söz, üslub" ("Azərnəşr", Bakı, 1993) kitabı bu yolda uğurlu tədqiqatlardan biridir.

Üç bölmədən ibarət 200 səhifəlik bu monoqrafiyanın təkcə mündəricatını oxuyan hər bir filoloq dərhal hiss edir ki, dilçilik və ədəbiyyatşünaslıq, üslubiyyat və poetika elmlərinin inteqrasiyası haqda alimin çox geniş, sistemli və səmərəli fərdi konsepsiyası vardır. Üslubi kateqoriyalar, obrazlılığın bədiilikdən fərqli xüsusiyyətləri, bütün nitq vahidləri sırasında və dilin müxtəlif laylarında üslubi vasitələr sistemi, obrazlı fikrin əsas qaynaqları və növləri, ikili xarakteri – tabu və evfemizm mahiyyəti müxtəlif ədəbi növ janrların birbirindən fərqli üslubi-poetik xüsusiyyətləri, çoxsaylı poetik fiqur və məcaz növləri ilə bağlı təsnifatlar da bu fikrin doğruluğunu təsdiq edir.

Müəllif haqlı olaraq, elmi üslubun mühüm tələbi tək problemin tədqiqində və təhlilində həm üslubiyyat, həm də poetikada ortaqlı şəkildə işlənən bir çox terminlərin (üslub-üslubiyyat, poeziya-poetika, bədii-bədiyyə, obraz-obrazlılıq, obraz-tip, təqlid-bənzətmə, portret-karikatura, müqayisə-təşbeh, potensial obrazlılıq-poetik obrazlılıq, semantik motivləşmə, metaforikləşmə-metafora, poetik fiqurlar-məcazlar və s.) aydın izahını ön plana çəkir, "hərflər dilin, terminlər elmin əlifbasıdır" məramı ilə ən mühüm məsələlərin müfəssəl şərhini bu möhkəm bünövrə üzərində qurur.

Əsərdə fitri istedad və yaradıcılıq, ədəbi və bədii dil, söz, üslub və poetik obrazlılıq kimi həmişəyaşar sənətkarlıq məsələləri Azərbaycan şifahi və yazılı söz sənətinin bütün növ və janrları səviyyəsində tədqiqata cəlb olunur, həm ədəbiyyatşünaslıq, həm də dilçilik baxımından aydın təhlil edilir. Problemlə bağlı hər bir nəzəri fikir klassik və müasir ədəbiyyatımızdan seçilmiş nümunələrlə əsaslandırılır.

Kitabda "sənətkar, söz, fərdi üslub, poetik obrazlılığın sirləri, bədii üslubda nitq vahidlərinin emosional-ekspressiv vəzifəsi, gözəl nitqin əsas şərtləri, natiqlik məharəti, semantik motivləşmə və metaforikləşmə, obrazlı fikrin əsas qaynaqları və növləri, söz düzmək məharətinin səciyyəvi cəhətləri və başlıca örnəkləri, onda sənətin qızıl bölgü qanununa uyğun nizam, söz sənətində obrazlı təsvirlərin incəsənətin başqa növləri üçün ana bətni olması, potensial və poetik obrazlılığın vəhdəti məsələlərinin əhatəli elmi izahı filologiyamız üçün yenidir.

Dildə obrazlılıq yaradan fonetik-qrafik, leksik, semantik, onomastik-frazeoloji, morfoloji və sintaktik, üslubi-poetik vasitələrin sistemi, hikmətli sözlərin, müdrik kəlamların, obrazlı ifadələrin müxtəlif üslub növlərində yeri, dilin estetikası, estetik faktorlarda milli kaloritlilik, söz sənətində çoxsaylı poetik fiqur və məcaz növlərinin yaranışında müqayisənin rolu, təqlid obyektinə və bənzətmə istiqamətinə görə müqayisə növləri, əşya, hərəkət, rəng, hərf, söz, söz birləşməsi və cümlə modelli metaforalar, müxtəlif ədəbi növ və janrlarda obrazlı fikrin ifadə üsulları və vasitələri, nəzm, nəsr və dram dilinin, xüsusən, folklorun və uşaq ədəbiyyatının özünəməxsus üslubi-poetik xüsusiyyətləri çox geniş planda şərh olunur. Bu qlobal problemlə bağlı məsələlərin nəzəri izahında və sanballı bədii nümunələrlə əsaslandırılmasında qüvvətli polemika diqqəti daha çox cəlb edir. Polemik mühakimələrdə ciddi obyektivlik və ədalət meyarı, bu sahənin özünəqədərki

tədqiqatçılarına yüksək ehtiram hakimdir.

Ümumi qənaətimiz belədir ki, "Sənətkar, söz, üslub" kitabı orta və ali məktəblərdə dil-ədəbiyyat, üslubiyyat, nitq mədəniyyəti, natiqlik sənətinin əsasları, bədii mətnin linqvistik təhlili, ifadəli oxu, ədəbiyyatşünaslığın əsasları fənlərinin, eləcə də linqvistik poetika ilə bağlı xüsusi kursların daha səmərəli tədrisi üçün ciddi əhəmiyyətə malik bir dərs vəsaitidir. Eyni zamanda ədəbiyyat həvəskarları, yaradıcı gənclik, üslubiyyat, bədii dil və poetika problemlərinin gələcək tədqiqatçıları da mühüm mənbə kimi bu əsərdən lazımınca faydalana bilərlər.

"Azərbaycan müəllimi" qəzeti,
14 dekabr 1993-cü il

LEKSİK-SEMANTİK SİSTEMİN TƏKAMÜLÜ – KÖHNƏLMİŞ SÖZLƏR VƏ YENİ SÖZLƏR

Daxili imkanlar hesabına inkişafın formaları müxtəlifdir. Bir sıra sosial münasibətlərlə bağlı olaraq dildə sözlərin müəyyən qismi köhnələrək istifadədən qaldığı kimi, yeni sözlərin yaranması meyili də mövcuddur. Cəmiyyət həyatında sosial dəyişiklikləri və inkişaf perspektivləri ilə bağlı olaraq yeni sözlərin yaranması, habelə bəzilərinin köhnəlməsi prosesində intensivlik və ya lənglik müşahidə edilir. Müasir dövr cəmiyyət həyatını geniş inkişaf yoluna aparan hadisələrlə zəngin olduğundan, bu hadisələrə müvafiq şəkildə yeni sözlər meydana çıxırdı. Vaxtını başa çatdırmış ictimai hadisələr isə özləri ilə bərabər bir sıra sözlərin də köhnəlmə təməlini qoyurdu. Lakin dildə bütün köhnə ictimai hadisələr, münasibətlər və s. birdəfəlik ölüb getmir. Vaxtaşırı başa çatdırılmış hadisələrin gələcək nəsillərə bədii xatırladılmasında köhnə sözlərdən də istifadə olunur. Bu zaman köhnəlmiş sözlər əsas lüğət fondundan çıxır, lakin ədəbi dilin bədii üslubu hesabına ətalətlə mövcud olur.

Müasir dövrdə Azərbaycan ədəbi dili lüğət tərkibinin strukturunda gedən inkişaf, birinci növbədə, tarixi-ictimai mühitin dəyişməsi ilə əlaqədar olaraq köhnəlmə-yeniləşmə prosesinin güclənməsi ilə diqqəti cəlb edir. Hər iki proses (həm köhnəlmə, həm də yeniləşmə prosesi) dil təfəkküründə dialektik vəhdətdə mövcuddur, hətta o halda ki, məsələn, lüğət tərkibinin müəyyən sahəsi arxaikləşır, ona oppoziriya təşkil edən lüğəvi sahə yaranmır, həmin halda da vəhdət qalır. Çünki bu və ya digər sahədəki arxaikləşmə, yaxud yeniləşmə (lüğəvi vahidin istifadədən çıxması, yaxud istifadəyə bilavasitə daxil olması – yeni sözün yaranması

mənasında) elə bir assosiativ gücə malik olur ki, bütövlükdə leksik-semantik sistem daxilində kompensasiya verir.

Köhnəlmiş sözlər bir leksik vahid kimi, yalnız dilin passiv fondunda yaşayır, lakin keçmiş dövrə aid müəyyən əhvalat və ya hadisənin təsvirində həmin dövrü daha qabarıq canlandırmaq məqsədilə belə sözlərdən istifadə edilir. Bununla da dialektizmlər ilə köhnəlmiş sözlər arasında bir funksional oxşarlıq müşahidə edilir.

Dialektizmlərdə yerli kolorit əks olunduğu kimi, köhnəlmiş sözlərdə tarixi keçmiş və həm də müəyyən mənada milli kolorit ifadə edilir. Beləliklə, bir zamanlar dildə ümumişlək səciyyə daşıyan bu sözlər indi tarixi keçmişin təsviri ilə əlaqədar bədii ədəbiyyatda işlədildikdə ədəbi dilin bədiilik imkanlarının artmasına öz müsbət təsirin göstərir. Köhnəlmiş sözlər, bir qayda olaraq köhnəlmiş ictimai münasibətlər, insan fəaliyyətindən kənarda qalan əşya və hadisələr, istehsal vasitələri və s. ilə əlaqədar olaraq dilin aktiv fondundan passiv fonduna keçən vahidlərdən ibarətdir.

Dilçilik ədəbiyyatında köhnəlmiş sözləri tarixizmlər və arxaizmlər adı ilə iki qrupa bölürlər.

Tarixizm və arxaizmlər öz xarakterinə görə bir-birindən fərqlənir. Tarixizmlər müəyyən tarixi-ictimai dövrdə mövcud olmuş predmet və anlayışları bildirir. Tarixin yalnız müəyyən bir mərhələsində mövcud olmuş bu predmet və anlayışlar arada qalxdığı üçün, təbii olaraq onların dildə ifadə vasitəsi olan söz və ifadələr də işləklikdən qalır və dilin passiv lüğət fonduna keçir. Arxaizmlər isə onlardan fərqli olaraq indi də mövcud olan anlayışları bildirir. Lakin onların ifadə vasitələri olan dil vahidi müəyyən dövrdən sonra arxaikləşərək dilin passiv fonduna keçsə də, yenə yaşayan anlayış başqa vahidlər kimi işlənmiş *çəpkən, çadra, çarşaf və* s. sözlərin hazırda ədəbi dilimizdə sinonimləri olmadığı halda, insan fəaliyyəti, onun psixoloji vəziyyəti ilə əlaqədar arxaikləşmiş *düş, sayrü,*

əsrük və s. sözlərin müasir ədəbi dilimizdə qarşılığı kimi *yuxu, xəstə, sərxoş* sözləri işlədilir. Bununla da arxaizmlərin bədii ədəbiyyatda yenidən işlənməsinə lüzum qalmır. Tarixizmlər isə əvəzediciləri olmadığından tarixi və milli kolorit yaradan vasitələr kimi bədii dildə işlənmə imkanı qazanır və dilin ifadə vasitələri potensialını zənginləşdirməyə xidmət edir.

Tarixizmlərdə xalqımızın tarixi keçmişinə aid ictimai münasibətlər və insanın cəmiyyət həyatındakı fəaliyyəti ilə bağlı hadisələri əks etdirən mənalar ifadə olunur. Bunlar, əsas etibarilə aşağıdakılardan ibarətdir:

1. Geyim adları bildirənlər. Bu leksik vahidlər kişi və qadın geyimlərinin adlarından ibarətdir. Bunlar tarixi keçmişimizdə xalqımızın hansı geyimlərə malik olmasını öyrənmək baxımından da çox maraqlıdır.

Əvvəlki və daha qədim dövrlərlə səsləşən tarixi hadisələrlə əlaqədar bədii əsərlərdə işlədilən kişi geyim adlarından aşağıdakıları göstərmək olar: *Bağdad bəy də başqa kəndlilər kimi patavalı* ***çarıq*** *geyib, uzun tüklü qoyun dərisindən papaq qoyardı* (İ.Əfəndiyev). *Onun geydiyi* ***sərdarisi*** *ilə keçə araqçını hələ də başında idi* (I.Əfəndiyev). *O, başına mahud papaq qoyar, çiyninə tünd qəhvəyi* ***əba*** *salardı* (Makuli). *İsmayılın əynində güllü, xaraya oxşar Gəncə parçasından* ***kaftan*** *vardı* (P.Kərimzadə). *Qızxanım fırıldayıb yerindən çıxdı, taxçadakı ipək boxçanı açıb zoğalı* ***çuxanı*** *çıxartdı* (Y.V.Çəmənzəminli).

Qadın geyimləri adları içərisində üst geyimləri, xüsusən baş örtükləri adlarından ibarət olan sözlər diqqəti cəlb edir. Bunlar əsas etibarilə, büründcək kimi işlədilən geyim əşyaları adlarını bildirir. Bədii ədəbiyyatda belə adlardan aşağıdakılara daha çox təsadüf olunur:

Yetər arvadın əynində vur-tut köhnə bir ***çəpgəni****, rəngi solmuş bir tumanı, başında isə iki arşın cuna vardı* (Ə.Vəli-

yev). *Al, bu da sənin* ***çadran*** *– deyid çadranı İslama tərəf tulladı* (S.Hüseyn). *Küçədə bir arvad gördüm, bir uşağı* ***çarşaf*** *ilə dalına sarımış, birini də qucağına almış, özü də ayaqyalın* (C.Cabbarlı). *Axund da baldızının gəldiyinə çox şad oldu, onun üçün ay-ulduz* ***çarqat****, qızıl boyunbağı aldı, zərxara, paltarlıq aldı* (İ.Əfəndiyey).

2. Peşə adları bildirənlər. Keçmiş dövrə məxsus peşə adlarının bədii ədəbiyyatda işlədilməsi təsvirlə real gerçəkliyin ifadəsinə xidmət edir. Keçmiş dövrə aid bir sıra anlayışların ədəbi-bədii dildə ifadə vasitəsi kimi çıxış edən belə sözlərə dair aşağıdakıları göstərmək olar:

Ancaq ki, həyəti ***çərçilərə*** *satmışam, gərək çıxasan* (Mir Cəlal). *Mən onu çox yaxşı tanıyıram. O iyirmi il əvvəl* ***ələf*** *idi* (S.Hüseyn). *Bayraq oldu ellərə;* ***Cütcülərin*** *ağzında* (S.Vurğun). *Anam Rüstəm müəllimi məzəmmət elədi: –* ***Dabbax*** *Abdullanın oğlundan nə olacaq, – dedi* (*İ*.Əfəndiyev).

3. Vəzifə adları bildirənlər. Keçmiş dövrə aid vəzifə adları bildirən sözlərin bir qismi Azərbaycan dilində daha əvvəlki dövrlərdə yaranmış olsa da, müəyyən qismi sonrakı vaxtlara aiddir. Hər iki söz qrupu istər insanın ictimai həyatdakı fəaliyyəti və istərsə də sosial-siyasi əhəmiyyəti baxımından köhnəldiyi üçün müasir ədəbi dilimizin fəal lüğət tərkibindən çıxmışdır. Bədii ədəbiyyatda isə həmin dövr hadisələri ilə bağlı real gerçəkliyi ifadə etmək baxımından belə sözlərin işlədilməsinə ehtiyac olur. Azərbaycan dilində keçmiş ictimai-quruluşla bağlı real yaranmış bu cür sözlərdən aşağıdakıları göstərmək olar:

Axı mən ***dalandar*** *adamam, alverdən nə başım çıxır? İki günlə qazancım qudurum mayanı yeyər* (M.Hüseyn). ***Dalandar*** *ilə ona xəbər göndərdim, məni bir də görsün, – dedi* (S.Hüseyn). ***Cilovdarlar*** *atların başından yapışıb aramla addımlayırdılar* (Y.V.Çəmənzəminli). *Düz yeddi ildir ki,* ***sərkarlıq*** *eləyir, hələ bilmədikləri də var* (Ə.Vəliyev).

Dəftərdar *Qədirin vəsiqəsinə baxdı, uzun, çirkli və kənarları sürtülmüş dəftəri onun qabağına itələdi ki, "qol çək"* (Mir Cəlal). *Yeni qonaqlar oturan kimi* ***pişxidmət*** *hazır oldu* (Y.V.Çəmənzəminli). *Sonra geyimindən saray* ***fərraşına*** *oxşayan adam başını içəri uzatdı* (T.Kərimzadə). *Beş il sürgündə olub, on ilə yaxın Bakıda neft mədənlərində* ***dartayçılıq*** *eləyib* (Ə.Vəliyev).

Vəzifə adları bildirən köhnəlmiş sözlərin bir qismi isə Azərbaycan dilində bilavasitə Rusiya ilə əlaqələrin genişləndiyi dövrlərdə yaranmışdır. Sonralar vəzifə bildirən belə adlar sosial-linqvistik baxımdan gərəksizləşdiyi üçün lüğət tərkibinin ümumişlək hissindən kənarda qaldı. Bununla yanaşı, keçmiş dövr hadisələri ilə bağlı olaraq, bədii əsərlərdə bunlardan aşağıdakılara təsadüf edilir:

Girdovoy *gəlib çığırdı* (M.Hüseyn). *Sonrada da Bəndalı* ***yüzbaşının*** *neçə il qaçaqlıq eləyib keçən il üzə çıxan kiçik qardaşı Çıraq da gəlib qonaqlara "xoş gəldin" elədi* (İ.Əfəndiyev). *Bu zaman iri bığlı uryadniklə* ***strajniklər*** *tələsik gəldilər* (İ.Əfəndiyev). *Cənab* ***pristav****, kəndin arasını gəzib nəzarət edirik* (İ.Əfəndiyev). ***Silisçinin dilmancı*** *ona salam verir, köhnə* ***pristavın*** *qohumu olduğu üçün ayağa durur* (C.Cabbarlı).

4. Məişət əşyalarının və əmək alətlərinin adlarını bildirənlər. Keçmiş məişətdə işlədilən əşya adları dövrün ictimai hadisələrinin qabarıq ifadəçisidir. Buraya istər gündəlik həyatda işlədilən, istərsə də müəyyən hadisə, ənənə ilə əlaqədar istifadə olunan əşyaların adlarından bədii ədəbiyyatda aşağıdakılara təsadüf olunur:

Belində zümrüd qaşlı kəmər, əynində ***qanovuzdan*** *köynək, onun üstündən pərəngli küləçə də vardır* (T.Kərimzadə). ***Sərnic*** *boğazlama köpüklənib, atam-anam da nəfəs dərməçən dinləyiblər* (B.Bayramov). *Tərlan bacı, Allah heç kəsin* ***tabağında*** *çörəyini bir dənə eləməsin* (P.Makulu) və s.

Müəyyən məişət hadisələri və müxtəlif ənənələrlə əlaqədar işlədilən əşya adlarına dair aşağıdakıları göstərmək olar:

Sonralar ***xurcunlu*** *kişi özü də ehtiyatla gələrdi* (Mir Cəlal). *Bir küncdə boz* ***cecimə*** *sarınmış bir bağlama, onun da üstündə ucuz çitdən bir yastıq qoyulmuşdur* (P.Makulu). *Ağ kəfənli adamlar zikr deyib başlarını* ***gorda*** *ilə yarırlar* (Y.V.Çəmənzəminli). *Mehtərxanadan bir dəst kişi paltarı geyib bəyin də bir* ***xurcun*** *qızılını, berdanka tüfəngi ilə paslı* ***gordasını*** *da götürüb qaçmağa hazırlaşdı* (Ə.Vəliyev) və s.

Müasir dövrdə elmi-texniki inkişafla əlaqədar, keçmişin bir sıra kustar məişət əşyaları sıradan çıxmışdır. Lakin həmin əşyaların mövcud olduğu məişət həyatını canlandırmaq və müasir oxucunun təsəvvür dairəsini genişləndirmək baxımından bədii ədəbiyyatda həmin əşyaları ifadə edən leksik vahidlərin işlənməsinə təbii ehtiyac duyulur. Bədii əsərlərdə bu qəbildən olan sözlərə də rast gəlmək olar:

Kiminin öküz, çoxunun toxumu, bəzilərinin də ***cütü*** *yox idi* (Ə.Vəliyev). *Bir də görürdün təkərin dəmiri çıxdı,* ***samı*** *sındı* (T.Hüseynov). *Çoxdandır kiriyib əyri* ***çöhrəsi****; Atılıb bir yana odun dəhrəsi* (S.Vurğun). *Bu əriş-arğacdı, o gördüyün* ***kirgitdi*** (M.Aslan). O *da gonbul* ***həvədi****; Dişi sanki dəvədi* (M.Aslan). ***Giriş çöhrə*** *ilə ipi calaşdırır, anam qurudulmuş yunu daraqda darayıb əyirirdi* (Ə.Vəliyev) və s.

5. Dinlə bağlı olanlar. Ümumişlək leksikanın mühüm bir qismini dinlə bağlı leksik vahidlər təşkil edir. Bədii ədəbiyyatda dini ayinlərin icrası ilə bağlı sözlərə dair aşağıdakı nümunələri göstərmək olar:

İftar *süfrəsində üstü darçınlı halva bir yanda hazır idi* (S.Hüseyn). *Sən mənim nər kimi öküzümü bu boyda pitiyə satmısan. O pitik sənə çox baha oturacaq* (Ə.Əylisli) və s.

6. Keçmiş ictimai münasibətlərlə bağlı olanlar. Bu qrupa daxil olan sözlər keçmiş imtiyazlarla, təbəqələrlə,

habelə quruluşun xarakterinə uyğun anlayışlarla bağlı işlənən leksik vahidlərdən ibarətdir. Sinfi münasibətləri ifadə edən bu tipli sözlərdən aşağıdakıları göstərmək olar:

Mirzə Əliməmməd ***ağa*** *təşrif gətiribdir, – dedi* (Y.V.Çəmənzəminli). *Min il qamçı vurdu bizə* ***mülkədar****; Nə xıfman; nə də dərz gördü qapımız* (S.Vurğun). *Bu* ***qolçomaq*** *çox nüfuzlu adamlara yamanlıq eləyib* (Ə.Vəliyev). *İyirmi yaşlı Muxtar qonşu kəndlərin birində* ***muzdluq*** *edirdi* (Ə.Vəliyev) və s.

Beləliklə, müasir dövrdə Azərbaycan ədəbi dilində köhnəlmiş sözlərin mövcudluğu məsələsi əslində mürəkkəb məsələdir. Bir tərəfdən hələ XVI-XVII əsrlərdən etibarən arxaikləşmiş leksik vahidlərin qeyri-ardıcıl olsa da işləkliyi diqqəti çəkir, digər tərəfdən inqilabın xalqın həyatına daxil olması ilə bağlı olaraq köhnə dünyanın anlayışları təcrid edilir və köhnəlmiş sözlərin ikinci "nəsli" meydana çıxır. Arxaizmlər, tarixizmlər ədəbi dilin lüğət tərkibində xüsusi üslubi rol oynadıqlarına görə, onların normativ ünsiyyətdən çıxması da, üslubi amil kimi dilə yenidən qayıdışı da "lüğət tərkibinin inkişafı" anlayışında ehtiva edilir, arxaikləşmənin dialektikası bu cür baş verir.

Daxili imkanlar hesabına lüğət tərkibinin zənginləşməsi – inkişafı, şübhəsiz, birinci növbədə arxaikləşmə prosesi ilə yeni sözlərin yaranması prosesinin məntiqi əlaqəsində özünü göstərir: xeyli miqdarda söz köhnəlir (inqilabın məhv etdiyi ictimai-mənəvi münasibətlərin bütöv bir sisteminin tarix sahəsindən çıxması ilə əlaqədar olaraq), eyni zamanda bundan da qat-qat çox söz (ifadə) yaranır. Hər iki proses bilavasitə ekstralinqvistik amillərlə – sosialist inqilabı, ETİ ilə bağlıdır. Lakin ədəbi dilin lüğət tərkibindəki köhnəlmə – yeniləşmə hərəkatının (əslində, köhnəlmə və yeniləşmədən ibarət iki prosesin müstəqilliyi şərtidir. Biz bu şərtilikdən çıxış edib həmin prosesləri məntiqi əlaqədə – vahid hadisə

kimi alırıq) linqvistik tərəfi mövcuddur. Buraya aşağıdakıları daxil edirik:

– lüğət tərkibində köhnəlmə-yeniləşmə hərəkatının faktlaşma imkanı, yəni köhnəlmə-yeniləşmə prosesini ictimai-psixoloji hadisə kimi dil hansı intensivlikdə qəbul edir;

– köhnəlmə-yeniləşmə hərəkatı lüğət tərkibində söz yaradıcılığı prosesinin hansı istiqamətlərini passivləşdirir, hansıları isə aktivləşdirir;

– nəhayət, köhnəlmə-yeniləşmə hərəkatı leksik-semantik sistemə necə təsir göstərir, hansı leksik-semantik sahələrin həcmini daraldır, hansıların həcmini genişləndirir.

Dil faktlarının ardıcıl olaraq təsdiq etdiyi kimi köhnəlmə-yeniləşmə hərəkatı ədəbi dilin lüğət tərkibini müasir dövrdə yeni təfəkkürün ifadəsi üçün əlverişli səviyyəyə çatdırır. Əlbəttə, bir daha qeyd edək ki, bu, daxili imkanlarla ehtiva olunan proses kimi maraqlıdır, alınma sözlər burada köməkçi rola malikdir və milli-leksik sistemin təkamül qanunlarına, prinsiplərinə tabe olur.

Köhnəlmə prosesi söz yaradıcılığında daha çox sintetik məqamı passivləşdirir, yeniləşmə prosesi isə analitik məqamı fəallaşdırır. Əslində bunun ancaq linqvistik yox, qneseoloji linqvistik səbəblərindən bəhs etmək olar. O mənada ki, dil təfəkkürünə müasir dövrdə (xüsusilə 50-ci illərdən etibarən) daxil olan anlayışlar bir qayda olaraq iki müxtəlif anlayışın məntiqi-funksional inteqrasiyasından yaranır.

“Ortoloji linqvistik fənlərin
tədrisi problemləri”, APİ nəşri,
1994-cü il, səh. 24-31

SÖZLƏR TARİXİ YAŞADIR

Slavyan xalqları ilə əlaqə yaradıb saxlayan türklər yetkin ictimai-mədəni inkişaf səviyyəsinə malik olmuşlar. Və rus dilinə həyatın demək olar ki, bütün sahələrini əhatə edən dil elementləri – söz vermişlər.

Məsələ ilə bağlı qeyd edək ki, ruslarla türklərin birbaşa əlaqələri sayəsində hətta bu dilə, həmçinin Ukrayna, Belorus dillərinə də türklər tərəfindən daha əvvəldə mənimsənilmiş ərəb, İran, monqol, sanskrit dillərinə məxsus sözlər məhz türk dilləri vasitəsilə keçmişdir.

Rus dilinə türk leksik elementlərinin geniş şəkildə daxil olması prosesi eramızın I-VIII əsrlərində, hələ slavyan tayfa birlikləri ilə, yəni hələ lap Kiyev Rus dövləti yaranana qədərki dövrdə başlamışdı.

Rus dilindəki türk (şərq) elementlərinin elmi cəhətdən öyrənilməsinə XVII əsrin sonlarında başlanılmışsa da, bu problemə güclü maraq yalnız XIX əsrdən hiss olunur. Qürurla deməliyik ki, rus dilindəki şərq elementlərinin öyrənilməsi işinin ilk qaranquşlarından biri həmyerlimiz şöhrətli alim Mirzə Kazım bəy olmuşdur.

Artıq XX əsrin əvvəllərinə doğru rus dilində türk elementlərinin araşdırılması rus türkologiyasında ardıcıl və ahəngdar axarına düşür. Xüsusən P.İ.Melioranskinin monqollara qədərki rus yazılı abidələrində, o cümlədən, "İqor alayı haqqında dastan"ın dilindəki türkizmlərlə bağlı yazdığı məqalələri bu gün də ilk nümunələrdən olmaq etibarı ilə dəyərini eynilə saxlamaqdadır.

Lakin yenə də bu sahədə iş XX əsrin ortalarından başlayaraq tamamilə yeni məna, yeni qiymət və əhəmiyyət kəsb etməyə başlayır. Stalin epoxasının sonlarına doğru sərt rejimin artıq mülayimləşən iqlimi və böyük qələbənin məmnunluğu

içində (Böyük Vətən müharibəsindəki qələbə nəzərdə tutulur) xalqlara əta olunan "əfvi-ümumi" asudəliyində görkəmli türkoloq N.Dmitriyevin tədqiqləri, xüsusən "Türk dillərinin quruluşu" əsəri tarixi obyektivliyin və ədalətin bu yolda ilk bəhrələrindən sayılmalıdır.

Qısa zaman fərqləri və Avropada nəşr olunan K.Mengesin "İqor alayı haqqında dastan"dakı şərq elementləri, M.Fasmerin dörd cildlik "Rus dilinin etimoloji lüğəti" yeni və cəsarətli axtarışların nəticəsi olaraq meydana çıxdı.

Türkologiya aləmində dərhal əks-səda doğuran, nəfis, səmimi, eyni zamanda doğmalıq, qədirbilənlik duyğuları ilə yazılmış, elmiliklə poetik hisslərin qovuşduğu Oljas Süleymenovun "Az-Ya", N.Baskakovun "Türk mənşəli rus soyadları", "İqor alayı haqqında dastan"ın türk leksikası tədqiqləri türkologiyanın üfüqlərini birdən-birə genişləndirdi.

Tarixçi-filoloq alim N.Baskakovun istər adı çəkilən həmin əsərlərində, istərsə də bu mövzudakı tarixə sədaqət hisslərilə yazılmış digər əsərlərində türk xalqlarının rusların maddi və mənəvi mədəniyyətlərinin bir çox sahələrində möhür kimi qoyduğu izlər qeydkeşliklə xatırlanır. O da maraqlı haldır ki, XII əsr rus tarixi-ədəbi abidəsi olan "İqor alayı haqqında dastan"da türk sözlərinin varlığını göstərərkən Baskakov hətta "Dastan"ın müəllifinin nəinki türkcə yaxşı bildiyini və türk ədəbi-bədii aləminin zənginliklərinə bələd olduğunu, hətta əsərin müəllifliyinə qıpçaq türklərini ortaq olaraq göstərir. Elə bu istiqamətdə və bu ruhda olan tədqiqatlardan başlayaraq türkologiyada slavyan xalqları tarixində türklərin vacib və danılmaz rolu parlaq şəkildə təqdim edilməyə başlanır. Tarixə və eləcə də qaba, həm inadkar, həm də mühafizəkar mentalitetə olan ötkəm, cəsarətli və ədalətli müdaxilələr təsirsiz qalmır. Türkologiyadakı irəliləyişlər və hər bir tapıntılar, nailiyyətlər həmin əsərlərin artıq bir məktəb qədərki gücünü göstərir. Bu məktəb A.Kononovun, İ.Dobrodomovun, V.Arakinin… bu yoldakı

zəhmət və uğurları ilə daha da möhkəmlənmişdi.

İndi belə tədqiqatların Azərbaycanda da aparılması gözlənilməkdədi. Çox yaxşı haldır ki, hazırda bizim öz alimlərimiz tərəfindən türk mənşəli xüsusi və apelyativ sözlərin slavyan dillərində rolu lazımınca araşdırılmağa başlamaqdadır. Çünki istər öz obyektivliyi, istərsə də aktivliyi baxımından bu mövzunun respublikamızın tam müstəqillik əldə etdiyi dövründə işlənməsi uğurlu və səmərəli nəticələr verə bilər. Müəllif Minaxanım Təkləli (Nuriyeva) uzun illər üzərində işlədiyi "Rus dilində türk sözləri" tədqiqatını tamamlamış, respublikada son zamanlar ana dilinin vüsətinin artırılması ilə bağlı həyata keçirilən tədbirlərlə bir sırada bu mövzunun həm dərin, həm də əhatəli həllinə çalışmışdır.

Kitabda rus dilinin hələ ilk dövrlərində – onun qədim abidələrində işlənmiş türk sözlərinin bir neçə yüz illiklər boyunca bu dilin lüğət tərkibindəki mövqeyi, rolu, eləcə də bu dildə qazandığı zəngin işlənmə xüsusiyyətləri araşdırılmışdır. Əslində rus dilindəki türk mənşəli sözləri dünya dillərində baş verən və təbii hal sayılan söz alınması mübadiləsi prosesinin tam eyni kimi qəbul etmək də düz olmazdı. Çünki bu sözlər türklərin tarixə mədəni təsirinin göstəriciləri olmaqla yanaşı, türk xalqlarının rus xalqının tarixi taleyində oynadığı mühüm rolu da aşkarlayan mühüm faktlardır.

Kitabın da bütövlükdə qayəsi rus dilindəki ümumtürk mədəni irsinin qədimliyinin və zənginliyinin bariz göstəriciləri olan türk sözlərinin əslində ruslarla türklərin qədim əlaqələrini şərtləndirən tarixi bir prosesin nəticəsi kimi dəyərləndirilməsindən ibarətdir.

Kitabda həmçinin rus mənbələrinin köməyi ilə bir çox məşhur rus şəxsiyyətlərinin adlarının (soy adlarının) və eləcə də onların etnik mənşəyinin türklərlə, türk dili ilə bağlı olduğu və türklərin dünya sivilizasiyasında böyük tarixi xidmətləri aşkar edilərək araşdırılmışdır.

İctimai-iqtisadi və siyasi həyatın bir çox sahələrini əhatə edən türk sözlərinin, eləcə də qədim və zəngin türk onomAstikasının slavyan dillərinə dərindən nüfuz etməsi halları tarix boyunca mütəmadi duyulmuş, bu proses hər zaman, hər yerdə intensiv hal almışdı. Odur ki, istər müəllifin bu dil əlaqələrinə öz yeni münasibəti, istər bu ardıcıl tarixi mərhələlərin düzgün qiymətləndirməsi, istərsə rus dilindəki türkizmlərin tarixi-linqvistik təhlili və s. kimi məsələlərin kitabda əksi təqdirəlayiq qarşılanmalıdır.

Ümumtürk əlaqələri fonunda XIX əsrin başlanğıcında Qafqazın, o cümlədən Azərbaycanın işğalı ilə əlaqədar olaraq rus dilinə türk dililə ünsiyyət quran Qafqazdan – Azərbaycandan keçən türk sözlərinin dəyərləndirilməsi tədqiqatda ayrıca qabarıqlaşdırılmışdır. Bu hal həm rus dilinə sözvermə prosesinin sönmədiyini, əksinə, davam etdiyini göstərməklə yanaşı, rus dilindəki ümumtürk irsində Azərbaycan türkcəsinin yerini və payını müəyyənləşdirməyə kömək edir.

Mövzu böyük rus yazıçılarının – A.S.Puşkin, L.N.Tolstoy, A.Qriboyedov, M.Lermontov, N.Qoqol, İ.Turgenev, N.Leskov, A.Kuprin, A.Çexov, İ.Bunin, M.Qorki və bu kimi dünya miqyaslı sənətkarların dil materialları üzrə işlənilmişdir. Çünki hər bir söz-türkizm uzun müddət bədii dildə işlənə-işlənə cilalanmış, təbii olaraq həmin dilin zəruri ifadə vasitələri sırasına keçə bilmişdir.

Rus dilində qədim və məzmunlu işlənmə tarixi olan türk mənşəli sözlərin geniş mənzərəsini verən və bu sözlərin, eləcə də türk onomastik vahidlərinin rus dilində yerini və mövqeyini göstərən bu əsər, bizim fikrimizcə, mütəxəssislər və tələbələr üçün, eyni zamanda geniş oxucu kütləsi üçün də maraqlı və faydalı əsər olacaqdır.

Minəxanım Təklənlinin
"Rus dilində türk sözləri" kitabına ön söz.
"Elm" nəşriyyatı, 2001, səh. 1-4

NOVRUZA YENİ TÖHFƏ

Xalqımızın mənəvi dəyərlərini küll halında qoruyub saxlayan ən bitkin bədii forma milli bayramımız olan Novruzdur. Uzun zaman yalnız yazın gəlişi, təsərrüfat həyatının canlanması kimi haqqında bəhs olunan Novruz əslində islamaqədərki, türk xalqlarının etnopsixologiyasının, ən əski inamlarının, təbiət, cəmiyyət, ətraf mühit, kosmik aləm haqqında düşüncələrinin, məişət, təsərrüfat vərdişlərinin, bolluq, bərəkət, xeyirxahlıq arzularının, niyyətlərinin ifadəçisidir. Min illərin üstündən aşıb bu günümüzə şifahi şəkildə yetişən ən təkmil ədəbi-mədəni abidə Novruz, həm də mifik dünyagörüşün elə qatlarını ehtiva edir ki, istər folklor araşdırıcıları, istərsə də tarixçilər, etnoqraflar, filosof və astroloqlar bu lirik-epik folklor faktında xalqın əski kulturoloji, estetik dəyərlərini ciddi tədqiqata cəlb etmək imkanı qazanırlar.

Gecə ilə gündüzün bərabərlik günündə qeyd olunan Novruz əslində bütün tarazlıqların, cəmiyyətdə, təbiətdə, insan orqanizmində, taleyindəki nizamın bayramıdır. Novruz qışın sona yetdiyini, işığın, istinin artdığını xəbər verir. Təbiətdə hər şey qıtlıqdan qurtulur, yaz bolluğuna üz tutur. Ətrafdakı ölü sükutu quşların səsi nizamlayır, suların donu açılır, boz çöllər yaşıl geyinir. Bu, təbiətdə Novruz tarazlığıdır.

Yeni təsərrüfat həyatı başlamış insanlar tezliklə bol ruzinin əsasını qoyurlar. Kəndlinin dolanışığı olan mal-davarın ağzı ota çatır: “Mart, gözünə barmağım, yaza çıxdı oğlağım!” – deyən qarı nənə Novruz sevincini bölərkən məhz ədalətin, tarazlığın yarandığına işarə etmiş olur. Mal-davarı yaza çıxan kəndlinin ruzi sarıdan çətinliyi aradan qalxır. Bu deyilənlər bir növ Novruzun fiziki göstəriciləridir. Əslində Novruz

özündə insanların ən əski inamlarını, kosmoqonik dünyagörüş kompleksini qoruyub saxlaması ilə dəyərlidir. Dünyanın yaranması haqqında bəlli dördlük sistemi – Su, Od, Yel, Torpaq müqəddəsliyi Novruzu ruhla can, təbiət-cəmiyyət, zülmət-işıq, qıtlıq-bolluq tarazlıqlarını özündə birləşdirən vaxt ölçüsü kimi xarakterizə edir. Bu dördlükdə dünyanın dörd dayağı, ilin dörd fəsli və bu fəsillərdən daha kontrast taleli yazla qışın əbədi döyüşü, mübarizəsi Novruz törənlərinin mifoloji süjetlərində öz əksini tapır ("Kosa-kosa", "Xızır İlyas", "Şəngülüm, Şüngülüm, Məngülüm" və s.). Novruzun bir bayram halında sistemləşməsi onun folklor janrı olaraq çox variantlılığı, zəngin motivliliyi, mifdən adi meydan oyununa kimi böyük zaman mərhələsini çevrələməsində özünü təsdiq edir. Mahiyyətində böyük bəşəri sevinci – təbiətin, cəmiyyətin, nabatat və heyvanatın əbədi darlıqdan xilas olunmasını alqışlayan bu bayram öz ifadə formalarında dərin mifoloji, fəlsəfi düşüncə ilə adi insanların (torpaqdan ruzi gözləyən köməksiz kəndli, keçisi qışdan çıxan qan və s.) arzularını tarazlaşdıra bilir. Məhz bu tarazlıq sistemi əvvəldən axıra davam etdiyinə görə Novruzda heç kəs itirmir, əksinə, hamı nə isə qazanır. Novruzun canındakı ideal ədalət prinsipi ona bəşəri məna, məzmun və yaşarılıq vermiş olur. Lakin dünyada ziddiyyətsiz mübarizə, itkisiz qələbə olmadığı hamıya bəllidir. Bəs, Yazın gəlişi ilə məğlub olan Qışın ağrılarını kim çəkməlidir?

Bu bayramın memarı olan xalq sanki Qışın da itkisini təsəllilərlə ona unutdurmağa çalışmış, "Yazın Qışdan doğuluşunu" ikicanlı ananın ağrıları kimi əsaslandırmağa çalışır (M.Seyidov: "Yaz bayramı"). Qışın rəmzi olan Kosaya ünvanlanmış bayram nəğmələrində oxunur:

Mənim Kosam canlıdır,
Qolları mərcanlıdır.

Kosama əl dəyməyin,
Kosam ikicanlıdır.

Yaz nəslin davamı, bəşəriyyətin sabahı kimi, təbii olaraq qışdan doğulur və qışın bu ağrısı bir övlad üçün çəkilən ağrı kimi təqdim olunur. Bu doğuluşun dramatizmindəki fəlsəfi motiv adi təbiət hadisəsi olan fəsillərə animist münasibətlə daha da zənginləşdirilmiş və insan-təbiət çevrəsinin Novruzda obsalyut tamlıq təşkil etdiyi nəzərə çatdırılmışdır. İnsanın əski qurtuluş istəklərinin atributu yaz, müxtəlif kosmoqonik görüşlərin, mifoloji düşüncənin evolyusiyasında formalaşır, vahid istək, arzu koduna çevrilmiş olur. Bu Yaz istəyi, Yaz arzulaması hər şeydən əvvəl istilik duyğusundan, od, işıq duyğusundan irəli gəlir. Yaza istiliyin mənbəyi kimi baxan qədim insan oda, günəşə tapınmaqla əslində Yaza qovuşmaq arzusunu ifadə etmiş olur. Saçsız-saqqalsız Kosanı qışa bənzətməklə Keçini Yazın bəlgəsi kimi ona qarşı qoyur, əslində yaz-qış mübarizəsini rəmzləşdirmiş olur. Keçinin Kosanı buynuzlayıb öldürməsi ilə doğan günəşi, istini, odu mifik obraz Qodunun vasitəsilə çağırmış olur:

Qodu-qodunu gördünmü,
Qoduya salam verdinmi,
…Qoduya çıraq qoydunmu?

Nəzərə almaq lazımdır ki, xalq yaddaşında Yaz simvolikasının özü də təbiət hadisələrində müşahidə olunan ikili keyfiyyət daşıyıcılarıdır (yazın qışdan, gündüzün gecədən doğulması və s.). Bayram şənliklərində qırmızı parçadan günəşin rəmzi kimi kəsilib düzəldilmiş Qodu da ikili xarakter daşıyıcısıdır. O, canında həm günün eşqini, həm də yağışın, küləyin soyuğunu yaşadır. Buna görə də Qodu nəğməsinin davamında bu motivə işarə olunur:

… Qodu gün çıxarmasa,
Gözlərin oymaq gərək.

Göründüyü kimi ikili xarakterə xalqda ikili münasibət də əsl həqiqəti üzə çıxarmaq, əbədi tarazlığa, nizama nail olmaq üçündür.

Tanınmış folklorşünas alimlərimizdən M.H.Təhmasibin, M.Seyidovun, A.Nəbiyevin, Ə.Cəfərzadənin, Ə.Axundovun və başqalarının əsərlərində Novruz bayramının elmi-fəlsəfi, tarixi-bədii mahiyyətinin açıqlanması bir neçə istiqamətdə aparılmışdır. Bu istiqamətlərin ikisi daha çox diqqəti cəlb edir:

a) mifoloji, fəlsəfi, kosmoqonik səciyyə;

b) tarixi, etnoqrafik, kulturoloji səciyyə.

Hər iki tədqiqat istiqamətində Novruzun bəşəri həqiqətinə – obsolyut tarazlıq sisteminə dərin inam ifadə olunur. Novruz atributlarının, xüsusən çərşənbə axşamlarının mifoloji, fəlsəfi yozumundakı fərqlərin ziddiyyəti, gəlinən nəticələrin ruhi ucalığından çox aşağıda dayandığı üçün onları xatırlamağa dəyməz. Əsas və hamı tərəfindən ortaq qəbul olunan cəhətlər – Yazla Qışın mübarizəsi, bu mübarizədə bütün təbiət, cəmiyyət qüvvələrinin Yazın tərəfində olması, dünyanın dörd qudsal varlığı – Suyun, Odun, Yelin və Torpağın insan həyatındakı əvəzsiz rolu, onların oyanış prosesindəki süjet zənginliyi son illərdə Novruzun dövlət səviyyəsində bayram edilməsinə əsas verir. İndi bu bayram təkcə əski yaddaşlarda yaşayan qırıq folklor süjetləri deyil, haqqında folklorşünas alimlərin, tədqiqatçıların sanballı kitablar çap etdirdikləri vahid mətnli, bitkin kompozisiyalı, nəğmələr, xalq oyunları, xalq dramları, atalar sözü, tapmacalar, bilməcələrdə SAbitləşmiş bir şənlik sistemidir. Həmin kitablarda ("Yaz bayramı" (M.Seyidov), "Novruz", "İlin əziz günləri" (A.Nəbiyev), "Novruz töhfələri" (A.Mirzə, İ.Mehdiyev)) bu bayramın tək-

cə elmi, fəlsəfi mahiyyəti deyil, həm də icra sistemi ssenarilər şəklində təqdim olunur ki, bu da el şənliyinin xalq arasında daha da təntənəli keçirilməsi üçün baza rolu oynayır. Bu mənada əməkdar incəsənət xadimi, filologiya elmləri namizədi, Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətinin "Xalq yaradıcılığı" redaksiyasının baş redaktoru Ağalar Mirzənin "Novruz naxışları" kitabı yeni təşəbbüs kimi maraq doğurur. Folklorun tədqiqi, toplanması, xüsusən də təbliği sahəsində böyük təcrübəsi olan A.Mirzə məhz bu kitabında televiziya və radioda xalqa çatdırdığı Novruz adətlərini sistemləşdirmiş, bayramın elmi ictimaiyyətə tanış olan süjetləri haqqında öz düşüncələrini bölüşməyə çalışmışdır. Diqqətli oxucular son illər Azərbaycan Televiziyasının Novruzun təbliği sahəsində gördüyü uğurlu işlərin bir çoxunun izlərini "Novruz naxışları" kitabında da görə biləcəklər.

Hər yaz Novruz bayramı ərəfəsində məktəblilərin, tələbələrin, xalq mərasim nəğmələri, adətləri ilə maraqlanan, elmi-ədəbi ictimaiyyətin ehtiyacını ödəyəcək bu kitabın əhəmiyyətini əvvəlcədən görərək, onun da "Yaz kimi doğuluşunu" alqışlayıram.

Ağalar Mirzənin
"Novruz naxışları"
kitabına ön söz.
"Borçalı" İPM, 2002,
səh. 3-6

AZƏRBAYCAN POEMASININ DİLİ

Bədii ədəbiyyat söz sənətidir. Söz isə bədii dilin spesifik tikinti materialıdır. Rənglər, onun spesifik çaları olmadan rəssamlığı təsəvvür etmək mümkün olmadığı kimi, bədii sözsüz də ədəbiyyat təsəvvürə gəlmir.

Ədəbi dilsiz heç bir bədii əsərdən, o cümlədən də poemadan söhbət gedə bilməz. Ədəbi dil o qədər rəngarəngdir ki, hətta müxtəlif sənətkarlıq üslubuna malik hər bir sənətkarın özünəməxsus bədii dili vardır. Bədii dil həm fikrin ifadə vasitəsi, həm də sənətkarın üslubunu formalaşdıran bir vasitədir. Bədii dil ümumxalq dilinin ən aparıcı qolu, onun qaymağıdır. Ədəbi dil ümumxalq dili əsasında formalaşsa da, o da öz növbəsində ümumxalq dilini zənginləşdirir, onun lüğət ehtiyatını, eləcə də ifadə imkanlarını artırır. Ədəbi dil obrazlı, lakonik, cazibədar olmalıdır. Ona görə ümumxalq dilindəki bütün sözlərdən yox, ən gözəl, fikrin ifadəsinə kömək edən leksik, idiomatik, frazeoloji vahidlərdən istifadə etmək lazımdır. Bədii dildə söz həqiqi mənasından başqa, həm də məcazi məna daşımalıdır. Yerinə düşməyən söz, ifadə, nəinki bədii dilə kömək etmir, əksinə, onu eybəcərləşdirir. Bədii dildə söz sətiraltı məna yükünə malik olmalıdır. Bundan başqa, sözün necə səslənməsi, onun fonetikası da bədii dildə, xüsusən poetik əsərlərin dilində böyük əhəmiyyət kəsb edir.

Əsər hansı mövzuda yazılırsa yazılsın, onun mərkəzində hər hansı həyati problem qoyulursa qoyulsun, əgər onun dili solğun, obrazsızdırsa, onda heç bir bədii uğurdan söhbət belə gedə bilməz. Yazıçı öz fikrini, ideyasını, ədəbi məramını yalnız dil vasitəsilə ifadə edə bilər. Bədii əsərdə ədəbi dilsiz nə məzmun, nə də forma mövcud ola bilər. Dil məzmun və formanın bütün elementlərinin ifadəçisi, onun baş memarıdır.

Dil poetik fiqurları bir-birinə qaynaq edən, möhtəşəm, canlı orqanizm yaradan qüdrətli bir vasitədir. Hər hansı poetik fiqurun özü belə bədii dilsiz yarana bilməz. Bədii əsərin dilini onun mərkəzindəki obrazlar sistemi ilə qarşılıqlı əlaqə zəminində öyrənmək lazımdır.

Ədəbiyyatın baş qəhrəmanı olan insanı onun nitqi, danışığı olmadan təsəvvür etmək mümkün deyil. Obrazın nitqi, söhbəti onun xarakterini, düşüncə tərzini, psixologiyasını, mədəni səviyyəsini, dünyagörüşünü açmaq vasitəsidir. Məsələn, Səməd Vurğunun "Aygün" poemasının qəhrəmanları Aygünün və Əmirxanın xarakterləri onların nitqi, danışığı vasitəsilə açılır.

Bədii dil həm də fərdiləşdirmə vasitəsidir. Həyatda iki eyni cür danışan insan təsəvvür edə bilməzsən. Obraz məhz özünəməxsus tərzdə danışan, fikir yürüdən zaman onun daxili dünyası açılır.

Müəllif öz qəhrəmanlarının prototiplərinin bütün danışıqlarını eyni ilə əsərə gətirmir. O, "çiy" şəkildə olan bu nitqin özünü də "bişirir", bədii təhlil süzgəcindən keçirir. Yazıçı qəhrəmanın nitqinin ən xarakterik, mənalı hissələrindən istifadə edir. Ancaq bu heç də o demək deyil ki, qəhrəmanların hamısı alim, şair kimi danışmalıdırlar. Hətta obrazın dediyi səviyyəsiz söz belə, bədii əsərdə müəyyən missiyanı yerinə yetirməli, qəhrəmanın xarakterini açmaq vasitəsinə çevrilməlidir.

Obrazın nitqində bədii fərdiləşmə ilə yanaşı bir ümumiləşmə də olmalıdır. Qəhrəmanın nitqinə qulaq asan oxucu onun hansı zamanda, hansı mühitdə yaşaması haqqında da az-çox təsəvvür əldə etməlidir. A.Tolstoy qəhrəmanın nəinki nitqini, tələffüz etdiyi sözləri, eyni zamanda danışarkən istifadə etdiyi jestləri də son dərəcə əhəmiyyətli hesab edirdi. Doğrudan da, qəhrəmanın nitqini başa düşmək üçün bu danışığı müşayiət edən jestlər, mimika müəyyən rol oynadığı

kimi, onu əhatə edən aləmi göstərməyin özü də az rol oynamır. Əsərdəki bədii fon qəhrəmanın hərəkət və davranışının, nitqinin, xarakterinin, psixologiyasının daha dərindən anlanılmasına çox kömək edir.

S.Vurğunun "Zəncinin arzuları" poemasının qəhrəmanı danışmamışdan əvvəl müəllif onun portretinin aşağıdakı cizgilərini yaradır:

O kürsüyə sinə gərdi, danışmadı, susdu bir dəm,
Çatıb qara qaşlarını fikrə getdi o bir anlıq.

Zəncinin nitqi, boyu sifətindəki cizgilərin dəyişməsinin, yumruqlarının düyünlənməsinin təsviri onun alovlu çıxışı üçün elə bil ki, fon yaradır.

Aristotel əsərin bədii dilinə çox böyük qiymət verir, ondan lazımı səviyyədə, qədərincə istifadə etməyi məsləhət görürdü: "Əsərin dilinə gəldikdə, istər xarakterin təsviri, istər fikrin ifadə tərzi cəhətdən seçilməyən, mühüm olmayan hissələri dil cəhətdən xüsusilə rövnəqli işləmək lazımdır. Çünki əksinə dil son dərəcə rövnəqli olanda xarakteri də, fikri də zəiflədir". Daha sonra Aristotel göstərir ki, şair və yazıçı təqlidçi olduğundan üç yoldan biri ilə getməlidir: ya olduğu kimi, ya onun haqqında düşünülən və danışılan kimi, ya da olması lazım gələn şəkildə. Aristotel hər üç halda şairə, sənətkara tam sərbəstlik verilməsinin tərəfdarıdır.

Bədii dil sözlə davranmağı, onun gözəlliyindən zövq almağı bacaran istedadlı adamlar, sənətkarlar tərəfindən yaradılır. Necə deyərlər, bədii söz bədii təfəkkürü, istedadı olmayanların sözünə baxmır. Su, yağış otlara, çiçəklərə, ağaclara, kollara həyat bəxş etdiyi kimi, bədii söz də obrazları, hadisələri canlandırır, onları rövnəqləndirir, gözəlləşdirir.

Bədii dilin lüğət tərkibi zəngindir. Həyatda çoxlu sayda dərman olduğu kimi, dildə də çoxlu sözlər vardır. Müalicə et-

mək üçün dərmanı düzgün, özü də lazımi dozada təyin etmək nə qədər əhəmiyyət kəsb edirsə, bədii əsərdə də sözlərdən yeri gəldikcə lazımi miqdarda istifadə etmək son dərəcə vacibdir.

Azərbaycan dilinin lüğət tərkibi zəngin, poetik imkanları olduqca böyükdür. Dilimizdəki sözlər ahəng qanununa tabe olduğundan, onların səslənməsi də xüsusi ahəngdarlığa malikdir. Bundan başqa, müxtəlif tipli sözlər qrupu dildə ayrı-ayrı funksiyanı yerinə yetirir. Məsələn, sinonimlər dildə təkrardan yaxa qurtarmağa, eyni məzmuna malik sözlərin daha real variantını işlətməyə kömək edirsə, omonimlər cinaslı qafiyələr yaratmaq, söz oyunu üçün ən vacib tikinti materialıdır. Antonimlərin isə təzad yaratmaqda misli-bərabəri yoxdur.

Ayağın incisə, sinəm üstə gəz,
Taptala bir xəzan yarpağı kimi.
Mənə elə gəlir pak ola bilməz
Cənnət ayağının torpağı kimi.
R.Yusifoğlu, "Qəm karvanı"

"Gəzmək-yerimək", "Ayaqlamaq-taptalamaq", "pak-təmiz" sözləri bir-biri ilə sinonim olsa da, poemada daha real variantlardan – "gəzmək", "taptalamaq", "pak" sözlərindən istifadə olunmuşdur. Əgər ikinci misrada "taptala" sözünün yerinə "ayaqla" sözü işlədilsəydi, birinci misradakı "ayaq" sözü ilə ikinci misradakı "ayaqla" sözü təkrar yaradar, şeirin bədii təsir gücünü azaldardı. "Təmiz" sözü ilə "pak" sözü sinonim olsa da, bədii təsvirin bu məqamında – "Mənə elə gəlir pak ola bilməz, cənnət ayağının torpağı kimi" – "təmiz" sözü "pak" sözünü qətiyyən əvəz edə bilməzdi.

Bəzən poetik parçalarda sinonim sözlər yanaşı işlənir, elə bil ki, şair fikrini axıracan, tam dəqiqliyi ilə oxucuya

çatdırmaq üçün belə edir. Məsələn:

Fırtınalar, qasırğalar qucağında doğulmuşam.
S.Vurğun

Şairlər omonim sözlərdən istifadə etməklə cinaslı qafiyələr yaradırlar. Cinaslı qafiyələr isə şeirə xüsusi gözəllik gətirir, onun bədiiliyini, ifadəliliyini xeyli dərəcədə artırır:

Göyərtmişəm səməni,
Aparın Qarsa məni.
Qorxuram ayrılığın
Alovu qarsa məni.

Əks mənalı sözlər – antonimlər isə çox zaman təzad yaratmaq üçün istifadə olunur. Məsələn:

*Bir yandan **boşalır**, bir yandan **dolur**,*
Sirrini verməyir sirdaşa dünya.
S.Vurğun

Azərbaycan dili leksik cəhətdən rəngarəng, müxtəlif çalarlı, məna yüklü sözlərlə zəngin olduğu kimi, bu dil vasitəsi ilə kifayət qədər bədii təsvir və ifadə vasitəsi yaratmaq mümkündür. Azərbaycan dili şeir, sənət dilidir, ahəngdardır, musiqilidir. Elə buna görə də fikri ifadə baxımından da çox böyük imkanlara malikdir.

Poema poetik əsərlər sırasına daxil olduğundan ondakı bədii təsvir və ifadə vasitələrindən danışmağa da ehtiyac duyulur. Hər hansı bir sənət əsərinə, abidəyə vurulan naxışlar, ornamentlər ona gözəllik gətirdiyi kimi, bədii əsəri də gözəlləşdirən epitetlər, təşbehlər, metaforalar, metonimiyalar, mübaliğələr, litotalar və s. bu kimi məcazlardır. Bədii təsvir və

ifadə vasitələri sözə poetik don biçmək funksiyasını yerinə yetirir, əsərin təravətini, ifadəliliyini, obrazlılığını artırır, adi kəlmələri canlandırır, qanadlandırır, xarakterləri açmaq vasitəsinə çevrilir.

Azərbaycan, eləcə də dünya ədəbiyyatında ən çox istifadə edilən məcazlardan biri epitetdir. Epiteti çox zaman bədii təyin də adlandırırlar. Bu da təsadüfi deyil. Çünki epitet özündən əvvəlki sözün üstünə poetik nur saçır, onu gözəlləşdirir, canlandırır. Məşhur ədəbiyyat nəzəriyyəçisi V.M.Jirmunskinin "Epitet məsələsi haqqında" tədqiqatından öyrənirik ki, bu nəzəri problemlə alman ədəbiyyat nəzəriyyəçiləri E.Elster, R.Meyer, rus ədəbiyyatşünasları A.N.Veselovski, A.A.Podebnya, A.Şalıgin və başqaları ciddi məşğul olmuşlar.

Azərbaycan poeziyasında epitetlər əhəmiyyətli yer tutsa da bu məsələ ilə bağlı heç bir tədqiqat aparılmamışdır. Yalnız ədəbiyyat nəzəriyyəsi kitablarında, "Ədəbiyyatşünaslıq terminləri lüğəti"ndə epitet və onun mahiyyəti haqqında ötəri məlumat verilmişdir. Ə.Mirəhmədovun tərtib etdiyi "Ədəbiyyatşünaslıq terminləri lüğəti"ndə oxuyuruq: "Epitet – məcazın növlərindən biri. Ədəbi əsərdə başqa bir sözü qüvvətləndirmək və mənaca zənginləşdirmək üçün ona əlavə edilən sifət, hadisələrin, şəxsin, əşyanın hər hansı bir keyfiyyətini aydınlaşdıran, təyin edən söz".

A.Şalıginin fikrincə isə, nitqin görümlülüyünü və emosionallığını artıran ən əhəmiyyətli vasitələrdən biri də epitetdir. V.M.Jirmunski epitetin dar və geniş mənasını bir-birindən fərqləndirir. O, epitetin dar mənada bədii təyin olmasını söyləyir və buraya ənənəvi epitetləri aid edir. Bizim ədəbiyyatşünaslığımızda ənənəvi epitetlər müqəyyəd epitetlər adlandırılır.

Azərbaycan şairlərinin əsərlərində həm dar, həm də geniş mənada işlədilən epitetlərə rast gəlmək mümkündür. "Ala

gözlər”, “qara qaşlar”, “qarlı qış” və s. bu kimi epitetlər dar mənadadırsa, “qara qış”, “göyərçin əllər”, “nərgiz gözlər” və s. bu kimi epitetlər geniş mənadadır. İkinci növ epitetlər daha mənalıdır, obrazlıdır. Buradakı bədii təyinlər sözün həqiqi mənasından çox onun poetik mənasına xidmət edir. Burada “qara” qışın sərt keçməsinə, “nərgiz” gözün xumarlığına işarədir. Bəs M.Müşfiqin “Göyərçin əllərin yadıma düşdü” misrasındakı epitet necə? İlk nəzərdə bu, qondarma təsir bağışlaya bilər. İrad tutmaq olar ki, göyərçinin ələ nə oxşarlığı? Lakin əlində göyərçin tutan adam onun ürəyinin necə döyünməsini, çırpınıb əldən çıxmaq istəməsini gözəl xatırlayır. Sevgilisinin əlinin içində titrəyən qız əlləri də elə bil bu göyərçini xatırladır. Özü də bu titrəyiş həmin əl sahibinin həyəcanlarını açmaq vasitəsinə xidmət edir. Müşfiqin bu epitetində oxucu təkcə rəng, zahiri bənzəyiş görmür, həm də hərəkətin, çırpıntının müşahidəçisinə çevrilir.

R.Rzanın “Həbəşistan” poemasında belə bir epitet var: “qanlı-xaç təyyarələr”. Buradakı bədii təyin təyyarənin nə üçün göyə qalxdığı haqqında çox şey deyir.

Şairlər çox vaxt epitet yaradarkən insana, yaxud digər canlılara məxsus əlamətləri cansız əşyalara, predmetlərə aid etməklə bədii effekti artırmağa nail olurlar. Hüseyn Cavidin “Azər” poemasındakı “həsrətli üfüqlər”, “sevdalı dəniz”, “can çəkişən ulduzlar”, “şən ormanlar”, “yorğun dəniz”, “qumral üfüqlər”, “gözü yaşlı çiçəklər”, “vərəmli sükut”; Məmməd Arazın əsərlərindəki “sərkərdə küləklər”, “cilovsuz çaylar”; Fikrət Qocanın poemalarındakı “yaralı çiçəklər”, “yazıq həqiqət” və s. bu kimi epitetlər dediyimizə misal ola bilər.

Elə epitetlər də var ki, burada birinci tərəf sözün həqiqi, ikinci tərəf isə məcazi mənasındadır. H.Cavidin “Azər”indəki “ağ göyərçinlər”, “şən yıldızlar” epitetlərində göyərçinlər və ulduzlar gözəllərin simvolik obrazıdır.

Uğurlu epitet bədii portretin aydın, koloritli canlı çıxmasını təmin edir. “Azər” poemasındakı “pənbə köks”, “zalım əllər”, “coşqun rəssam”, “ceyran baxışlı yosmalar”, “şişman müdir”, “dalğın mühacir”, “işvəli rəqqasə”, “nazlı afət”, “al dodaqlar”, “qumral gözlər”; Mikayıl Müşfiqin “Əfşan” poemasındakı “kölgəli üz”, “Dağlar faciəsi”ndəki “almas kirpiklər”, “Şölə”dəki “xuraman boy”, “sevimli bəbəklər”, “Sındırılan saz”dakı “solğun gözəl”; Səməd Vurğunun “Komsomol poeması”ndakı “zığlı gözlər”, “qaymaq dodaqlar”; Rəsul Rzanın “Leyli və Məcnun”undakı “lalə yanaqlı qız”, “Füzuli”dəki “yorğun gözlər”, “solğun yanaq”, “Tənhalığın sonu”nda “xurmayı saçlar”; Əli Kərimin “İlk simfoniya”sındakı “mənalı gözlər”, “sərt baxışlar”, “gümüşü saqqal”, Xəlil Rzanın “Krasnadon qartalları”ndakı “qətranlı əllər”, “intizar gözlər”, “qövsi qaşlar” və s. qəhrəmanların zahiri görkəminin təsvirinə xidmət edirsə, “kölgəli böhran”, “nəşəli xülya”, “şübhəli iman”, “dadlı sözlər” (H.Cavid); “süslü duyğular”, “incə xülya”, “dadlı xəyal”, “sərxoş xəyal”, “inadlı kin”, “dadlı nəğmələr”, “göyərçin qəlblər”, “çılğın qəhqəhə”, “fisunlu həyəcanlar”, “yaxıcı hicranlar”, “sərin vüsallar” (M.Müşfiq); “yanıqlı zümzümələr”, “pərişan baxış”, “yol çəkən yorğun gözlər”, “gözü qanlı fatehlər”, “qorxaq gülüş” (R.Rza); “sirli dərd”, “sevinc qanadlı günlər”, “küskün xəyal”, “saf təbəssüm”, “duman yaxalıqlı, bulud ətəkli gözəllər”, “qərib axşam”, “qırmızı yağış”, “sönən nəğmə” (Ə.Kərim); “işıqlı fikirlər”, “bir gülüşlük zarafat” (F.Qoca); “ala gözlərdəki mavi daşqın” (X.Rza) və s. bu kimi epitetlər obrazların daxili dünyasına işıq salmağa, onların ürəklərində cərəyan edən psixoloji prosesi ifadə etməyə zəmin yaradır.

Epitetlər həm də peysaj cizgisinə, onun mühüm elementinə çevrilə bilir. “Şubay buruqlar”, “mavi göylər”, “parlaq gündüzlər”, “rahu sərin gecə”, “xəfif yelpik”, “başsız kü-

lək”, “bəyaz zülmət”, “gözləri ulduzlu yay gecəsi”, “bəyaz birçəkli sular”, “atlas qasırğalar”, “qızıl buludlar”, “əsrarlı ormanlar” (M.Müşfiq); “sağır göylər”, “bəyaz kölgə”, “canlı çiçək”, “yağmurlu sabah”, “şəfəq dalğalı, fəvvarəli nur”, “zümrüd dalğalar” (H.Cavid); “yırtılan bulud”, “yuxusuz gecə”, “yorğun şəhər”, “utancaq işıq”, “süd aydınlıq ay üzü”, “qəmli yollar” (R.Rza); “yovşanlı düzənlər”, “buz gavahın”, “laylalı buludlar”, “qranit qayalar” (M.Araz) və s. maraqlı peysaj cizgiləridir. Özü də bu tipli epitetlərdə qəhrəmanların mənəviyyatının müəyyən elementləri özünü büruzə verməkdədir. Məsələn: Rəsul Rzanın “Xalq müəllimi” poemasında evi nadanlar tərəfindən yandırılan müəllimin daxili dünyasını, həyəcanlarını açmaq üçün “qan qırmızı işıq”, “yalquzaq gözlü göz”, “skelet divarlar”, “rəngi avazımış ay” epitetləri uğurlu hesab edilə bilər. Yandırılan evdən çıxan alovda “qan rəngi”nin təsviri yerinə düşür. Göz isə yalquzaq canavarın gözü kimi işıldayır, hər şeyi didib parçalamağa hazırdır. “Skelet divarlar” onun yadigarıdır. “Rəngi avazımış ay” isə bu dəhşətə kənardan baxıb həyəcan keçirənlərin simvolik obrazıdır.

Epitetlər sifətlərlə: “qüvvətli düşüncə”, “dumanlı dağlar”, “süslü kaşanələr”; isimlərlə: “qızıl busələr”, “almas dəniz”, “daş ürək”; feli sifətlərlə: “qəhqəhələrdən qopan səadət”, “pozulan aylar” və s. ifadə olunur.

Epitet obrazları fərdiləşdirməyin əsas vasitələrindən biridir. L.İ.Timofeyev çox doğru qeyd edir ki, yazıçı əks etdirdiyi hadisənin oxucuya çatdırmaq istədiyi ən əsas əlamətini məhz epitet vasitəsilə canlandırmağa nail olur.

Bu baxımdan yanaşdıqda S.Vurğunun poemalarında ulduzlar kimi sayrışan epitetlər daha çox maraq doğurur. S.Vurğun da M.Müşfiq kimi “göyərçin əllər” epitetindən istifadə edir. Lakin o, Müşfiqin nəzərə çatdırmaq istədiyi yox, başqa bir cəhəti ön plana çəkib. Öz qəhrəmanı Aygünün

piano arxasında əyləşib necə yaradıcılıq ehtirası ilə çaldığını göstərmək üçün S.Vurğun onun şirmayı dillər üstündə "qanad çalan əllər"ini göyərçinə bənzədir. Özü də bu misralarda bədii təsvir vasitələri bir-birilə "qol-boyun"dur, qovuşuq şəkildədir:

Pianomu səsə gəldi? Şirmayı dillər
Danışdıqca, elə bil ki, dalğalar axdı.
Yelpazə tək qanad çalan göyərçin əllər
Sədaqətdən söhbət açdı bir axşam vaxtı.

Göründüyü kimi, burada bədii sual da var, epitet də, istiarə də, təşbeh də. Özü də bu xüsusiyyət ötəri deyil, Səməd Vurğunun fərdi yaradıcılıq üslubuna xas olan cəhətlərdir.

Şair Aygünün həm zahiri görkəmini, həm də daxili aləmini əks etdirmək üçün aşağıdakı epitetlərdən istifadə etmişdir: "qələm qaşlar", "şəhla gözlər", "ötəri zümzümə", "səssiz otaq", "qara xəyal", "ötəri yuxu", "al şəfəqli bir aləm" və s.

Aygünün düşüncələrə dalmasını təsvir edən aşağıdakı misralar da epitetlərlə zəngindir:

Nədir düşündüyü? Mehriban bir səs,
Alovlu bir ürək, isti bir nəfəs,
Müqəddəs bir sevgi, təmiz bir əməl,
Saçını oxşayan lütfkar bir əl,
Bir əl ki, bağrına bassın gəlini,
Bu saf gözəlliyin saf heykəlini,
Bir açıq qaşqabaq, bir xoş gülər üz,
Mehriban bir baxış, mehriban bir söz,
Evdə kişi səsi, qadir bir hünər,
Eşqin keşiyində dayanan bir ər…

Buradakı "mehriban bir səs", "alovlu bir ürək", "isti bir nəfəs", "müqəddəs bir sevgi", "saf gözəl", "saf heykəl",

“açıq qaşqabaq”, “xoş gülər üz”, “mehriban bir baxış”, “qadir bir hünər” və “eşqin keşiyində dayanan ər” epitetləri həm müəllif qayəsini, həm də qəhrəmanın arzularını əks etdirən mənalı epitetlərdir. Aygünün öz sənətinin pərvanəsi olduğunu göstərməyə xidmət edən aşağıdakı epitet isə daha mənalıdır: “şam barmaqlı nazik əllər”. Burada oxucu elə bil ki, həm Aygünün əllərini görür, həm də onun sənət yanğısı ilə döyünən ürəyini. Onun şama bənzəyən zərif barmaqları da musiqinin, sehrkar səsin alovuna alışmağa hər dəqiqə müntəzirdir.

S.Vurğun Əmirxanın obrazını yaradarkən də epitetlərdən istifadə etmişdir. Belə epitetlərə misal olaraq “geniş sinə”, “iri gözlər”, “qartal gözlü Əmirxan”, “ulduz-ulduz arzular” və s. göstərə bilərik.

Göründüyü kimi, epitet bədii əsərdə ən vacib poetik ünsürlərdən biridir. Epitetsiz təsvirlər çox cansız və solğun görünərdi. Özü də epitet məcazın növü olduğundan, hər təyin funksiyasını yerinə yetirən sözə yox, məcazi məna daşıyan sözə yeni çalar, məna gətirən epitetlərə üstünlük vermək lazımdır.

Bədii təsvir vasitələri içərisində mühüm yer tutan sadə məcazlardan biri də təşbehdir. Təşbehə bəzən bənzətmə də deyirlər. Bu da təsadüfi deyil. Çünki təşbehə məxsus ən əsas əlamət nəyinsə nəyə bənzədilməsidir. Özü də unutmaq lazım deyil ki, böyük sənətkarların əsərlərində bənzətmə heç zaman məqsəd olmamış, fikri, ideyanı daha dolğun, daha emosional şəkildə oxucuya çatdırmaq vasitəsinə çevrilmişdir. Məsələn, S.Vurğunun “Muğan” poemasından bir parçaya nəzər salaq:

Yerdən ayağını quş kimi üzüb,
Yay kimi dartılıb, ox kimi süzüb,
Yenə öz sürünü nizamla düzüb,
Baş alıb gedirsən hayana, ceyran?

Burada ceyranın qaçışının daha canlı, görümlü təsviri üçün çoxşaxəli təşbehdən istifadə olunmuşdur. Belə ki, şair ceyranı həm uçmağa hazırlaşarkən aşağı sinib qəflətən ayağını yerdən üzən quşa, həm dartılan yaya, həm də ondan qopub uçan oxa bənzədir.

Təşbehdə əsasən dörd ünsürdən istifadə edilir: bənzəyən, bənzədilən, bənzətmə əlaməti, bənzətmə qoşması.

Fikrimizi izah etmək üçün "Komsomol poeması"ndan götürdüyümüz təşbehlərə fikir verək: "Bəxtiyar qabaqda quş kimi səkir", "Ağarmış saçları dağda qar kimi", "Gah yalquzaq kimi ulayır külək, gah da quzu kimi yatır, dincəlir".

Bu bənzətmələrdə təşbehin dörd əlaməti vardır: "Bəxtiyar", "saçlar", "külək" sözləri bənzəyən, "quş", "qar", "yalquzar", "quzu" bənzədilən, "səkmək", "ağarmaq", "ulamaq", "yatıb dincəlmək" bənzətmə əlaməti, "kimi" isə bənzətmə bildirən qoşmadır.

Bəzən elə olur ki, təsvir zamanı təşbehin bu və ya digər ünsürü atılır, ancaq bu, təşbehin tamlığına xələl gətirmir. Məsələn, "Eşqsiz yaşayan donuq bir insan, içini qurd yemiş boş bir ağacdır", "Bu tənha gecənin qoynunda yalnız, sürüdən ayrılmış bir ahu mələr", "Çəmən sevdalı bir qızdır, o, tac qoymuş çiçəklərdən", "Çıxır qarşımıza qoca bir çoban, çiyni yapıncılı, boyu çinar tək" və s. bu kimi bənzətmələrdə S.Vurğun təşbehin müəyyən elementlərini atmış, lakin bənzətmənin gücünə xələl gəlməmişdir. Birinci təşbehdə "kimi" qoşması, ikinci təşbehdə "Humay" sözü, üçüncü təşbehdə "kimi" qoşması, dördüncü təşbehdə isə bənzətmə əlaməti – "uca" ixtisar edilmişdir.

Elə təşbehlər də var ki, onun daha çox elementi atılır, ancaq təşbeh yenə də öz poetik funksiyasını yerinə yetirir. M.Müşfiqin poemalarından gətirdiyimiz təşbehlər buna gözəl nümunədir: "Yanağın xəzəldir, ahın küləkdir", "Buludlar meşədir, ulduzlar çiçək".

Təşbehdə yazıçı bir predmetin, əşyanın, hadisənin nəzərə çarpdırmaq istədiyi mühüm cəhətlərini başqa bir predmetlə, əşya ilə, hadisə ilə müqayisə zəminində verməyə müvəffəq olur. Yenə də S.Vurğunun poemalarından götürdüyümüz təşbehlərə müraciət edək: "Ürəyindən xəncər kimi keçdi bu səs", "Pəhləvanlar şirlər kimi əlləşəcək", "Evlər ordu kimi durur nizamla", "Yalanlar yolları kəsir sədd kimi", "Sellərin önündə durur dağ kimi", "Yazın səhəri tək ruhum də güldü", "Quldur kimi qılınc çəkib soxulur külək", "Onlar qılınc kimi üz-üzə gəldi", "Sıxdı məngənə tək onu fikirlər", "Göyərdik ot kimi, axdıq su kimi" və s. bu kimi təşbehlərdə şair əsas fikrini ifadə etmək üçün səsi xəncərə, pəhləvanları şirə, evləri orduya, insanı dağa, ruhu yaz selinə, küləyi quldura, bir-biri ilə sözü düz gəlməyən ər-arvadı üz-üzə gələn qılınca, fikirləri məngənəyə, insanı ota, suya, hünəri bahara bənzətmişdir.

Peyzajın canlı, görümlü çıxması üçün təşbehdən mühüm bir poetik vasitə kimi istifadə edirlər. "Komsomol poeması"ndakı "Dağların ayazlı, qarlı rüzgarı vaxtsız qonaq kimi birdən əsərək döyürdü qapını", "Bayaq pəncərədə səslənən külək, xəstə uşaq kimi hey öskürərək, nəfəsdən kəsildi, lal oldu artıq", "Gah qara geyinir əyninə göylər, oğluna yas tutan bir ana kimi", "Otların üstündə şeh damlaları, ağ almazlar kimi parlayıb durur"; "Muğan" poemasındakı "Qoca Muğan fikrə getmiş bir loğman kimi", "Ağ at kimi sıçradıqca dalğalar, qolundakı zəncirləri Kür qırır. Boğulduqca dara düşmüş o şikar, maral kimi dil çıxarıb hayqırır", "Uçduqca yarğanlar, köklü ağaclar, Kür udur onları bir əjdaha tək", "Gecə bütün kainatı bağrına basır, xəyala da o qərq olur bir insan kimi", "Daşların da nəfəsinə o qulaq asır, açıqürək, qaraqabaq bir loğman kimi", "Gecə boylu bir qadındır, ağrı çəkərək, xoşüzlü bir uşaq kimi doğur səhəri", "Bir saf məhəbbətin vüsalı kimi, nə xoşbəxt açılır Muğanda sabah";

“Aygün”dəki “Yaşıl məxmər kimi döşəndi yonca, vətən qızlarının ayaq altına”, “Göylərdə buz kimi dondu ulduzlar”, “Basılmış ordu tək çəkildi rüzgar”, “Öz kəhər atının üstündə bahar, bir qəhrəman kimi gəlmiş Muğana”, “Qış gecəsi uzun olur… Yenə də səhər gecikmişdir gözlənilən bir qonaq kimi”, “Qış gecəsi ölüm kimi çox ağır keçir”; M.Müşfiqin “Buruqlar arasında” əsərindəki “Uçuşan ləpələr bəyaz quş kimi, asta qanad çalır yorulmuş kimi”, “Ay sularda çimən bir gözəl kimi”; “Mənim dostum” poemasında “Bir gümüş ney kimi körpə dərələr dağların dibində inləyən zaman”; “Şölə”dəki “Bir dan yeri kimi süzgün, işıqlı, dalğalı ziyalar, dalğalı rənglər”; “Azadlıq dastanı”ndakı “San yarpaq kimi tökülmüş suya, göylər bağçasında san işıqlar”; M.Rahimin “Xəzər sularında” poemasındakı “Parlaq ayna kimi görünür dəniz”; H.Arifin “Dilqəm”indəki “Xəzan çiçəyi tək ulduzlar sönür”; Ə.Kərimin “Heykəl və heykəlin qardaşı” poemasındakı “Çinar gördüm, bir binanı qanadı altına alıb, boylanırdı ağsaqqal kimi”; “Üçüncü atlı”dakı “Qaldı buludlar da sönən nəğmədən, yanğından sonrakı tüstülər kimi”, “Qaranlıq dağıldı bir yuxu kimi, ağ duman göründü süd buğu kimi” və s. bu kimi təşbehlərin köməyi ilə şairlər daha canlı, cazibədar təbiət lövhələri yaratmağa nail olmuşlar.

Təşbehlərin bir qismi maraqlı portret cizgisinə çevrilir. Bu təşbehlər vasitəsilə portret daha aydın, koloritli çıxır. Məsələn, “Ay kimi gecəyə qız şəfəq yayır”, “Elə bil günəşdir o gözəl pəri”, “Humay ahu kimi hürkərək həmən soxulur çadırın küncünə”, “O, qəlbini əridir şamdandakı mum kimi”, “Gözündən od kimi o, yaşlar tökür”, “Yurdsuz və yuvasız yolçu kimi tək dolaşır avara qaranlıqları”, “Budaqsız, yarpaqsız bir söyüd kimi yıxılmış torpağa, ağladır məni”, “O qızmış mis kimi”, “Qəlbini qurd kimi dağıdır qəmlər” və s. bu kimi təşbehlər vasitəsilə S.Vurğun öz qəhrəmanı Humayın həm zahiri görkəmi, həm də onun daxili

dünyası, keçirdiyi psixoloji gərginlik anları haqqında oxucuya poetik məlumat verir. Şairin poemalarındakı "Sallayıb başını dayanmış İmran, bükülmüş qaməti sanki bir kaman", "Başından sel kimi daşır qayğısı", "Gözündən od kimi yaşlar tökərək, ay Allah, neyləyim? – deyə Gülpəri, boylanır qapıya, dönür içəri", "Başını köksünə dayamış Gülzar, mənalı gözləri göl kimi laldır", "Əyilir yel qırmış ağaclar kimi, əriyib tökülür dağda qar kimi", "O yatmayır quş kimi ayağından asılmış, elə bil ki, üstünə tökülür qarlı bir qış", "Gəray bəy dərdlənir dağda qar kimi", "O görür qızının yazıq halını, qəfəsdə quş kimi özünü yeyir" ("Komsomol poeması"); "Könlü tərlan kimi baş alıb oynar" ("Acı xatirələr"); "Yazıq bir tor kimi qalxıb yerindən qıvrıla-qıvrıla dəyir daşlara" ("26-lar"); "Mən qumsala oturmuşam bir sahibsiz gəmi tək", "Qəzəbindən dalğa kimi qalxıb enir sinəsi" ("Bakının dastanı"); "Əsdi yarpaq kimi dodaqları da" ("Zəncinin arzuları"); "Səyyar bulud kimi dolaşıram mən, ağlımın göyləri naxış naxışdır", "Gah doğur, gah batır könül riqqətim, tez-tez yanıb-sönən səyyarələr tək. Düşərgə axtarır huşum, diqqətim səfərdən qayıtmış təyyarələr tək" ("Leninin kitabı"); "Aygün bulud kimi tutuldu bir an, azacıq islandı sıx kirpikləri", "Lovğalıq qurd kimi gəzdi başında", "Aygün qılınc kimi girmədi qına", "Bət-bənizi meyit kimi ağarmış onun", "Rəngi dönüb bulud kimi birdən qaralır", "Əmirxansa öz yerini itirdiyindən neçə səmtə axıb getdi giləvar kimi", "Yanır yanaqları dağ laləsi tək", "Bir cüt ulduz kimi gözləri yandı", "Bir də ilk eşqinin ilk nübarını, andı dan yerinin ulduzu kimi. Ülkər yerə döydü ayaqlarını, bordaqda saxlanmış bir quzu kimi", "Açıldı gül kimi Ülkərin qəlbi", "Xəstənin gözləri kölgələndikcə Aygünün ürəyi yandı şam kimi. Qabarıq sinəsi qalxıb endikcə, qaraldı sifəti bir axşam kimi" ("Aygün") və s. bu kimi uğurlu təşbehlər həm qəhrəmanın zahiri, həm də onun daxili dünyasını açmaq

vasitəsinə çevrilir.

M.Müşfiqin "Şölə də oynayır bir rüzgar kimi, bəzən yorğun, qızıl buludlar kimi", "Andırır Şölənin xuraman boyu, fəvvarədən çıxan gümüş bir suyu" ("Şölə"); "Sən də qarğı kimi birdən boy atdın", "O qədər keçmədi gül kimi soldun", "Xanımın hər sözü zəhrimar kimi, sən bir quzu, o bir canavar kimi", "Axdı göz yaşların ulduzlar kimi", "Bir parça ay kimi görünürdün sən, pul-pul arzulara bürünürdün sən", "Yandı, çatırdadı qəlbin od kimi, köks dediklərin buxurdanında", "Ürəyin bir bahar buludu kimi bir zərif vurğudan dolardı" ("Səhər"); "Zülfü bulud kimi, gözü yaşlı qız" ("Azadlıq dastanı"); S.Rüstəmin "İntizar gözləri bir göl kimi yorğun görünür" ("Yaxşı yoldaş"); M.Rahimin "Fikri pərişandır buludlar kimi" ("Leninqrad göylərində"); H.Arifin "Su kimi bulandı gözündə aləm", "Sahibsiz körpə tək bükmüş boynunu" ("O qayıtmadı"); "Bulaq tək qaynayır qara gözləri" ("Məhəbbət poeması"); Ə.Kərimin "Dalğalandı ağ ətəyi uzaqlarda gözdən itən bir parça ağ duman kimi", "Yaralı bir quş kimi, qanad çalır nə vaxtdır", "Sıçrayıb balıq kimi Azadın əllərindən çıxdı Nigarın qolu" ("İlk simfoniya"); "Əynimə gəlməyən bu paltar kimi, sıxır, a qardaşım, qanunlar məni" ("Üçüncü atlı") və s. kimi təşbehləri də poetik funksiyaya malikdir; həm qəhrəmanların portretini yaratmağa, həm də onların xarakterini açmağa xidmət edir.

Elə təşbehlər də var ki, birbaşa hərəkətlə bağlıdır. Məsələn, "Komsomol poeması"nda belə bir təşbeh var: "Göy Vəli dayana bilməyib birdən, dağ kimi tərpənir durduğu yerdən". Burada təşbeh Gülpərinin namusuna sataşan Gəray bəyin haqsızlığına qarşı elin qəzəbinin ifadəsinə çevrilir.

"Elə bil", "sanki", "sayağı" sözləri ilə ifadə olunmuş təşbehlər də vardır. Məsələn, "Elə bil onun da ürəyi vardır, elə bil onun da qəlbində yanan müqəddəs əməllər, xoş arzulardır", "Sancaqlar üz-üzə gəldiyi zaman, elə bil qovuşur gü-

nəş ilə ay", "Gah sevindi ağ sifəti bulud sayağı" (S.Vurğun) və s.

Ümumiyyətlə, götürsək, təsvirlərə hərarət, portretə aydınlıq verən təşbehlər bədii əsərdə, o cümlədən də poemada vacib poetik ünsürlərdəndir.

Azərbaycan poemalarında metaforalardan da geniş istifadə edilmişdir. Əslində metafora da bənzətməyə oxşayır. Ancaq burada məsələnin qoyuluşu, bənzətmə bir növ başqa şəkildədir.

Aristotel metaforaya belə tərif verir: "Metafora qeyri-adi bir ismi ya cinsdən növə, ya növdən cinsə, ya da növdən-növə keçirmək və ya bənzətmə yolu ilə məcazlaşdırmaqdır". V.M.Jirmunski görkəmli rus şairi A.Blokun əsərlərinə istinadən metaforanın bədii əsərin dilində mühüm komponent olduğunu sübut edir, göstərir ki, metaforik üslub şairə real hadisələri romantik şəkildə canlandırmağa geniş imkanlar verir. Metafora öz daxili qanunları əsasında yaranırsa, obrazlar canlanır, yeni-yeni əlamətlərlə zənginləşir.

Çingiz Aytmatov "Gün var əsrə bərabər" romanının girişində yazır: "Bizim əsrimizdə metaforalar bir də ona görə xüsusilə vacib olmuşdur ki, bunlar təkcə elmi-texniki nailiyyətlərimizin dünənki fantastika aləminə müdaxilə etdiyi üçün deyil, bəlkə də iqtisadi, siyasi, ideoloji, irqi ziddiyyətlərin didib parçaladığı dünyamızın özünün fantastik olduğu üçün vacibdir".

Metafora mühüm bir sənətkarlıq komponenti kimi bədii əsərin dilini adi danışıq dilindən fərqləndirir. Metafora cansız əşyaları canlandırmağa, ona poetik nəfəs verməyə xidmət edir. Məsələn, bir var ki, ulduzu adi sözlərlə təsvir edəsən, bir də var ki, aşağıdakı metaforalar vasitəsi ilə onun yeni-yeni cəhətlərini bizə göstərəsən: "Hətta sarışın ay ona gülmüşdü bu axşam", "Göz qırparaq gülümsərdi ona Zöhrə yıldızı" (H.Cavid. "Azər"); "Ulduzlar saralır paxıllığından"

(M.Müşfiq. “Buruq adamı”); “Ay gizlicə-gizlicə bir bulud arxasından göylərin yaxasından göstərərək üzünü bəyəndirir özünü” (M.Müşfiq. “Çoban”), “Üfüqdən üfüqə axır ulduzlar” (M.Müşfiq. “Dağlar faciəsi”); “Ay da bu halına göstərib maraq, nurilə zülfinə çəkərkən daraq” (M.Müşfiq. “Səhər”); “Yaslı-yaslı baxdıqca ay deyir: dünya kimə qaldı?” (S.Vurğun. “Bakının dastanı”); “Ay susdu, yol çəkdi qəmli gözləri” (S.Vurğun. “Ayın əfsanəsi”); “Uzaq buludlarda gəzinirdi ay”, “Ulduzlar göz qırpır gülümsəyərək” (S.Vurğun. “Komsomol poeması”).

Bu metaforalarda gülmək də, göz qırpmaq da, gülümsəmək də, paxıllıqdan saralmaq da, buludlar arxasından gizlincə baxıb özünü bəyəndirmək də, daraq çəkmək də, yaslı-yaslı baxıb danışmaq da, susmaq da, gəzinmək da… aya, ulduza yox, insana məxsus əlamətlərdir. Şairlər bu əlamətləri simvolik şəkildə aya, ulduza aid etməklə metafora yaratmış, təsvirin cazibədarlığını artırmağa nail olmuşlar.

Yaxud, S.Vurğunun “Muğan” poemasındakı bu misralara fikir verək:

Üfüqlər donunu geydi qırmızı,
Günəş – təbiətin xeyirxah qızı.
Yerlərə düşmədi kəhər atından,
Gah dağa səyirtdi, gah dağa çıxdı.

Nə don geyinmək, nə də at minib onu dağa, düzə səyirtmək üfüqə, günəşə məxsus əlamət deyildir. Şair təsvirə poetiklik gətirmək üçün insana məxsus əlamətləri üfüqlərə, günəşə aid etməklə onlara da insan nəfəsi verməyi bacarmış, metafora vasitəsi ilə şeirin dilini gözəlləşdirmişdir.

Yeri gəlmişkən, Səməd Vurğun metafora yaradarkən sədaqət, kişilik rəmzi olan ata tez-tez müraciət etmişdir. Məsələn, “Səyirdir atını qara bir bulud” (“Komsomol poe-

ması”); “Günəş sürür öz atını asta-asta” (“Bakının dastanı”); “Kür üstündə at oynadır sərt külək”, “Minib kəhər ürgəsini gəlməmişdi hələ səhər” (“Muğan”) və s.

Metaforada məfhumların müqayisəsi və bənzər cəhətləri qabarıq verilir. Ancaq müqayisə edilən məfhumların biri atılır, onun yerinə atılan məfhumun xüsusiyyəti saxlanır. Konkret nümunələrə müraciət edək:

“Hönkürüb ağlayır göydə buludlar, yerdə gülümsəyir çiçəklər, otlar” (M.Müşfiq. “Sındırılan saz”); “Gözü yaşlı buludlar üfüqdə yol kəsirdi” (M.Müşfiq. “Çoban”); “Səhərdir, darayır saçlarını gün, tərləyib Qafqazın qarlı dağları”, “Qaranlıq başını əymiş dağlara”, “Əsnəyir üstündə boranlı bir qış”, “Quşlar da boynunu burur yuvada”, “Gəzir qapıları ölü bir sükut” (S.Vurğun. “Komsomol poeması”); “Mavi dəniz xumarlanır nəfəsinlə”, “Bəzən çəkir qılıncını qopan külək”, “Şırıl-şırıl göy ləpələr yüz naz satır sahillərə”, “Vəcdə gəlir boran görmüş dağlar başı”, “Günəş salam verir iradənizə”, “Çatır Qara dəniz qaşını birdən”, “Bu daşlı, qayalı kiçicik dağa, gərir qanadını payız axşamı” (S.Vurğun. “Bakının dastanı”); “Uzaqlarda batan günəş şəhər ilə vidalaşır”, “Cırır matəm köynəyini göyün qərib axşamları” (S.Vurğun. “Zəncinin arzuları”); “Yenə də yamyaşıl geyinir dağlar”, “Zəmilər, tarlalar üzümə gülür”, “Cırır köynəyini bürküdən Aran”, “Ay işığı süfrə açır Muğan düzünə” (S.Vurğun. “Muğan”); “Amma gözəl təbiət uşağı təskin etdi, uşağı qucaqladı” (Ə.Kərim. “İlk simfoniya”); “Fikir azad olan bir məmləkətdə zülm öz atını səyirdə bilməz” (B.Vahabzadə. “İki qorxu”) və s.

Bu metaforalarda “atılan məfhum”un xüsusiyyəti elə qabarıqdır ki, asanlıqla onu bərpa edə bilərik. Buludlar insan kimi ağlayır, çiçəklər, otlar insan kimi gülümsəyir, gün saçını insan kimi darayır, Qafqazın qarlı dağları insan kimi tərləyir, qaranlıq başını insan kimi dağlara əyir, qış insan kimi əsnəyir,

sükut insan kimi qapıları gəzir, mavi dəniz insan kimi xumarlanır, külək döyüşçü kimi qılıncını çəkir, ləpələr gözəl kimi sahilə naz satır, dağlar insan kimi vəcdə gəlir, günəş insan kimi salam verir, Qara dəniz insan kimi qaşlarını çatır, payız axşamı ana quş kimi qanadmı dağın üstünə gərir, günəş insan kimi şəhərlə vidalaşır, qərib axşamlar insan kimi öz matəm köynəyini cırır, dağlar insan kimi geyinir, zəmilər, tarlalar insan kimi üzə gülür, Aran insan kimi öz matəm köynəyini cırır, ay işığı insan kimi süfrə açır, təbiət ana kimi uşağını qucağına alır, zülm insan kimi atını səyirdir.

Göründüyü kimi, "atılan məfhumu" və "kimi" bənzətmə qoşmasını əlavə etməklə metaforanı təşbehə döndərmək mümkündür.

Metaforaya istiarə də deyirlər. Təbiət təsvirlərində metaforaların – istiarələrin tayı-bərabəri yoxdur. Bu qənaətin doğruluğuna inanmaq üçün Səməd Vurğunun poemalarından götürdüyümüz metaforalara nəzər salmaq kifayətdir: "Qışın səhərində bu qarlar düzü, günəşdən qızınıb xumarlanırdı", "Gecə yapıncısını geyib dayandı" ("Komsomol poeması"); "Qayalar yüksəkdən baxır keçmişə", "Günəş salam verir bu doğma yurda" ("Talıstan"); "Ay gözəllik çadırını açıb durdu buludlarda", "Geydi al donunu yaqut üfüqlər" ("Ayın əfsanəsi"); "Buludlar sallanıb bəzən öpər dağlar camalından, günəş ilham alıb parlar göyün sonsuz kəmalından" ("Hörmüz və Əhrimən"); "Axşam! Axşam! Bu qaraqaş, qaragöz pəri laylay çalıb qucağında yatırdır bizi", "Qınına qoymuşdur qılıncını yay" ("Muğan"); "Ağ kəfən geyindi düzlər, yamaclar", "İnsana gəl deyir yenə səhralar, günəş salam verir hər qəhrəmana", "Karvan-karvan göydən ulduzlar köçür" ("Aygün") və s. Doğrudan da, böyük şairin əsərlərində metaforalar ətirli çiçəklər çəmənini bürüyən kimi hər tərəfə səpələnmişdir.

Metaforalar həm də qəhrəmanların hiss və həyə-

canlarını açmaq vasitəsinə çevrilir. Məsələn, “Bu son şikayəti dinləyən dağlar, döndərir dalını Gəraya tərəf”, “Humaydan iyrənir yorğan-döşək də”, “Gözlərində yuva salır gözəl diləklər”, “Aygünün üzündə gülür şəfəqlər”. Birinci metaforda dağların Gəray bəyə arxa çevirməsi onun qəddarlığına nifrətin ifadəsidir. Yorğan döşəyin Humaydan iyrənməsi qəhrəmanın faciəsini canlandırır. Axırıncı iki metafora isə Aygünün xoşbəxtliyindən xəbər verir.

Təsvirə poetik əhvali-ruhiyyə gətirməkdə, sözə simvolik don geydirməkdə metaforanın xidməti əvəzsizdir.

“Azərbaycan dilinin izahlı lüğəti”ndə oxuyuruq: “Metonimiya yunan sözü olub, bir sözün, iki məfhumun bir-birinə yaxınlığına əsasən başqa sözlə əvəz edilməsindən ibarət ifadə üsuludur”. “Ədəbiyyatşünaslıq terminləri lüğəti”ndə də təxminən eyni sözlər yazılmışdır: “Bədii dildə bir hadisənin, anlayışın, predmetin adının həmin həyat hadisəsi haqqında bizim şüurumuzdakı təsəvvürlərlə bağlı olan başqa adla əvəz edilməsi”. Nəzəriyyə kitablarında da metonimiyadan çox ötəri bəhs edilmişdir. Məsələn, Mir Cəlal və Pənah Xəlilovun “Ədəbiyyatşünaslığın əsasları” kitabında oxuyuruq: “Metonimiya deyilən başqa məcaz da var ki, burada hadisənin ümumi (küll) ilə bir hissəsi (cüzi) müqayisə edilir. Bəzən hadisənin adını çəkməklə hissənin ümumisi, ümuminin adını çəkməklə bir hissəsi nəzərdə tutulur”.

Bu kitablarda metonimiyaya misal gətirilən nümunələr aşağıdakılardır: “Sabiri oxumaq”, “Oxuyardı həvəslə o Apuleyi”, “Mən iki boşqab yedim”, “Dünən Moskva ilə danışdım”, “Universitet nümayişə gəldi”, “Danışır Bakı”, “Sabiri oxudum” – vəssalam. Özü də göründüyü kimi bu nümunələrin çoxu bədii əsərlərdən götürülməyib, müəlliflər tərəfindən nəzəri müddəaya uyğun quraşdırılıb. Burada belə bir sual ortaya çıxır: əgər metonimiyaya bədii əsərdən nümunə gətirmək mümkün deyilsə, bir bədii təsvir və ifadə vasitəsi

kimi ondan danışmağa dəyərmi?

Azərbaycan poemalarında rast gəldiyimiz metonimiyalar göstərir ki, metonimiya əsərə bədiilik gətirən, onun obrazlılığını artıran, sözə sehrli bir don geyindirən poetik vasitələrdəndir.

Konkret nümunələrə müraciət edək: "Düşünür sakitcə torpaqlı damlar" (S.Vurğun. "Komsomol poeması"); "Bakının dərdi var, Bakı xəstədir", "Göylərin altında aclıq çəkir yer" (S.Vurğun. "26-lar"); "Gülür yolçuların üzünə bulud, hər addımbaşında kiçik bir şəhər" (S.Vurğun. "Muğan"); "Sevindi analıq, qadınlıq adı", "Atıldı ellərin başından qara", "Yaradan əllərin hüququ birdir", "Yaşadı ömrünü sərxoş salonlar" (S.Vurğun. "Bəsti"); "Tamam meydan qızışmışdı" (S.Vurğun. "Hörmüz və Əhrimən"); "Dünyanın başına odlar ələndi" (S.Vurğun. "Zamanın bayraqdarı"); "Qayıqlar da ölüm ilə çarpışaraq əlləşirmiş pəncəsilə fəlakətin" (S.Vurğun. "Bakının dastanı"); "Qoy qılınc qurşasın müstəmləkələr" (S.Vurğun. "Zəncinin arzuları"); "Hönkür-hönkür ağlayır bir kənd" (M.Müşfiq. "Sındırılan saz"); "Axşamdır, qaynayır yenə kənd yolu" (H.Arif. "O qayıtmadı"); "Nizamini, Nəsimini, Füzulini varaqladıq" (H.Arif. "Azərbaycan simfoniyası"); "Evlərin ürəyi qopur yerindən" (M.Rahim. "Leninqrad göylərində"), "Arabalar küçələrdən ölü yığır aramsız" (S.Rüstəm. "Təbrizdə qış"); "Pentaqon düşündü" (B.Vahabzadə. "Təzadlar"); "Ağ örtüyə bürünübdür, yatır şəhər" (A.Babayev. "Memarın məhəbbəti"), "Sonra bizə tarix gülər, vətən yas tutar" (A.Babayev. "Babəkdən sonra"); "Doğma qəbri gözdən axan yaş axtarır", "Karvan köks ötürüb rəvan oldu aramla" (Qabil. "Nəsimi") və s.

Göründüyü kimi, poemalarımızda sözə poetik hərarət gətirən xeyli metonimiyalar vardır. Gətirdiyimiz nümunələrdə "damlar" yox, onun içində yaşayan adamlar düşünür; "yer" yox, onun üstündə yaşayan insanlar aclıq çəkir; "şə-

hərlər” yox, şəhərin adamları üzə gülür; “analıq adı” yox, anaların özü sevinir; “ellər”in başından yox, adamların başından qara atılır; “əllər”in yox, insanların hüququ birdir, “sərxoş salonlar” yox, sərxoşlar ömürlərini başa vururlar; “meydan” yox, meydandakılar qızışmışlar; “dünyanın” yox, insanların başına odlar ələnir; “qayıqlar” yox, onun içindəkilər ölümlə pəncələşir; “müstəmləkələr” yox, onun adamları qılınc qurşamalıdır; “kənd yolu” yox, onun içindəki adamlar qaynaşır; Nizamini, Nəsimini, Füzulini yox, onların əsərlərini vərəqləyirik; “evlər”in yox, adamların ürəyi qopur; “arabalar” yox, adamlar küçədən meyit yığır; “Pentaqon” yox, siyasətçilər düşünür; “şəhər” yatmır, şəhərlilər yatır; “vətən” yas tutmur, insanlar yas tutur; “göz yaşı” yox, insan doğma qəbirləri axtarır; “karvan” köks ötürmür, karvandakı adamlar köks ötürür və i.a.

Deməli, şairlər məcazın əsas növlərindən biri olan metonimiyanın köməyi ilə öz fikirlərini daha bədii şəkildə ifadə edə bilmişlər. Metonimiya adi danışıq üslubuna yox, bədii üsluba məxsus elementdir. Metonimiya sözün bədii təsir gücünü, onun emosionallığını qat-qat artırır.

Bədii əsərin mərkəzində qoyulan problemlərin, əsas fikirlərin daha qabarıq şəkildə nəzərə çarpdırılmasında təkrirlərin, anafora və epiforaların da özünəməxsus yeri və rolu vardır. Əgər təkrar sənəti öldürürsə, təkrir, onun xüsusi növü olan anafora və epifora təsvirləri canlandırır, əsərin dilinə, üslubuna emosionallıq gətirir. Azərbaycan şairlərinin poemalarında təkrirdən geniş istifadə olunur. Rəsul Rzanın poemaları bu baxımdan diqqəti daha çox cəlb edir. Fikrimizi ifadə etmək üçün hətta təkcə “Qızılgül olmayaydı” poeması belə bizə zəngin material verir. Poemanın elə ön sözündə “Mənə bir sərgi salonu verin”, “Bir insan şəkli asacağam” sözlərinin tez-tez təkrarı təsvirlərə bir hərarət, dinamizm gətirir.

Susur otaq,
Susur hava,
Susur divar,
Susur tavan,
Susursan sən də…

Burada "susur" sözünün təkrarı qəhrəmanın daxilindəki psixoloji gərginliyi açmaq vasitəsinə çevrilir.

Şair M.Müşfiqin, eləcə də onun şəxsində günahsız yerə gedər-gəlməzə göndərilənlərin faciəsini daha qabarıq vermək məqsədilə epiforadan məharətlə istifadə edir:

Fincandakı çaydan
burula-burula qalxan
buxar kəsildi,
O gəlmədi.
Anam gözlərini neçə
yol əlinin dalı ilə sildi,
O gəlmədi.
Pəncərədən düşən işıq
Divardan endi döşəməyə,
O gəlmədi.
Sinəmdəki ürək başladı üşüməyə,
O gəlmədi.

Təsvirlər bu qayda ilə davam etdikcə "o gəlmədi" cümləsinin on dəfə təkrarı həm faciənin böyüklüyünü, həm də bundan narahat olan müəllifin həyəcanlarını açmaq vasitəsinə çevrilir.

Poemanın ayrı-ayrı səhifələrində "o, bu" əvəzliklərinin, "bir" sayının, "mənə elə gəldi ki" və s. bu kimi birləşmələrin təkrarı vasitəsi ilə müəllif anafora yaratmışdır.

Yaxud, Səməd Vurğunun “Komsomol poeması”ndan götürdüyümüz aşağıdakı misralara fikir verək:

Humay düşündürür, Humay ağladır,
O, nə Tatyanadır, nə Ofelyadır.

Burada “Humay” və “nə” sözlərinin təkrarı təkrir yaradır. Ancaq S.Vurğun bununla kifayətlənmir. Humayın daxili dünyasını işıqlandırmaq məqsədilə yuxarıdakı beyti yeri gəldikcə təkrarlayır. Beləliklə, həmin beytin özü müəllif qayəsinin daha qabarıq ifadəsinə kömək edir.

Mikayıl Müşfiqin “Çoban” poemasında “o çaldıqca” sözünün neçə dəfə təkrarlanması da qüvvətli anafora yaradır.

B.Vahabzadənin digər poemalarında da anaforalar çoxdur. Məsələn, “Gülüstan” poemasında “bir”, “o”, “bəs hanı”, “kim”, “bir damcı mürəkkəb” və s. bu kimi sözlərin təkrarı təsvirlərə bir hərarət, yanğı gətirmişdir.

Şairlərimizdən Məmməd Rahimin, Qabilin, Nəbi Xəzrinin, Balaş Azəroğlunun, Məmməd Arazın, Xəlil Rzanın, Söhrab Tahirin, Fikrət Qocanın, Fikrət Sadığın, Tofiq Mahmudun, Nəriman Həsənzadənin, Tofiq Bayramın, Musa Yaqubun və başqalarının poemalarında anaforalardan, epiforalardan yeri gəldikcə istifadə olunmuşdur.

Sözün təsir gücünü artırmaq üçün təzadın da xüsusi əhəmiyyəti vardır. Çünki kontrastlı müqayisə vasitəsi ilə sənətkarlar öz qayələrini daha qabarıq şəkildə oxucuya çatdıra bilirlər. Təzaddan klassik ədəbiyyatımızda, xüsusən Füzuli yaradıcılığında çox geniş istifadə edilmişdir. M.F.Axundov özünün məşhur “Şərq poeması”nda Puşkinin ölümünün ağırlığını göstərmək üçün təzada müraciət etmişdir.

XX əsr Azərbaycan şairləri də klassiklərimizin ənənələrini davam etdirmiş, təzaddan mühüm bədii vasitə

kimi bəhrələnmişdir.

Dəf vurur, qızışıb zurnaçı həmən,
Əl-ələ tutuşub yallı gedirlər.
Məclisə baş çəkir hər gəlib-gedən,
Səslər qarışıqdır, az eşidilir.
Mağara gəlməmiş "xəstəyəm " deyə
Gülüb sevinməyə biganə Humay.
Qapının ağzında yalvarır göyə,
Buludlar yığışır başına lay-lay.

S.Vurğunun "Komsomol poeması"ndan götürdüyümüz bu parçada müəllif camaatın şənlənməsi ilə Humayın dərdli görkəmini qarşılaşdırmaqla qüvvətli təzad yaratmış, qəhrəmanın kədərinin böyüklüyünü qabarıq şəkildə nəzərə çarpdırmağa nail olmuşdur.

R.Rza "Qızılgül olmayaydı" poemasında təzad vasitəsi ilə xalqın taleyinə biganə soydaşlarımızın bədii obrazını yaradır, "iddiaları yekə, ürəkləri kiçik" insanları sənətin ecazkar gücü ilə qınayır.

Həyatı ziddiyyətləri ilə əks etdirməyi daha çox xoşlayan, bu yolda böyük uğurlar qazanan xalq şairi B.Vahabzadənin yaradıcılığında təzad ən çox istifadə edilən bədii vasitələrdəndir. Öz əsərlərində xeyirlə şəri, zülmətlə işığı, kədərlə sevinci üz-üzə gətirən şair müəllif qayəsini açmaq üçün təzaddan bədii vasitə kimi istifadə etməyi xoşlayır. Şairin, demək olar ki, bütün əsərlərinin mərkəzində haqla nahaqqın, düzlə əyrinin, qəmlə sevincin, qışla yazın, qorxuyla cəsarətin, inamla şübhənin… mübarizəsinin təsviri dayanır.

B.Vahabzadənin "Şəhidlər" poemasının bir fəslini "Təzadlar içində" adlandırması da təsadüfi deyildir. Öz əbədi üslubuna sadiq qalan B.Vahabzadə burada da təzadlar vasitəsi

ilə demək istədiyi fikrin bədii kəsərini artırmağa nail olur. “Xilaskar ordu” hesab edib şərəfinə abidə ucaltdığımız “qızıl ordu”nun həmin abidənin yanında silahsız, günahsız insanları qanına qəltan etməsi qüvvətli təzad yaradır:

Şər üçün nə qayda, nə şərt, nə qanun?
Bu imiş haqq işi qızıl ordunun.
Kimdi bəs ölənlər? İnanmaq çətin,
Dünən Rusiya üçün can verənlərin,
Şəhid düşənlərin şəhid övladı.

B.Vahabzadə tamamilə ayrı mövzuda yazılmış poemalarında da təzadlardan istifadə etməklə öz qəhrəmanlarının ziddiyyətli xarakterini açmağa nail olur.

Nümunələrdən göründüyü kimi, təzad da mühüm poetik funksiyaya malik təsvir vasitələrindəndir.

Sözün təsir gücünü qat-qat artıran, ona emosionallıq verən bədii sualdan da söhbət açmaq yerinə düşərdi. Özü də bədii sual istər klassik, istərsə də müasir poeziyamızda, o cümlədən poemalarımızda daha çox istifadə olunan poetik vasitələrdəndir.

Bədii sual adi, cavab almaq məqsədilə işlədilən suallardan ciddi şəkildə fərqlənir. Çox vaxt cavabın özü də sualın daxilində, onun cövhərindədir. Səməd Vurğunun “Komsomol poeması”ndakı aşağıdakı misralara fikir verək:

Nədir istədiyi dilsiz gecədən?
Baxın gözlərindən süzülən yaşa.
Burada saatlarca dayanır nədən,
Gecənin ürəyi döndümü daşa?

Burada şair öz qəhrəmanının hiss və həyəcanlarını əks etdirmək üçün bədii sualdan istifadə etmişdir.

Ümumiyyətlə götürsək, S.Vurğunun poetik üslubunun ən vacib elementlərindən biri də bədii sualdır.

Bədii sualdan daha çox istifadə edən şairlərimizdən biri də Bəxtiyar Vahabzadədir. Onun bütün poemalarında bədii suallar ulduzlar kimi bərq vurur, müəllif fikrinin, ideyasının projektoruna çevrilir. Şairlərimizdən Mikayıl Müşfiqin, Rəsul Rzanın, Süleyman Rüstəmin, Məmməd Rahimin, Nəbi Xəzrinin, Balaş Azəroğlunun, Fikrət Qocanın, Fikrət Sadığın, Qabilin, Cabir Novruzun, Məmməd Arazın, Xəlil Rzanın, Söhrab Tahirin, İsa İsmayılzadənin, Ələkbər Salahzadənin və başqalarının da əsərlərində bədii sualdan yeri gəldikcə istifadə edilmişdir. Bədii sual əsasən eyni poetik funksiyanı yerinə yetirdiyindən, başqa nümunələrə müraciət etməyə lüzum görmürük.

İstər klassik, istərsə də müasir əsərlərimizdə, o cümlədən poemalarda mübaliğələrdən də istifadə olunmuşdur. Şairlər şişirtmə vasitəsi ilə öz qəhrəmanlarının hiss və həyəcanlarını daha qabarıq verməyə, bədii təsvirin təsir gücünü artırmağa nail olurlar. Məsələn, M.Füzulinin "Leyli və Məcnun" poemasındakı aşağıdakı misralara fikir verək:

Dəryalara yetsə ləmeyi-tab,
Səhralara düşsə qətreyi-ab,
Dəryalar olurdu cümlə səhra,
Səhralar olurdu cümlə dərya.

Bu mübaliğə vasitəsi ilə Leylidən ayrı düşmüş Məcnunun dərdinin, iztirablarının ağırlığı qabarıq şəkildə nəzərə çarpdırılmışdır. Məcnun elə bir vəziyyətdədir ki, onun ahı dəryaya düşsə, dərya quruyar, göz yaşından bir qətrə səhraya düşsə, səhra dəryaya çevrilər.

Müasir Azərbaycan poemalarında da mübaliğələrdən

yeri gəldikcə istifadə edilmişdir.

Hər bir poema bədii söz abidəsidir. Bu abidəni isə bədii və ifadə vasitələri olmadan təsəvvür etmək mümkün deyildir. Yerində işlədilən epitetlər, təşbehlər, metaforalar, metonimiyalar, mübaliğələr, bədii suallar, təzadlar və s. əsərin bədii strukturunda mühüm yer tutur, obrazların xarakterinin açılmasında, müəllifin poetik məramının ifadəsində onların rolu danılmazdır. Bədii təsvir vasitələri son dərəcə mühüm sənətkarlıq komponentləridir. Onların hərəsinin özünəməxsus yeri və funksiyası vardır.

Məqalə R.Yusifoğlu ilə birgə yazılmışdır.
"Elm və həyat" qəzeti,
iyul, 2003-cü il

R Ə Y L Ə R

BƏDİİ TƏRCÜMƏNİN LEKSİK, FRAZEOLOJİ VƏ QRAMMATİK MƏSƏLƏLƏRİ

Bütün başqa elmlərdə olduğu kimi, dilçilik elmi də inkişaf etdikcə onun müxtəlif sahələri yaranır ki, həmin sahələr də öz növbəsində inkişaf edərək yeni, müstəqil elmin əsasını təşkil edir. Tərcüməşünaslıq da bu sahələrdən biridir. XX əsrin ikinci yarısında dilçilik tədqiqatlarında yaranmış tərcümə dilçiliyi adlı elmi istiqamət həm ölkəmizdə, həm də xaricdə tərcüməşünaslıq elminin yaranmasına gətirib çıxarmışdır. Tərcüməşünaslıq da üslubiyyat kimi ədəbiyyatşünaslıq və dilçilik elmləri arasında körpü təşkil edir.

Maraqlıdır ki, tərcümə çox qədim dövrlərdən məlum olduğuna baxmayaraq, onun nəzəriyyəsi ilə əsrimizin 20-ci illərindən məşğul olmağa başlamışlar. Lakin bu günə qədər tədqiqatçılar tərcümənin vahid nəzəriyyəsinin mümkün olub-ola bilməyəcəyi məsələsində qəti razılığa gələ bilməmişlər. Buna görə də tərcümənin nəzəri problemlərinə həsr olunmuş monoqrafik tədqiqatların hamısında səhv müddəalar, elmi-nəzəri nöqsanlar və digər xətalar olmasına baxmayaraq, bir məsələ şübhə doğurmur. Elmin və mədəniyyətin inkişafının müasir mərhələsində dünya xalqları arasında müxtəlif əlaqələrin möhkəmləndiyi şəraitdə tərcüməsiz keçinmək olmaz. Müasir mənəvi, milli və beynəlmiləl mədəniyyətin inkişafını tərcüməsiz təsəvvürə gətirmək mümkün deyil.

Tərcümə indi dünya xalqlarının elmi, ideoloji, siyasi və mədəni həyatında əsas yer tutur. Hər bir milli mədəniyyət eyni zamanda tərcümənin təsiri ilə inkişaf etdiyi kimi, dünya mədəniyyəti də milli mədəniyyətlərin tərcümə yolu ilə qaynayıb-qarışması nəticəsində inkişaf edir.

Tərcümədə YUNESKO-nun verdiyi məlumata görə bədii tərcümə əsas yer tutur, Xalqımız bu gün dünya ədəbiyyatının ən qiymətli inciləri ilə məhz tərcümə yolu ilə tanış olur. Respublikada tərcümə işini daha da yaxşılaşdırmaq üçün Azərbaycan KP MK 1983-cü ilin mayında xüsusi qərar qəbul etmişdir. Aydın məsələdir ki, həmin tarixi qərar respublika dilçiləri qarşısında da tərcümənin linqvistik problemlərinin Azərbaycan dili materialı əsasında elmi-nəzəri şərhini verməyi və tərcümə dilçiliyinin nəzəri əsaslarını yaratmaq vəzifəsini qoyur. Azərbaycan dilinə və Azərbaycan dilindən edilmiş tərcümələr əsasında tərcümə dilçiliyinin əsaslarını yaratmaq və bədii tərcümə vərdişini təkmilləşdirmək üçün əsas işimiz indiki şəraitdə ondan asılıdır ki, biz dünya və rus ədəbiyyatının ən görkəmli nümayəndələrinin əsərlərinin Azərbaycan dilinə tərcümə olunmuş variantlarının orijinala nə dərəcədə uyğun olub-olmadığını müəyyənləşdirək. Bu baxımdan, Mehdiyeva Duma Həsən qızının L.N.Tolstoyun romanlarının Azərbaycan dilinə tərcüməsi əsasında yazdığı "Bədii tərcümənin leksik, frazeoloji və sintaktik məsələləri" adlı dissertasiya işi aktualdır.

Əsərin 12 səhifədən ibarət "Giriş" hissəsi göstərir ki, müəllif tərcümə dilçiliyinin nəzəri əsaslarına həsr edilmiş bütün əsərləri diqqətlə mütaliə etmiş, onlardan faydalanmış, milli dillərə rus dilindən edilən tərcümələrə aid dissertasiya və məqalələri oxumuş və respublikamızda bədii tərcümə sahəsində görülən işlərdəki uğurlarımız və nöqsanlarımız haqqında Azərbaycan KP MK-nın müvafiq qərarı işığında

mülahizələr söyləmişdir. “Giriş”in sonunda müəllif əsas tədqiqat obyektindən söz açaraq göstərmişdir ki, L.N.Tolstoyun əsərlərini, xüsusən romanlarını Azərbaycan dilinə xalqımızın ən istedadlı oğulları Yusif Vəzir Çəmənzəminli, Mikayıl Rəfili, Məmməd Arif, Mikayıl Rzaquluzadə, Cabbar Məcnunbəyov, Ənvər Məmmədxanlı tərcümə etmişdir. Əsərin hər üç fəslində L.N.Tolstoyun əsasən “Hərb və sülh”, “Dirilmə”, “Anna Karenina” əsərlərinin Azərbaycan dilinə tərcümələrini orijinalla müqayisə edir, tərcümələrdə müsbət cəhətləri təqdir, ayrı-ayrı nöqsanları isə tənqid edərək, onların aradan qaldırılması yollarını göstərir.

Birinci fəsil L.N.Tolstoyun romanlarındakı leksik vahidlərin Azərbaycan dilində verilməsi məsələsinə həsr edilmişdir. Əlbəttə, tərcümədə leksik vahidlərin verilməsinin tədqiqi müəllifdən həm orijinalı, həm də tərcüməni ciddi şəkildə öyrənməyi, orijinaldakı eyni leksik vahidin müxtəlif semantik əhatədə tərcümə dilində hansı leksik vahidlərlə və nə üçün verildiyini müəyyənləşdirməyi tələb edir. Cəsarətlə demək lazımdır ki, dissertant bu elmi vəzifənin öhdəsindən məharətlə gəlmişdir. Görünür, dissertant L.N.Tolstoyun təhkiyə tərzinə yaxşı bələd olduğuna və Azərbaycan ədəbi dilini yaxşı bildiyinə görə təhlil zamanı tərcümələrdə nəzərə çarpan nöqsanları görmüş və onları aradan qaldırmaq üçün müvafiq təkliflər vermişdir. Dissertant göstərir ki, “радостный” sifəti “Anna Karenina”nın tərcüməsində, demək olar ki, hər yerdə sevincli kimi verilir ki, bu da bəzən L.N.Tolstoy üslubunun təhrifinə gətirib çıxarır. Bu baxımdan bir nümunəni nəzərdən keçirək:

“…И вдруг всплывала радостная мысль”. Bu cümlə tərcümədə belə getmişdir: “…birdən onun başında sevincli bir fikir oyandı”. Dissertant göstərir ki, Azərbaycan dilində “başda fikir oyanmaq” birləşməsindən daha çox “ağlına fikir

gəlmək” birləşməsi işlədilir. Ona görə də həmin cümlə “birdən ağlına gözəl bir fikir gəldi” şəklində verilsə, daha yaxşı olardı. Biz dissertantın fikri ilə tam şərikik.

Dissertant tərcümədə sinonim cərgələrin və leksik-qrammatik antonimlərin müqayisəli təhlilini verdikdən sonra L.N.Tolstoy əsərlərində təsadüf edilən çoxsaylı realiyaların Azərbaycan dilində verilmə yollarından danışır. L.N.Tolstoy romanlarının Azərbaycan dilinə tərcüməsində tərcümə olunmayan realiyaları dissertant üç hissəyə bölür. Dissertasiyada eyni zamanda tərcümə olunan realiyalardan da söhbət gedir. Yeri gəlmişkən, demək lazımdır ki, hər hansı bir xalqın maddi mədəniyyət əşyalarının adını bildirməyə xidmət edən realiyalar, bizcə, başqa dillərə tərcümə olunmamalıdır. Başqa dillərdə, həm də qohum olmayan dillərdə ekvivalenti olan realiyalar realiya olmaqdan çıxır. Ona görə də *лапти* və *çarıq, риза* və *ləbbadə, барин* və *ağa, тюрка* və *doğrama* heç də eyni əşyaların rus və Azərbaycan dilindəki adları deyil. Bunlar başqa-başqa məfhumlardır. Bundan çıxış edərək, biz dissertantın *“вуаль* ilə *duvaq, пирожки* ilə *qutab”* haqqında söylədiyi fikri təqdir edir və bəyənirik.

Birinci fəsildə ən maraqlı bölmələrdən biri də L.N.Tolstoy əsərlərində personajların nitqinin onların dünyagörüşünə müvafiq şəkildə verilməsidir.

L.N.Tolstoyun “Dirilmə” və “Anna Karenina” romanlarında mujiklərin, kəndlilərin, nökərlərin nitqi onların sosial vəziyyətlərinin açılmasında böyük rol oynayır. Dissertasiyanın 56-62-ci səhifələrində mujiklərin və lakeylərin nitqinin Azərbaycan dilinə tərcümədə nə dərəcədə canlı və dəqiq verilməsi haqqında söhbət gedir.

Əsərin 64-74-cü səhifələrində əsasən “Anna Karenina” romanının tərcüməsində nəzərə çarpan ən kobud səhvlər təhlil edilir. Bu təhlildə dissertant həm hazırlıqlı bir dilçi,

həm də L.N.Tolstoyun əsərlərinin bədii təhlilini verməyə layiq bir ədəbiyyatçı olduğunu nümayiş etdirir. Fikrimizi elmi şura üzvlərinə daha aydın çatdırmaq üçün əsərin 64-cü səhifəsindən dissertantın aşağıdakı hökmünü xatırladırıq:

"В связи с тем, что при перевода этого романа ("Anna Karenina nəzərdə tutulur") в некоторых случаях основное внимание концентрировалось не на содержании, а на форме, "скрытое значение" некоторых слов не учитывалось, и во многих случаях преобладал их буквальный перевод". Bu hökmdən sonra dissertant nə demək istədiyini tərcümədən gətirdiyi nümunələrin dəqiq təhlili ilə elmi şəkildə şərh edir.

Əsərin ikinci fəsli "Frazeologizmlərin tərcüməsi" adlanır. Bu fəsildə dissertant frazeologiya haqqında dilçilikdə mövcud fikirləri saf-çürük etdikdən sonra L.N.Tolstoyun romanlarında təsadüf edilən frazeologizmlər və onların Azərbaycan dilinə hansı yollarla tərcümə edilməsi haqqında danışır. Dissertant yazıçının romanlarındakı bir neçə frazeoloji vahidi kontekstdə gətirərək onun Azərbaycan dilindəki qarşılığının nə dərəcədə müvafiq olub-olmadığını göstərdikdən sonra işin həcmini nəzərə alaraq L.N.Tolstoyun romanlarında təsadüf edilən frazeoloji vahidləri təcrid olunmuş şəkildə götürür və onların tərcümədəki qarşılığını verir.

Birinci fəsildə olduğu kimi, burada da dissertant göstərir ki, L.N.Tolstoy bu və ya digər frazeoloji vahidi, atmacanı, atalar sözünü təsadüfi işlətmir, belə frazeologizmlərin obrazların daxili aləmini açmağa, təsvir edilən hadisələrin oxucuda emosiya yaratmasına xidmət edir. Dissertant haqlı olaraq göstərir ki, əgər L.N.Tolstoy bu və ya digər frazeoloji vahidə bir və ya iki söz əlavə edirsə, belə sözlərin də semantik siqləti, ekspressiv yükü olur. Tərcüməçi frazeoloji vahidə ekvivalent bir vahid axtararkən bu məsələlərin

hamısını nəzərə almalıdır.

L.N.Tolstoyun romanlarının Azərbaycan dilinə tərcüməsində bu vəzifələrin necə həll olunduğunu göstərmək üçün dissertant əsərin 88-106-cı səhifələrində müvafiq nümunələrə əsaslanaraq tərcümələrin məziyyətinin və nöqsanlarının obyektiv elmi şəkildə əsaslandırılmış təhlilini verir.

Əsərin üçüncü fəslində sintaktik vahidlərin tərcüməsi haqqında danışan dissertant yazır ki, L.N.Tolstoyun üslubunda qarışıq tipli mürəkkəb cümlələrin, xüsusən tabeli mürəkkəb cümlələrin işlənməsi xüsusi əhəmiyyət kəsb edir. Lakin belə cümlələrin tərcüməsi müəyyən çətinliklərlə bağlıdır. Dissertant göstərir ki, tərcümə zamanı bir çox budaq cümlələr feli sifət, feli bağlama və məsdər tərkibləri ilə verilir, bəzi hallarda isə orijinaldakı mürəkkəb cümlə tərcümə zamanı sadə cümlə ilə əvəz edilir. Bu müddəanın sübutu üçün dissertant müxtəlif romanlardan gətirdiyi nümunələri müqayisə edir və orijinaldakı sintaktik quruluşun tərcümədə dəyişməsinin səbəblərinin şərhini verir.

Dissertasiyanın sonunda verilən beş səhifəlik nəticə dissertantın hər üç fəsildə apardığı ciddi tədqiqatın məntiqi yekunudur.

Bizcə, bu əsər Azərbaycan dilində tərcümə problemlərinə həsr olunmuş əsərlər içərisində ən qiymətlilərindəndir. Əsərin elmi məziyyətləri daha çoxdur və biz heç də onların hamısını sadalamaq fikrində deyilik. Lakin bu qiymətli tədqiqat əsərində narazılıq doğuran bəzi məsələlər də var ki, biz onu dissertantın nəzərinə çatdırmaq istərdik.

1. Biz inqilabi yenidənqurma və aşkarlıq dövründə yaşayırıq. Məlumdur ki, son 15-20 ildə bəzi alimlər, şair və yazıçılar, teatr və kino işçiləri SSRİ-ni tərk etmiş və kapitalist ölkələrinə köçmüşlər. Bunlardan biri də Y.Etkindir. Bizə

belə gəlir ki, elmi-tədqiqat prosesində Y.Etkind, Sebastyan Şaumyan, İ.Melçuk tipli alimlərin əsərlərinə əsaslanmaq o qədər də düzgün deyil. Təəssüf ki, dissertant 7-ci səhifədə çıxarışda Y.Etkindin adını birinci yerdə çəkir.

2. L.N.Tolstoyun əsərlərinin dili və üslubu çox rəngarəng və zəngindir. Dissertant tədqiqat obyekti kimi yazıçının üç böyük romanını götürmüşdür. Bizcə, dissertant tədqiqatında ancaq dünya ədəbiyyatının ən qiymətli tarixi roman-epopeyası kimi qiymətləndirilən "Hərb və sülh" romanı ilə kifayətlənsə idi, daha maraqlı və qiymətli elmi nəticələr əldə edə bilərdi.

3. Dissertant 1960-cı ildə çapdan çıxmış "Azərbaycan ədəbiyyatı tarixi"nə əsaslanaraq 13-cü səhifədə göstərir ki, Azərbaycan dilində ilk tərcümə Nəsiminin Əvhədi Marağaidən etdiyi qəsidənin tərcüməsidir. Halbuki son dövrlərdə tədqiqatçıların bir qrupu Nəsiminin qəsidəsinin tərcümə deyil, Övhədi Marağainin qəsidəsinə nəzirə olduğunu təsdiq edir. Müəllif bu məsələyə öz münasibətini bildirməli idi."

4. L.N.Tolstoyun "Hərb və sülh" əsəri orijinalda inqilabaqədərki nəşrlərdə "Война и мир" kimi verilir. İnqilabdan əvvəl rusca мир "dünya", мир isə "sülh" mənasını verirdi. Dissertant həmin romanın Azərbaycan dilinə "Hərb və dünya" adı ilə deyil, "Hərb və sülh" kimi tərcümə edilməsinin səbəbini də aydınlaşdırmalı idi.

5. L.N.Tolstoy "Anna Karenina" romanına Bibliyadan götürülmüş "Мне отмщением аз воздам" kəlamını etiraf etmişdir. Bu kəlam tərcümədə kobud şəkildə təhrif olunmuşdur: "Mən bu qanı yerdə qoymayacağam". Dissertant bu məsələ haqqında heç bir şey demir.

Əlbəttə, göstərilən qeydlər dissertasiyanın elmi dəyərinə o qədər də təsir etmir.

Mən bir opponent kimi bu gün üzümü çox maraqlı bir

əsər yazmış dissertanta tutaraq deyirəm ki, elmdə onun tutduğu yol düzdür və əminəm ki, o, büdrəmədən elmin çətin yolları ilə onun zirvələrinə yüksəlməyə can atacaq.

Əsəri monoqrafiya şəklində çap etmək faydalı olar.

03.05.1988

XVIII ƏSR AZƏRBAYCAN ƏDƏBİ DİLİNİN TƏDQİQİ

Filologiya elmləri namizədi Nizami Qulu oğlu Cəfərov "XVIII əsr Azərbaycan ədəbi dili" mövzusundakı doktorluq dissertasiyasında Azərbaycan ədəbi dili tarixinin olduqca maraqlı, mübahisəli bir dövrünü araşdırmış, kifayət qədər əhəmiyyətli, elmi baxımdan əsaslı nəticəyə gəlmişdir. Dissertasiya giriş, üç hissə, nəticə, istifadə olunmuş mənbələrin və elmi-nəzəri ədəbiyyatın siyahısından ibarətdir

Girişdə XVIII əsr Azərbaycan ədəbi dilinin tarixi xarakteristikası verilir. Burada göstərilir ki, həmin əsr Azərbaycan ədəbi dili tarixində xüsusi olaraq seçilir. Belə ki, XVI, xüsusən XVII-XVIII əsrlər Azərbaycan ədəbi dili tarixinin nisbi müstəqilliyi mövcuddur. Bir tərəfdən milli (nəticə etibarilə, müasir) ədəbi dil formalaşırsa, digər tərəfdən (həm də daha intensiv surətdə) vaxtilə funksional olan ümumtürk dil tipi arxaikləşir və süqut edir… Dissertantın fikrincə, XVI, XVII və XVIII əsrləri əhatə edən nisbi tarixi mərhələnin özünəməxsus "dialektika"sı ortaya çıxır ki, həmin "dialektika"nın məntiqi daha çox XVIII əsr mənbələrinin dilində açılır. Çünki XVIII əsr həm qeyd edilən nisbi tarixi mərhələnin sonudur, həm də əsrin təxminən birinci yarısı (klassik üslubun hələ güclü olduğu dövr) XVI-XVII əsrlərin, ikinci yarısı isə XIX əsrin və ümumən müasir dövrün dil-üslub mənzərəsini təmsil etdiyindən ümumi "dialektika"nı bu və ya digər dərəcədə ehtiva edir.

N.Cəfərov Azərbaycan ədəbi dili tarixini ümumtürk ədəbi dili tarixinin kontekstində araşdırmağın yalnız tərəfdarı kimi deyil, bir növ metodoloqu kimi çıxış edir. O yazır ki,

ümumtürk (gələ-gələ regional xüsusiyyətlər kəsb etmiş) ədəbi dilinin süqutu və müxtəlif milli türk ədəbi dillərinin təşəkkülü tarixinin tədqiqi türkologiyanın aktual problemlərindən biri olaraq qalır: ümumtürk ədəbi dili (türki) necə süqut edir? Müxtəlif türk ədəbi dilləri necə milliləşir? Türkinin regionlaşması ilə türk ədəbi dillərinin milliləşməsi arasında hansı münasibətlər mövcuddur? kimi suallar müasir türk dilçiliyini, ümumən filologiyasını düşündürür. Dissertant müasir türkologiyanın Ə.R.Tenişev, B.A.Serebrennikov, Ə.Cəfəroğlu, Ə.M.Dəmirçizadə, A.M.Şerbak kimi görkəmli simalarının tədqiqatlarında sınaqdan keçirilmiş metodlardan istifadə etməklə yanaşı bir sıra metodoloji əhəmiyyətli mülahizələr də irəli sürür; burada ilk dəfə olaraq "XVI, xüsusən XVII-XVIII əsrlərdə Azərbaycan dilinin, ümumən ictimai təfəkkürünün milliləşməsi geniş linqvistik material əsasında araşdırılır və ədəbi dildə milliləşmənin dialektikası regional keyfiyyətlər qazanmış türkinin yenidən diferensiasiyası kontekstində müəyyənləşdirilir".

N.Cəfərov dissertasiyanın girişində daha bir məsələyə toxunur ki, fikrimizcə, onun da üzərində dayanmağa ehtiyac vardır – bu, XVIII əsr Azərbaycan ədəbi dilinin funksional üslub mənzərəsi ilə əlaqədardır: dissertant göstərir ki, indiyə qədər yalnız bir üslub – bədii üslub bu və ya digər dərəcədə araşdırılmış, elmi və rəsmi üslublar isə, demək olar ki, diqqətdən kənarda qalmışdır.

Əlbəttə, müəlliflə razılaşmamaq çətindir.

Dissertasiyanın birinci hissəsi "Mədəni tarixi proses (ictimai təfəkkürün milliləşməsi) və ədəbi dilin dialektikası" adlanır. Burada aşağıdakı məsələlərdən ətraflı şəkildə bəhs edilir:

1) XVI-XVIII əsrlərdə Azərbaycanda və həmhüdud regionlarda iqtisadi, ictimai-siyasi, mədəni proseslər – milli dövlətçilik təfəkkürünün formalaşması, milli ictimai şüurda

demokratikləşmə, Azərbaycan mədəniyyətinin intibahı, milli etnomədəni sistemin təşəkkülü və s.

2) ədəbi dilin milliləşməsi – türkinin Qafqaz-Kiçik Asiya regional təzahürünün demokratikləşməsi, xalq dilinin ədəbi səviyyəyə yüksəlməsi, ədəbi normativliyin güclənməsi və s.

3) XVIII əsr Azərbaycan ədəbi dili mənbələrinin mənzərəsi – klassik mənbələr, "xalq kitabları", cünklər; yazının demokratikləşməsi, şifahi dillə yazı dili arasındakı əlaqənin mənbələrdə əksi; uyğun türki, türkmən, Şimali Qafqaz mənbələri və s.

Dissertasiyanın birinci hissəsi, göründüyü kimi, giriş səciyyəsi daşıyır, ümumnəzəri, ümummetodoloji mülahizələrdən ibarətdir. Lakin etiraf etmək lazımdır ki, bu cür ümumnəzəri və ümummetodoloji giriş olmadan əsərin əsas ideyasını anlamaq, bütün miqyası ilə dərk etmək çətin olardı. Bununla belə, əsərin birinci hissəsində mübahisəli məqamlar da yox deyil. Məsələn, müəllif XVIII əsr dil prosesləri haqqında danışarkən bir-birindən fərqləndirməyə çalışdığı "nitq mədəniyyəti" formalarının bütöv bir sistemini təqdim edir. Lakin müşahidələr göstərir ki, həmin sistemi başqa diferensiasiyada da təsəvvür etmək mümkündür. Başqa sözlə, haqqında söhbət gedən "nitq fəaliyyəti" formaları lazımi səviyyədə əsaslandırılmamış, illüstrativ materialsız, nümunəsiz verilmişdir.

Dissertasiyanın ikinci hissəsi "XVIII əsr Azərbaycan ədəbi dilinin normaları" adlanır. Burada göstərilir ki, XVI-XVII əsrlərdə Azərbaycan ədəbi dilinin normasında milliləşmə prosesi gedir və bu proses XVIII əsrin sonlarına doğru əsasən başa çatır – XVIII əsrin mənbələri həm milli normanın təşəkkülü prosesini, həm də onun keyfiyyətini əks etdirdiyi üçün norma-anomaliya münasibətlərinin dialektikasını araşdırmağa imkan verir… Və müəllif XVIII əsr Azərbaycan

ədəbi dilinin normalarını aşağıdakı üç fəsildə tədqiq edir:

I. Fonetik norma.

II. Leksik norma.

III. Qrammatik norma.

N.Cəfərov "fonetik norma" anlayışını geniş mənada – həm fonetik, həm də fonoqrafik norma mənasında işlədir ki, bu, tamamilə təbiidir, çünki XVIII əsr ədəbi dilinin fonetik xüsusiyyətləri barədə yalnız yazıdan məlumat almaq mümkündür. Və dissertantın qeyd etdiyi kimi, XVIII əsrin yazı dili xalq danışıq dilinə yaxın, demokratik olduğuna görə ədəbi dilin səs sistemi, yaxud fonetik norması, eləcə də norma-anomaliya münasibətləri barədə əvvəlki dövrlərə nisbətən daha dəqiq məlumat verir. Lakin norma barədə danışarkən dissertant lüğət tərkibindəki demokratikləşməni ümumən XVIII əsr ədəbi dili leksik-semantik sisteminin əsas əlaməti kimi səciyyələndirir – bunun göstəricilərindən biri kimi dövrün lüğətlərində məişət leksikasının ardıcıl əks olunduğunu göstərir. Azərbaycan, türk və türkmən ədəbi dillərinin qrammatik quruluş baxımından fərqlənməsi məhz bu dövrdən başlayır. Belə ki, XVIII əsr Azərbaycan ədəbi dilinin qrammatik, xüsusilə morfoloji normaları milli dilin xarakterini müəyyənləşdirən əsas əlamət kimi çıxış edir.

Ümumiyyətlə, dövrün ədəbi dilinin normalarından geniş bir şəkildə bəhs edən ikinci hissədə dissertantın nitq faktı üzərində işləmə məharəti özünü bütün aydınlığı ilə göstərir. Nəinki, tipik, heç təsadüfi hadisələr də onun diqqətindən kənarda qalmır. Müəllifin ümumiləşdirmə qabiliyyəti, bu və ya digər nitq hadisəsinin səbəblərini aydınlaşdırmağa çalışmaq istəyi, şübhəsiz ki, əsərin orijinal bir tədqiqat işi kimi meydana çıxmasında əsas rol oynamışdır. Lakin, fikrimizcə, burada da bəzi çatışmayan cəhətlər vardır ki, biz onlardan birini xüsusi olaraq qeyd etmək istərdik: dissertant hər yerdə sistemli təsvirə can atdığından, Azərbaycan dili

tarixçiliyinə məlum olan nitq hadisələrini də öz araşdırmasında əhatə etdiyindən xeyli təfsilata varmış, prinsip etibarilə, təkrarçılığa yol vermişdir. Halbuki buna ehtiyac yox idi. Əslində isə daha çox ehtiyac duyulurdu ki, müəllif dil hadisələrini sadalamaq əvəzinə daha geniş şərh edə, digər türk-oğuz dillərinin müvafiq hadisələri ilə müqayisələr aparaydı.

Dissertasiyanın üçüncü hissəsi "XVIII əsr Azərbaycan ədəbi dilinin funksional üslubları" adlanır ki, həmin hissə də üç fəsildən ibarətdir:

I. Bədii üslub (ədəbi-bədii dil).

II. Elmi üslub.

III. Rəsmi üslub.

Bədii üsluba (ədəbi-bədii dilə) həsr olunmuş fəsil dissertasiyanın yalnız ən həcmli deyil, həm də ən mükəmməl, elmi baxımdan ən dəyərli fəslidir. Burada Şirvan şairlərinin, ədəbiyyatının böyük simaları M.V.Vidadinin, M.P.Vaqifin ədəbi-bədii dili ətraflı şərh olunur. Deyə bilərik, bu barədə çox yazılmışdır… Biz də razıyıq. Lakin N.Cəfərovun burada verdiyi sistemli, analitik izahlar, mükəmməl ümumiləşdirmələr, elə bilirik ki, indiyə qədər heç kəs tərəfindən verilməmişdir. Xüsusilə "Şəhriyar" dastanının dilinin M.F.Axundovun dramaturgiya dili ilə müqayisəsi bizim diqqətimizi ona görə cəlb etməyə bilmir ki, müəllif ilk dəfə olaraq M.F.Axundovun dramaturgiya dilinin poetexnoloji mənbələrini müəyyənləşdirir, bu dilin haradan, hansı "daxili ehtiyac"dan nəşət tapdığını göstərir.

Dissertasiyanın elmi üslubdan bəhs edən fəsli də kifayət qədər yüksək səviyyədə işlənmişdir, lakin mənbələrin azlığı müəyyən obyektiv çətinlik də yaratmış, XVIII əsr Azərbaycan ədəbi dili elmi üslubunun mənzərəsi barədə təsəvvür, heç şübhəsiz yarımçıq qalmışdır. Eyni sözləri, hətta bir neçə yeni mənbənin ilk dəfə tədqiqata cəlb edildiyi üçüncü fəsil

haqqında da demək olar: XVIII əsrdə Azərbaycan dili dövlət dili deyildi, ona görə də rəsmi, eləcə də işgüzar sənədlər, demək olar ki, bu dildə tərtib edilmirdi. Bununla belə müəllif əsrin əvvəllərində I Pyotrun "Manifest"inə, sonunda isə II Yekaterinanın "Qanuni-cədid"inin tərcüməsinə əsaslanaraq XVIII əsr Azərbaycan dilinin rəsmi üslubu barədə təsəvvür yaratmağa çalışmışdır.

Ümumiyyətlə, N.Cəfərovun doktorluq dissertasiyası yüksək səviyyəli bir alim-tədqiqatçının olduqca əhəmiyyətli, dəyərli əsəridir.

24.12.1991

QANADLI SÖZLƏRİN FRAZEOLOGİYADA YERİ VƏ STRUKTUR-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

"Azərbaycan dilində qanadlı sözlər" mövzusunda dissertasiya işi çox mühüm elmi-nəzəri və praktik baxımdan ciddi əhəmiyyət kəsb edən bir məsələnin tədqiqini qarşıya məqsəd qoymuşdur. Tədqiqatçının ilk mərhələdən böyük çətinliklə üzləşəcəyi faktı onunla bağlıdır ki, qanadlı sözlər sistemi nəinki Azərbaycan dilçiliyində, habelə demək olar ki, bütövlükdə dilçilik elmində ya müstəqil tədqiqat obyektinə çevrilməmiş, ya da başqa istiqamətlərdə tədqiq edilmişdir. Bu da həmin mövzunun elmi-nəzəri cəhətlərini nəzərdən keçirəcək tədqiqatçının dolaşıq labirintə düşməsinə şərait yaratmışdır. Lap əvvəlcədən qeyd edək ki, dissertasiya özünəməxsus elmi cəsarətlə yazılmış, qanadlı sözlər sisteminin çox maraqlı araşdırılmasını bizə təqdim etmişdir. Tədqiqatın giriş hissəsində mövzunun aktuallığı, məqsəd və vəzifələri, onun elmi yeniliyi, metodları, elmi-nəzəri əhəmiyyəti, faktoqrafik əsası kimi cəhətləri aydın bir dildə və üslubda nəzərə çatdırılır.

Dissertant birinci fəsildə qanadlı sözlər və onların frazeologiyada yeri kimi maraqlı bir tədqiqat səpgisində qanadlı sözlər anlayışının hüdudlarını, bu sözlərin dilin frazeoloji sistemində yerini dəqiqləşdirməyə çalışır.

Tədqiqatçı mövzuya dair bir çox mötəbər mənbələrin elmi-tədqiqat işlərinin, xüsusilə türk və rus dilçiliyinin faktları əsasında qanadlı sözlərin bir termin, bir istilah kimi tarixi köklərinə gedir, bu qısa, lakin sanballı ekskurslarda araşdırdığı ədəbiyyata, nəzəri fikirlərə öz münasibətini, həmçinin bu işin əsas məziyyətlərindən birinə çevrilmiş

tənqidi münasibətini bildirir. Bütün bu mənbələrə ayıq baxış müəllifin qanadlı sözlər sisteminə dair öz konsepsiyasının meydana çıxmasına, özünün elmi ümumiləşdirmələrinə zəmin yaradır.

Və burada bir cəhəti xüsusi qeyd etməyi lazım bilirik ki, həmin fəsil qanadlı sözlərin yaranmasının fenomenal və filogenetik əsaslarını, onların struktur xüsusiyyətlərini, konstruktiv və funksional əlamətlərini geniş tədqiq edir, orijinal nəticələrə gəlir. Bu yerdə belə bir iradı da deməyin vaxtıdır ki, dissertant rus dilçiliyinə və rus faktoqrafik əsaslarına daha çox yer verir, nəticədə, ümumiyyətlə, doğru fikirlərə gələn elmi mətnin ümumən türkolojilikdən müəyyən qədər aralı düşməsinə səbəb olur. Dünən üçün məqbul sayılan bu keyfiyyətin bu gün bizə xeyir vermədiyini nəzərə almaq yaxşı olar.

Dissertasiya mətnindəki xüsusi elmi sistem qaneedicidir. Deyək ki, qanadlı sözlərin bir sıra şəxslər tərəfindən poetik şərhi ilə elmi-nəzəri fikrin qiymətindəki fərqi dissertant çox yaxşı duyur. Bu sistemin müqayisəli elmi mətni atalar sözü, aforizmlər və s. kimi dil vahidləri ilə müqayisəsi xüsusi maraq doğurur. Bu müqayisə həm də ona görə maraqlıdır ki, tədqiqatçı dəqiq elmi fikir naminə heç bir elmi avtoritet qarşısında aciz dayanmır və bütün mətn boyu qanadlı sözlərə dair öz konsepsiyasının doğruluğuna bizi inandıraraq fəaliyyət göstərir. Nəticədə qanadlı sözlərin özünəməxsus cəhətləri, əlamətləri qruplaşdırılır və belə bir nəticəyə gəlinir ki, qanadlı sözlər yalnız xüsusi mətnlər və xüsusi üslublarda işlənir, ekspressivlik yaradır, onların etimologiyası iştirak etdiyi mətndən kənarda izah oluna bilmir və s.

Bu fəsildə qanadlı sözlərin dilin frazeoloji sistemində yerinə ayrıca nəzər salınır. Burada birləşmə tərkibinə qatılan təkkomponentli qanadlı sözlərin, söz birləşməsi şəklində və daha çox da uzuntərkibli qanadlı sözlərin dildə yeri barədə

maraqlı araşdırma aparılır.

Tədqiqatın ikinci fəslində Azərbaycan dilində qanadlı sözlərin mənbələri və yayılması prinsipləri araşdırılır. Burada qanadlı sözlərin təşəkkülü və yayılması, onların işlədildiyi sahələr, qanadlı sözlərin mənbəyi kimi maraqlı mövzular üzərində hərtərəfli və geniş elmi fikir üzərində söhbətin şahidi oluruq. Xüsusilə qanadlı sözlərin mənşəyi və təşəkkülü barədə fikirlərdə elmi yükün ağırlığı daha çox hiss olunur. Azərbaycan dili və bu dilin daşıyıcılarındakı dil və təfəkkürün dünya dilləri içərisində ən çox metaforik bənzətmə, poetiklik, ekspressivlik və ifadəlilik vasitələrinin zənginliyi konsepsiyasından çıxış edən və öz nəzəri araşdırmalarını məhz bunun üzərində quran müəllifin fikrilə razılaşmamaq çətindir. Buradakı araşdırmadan və qanadlı sözlərin təşəkkülü, yayılması ilə bağlı keyfiyyətlərə diqqət edəndən sonra Azərbaycan xalqının poetik düşüncə tərzinin qaynaqlarını da dərk eləmək xüsusi çətinlik törətmir.

Bu bölmədə müəllifin atalar sözləri ilə zərb-məsəllərin, qanadlı sözlərlə aforizmlərin çox incə məna çalarlarını üzə çıxarması və onları elmi şəkildə fərqləndirə bilməsi ayrıca qeyd edilməlidir. Çünki həmin dil vahidlərinin təkcə onun aparıcıları tərəfindən deyil, hətta mütəxəssis dilçilər tərəfindən də çox zaman qarışdırıldığı elə dissertasiyanın özündə maraqlı illüstrativ faktlarla sübut edilir.

Qanadlı sözlərin Azərbaycan dilindəki mənbələri təkcə qeyd edilməklə qalmır, bu mənbələrin həmin faktı özündə daşımasının səbəbi də düzgün açılır. Müəllif onu da doğru qeyd edir ki, dilimizdə qanadlı sözlərin təşəkkülü orta əsr poeziyası ilə başlanır. Öz fikrini əsaslandırmaq üçün gətirdiyi misallardan hiss olunur ki, tədqiqatçı bu dövrün poeziyasını sadəcə fakt gətirmək xatirinə deyil, problemin elmi həllini vermək üçün öyrənmişdir. Həm də bu mənbələr tarixi-xronoloji inkişaf baxımından öyrənilərək qanadlı sözlərin dil

praktikasında yerini və dil praktikasının qanadlı sözlər sistemində yerini müəyyənləşdirməyə imkan vermişdir.

Azərbaycan dilində qanadlı sözlərin işlədilməsi sahələri ilə bağlı araşdırma da xüsusi maraq doğurur. Doğrudan da, ədəbi dildə formalaşan və onun müxtəlif üslublarında işlədilən qanadlı sözlərin istər klassik, istərsə də müasir dilimizdə işlənmə sahələrinin müəyyənləşdirilməsi vacib keyfiyyətlərdən biridir. Bu da doğrudur ki, qanadlı sözlər bədii üslub üçün çox yararlıdır. Lakin elə buradaca müəllifin qanadlı sözlərin geniş işlədildiyi digər sahələrə nisbətən az diqqət etdiyi təəssüf doğurur. Xüsusilə dilin publisistika kimi güclü funksional üslubuna az yer verilməsindən narazı qalırıq.

Qanadlı sözlərin çatdırılması üsulları üzərində dayanan araşdırma məqamı da maraqlıdır. Bu cür sözlərin mətn daxilində xüsusi izahı, qanadlı sözün xüsusi çıxarışda izahı (bu sözün işləndiyi səhifənin sonunda), qanadlı sözlərin əsərin sonunda xüsusi səhifədə izahı. Bu yerdə müəllifin mətbuat üslubuna geniş yer verməsi qanadlı sözlərin praktik dilçilikdəki əhəmiyyətini dəqiqləşdirən fakt kimi qiymətlidir.

Azərbaycan dilində qanadlı sözlərin mənbəyi barədə elmi fikir söyləyən dissertasiya müəllifi bu mənbələri əsasən, dilin öz milli köklərində alınmalarda axtarması da heç bir mübahisə doğurmur. Lakin dilin öz qaynaqları ilə alınma mənbələri arasında alınmaların xeyrinə tarazlığın pozulması mübahisə doğura bilər.

Ədalət naminə qeyd edək ki, alınma qanadlı sözlər ətrafında aparılan tədqiqat öz zənginliyi, müxtəlif fakt mənbələrinə tədqiqatçı bələdçiliyi ilə diqqəti cəlb edir. Burada klassik və müasir qanadlı sözlər arasında sərhədlərin müəyyənləşdirilməsi həm də dilin və bu dildə qanadlı sözlər sisteminin tarixi-xronoloji tempini açıqlamaq baxımından qiymətləndirilməlidir. Və müəllif özünün belə bir fikrində haqlıdır ki, Azərbaycan dilinin vaxtı ilə beynəlxalq arealda

güclü yeri, xüsusilə onun müdriklərinin yaratdıqları qanadlı sözlərin bu sahədə geniş işlənməsi son dövrlərdə zəifləmişdir. Müəllifin bu təəssüfünə biz də qoşuluruq.

Azərbaycan dilində qanadlı sözlərin struktur-semantik xüsusiyyətlərinə həsr olunmuş üçüncü fəsil bu problemlə bağlı bir sıra nəzəri faktları ortaya çıxarır və onun elmi həllini verir. Azərbaycan dilində qanadlı sözlərin struktur təsnifatında sadə və mürəkkəb qanadlı sözlər ilkin izah olunur. Söz birləşmələri, yarımçıq fraza və cümlə vahidləri şəklində qanadlı sözlərin bu şəkillərini yaradan səbəblərin izahı da bizi təmin edir. Həmin şəkillərə, strukturlara dair illüstrativ materialların zənginliyi müəllifin bu sahəyə yaxından bələdçiliyi ilə izah olunmalıdır. Qanadlı sözlərin struktur həcmi ilə onların nitqdə işləklik dərəcəsi, xüsusilə işlənmə tezliyi arasındakı tərs mütənasibliyin müşahidəsi və s. kimi cəhətlər işin elmi tapıntıları sırasındadır. Qanadlı sözlərin struktur prinsipləri ilə əlaqədar müşahidələrində alınma qanadlı sözlərin təhrifi üzərində geniş dayanan müəllif bu təhriflərin təkcə fikri deyil, dilin özünü dolaşdırdığını göstərir. Bu yerdə alınma qanadlı sözlərin hansı məqamda kalka tərcüməsi, hansı məqamda qarşılığının tapılmasının vacibliyini tələb edən tövsiyələri yaradıcı ziyalılarımız üçün yararlı ola bilər.

Dissertasiyanın sonunda tədqiqatçının gəldiyi elmi nəticələr yığcam şəkildə ümumiləşdirilir.

Əlbəttə, dissertasiyada bir sıra elmi-nəzəri və struktur qüsurlara da rast gəlirik. Yuxarıda müəllifin fakt materiallarının hər bölmədə zənginliyini qeyd etdik. Lakin bəzən faktsızlıq hadisələrinə də rast gəlirik. Qədim antik ədəbiyyatdan nümunələrin azlığı buna sübutdur. Nədənsə qanadlı sözlərin mənbəyi ilə əlaqədar söhbət həm birinci, həm də ikinci fəsildə, başqa-başqa şəkildə olsa da, təkrar edilir və s.

Lakin dissertasiyanın ümumi elmi sanballılığı qanadlı sözlərin tədqiqi kimi orijinal bir araşdırmanın elmi dəyərini bu xırda qüsurların azaltdığı iddiasından uzağıq. Geniş elmi ədəbiyyatın, zəngin faktoqrafik mənbələrin və müəllif erudisiyasının məhsulu olan bu dissertasiya onun tədqiqatçısının – Tağıyeva Həyat Məmməd qızının filologiyamıza dəyərli hədiyyəsidir.

03.05.1992

AZƏRBAYCAN DİLİNDƏ BİRHECALI FELLƏRİN TƏDQİQİ

Türk dillərində söz köklərinin quruluşu ilə bağlı aparılan tədqiqatlar genişlənir, həm də dilin dərin qatlarına endikcə dilçiliyimiz üçün çox gərəkli məsələlər aşkarlanır. "Azərbaycan dilində birhecalı fellərin fonosemantik inkişafı" mövzusu da dilimizin dünəni, bu günü barədə ətraflı məlumat almaq üçün böyük rola malikdir. İkinci bir tərəfdən söz köklərinin rekonstruksiyası ciddi bir problem kimi dilçiliyin aparıcı və aktual mövzularındandır. Daxili rekonstruksiya metodu ilə türk dillərinin amorf dövrü üçün xarakterik plan kök morfemlərin bərpası onu sübut edir ki, iltisaqi quruluşa qədərki dövrdə ad-fel kimi işlənən tipik köklərin məqbul hal kimi qəbul olunması əsaslıdır.

Dissertasiya giriş, iki fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

Girişdə mövzunun aktuallığı, elmi yeniliyi, məqsəd və vəzifəsi, işin nəzəri və təcrübi əhəmiyyəti, aprobasiyası haqqında məlumat verilir. Müəllif həm də türkologiyada söz kökləri barədə müxtəlif fikir tərəfdarlarının adlarını çəkir. Qeyd edir ki, milli orijinallığı ilə digər nitq hissələrindən fərqlənən fellərin əsasında "ölü" köklər dayanır. Müəllif həmin "ölü" kökləri müəyyənləşdirməklə amorf quruluşlu dövrün polisemantik və flektiv cəhətlərini səciyyələndirir. Daha doğrusu, ad-fel kimi işlənən "ölü" köklərin nüvə semantikasının məna tutumunu təbii dil qanunauyğunluğu kimi qəbul edir.

Birinci fəsil "sait+samit tipli birhecalı fellərin fonosemantik inkişafı" adlanır. Burada *at, -et-, it-, öt-, ax-, ay-, al-, -ol-, iç-, -uç-* və s. fellərin fonosemantik inkişafı izlənilir.

Təqdirəlayiq haldır ki, dissertant bu sözlərin fonosemantik inkişafında dilin daha dərin qatlarına enir, hər bir sözün inkişafı ilə bağlı mahiyyəti üzə çıxarır, ümumiləşdirmələr aparır və orijinal fikirlər söyləyir. Xüsusilə, *at-, al-, oy-* fellərinin izahı ağlabatan, inandırıcı və maraqlıdır. Məsələn, dissertant *oy-* felinin fonosemantik inkişafından danışarkən təkcə kökün modifikasiyası ilə kifayətlənməmiş, həm də onun törəmələrini də sadalamışdır.

Müəllif fellərin izahında türk dilləri ilə müqayisələr aparır, mənbələrə müraciət edir, zəngin dil materiallarını elmi istiqamətdə təhlil edir. Həm də müəyyən səslərin fonematik yükünü müəyyənləşdirir və öz elmi bazası əsasında mövqeyinin düzgün olduğunu inandırır. Bu mənada *"-t"*, "*-l*", *"o//u"* səslərinin daşıdığı fonematik yük haqqında izahlar zəngin faktlara əsaslanır.

İkinci fəsil "samit+sait+samit tipli birhecalı fellərin fonosemantik inkişafı" adlanır. Dissertant Buludxan Əziz oğlu Xəlilov bu tipli felləri aşağıdakı istiqamətlərdə tədqiqata cəlb etmişdir:

1. Hərəkət anlamında olan söz köklərinin fonosemantik inkişafından törəyənlər;

2. Mifoloji anlamda olan söz köklərinin fonosemantik inkişafından törəyənlər;

3. Ümumi məna anlamında olan söz köklərinin fonosemantik inkişafından törəyənlər.

Dissertant tarixi-müqayisəli metoda əsaslanaraq bu fəsildə uğurlu etimoloji təhlillərə nail olur. Daha çox fellər türk dillərində olan variantları ilə müqayisələrə cəlb olunur və dialektlərdə, yazılı mənbələrdə işlənən fel kökləri arxetip forma kimi bərpa olunur. Burada arxetip formanı qoruyan sözlərin əksəriyyəti törəmələr kimi qruplaşdırılmış və müəllifin diqqətindən kənarda qalmamışdır. Xüsusilə, *gö-, gə-, do-, qo-, ça-* kökləri və onların törəmələri linqvistik təh-

lil və etimoloji izahı baxımından sistemli şəkildə araşdırılır.

Dissertantın gəldiyi nəticələr müfəssəl şəkildə nəticədə öz əksini tapır.

Dissertasiya Azərbaycan dilinə aid olsa da, müəllif hər bir fel üzrə digər türk dillərinə müraciət edir, müqayisələr aparır. Habelə müvafiq sahəyə aid zəngin ədəbiyyata müraciət edir, onlardan bəhrələnir.

Dissertasiyanın məziyyətlərindən çox danışmaq olar. Hiss olunur ki, müəllif hər bir fel üçün lazım olan bütün incəlikləri izah etməyincə o birinə keçmək istəmir. İş zəngin elmi-nəzəri fikir və dəlillərə söykənməklə yazılmışdır. Mövzu ilə bağlı olan bütün materialları mənimsəyən müəllif onu uğurlu şəkildə nümayiş etdirməyi də bacarır. Dissertasiya məntiqi ardıcıllığa malikdir. Bir sözlə, dissertasiya işi bişmiş alim qələminin məhsulu təsirini bağışlayır.

Dissertasiyada bəzi məsələlərlə əlaqədar qeydlərimizi də bildirmək istəyirik:

1. Bəzən *"buna görə", "ona görə"* ifadələri tez-tez işlənməklə dissertantın üslubuna xətər yetirir.

2. Dissertasiyada bəzi sözlərin yazılışı redaktədə nəzərdən qaçmışdır. Məsələn, *Vamberi* sözü *Vamber* kimi getmişdir.

3. Örüş sözünü dissertant inəyin, qoyunun sağılmazdan qabaq yığıldığı yer kimi izah edir ki, bu da düzgün deyil. Əslində *örüş* sözü inəyin, qoyunun otlaq sahəsidir.

Bu kiçik qeydlərə baxmayaraq, dissertasiya işi bitkin olub, Ali Attestasiya Komissiyasının tələblərinə tam cavab verir və dissertantın bir alim kimi yetişdiyini göstərir.

Avtoreferat da dissertasiyanın məzmununu əhatə edir.

Dissertasiya filologiya elmləri üzrə nəzərdə tutulan /10.02.06/ ixtisasa tamamilə uyğundur. Müəllif türkologiyanın nailiyyətlərinə əsaslanaraq sait+samit və samit+sait+samit tipli birhecalı felləri ətraflı tədqiq etmişdir.

Dissertasiya birhecalı fellərin fonosemantik inkişafını öyrənmək baxımından mühüm təcrübi əhəmiyyətə malikdir. Tarixi qrammatikada, xüsusi kurs və seminarlarda, tarixi leksikologiya, etimologiya lüğətlərinin hazırlanmasında istifadə olunma baxımından işin təcrübi əhəmiyyəti böyükdür.

15.12.1992

KƏMİYYƏT KATEQORİYASININ TARİXİ-MÜQAYİSƏLİ TƏDQİQİ

Azərbaycan dilində kəmiyyət kateqoriyasının tədqiqi çoxdan başlamış və bu sahədə bir-birini təkrar edən çoxlu mülahizələr söylənsə də, həmin kateqoriyanın linqvistik-fəlsəfi özünəməxsusluğunda geniş şəkildə təhlilini verən bir tədqiqat işinin adını çəkmək bu gün də o qədər asan deyil. Məsələ burasındadır ki, Azərbaycan dili qrammatikasına həsr olunmuş kitabların hamısında kəmiyyət kateqoriyasından kifayət qədər aydın dil hadisəsi kimi danışılır, cəmiyyətin qrammatik, bir sıra hallarda isə leksik təzahürlərindən ümumi olaraq bəhs edilir.

Qəribova Jalə Əhməd qızının bu gün mühazirəyə təqdim olunmuş tədqiqatı, qabaqcadan deyim ki, bir tərəfdən, Azərbaycan dilində kəmiyyət kateqoriyasının artıq tədqiq edilmiş hadisə olması barəsindəki təsəvvürü dağıdırsa, digər tərəfdən, haqqında bəhs olunan kateqoriyanın kifayət qədər mükəmməl, yüksək elmi səviyyəli şərhini verir.

"Azərbaycan dilində kəmiyyət kateqoriyasının ifadə üsulları" adlı namizədlik dissertasiyası bir-biri ilə məntiqi cəhətdən möhkəm bağlı olan "Bir neçə söz", "Giriş", üç fəsil və "Nəticə"dən ibarətdir. Dissertant, demək olar ki, əsərin heç bir yerində bir-birini təkrar edən, bir-birinə əks gedən mülahizə söyləməmiş, klassik dilçilik tədqiqatlarında olduğu kimi kifayət qədər yığcam, kifayət qədər elmi əsaslı fikirlər irəli sürmüşdür. Və mən burada dissertantın bizim dilçiliyimiz üçün müəyyən mənada təzə olan geniş mənada "üslub"unu ayrıca qeyd etmək istərdim. Heç də hamımıza məlum olmayan ən müasir linqvistik anlayışlarla ənənəvi dilçiliyin hamımıza məlum anlayışları arasında daxili məntiqi

baxımdan əsaslandırılmış əlaqələr tapan müəllif öz hökmünü verərkən (mühakimələrini ifadə edərkən) artıq sözə, sual doğuracaq fikrə demək olar ki, yer qoymur, olduqca dəqiq, hətta elə bilirəm ki, dilçilik əsərlərimizin çoxu üçün xarakterik olmayacaq qədər dəqiq mülahizələr söyləyir. Mən, əlbəttə, dediklərimə nümunə göstərəsi olsam, dissertasiyanın bütöv səhifələri buraya köçürməliyəm ki, bu da imkan xaricindədir.

Əsərin mövzunun aktuallığı, tədqiqatın məqsədi, vəzifələri, nəzəri və praktik əhəmiyyəti, metodları və s. barədə, necə deyərlər, rəsmi girişlə başlaması tamamilə təbiidir. Qeyd edək ki, dissertant həmin rəsmi girişdə əsərin mahiyyətini müəyyənləşdirir, kəmiyyətin yalnız ayrı-ayrı predmetlərin cəmi kimi dar bir məfhum çərçivəsində izahı onun mahiyyətini açmır. Kəmiyyətə müxtəlif tərəflərdən yanaşma isə onun təkcə əşyalarda deyil, həm də bu əşyaların mövcudluğunu şərtləndirən formalarda reallaşdığını dərk etməyə imkan verir. Ancaq burada, fikrimcə, qeyri-təbii olan bir cəhət var ki, bu cür mükəmməl mülahizələrdən ibarət olub dissertantın apardığı tədqiqat işinə bilavasitə çıxış təşkil edən "rəsmi giriş", "Bir neçə söz" adlanır. (səh.2-7). "Giriş" başlığı altında verilən hissə isə fəsillər arasında paylansa daha yaxşı olardı. Əslində, işin strukturu da bunu tələb edir. "Giriş"də (səh.8-13) diqqəti çəkən mülahizələr çoxdur, məsələn: "… İnsanlar əşyaların topluluğunu ilkin mərhələdə onların keyfiyyəti kimi dərk etmişlərsə, topluluğu qrammatik kateqoriya kimi ifadə etdikləri zaman artıq mücərrəd kəmiyyət anlamını dərk etmək qabiliyyətinə malik olmuşlar və əşyaların kəmiyyətini tədricən onların keyfiyyətindən, yaxud xassələr sistemindən təcrid edərək, əvvəlcə təfəkkürdə, sonra isə dildə kəmiyyət kateqoriyasını yaratmışlar" (səh.10). Lakin həmin mülahizələr, qeyd etdiyimiz kimi, ya kəmiyyətdən fəlsəfi kateqoriya olaraq

danışıldığı birinci fəsildə, ya da linqvistik kateqoriya olaraq danışıldığı ikinci və ya üçüncü fəsildə özünə yer tapa bilərdi.

Qəribova Jalə Əhməd qızının tədqiqatı, dissertasiyanın adında da göstərildiyi kimi, tarixi-müqayisəli tədqiqatdır. İşin həm tarixilik, həm də müqayisəlilik baxımından mükəmməl səviyyədə olması görünür, bir tərəfdən dissertantın Azərbaycan dili tarixinin və türk dillərinin materiallarına bələdliyi ilə bağlıdırsa, digər tərəfdən, elmi rəhbərin – prof. V.İ.Aslanovun həmin sahədə çoxdan etiraf edilmiş görkəmli mütəxəssis olması ilə əlaqədardır. Müəllif qədim türk yazılı abidələrindən bu günə qədərki ən müxtəlif türk dillərinə aid materiallara əsaslanaraq kəmiyyət kateqoriyasının morfoloji, leksik və leksik-sintaktik ifadə üsullarını tam dəqiqliyi ilə müəyyənləşdirir və iki fəsil buna ayrılır:

a) II fəsildə kəmiyyət anlayışının morfoloji göstəriciləri nəzərdən keçirilir: /Ü/; /Ü/; /Ü/; /Ü/; /Ü/; /Ü/; /Ü/; /Ü/; /Ü/; və mürəkkəb morfemlər/. Buraya aşağıdakılar aid edilir:

b) III fəsildə kəmiyyət anlayışının 1) leksik və 2) leksik-sintaktik göstəriciləri nəzərdən keçirilir:

1. Leksik göstəricilər: tək sözlər, redunlikosiya, qoşa sözlər və s.

2. Leksik-sintaktik göstəricilər: hər gün, aydan-aya, təmizdən-təmiz və s.

Dissertasiyanın "Nəticə"sində belə bir mülahizə söylənir: "Türk dillərinin erkən və müasir dövrlərinə aid materiallar belə bir fikir söyləməyə əsas verir ki, bu dillərdə kəmiyyət bir anlam kimi çox qədim tarixə malik olmuşdur. Kəmiyyət məfhumu türk dillərində tarixən həm morfoloji kateqoriya daxilində, həm də bu kateqoriyadan kənar öz ifadəsini tapa bilmişdir" (səh.159). Dissertasiyada əksini tapmış materiallar və onların şərhi məsələsi məhz bu cür olduğunu təsdiq edir.

Mən dissertasiya ilə yanaşı, dissertasiyanın müəllifinin

çap olunmuş digər məqalələri ilə tanışam və qeyd etməliyəm ki, bu məqalələr çox nüfuzlu orqanlarda çap olunmuş, dissertasiyanın məzmununu tamamilə əks etdirir.

Qəribova Jalə Əhməd qızının "Azərbaycan dilində kəmiyyət kateqoriyasının ifadə üsulları (tarixi-müqayisəli tədqiqat)" mövzusundakı tədqiqatı dilçiliyimizə gələn yeni və gənc bir mütəxəssisin əməyini faydalı məhsuludur.

03.03.94

TERMİNOLOJİ LÜĞƏTLƏRİN TƏRTİBİ PRİNSİPLƏRİ

Azərbaycanda sözün həqiqi mənasında terminoloji lüğətlərin hazırlanması tarixi o qədər qədim deyil (XX əsrin əvvəllərindən başlanır). Bununla belə 30-cu illərdən etibarən müxtəlif elm sahələrinə aid onlarla terminoloji lüğətlər tərtib edilmişdir və ona görə də bu gün həmin lüğətlərin zəngin təcrübəsinə əsaslanaraq "Terminoloji lüğətlərin elmi əsasları və tərtibi prinsipləri" mövzusunda hər hansı bir elmi tədqiqatın meydana çıxması tamamilə təbiidir. Bu baxımdan Cəfərova Bahar Cumay qızının filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim etdiyi dissertasiya vaxtında yazılmış, praktik əhəmiyyəti olan bir işdir. Dissertasiya giriş, üç fəsil və nəticədən ibarətdir. Girişdə işin ümumi xarakteristikası verilir (səh. 4-7), terminoloji lüğətlərin ümumi məsələlərindən bəhs olunur (səh. 8-14) və nəhayət, Azərbaycanda terminoloji lüğətçiliyin tarixinə nəzər salınır, ən mühüm işlər xülasə edilir (səh. 14-31).

Qeyd olunmalıdır ki, dissertant işin məqsəd və vəzifələrindən danışarkən qarşısına kifayət qədər çox məsələlər qoyur (səh. 4-5) və hətta adama elə gəlir ki, bu qədər məsələni nəinki namizədlik, heç doktorluq dissertasiyasında da bütün tərəfləri və təfsilatı ilə şərh edib başa çatdırmaq mümkün deyil. Ancaq bununla belə dissertant həqiqətən, mövzusunu əhatə etməyə çalışmış, irəlicədən deyək ki, kifayət qədər səviyyəli bir iş yazmışdır.

Bahar Cəfərova dissertasiyanın girişində "Terminoloji lüğət nədir?" sualına cavab verərkən bu sahədə araşdırmalar aparmış, tədqiqatçıların fikir və mülahizələrinə müraciət etməklə öz mövqeyinin ümumi dilçilik kontekstini,

ümumnəzəri əsaslarını müəyyənləşdirmişdir.

Dissertasiyada Azərbaycan terminoloji lüğətçiliyinin tarixi üç dövrə bölünür:

"1. XX əsrin əvvəllərinə qədərki dövr (1907-1920-ci illər". İlk terminoloji lüğətlərimiz).

2.XX əsrin I rübündən sonrakı dövr (1920-1970-ci illər).

3. Yeni dövr (1970-1990-cı illər)" (səh.15).

Bizim fikrimizcə, həmin bölgü, müəllifin etiraf etdiyi kimi, təkcə "təxmini" (səh.15) deyil, həm də qüsurludur (və dissertantın nəzərinə çatdırırıq ki, bu, bizim onun işinə birinci, eyni zamanda əsas tənqidi qeydimizdir.). Ona görə qüsurludur ki, XX əsrin ilk illərində (yalnız kitab şəklində yox, həm də müxtəlif mətbuat orqanlarının səhifələrində) meydana çıxan terminoloji lüğətlər, yaxud lüğətlər öz tərtib xüsusiyyətlərinə görə nə 20-ci, nə də 30-cu illərdəki lüğətlərdən fərqlənir (buna görə Ü.Hacıbəyovun lüğəti Ə.Şıxlinskinin lüğəti ilə eyni dövrə düşür)… Görünür, Azərbaycan terminoloji lüğətçiliyinin tarixini, əgər belə bir bölgüyə ehtiyac varsa, aşağıdakı şəkildə bölmək mümkündür:

1. Azərbaycan terminoloji lüğətçiliyinin təşəkkülü (XIX əsrin sonu XX əsrin əvvəllərindən 30-cu illərə qədər).

2. Azərbaycan terminoloji lüğətçiliyinin təkamül dövrü. (30-cu illərdən 60-cı illərə qədər).

3. Azərbaycan terminoloji lüğətçiliyinin yenidən təşəkkülü dövrü (60-cı illərdən sonra).

Dissertasiyanın birinci fəsli "Terminoloji lüğətlərin struktur tipləri və növləri" (səh.31-78), ikinci fəsli "Terminoloji lüğətlərdə sözlük məsələsi" (səh.78-191), üçüncü fəsli "Terminoqrafik işin avtomatlaşdırılması və terminoloji bankın yaradılması prosesi" (səh. 131-148) adlanır. Və göründüyü kimi, birinci fəsil terminoloji lüğətlərin tipologiyasından, ikinci fəsil funksional xüsusiyyətlərindən, üçüncü fəsil isə terminoloji lüğətçilik işinin avtomatlaşdırılmasından

danışır. Beləliklə, mövzu ən müxtəlif tərəflərdən əhatə edilmiş olur.

Birinci fəsildə, yəni terminoloji lüğətlərin tipologiyasından danışılarkən dissertant aşağıdakı məsələlərə diqqət yetirir: terminoloji lüğətlərin makro və mikrostrukturu, başqa sözlə, lüğət vahidinin izah (şərh) texnologiyası; terminoloji lüğətlərin dil əhatəsinə (miqyasına) və məqsədinə görə növləri.

Şübhəsiz, hər bir terminoloji lüğət, istər birdilli, istər ikidilli, istərsə də çoxdilli olsun, istər tədris, istər ixtisas, istərsə də kütləvi səciyyə daşısın müəyyən kompozisiyaya malikdir. Dissertant həm mövcud ümumnəzəri mülahizələr, həm də Azərbaycan terminoloji lüğətçiliyinin təcrübəsinə əsaslanaraq bu baxımdan öz müşahidələrini, qənaətlərini sistemli olaraq təqdim edir. Göstərmək lazımdır ki, dissertasiyanın həmin fəsli əsərin əsasını təşkil edir və Azərbaycan lüğətçiliyi üçün əhəmiyyətli mülahizələrlə zəngin olub böyük maraq doğurur.

Eyni sözü terminoloji lüğətlərdə sözlük məsələsindən bəhs edən ikinci fəsil barəsində də demək mümkündür. Burada terminlərin seçilmə prinsiplərindən başlayaraq onların lüğətdə əksetdirilmə texnologiyasına qədər ən müxtəlif məsələlərə diqqət yetirilmiş, beləliklə, birinci fəsildə qoyulmuş bir sıra məsələlər məhz bu fəsildə ətraflı şərh edilmişdir.

Dissertant, tamamilə düzgün olaraq, terminoloji lüğətlərdə terminseçmənin ümumən dünya lüğətçiliyində sınaqdan keçmiş üç prinsipini müdafiə edir: buraya normativlik, sinxronluq və məqsədyönlülük daxildir (bax: 91-93).

Dissertasiyanın birinci fəsli kimi ikinci fəsli də nə qədər yüksək elmi səviyyədə işlənsə də, görünür, həmin fəslin əvvəlində sözün müasir mənasında “termin nədir?” sualına da cavab verilməli idi ki, biz belə bir cavab verilməməsini əsərin ikinci qüsuru hesab edirik.

Dissertasiyanın sonuncu – üçüncü fəsli terminoqrafik işin avtomatlaşdırılmasından bəhs edir. Burada bir-biri ilə bağlı iki məsələyə toxunulur: ümumən terminoqrafik işin maşın vasitəsilə görülməsi və "terminoloji bank"ın yaradılması. Müəllif dünya lüğətçiliyinin müasir təcrübəsinə əsaslanaraq EHM-lərin terminoloji lüğət tərtibi prosesinə cəlb edilməsi və TMB (terminoloji məlumatlar bankı) təşkili işinin vacibliyini göstərir.

Əlbəttə, lüğət işi, xüsusilə terminoloji lüğət işi ancaq milli miqyasla məhdudlaşan bir iş deyil; əvvəla, termin beynəlmiləlliyə meyildir və dünyanın əsas dilləri üçün eynidir. İkincisi isə, elmi təfəkkür təfəkkürün digər sahələrindən (bədii, publisistik və s.) fərqli olaraq, ümumbəşəridir. Ona görə də terminoloji lüğət tərtibi məsələsində müasir dünya terminoloji lüğətçiliyinin metodlarından intensiv istifadə olunması ehtiyacı meydana çıxır ki, dissertant bu ehtiyacı görür və ona xüsusi diqqət yetirir.

Dissertasiyanın 12 səhifəlik geniş nəticəsində əsərin bütün məzmunu ümumiləşdirilir. Lakin ümumiləşdirmə çox hallarda mexaniki şəkildə aparılır. Belə ki, fəsillərdəki cümlələr, abzaslar bir sıra hallarda olduğu kimi nəticədə də təkrar edilir (bu bizim dissertasiya barəsində üçüncü tənqidi qeydimizdir).

Nəhayət, qeyd etmək lazımdır ki, dissertasiyada hər bir fəsil yeni səhifədən başlamalı idi. Müəllif belə etmədiyinə görə müəyyən qarışıqlıq yaranmışdır.

Rəy boyu göstərdiyimiz qüsurlara baxmayaraq, Cəfərova Bahar Cumay qızının "Terminoloji lüğətlərin elmi əsasları və tərtibi prinsipləri" mövzusundakı dissertasiya işi zəngin faktlar əsasında və kifayət qədər yüksək elmi-nəzəri səviyyədə yazılmışdır.

18.05.94

ORTAQ TÜRK ƏDƏBİ DİLİ PROBLEMLƏRİ

Məlum olduğu kimi son illərdəki türkoloji qurultay və yığıncaqlarda ümumi türk ədəbi dili məsələsi daha çox diqqəti cəlb edir. Bu, təbiidir. Çünki türk dili danışan respublika və topluluqların mədəni birliyi üçün əlverişli imkanlar yaranmışdır. Doğrudur, türkologiyada, o cümlədən Azərbaycan dilçiliyindən bu mövzuya ötəri olaraq toxunulmuşsa da, lakin ortaq türk ədəbi dili problemi genişliyi ilə tədqiq olunmamışdır. Halbuki belə bir tədqiqatın həm nəzəri, həm də böyük təcrübi əhəmiyyəti vardır. Bu cəhətdən Xatirə Ələddin qızı Əliyevanın namizədlik dissertasiyası olduqca aktual bir mövzuya həsr olunmuşdur.

Dissertasiya "Ön söz", üç fəsil, "Nəticə", "Əlavə" və "İstifadə olunmuş ədəbiyyat" siyahısından ibarətdir.

Müəllif əsərin "Ön söz" hissəsində mövzunun aktuallığını, məqsəd və vəzifələrini, elmi yeniliyini, tədqiqatın nəzəri və praktik əhəmiyyətini əsaslandırır, mənbələr haqqında məlumat verir.

Birinci fəsildə dissertant türk dünyasının ortaq əlifba məsələsini tədqiq edir. Burada türk dünyasında əlifbanın keçdiyi tarixi yol, əlifba dəyişdirilməsinin səbəb və nəticələri, Azərbaycanda əlifba problemi, ilk dəfə latın qrafikasma keçid mərhələsi, slavyan-kiril əlifbası dövrü və ortaq türk əlifbası problemi tədqiq edilmişdir.

İkinci fəsildə ortaq türk ədəbi dilinin formalaşma imkanları araşdırılmışdır. Tədqiqat nəticəsində müəllif belə bir nəticəyə gəlmişdir ki, türk mənşəli dillərə dayanaraq – 1. Ortaq əlifba birliyinə; 2. Ortaq söz və termin birliyinə;

3. Ortaq imla birliyinə nail olmaqla “Ortaq türk ədəbi dili problemi”ni həll etmək mümkündür.

Daha sonra o, aparılmış tədqiqata əsaslanaraq əhalisinin sayı bir milyonu keçən doqquz türk mənşəli dilə dayınıb “Ortaq türk ədəbi dili” üçün təxmini lüğət tərkibi də tövsiyə edir.

Dissertasiyanın üçüncü fəsli ortaq türk ədəbi dilinin orfoqrafiya qaydaları haqqındadır. Bu fəsildə ortaq türk ədəbi dilinə gediş mərhələsində türk dilinin ortaq orfoqrafiya birliyinin zəruriliyi elmi əsaslarla tədqiq ediiir. Fonetik, morfoloji və ənənəvi prinsiplər əsasında “Ortaq türk ədəbi dilinin orfoqrafiya qaydaları”nın tərtibi vacibliyi araşdırılır.

Dissertant nəticədə ortaq türk ədəbi dilinin tarixi zərurət olduğunu qeyd edərək bu həqiqətin gerçəkləşmə mümkünlüyünü göstərir.

Mövzu ilə əlaqədar olaraq, dissertant dilçilik ədəbiyyatını nəzərdən keçirir, ortaq türk ədəbi dili probleminin mahiyyətini elmi şəkildə şərh edir.

Beləliklə, aydın olur ki, dissertant müstəqil elmi iş aparmaq qabiliyyətinə malikdir, dilçiliyi və tədqiq etdiyi mövzunu yaxşı mənimsəmişdir.

17.04.95

RUS VƏ AVROPA DİLLƏRİNDƏN ALINMALAR HAQQINDA

Müasir Azərbaycan dilçiliyində sözalma problemi tamamilə həll edilməmişdir. Azərbaycan dilinin başqa dillərlə informasiya əhatəsində inkişaf etdiyi indiki mərhələdə bu problemin hətta yeni-yeni istiqamətləri meydana çıxır. Odur ki, sözalma ilə əlaqədar tədqiqatların bundan sonra da aparılacağı heç bir şübhə doğurmur. Əhmədova Kəmalə Qələndər qızının müdafiəyə təqdim etdiyi dissertasiya işi də sözalma ilə əlaqədar meydana çıxan və özünün həlli baxımından xüsusi maraq doğuran məsələlərə həsr olunmuşdur. Ayrı-ayrı fəsillərdə bəhs edilən problemlərdən danışmazdan əvvəl bir cəhəti nəzərə çarpdırmaq lazımdır ki, burada tədqiqat bir əsas istiqamət üzrə aparılmışdır. Bu da sonu affiksal xarakterli şəkilçi ilə bitən rus-Avropa mənşəli sözlərin Azərbaycan dilində işlədilmə imkanlarının müəyyən edilməsindən ibarətdir. Bu məqsədlə Azərbaycan dilindəki sonu affiksal xarakterli sözlər tədqiqata cəlb olunur və təhlil əməliyyatı da həmin tipli sözlərin üzərində aparılır. Dissertasiyada qoyulan məsələlərin həlli məqsədi ilə müəllif təhlil etdiyi materialı dövrü olaraq üç fəslə bölür. Birinci fəsildə son şəkilçili sözlərin fonetik tərkibi və qrafik ifadəsi məsələləri təhlil olunur. Qeyd etmək lazımdır ki, bu fəsil "Son şəkilçili sözlərin fonetik tərkibi və qrafik ifadəsi" adlandırılsa da burada sözlərin bütövlükdə fonetik tərkibindən və qrafik ifadəsindən yox, ancaq onların şəkilçi tərkibinin Azərbaycan dili şəraitində işlədilməsindən danışılır. Sözlərin şəkilçi tərkibinə dair belə bir təhlilin aparılması, əlbəttə, vacib istiqamət hesab edilməlidir. Çünki özünün kök-şəkilçi tərkibi ilə birlikdə hazır alınmış sözlərin

hamısında şəkilçilər alındığı dildəkinə uyğun şəkildə saxlanılmır. Sözlərin bəzilərində şəkilçilər alındığı dildəki kimi işlənirsə, bəzilərində Azərbaycan dilinin fonetik və qrafik tələblərinə uyğun olaraq dəyişdirilir. Bundan əlavə, şəkilçilərin tərkibindəki bütün fonemlər və qrafik işarələr həmişə eyni tərzdə dəyişmir. Şəkilçi tərkibindəki fonemlərin və həmçinin, qrafik işarələrin dəyişməsində müxtəliflik müşahidə olunduğundan müəllif öz əsərinin bir fəslini bilavasitə həmin məsələlərin araşdırılmasına həsr etmişdir.

Beləliklə, müəllif bu əsərdə iki məsələni aydınlaşdırmağa çalışır. Birinci məsələ söz daxilindəki şəkilçi tərkibində müşahidə edilən qrafik uyğunlaşmanın xarakterinin müəyyən edilməsi ilə bağlıdır. Məlum olduğu üzrə rus və Azərbaycan dillərində tam qrafik eyniyyət mövcud deyildir. Bu cəhət sözlərin özündə olduğu kimi, şəkilçilərin yazılışında da müəyyən qaydayasalma əməliyyatının aparılmasını zəruriləşdirir. Müəllif özündən əvvəlki tədqiqat təcrübəsindən faydalanaraq, təhlilin istiqamətini yeni faktlar əsasında bir daha dəqiqləşdirməyə çalışır. Məsələn, müəllif bir cəhətə diqqəti cəlb edir ki, rus dilindəki *ю* qrafik işarəsi, bir qayda olaraq, Azərbaycan dilindəki *y* və *u* səslərinin işarəsi ilə verilir. Lakin sözlərin şəkilçi tərkibində *ю* işarəsi heç də həmişə *y* və *u* səslərinin işarəsi ilə verilmir. Məsələn, *графюра, увертюра* sözlərinin şəkilçi hissəsində *ю* işarəsi Azərbaycan dili şəraitində *yu* ilə yox, ancaq *ü* səsinin işarəsi ilə uyğunlaşdırılır. Rus dilindəki *ё* səsi isə Azərbaycan dilində, bir qayda olaraq, *u* və *o* səslərinin işarəsi ilə verilir. Lakin *likër* sözünün son hissəsindəki *ё* işarəsi Azərbaycan dilində *yo* səslərinin işarəsi ilə yox, o səsinin işarəsi ilə *(likor)* verilir.

Birinci fəsildə sözün şəkilçi tərkibindəki səslərin fonetik uyğunlaşdırılmasına aid olan fikir və mülahizələr də inandırıcıdır. Müəllifin qeyd etdiyinə görə sözlərin rus

dilindəki variantında şəkilçi tərkibindəki bu və ya digər səsin əvəz edilməsi xüsusiyyəti məhz Azərbaycan dilinin fonetik normalarının tələblərinə uyğun şəkildə baş verir. Məsələn, sözlərin rus dili variantında müşahidə edilən -*гия* şəkilçisi Azərbaycan dilində -*giya* şəklində uyğunlaşır. Məsələ burasındadır ki, rus dilində olduğu kimi, Azərbaycan dilində də *q* fonemi mövcuddur. Ona görə də -*гия* şəkilçisindəki *q* elementi Azərbaycan dilində də eyni şəkildə saxlanıla bilərdi. Lakin müəllif göstərir ki, *q* samitinin həmin şəkilçi tərkibində olduğu kimi saxlanılması fonetik normalara uyğun deyil. Çünki Azərbaycan dilində *q* səsindən sonra dilönü saitləri, o cümlədən də *ə* saiti işlənmir. Belə olduğu təqdirdə, fonetik normalara müvafiq şəkildə *q* fonemi *g* fonemi ilə əvəz edilir. Fonetik uyğunlaşma məsələləri ilə əlaqədar müəllifin bu kimi orijinal, dəqiq və aydın fikirləri xüsusilə diqqəti cəlb edir. Bütün bunlar onu göstərir ki, müəllif, həqiqətən, ana dilinin fonetik normaları məsələlərinə yaxşı bələddir. Bu da tədqiqatın düzgün istiqamətdə aparılması baxımından zəruri sayılan şərtlərdən biridir.

Dissertasiyanın ikinci fəsli son şəkilçili sözlərin leksik-semantik xüsusiyyətlərinin təhlili məsələsinə həsr edilmişdir. Bu fəsildə tərkibcə kök və şəkilçi hissələrinə ayrıla bilməyən sözlərdən bəhs olunur. Tərkibcə kök və şəkilçi hissəsinə bölünməyən sözlər, bir qayda olaraq, Azərbaycan dilində hazır şəkildə alınaraq işlədilir. Belə sözlər barədə istər mətbuatda, istərsə də ayrı-ayrı tədqiqat əsərlərində də bəhs edilmişdir. Lakin müəllif bu deyilənlərdən bəhrələnərək onların heç birini yenidən təkrarlamamışdır. Müəllifin fikrincə, özünün şəkilçi hissəsi ilə birlikdə bir vahid kimi alınan sözlər bütöv bir anlayış üzrə mənimsənilir. Belə sözlərin bəzilərində, hətta kökü şəkilçidən ayırmaq da mümkündür. Buna baxmayaraq, həmin sözlər ifadə etdiyi anlayışa görə alınır. Ona görə də onların şəkilçi hissəsi

Azərbaycan dilinin morfoloji tələblərinə uyğunlaşa bilmir və sabitləşərək dəyişilir. Məsələn, tərkibində -*siya* şəkilçisi işlənən sözlərin müəyyən qrupunda kökü və şəkilçini bir-birindən ayırmaq olmur. Belə ki, *sensasiya, imitasiya, irriqasiya, intonasiya, kombinasiya* kimi sözlərdə kökü şəkilçidən ayırmaq mümkün deyildir. Bunlar rus dilindən bizim dilimizə özünün tərkibi ilə bütöv şəkildə daxil olan vahidlərdir. Müəllif tərkibində -*siya* şəkilçisi iştirak edən elə sözləri də misal göstərir ki, həmin sözlərdə kök və şəkilçini ayırmaq mümkün olur. Yəni sözün kök hissəsi Azərbaycan dilində müstəqil vahid xarakteri daşıyır. Məsələn, *formasiya, reklamasiya, kompleksasiya, affektasiya* və s. kimi sözlər bu qəbildəndir. Bu sözlərin kök hissələrinin Azərbaycan dilində müstəqil işlənməsinə baxmayaraq, onlar xüsusi bir vahid kimi alınır və mənimsənilir. Bunun səbəbini dissertant belə izah edir ki, həmin tipli sözlərin kökü müstəqil vahid xarakterli olsa da onlar anlayışa görə şəkilçi tərkibli sözlə uyğunluq təşkil etmirlər. Həmin tipli sözlərin şəkilçi tərkibi isə Azərbaycan dilindəki müvafiq qarşılığa uyğun gəlmir. Odur ki, onlar Azərbaycan dilində hazır alınan vahidlər kimi işlədilir.

Dissertasiyanın üçüncü fəslində müəllif son şəkilçili sözlərin morfoloji xüsusiyyətləri barədə danışır, mövcud olan sözləri təhlil süzgəcindən keçirir. Təhlil nəticəsində aydın olur ki, rus və Avropa mənşəli sözlərin kök və şəkilçiyə bölünə bilən müəyyən qismi Azərbaycan dilinə daxil olduqda sözün şəkilçi hissəsi Azərbaycan dilindəki müvafiq qarşılıqla əvəz edilir. Mövcud tədqiqatlarda bu tipli əvəzolunma ilə bağlı belə bir fikrə rast gəlmək olur ki, şəkilçisi əvəz oluna bilən sözlərin kökləri gərək müstəqil bir vahid kimi işlənsin. Lakin bu işdə şəkilçisi əvəz olunan sözlərə aid təhlil bir qədər genişləndirildiyindən irəli sürülən fikrin özü də maraqlı görünür. Müəllifin fikrincə həmin tipli sözlərdə

şəkilçinin əvəz olunmasının səbəbi təkcə söz kökünün müstəqil vahid xarakteri daşımasından ibarət deyildir. Bunun başlıca səbəbi həmin sözün şəkilçi hissəsinin Azərbaycan dilində müvafiq morfoloji anlayışa uyğun gəlməsindən ibarətdir. Məhz bu səbəbdən, rus dilində işlədilən söz tərkibindəki hər hansı bir şəkilçi Azərbaycan dilində yeganə bir morfoloji qarşılıqla əvəz olunmur. Azərbaycan dilinin morfoloji-semantik imkanlarına görə, məsələn, rus dili sözlərindəki ayrı-ayrı şəkilçilər Azərbaycan dilindəki eyni şəkilçi ilə də əvəz oluna bilər. Məsələn, *-ik* şəkilçili *diabetik* sözündə həmin şəkilçi Azərbaycan dilinə məxsus *-li* ilə əvəz edildiyi kimi *(diabetli), -al* şəkilçili *fundamental* sözündə də bu şəkilçi *Ai* ilə əvəz edilir *(fundamentli)*. Yaxud, Azərbaycan dilindəki *-çı* şəkilçisi rus dilindəki *-ant, -ist, -er, -ioner* kimi şəkilçiləri də əvəzə edə bilir: *debütant-debütçü, traktorist-traktorçu, kombayner-kombaynçı, pensioner-pensiyaçı* və s.

Ümumiyyətlə, dissertasiyada orijinal fikir və mülahizələr çoxdur. Dissertant əsər boyu Azərbaycan dilinin daxili imkanlarının müəyyənləşdirilməsinə çox böyük diqqət yetirir. Əsər, bütövlükdə dilimizin daxili imkanlarının öyrənilməsi və bu zəmində inkişafı problemlərinə həsr olunmuşdur. Azərbaycan dilçiliyinin nəzəri məsələlərinin zənginləşməsində və praktik imkanlarının araşdırılmasında bu əsərin xüsusi yeri vardır.

Əsər haqqında aşağıdakı iradları da söyləmək olar. Məsələn, bəzi səhifələrdə müəllif aidiyyatı olmayan məsələlərdən də bəhs edir. Belə ki, ikinci fəsildə (səh.29-35) beynəlxalq terminyaradıcı elementlər məsələsinə xeyli yer verir. Halbuki, bütün bunların hamısını qısa bir xülasədə aydınlaşdırmaq olardı.

Həmin fəsildə sözalma məsələləri ilə əlaqədar xülasələrə də xeyli yer ayrılmışdır (səh.42-58). Bu hissədə

də yığcamlıq edilməsinə ehtiyac var idi.

Üçüncü fəsildə şəkilçilərin əvəzolunma xüsusiyyətlərindən danışılarkən sözlərin rus dili variantındakı hər bir şəkilçi sadalanır və onların müvafiq qarşılığından bəhs olunur. Bu da Azərbaycan dili qarşılıqları barədə bütöv təsəvvür yaratmaq imkanlarını azaldır. Yaxşı olardı ki, müəllif əksinə edəydi, yəni Azərbaycan dili şəkilçilərinin rus dilinə məxsus hansı şəkilçiləri əvəz etdiyini ardıcıllıqla verəydi. Belə olduqda əsərin elmi dəyəri daha da arta bilərdi.

Bu iradlarıma baxmayaraq, mən əsəri elmi səviyyəli bir tədqiqat işi kimi qiymətləndirirəm.

07.11.1995

MÜASİR TÜRK DİLİNDƏ KÖMƏKÇİ NİTQ HİSSƏLƏRİ

Cümlədə müstəqil üzv kimi işlənməyən, ayrılıqda müstəqil lüğəvi mənası olmayan, heç bir suala cavab verməyən, hərəkət, hadisə, əlamət, əşya və keyfiyyət bildirməyən köməkçi nitq hissələri barəsində yazmaq, ilk baxışda bir o qədər məsuliyyətli görünmür. Köməkçi nitq hissələrinin əsas nitq hissələri hesab olunan sözlər və həmin sözlərdən əmələ gəlmiş tərkiblər, cümlələr arasında müxtəlif qrammatik əlaqə yaratmağa xidmət etdiyi, sözlərə, söz birləşmələrinə və cümlələrə müxtəlif məna çalarlıqları verdiyi məlum olsa da, köməkçi nitq hissələrinin mənşə etibarı ilə əsas nitq hissələrindən yarandığı dilçilər arasında mübahisə doğurmasa da, etiraf etmək lazımdır ki, köməkçi nitq hissələri haqqında elmi mübahisələr səngimir. Bu baxımdan mövzu aktual olaraq qalır. Xüsusən Türkiyə dilçiləri arasında köməkçi nitq hissələri barəsində sistemli şəkildə tədqiqat işləri aparılmayıbdır. Filologiya elmləri namizədi Rüfət Əşrəf oğlu Rüstəmovun təqdim olunan elmi məruzəsi, məsələyə bu baxımdan yanaşılarsa, böyük əhəmiyyət kəsb edir. Müxtəlif adlarla adlanan köməkçi sözlər və cümlələr arasında müxtəlif əlaqələr yaratmaqla bərabər özləri haqqında dilçilik ədəbiyyatında müxtəlif fikir və mülahizələr doğurmaqdadır. Filologiya elmləri namizədi R.Ə.Rüstəmov elmi məruzəsində köməkçi nitq hissələrini sözlər və cümlələr arasında müxtəlif qrammatik əlaqə yaradanlar və sözlərlə cümlələr arasında müxtəlif məna çalarları, modallıq yaradanlar qrupuna bölməklə tədqiqata cəlb etmişdir.

Tədqiqatçı öz məqsəd və vəzifələrini dəqiq şəkildə əks

etdirmişdir. Onun məqsədi müasir türk ədəbi dilində mövcud olan köməkçi nitq hissələrinin linqvistik təsnifini vermək, türk dilində təsadüf olunan köməkçi nitq hissələrinin tarixi inkişafını izləmək, onların diferensiallaşması ilə müəyyənləşən morfoloji, normativ-semantik quruluşu, üslubi-sintaktik variant və normalarını izah etmək, tədqiq olunan tərkiblərin informativliyi ilə təsbit edilən köməkçi nitq hissələrinin müxtəlif inkişaf mərhələlərində uğradıqları semantik fərqləri üzə çıxarmaq, semantik tiplərdə müəyyənləşən fərqlənmələri və onların qədim türk dilindəki arxetiplərini müəyyənləşdirmək, köməkçi nitq hissələrinin tədqiqində Hind-Avropa dilçilik ənənəsi və türkoloji istiqaməti göstərməklə, türk dilinin köməkçi nitq hissələrində müşahidə olunan çoxfunksiyalılıq, çoxmənalılıq kimi dil-nitq hadisələrinin yerini aşkarlamaq, müasir türk ədəbi dilində işlənən köməkçi nitq hissələrini sintaktik omomodellər üzrə təsnif edərək qruplaşdırmaq, müasir türk ədəbi dilinin köməkçi nitq hissələrində keçid proseslərini izləmək olmuşdur. Əvvəlcədən qeyd etmək lazımdır ki, iddiaçı elmi məruzəsində dəqiq və aydın şəkildə müəyyənləşdirdiyi məqsəd və vəzifələrin hamısının öhdəsindən bacarıqla və uğurla gəlmişdir. Belə məntiqi nəticə əldə etməyə hər şeydən əvvəl iddiaçının tədqiqat metodu, tədqiqat obyektinə və predmetinə düzgün, rasional yanaşma, zəngin təcrübə, erudisiya, tədqiqatçı bacarığı, tutarlı alim sözü, səbatlı alim mövqeyi imkan vermişdir. İddiaçının müşayiət etdiyi nəzəri elmi ədəbiyyat və mənbələr özünün geniş əhatə dairəsi ilə diqqəti cəlb edir, tədqiqat üsulları məntiqi dürüstlüyü ilə fərəh hissi oyadır. İddiaçı Azərbaycan, rus və Türkiyə dilçi alimlərinin dəyərli əsərlərini dərindən mənimsəmiş, mövzu ilə bağlı müxtəlif mövqedə dayanan tədqiqatçıların mülahizələrini diqqətlə araşdırmışdır. Maraqlıdır ki, iddiaçının hətta tarixi ekskurs üçün etdiyi ricətlər təsviri xarakter daşımır, o, lazımı məqamların hamısında öz

tədqiqatçı münasibətini mütləq bildirir, hadisə və reallıqları passiv seyrçi mövqedən seyr etmir. Türkiyə alimlərinin nüfuzlu tədqiqatçılarının əksəriyyətini dərindən tanıyan iddiaçı Avropa standartlarına uyğun şəkildə tamamladığı tədqiqat işində tutarlı dəlillər və nüfuzlu araşdırıcı mülahizələri ilə müxtəlif alimlərin dilçilik mövqeyini göstərmişdir. İddiaçının müdafiəyə təqdim olunan elmi məruzəsi sübut edir ki, o həm də mənbələri yaxşı bilir. Türkiyə hüdudlarından və ondan kənarlarda məşhur olan türk yazıçı və şairlərinin əsərlərinə dönə-dönə müraciət edən iddiaçı köməkçi nitq hissələrini retrospektiv aspektdə tarixi-müqayisəli metodla öyrənmiş və nəticədə köməkçi nitq hissələrinin arxetiplərini də müəyyənləşdirə bilmişdir. Müdafiəyə təqdim olunan elmi məruzədən aşkar olur ki, tədqiqat işində dilçiliyin ənənəvi tədqiqat metodlarından, o cümlədən təsviri, müqayisəli-tutuşdurma, müqayisəli qarşılaşdırma, sistemli təhlil üsullarından da bacarıqla istifadə olunmuşdur.

İddiaçının tədqiqat işi ilə bağlı çap etdirdiyi elmi məqalələri onun müxtəlif səviyyəli elmi konfranslar, simpoziumlar və konqreslərdə etdiyi elmi məruzə və çıxışlarının elmi inikasıdır. Haqqında xoş sözlər söylənilən, müsbət fikirlər yürüdülən həmin məqalələr, çıxışlar və məruzələrin məntiqi yekunu olan elmi tədqiqat işi bitkinliyi, dolğunluğu ilə tədqiqatçıların rəğbətini qazanmışdır.

Müdafiəyə təqdim olunmuş elmi məruzənin yüksək keyfiyyətləri, elmi məziyyətləri, praktik və nəzəri əhəmiyyəti təkzibolunmazdır və onların hər biri haqqında istənilən qədər bəhs etmək olar. Bütün bunları qeyd etməklə yanaşı ümumi işin xeyrinə olaraq, irad tutulası hal kimi görünən məqamları göstərmək də zəruridir:

1. Türk dilində köməkçi nitq hissələrindən bəhs olunarkən yaxşı olardı ki, qoşmanın (eləcə də digərlərinin) məna növləri, qoşulduğu hallar, onların fərqləri, quruluşları,

sintaktik vəzifə və mənalarına görə növləri dəqiq göstəriləydi.

2. Bağlayıcılardan bəhs edərkən onların tabesizlik və tabelilik bildirmələrini, onları da öz növbəsində birləşdirmə, qarşılaşdırma, bölüşdürmə, iştirak, inkarlıq, aydınlaşdırma bildirmələrini, tabelilik bağlayıcılarını aydınlaşdırma, səbəb, müqayisə, bənzətmə, şərt, güzəşt bağlayıcıları qruplarında tədqiq etmək olardı.

3. İddiaçı modal sözlərdən bəhs edərkən modallığı həm fəlsəfi, həm də qrammatik kateqoriya kimi götürür və bizcə, modallıqdan fəlsəfi kateqoriya kimi danışmağa lüzum yox idi.

4. İddiaçı hər fəslin sonunda əlavələr vermişdir. Bizcə, onlar hər fəslin sonunda deyil, axırda, bir yerdə verilsəydi pərakəndə görünməzdi və əlavələr şəklində təqdim olunan cədvəl və diaqramların faydalılıq dərəcəsi daha da artmış olardı.

5. İddiaçı elmi məruzəsində tarixi həqiqətin aşkarlanması üçün qədim türk mənbələrindən də nümunələr gətirsəydi tədqiqat işi daha tutarlı və sanballı olardı.

6. Müdafiəyə təqdim olunmuş elmi məruzədə bəzi xırda redaktə xarakterli qüsurlar nəzər çarpır.

Sadalananlar, təbii ki, şəxsi fikirlərdir, ancaq xoş niyyətlərdən irəli gəlir və qeyd olunanlar elmi məruzənin ümumi elmi dəyərini qətiyyən azaltmır.

R.Ə.Rüstəmovun elmi məruzəsi özünün əhatəliliyi, işlənmə tərzi ilə diqqətəlayiqdir. Onun mülahizə və fikirləri müstəqildir, araşdırma metodu uğurludur, əldə etdiyi nəticələr doğrudur. Elmi məruzənin fəsilləri ardıcıl, elmi quruluşu məntiqidir. Çap olunmuş elmi əsərləri, nəşr olunmuş monoqrafiyası və kitabları elmi məruzəsi ilə əlaqədardır.

20.10.1997

“DƏBİSTAN” JURNALININ DİLİ

Məlum olduğu kimi, XX əsrin əvvəllərində Azərbaycan ədəbi dili əvvəlki dövrlərlə müqayisəyə gəlməyəcək bir səviyyədə funksionallıq nümayiş etdirmiş, həm norma, həm də üslub planında sürətlə inkişaf edərək mürəkkəb bir dil-üslub mənzərəsi yaratmışdır. XX əsr Azərbaycan ədəbi dilinin tədqiqatçıları (birinci növbədə prof. Tofiq Hacıyev) dövrün ictimai münasibətlərini, mədəniyyətini, dil proseslərini, ümumiyyətlə, tarixi məzmununu xarakterizə etmək üçün “millilik”, “millət”, “milli mədəniyyət”, “milli ədəbi dil” anlayışlarını tez-tez işlədirlər (məsələn, bax: T.Hacıyev. XX əsrin əvvəllərində Azərbaycan ədəbi dili. səh. 5-10). Əlbəttə, Azərbaycan milli ədəbi dilinin təşəkkülü daha əvvəlki dövrlərə aiddir, bununla belə XX əsrin əvvəllərində Azərbaycanda mədəni, ictimai münasibətlər sahəsində elə mühüm tarixi hadisələr baş verir ki, onlar milliliyin həm məzmununa, həm də tipologiyasına əhəmiyyətli təsir göstərir.

XX əsrin əvvəllərində ədəbi dili xarakterizə edən əsas əlamət, buraya qədər deyilənlərdən də göründüyü kimi, milliliyin güclənməsidir. Biz “milliliyin güclənməsi” dedikdə ədəbi dildə demokratizmin, xalq danışıq dilinə yaxınlığın normativliklə münasib əlaqəsini, həmahəngləşməsini nəzərdə tuturuq ki, bunun əsas materialı, heç şübhəsiz, mətbuatın (xüsusilə uşaq mətbuatının), dərsliklərin, məktəblə, maariflə bağlı ədəbiyyatın dili olmuşdur. Və bu gün müzakirə olunan dissertasiyanın müəllifi Sevda Muradxan qızı Sadıxova da yazır ki, “Dəbistan” jurnalı “özünün dil materialları ilə əsrin əvvəllərində ədəbi dildə gedən prosesləri izləyərək milli dil əsasında formalaşan ədəbi dilin normasının müəyyən-

ləşməsində körpə addımlarını atan maraqlı bir mənbədir" (səh.19).

Dissertant, bəri başdan deyək ki, "Dəbistan" uşaq jurnalının mürəkkəb ictimai-mədəni, linqvistik şəraitdəki dil-üslub missiyasını tamamilə düzgün müəyyənləşdirir: "Öz fəaliyyəti ilə "Dəbistan" milli dilə söykənən Azərbaycan ədəbi dilinin geniş şagird auditoriyasında təbliği və tədrisinə başlamış olur… Bununla da o, elə bil ki, XIX əsrdən başlayaraq davam edən uşaq ədəbiyyatı, dərslik və mətbuatın dili kimi bir prosesi (yəni bu qədər çoxgedişli, çoxaspektli, mürəkkəb bir prosesi – *N.X.)* yekunlaşdıraraq yeni səmtə saldı. Ondan sonra fəaliyyət göstərən jurnalların dil materialında əsası qoyulan təcrübənin davamı aydın görünür" (səh. 19-20). Ola bilsin ki, dissertant "Dəbistan"ın ana dili sahəsindəki xidmətlərini olduğundan bir qədər yüksək qiymətləndirir, lakin bu cür aşırı qiymətləndirməyə haqq qazandırmaq mümkündür: belə ki, "Dəbistan" sadəcə bir uşaq jurnalı deyildi. Zaman, dövr həmin jurnala ana dili sahəsində elə bir səlahiyyət vermişdi ki, o, bir neçə publisistik-maarifçi orqanın gücündə işləyirdi.

XX əsrin əvvəllərində Azərbaycan ədəbi dilinin, maarifçilik təfəkkürünün inkişafında əhəmiyyətli xidmətləri olan "Dəbistan"ın dili barədə xüsusi tədqiqata ehtiyac var idi. Sevda Sadıxova həmin işin öhdəsindən, etiraf edək ki, uğurla gəlmiş, "Dəbistan"ın dilini, milli ədəbi dil prinsiplərini dövrün mürəkkəb dil-üslub prosesləri, tendensiyaları kontekstində tədqiq etmişdir.

Dissertasiya giriş, iki fəsil, nəticə, mənbələr və elmi-nəzəri ədəbiyyatın siyahısından ibarətdir.

Girişdə mövzunun aktuallığı, tədqiqatın məqsəd və vəzifələri, elmi yeniliyi və s. barədə məlumat verən dissertant eyni zamanda XIX əsrin sonu XX əsrin əvvəllərindəki maarif, mətbuat, mədəniyyət prosesləri barədə müfəssəl

məlumat verir (səh.3-20). Həmin məlumatı "1906-1908-ci illərdə ayda iki dəfə nəşr olunan, cəmi 27 nömrəsi çıxan "Dəbistan" (səh.12) barədəki ətraflı informasiya ilə tamamlayır. Dövrün görkəmli maarifçilərinin, ictimai xadimlərin jurnal barədəki mülahizələri də maraqlıdır. Dissertant, N.Nərimanovun belə bir sözünü sitat gətirir: "Gözünüz aydın olsun, türk balaları, bu günə qədər şikayət edirdiniz nə oxuyaq, qiraət üçün kitablarımız yoxdur. Şimdi "Leyli-Məcnun"dan və qeyri vahimə gətirən nitqlərdən canınız qurtardı…" (səh.12). Bu sözlər kifayətdir ki, "Dəbistan"ın XX əsrin əvvəlləri Azərbaycan mədəni, ictimai mühitindəki mövqeyi barədə obyektiv təsəvvür yaransın.

Dissertasiyanın I fəsli "Dəbistan"ın leksikasının tədqiqinə həsr olunmuşdur. Burada jurnalın dilinin leksik mənzərəsi barədə ətraflı məlumat verilir. Müəllif "Dəbistan"ın lüğət tərkibini həm norma, həm də üslub baxımından şərh edərək belə bir nəticəyə gəlir ki, jurnal uşaq dilinin, yaxud məktəb-maarif dilinin leksik normalarına maksimum dərəcədə riayət etməklə yanaşı, uşaq təfəkkürünün normal qəbul edə biləcəyi, zəngin leksik üslubi maneralar nümayiş etdirir.

II fəsil jurnalın dilinin qrammatik xüsusiyyətlərinə həsr olunmuşdur. Burada da I fəsildə olduğu kimi həm normativ, həm də stilistik məqamlara diqqət yetirilmiş, kifayət qədər professional, səriştəli şərh verilmişdir.

Mən həm dissertasiya, həm də onun avtoreferatı ilə tanış olduqdan sonra belə bir qəti qərara gəldim ki, dissertant dilçiliyin, ümumən filologiyanın problemlərini dərindən bilən yetkin araşdırıcıdır. Onun mülahizələri orijinallığı, dil materiallarına həssas münasibəti ilə seçilir.

Bununla belə dissertasiya ilə əlaqədar bir neçə qeydimi də dissertantın nəzərinə çatdırmaq istərdim:

1) Müəllif ara-sıra tədqiqat obyektinə aludəçilik edir, "Dəbistan" jurnalının ana dili qarşısındakı şəksiz xidmətlərini

bir qədər şişirdir.

2) Ədəbi dil məsələlərinə dərindən bələd olan, orijinal mülahizələr söyləyən bir tədqiqatçının bəzən "ənənəvi səhvlər" üzərində düşünməməsi artıq onun nöqsanı sayıla bilər. Məsələn, qeydsiz-şərtsiz yazır: "Molla Nəsrəddin" novator, yenilikçi idi, "Füyuzad" mühafizəkar…"(səh.l49). Biz, nəhayət, nəzərə almalıyıq ki, bu cür "novator-mühafizəkar" oppozisiyası ilə XX əsrin əvvəllərindəki mürəkkəb dil-üslub proseslərinin mahiyyətini aşkarlamaq çətindir…

3) Əgər mənbələr ayrıca, elmi-nəzəri ədəbiyyat ayrıca verilirsə, XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatı klassiklərinin (A.Səhhət, A.Şaiq, Ə.Sabir, Ö.F.Nemanzadə və b.) əsərlərini də elmi-nəzəri ədəbiyyat siyahısında yox, mənbələr siyahısında vermək lazım idi.

Əlbəttə, artıq qeyd etdiyim kimi, bu kiçik qüsurlar dissertantın gördüyü böyük işin məzmununa ciddi xələl gətirmir və bəlkə də, əslində, onu polemikaya çəkir… Bütövlükdə isə, Sadıxova Sevda Muradxan qızının "Dəbistan" jurnalının dili mövzusunda tədqiqat işi faydalı və gərəklidir.

26.01.1998

CƏLİL MƏMMƏDQULUZADƏNİN DRAM DİLİ

Zəngin və qədim qaynaqlara malik olan ədəbi dilimizin inkişaf edən müasir mərhələyə çatmasında ayrı-ayrı əzəmətli söz sənətkarlarının əvəzsiz rolu olmuşdur. Xüsusilə XIX əsrin sonu XX əsrin əvvəllərində ədəbi dilimizin özü yeni bir inkişaf mərhələsinə qədəm qoymuşdur. Həmin vaxta qədər bədii əsərlərin dili müəyyən dairədə məhdudlaşsa da, artıq XX əsr ərəfəsində Qafqazda və Azərbaycanda nəşr olunan çoxsaylı qəzet və jurnallar bədii əsərlərin kütlələr arasında geniş yayılmasına və yeni dil xüsusiyyətləri qazanmasına təkan verdi. Əlbəttə, demokratik ziyalıların maarifçilik sahəsində apardıqları mübarizədə xalqı savadlandırma başlıca məqsədlərdən biri idi. Lakin bu, heç də o demək deyil ki, yazıçı və şairlər xalqa əlifba dərsi keçirdilər. Burada ən prioritet istiqamətlərdən biri xalq üçün anlaşıqlı, aydın dildə bədii əsərlərin yazılması, adi və ali həqiqətlərin xalqa onun başa düşdüyü dildə çatdırılması idi. Belə əsərlər canlı danışıq dili ilə yazılı ədəbi dil arasında özünəməxsus xüsusiyyətlərə malik bir dildə yaranırdı. Bu da əsərlər qarşısına yeni tələblər qoyurdu.

XX əsrin əvvəllərində yazıb-yaratmış sənətkarların çoxu hələ də ənənəvi dildə yazırdılarsa, bəziləri xalqın rəğbətlə qarşıladığı şirin bir dildə yazırdı. C.Məmmədquluzadə də belə sənətkarlardan, bəlkə də XX əsrin ən böyük yazıçılarından biri olmuşdur. O, məqalə, felyeton, hekayə, povest və dram əsərlərini xalqın asan qavradığı bir dildə yazmışdır. Bu dahi söz ustasının əsərlərinin ədəbi-bədii xüsusiyyətlərilə bağlı kifayət qədər yazılsa da, ayrı-ayrı əsərlərinin dilinə aid tədqiqatlar, xüsusən də dram əsərlərinin dil xüsusiyyətlərilə

bağlı araşdırmalar aparılmamışdır.

Şəhrəbanı Allahverdiyeva C.Məmmədquluzadənin dram əsərlərinin dilini tədqiq obyekti seçməkdə gözəl bir təşəbbüs göstərmişdir. Dissertasiya işi ilə bağlı konkret fikirlərimi bildirməzdən əvvəl bir neçə məsələni vurğulamaq istərdim. İddiaçı böyük sənətkarın dram əsərlərinin dilini araşdıraraq onun bütün əsərlərini ətraflı öyrənmişdir. Bu dissertasiya işindən aydın görünür. Belə ki, yeri gəldikcə müəllif C.Məmmədquluzadənin dram əsərlərinin dilini onun məqalə və felyetonlarınm, hekayələrinin dili ilə müqayisə edir. Hətta XX əsrin əvvəllərində və bu dövrəqədərki ədəbi dilimiz haqqında geniş mənzərə yaratmaq üçün ayrı-ayrı sənətkarların dili ilə bağlı da fikir bildirir. Belə müqayisə, mənə elə gəlir ki, uğurludur. Çünki belə müqayisələr C.Məmmədquluzadə dilinin qaynaqları haqqında, həm də ənənəvi ədəbi dil haqqında düzgün təəssürat yaradır. İkinci qeyd etmək istədiyim odur ki, Ş.Allahverdiyeva C.Məmmədquluzadənin dram əsərlərinin dili ilə onun digər əsərlərinin dili arasında incə fərqləri də müəyyənləşdirə bilmişdir. Belə ki, dram əsərlərinin, ümumiyyətlə, dilinin spesifikliyi bu əsərləri digər janrda yazılmış əsərlərdən kəskin şəkildə fərqləndirir. Burada daha çox obrazların özünəməxsus dilinə üstünlük verilir ki, iddiaçı bu incə nüansa diqqəti çəkir.

Ş.Allahverdiyevanın dissertasiya işi üç fəsildən ibarətdir. Bu fəsillərdə qarşıya qoyduğu məqsəd və vəzifələrdən danışarkən müəllif C.Məmmədquluzadə dramlarında norma demokratizmini ön plana çəkir. Norma demokratizmi haqqında dilçilik ədəbiyyatımızda professor H.Tağıyev, N.Cəfərov və başqaları kifayət qədər fikir söyləmişlər. Lakin Ş.Allahverdiyeva bu tədqiqatında konkret olaraq bir müəllifin əsərləri əsasında norma demokratizmini, normadankənar dil faktlarını, pleonazm və qənaət prinsiplərini, regional-dialektal xüsusiyyətləri araşdırır, ədəbi dilin şifahi forması – canlı

danışıq dili faktlarına diqqəti cəlb edir.

"C.Məmmədquluzadənin dram əsərlərinin dil qaynaqları" adlanan I fəsildə iddiaçı əsrin əvvəllərində və ona qədərki ədəbi dilimizin vəziyyəti, canlı danışıq dilinin, ayrı-ayrı sənətkarların yazı dilinin xüsusiyyətlərindən danışır. M.F.Axundov, H.Zərdabi, Ə.Hüseynzadə və başqa sənətkarların dili ilə müqayisələr aparır, mətbuat dilinin özünəxas xüsusiyyətlərindən bəhs edir ki, bu da "Molla Nəsrəddin" jurnalının müəllifinin əsərlərində öz yazı dilinə sədaqətini sübut edir. Ş.AUahverdiyeva II fəsildə C.Məmmədquluzadə dramlarının leksik xüsusiyyətlərindən bəhs edir. I fəsil kimi bu fəsli də üç yarımbaşlığa bölərək müəllifin dram əsərlərinin dilinin semantik xüsusiyyətlərindən, dram əsərlərində işlənmiş onomastik vahidlərindən və frazeologizmlərdən söhbət açır. Təqdirəlayiq haldır ki, iddiaçı burada onomastik vahidləri dissertasiyalarda olduğu kimi, ənənəvi qaydada deyil, özünəxas formada araşdırır, təsnif edir. Xüsusi adlardan – antroponim, toponim və digər onomovahidlərdən danışan Ş.Allahverdiyeva burada C.Məmmədquluzadə dramlarında işlənmiş qonorativ appelyativlərdən, oppozitivlərdən, qan qohumluğu və yaşla bağlı müraciətlərdən, peyorativ və memorativ qiymətləndirmədən söhbət açır və bu dil faktlarını araşdırır. Bu fəsildə iddiaçı hibrit onomastik vahidlərdən və kompozit adlardan danışarkən belə onomastik dil faktlarının yaranmasına, mənşəyinə də diqqət verir.

Dissertasiyanın III fəsli C.Məmmədquluzadənin dram əsərlərinin dilinin qrammatik-üslubi xüsusiyyətlərinə həsr edilmişdir. Ayrı-ayrı sənətkarların üslublarından danışmaq, onları xarakterizə etmək çox da asan deyil. Bunun üçün tədqiqatçıda ümumi ədəbi dilimiz haqqında geniş anlayış olmalıdır. Ondan müxtəlif sənətkarların dilini fərqləndirmək üçün, ümumiyyətlə, üsluba verilən tələbləri bilmək bacarığı tələb olunur. C.Məmmədquluzadə dramlarının dilini üslubi

baxımdan xarakterizə etmək üçün, fikrimizcə, dahi sənətkarın yaşadığı dövrün yazı dili ilə yanaşı canlı danışıq dilinə də agah olmaq lazımdır. Ş.Allahverdiyeva burada özünəməxsus yol seçərək dram əsərlərindən verilən nümunələr əsasında C.Məmmədquluzadənin dram dilini, üslubunu səciyyələndirmişdir. O cümlədən dissertant bu fəsildə dialektal-regional xüsusiyyətlərə diqqəti cəlb edir və ayrı-ayrı obrazların dili əsasında belə qənaətə gəlir ki, bizim ədəbi dilimizin zənginləşməsində dialektlərin də əvəzsiz rolu olmuşdur. Cümlə strukturları ilə bağlı yarımbaşlıqda iddiaçı konkret misallar əsasında C.Məmmədquluzadə əsərlərində sadə və mürəkkəb cümlə tiplərini, bunların üslubi xüsusiyyətlərini araşdıraraq göstərir ki, C.Məmmədquluzadə dramlarında istifadə edilən cümlələr daha çox canlı danışıqda işlənən cümlələrlə analoji struktura malikdir.

Ş.Allahverdiyeva dissertasiyanın sonunda gəldiyi elmi nəticələri ümumiləşdirir. Konkret və zəngin dil faktlarına söykənən bu qənaətlər və nəticələr inandırıcı görünür.

İddiaçının mövzu ilə bağlı dərc etdirdiyi məqalələr və metodik vasitələr sübut edir ki, o bu sahədə uzun müddət araşdırma aparmış, müvafiq nəzəri ədəbiyyatdan məqsədəuyğun şəkildə istifadə edərək, yüksək elmi səviyyəli bir əsər yazmışdır.

Mənə uğurlu görünən bir faktı da qeyd etmək istərdim. Ş.Allahverdiyeva öz dissertasiya işində mövzunun tələblərindən irəli gələrək ilk baxışdan elmi üslub üçün bəlkə də məqbul görünməyən ifadələr işlədir. Fikrimizcə, belə ifadələrin işlənməsi məqbul sayılmalıdır, çünki bu hər bir elmi əsərdə olduğu kimi, burada da terminlərdən istifadə etmişdir, əlbəttə lazımi qədər.

Dissertasiya haqqında bir neçə xırda iradımı bildirmək istərdim:

1. Dissertasiya işində ayrı-ayrı dil faktları ilə yanaşı

dram əsərlərindən konkret misallar, mətn parçaları az verilmişdir. Belə mətn parçalarının verilməsi dram əsərinin üslub xüsusiyyətlərini geniş izah etmək üçün dissertanta kömək edərdi.

2. Dissertasiyada alınmaların mənimsənilməsi, o dövr üçün yeni dil vahidlərinin işlənilməsi geniş izah olunmur. Yaxşı olardı ki, bu məsələlər faktlara əsasən dilçilik baxımından şərh edilə idi.

3. Fikrimizcə, dram əsərlərinin üslubundan danışarkən Ş.Allahverdiyeva C.Məmmədquluzadə dramlarını müəyyən dil xüsusiyyətləri baxımından qruplaşdıra bilərdi. C.Məmmədquluzadənin son dram əsərləri ilə ilk dram əsərlərinin dili arasında olan incə fərqlər onda daha aydın şəkildə üzə çıxardı və biz bu incə fərqin səbəblərini dil faktları, o cümlədən də ictimai-siyasi şərait fonunda nəzərimizdə canlandıra bilərdik.

Bu kiçik iradlar dissertasiya işinin məğzinə və dəyərinə xələl gətirmir. Və bunlara gələcək tədqiqatlarında qayıtmaq olar. Müəllifin dissertasiya mövzusuna aid çap olunmuş məqalələri, metodik vəsaitləri və avtoreferatı dissertasiyanın məzmununu əhatə edir. Ş.Allahverdiyevanın "C.Məmməd-quluzadənin dram əsərlərinin dili" mövzusunda yazdığı dissertasiya işi Ali Attestasiya Komissiyasının namizədlik dissertasiyası qarşısında qoyduğu tələblərə cavab verir.

12.05.1999

İQTİSADİYYAT TERMİNLƏRİ HAQQINDA

Arif Mamo oğlu Ağalarovun "Müasir Azərbaycan dilində iqtisadiyyat terminlərinin leksik-semantik və struktur təhlili" mövzusundakı dissertasiya işi müasir Azərbaycan dilçiliyi üçün elmi cəhətdən aktual mövzudur. Tədqiqatçı Azərbaycan dilində iqtisadiyyat terminlərinin tarixi mənbələrini açıqlamış, onların dildə əmələ gəlmə yollarını və semantik qruplarını elmi dəlillərlə izah etmişdir.

Arif Mamo oğlu Ağalarovun "Müasir Azərbaycan dilində iqtisadiyyat terminlərinin leksik-semantik və struktur təhlili" mövzusundakı dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

"Giriş"də mövzunun aktuallığından, dissertasiya işinin elmi-nəzəri və praktik əhəmiyyətindən, elmi yeniliyindən, metod və üsullarından, məqsəd və vəzifələrindən danışılır.

"Müasir Azərbaycan dilində iqtisadiyyat terminlərinin mənbə və yolları" adlanan I fəsildə iqtisadiyyat terminlərinin elmi izahına düzgün olaraq ümumtürk kontekstindən yanaşılmış, terminlərin tarixi mənbələrinə toxunulmuş, iqtisadiyyat terminlərinin yaranma yolları tutarlı faktlarla izah olunmuşdur.

Dissertasiyanın II fəsli "Müasir Azərbaycan dilində iqtisadiyyat terminlərinin semantik-struktur təhlili" adlanır. Bu fəsildə iqtisadiyyat terminlərinin ayrı-ayrı semantik qrupları göstərilmiş, polisemiya omonimlik, sinonimlik və antonimlik kimi semantik kateqoriyalar vasitəsilə onların məna çalarlıqları elmi əsaslarla izah edilmişdir.

Dissertasiya işinin III fəslində "Müasir Azərbaycan dilinin iqtisadi terminologiyasının zənginləşməsində sosiolinqvistik amillərin və kütləvi informasiya vasitələrinin

rolu”ndan danışılır. Dissertasiyanın bu fəslində iqtisadiyyat terminlərinə ictimai-iqtisadi və sosial şəraitin göstərdiyi təsirlər, bədii, iqtisadi ədəbiyyatların, həmçinin kütləvi informasiya vasitələrinin rolu aydınlaşdırılmış, terminoloji bazanın zənginləşməsində sosiolinqvistik amillərin rolu düzgün verilmişdir.

Tədqiqatçı fikirlərini elmi şəkildə və ardıcıl olaraq izah etməyə çalışmış, mövzunun işlənməsində ən tutarh mənbələrə əsaslanaraq, elmi ədəbiyyatlardan yerli-yerində istifadə etmişdir.

“Nəticə” dissertasiya işini yekunlaşdırır.

Dissertasiyada 160 əsəri, xeyli qəzet və jurnalları əhatə edən ədəbiyyat siyahısı verilmişdir. Mən dissertantın elmi rəhbəri kimi, onun filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün yazdığı “Müasir Azərbaycan dilində iqtisadiyyat terminlərinin leksik-semantik və struktur təhlili” mövzusundakı dissertasiyasını bitmiş hesab edir, onun müzakirəyə buraxılmasını məsləhət bilirəm.

22.03.2000

ANARIN NƏSR DİLİNİN TƏDQİQİ

Müasir Azərbaycan ədəbi dilinin tarixində 60-cı illərdən etibarən yeni mərhələnin başladığı barədə artıq neçə illərdir ki, kifayət qədər əsaslı, dəlil-sübutlu mülahizələr irəli sürülür. Həmin yeniləşmənin əsas əlaməti kimi ədəbi dilin xalq dilinə yaxınlaşmasından, demokratikləşməsindən əvvəlki onilliklərdəkindən fərqli bütöv bir ifadə – obraz sisteminin formalaşmasından, xüsusilə ədəbi-bədii dilin müasirləşməsindən, fərdiləşməsindən bəhs edilir. Və belə bir elmi təsəvvür geniş yayılır ki, ədəbiyyata 60-cı illərdə gələn yazıçılar – İsa Hüseynov, Əli Kərim, Anar, Elçin, Əkrəm Əylisli… ədəbi dilin bədii üslubunda, ümumən ədəbi dildə özünü göstərən yeniləşmədə aparıcı rol oynamışlar.

Əsgərova Sevinc İsrafil qızının dissertasiya işi "Anarın dili" adlansa da, bəri başdan deyək ki, dissertant yalnız bir yazıçının dil-üslub xarakteristikası üzərində dayanmaqla kifayətlənməyib, ümumən "60-cılar" adlanan ədəbi məktəbin, yaxud nəslin özünəməxsus dil-üslub rəngarəngliyini, polifoniyasını aşkarlamağa çalışır. Əlbəttə, prinsip etibarilə, yalnız Anarın dilindən də bəhs etmək, dövrün fərdi dil-üslub təzahürlərini diqqətdən kənarda qoymaq olardı, çünki Anar o yazıçılardan, o nasir, dramaturq, publisistlərdəndir ki, onun dili öz-özlüyündə kifayət qədər zəngin, mənaca çoxşaxəli, çoxplanlı, olduqca müasirdir. Lakin dissertantın tədqiqat metodunu mən ona görə daha çox bəyənirəm ki, Anarın dilini, üslubunu Azərbaycan ədəbi-bədii dilinin təxminən son 50 ildəki prosesləri, dəyişmələri, zənginləşmələri, ümumi (funksional) və xüsusi (fərdi) üslub dialektikası kontekstində araşdırmağa çalışmışdır. Hər şeydən əvvəl nəzərə almaq lazımdır ki, dissertantın dönə-dönə qeyd etdiyi kimi, Anarın

dili dövrün konkret dil-üslub zövqünün qanunauyğun təzahürüdür. Bu dili zaman özü, 50-ci illərin sonu 60-cı illərdə Azərbaycan ictimai-siyasi, mədəni-mənəvi həyatındakı paradokslar özü meydana çıxarmışdı. Ona görə də yazıçının dil-üslubunu "kontekst"dən təcrid edilmədən, onunla vəhdətdə, filosoflar demişkən, ümumi ilə xüsusinin əlaqəsində araşdırmağın metodoloji əhəmiyyəti vardır. İkincisi isə, son 50 ilin dil-üslub mənzərəsini, xüsusilə "60-cılar"ın bədii-linqvistik simasını Anarla yanaşı İsa Hüseynov, Sabir Əhmədov, Əkrəm Əylisli, Elçin… müəyyən edirlər ki, dissertantın yeri gəldikcə deyil, məhz sistemli şəkildə Anarın nəsr, dramaturgiya, publisistik üslubunu bu və ya digər sənətkarın ifadə tərzi ilə tipoloji baxımdan müqayisə etməsi, buradan irəli gəlir. Və elə bilirəm ki, həmin müqayisə əsərin elmi-nəzəri dəyərini xüsusilə artırır.

Dissertasiyanın "Giriş"i kifayət qədər əhatəli olub, dövrün dil-üslub mənzərəsi, Anarın dil-ifadə metafizikası, dilçilik görüşləri və s. barədə metodoloji baxımdan əsaslı təsəvvür yaradır. Burada yazıçının ədəbi-bədii üslubunun genezisi barədə, dilinin təkamül mərhələləri haqqında deyilənlər, etiraf edim ki, orijinal mülahizələr olub dissertantın tədqiqatçılıq təcrübəsini, istedadını bir daha sübut edir.

Ümumiyyətlə, dissertasiya işi üç fəsildən ibarətdir: I fəsildə Anarın nəsr, II fəsildə dramaturgiya, III fəsildə isə publisistik dili araşdırılır. Lakin irəlidə qeyd etdiyim kimi, həmin fəsillərin hər birində Anarın dili dövrün ədəbi-bədii dili kontekstində və təkamül prosesində təhlil olunur ki, bunu fəsillərin yalnız məzmunu deyil, adları da əks etdirir: 1. "Yeni nəsr"in dil-üslub tipologiyası və Anarın nəsr dili. 2. Anarın dramaturgiya dili: əsas tendensiyalar. 3. Anarın publisistik dili: bədii publisistik dil, elmi publisistik dil, siyasi publisistik dil.

Məsələyə bu cür analitik, yaxud diferensial yanaşmanın nəticəsidir ki, dissertantın təqdimində Anarın dili, onu əhatə edən mövcud dil-üslub mənzərəsi, prosesləri, idealları barədə aydın qənaətlərə gəlinir. Yazıçının dilindəki ədəbi növ-janr diferensiallığı ilə yanaşı, ideya-məzmun diferensiallığı da diqqətlə, incəliklə araşdırılır: maarifçi-demokratik, ciddi-realist, satirik, fəlsəfi-simvolik, lirik, sürrealist-psixoloji və s. dil təzahürləri müəyyənləşdirilir ki, müəllifin fikrincə, Anarın dili həmin təzahürlərin üzvü vəhdətindən ibarətdir.

Sevinc Əsgərovanın dissertasiya işinin, ümumiyyətlə, tədqiqatın metodunun uğurlu cəhətlərindən biri də yeniliyə, orijinal fikir söyləməyə, polemikaya marağıdır. "60-cılar"ın yaradıcılığını tədqiq etmiş ədəbiyyatşünas və dilçilərdən Tofiq Hacıyev, Akif Hüseynov, Qəzənfər Kazımov, Aydın Məmmədov, Kamil Vəliyev, Kamal Abdullayev, Vaqif Yusifli, Sabir Bəşirovla geniş fikir mübadiləsi aparan dissertant öz mövqeyini çox zaman əsaslandıra bilir.

Bununla belə, mənim fikrimcə, dissertasiyada bir sıra qüsurlar, çatışmazlıqlar, polemik cəhətlər də vardır ki, onları dissertantın və Müdafiə Şurası üzvlərinin nəzərinə çatdırıram:

1) Yazıçı dili probleminə həsr olunmuş küllü miqdarda elmi-nəzəri ədəbiyyat mövcuddur. Yalnız onu demək kifayətdir ki, Azərbaycanda Nəsiminin dilindən tutmuş müasir söz ustalarımızın dilinə qədər yüzlərlə yazıçının dil-üslub tipologiyası araşdırılmışdır. Nədənsə dissertant həmin ədəbiyyatlardan az istifadə etmişdir.

2) Anarın dili, heç şübhəsiz, görkəmli bir yazıçının dilidir. Yazıçı dili haqqında yazanda ədəbi-estetik məsələlərə müdaxiləsiz keçinmək mümkün deyil. Lakin Sevinc Əsgərovanın dissertasiya işində bəzən ədəbiyyat materialına aludəçilik hiss olunur.

3) Dissertasiyanın dilində aydın anlayışları ifadə edən

dəqiq terminologiya ilə yanaşı bəzən elmi üslubda anlaşılması çətin olan obrazlı ifadələr də işlənir; məsələn: qlobal dünyadan mikroaləmə enmə; lirik-psixoloji həsb-hallar; zaman itir, əriyir; hisslərin, xəyalların dramatizmi və s. Yaxşı olardı ki, müəllif bu anlayışları daha "soyuq" ifadələrlə, terminlərlə verəydi.

Ümumiyyətlə, Sevinc Əsgərovanın dissertasiya işi yüksək elmi-nəzəri, metodoloji səviyyədə yazılmışdır. Avtoreferat, dissertantın beş il ərzində çap etdirdiyi məqalələr, tezislər dissertasiyanın məzmununu tamamilə əks etdirir.

28.04.2000

BƏDİİ DİLDƏ YUMOR VƏ ONUN TƏDQİQİ MƏSƏLƏLƏRİ

Azərbaycan ədəbi dilində ən zəngin və aparıcı üslublardan olan bədii üslub və ya bədii əsərlərin dili müxtəlif cəhətlərdən tədqiq və təhlil edilir. Tədqiqatçılar ədəbi dilin leksik, qrammatik xüsusiyyətlərini, ümumən qanun-qaydalarını öyrənmək üçün, birinci növbədə bədii əsərlərin dilinə müraciət edirlər. Bu mənada bədii əsərlər dilçilik tədqiqatı üçün material verir. İkinci bir tərəfdən bədii əsərlərin ifadəliliyi, onun obrazlar aləminin tipikləşdirilməsində dil və ifadənin rolu və s. öyrənilir. Bədii dil o qədər zəngin, mürəkkəb xüsusiyyətlərə malikdir ki, onu çox müxtəlif cəhətlərdən tədqiq etmək olur.

Sədaqət Qurbanəli qızı Həsənova bu üslubun çox mühüm bir cəhətini tədqiqat obyekti kimi seçmiş və bu haqda namizədlik dissertasiyası yazmışdır. Bu cəhət dissertasiyanın adından da göründüyü kimi, bədii dildə yumor problemidir. Ayrı-ayrı tədqiqat əsərlərində bu problemə müəyyən qədər toxunulmuşdursa da, indiyə kimi bu sahədə müstəqil ciddi tədqiqat işi yazılmamışdır. Sədaqət Qurbanəli qızı Həsənova ilk dəfə olaraq bu problemi tədqiqat obyekti kimi seçmiş və lazımi səviyyədə namizədlik dissertasiyası yazmışdır.

Dissertasiya şübhəsiz ki, dilçilik əsəridir və 10.02.02. – Azərbaycan dili indeksinə tamamilə uyğundur. Bununla belə, qeyd etməyi lazım bilirik ki, bu əsərdə ədəbiyyatşünaslıq meyili də var. Bu da təbiidir. Çünki bədii əsərlərin dilində yumor məsələsinin izahı tələb edir ki, ona həm dilçilik gözü ilə, həm də ədəbiyyatşünaslıq gözü ilə baxılsın və tədqiqat əlaqəli şəkildə aparılsın.

Sədaqət Qurbanəli qızı Həsənova da məhz bu cəhəti

əsas götürmüş, yumorun bədii dildə ifadə tərzini əsas olmaqla onun hansı əsərdə, necə, nə tərzdə, hansı münasibətlərlə ifadəsini göstərmişdir. Dissertasiyanın ümumi həcmi 160 səhifədir. O aşağıdakı hissələrdən ibarətdir: "Giriş", iki fəsil, "Nəticə" və "İstifadə edilmiş ədəbiyyat".

Məlum məsələdir ki, dissertasiyanın girişi Ali Attestasiya Komissiyasının tələblərinə uyğun olaraq standart formada yazılıb. Yəni burada mövzunun aktuallığından, elmi və təcrübi əhəmiyyətindən, yeniliyindən və s. danışılır. Bu hissədə dissertant bizi bu mövzunun aktuallığına, problem xüsusiyyəti daşıdığına inandıra bilir.

Birinci fəsil "Yumorun ifadə sahələri və mövqeyi" adlanır. Bu fəsil aşağıdakı bölmələrdən ibarətdir:

a) Yumor bir problem kimi və onun tədqiqinə bir nəzər.

b) Yumorun nəzəri-estetik tutumu.

c) Yumor dili və satira dili arasındakı münasibətlər.

ç) Yumorun başqa estetik kateqoriyalarla əlaqəsi.

d) Yumorun ifadə tərzi.

Birinci bölmədə yumor haqqındakı estetik-nəzəri fikirlərə nəzər salınır və onlara münasibət göstərilir. Bu fikirlər arasında böyük yunan filosofu Aristotelin, Azərbaycan yazıçılarının maraqlı elmi-nəzəri mülahizələri əsas yer tutur. Dissertasiyada rus nəzəri fikrinə də müraciət olunur. Bu bölmədə yumorun dilçilik elmində mövqeyi məsələsindən də danışılır. İkinci bölmədə yumorun estetik-nəzəri tutumu da izah olunur, özünəməxsus xüsusiyyətləri aydınlaşdırılır. "Yumor dili və satira dili arasındakı münasibətlər" bölməsində Sədaqət Qurbanəli qızı Həsənova yumor-satira dili ilə bağlı fərqli və oxşar cəhətləri göstərir. Digər bölmədə yumorun başqa estetik kateqoriyalarla əlaqəsi müəyyənləşdirilir. Birinci fəslin son bölümündə yumor ədəbi dilin üslublarından biri kimi təqdim edilərək onun özünəməxsus üslubi xüsusiyyətləri təhlil olunur. Sədaqət

Qurbanəli qızı Həsənova yumorun dil faktoru olduğunu, yumoristik əsərlərdə dil materiallarının mühüm rolunu müxtəlif bədii əsərlərdən gətirilmiş nümunələrlə sübut etməyə çalışır.

Leksik, morfoloji baxımdan yumor yaradıcılığında mühüm əhəmiyyətə malik olan dil faktları nəzərə çatdırılır. Bu baxımdan söz mənalarının roluna xüsusi diqqət yetirilir.

Dissertasiyanın ikinci fəsli "Yumorun ifadə mənbələri" adlanır. Bu fəsil dörd bölmədən ibarətdir:

a) "Xalq yaradıcılığında yumor və onun dili"

b) "Hekayə dilində yumor"

c) Komediya dilində yumor

d) Felyeton dilində yumor

Bölmələrin adlarından görünür ki, dissertant bir-birindən az və ya çox fərqlənən müxtəlif bədii əsərlərə müraciət etmiş və onların dilində yumorun özünəməxsus ifadə formalarını müəyyənləşdirmişdir. Burada xalq yaradıcılığı nümunələri də, hekayə, komediya, felyeton da var. Maraqlıdır ki, dissertant yumorun bu yaradıcılıq növlərinin hamısına aid olan ümumi cəhətlərini qeyd etdiyi kimi, hər bir növün də həmin ümumi fonda meydana çıxan fərqli cəhətlərini müəyyənləşdirə bilmişdir.

Biz belə hesab edirik ki, Sədaqət Qurbanəli qızı Həsənova qarşısına qoyduğu məqsədə nail olmuş və namizədlik dissertasiyasının tələblərinə cavab verən bir əsər yaza bilmişdir. Dissertant dissertasiyanı "Nəticə"də yekunlaşdırır. Dissertasiyanın ədəbiyyat siyahısında verilmiş 140 əsərin hamısından istifadə edilmişdir.

Dissertantın mövzu üzrə doqquz məqaləsi çap olunmuşdur. Bu məqalələr dissertasiyada qoyulan məsələləri əhatə edir.

Dissertasiyanın avtoreferatı dissertasiyanın məzmununu əhatə edir və o haqda düzgün məlumat verir.

Bizim fikrimizcə, Sədaqət Qurbanəli qızı Həsənovanın

“Bədii əsərlərin dilində yumor” mövzusundakı əsəri namizədlik dissertasiyasının tələblərinə cavab verir və bu əsərə görə ona filologiya elmləri namizədi alimlik dərəcəsi vermək olar.

Bununla belə, dissertasiyada çatışmayan müəyyən cəhətlər də var:

1. Qeyd etdiyimiz kimi, dissertasiya ümumfiloloji səviyyə daşıyır. Bu, yaxşı cəhətdir. Lakin hər halda o, dilçilik indeksi ilə müdafiə olunur. Biz bu cəhəti də düzgün hesab edirik. Ancaq dissertant bədii əsərlərin təsiri ilə bəzən ədəbiyyatşünaslıq istiqamətində izahatlar verir və bu halda dissertasiyanın dilçilik istiqamətini müəyyən dərəcədə zəiflədir.

2. Dissertant dissertasiyanın “Yumorun ifadə mənbələri” fəslində yumorun bütöv halda dörd mənbəyini göstərir və hər mənbə üzrə yumorun ifadə vasitələrini düzgün göstərir. Lakin, fikrimizcə, bu mənbələr arasında əlaqələr tam şəkildə açılmır. Dissertant bundan sonra bu cəhətə diqqəti artırmalıdır.

Bütün bunlar mükəmməl bir dissertasiya işinin əhəmiyyətini azaltmır. Biz yuxarıdakı fikrimizi bir daha təkrar edərək deyirik ki, Sədaqət Qurbanəli qızı Həsənovanın “Bədii əsərlərin dilində yumor” adlı bu əsəri öz əhəmiyyəti ilə diqqəti cəlb edən bir tədqiqatdır.

08.05.2000

ARXİV TERMİNLƏRİNİN ÖYRƏNİLMƏSİ

Azərbaycan dilinin leksikasının xeyli hissəsini terminlər təşkil edir. Terminlərin dildə zəngin olması o xalqın texnika, siyasət və mədəniyyət sahələrindəki nailiyyətlərinin göstəricisidir. Bu sahələr inkişaf etdikcə xalqın dilinin terminologiyası sistemi də inkişaf edir.

Termin problemi və terminologiya ümumi dilçilik nəzəriyyəsinə daxil olur. Termin anlayışının izahı ilə bağlı olan hər şey linqvistikanı elmi biliyin müxtəlif sahələrinə yaxınlaşdırır. Dilin, onun leksik sisteminin inkişafının xalqın maddi və mənəvi mədəniyyəti ilə əlaqəsi burada aydın və əyani şəkildə meydana çıxır. Elmin, mədəniyyətin, istehsal fəaliyyətinin bu və ya digər sahəsinin terminologiyasının tarixi – bunların hamısı bütöylükdə təbiət və cəmiyyətin inkişafı haqqında salnamə hesab olu8a bilər.

Termin yaradılması və müəyyənləşdirilməsində iki səciyyəvi cəhət vacibdir. Struktur – dil və anlayış, semantika. Termin anlayışının semantika tərəfi bu və ya digər elmin anlayışlar sisteminin inkişafı ilə şərtlənir. Bu iki cəhət mədəni-tarixi ənənələrlə bağlıdır.

İndi respublikamızda elm və texnika inkişaf edir, xarici ölkələrlə iqtisadi və siyasi münasibətlərimiz genişlənir. Dilimizə az qala hər gün yeni terminlər daxil olur.

Elmin bu və ya digər sahəsində ixtisas biliklərinin zənginliyi həmin sahənin terminologiyasında əks olunur. Terminologiya mütəxəssislər tərəfindən yaradılır və onların ehtiyacını ödəməyə xidmət edir. Terminologiya leksikanın tərkibinə daxil olur və onun bir hissəsini təşkil edir. Leksikanın bu hissəsi şüurlu surətdə yaradılır və nizama salınır. Terminologiya leksikanın xüsusi bir şöbəsində yığılan terminlərin məcmusudur.

Dilçiliyimizdə “terminologiya” anlayışı iki mənada işlədilir: Müstəqil bir elm sahəsi və leksikanın bir hissəsi – terminlər sistemi.

Azərbaycan dilində yeni əmələ gələn və alınma sözlərin böyük əksəriyyətini terminlər təşkil edir.

Azərbaycan dilçiliyinin terminologiya sahəsi çox inkişaf etmişdir. Terminologiyamızın nəzəri əsasları tədqiq edilmiş, ayrı-ayrı sahələr üzrə terminlər yaradılmışdır. Bu sahədə B.Çobanzadənin, M.Ş.Şirəliyevin, Ə.Orucovun, M.Ş.Qasımovun böyük əməyi öz bəhrəsini vermişdir. İndi hazırlıqlı mütəxəssislər ordumuz yetişmişdir.

Azərbaycanda dövlət arxivinin əsası 1920-ci ildə qoyulmuşdur. İndi arxivlərimiz uğurla işləyir. Azərbaycan dili indi həyatımızın bütün sahələrində olduğu kimi, arxiv işində də tətbiq olunur.

Arxiv terminlərimizin yaradılması, onun lüğətinin hazırlanması işi indiyədək diqqətdən kənarda qalmışdı.

Tədqiqatçı Sima Kərim qızı Babayeva bu məsələnin həllinin aktual olduğunu nəzərə almış və “Azərbaycan dilində arxiv terminlərinin linqvistik təhlili” adlı dissertasiya yazmışdır. Dissertasiya işi tam unudulmuş bir sahənin, arxiv işinin terminologiyasına həsr olunmuşdur. Göründüyü kimi, mövzu tamamilə düzgün seçilmiş və aktualdır.

Dissertasiya “İşin ümumi səciyyəsi”, “Giriş”, üç fəsil və ədəbiyyat siyahısından ibarətdir. Müəllif tərəfindən hazırlanmış Azərbaycan arxiv terminlərinin ikidilli izahlı lüğəti də işə əlavə olunmuşdur. Həmin lüğətdə daha çox işlək olan arxiv terminləri verilir.

İşin girişində termin və terminologiya izah olunur, terminin ümumişlək sözlərdən fərqi müəyyənləşdirilir. Azərbaycan dili terminologiyasının inkişafının qısa tarixi üzərində dayanılır. Maraqlıdır ki, türk dillərində terminologiyanın yaranmasının tarixi Orxon-Yenisey yazılı abidələri ilə başlanır.

Çünki həmin abidələrdə də terminlərə rast gəlinir. İşin gedişində Azərbaycanda arxiv işinin təşkili tarixi, arxiv terminlərinin mənbələri müəyyənləşdirilir.

Dissertasiyanın birinci fəsli "Arxiv terminlərinin yaranma üsulları" adlanır. Bu fəslin əvvəlində dissertant rus dilçisi – terminşünas D.S.Lottenin elmi-texniki terminlərin yaradılmasının üsulları haqqında fikri üzərində dayanır. Həmin alim qeyd edirdi ki, terminlər aşağıdakı üsullarla yaradılır: 1) Sözün semantikasının dəyişdirilməsi, 2) Yeni sözlərin düzəldilməsi, 3) Qısaltınalar yaradılması, 4) Mürəkkəb sözlər yaradılması, 5) Söz birləşmələri yaradılması, 6) Xarici dillərdən alınmalar. Dissertasiya müəllifi buraya kalka yolu ilə termin düzəltmə üsulunu da əlavə edir. D.S.Lottenin bu fikri keçmiş SSRİ məkanında terminşünas alimlər tərəfindən bəyənilmiş və termin yaradıcılığında tətbiq edilmişdir.

Bu fəsildə arxiv terminlərinin morfoloji, sintaktik və leksik-semantik yolla yaradılması geniş tədqiq edilir, hər bir nəzəri tezis çoxlu miqdarda misalla möhkəmləndirilir.

Dissertasiyanın ikinci fəslində arxiv terminlərinin kalka üsulu ilə yaradılması üzərində dayanılır. Kalka yolu ilə yaradılan terminlərin linqvistik təhlili verilir. Müəllif bu sahədə olan nəzəri işlərə tez-tez müraciət edir, yeri gəldikdə onlara tənqidi yanaşır. Kalka olunmuş arxiv terminlərinin strukturu və modelləri işdə geniş elmi təhlilini tapmışdır.

Bu fəsildə həmçinin sərbəst tərcümə yolu ilə terminyaratma üzərində də dayanılır.

Dissertasiyanın üçüncü fəsli "Alınma arxiv terminləri" adlanır. Bu fəsildə alınmalar və onların mənbələri haqqında dilçilərin fikirləri təhlil olunur və alınma arxiv terminləri tədqiq edilir. Alınma arxiv terminləri əsasən rus dilindən, rus dili vasitəsilə Qərbi Avro pa dillərindən gələn terminlərdir. Ərəb və fars dillərindən də dilimizə bir sıra arxiv terminləri daxil olmuşdur. Alınma terminlərin bir çoxunun etimologiyası və

linqvistik təhlili burada özünə yer tapmışdır.

Dissertasiya müəllifi bu mövzuda ədəbiyyatlardan səmərəli istifadə edə bilmişdir. Müəllif ən çox Azərbaycan dilçilərinin terminologiyamıza aid kitab, məqalə və dissertasiya işlərinin avtoreferatlarına istinad etmişdir. Həmin materiallara müəllif bir çox hallarda tənqidi yanaşır və öz tezisini irəli sürür.

Dissertasiya işinin sonunda verilmiş nəticə işin bütün fəsillərini əhatə edir.

Müəllifin çap olunmuş avtoreferatı dissertasiyamn məzmununu tam əhatə edir. Avtoreferat dissertasiyaya uyğun yazılmışdır və onun əsas müddəalarını işıqlandırır. Müəllifin tərtib etdiyi, çap etdirib kitab şəklində oxuculara, ələlxüsus arxiv işçilərinə çatdırdığı ikidilli izahlı arxiv terminləri lüğəti işin dəyərini qat-qat artırır. Müəllif ilk dəfə belə bir lüğəti elm aləminə çatdıra bilmişdir. Bu da təqdirəlayiqdir.

İşdə istifadə olunan tədqiqat metodları düzgün seçilmişdir. Statistik təhlil metodundan istifadəetmə işə dəqiqlik gətirir. Göstərilən uğurlu cəhətləri ilə yanaşı işdə bəzi nöqsanlar da vardır.

1. İşə əlavə olunmuş lüğətdə arxiv terminlərinin bəzilə-ri kənarda qalmışdır. Bizcə, əlavədə arxiv terminləri verilmə-li idi.

2. Terminologiya haqqında alman, fransız və ingilis dillərində bir çox tədqiqatlar vardır. Bu işdə həmin tədqiqat-lardan istifadə olunmur.

Göstərilən nöqsanlar işin ümumi dəyərinə bir o qədər təsir etmir.

Sima Kərim qızı Babayevanın "Azərbaycan dilində arxiv terminlərinin linqvistik təhlili" adlı dissertasiya işi yeni və maraqlı bir mövzunun tədqiqi kimi qiymətlidir.

18.12.2000

KLASSİK AŞIQ POEZİYASININ ÜSLUBİ-POETİK SİNTAKSİSİ

Azərbaycan ədəbi dili tarixində əhəmiyyətli dövr sayılan XVI-XVIII əsrlərdə Azərbaycan aşıqlarının babası kimi tanınan Qurbani, Abbas Tufarqanlı və Xəstə Qasım yaşayıb yaradıblar. Şübhəsiz, Qurbani klassik aşıq məktəbinin iik nümayəndəsi deyil. Daha əvvəlki dövrlərdə də Azərbaycan aşıqları olmuş, lakin onların yaradıcılığı gəlib bizə çatmadığına görə dil-üslubları barədə aydın təsəvvürümüz yoxdur. Azərbaycan aşıqlarının sələfi və onun davamçılarından isə tədqiqat üçün kifayət qədər zəngin irs qalmışdır.

Azərbaycan ədəbiyyatı və eləcə də ədəbi dil tarixində klassik aşıq poeziyası nümayəndələrinin özünəməxsus yeri var. Qurbanı, Abbas Tufarqanlı və Xəstə Qasım klassik üslubla folklor üslubunun əvvəlcə eyni və getdikcə dəyişən səviyyələrdə qarşılaşdığı bır dövrdə fəaliyyət göstərmişlər. Xüsusilə, XVI əsrin əvvəllərində klassik üslubun mövqeyi güclənir, folklor üslubu ixtisaslaşır, perspektivini hiss etdirirdi. Xətai, Əmani kimi sənətkarların yaradıcılığında iki müxtəlif, formalaşmış üslub qarşılaşdırılırdı. Tarixi prosesin nəticəsi olan bu qarşılaşdırma ardıcıl olaraq Qurbani, Abbas Tufarqanlı və Xəstə Qasım kimi söz ustadlarından sonra M.V.Vidadi, hətta M.P.Vaqif yaradıcılıqlarında davam etdirilir.

XVI-XVIII əsrlər üçün səciyyəvi olan üslub qarşılaşdırmaları sayəsində milli vəzndə yazan sənətkarların dili lüğət tərkibinin etnik mənşəyinə görə klassik şeirdən az fərqlənirdi. Hələ xalq dilinin məişət həyatının sözləri küll halında, bol-bol ədəbi dilə axmır, ağır-ağır gəlirdi. Lakin çox mühüm bir amil var ki, o, folklor üslubunu klassik üslubdan fərqlən-

dirir. Bu statik materialdan istifadə texnikasıdır, sintaksisidir. Heç şübhəsiz, sintaksis də poetexniki janr müəyyənliyindən irəli gəlir. Dissertant T.İ.Hacıyeva da bu fərqi düzgün olaraq sezmiş və tədqiqat üçün klassik aşıq poeziyasının üslubi-poetik sintaksisini götürmüşdür.

145 səhifəlik dissertasiya "İşin ümumi səciyyəsi", "Giriş", üç fəsil, "Nəticə" və "Ədəbiyyat siyahısı"ndan ibarətdir. Ənənəvi olaraq "İşin ümumi səciyyəsi"ndə tədqiqatın məqsəd və vəzifələri, metodları, mənbələri, dissertasiyanın elmi yeniliyi, nəzəri və təcrübi əhəmiyyəti haqqında məlumat verilir. "Giriş"də dissertant aşıq sənətinin tarixi, Qurbani, Abbas Tufarqanlı və Xəstə Qasım yaradıcılığı ilə digər klasik şeir nümunələrinin məzmun və ifadə bağlılığından, XVI-XVIII əsrlər ədəbi dilinin səciyyəvi xüsusiyyətlərindən ətraflı məlumat verir.

"Klassik aşıq poeziyası poetik sintaksisinin əsas vahidləri" adlanan I fəsildə poetik sintaksisin əsasını təşkil edən bədii təyin və xitablar, sintaktik paralelizm örnəkləri zəngin misallarla şərh edilir. Misalların şərhinə keçilməzdən əvvəl, poetik dil vahidlərinə münasibət bildirilir, elmi ədəbiyyatdakı mövcud fikirlərlə polemika edilir, bədii təyin, bədii xitab və sintaktik paralelizmin mahiyyəti düzgün açıqlanır. Poetik sintaksisin əsas vahidlərinin şərhi klassik üslubla folklor üslubunun üzvi vəhdətdə olması qənaətini ortaya çıxarır.

Dissertasiyanın II fəsli "Klassik aşıq poeziyasında ritm, intonasiya" adlanır. İşin elmi səviyyəsini daha da yüksəldən bu fəsildə ritm, onu yaradan vasitələr nəsr və nəzm dilinin əsas detalı kimi dilin bütün səviyyələri üzrə zəngin nümunələrlə ətraflı şərh edilir. Dissertantın poetexniki və üslubi vasitə saydığı alliterasiyada iştirak edən samit və sait işlənmə tezliyi ayrı-ayrı cədvəllər şəklində verilir, səs təkrarlarının bolluğunun leksik və sintaktik vahidlərin təkrarlanmasına zəmin yaratdığı qeyd edilir. II fəslin ikinci bölməsi "İntonasiya"

adlanır. Bu bölmədə aşıq şeirinin intonasiya zənginlikləri ayrı-ayrılıqda qruplaşdırılıb şərh edilir.

"Klassik aşıq poeziyasının normativ sintaksisi. Sadə və mürəkkəb cümlələrin üslubi özəllikləri" adlanan III fəsildə düzgün olaraq, qeyd edilir ki, "XVI-XVII əsrlər dil quruculuğu sahəsində milli keyfiyyətlərin ortaya çıxdığı bir dövrdür. Dövrün əhəmiyyətli sənətkarları Xətai, Əmaninin dili ilə mövcud ənənəçilik aradan qalxır, müxtəlif formalı dil materialları yaranır" (səh.95). Klassik aşıq şeirinin normativ sintaksisini dərindən araşdıran dissertant düzgün olaraq, belə nəticəyə gəlir ki, dövrün ədəbi dilinə yeni çalar verən aşıq şeiri sintaksisinin dil tarixində öz yeri var. Çünki "Klassik aşıq şeirinin nümayəndələri ilk növbədə, qədim türk şeiri ənənələrinə əsaslanan XVI-XVIII əsrlər üçün funksionallaşan dil üslubu yaratmışlar. Bununla da Azərbaycan ədəbi dilinin milliləşməsində, demokratikləşməsində klassik üslubla folklor üslubunun qarşılıqlı əlaqəsi, sonda klassik üslubun şifahi ədəbi dil üslubu tərəfindən üstələnməsində əhəmiyyətli iş görmüşlər" (səh.137)

Klassik aşıq poeziyasının linqvo-poetikasının ətraflı tədqiqində alınan qənaət dissertasiyanın "Nəticə" hissəsində 15 bənd ətrafında qruplaşdırılıb.

"Klassik aşıq poeziyasının üslubi-poetik sintaksisi" adlanan dissertasiya gərgin əməyin və diqqətli müşahidənin nəticəsi kimi yüksək səviyyəli elmi araşdırmadır. İşdə onun elmi səviyyəsinə xələl gətirməyən bir sıra qüsurlar da var:

1. Bədii xitablar emosional-ekspressiv xüsusiyyətlərinə görə təsnif edilərkən aşıq şeirində formul funksiyalı "könül", "dəli könül", "dünya" kimi müraciətlər ayrıca qrup və ya yarımqrupda qeyd edilmir. Yəqin ki, bu müraciət formalarını nəsihət semantikalı bədii xitablar başlığı altında vermək olardı.

2. Bəzən mövzudan kənar artıq qrammatik təhlilə rast

gəlinir. Mövzu qrammatik deyil, poetik təhlil olduğundan III fəsildə sadə və mürəkkəb cümlələrin bütün tip və növlərinin ayrı-ayrılıqda misallarla izahı mövzudan uzaqlaşma təsiri bağışlayır.

3. Dissertasiyanın adı ilə fəsillərin ardıcıllığı uyğunluq təşkil etmir. "Klassik aşıq poeziyasının üslubi-poetik sintaksisi" mövzusuna müvafiq olaraq üslubi sintaksisdən bəhs edilən hissə dissertasiyanın I fəsli olmalı idi.

Göstərilən iradlara baxmayaraq, Təranə İmamverdi qızı Hacıyevanın yazdığı "Klassik aşıq poeziyasının üslubi-poetik sintaksisi" adlanan iş səviyyəli elmi araşdırma kimi diqqəti cəlb edir və rəğbət doğurur.

24.10.2001

XALTANLI TAĞININ YARADICILIQ YOLU

XVIII əsrin sonu, XIX əsrdə yaşamış görkəmli el sənətkarı, aşıq Xaltanlı Tağı böyük ədəbi irs qoyub getmişdir. Müasirləri olan Molla Cümə, Varxiyanlı Məhəmməd, Şəmkirli Aşıq Hüseyn, Aşıq Alı, Aşıq Ələsgər kimi qüdrətli sənətkarlarla bir sırada yazıb yaratmış Xaltanlı Tağının həyatı və yaradıcılığı təəssüflər olsun ki, son illərə kimi öyrənilməmiş, xüsusən Şirvan aşıq məktəbinin inkişafında böyük əməyi olan bu ustad sənətkar tədqiqatlardan kənarda qalmışdır. Dissertant Ağalar Mirzəyev əvvəlcə Azərbaycan radiosunda, sonralarsa mətbuatda aşığın yaradıcılığından seçmələrlə oxucu və dinləyiciləri tanış etmiş, müntəzəm axtarışları, toplama işi ilə elmi məcmuələrdə məqalələr dərc etdirmişdir. Dissertantın "Xaltanlı Tağı" monoqrafiyası (Bakı, "Elm" nəşriyyatı, 1999) da ciddi elmi axtarışların nəticəsi kimi meydana çıxmış, Xaltanlı Tağının yaradıcılıq yolunun tədqiqi baxımından ilk fundamental elmi mənbə kimi diqqəti cəlb etmişdir.

"Xaltanlı Tağının yaradıcılıq yolu" dissertasiyası giriş, üç fəsildən, nəticə və ədəbiyyat siyahısından ibarətdir. A.Mirzəyev girişdə mövzunun aktuallığı, məqsəd və vəzifələri, elmi yenilikləri, nəzəri və metodoloji prinsipləri əsaslandırmış, elmi və praktik əhəmiyyətindən bəhs etmişdir.

Dissertant bu vaxta kimi az tədqiq olunmuş Şirvan aşıq məktəbinin əsas xüsusiyyətləri, yaradıcılıq incəlikləri barədə elmi qənaətlərini bölüşmüş, Xaltanlı Tağının bu mühitdə yeri, sənətə gətirdiyi yeniliklər barədə yığcam, tutarlı məlumatlar vermişdir.

Zəmanəmizin ən populyar şəxsiyyətlərindən olan Xaltanlı Tağı yaradıcılığında dini-fəlsəfi görüşlərə daha çox

yer ayırdığından bolşevik repressiyasına məruz qalmış, hətta qohumları tərəfindən külliyatı gizlədilmiş, yandırılmış, bunun nəticəsində aşığın həyatı və yaradıcılığı da uzun müddət əfsanəvi şəkildə yaşamışdır. Dissertasiyanın birinci fəslində Xaltanlı Tağının dövrü, həyatı və bu kontekstdə yaradıcılıq yolu konkret faktlar və elmi dəlillərlə öyrənilmiş, doğum, ölüm tarixləri barədə dəqiqləşdirmələr aparılmış, aşığın hərbi-siyasi fəaliyyəti kimi Dağıstan xalqlarının imamı Şeyx Şamillə görüşü və orduda xidməti ədəbi nümunələr, tarixi faktlarla izlənilmişdir.

Dissertantın son vaxtlar toplayıb çap etdirdiyi "Güllü və Tağı" avtobioqrafik dastanı da (Bakı, "Borçalı" nəşriyyatı, 2002) Xaltanlı Tağının dövrü, həyatı haqqında məlumatların dürüstləşməsinə bir daha imkan yaradır.

"Xaltanlı Tağının lirikası" adlanan ikinci fəslində dissertant lirikanın aşıq yaradıcılığında üstün mövqeyini müasirləri olan aşıqlarla müqayisəli təhlildə şərh edir, təbiət lirikasının, məhəbbət lirikasının, didaktik fəlsəfi qoşmaların əsas məziyyətləri haqda məlumat verir. Aşığın dastan yaradıcılığı, repertuarı və Şirvan ifaçılıq sənətinə ərməğan etdiyi bir çox saz havalarının əsas xüsusiyyətləri təhlilə cəlb olunur. Uzun ömür yaşamış və zəngin irs qoyub getmiş Xaltanlı Tağının təbiət lirikasında animist təsəvvürlərin izlərini sistemləşdirən A.Mirzəyev aşığın sonrakı mərhələ yaradıcılığında da təbiətlə insan paralellərini daim müvazi şəkildə öyrənməyi başlıca prinsip kimi diqqətdə saxlayır.

Didaktik fəlsəfi qoşqularda dünyanın yaranması haqqında mifik təsəvvürlərə, dörd törəniş ünsürü olan "ab-atəş, xak-bad" rəmzlərinə önəm verən Xaltanlı Tağının fəlsəfi görüşləri dissertant tərəfindən sistemə salınmış, ədəbi nümunələrin məntiqi ilə qüvvətləndirilmişdir.

Dissertasiyanın üçüncü fəslində Xaltanlı Tağı yaradıcılığının poetik xüsusiyyətləri, qoşquların dili və strukturu,

polifoniyası, nəğmə, havacat imkanları öyrənilmiş, aşığın xalq hikmətindən, atalar sözü və məsəllərdən, bədii suallardan, təşbeh, istiarə, təyinlərdən, sinonim, omonim, antonimlərdən, təkrirlərdən, təlmih və s. bədii imkanlardan yüksək sənətkarlıqla istifadəni sübuta yetirən saysız-hesabsız nümunələr gətirən dissertant zəmanəsinə bu ədəbi faktın dəyərini, orijinallığını müqayisələrlə sübut etmiş olur.

Respublikanın əməkdar incəsənət xadimi Ağalar Mirzəyev uzun illər Xaltanlı Tağının yaradıcılıq irsini toplayıb çap etdirməklə, radio və televiziya verilişlərində təbliği ilə məşğul olmuş, Azərbaycan Televiziyasında rəhbərlik etdiyi "Xalq yaradıcılığı" redaksiyasının işində aşıq yaradıcılığının öyrənilməsini müasir tələblər səviyyəsinə yüksəltmişdir.

Dissertantın tədqiqat boyu işləyib ümumiləşdirdiyi elmi qənaətlər nəticə hissəsində sistemə salınmış, XIX əsr aşıq mühitinin ümumi konturları içərisində Xaltanlı Tağının yaradıcılıq hüdudları göstərilmişdir. Kifayət qədər ədəbiyyatdan və elmi-nəzəri mənbələrdən yerli-yerində istifadə edən A.Mirzəyev mövzunu müasir tələblər səviyyəsində işləyə bilmişdir.

17.06.2002

AXISQA TÜRKLƏRİNİN DİLİ

Axısqa türklərinin çoxəsrlik, heç bir azsaylı xalqlara bənzəməyən keşməkeşli bir tarixi var. "Alınlarına qara yazı yazılan" həmin türkün taleyi sürgün və deportasiyalarla səciyyələnir. Qədim yurddan qəfil və amansızcasına qoparılmış, yalquzaq səhralara atılmış bu xalqı Stalin-Beriya irticasına dayanan milli şovinizm əzablı məhvə düçar etmişdir. Buna baxmayaraq, zəhmətsevər, müdrik xalq təhqir və əzablara sinə gərdi, sınmadı, əzilmədi, yad torpaqlara səpələnib ərimədi, öz faciəsini üzüntülü, emosional kabusdan gerçək ictimai problemə çevirdi, ruhunu və mənəvi bütövlüyünü qoruya bildi.

Bu gün Axısqa türklərinin ən böyük arzusu həmvətənlərinin bir xalq kimi öz doğma yurdlarına qayıtması, həmin xalqın dili, folkloru, etnoqrafiyası və s. haqqında kitabların nəşr olunmasıdır. Artıq bu arzular inama çevrilmiş, vaxtı ilə mənim tələbəm olmuş İsmayıl Kazımov onların dilinin, demək olar ki, bütün xüsusiyyətlərini əks etdirən doktorluq dissertasiyası yazmışdır.

İ.Kazımovun 5 fəsildə tədqiq etdiyi bu mövzu mənim diqqətimi bir neçə cəhətdən cəlb etdi:

1) xeyirxahlıq və filoloji axtarışlar baxımından;

2) deportasiyaya dəfələrlə məruz qalmış kiçik bir türk etnosunun mübahisəli tarixini, mənşəyini öyrənmək baxımından;

3) axısqalıların tarixi təşəkkülündə aborigen və gəlmə türklərin rolunu müəyyənləşdirmək baxımından;

4) etnik müxtəlifliyin mövcud olduğu bir şəraitdə müxtəlif etnosların Axısqa toponimlərində qorunub saxlanması qanunauyğunluğunun aşkar olunması baxımından;

5) dilin fonosemantik sisteminin müəyyənləşməsində, təşəkkülündə fonetik qanun və hadisələrin həlledici rolunu üzə çıxarmaq baxımından;

6) leksikanın daha çox təsərrüfatla bağlı mövqeyinin aydınlaşdırılması baxımından;

7) interferensiya hadisəsinin alınma leksikada təzahür imkanlarının öyrənilməsi baxımından;

8) gürcü substratlarının müxtəlif sistemli dillər arasında olan tarixi əlaqənin tədqiqini şərtləndirən fakt kimi öyrənilməsi baxımından;

9) regional təsirlərin, kənara çıxmaların ekstralinqvistik faktorlarının meydana çıxarılması baxımından;

10) qrammatik quruluşda özünü göstərən qədim xüsusiyyətlərin aşkar olunub aydınlaşdırılması baxımından;

11) cümlə sintaksisində nisbi sərbəstliyin varlığını qədim türk dilindən, ondakı güclü informasiyavericiliklə bağlanması baxımından və s.

Dissertant sözünü Axısqa türklərinin etnik tarixindən başlamış, onun dilinin sintaksisində qurtarmışdır. Hiss olunur ki, o, axısqalıların etnik tarixini, geocoğrafi və geosiyasi vəziyyətlərini mövcud mənbələrdən dəqiq öyrənə bilib. Türk tayfalarının Qafqaza axınını, həmin boyların indi toponimik vahidlərin tərkibində qaldığını tarixi faktlar əsasında araşdırıb. Məsələn, əsərin I fəslində basil, qur, onoqur, hun, tuba, avar, xəzər, bozal, incə, bulqar, suvar və s. etnosların Gürcüstan torpaqlarında məskunlaşmaları tarixi verilir və həmin tayfaların “Yazqur”, “Azqur”, “Qaratuban”, “Zeduban”, “Adıgün”, “Tobaxçı”, “Kortuban”, “Sxaltuba”, “Xoni kəndi”, “Xunan qalası”, “Edincə”, “İncebla”, “Aral” və s. yer adlarında qaldığını misallar əsasında göstərir.

Dessertant axısqalıların mənşəyini araşdırarkən antropoloji, dil və mədəni yaxınlıq faktorlarını doğru olaraq əsas tutub. Onların kökünün qıpçaqlar olduğunu bir sıra

mənbələrə əsasən müəyyənləşdirə bilib.

Dissertant özündən əvvəl həmin türklərin dil xüsusiyyətləri haqqında əsərlər yazmış N.Marrın, S.Cikiyanın, R.Şorun, Fəzli Əliyevin, Fəxrəddin Kırzıoğlunun, Ə.Bican Ercilasunun, Sabircan Cəlilovun əsərləri ilə ətraflı tanış olub, onlardan istifadə edib və dəyərləndirib. Həmin alimlərdən fərqli olaraq, İ.Kazımov problemə kompleks şəkildə yanaşıb, həmin türkcəni dilin bütün səviyyələrində öyrənib. Axısqa türklərinin dili üçün ən əsas xarakterik cəhətləri açıb göstərib (məsələn, *x* samitinin çoxişləkliyini, *s-ş* keçidi, intervokal mövqedə *h*-nın düşməsi, yönlük halın xüsusi forması və s.).

Dissertant əsərin "Fonetik sistem" hissəsində uzun-uzadı məsələləri şərh etməmiş, diqqəti daha çox cəlb edən, qohum dillərdən, əsasən, fərqlənən cəhətlərə aydınlıq gətirmişdir. Bu baxımdan "abruptiv-nəfəsli samitlər", "qədim səslər", "fonetik quruluşda tayfa dilinin qalıqları", "ahəng qanununun türk mənşəli sözlərdə pozulması səbəbləri", "zəif cingiltiləşmə", "labiallaşma hadisəsinin ləngliyi", "müxtəlif səs keçidi istiqamətində özünəməxsus cəhətlər", "müxtəlif səslərin yanaşma sərhəddində baş verən yerdəyişmə", "adi danışıq dilindən irəli gələn səsfərqləşməsi" və s. tədqiq olunan dilin fonosemantik sisteminin formalaşmasını şərtləndirir.

Dissertasiyanın "Leksika" bölməsi əsas lüğət fondunun müxtəlifliyi və məna zənginliyi ilə diqqəti çəkir. Dissertant məişət, etnoqrafik, maddi-mədəniyyət, terminoloji və onomastik leksikanın daxili bölgüləri əsasında xeyli leksik-terminoloji vahidin struktur və leksik-semantik inkişaf prosesi keçirdiyini aydınlaşdırıb. Həmin sahələrlə əlaqədar təhlilə cəlb edilmiş leksik vahidlərin axısqalılara daha çox məxsusluğu üzə çıxarılıb. Məsələn, havli (dəhliz), koşat (tir), alaca (palaz), sahan (kasa), ləngər (sini), tavşal (baş örtüyü), pəstil (lavaş), tırpan (dəryaz), kufə (sırğa) və s. Bu kimi

sözlərin mənşə mənzərəsi dissertasiyada geniş izahını tapa bilmişdir.

İ.Kazımovun tədqiqatı göstərir ki, Axısqa türklərinin özlərinə məxsus ay adları vardır: zəmhəri (yanvar), qücüq (fevral), girəz (iyun), oraq (iyul), xarman (avqust), böqrüm (sentyabr), şarap (oktyabr), koç (noyabr), karakış (dekabr) və s. Bu adların formalaşmasında xalqın müşahidəsi əsasdır. Maraqlıdır ki, əsərdə həmin adların qohum türk dilləri ilə oxşar və fərqli cəhətləri qeyd edilmişdir.

Əsərin "onomastik leksika" hissəsi də maraqla oxunur. Məlum olur ki, vaxtı ilə bu etnosun Gürcüstanda məqsədli siyasət nəticəsində familiyaları gürcüləşdirilib. Əslən axısqalı olan aşıq Mahmudun (Yaralaşvili), aşıq Muradın (İsparaşvili), Yetim gürcünün, aşıq İşvanın və onlarla başqa sənətkarların familiyaları zorla gürcüləşdirilib. Tədqiqatdan məlum olur ki, onlar ad əvəzinə bir-birinə ləqəblərlə müraciət edirlər. Bu ad yasağının, magig təsəvvürün nəticəsidir. Tədqiqat göstərir ki, axısqalılar yaşayan bölgələrdə 300-dən çox türk mənşəli kənd olub: Axısqa, Adıgün, Azqur, Abbastuban, Qorqul, Samqur, Kobileti, Tuğ, Bazarxana, Damğalı və s. Bu və ya digər toponimlərin tərkibində qədim tayfa adlarının izləri vardır. Tədqiqatçı toponimlərin komponentlərində bu faktları dəqiq ayırd etmiş, Axısqa etnotoponimlərini əks etdirən cədvəldə bunları vermişdir. Müəllifin nöqteyi-nəzərincə, oykonimlərin əksəriyyəti etnik müxtəlifliyin mövcud olduğu bir şəraitdə əsasən də, tayfa adları ilə əlaqədar formalaşmışdır. Qədim türk tayfalarının adının coğrafi adda – yaşayış məntəqələrinin adında inikas olunması etnonimik qanunauyğunluqla əlaqədar olub, bilavasitə etnik müxtəlifliyin mövcud olduğu bir şəraitdə toponimə, xüsusən də oykonimə çevrilmişdir. Məhz axısqalıların toponimlər sistemində coğrafi adların bir hissəsinin və qədim təbəqəsinin etnonimlərdən əmələ gəlməsi bu faktorun nəticəsi ola bilər (səh.34).

İ.Kazımov axısqalıların dilinə müəyyən dövrlərdə daxil olmuş alınma leksikanı (ərəb, fars və rus-Avropa dillərindən) qruplaşdırıb və onun interferensiya formalarını orijinalı ilə qarşılaşdırıb; regional təsirlər nəticəsində gürcü, qazax, özbək dillərindən nitq prosesində keçən leksik vahidlərin mənasını da verib. Məsələn, karaki-kərə yağı, satxi-qoyun pendiri, (gürcü dilindən); kəsmə-əriştə, toxaç-bağırsaq, taxya-araqçın (qazax dilindən) və s.

Tədqiqatın "Dədə Qorqud" və "Axısqa dil uyğunluqları", "Dilin şivələri", "Axısqalıların dilində gürcü substratları", "Gürcü dilində Axıska türklərinin dil elementləri" hissələri də yeni deyim tərzi ilə diqqəti cəlb edir.

Dissertasiyanın IV fəslində tədqiqata cəlb edilmiş dilin morfoloji, V fəslində isə sintaktik xüsusiyyətlərindən danışılır. Müəllif sözün, söz birləşmələri və cümlələrin struktur-semantik imkanlarını əldə etdiyi faktlar əsasında öyrənmiş, qrammatik quruluşda digər türk dillərindən fərqli qədim xüsusiyyətlərin olduğunu aşkar etmişdir.

Dissertasiyanın məzmunu və təhlil olunan məsələlərin aktuallığı göstərir ki, gələcək tədqiqatlar aparmaq üçün burada xeyli materiallar var və müəllifin yenidən bu mövzuya qayıdacağı ehtimalı da ola bilər. Həmin mövzuları, biz təxmini də olsa, belə müəyyənləşdirmişik: 1) Axısqa etnotoponimləri; 2) Gürcü substratları fonunda Axısqa-gürcü dil əlaqələri; 3) Anadolu bölgəsində yaşayan axısqalıların dil xüsusiyyətləri; 4) Sözlərin izahlı lüğəti və s.

Sözsüz ki, İ.Kazımov bu dissertasiya ilə kiçik bir xalqın dil xüsusiyyətlərini tam və axıra qədər öyrənə bilməmiş, həmin əsər axısqalıların dilinin elmi arenaya çıxarılması, onun fonetik, leksik və qrammatik əlamətlərinin kompleks tədqiqi baxımından dəyərlidir.

Dissertasiyada bizi razı salmayan, diqqətimizi özünə cəlb edən bir sıra qüsurlar da vardır.

1. Maraqlıdır ki, əksər qrammatik kateqoriyaların təhlilində qədim əlamətlər göstərilib. Axısqalılara məxsus manilərdən, əski sözlərdən, aşıq şeirlərindən nümunələr gətirilib. Bunlar müasir Azərbaycan dilinin faktları ilə müqayisə edilib. Lakin Azərbaycan ədəbi dili abidələri, klassik əsərlərin dili müqayisəyə, demək olar ki, az cəlb olunub. Eləcə də dodaq saitlərinin ahəngindən bəhs edərkən müqayisə olunan türk dilləri arasında müasir Azərbaycan dilinə üstünlük verilir. Digər oğuz dilləri kənarda qalır. Ümumiyyətlə, müqayisələr – qarşılaşdırmalar ən çox Azərbaycan dili ilə aparılır. Bizcə, oğuz dillərinin hər biri eyni səviyyədə tutuşdurulmalı idi. Bu zaman müxtəlif istiqamətdə olan müqayisələr maraqlı nəticələr əldə olunması üçün şərait yarada bilərdi.

2. Bizə məlum olduğuna görə Türkiyə Respublikasında axısqalıların tarixi, ədəbiyyat və dil xüsusiyyətləri ilə məşğul olan Yunus Zeyrək, Əhməd Cəfəroğlu, Turqut Günay, Turqut Acar və başqa alimlər vardır. Dissertasiyada həmin müəlliflərin əsərlərindən istifadə olunmayıb.

3. Dissertasiyanın "Əlavələr" hissəsində maraqlı folklor materialları var, ancaq nədənsə danışıq dili ilə bağlı mətnlərdən istifadə edilməyib. Yaxşı olardı ki, axısqalıların dilinin lüğəti də yaradılaydı və Azərbaycan dilində izahı, qarşılığı göstəriləydi.

4. Müəyyən səhifələrdə imla xətalarına rast gəlmək olur. Məsələn, "səsdüşümü", "fonomorfoloji" terminləri bəzi yerdə ayrı, bəzi səhifədə isə bitişik yazılıb.

5. Bütün dil səviyyələrinin təhlilində Azərbaycan ədəbi dilinin müəyyən mərhələləri ilə uyğunluq təşkil edən cəhətlər çoxdur. Dissertant isə bu etnosun qıpçaqlardan olduğunu, dilinin isə qıpçaq elementləri ilə çox yükləndiyini göstərir. Ancaq nədənsə qıpçaq qrupu, türk dilləri ilə müqayisələr aparılmayıb.

6. Fikrimizcə, indiki zamanın göstəricisi – *i y e r;* qədim

feli bağlama şəkilçisi *-ı, -i, -u, -ü;* yönlük hal şəkilçisi *-ğa, -gə* və s. şəkilçilər haqqında geniş bəhs olunsaydı yaxşı olardı.

Bu qüsurlar İ.Kazımovun dissertasiya işinin dəyərini heç də azaltmır. Dissertasiyanın avtoreferatı onun məzmununu tam əhatə edir. Tədqiqatçının "Axısqa türklərinin dili" adlı doktorluq dissertasiyası Ali Attestasiya Komissiyasının tələblərinə uyğun yazılmışdır.

3.03.2003

AZƏRBAYCAN EKRAN DRAMATURGİYASINDA MÖVZU, STRUKTUR, ÜSLUB VƏ JANR PROBLEMLƏRİ

Azərbaycan müstəqilliyini qazandıqdan sonra ictimai fikrin formalaşması prosesində ekran sənətinin rolu get-gedə artmağa başladı. Mədəniyyətimizin digər sahələri kimi ekran üçün də peşəkar kadr hazırlığı məsələsi dövlətimizin strateji məqsədlərindən birinə çevrildi. Bu sahədə kadr hazırlanmasında peşəkar mütəxəssislərin əməyindən geniş istifadə olundu. Onu da qeyd etmək lazımdır ki, mədəniyyət və incəsənətin üzvü sahəsi olan ekran üçün milli kadr hazırlığı məsələsində qarşıya çıxan ən böyük çətinlik dərs vəsaitlərinin çatışmazlığı oldu. Odur ki, ekran sənəti, xüsusən onun filoloji təminatı olan ssenari yaradıcılığına dair dərs vəsaitlərinin hazırlanması sahəsində ən məhsuldar çalışan ədəbiyyatşünas-pedaqoq Aydın Dadaşovun əməyini xüsusi olaraq qeyd etmək lazımdır.

Aydın Dadaşovun təqdim etdiyi "Azərbaycan ekran dramaturgiyasında mövzu, struktur, üslub və janr problemləri" adlı doktorluq işi müasir dövrdə ictimai fikrin formalaşmasında müstəsna əhəmiyyət daşıyan ekran sənətinin filoloji əsaslarının öyrənilməsində mühüm rol oynayır. Azərbaycan ədəbiyyatşünaslığında yeni olan ekran dramaturgiyasının məhz mövzu, struktur, üslub və janr problemləri əsəri bir əsrdən artıq yaşı olan ekran sənətimizi formalaşdırmış ssenarilərin elmi-nəzəri baxımdan öyrənilməsinə həsr olunmuşdur. Müəllif dissertasiyada əsasən sosializm dövrünə düşən ekran dramaturgiyasının təbliğat funksiyasını yerinə yetirməsini, ədəbiyyat və sənətin zorla ideologiyaya xidmət etməsini ön plana çəkir. Ekranın səssiz kino mərhələsində ssenariləşdiri-

lən əsərlərdən tutmuş səsli kino üçün yazılan orijinal ssenarilərə qədər bütün ədəbiyyat növlərində dramaturji modelin araşdırılması bu doktorluq dissertasiyasında yüksək səviyyədə həyata keçirilmişdir. Şifahi xalq ədəbiyyatı ilə yanaşı partiya qərarlarının bədii əksi olan normativ, faktlara əsaslanan sənədli bioqrafik, Axundovun realist məktəbinin formalaşdırdığı klassik və nəhayət xüsusən ədəbi prosesin zirvəsi sayılan və gələcək inkişaf mərhələləri üçün örnək ola biləcək 60-cı illər ədəbiyyatının yaratdığı milli ekran dramaturgiyamızın modelinin tədqiqi özünün elmi-nəzəri prinsipləri ilə seçilir. Dissertasiyada təhlilə cəlb olunan ssenarilərdə əsas tədqiqat istiqamətinin mövzu, struktur, üslub və janr problemləri üzrə araşdırılması əsərin sırf elmi istiqamətdə tədqiq olunmasına şərait yaratmışdır.

Dissertasiyada televiziya sənətinin mahiyyətindən doğan demokratiya və bazar iqtisadiyyatı dövründə təşəkkül tapan və inkişaf edən postmodernizmin araşdırılması ədəbiyyatşünaslığımızda yeni tədqiqat sahəsi kimi diqqəti cəlb edir. Sənət və ədəbiyyat nümunələrinin əmtəəyə çevrildiyi postmodernizmin təhlilində xüsusən klip estetikasının filoloji əsaslarının araşdırılması təqdirəlayiqdir. Reklam kliplərində də mövzu, struktur, üslub və janr elementlərinin təhlili bütövlükdə televiziya sənətinin gələcək inkişaf istiqamətini sənətkarlığa doğru yönəltməyə xidmət edir.

15.03.2004

TƏHSİL,
DÜŞÜNCƏLƏR,
MÜLAHİZƏLƏR

YETMİŞ YAŞLI, TƏZƏ ADLI TƏHSİL OCAĞI

Azərbaycan Dövlət Pedaqoji Universitetinin 70 yaşı tamam olur. Respublikanın qədim təhsil ocaqlarından biri olan ADPU yarandığı gündən minlərlə ali təhsilli müəllim yetişdirmişdir. Müxbirimiz Aslan Kəmərli ADPU-nun birinci prorektoru, filologiya elmləri doktoru, professor Nizami Xudiyevlə görüşmüş və ondan müsahibə almışdır.

– Söhbətə Azərbaycan Dövlət Pedaqoji Universitetinin yaranması tarixi və fəaliyyət yolu barədə məlumatla başlamaq pis olmazdı…

– Təəccüblü görünsə də, faktdır: respublikamızda ali pedaqoji təhsil ocağını yaratmaq haqqında məsələ Azərbaycan Demokratik Respublikasının parlament iclaslarından birində qoyulmuşdur. Bu da təsadüfi deyil: zaman etibarı ilə fəaliyyət göstərdiyi az bir müddətdə Azərbaycan parlamentinin müzakirəsinə verilən 315 qanun layihəsindən 19-u xalq maarifi nazirliyi tərəfindən təqdim edilmişdir. Bu da onu göstərir ki, ADR-in parlamenti respublikamızda təhsilin inkişafına, milli elmi kadrların yetişdirilməsinə xüsusi fikir verirdi. Onu da deyim ki, parlament respublikada orta və ali təhsilin geniş şəbəkəsini yaratmaq, çar imperiyasından miras qalmış cəhalət və savadsızlığın ləğvi, əhalinin sosial-iqtisadi və mənəvi yüksəlişi haqqında geniş qərarlar qəbul etmişdi. Lakin Demokratik Respublikaya ancaq Bakı universitetini təşkil etmək nəsib oldu. XI ordunun işğalçı yürüşü nəticəsində Azərbaycan Demokratik Respublikası tarixi səhnədən getdi və onun qəbul etdiyi qərarlar da həyata keçmədən arxivlərin əlçatmaz,

ünyetməz küncünə atıldı.

Demokratik Respublikanın süqutundan 15 ay sonra Bakıda Azərbaycan Pedaqoji İnstitutunun yaradılması haqqında dekret verildi. Beləliklə, respublikamızda Azərbaycan dilində ali təhsilli müəllimlər yetişdirən ilk pedaqoji təhsil və elm ocağının bünövrəsi qoyuldu. Bu, xalqın mənəvi və elmi inkişafında, milli kadrlar yetişdirilməsi işində böyük hadisə idi.

Pedaqoji institut yarandığı gündən ciddi çətinliklərlə üzləşdi. İnstitutun maddi-texniki bazası yox idi, milli müəllimlər hazırlayan elmi-pedaqoji kadrlar çatışmırdı, doğma dilimizdə tədris proqramları, dərsliklər, dərs vəsaitləri hələ yaradılmamışdı. Bütün bu çətinliklər Pedaqoji institutun ilk rektoru Fətəlibəy Rzabəylinin, müəllimləri Abdulla Şaiq Talıbzadə, Həbibbəy Mahmudbəyov, Məmməd Əfəndiyev, Sadıq Hüseynov, Həmid Şahtaxtinski, Bəkir Çobanzadə və başqalarının fədakar əməyi, tükənməyən enerjisi hesabına aradan qaldırıldı. Bu şəxsiyyətləri xalqımızın önündə çıraq yandıranlar, ömrünü-gününü xalqın maariflənməsi yolunda girov qoyanlar adlandırmaq olar.

1924-cü ildə Pedaqoji institut özünün ilk yetirmələrini – tarix-ədəbiyyat, təbiət-coğrafiya və fizika-riyaziyyat üzrə 29 müəllimi respublikanın ümumtəhsil məktəblərinə göndərdi. İnstitutun ilk buraxılışı münasibətilə SSRİ Mərkəzi İcraiyyə Komitəsinin sədrlərindən biri olan N.Nərimanov Moskvadan göndərdiyi məktubda yazırdı: “Əziz yoldaşlar! Təzə həyata qədəmlərinizi təbrik edirəm. Vəzifəniz nə qədər çətin və məsuliyyətli vəzifədirsə də bunu da düşünməlisiniz: insanın ruhunu ucaldan bir çox şey vardırsa, onun ən birincisi zəhmətdir”.

İnstitutun ilk yetirmələri ağacın ilk barına bənzəyirdi. Onu yetişdirən bağban necə sevinirsə, bu gənclərə təhsil verən müəllimlər də elə sevinirdilər.

Pedaqoji institutun kollektivi respublikamızın ümumtəhsil

məktəbləri üçün ali təhsilli müəllimlər yetişdirməklə bərabər, Azərbaycanın ictimai-siyasi həyatında yaxından iştirak edir, Bakıda və onun ətraf kəndlərində savadsızlığın ləğvi məqsədilə təşkil edilmiş kurslarda çalışır, gələcək elmi-pedaqoji kadrların hazırlanması üçün zəmin yaratmağa böyük əmək sərf edirdi. Bu işdə onlara görkəmli rus alimlərindən V.Razumovski, A.Makovelski, P.Fredolin, B.Komarovski, Y.Lopuxin, V.Tixomirov, A.Qrossgeym, İ.Meşşaninov və bir çox başqaları kömək edirdilər. Onların nəcib əməyi, xeyirxah köməyi və yaradıcı axtarışları universitetimizin kollektivi tərəfindən bu gün də minnətdarlıqla yad edilir.

Pedaqoji institut sakit həyat keçirməmişdir. Təmsil etdiyi xalq kimi o da tez-tez təzyiqlərə və repressiyalara məruz qalmışdır. Belə ki, Azərbaycanda elmə, mədəniyyətə, təhsilə xalqın böyük marağını hiss edən müxtəlif qüvvələr iki dəfə institutun bu və ya digər ad altında bağlanmasına nail olmuşlar. Görünür, Azərbaycan xalqının maariflənməsi, milli kadrların yetişdirilməsi, respublikamızın çar Rusiyasının saxladığı vəziyyətdən çıxmaq istəməsi bir çoxlarının ürəyincə deyildi.

Pedaqoji institut Respublika Xalq Komissarları Sovetinin 16 iyul 1926-cı il tarixli qərarı ilə öz fəaliyyətini dayandırdı və V.İ.Lenin adına Azərbaycan Dövlət Universitetinin nəzdində pedaqoji fakültəyə çevrildi. Lakin bu, uzun sürmədi. Cəmi dörd il sonra – 1930-cu ildə Pedaqoji institut yenidən müstəqil fəaliyyətə başladı. Həmin vaxt institutda milli kadrların gənc nəsli yetişdirildi. Onlardan M.Rəfili, M.Dadaşzadə, Ə.Sultanlı, M.Yerevanski, M.Hüseyn, A.Qarayev, M.Mövsümzadə və başqaları tələbə auditoriyalarına milli coşğunluq, həvəs və yorulmaq bilməyən axtarışlar gətirirdilər. Belə bir fakt diqqəti cəlb etməyə bilməz ki, artıq 1932-ci ildə institutda çalışan 17 professordan 7-si, 46 dosentdən 38-i azərbaycanlı idi.

– Bəs institutun auditoriyalarında təhsil alan gənclər necə? Onlar da azərbaycanlı gənclər idi, yoxsa bura da

“beynəlmiləl” institut sayılırdı?

– Təəssüflə olsa da, deməliyəm ki, Azərbaycan Pedaqoji İnstitutu yarandığı gündən “beynəlmiləl tərbiyə ocağı” adı kimi məşhur olmuş, əslində isə bu gün respublikamıza, ərazimizə, torpağımıza, bir sözlə, bütün türk dünyasına yağı kəsilmiş ermənilərə kadr, özünə isə düşmən yetişdirmişdir. Təkcə belə bir faktı qeyd etmək kifayətdir ki, uzun illər bu “beynəlmiləl” institutda tələbələrin tən yarısını erməni və rus bölmələrində oxuyanlar təşkil etmişdir. Məsələn, 1937-1938-ci dərs ilində birinci kursa qəbul olunan 560 nəfərdən yalnız 286 nəfəri azərbaycanlı idi. 1939-cu ildə isə institutda təhsil alan 1898 tələbədən ancaq 851 nəfəri Azərbaycan bölməsində oxuyurdu.

Bunlar adi faktlar deyil, bu rəqəmlərin arxasında uzun illər Azərbaycan dilində tədrisin sıxışdırılması, ən qeyrətli, vətənpərvər müəllim və tələbələrin təlim-tərbiyə prosesindən süni yollarla uzaqlaşdırılması və ya repressiyaya məruz qalması gizlənmişdir.

Böyük Vətən müharibəsinin başlanması respublikanın digər ali məktəbləri kimi APİ-nin də qaynar həyatına su tökdü. İnstitutun məzunları ilə bərabər, professor-müəllim heyəti və tələbə kollektivinin böyük bir dəstəsi cəbhəyə göndərildi. Auditoriyalar boşaldı. Buna görə APİ yenidən öz fəaliyyətini dayandırdı və ADU-ya birləşdirildi. Müharibənin gedişində əsaslı dönüş yaradıldıqdan sonra, 1943-cü il oktyabrın 1-də APİ yenidən fəaliyyətə başladı. Onun məzun və tələbələrindən əfsanəvi partizan Mehdi Hüseynzadə, Fariz Səfərov və Səlahəddin Kazımov müharibədə göstərdikləri igidliyə görə Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldülər.

APİ yarandığı gündən ümumtəhsil məktəblərinin yüksək ixtisaslı müəllimə olan ehtiyacını ləyaqətlə ödəməklə bərabər, elmimizin, ədəbiyyatımızın və mədəniyyətimizin inkişafına sanballı töhfə vermişdir. Şeirimizin və nəsrimizin bir çox görkəmli nümayəndələri, o cümlədən Mehdi Hüseyn,

Süleyman Rəhimov, Mirvarid Dilbazi, Mikayıl Müşfiq, Osman Sarıvəlli, Əhməd Cəmil, İsmayıl Şıxlı, Sabit Rəhman, Zeynal Xəlil, Qabil, Mədinə Gülgün, Əyyub Abbasov, Tofiq Bayram və bir çox başqaları ilk qələm təcrübələrini burada yazmışlar. Azərbaycan şeirinin bayraqdarı Səməd Vurğun Pedaqoji İnstitutun ilk aspirantlarından biri olmuşdur.

Müasir Azərbaycan elminin və mədəniyyətinin görkəmli simalarından Y.Məmmədəliyev, H.Abdullayev, F.Qasımzadə, M.A.Dadaşzadə, Z.Xəlilov, A.Qarayev, A.Şirəliyev, M.C.Cəfərov, A.Qurbanov və bir çox başqaları APİ-nin tələbələri olmuş və ya onun aspiranturasında oxumuşlar. Azərbaycanda yeni ali pedaqoji və elmi tədqiqat institutlarının yaradılmasında da APİ aparıcı rol oynamışdır. Belə ki, Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutu, Xarici Dillər İnstitutu, Bədən Tərbiyəsi İnstitutu, Gəncə Pedaqoji İnstitutu, Naxçıvan Dövlət Universiteti APİ-nin müvafiq fakültələri və filialları əsasında yaradılmışdır. Hazırda Şuşada və Şamaxıda Pedaqoji Universitetin filialları fəaliyyət göstərir.

Azərbaycan elminin bir çox sahələri və onların tədrisi metodikası, o cümlədən Azərbaycan pedaqogikası, Azərbaycan filologiyası və demək olar ki, ali məktəblərdə tədris olunan bütün fənlərin metodikasının təşəkkülü və inkişafı bizim universitetin adı ilə bağlıdır.

ADPU özünün tarixi varlığı ərzində təkcə respublikamız üçün deyil, habelə qonşu respublikalar, Orta Asiya respublikaları, Dağıstan və Bolqarıstan üçün də yüksək ixtisaslı müəllim kadrları yetişdirmişdir. Bu gün ölkənin elə bir regionu yoxdur ki, orada məzunlarımız olmasın.

70-80-ci illər ADPU-nun tarixində xüsusi yer tutur. Məhz həmin dövrdə burada bir sıra yeni ixtisaslar, kafedralar açılmış, tədrisin maddi-texniki bazası əsaslı surətdə möhkəmləndirilmişdir.

– 70 yaşı tamam olan ali təhsil ocağının bugünkü

vəziyyəti barədə də məlumat verməyinizi xahiş edirəm.

– Dünyada, ölkədə və respublikamızda gedən siyasi, sosial inkişaf dəyişiklikləri pedaqoji kollektivlər qarşısında ciddi vəzifə qoymuşdur: xalqın daha yüksək maarifləndirilməsi üçün əməli iş görmək. Bu gün xalq təhsili sisteminin təkmilləşdirilməsi, totalitar rejimin müəyyən etdiyi "çərçivə təhsil" formasından qətiyyətlə uzaqlaşmaq, milli təhsil konsepsiyası yaratmaq, kadr hazırlığının artırılması ilə bərabər fundamental və tətbiqi elmlər sahəsində ciddi tədqiqatlar aparılması xüsusi əhəmiyyət kəsb edir. Buna görə də respublika üçün yüksək ixtisaslı müəllim kadrları hazırlamaq sahəsində zəngin təcrübəsini, elmi-pedaqoji imkanını, maddi-texniki bazasını, aparılan fundamental elmi-tədqiqat işlərinin əhəmiyyətini nəzərə alaraq, Azərbaycan Nazirlər Kabinetinin qərarı ilə 1991-ci ildə APİ universitetə çevrilmişdir. Varlığının 70-ci ilində APİ özünün ikinci ömrünə Azərbaycan Dövlət Pedaqoji Universiteti kimi qədəm qoyub.

Bu gün onun auditoriyalarında 8270 tələbə elmlərin əsasına yiyələnir. Onların təlim-tərbiyəsi ilə 774 professor-müəllim, o cümlədən 61 elmlər doktoru, professor, 410 elmlər namizədi, dosent məşğuldur.

Pedaqoji universitetdə 24 fakültə yüksək ixtisaslı müəllim yetişdirir. Burada iki müdafiə şurası fəaliyyət göstərir. Onun beynəlxalq əlaqələri ildən-ilə genişlənir. Türkiyə və İranın bir sıra ali məktəbləri ilə işgüzar əlaqə yaratmışıq.

Sözümüzün sonunda oxuculara bir şad xəbər də vermək istəyirəm: bu günlərdə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinə xalqımızın dahi oğlu Nəsrəddin Tusinin adı verilmişdir. Bu, bizi daha yaxşı işləməyə səsləyir.

"Həyat" qəzeti,
7 dekabr 1991-ci il

DÜNƏN, BU GÜN, SABAH VƏ HƏMİŞƏ

Azərbaycan Dövlət Pedaqoji Universitetinin 70 illik yubileyi onun professor-müəllim heyətinin, tələbə kollektivinin ikiqat sevinci və bayramıdır. Belə ki, Azərbaycan Respublikası Nazirlər Kabineti 26 noyabr 1991-ci il tarixli 392 nömrəli qərarı ilə Pedaqoji Universitetə XIII əsrin ən böyük dühası, məşhur riyaziyyatçı, astronom, dilçi, filosof, şair, pedaqoq, dövlət xadimi Nəsirəddin Tusinin adı verilmişdir.

Respublikamızın ilk pedaqoji təhsil və elm ocağına qəbrinin üstündə "Elmin köməkçisi, elm ölkəsinin şahı, dövr anası belə oğul hələ doğmamışdır" sözləri həkk olunmuş N. Tusinin adının verilməsi xalqımızın özəlləşməsi, öz kökünə qayıtması olmaqla onun ən böyük arzularından birinin həyata keçməsi deməkdir.

Pedaqoji institut birdən-birə yaranmamışdır. O, özündən bir qədər əvvəl, 1920-ci ilin payızında respublikanın ümumtəhsil məktəblərini müəllim kadrlarla təmin etmək məqsədilə Bakıda, Gəncədə, Şuşada, Qazaxda və Nuxada açılmış müəllimlər seminariyası, habelə 1921-ci il yanvarın 17-də Bakıda yaradılmış birillik ali pedaqoji kurs əsasında formalaşmışdır.

Pedaqoji institutun təşəkkülündə və inkişafında onun ilk direktoru, görkəmli alim-müəllim, Odessa Universitetinin təbiət-biologiya fakültəsinin məzunu Fətulla Rzabəylinin, məşhur maarif xadimi, institutun ilk direktor müavini, sonradan direktoru olmuş Həbib Mahmudbəyovun, Peterburq Universitetinin məzunu Rəhim Cəfərovun xidmətləri əvəzsizdir. 1920-ci ilin sonunda Pedaqoji institutu təşkil etmək məqsədilə yaradılmış dövlət komissiyasının tərkibinə məhz bu üç nəfər daxil edilmişdir.

14 tələbə və 6 müəllimlə fəaliyyətə başlayan Pedaqoji institutun 70 illik yubileyi ərəfəsində onun ilk müəllimlərinin hamısının adını çəkməmək mümkün deyil. Bunlar yuxarıda adları qeyd olunan 3 nəfərdən başqa görkəmli yazıçı, institutun ilk Azərbaycan dili və ədəbiyyatı müəllimi, Azərbaycan ədəbiyyatı və dili üzrə ilk tədris vəsaitinin müəllifi Abdulla Şaiq, Peterburq Universitetinin məzunu, fizika-riyaziyyat müəllimi, sonralar burada direktor, kafedra müdiri, dekan vəzifələrində çalışmış əməkdar elm xadimi, professor Məmmədbəy Əfəndiyev, Almaniyanın Darmştat Ali Texniki Məktəbinin məzunu, kimya müəllimi, dekan, kafedra müdiri vəzifələrində işləmiş əməkdar elm xadimi, professor Sadıq Hüseynovdur.

İnstitutun yaradılması ilə bağlı diqqəti cəlb edən bir sənəd haqqında da danışmaq maraqlıdır. Çünki uzun illər yad təzyiqə, yad təsirə məruz qaldığımız üçün çox zaman həqiqəti deməmişik, ona müxtəlif bəzək-düzək vuraraq həqiqəti xalqa başqa tərzdə, başqa donda çatdırmışıq. Bu, məncə nə tarixin, nə zamanın, nə də ayrı-ayrı adamların səhvi deyil, "beynəlmiləlçi" imperiyanın şovinist siyasətinin ən böyük günahlarından biridir.

Həmin sənəd Azərbaycan Xalq Maarif Komissarlığı kollegiyasının təsdiq etdiyi Nizamnamədir. Nizamnamədə Ali Pedaqoji İnstitutun strukturu, onun məqsəd və vəzifələri müəyyənləşdirilmişdir. Orada göstərilir ki, ali məktəbi yaratmaqda məqsəd orta məktəbləri Azərbaycan dilində ixtisaslı müəllimlərlə təmin etməkdir.

Lakin uzun illər APİ öz əsas vəzifəsi ilə bərabər "beynəlmiləlçi təhsil ocağı" adı altında əslində SSRİ-nin rus və erməni məktəbləri üçün müəllim kadrları yetişdirən mərkəz olmuşdur. Həm də rus və erməni bölmələrində təhsil alan tələbələr azərbaycanlılara nisbətən çoxluq təşkil edirdilər. Məsələn, 1939-cu ildə burada oxuyan 1898 tələbədən ancaq 851-i azərbaycanlı idi. Bir qayda olaraq qeyri-azərbaycanlılar

əsasən şəhər və rayon mərkəzlərindəki məktəblərdə saxlanılır, ən yaxşı məktəblərə göndərilirdi. Nəticədə Azərbaycan dili, Azərbaycan tarixi kimi fənlərin qeyri-Azərbaycan məktəblərində tədrisinə maneçilik törədilir, şəhər yerlərində Azərbaycan dilində ümumtəhsil məktəbləri sıxışdırılır, bəzən bağlanılır, yerində isə rus dilində orta məktəblər açılırdı.

Bundan başqa, elmi-pedaqoji kadrların yetişdirilməsi sahəsində azərbaycanlılar qarşısında çox ciddi çətinliklər yaradılırdı. Belə ki, məqsədli aspiranturalara əsasən qeyri-azərbaycanlılar göndərilirdi. Beləliklə də, Azərbaycan üçün nəzərdə tutulan yer süni surətdə itirilir, əvəzində Azərbaycanın hesabına erməni kadrları göbələk kimi çoxalırdı.

Ali pedaqoji təhsil və elm ocağı ömrünün səkkizinci on illiyinə qədəm qoyur. Hər on illik onun inkişafında xüsusi mərhələ təşkil edir. Bu mərhələlər xalqımızın maariflənməsi, onun elmi və mədəniyyəti ilə sıx bağlı olub, əslində ümumxalq inkişafının tərkib hissəsidir. Çünki respublikanın xalq maarifi, elm və təhsil sahəsində elə bir müəssisə olmaz ki, orada Pedaqoji Universitetin yetirmələri çalışmasınlar.

Bu mərhələləri şərti olaraq üç dövrə bölmək mümkündür. 1920-1940, 1940-1970, 1970-1990.

Birinci dövr onun təşəkkül və inkişaf mərhələsidir. 1924-cü ildə Pedaqoji İnstitut ilk məzunlarını – tarix-ədəbiyyat, təbiət-coğrafiya və fizika-riyaziyyat ixtisasları üçün 29 nəfər gənc müəllimi ümumtəhsil məktəblərinə göndərir. Həmin hadisə respublikada milli təhsil bayramı kimi qeyd edilir. Bu münasibətlə SSRİ İcraiyyə Komitəsinin sədrlərindən biri olan N.Nərimanov Moskvadan Sovet Azərbaycanının ilk ali təhsilli müəllimlərinə təbrik məktubu göndərmişdi. Həmin məktubda diqqəti cəlb edən cəhətlərdən biri N.Nərimanovun Azərbaycanın gələcəyi haqqında arzuları idi. O yazırdı ki, Azərbaycan Şərq üçün bir məktəbdir, biz ona (Şərqə – *N.X.)* hər cəhətdən müəllim olacağıq.

Çox təəssüf ki, N.Nərimanovun bir çox arzuları kimi, həmin arzusu da həyata keçmədi. Totalitar rejimin qəddarlığı, milli siyasətdə yol verilən ciddi səhvlər, xalqımıza vurulan fiziki və mənəvi repressiyalar, dini ayrıseçkilik bizi nəinki Şərq üçün müəllim, heç şagird səviyyəsinə qalxmağa qoymadı. "SSRİ xalqlarının vahid qardaşlıq ailəsinin" bütün üzvləri kimi biz də indi Şərqə əl açır, iqtisadi-sosial bədbəxtlikdən yaxa qurtarmaq üçün ondan kömək istəyirik.

Pedaqoji institut ali təhsilli müəllimlər hazırlamaqla respublikanın ictimai həyatında yaxından iştirak edirdi. Onun professor-müəllim və tələbə kollektivi Azərbaycanda savadsızlığın ləğvi məqsədilə təşkil edilmiş qısa müddətli kurslarda əsl vətənpərvərlik nümunəsi göstərir, əhalinin maariflənməsi naminə qüvvə və yaradıcı axtarışlarını əsirgəmirdilər.

Qaynar tələbə həyatı isə davam edirdi. İlk üç buraxılışda 111 nəfər ali təhsilli müəllim gənc nəslin təlim-tərbiyəsi işinə cəlb edilmişdi.

20-ci illərdə APİ-nin həyatında olan ən mühüm yeniliklərdən biri də azərbaycanlı qızların pedaqoji təhsilə axını idi. İlk azərbaycanlı qadın müəllimlər 1924-cü ildə institutu bitirib diplom aldılar. Onların sayı 17 nəfər idi. Ümumiyyətlə, 20-ci illərdə azərbaycanlı qızların Pedaqoji instituta axını ildən-ilə artırdı. Təkcə belə bir faktı qeyd etmək kifayətdir ki, 1925-26-cı tədris ilində burada təhsil alan qızların sayı 137-yə çatmışdı. Belə bir fakt da diqqəti cəlb edir ki, həmin illərdə APİ-də qonşu respublikalarla bərabər Türkmənistan, Dağıstan, Özbəkistan və Krımın da gənc nümayəndələri müəllimlik sənətinə yiyələnirdilər.

Dördüncü buraxılışdan bir qədər sonra, 1927-ci ildə APİ öz fəaliyyətini dayandırdı və V.İ.Lenin adına ADU-nun nəzdində pedaqoji fakültəyə çevrildi. Lakin respublikada ümumtəhsil məktəblərinin genişlənməsi və müəllim kadrlarına

artan ehtiyacı ödəmək üçün 1930-31-ci tədris ilində Pedaqoji institut yenidən müstəqil fəaliyyətə başladı. Məhz həmin on illik institutun tarixində xüsusilə fərqlənir. 1924-1937-ci illərdə APİ respublikanın xalq təhsili sisteminə 1029 nəfər ali təhsilli müəllim vermişdir. Məhz həmin dövrün məzunları respublikamızda xalq maarifinin inkişafında əllərindən gələni əsirgəməmiş, Azərbaycanın elm, mədəniyyət və pedaqoji fikir tarixinin ən nüfuzlu simalarına çevrilmişdir. SSRİ EA-nın müxbir üzvü, respublika EA-nın prezidenti Y.Məmmədəliyev, SSRİ Pedaqoji Elmlər Akademiyasının həqiqi üzvü M.Mehdizadə, Azərbaycan EA-nın akademikləri A.Qarayev, M.Şirəliyev, H.Hüseynov, H.Araslı, F.Qasımzadə, M.Cəfərov, respublika EA-nın müxbir üzvü Ə.Dəmirçizadə, professorlar M.Muradxanov, A.Verdizadə, A.Abdullayev, M.Quluzadə, Ə.Qarabağlı, S.Cəfərov, Z.Tağızadə və bir çox başqaları məhz həmin illərdə APİ-ni bitirmiş, onun aspiranturasında ilk elmi axtarışlarını aparmış, ali təhsilli müəllim kadrların və elmi-pedaqoji kadrların yetişdirilməsində misilsiz əmək sərf etmişlər.

Azərbaycan sovet elminin bir çox sahələri, müxtəlif fənlərin tədrisi metodikası da həmin dövrlərdə bu adamların təşəbbüsü ilə başlamışdır.

APİ təkcə müəllimlər yetişdirməmişdir. Azərbaycan ədəbiyyatının bir çox nəhəng simaları ilk qələm təcrübələrini bu qocaman təhsil ocağının auditoriyalarında yazmışlar. Şeirimizin iftixarı S.Vurğun, M.Müşfiq, M.Rahim, Ə.Cəmil, O.Sarıvəlli, M.Nəzərli, S.Rəhimov, Əbülhəsən, S.Rəhman, Məmməd Araz və başqalarının adları APİ-nin çoxsaylı məzunları arasında böyük hörmət və iftixarla çəkilir.

Böyük Vətən müharibəsi respublikamızın digər əmək kollektivləri kimi APİ-ni də çətin imtahana çəkdi. Professor-müəllim heyətinin və tələbə kollektivinin böyük bir dəstəsi ön cəbhəyə səfərbər edildi. Pedaqoji institut müvəqqəti olaraq öz fəaliyyətini dayandırdı və Azərbaycan Dövlət Universiteti ilə

birləşdirildi. İnstitutun məzunları və tələbələri cəbhədə əsl qəhrəmanlıq nümunələri göstərirdilər. Onların bir çoxu ölkənin ən yüksək mükafatlarına layiq görüldülər.

1943-cü il oktyabrın 1-də Pedaqoji institut yenidən fəaliyyətə başladı, onun auditoriyalarında həyat canlandı.

Bütün tarixi varlığı ərzində APİ respublikanın ümumtəhsil məktəblərinin müəllimə olan ehtiyacını ödəyən nəhəng təhsil ocağı kimi şərəfli bir ad qazanmışdır. Belə bir fakt diqqəti cəlb edir: institut özünün birinci 25 ili ərzində respublikaya 7 mindən artıq müəllim vermişdir. Və yaxud, 1946-cı ildə Azərbaycanın 454 məktəbində dərs deyən müəllimlərin 80 faizi bu institutun məzunu olmuşdur.

Azərbaycanda bir çox ali məktəblərin və elmi-tədqiqat institutlarının yaradılması APİ-nin adı və fəaliyyəti ilə sıx bağlıdır. Belə ki, Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Universiteti, H.Zərdabi adına Gəncə Pedaqoji İnstitutu, Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutu, M.F.Axundov adına Azərbaycan Dövlət Pedaqoji Rus dili və Ədəbiyyat İnstitutu, Azərbaycan Xarici Dillər İnstitutu APİ-nin müvafiq fakültələri və filialları əsasında yaradılmışdır. Hazırda onun Şuşada və Şamaxıda filialları fəaliyyət göstərir.

Pedaqoji təhsil və elm mərkəzinin tarixi xalqın, respublikanın tarixi ilə sıx bağlıdır desək, məncə səhv etmərik. Çünki respublikada gedən siyasi, sosial-iqtisadi dəyişikliklər xalq maarifi sistemi üçün kadr hazırlığına da təsir edir, onun məzmun və formasında müəyyən dəyişikliklər etməsini zərurətə çevirir. Ölkədə və respublikada gedən siyasi proseslər, cəmiyyətin yeniləşməsi, xalqların müstəqilliyə doğru artan istəkləri, milli özünü dərketmə meyilləri pedaqoji kollektivlər qarşısında da bir sıra yeni problemlər qoymuşdur. İndi təhsilin mərkəzdən idarə edilməsi, köhnə, standart formada işləmək cəmiyyətin bugünkü inkişafı ilə ayaqlaşmır. Həm də bugünkü tələbə sabahkı kadrdır. Ona görə də kadr hazırlığında qabaqcıl

ölkələrin təcrübəsinə əsaslanaraq milli təhsil sistemi yaratmaq, tədris proqramlarını daha çox milliləşdirmək, fasiləsiz təhsil sisteminə keçmək, respublikanın bu günü və sabahı üçün mühüm əhəmiyyət kəsb edən əsaslı elmi-tədqiqatlar aparmaq hər bir ali məktəbin ən başlıca vəzifəsi olmalıdır. Bütün bunları nəzərə alaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə 1991-ci ildə Azərbaycan Pedaqoji İnstitutuna universitet statusu verilmişdir. Burada əlbəttə, İnstitutumuzun zəngin təcrübəsi, elmi-pedaqoji potensialı, maddi-texniki bazası və başqa amillər də əsas götürülmüşdür. Pedaqoji institutun universitetə çevrilməsi hansı üstünlüklərə malik olmaq deməkdir?

Bu suala qısaca belə cavab vermək olardı: əvvəla, universitet statusu belə imkan verir ki, öz xərcini ödəmə prinsipi ilə işləyən bazar iqtisadiyyatına keçidlə əlaqədar müəllim, elmi-pedaqoji kadr hazırlığının həcmini və strukturunu dəqiq müəyyənləşdirən, xalq təsərrüfatı üçün lazım olan bu və ya digər məhsullar istehsal edən kiçik müəssisələr yaradaq. Bütün bunlar nə qədər çətin və mürəkkəb olsa da həyat bizi onları yerinə yetirməyə məcbur edir. Bu sahədə artıq ilk addımlar atılmış, ilk təşəbbüslər göstərilmişdir. Fərəhli haldır ki, bu addımlar və təşəbbüslər ictimaiyyət tərəfindən müsbət qiymətləndirilmişdir. Bunlardan biri haqqında bir qədər ətraflı danışmağa dəyər. Bu, yeni yaradılmış ali humanitar kollecdir.

Ali humanitar kollec respublikamızda ikipilləli təhsil sisteminə keçid dövründə Avropa ali məktəblərinin qabaqcıl təcrübəsi əsasında yaradılmış ilk təşəbbüsdür.

Kollecin təşkil edilməsində əsas məqsəd bazar iqtisadiyyatına keçid şəraitində respublikamızın sosial, iqtisadi, milli-mədəni problemlərinə dərindən bələd olan kadrlar hazırlamaqdır. Ayrı-ayrı ixtisas və fakültələrə bölünmədən həm sosial-iqtisadi, həm də siyasi-hüquqi biliklərə yiyələnmək kollecin məzunlarına idarəetmə sahəsində işləmək imkanı

verəcəkdir. Yeni tipli idarəetmə kadrlarına ehtiyac isə respublikamızda çox böyükdür.

Azərbaycan Respublikası Xalq Təhsili Nazirliyi kollecə həqiqətən istedadlı abituriyentlərin cəlb olunmasına, onların müasir tələblər səviyyəsində tədris auditoriyaları və yataqxana ilə təmin edilməsinə xüsusi diqqət vermişdir. Təşkilati məsələlərin həllində Azərbaycan Dövlət Pedaqoji Universiteti və Bakı Sosial İdarəetmə və Politologiya İnstitutu kollecin təsisçiləri kimi böyük kömək göstərmiş və bununla da respublikamızda təhsil sisteminin müasir tələblər səviyyəsində yenidən qurulmasında yaxından iştirak etmişlər.

Kollecin qarşıya qoyduğu vəzifələr böyükdür. Dünya standartı səviyyəsində kadrlar hazırlamaq və bu məqsədlə həm respublikanın, həm də xarici ölkələrin görkəmli mütəxəssislərini tədris işinə cəlb etmək böyük qüvvə və bacarıq tələb edir. Kollecdə atılan ilk addımlar göstərir ki, onun kollektivi üzərinə götürdüyü bu ağır işin öhdəsindən gələcəkdir. Belə ki, abituriyentlərin həm müsahibə, həm də imtahan yolu ilə seçilməsində ictimaiyyətin yaxşı tanıdığı, etibar etdiyi nüfuzlu şəxslər, tanınmış professorlar iştirak ediblər! Özü də bu işdə təkcə Azərbaycan Dövlət Pedaqoji Universiteti və Politologiya İnstitutunun deyil, həm də Elmlər Akademiyasının, Bakı Dövlət Universitetinin və digər ali məktəblərin görkəmli mütəxəssisləri, ictimaiyyətin nümayəndələri birgə fəaliyyət göstəriblər.

Kollec ilk günlərdən xarici ölkələrin ali məktəbləri ilə əməkdaşlığa başlamışdır. Türkiyənin iki universiteti ilə tələbə mübadiləsi haqqında razılaşma əldə edilmişdir. ABŞ-ın, Banqladeşin təhsil sahəsində vasitəçilik assosiasiyaları ilə yaradılan əlaqələr də ümidvericidir. İran İslam Respublikası və Şərqşünaslıq İnstitutunun köməyi ilə kollecin nəzdində ikiillik ərəb-fars təmayüllü lisey və birgə "Şərq" jurnalı açmaq təşəbbüsləri də diqqətəlayiqdir.

Görkəmli mütəxəssislərdən professorlar Mirəli Seyidov, Yaşar Qarayev, Əbdül Əlizadə, Camal Mustafayev, Cəmil Əhmədli, Zümrüd Quluzadə və başqalarının adları tarixə kollecin ilk müəllimləri kimi düşəcəkdir.

Azərbaycan Dövlət Pedaqoji Universiteti bu gün də respublikanın ən böyük təhsil və elm mərkəzi olaraq qalır. Onun əyani, qiyabi və axşam şöbələrində 8720 tələbə təhsil alır. 774 nəfər professor-müəllim, o cümlədən 61 elmlər doktoru, professor, 410 elmlər namizədi, dosent yüksək ixtisaslı müəllim kadrların yetişdirilməsində fəal iştirak etməklə bərabər, maraqlı elmi-tədqiqat işi də aparırlar.

Respublikada sosial-iqtisadi çətinliklərə baxmayaraq, son illərdə Pedaqoji universitetin maddi-texniki bazasının möhkəmlənməsinə, tədrisin sənayeləşdirilməsinə, elmi-tədqiqat laboratoriyalarının müasirləşdirilməsinə, elmi-texniki yeniliklərin tədris auditoriyalarına gətirilməsinə diqqət xeyli artmışdır. Təkcə son üç ildə bu məqsədlər üçün 1974111 manat dəyərində kompüter texnikası və müasir laboratoriya cihazları alınıb tələbələrin və elmi-pedaqoji kollektivin istifadəsinə verilmişdir. Şuşa filialına 656000 manatlıq kompüter texnikası və 250000 manat həcmində auditoriya mebeli və laboratoriya cihazları alınmışdır. Elmi-tədqiqat laboratoriyalarının sayı 1-dən 6-ya çatdırılmışdır. Bütün bunlar Pedaqoji universitetdə əsaslı elmi-tədqiqat işlərinin aparılmasına zəmin yaradır.

"Azərbaycan müəllimi" qəzeti,
20 dekabr 1991-ci il

TƏHSİL QANUNU VAR…
NORMATİV SƏNƏDLƏR İSƏ YOXDUR

Təhsil, təlim-tərbiyə hər bir dövlətin strateji əhəmiyyətli fəaliyyət sahəsi olmaqla həmin dövlətin siyasi, iqtisadi, sosial və mədəni inkişafını müəyyənləşdirir, cəmiyyətin mənəvi dəyərlərini formalaşdırır. Ona görə də hər bir suveren dövlət təhsilin inkişafına xüsusi diqqət verir.

Heç kəsə sirr deyil ki, Azərbaycanda ümumbəşəri dəyərlərə əsaslanan bugünkü təhsil sistemi Azərbaycan Demokratik Respublikası dövründə yaradılmış, sovet hakimiyyəti illərində inkişaf edərək formalaşmış, rus və dünya təhsil sisteminin qabaqcıl nümunələrindən yaradıcılıqla istifadə edərək, dünya elm xəzinəsinin zənginləşməsində müəyyən rol oynamışdır. Lakin son 5-6 ildə ali məktəblər əvvəlki simasını itirmiş, respublikada hökm sürən hərc-mərclik ali təhsil sisteminə daha ağır zərbə vurmuşdur. Elm və təhsil müəssisələrində təlim-tərbiyənin rəhni olan nizam-intizam pozulmuş, ali məktəblərin maddi-texniki bazası insafsızcasına dağıdılmış, tələbə-gənclər siyasi məqsədlər üçün vasitəyə çevrilmişdir.

Digər tərəfdən, qəbul imtahanlarının test üsulu ilə keçirilməsi nə qədər mütərəqqi olsa da, tədris planının bütünlükdə tətbiqinə ciddi maneçilik törədir. Əslində bir dərs ili üçün (iki semestr) nəzərdə tutulan tədris yükü 3-4 aya keçirilir ki, bu da yüksək ixtisaslı kadr hazırlığına pis təsir göstərir. Dağlıq Qarabağ ermənilərinin separatçı hərəkatının Azərbaycanla Ermənistan respublikaları arasında qanlı müharibəyə çevrilməsi, Azərbaycanda uzun müddət davam edən daxili siyasi gərginliyin və hakimiyyət böhranının günü-gündən dərinləşməsi, torpaqlarımızın 25 faizinin işğal

olunması, respublikamızda qaçqınların sayının bir milyona çatması kimi obyektiv səbəblər də ali təhsil sistemində tədrisin ahəngini pozmuşdur.

Son illərdə respublikada gedən daxili çəkişmələr, qabiliyyəti, bacarığı, savadı, dünyagörüşü, təşəbbüskarlığı və mənəvi-əxlaqi keyfiyyətləri ilə fərqlənməyən adamların yüksək dövlət vəzifələrinə soxulması və onların özbaşınalığı, ümumi fəlakət vahiməsinin yaradılması tələbələrdə sabaha inamsızlıq əhval-ruhiyyəsini gücləndirmiş, tələbələrin bir çoxu könüllü surətdə təhsildən yayınıb alverə qurşanmışdır.

Taleyin Azərbaycan xalqına bəxş etdiyi müstəqillik şəraitində respublikamızın qabaqcıl ziyalılarının, elm və maarif xadimlərinin təşəbbüsü ilə milli təhsil haqqında qanun işləndi. Heç də nöqsanlardan xali olmayan və ideal hesab edilməyən bu "qanun"un tətbiqi, gözləmək olardı ki, ali təhsilin dinamik inkişafına təkan verəcək, suveren respublikanın gələcəyi üçün kadr hazırlığında dönüş mərhələsi olacaq. Əslində isə Milli Məclisin rəhbərliyi və dövlət orqanlarının yuxarı eşalonundakı bəzi "xadimlərlə" Təhsil Nazirliyi arasında olan qeyri-səmimi münasibət həmin qanunun tam tətbiqinə imkan vermədi. Ən başlıcası isə yeni təhsil qanununu həyata keçirmək üçün mexanizm – yeni normativ sənədlər, təlimatlar hazırlanmadı. Ona görə də ali məktəblərin bir çox vacib sahələrində hərc-mərclik yarandı. Söz yox ki, respublikanın bütün ali məktəbləri üçün xarakterik olan nöqsanları vahid normativ sənədlər, əmr və sərəncamlar olmadan islah etmək mümkün deyil.

Həmin nöqsanlar, əsasən, aşağıdakılardır:

1. Tədris prosesində kafedralar həlledici rol oynayır. Keçmiş SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin bu gün üçün səslənməyən, lakin bir çox ali məktəblərin hələ də əl çəkə bilmədikləri təlimata görə, yeni kafedra yaradılarkən onun ən azı 5 nəfər üzvü və onlardan 2-sinin elmi dərəcəsi

olması nəzərdə tutulur. Əlbəttə, adı çəkilən nazirliyin həmin təlimatı 30-cu illərdə hazırlandığına görə o dövrün tələbatına uyğun olaraq kafedra üzvlərinin sayı 5, elmi dərəcəsi olanların sayı isə 2 nəfər nəzərdə tutulurdu. Lakin bu gün Azərbaycan elmi-pedaqoji potensialına görə 30-cu illəri çoxdan ötmüşdür. İndi bütün ixtisaslar üzrə elmi dərəcəsi olanlar kifayət qədərdir. Belə bir şəraitdə 5 nəfərdən ibarət kafedraların təşkili kadr hazırlığının səviyyəsinə və tədrisin keyfiyyətinin yüksəldilməsinə istənilən səviyyədə xidmət etmir. Əksinə, dövlət vəsaitinin izafi xərclənməsinə və kiməsə vəzifə düzəltməyə imkan yaradır.

Təəssüf ki, bu gün ali məktəblərimizdə belə xırda, az əhəmiyyətli kafedralar həddindən artıqdır. Eyni fənn üzrə kafedraların xırdalanması laboratoriya və kabinələrin çoxalmasına, tədris-köməkçi heyətinin artmasına və beləliklə, külli miqdarda dövlət vəsaitinin əlavə xərclənməsinə səbəb olur.

Yeri gəlmişkən, deməliyik ki, tədris-köməkçi heyəti ştatlarının müəyyənləşdirilməsində də vahidlik nəzərə alınmır. Ali məktəblər, kafedralar haqqında heç bir təlimatda və yaxud heç bir sənəddə kafedrada neçə laborant, baş laborant və preparator olması qeyd olunmayıb. Bundan istifadə edən ali məktəb rəhbərləri kafedralara istədikləri miqdarda tədris-köməkçi heyəti qəbul edirlər. Ali məktəblərdə elə kafedralar var ki, tədris-köməkçi heyətinin sayı professor-müəllim heyətinin sayından artıqdır.

2. Professor-müəllim heyəti vəzifələrinə müsabiqələrin keçirilməsi mövcud təlimatda müəmmalı şəkildə şərh olunduğundan ali məktəblər onu özlərinin arzu və istəklərinə uyğun şəkildə icra edirlər. Məsələn, rektorlara hüquq verilir ki, ali məktəbdə iş stajı olmayan mütəxəssisi müqavilə əsasında bir illiyə işə qəbul etsinlər. Həmin tələb təlimatda aydın izah olunmadığından bəzi ali məktəb rektorları

istədikləri adamları müsabiqə, digərini isə əmrlə işə qəbul edirlər.

3. Mövcud təlimatda müəllimlərin baş müəllim və dosent vəzifələrinə seçilməsi üçün vahid normativ olmadığından hər bir ali məktəbdə bu işə də münasibət müxtəlifdir. Bəzən müxtəlif yollarla müəllim vəzifəsinə seçilmiş şəxslər 1-2 ilin ərzində baş müəllim və dosent vəzifələrinə keçirilirlər. Bu zaman kafedranın ehtiyacı nəzərə alınmır. Öz ləyaqətini gözləyən, həmin vəzifələrə layiq olanlar isə illərlə qanuni hüquqlarından məhrum olurlar. Yaxşı olardı ki, təlimatlarda müəyyən şərtlər qoyulsun ki, baş müəllim və dosent vəzifələrinə seçilmək üçün neçə il iş stajı lazımdır, müdafiədən sonra neçə məqalə, dərslik və dərs vəsaiti nəşr etdirməlidir, neçə saat mühazirə aparmalıdır və s.

4. Dosent və professor adlarının verilməsində də ciddi nöqsanlarla qarşılaşırıq. Elmi adı olmayanlara dosent, elmlər namizədlərinə professor adlarının verilməsində vahid təlimatlar yaradılmalıdır ki, elmi şura üzvlərinin ləyaqətləri tapdalanmasın. Bəzi namizədin fəaliyyəti həmin tələblərin bir-ikisini ödəyir, digərlərini yox. Elə hallar olur ki, bütün tələblər bəzi adamlara şamil edilir, bəzilərinə isə bir tələb də kifayət edir. İşi sürətləndirmək üçün ya nüfuzlu xahişçin olmalıdır, ya da rəhbərin nöqsanını deməyi bacaran dilin. Belə hallar ali məktəblərdə haqlı olaraq söz-söhbətə, dedi-qoduya səbəb olur. Bu məsələ barədə vahid qayda yaratmağın vaxtı çoxdan çatıb.

5. Ali məktəblərdə tələbələrin bərpa və köçürülməsi sahəsində ciddi nöqsanlar və ziddiyyətlər vardır. Bir qayda olaraq birinci kurs tələbələrinin bərpa və köçürülməsinə icazə verilmir. Hər bir vətəndaşın azad təhsil almaq hüququ olduğu halda, nə üçün onun bir şöbədən digərinə dəyişdirilməsinə icazə verilməsin?

Tələbənin bir fakültədən digərinə, bir ali məktəbdən

başqasına köçürülməsində fərq imtahanlarının və zaçotların sayı dəqiq müəyyənləşdirilmədiyindən bəzi ali məktəblər məsələyə istədikləri kimi yanaşırlar. Bir ali məktəbdən digərinə keçən tələbələr bəzən 3-4 günün ərzində 15-20 fərq imtahanı və zaçotu verirlər. Bu isə mümkün olan iş deyil. Tələbə təhsil aldığı 4-5 il ərzində cəmi 35-40 imtahan verdiyi halda, fərq imtahanlarının sayı bəzən 50 faiz təşkil edir. Necə olur ki, tələbə semestrlərdə öyrəndiyi fənlərin üçündən sessiya dövründə qeyri-kafi qiymət alıb ali məktəbdən xaric olunur, köçürülən tələbə öyrənmədiyi 8-10 fənnin fərq imtahanlarını bir həftə ərzində ləğv edir? Belə anormal halların qarşısını almaq üçün tələbə köçürülərkən və ya bərpa edilərkən fərq imtahanlarının sayı üçün məhdudiyyət qoyulmalıdır. Bir sıra ali məktəblərdə tələbənin fərqləri müəyyənləşdirilərkən eyni fənn üçün yoxlama işi, zaçot və imtahan verməsi qərara alınır. İstər yoxlama işi, istərsə də zaçot tələbənin imtahana ilkin mərhələdə hazırlıq səviyyəsini müəyyənləşdirməyə xidmət etdiyindən bir imtahanla kifayətlənmək olar.

Buradakı ciddi nöqsanlardan biri də mövcud təlimatda tələbə bərpa edilərkən iş stajı məhdudiyyətinin ləğv olunmasıdır. Belə ki, tələbəni bu gün xaric edib, sabah bərpa etmək olar. Və yaxud təhsildə 15-20 il fasilə vermiş tələbənin yenidən bərpası mümkündür. Mövcud təlimatlarda ali hərbi məktəblərdən xaric edilmiş tələbələrə istədikləri ali məktəbə köçürülmək hüququ verilmişdir. Faktlar göstərir ki, bəzi valideynlər övladlarını keçmiş SSRİ-nin ali hərbi məktəblərinə göndərmiş, bir ildən sonra onların xaric olunmalarına “razı olmuşlar”. İndi həmin dinləyicilər ali məktəblərdəki ən mötəbər ixtisaslara bərpa edilməyə təşəbbüs göstərir və əsasən buna müxtəlif vasitələrlə nail olurlar. Respublikanın siyasi ali hərbi məktəbləri olduğunu nəzərə alaraq, həmin tələbələrin məhz hərbi məktəblərə

bərpa edilməsi və ya köçürülməsi məqsədəuyğun hesab edilməlidir.

6. Respublikanın ali məktəblərində professor-müəllim heyətinin ixtisasartırma kurslarına və stajirovkalara göndərilməsi məsələsi olduqca pis və yarıtmaz həyata keçirilir. Nə qədər acı olsa, etiraf etməliyik ki, təhsil sistemimizdə ən biabırçı və formal hal məhz müəllimlərin ixtisasartırmaya və stajirovkalara göndərilməsidir. Heç bir ali məktəb rəhbəri stajirovkanın və kursun necə keçməsi ilə maraqlanmır. Digər tərəfdən, ali məktəblər kursa gedəcək müəllimlərin dərslərini istədikləri kimi planlaşdırır və maddi vəsaitini ödəyə bilmirlər. Məsələn, ali məktəblərin bəziləri kursa gedəcək müəllimlər üçün həmin semestrdə dərs yükü planlaşdırmır, bəziləri dərs planlaşdırır, lakin onu kafedranın müəllimlərinə əlavə dərs yükü kimi tədris etdirirlər. Bəzi ali məktəblər isə həmin saatların icrası üçün saathesabı mütəxəssislər dəvət edirlər.

Bəzən elə olur ki, professor heç bir elmi göstəricisi olmayan dünənki təcrübəsiz tələbəsinin yanına stajirovka keçməyə gəlir. Məsələn, yer tapmadıqlarına görə konservatoriyanın professorları Pedaqoji universitetin musiqi kafedrasında stajirovka keçirlər. Görəsən, kim kimi öyrədir?

Yaxşı olar ki, müəllimlərin ixtisasartırma kurslarına və stajirovkalara göndərilməsində MDB ölkələrinin qabaqcıl ali məktəbləri əsas baza kimi nəzərə alınsın.

Bu gün Respublika Təhsil Nazirliyi xalq maarifinin bütün sahələrində çalışan əməkdaşların vaxtaşırı ixtisasartırma kurslarında iştirakını təkidlə tələb edir. Milyonlarla dövlət vəsaiti izafi yerə xərclənir, nəticə isə göz qabağındadır. Yaxşı olmazdımı ki, həmin vəsaitin hesabına kütləvi informasiya vasitələrindən daha geniş istifadə olunsun, həmin vəsaitin bir hissəsi müqavilə əsasında Radio və Televiziya Şirkətinin hesabına köçürülməklə televiziyanın

bir kanalında vaxtaşırı verilişlər aparılsın. Verilişlərin proqramı əvvəlcədən mətbuatda dərc edilib bütün müəllimlərə çatdırılsın. Televiziya verilişlərinə qulaq asa bilməyən uzaq kəndlər üçün mətbuat vasitələrindən istifadə edilsin. "Azərbaycan müəllimi" qəzetinin səhifələrini artırmaqla həmin materiallar qəzetdə dərc etdirilsin.

7. Professor-müəllim heyətinin dərs yükləri sahəsində də nöqsanlar çoxdur. Kafedra müdirləri icra etdikləri vəzifə üçün həm əlavə əmək haqqı alır, həm də ildə 70 saata qədər rəhbərlik üçün dərs yükü nəzərdə tuturlar. Bunların ikisini birləşdirmək olmazmı? Ya əmək haqqını artırmaq, ya da rəhbərlik üçün nəzərdə tutulan saatı. Və yaxud onların biri ilə kifayətlənmək yaxşı olmazdımı? (Bu ildən bu məsələ qaydaya salınmışdır).

8. İmtahan və zaçotların qəbulu üçün aşağı və yuxarı vaxt normaları müəyyənləşdirilmişdir. Bəzi ali məktəblər bir tələbədən imtahan qəbul etmək üçün 0,75 saat ayırır. Tələbələrin sayının və Dövlət İmtahan Komissiyasının tərkibinin müəyyənləşdirilməsində də ciddi nöqsanlar davam etməkdədir.

9. Tələbələrin pedaqoji təcrübəsi üçün mövcud təlimat 1986-cı ildə təsdiq olunmuşdur. Müasir tələblərə cavab vermədiyi üçün, pedaqoji təcrübə üçün yeni normativ sənədlər hazırlanmalıdır.

10. Tələbələrin dərsə davamiyyətinə görə xaric olunması məsələsi də ən ciddi problemlərdən biridir. 1985-ci ilədək tələbələrin dərsə davamiyyəti məcburi xarakter daşıyırdı. Qorbaçovun "yenidənqurmasından" sonra tələbələrin dərsə davamiyyətlərinə guya sərbəstlik verildi. Həmin sərbəstlik II və yuxarı kurs tələbələrini auditoriyadan uzaqlaşdırdı və kadr hazırlığının səviyyəsi respublikada nəzərəçarpacaq dərəcədə aşağı düşdü. Nazirlik üzrə vahid göstəriş olmadığından ali məktəblərdə bu məsələyə hər kəs

öz istədiyi kimi baxır. Ali məktəbin birində 60-70 saat üzrsüz dərs buraxan tələbə xaric olunur, digərində isə 100 saatdan artıq üzrsüz dərs buraxana heç nə demirlər. Ona görə bu vacib sahə üzrə də vahid qayda yaradılmalıdır.

Ali məktəb rəhbərlərinə icazə verilir ki, üzrsüz dərs buraxan tələbələrin xaricolunma məsələlərini müstəqil həll etsinlər. Onlar da bu müstəqillikdən istifadə edərək, tələbələrin dərsə davamiyyətlərinə hal-hazırda olan vəziyyətdən yanaşacaqlar. Qanunu istədikləri adama tətbiq edəcəklər, istəmədiklərinə yox. Tələbə auditoriyadan uzaqlaşacaq, tədrisin də keyfiyyəti aşağı düşəcək.

Bəzi ali məktəb rəhbərləri tələbələrin məşğələlərə sərbəstliyini pedaqoji təcrübələrə qiyabiçi tələbələrin, ümumiyyətlə, sessiyalara davamiyyətinə də şamil edirlər. Bəzi ali məktəblərdə pedaqoji təcrübədə iştirak etməyənlərə şərait yaradılır ki, dərsdən sonra pedaqoji təcrübə keçsinlər. Çünki pedaqoji təcrübənin keçirilməsinə dair təlimatda ziddiyyət vardır. Təlimatda qeyd olunmuşdur ki, ali məktəb rəhbərləri pedaqoji təcrübədə iştirak etməyənləri tətil günlərində təcrübəyə göndərə bilərlər. Görəsən, bu qanun hansı məntiqə əsaslanır. Tədris ilinin birinci yarısında 36-42 gün nəzərdə tutulan pedaqoji təcrübənin proqramını qış tətilinin 12 günündə necə yerinə yetirmək olar? Tədris ilinin ikinci yarısında nəzərdə tutulan pedaqoji təcrübəni orta məktəblər yay tətilində olduğu dövrdə hansı məktəbdə keçmək olar?

Qiyabiçi tələbələr tədris ili ərzində cəmi 40 gün sessiyada iştirak edirlər. Bəzi tələbələr sessiya dövrü üçün üzrlü sənəd təqdim etməklə sessiyaya gəlmir, sessiyadan qalmış akademborclarını göndərişlə ləğv edirlər. Mövcud təlimatlarda konkretlik olmadığına görə ali məktəb rəhbərləri bu məsələyə “humanistlik” mövqeyindən yanaşır, “madam ki, üzrlü sənədi vardır, göndəriş vermək olar” prinsipini üstün

tuturlar. Faktlar göstərir ki, bəzi ali məktəblərdə fərq imtahanlarının ləğvində olduğu kimi, tələbələrə göndəriş verilsə, onlar tədris planında 5 il üçün nəzərdə tutulmuş 40-45 imtahanı 10-15 gündə "ləğv etməklə" təhsili başa vurarlar. Yaxşı olardı ki, qeyd etdiyim məsələlər konkret şəkildə normativ sənədlərdə izah olunaydı və bütün ali məktəblər həmin sənədi əsas götürəydi.

Mövcud təlimatların tələbinə görə, pedaqoji ali məktəblərin qiyabi və axşam şöbələrində təhsil alan tələbələr pedaqoji sahədə ixtisasları üzrə işləməlidirlər. Respublikanın ali məktəblərində bu tələb obyektiv səbəblər üzündən pozulur. Belə ki, hazırlıq şöbələri vasitəsilə qeyd olunan şöbələrə tələbə qəbul edilir. Lakin hazırlıq şöbələrinin dinləyiciləri əsasən, zavod, fabrik, kolxoz və s. müəssisələrin göndərişi ilə qəbul edildiyindən onlar pedaqoji sahənin işçisi deyildir. I kursa qəbul olunduqdan sonra da həmin sahədə iş tapa bilmir. Ali təhsilli müəllimə pedaqoji sahədə iş yeri tapmağın bugünkü qədər çətin olduğu bir vaxtda I kurs tələbəsini kim işə qəbul edər?

Hərbi hissənin göndərişləri ilə gələn dinləyicilərin də vəziyyəti qeyd etdiyim kimidir. Digər tərəfdən, təlimata görə, ixtisası üzrə işləməyən tələbələr sessiyalara və dövlət imtahanlarına buraxılmamalıdırlar. Müşahidələr göstərir ki, ali məktəblərimizin demək olar ki, heç birisində təlimatın bu tələbinə tam əməl olunmur. Bu sahədə qayda yaratmaq üçün ya həmin təlimata ciddi əməl edilməli, ya da həmin təlimat ləğv olunmalıdır.

11. Ən böyük nöqsanlardan biri də kurs zaçot və imtahanlarının keçirilməsindədir. Mövcud təlimatda qeyd olunur ki, tələbə tədris planında semestr üçün nəzərdə tutulan bütün zaçotları verdikdən sonra imtahanlara buraxılır. Təlimatda qeyd olunmayıb ki, tələbə zaçotdan "qeyri-məqbul" alırsa, ona neçə göndəriş vermək olar? Tutaq ki,

tələbə zaçot üçün iki göndəriş aldı və öz kəsrini ləğv edə bilmədi. Onda bu prosesi nə vaxta qədər davam etdirmək lazımdır? Çünki təlimatda yazılmışdır ki, tələbə 2 göndərişlə imtahandan aldığı "qeyri-kafini" ləğv etməzsə, institutdan xaric edilir. Bəzi ali məktəblər təlimatı əsas tutaraq bildirirlər ki, zaçotdan kəsilməklə tələbəni institutdan xaric etmək olmaz.

İkinci hal, təlimatda qeyd olunmuşdur ki, tələbə 3 fəndən "qeyri-kafi" alarsa, institutdan xaric edilir. Bəs onda 3 və daha çox fəndən "qeyri-məqbul" almış tələbənin taleyi necə olsun? Yenə eyni sual meydana çıxır. Zaçot üçün tələbəyə neçə göndəriş vermək olar? Zaçota görə tələbəni xaric etmək mümkün deyilsə, bu proses nə vaxta qədər davam etdirilməlidir? Tələbə seminar, praktik və laboratoriya məşğələlərində iştirak etməyibsə, yaxud laboratoriya işlərini praktik cəhətdən icra etməyərək "qeyri-məqbul" alıbsa, ona göndəriş verməyin əhəmiyyəti varmı? 4-5 ayda icra edə bilmədiyi işi göndəriş almaqla 1-2 günün ərzində icra edə biləcəkmi?

Respublikanın ali məktəblərindəki nöqsanlar bunlarla kifayətlənmir. Son illərdə daha geniş miqyasda yayılmış həmin nöqsanların islah edilməsi və bütün ali məktəblər üçün eyni olan vahid tədris mexanizmi, normativ sənədlərin hazırlanması və həyata keçirilməsi üçün indi şərait yaradılmışdır. Bu işə isə Təhsil Nazirliyi bilavasitə rəhbərlik etməlidir. İndi biz hər hansı bir mərkəzdən normativ sənədlər gözləmirik. Həmin sənədlər respublikanın gələcəyi olan kadr hazırlığında başlıca amillərdən olduğu üçün onu özümüz, öz təhsil qanunumuza uyğun şəkildə hazırlayıb həyata keçirməliyik.

"Azərbaycan müəllimi" qəzeti,
9 noyabr 1993-cü il

ALİ TƏHSİLİN PROBLEMLƏRİ ÇOXDUR

Müsahibimiz N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru, filologiya elmləri doktoru, professor Nizami Xudiyevdir.

– Nizami müəllim, pedaqoji kadr hazırlığı həmişə mühüm sahə olsa da, o heç vaxt bugünkü qədər məsuliyyət tələb etməyib. Çünki müstəqil respublikamız üçün kadr hazırlığı milli mənafeyimizlə daha sıx bağlıdır. Sizcə, müstəqilliyə qədəm qoyduğumuz müasir mərhələdə pedaqoji ali təhsil hansı məziyyətlərlə səciyyələnir? Ali təhsilin yenidən qurulması istiqamətində rektoru olduğunuz universitetdə hansı tədbirlər həyata keçirilir?

– Sirr deyil ki, müstəqillik ərməğan kimi təqdim olunmur, o qlobal proseslər və problemlərlə qarşılaşır, çətinliklərdən keçir. Cəmiyyətin yeni keyfiyyət səviyyəsinə qalxması bilavasitə təhsil sisteminin yenidən qurulması ilə bağlıdır. Təhsil, təlim-tərbiyə hər bir dövlətin strateji əhəmiyyətli fəaliyyət sahəsi olmaqla həmin dövlətin siyasi, iqtisadi, sosial və mədəni inkişafını müəyyənləşdirir, cəmiyyətin mənəvi dəyərlərini formalaşdırır. Ona görə də hər bir suveren dövlət təhsilin inkişafına xüsusi diqqət verir. Ümumbəşəri dəyərlərə əsaslanan, dünyanın qabaqcıl nümunələri səviyyəsində formalaşan Azərbaycan təhsil sisteminin isə bir neçə il bundan əvvəl respublikada hökm sürən hərc-mərclik şəraitində çox böyük itkilərə məruz qalması təəssüf ki, xüsusilə ali məktəblərə daha ağır zərbə vurmuşdur. Ali təhsil müəssisələrinin tələbələri siyasi məqsədlər üçün vasitəyə çevrildiyindən nizam-intizam pozulmuş, maddi-texniki baza dağıdılmışdı.

Son illərdə respublika prezidenti Heydər Əliyevin ciddi

səyi və təşəbbüsü sayəsində Azərbaycanda uzun müddət davam edən daxili siyasi gərginliyin aradan qaldırılması, sabitliyin yaranması, milli təhsil haqqında qanunun tələblərinə uyğun normativ sənədlərin hazırlanması və tətbiqi ilə suveren respublikanın gələcəyi üçün kadr hazırlığında dönüş mərhələsi başlanmışdır.

Hazırda ali təhsil sisteminin yenidən qurulmasını səciyyələndirən başlıca keyfiyyət dəyişikliyindən biri təhsil qanununa əsasən üçpilləli təhsil sisteminə (bakalavr, magistratura və doktorantura) keçməkdir. Bununla əlaqədar müəllim kadrları hazırlığının məzmununu, formalarını əsaslı surətdə yeniləşdirmək lazım gəlir. Odur ki, professor-müəllim heyətinin məqsədyönlü fəaliyyəti ilə qısa vaxt ərzində universitetdə bir sıra mühüm işlər görülmüşdür. Universitetin profilinə uyğun fənlərə, xüsusilə ixtisas fənlərinə, pedaqogika, psixologiya və fənlərin tədrisi metodikasına geniş yer verməklə əyani, qiyabi və axşam şöbələrinin tədris planları yenidən işlənmişdir. Hazırda proqramların yeniləşməsi üzərində iş aparılır.

Pedaqoji təcrübəyə aid təlimatların artıq bu gün üçün yaramadığını nəzərə alaraq yenisini hazırlamış və təsdiq üçün Respublika Təhsil Nazirliyinə göndərmişik.

Obyektiv və subyektiv səbəblər üzündən son dövrlərdə müəllim və tələbələr arasında intizamın xeyli zəifləməsi tədrisin keyfiyyətinə mənfi təsir göstərirdi. Hər bir fakültədə, kafedrada, tələbə qrupunda təsirli tədbirlər həyata keçirməklə bu münasibəti aradan qaldırdıq.

Yeni məramlı tədbirlərimizdən biri də rektorluğun və universitet rəhbərlərinin ayrı-ayrı fakültədə təhsil alan gənclərlə görüşlərinin keçirilməsidir. Tələbələrlə, necə deyərlər, üz-üzə, göz-gözə dialoq imkanı yaradan belə görüşlər gənclərin maraqlarını, ali təhsilin problemlərini öyrənmək və baş verə biləcək neqativ halların qarşısını almaq baxımından faydalı oldu. Qəti əminəm ki, tədris ilinin əvvəlindən başlayaraq keçirdiyimiz

belə görüşlər müəllim və tələbələrin hər birini fəallığa sövq etməklə onların məsuliyyətini artırmışdır.

Son dövrdə universitetin təsərrüfatının, elmi-tədqiqat və tədris laboratoriyalarının, tədris və elmi-tədqiqat əmlakının qorunub saxlanılmasında ciddi təsərrüfatsızlığa yol verilmişdi. Uzun illər maddi-məsul şəxslərin məsuliyyətsizliyi və universitet rəhbərliyinin nəzarətsizliyi üzündən hər üç tədris korpusunda və yataqxanalarda xeyli əmlak dağıdılmışdı. Universitetin dəhlizlərində və yataqxanalarında qoyulmuş televizorların hissələri sökülüb aparılmışdı.

Universitet əmlakının bir hissəsi istismar vaxtından tez sıradan çıxarılmış, bir hissəsi isə istismar vaxtının bitməsinə, sınıb-dağıdılmasına baxmayaraq, bu günədək balansda saxlanılır. Rəhbərliyə başladığımız ilk gündən bu işlərlə müntəzəm məşğul olmuş, ciddi tələbimizdən sonra televizorların bir hissəsi bərpa edilmiş, aparılan xalça, soyuducu, ayaqaltı, çilçıraq və bəzi cihazlar geri qaytarılmışdır.

Rektorluq 70 ildə böyük vəsait hesabına əldə olunmuş dövlət əmlakının tam saxlanılmasını və aidiyyatı üzrə istifadə edilməsini təmin etmək üçün əsaslı inventarlaşma keçirmişdir.

Mən bunları təfsilatı ilə ona görə xatırladıram ki, hərc-mərclik dövrünün bizim universitetdə qoyduğu acı izlər və tədrisin zəruri problemləri ilə yanaşı, vaxtımızın müəyyən hissəsini nəyə sərf etdiyimiz haqda təsəvvür yaransın.

Respublikanın zəifləyən iqtisadiyyatı və müharibə vəziyyətində olması təbii ki, universitetin büdcəsinə də öz təsirini göstərmişdir. Tədrisin keyfiyyətini yüksəltmək və yüksək ixtisaslı müəllim kadrlarının hazırlanmasında mühüm rol oynayan dərslik, dərs vəsaiti, metodik göstəriş və proqramların nəşri işi xeyli çətinləşmişdir. Ali məktəbin nəşriyyat işinin yaxşılaşdırılmasına diqqət və nəzarəti artırmışıq. Müəllim və tələbələr arasında minlərlə abunəçisi və oxucusu olan ADPU-nun çoxtirajlı "Gənc müəllim" qəzetinin universitetin

mətbəəsində nəşrinə nail olmuşuq.

Son illərdə universitetin Şamaxı və Ağcabədidə yerləşən filialları ilə əlaqəsi xeyli zəifləmişdi. Filialların pedaqoji kollektivi və tələbələri ilə iki dəfə görüşərək təhsil sistemindəki islahatlar və yeni təhsil quruculuğu ilə bağlı ümumi tələbləri onlara çatdırdıq. Filialların direktorlarını universitetdə keçirilən elmi şuranın iclaslarına cəlb etdik. Bütün bunlar filialların kollektivi ilə operativ əlaqəyə və vahid meyarlarla çalışmağa imkan yaratdı.

Qocaman ali pedaqoji məktəbin 75 illik yubileyinə hazırlıq işlərinə muzey təşkili ilə bağlamışıq.

Sadaladığımız faktlar qısa vaxt ərzində həyata keçirilən tədbirlərin bir qismini təşkil edir.

– Ali məktəbin siması, fəaliyyət səmərəsi təlim-tərbiyə uğurları ilə yanaşı, onun elmi potensialı, elmi əlaqələri ilə müəyyənləşir. Son illərdə mövcud olan çətinliklər bu sahəyə təsirini göstəribmi? Bu gün ali məktəb elminin inkişafına mane olan əsas səbəblər hansılardır?

– Əvvəlcə Pedaqoji universitetin elmi potensialı haqqında təsəvvür yaratmaq istərdim. Universitetdə 695 nəfər elmi və elmi-pedaqoji işçi çalışır. Onlardan 84 nəfər elmlər doktoru və professor, 405 nəfər isə elmlər namizədi və dosentdir. Göründüyü kimi, professor-müəllim heyətinin təqribən 11 faizi elmlər doktoru və professor, 58 faizi isə elmlər namizədi və dosentdir. Bu isə Respublika Təhsil Nazirliyində olan ali məktəblərin müvafiq göstəricilərindən xeyli yüksəkdir.

Universitetin elmi potensialı ilk növbədə tədrisin keyfiyyətinin yüksəldilməsinə, yüksək ixtisaslı mütəxəssis hazırlanmasına yönəldilir. Son üç ildə professor-müəllim heyəti tərəfindən 124 dərs vəsaiti, 152 metodiki işləmələr və 40-dan çox yeni tədris proqramları hazırlanıb tələbələrin istifadəsinə verilmişdir.

Mövcud olan çətinliklərə baxmayaraq, Pedaqoji

universitetdə elmin müxtəlif sahələri üzrə geniş və məhsuldar tədqiqatlar aparılır. Son dörd ildə universitet əməkdaşlarından 22 nəfərin doktorluq, 98 nəfərin namizədlik dissertasiyaları müdafiə etməsi və 700-dən çox elmi məqalə nəşr etdirmələri deyilənlərə bariz misaldır.

Hazırda Pedaqoji universitetdə 95 nəfər aspirant və dissertant vardır. Ötən illərdən fərqli olaraq aspirant və dissertantların tədqiqat mövzuları suveren respublikanın tarixi, mədəniyyəti və iqtisadiyyatının araşdırılmasına yönəldilir.

Universitetin digər dövlətlərin elmi mərkəzləri ilə geniş əlaqələri yaradılmışdır. Fizik və kimyaçılar REA-nın müxtəlif institutları, tarix, ədəbiyyat və dilçilik sahəsində çalışan alimlərimiz isə Türkiyə və İranın müvafiq elmi mərkəzləri ilə sıx elmi əlaqə saxlayır. Hazırda Yəmən Respublikasının və İran İslam Respublikasının 5 vətəndaşı universitetdə doktorluq işlərini yerinə yetirir.

Təəssüf ki, ali məktəb elminin inkişafına mane olan bir sıra çətinliklər də mövcuddur. Elmi-tədqiqat sahəsində bunlar əsasən aşağıdakılardır: əvvəla, ali məktəb elminin, nəticə etibarilə elmi-pedaqoji əməkdaşların hüquqi statusunun müəyyən edilməməsi, ikincisi, elmi işlərin təşkili, icrası və elmi tədqiqatların maddi bazası üçün son illər vəsaitin ayrılmaması. Və nəhayət, xarici elmi mərkəzlərdə əlaqə məqsədilə ezamiyyətlərin qeyri-mümkünlüyü və s.

Bu çətinliklərə baxmayaraq, alimlərimiz elmi-tədqiqat sahəsində axtarışlarını davam etdirərək ali məktəb elminə öz dəyərli töhfələrini vermək əzmindədirlər.

Yeri gəlmişkən, qeyd edim ki, universitetdə təhsil alan xarici tələbələrin sayı 15-dən 70-ə qədər artmışdır. Bu yaxınlarda universitetimizlə İran İslam Respublikasının Zəncan, Urmiya universitetləri arasında müqavilələr bağlanmışdır. Bu müqavilələrdə universitetlərarası elmi əməkdaşlıq və tələbə mübadiləsi nəzərdə tutulur.

– Nizami müəllim, aydındır ki, yaradıcılıq və uzaqgörənlik olmadan fəaliyyətin uğurlu nəticəsi də ola bilməz. Sizcə, respublikamızda ali təhsilin inkişafı naminə hanısı tədbirlər görülməlidir? Pedaqoji universitetin gələcəyini necə görmək istərdiniz?

– Aktuallıq kəsb etdiyi üçün məni bu suallar həmişə düşündürür. İlk növbədə nəzərə almaq lazımdır ki, iqtisadi sahədə çətinliklərə baxmayaraq, XX əsrdə respublikamızda təhsil sahəsində mühüm işlər görülüb. Əslində bəzi nöqsanlarına baxmayaraq, bu gün bizim dünya standartları ilə müqayisə olunacaq təhsil sistemimiz vardır. Bu amili nəzərə alaraq nailiyyətləri dağılmağa qoymamalıyıq. Qabaqcıl ölkələrin təhsil sahəsində təcrübəsini öyrənməli və işimizdə tətbiq etməliyik. Fundamental elmlərin inkişafı dövlət nəzarətində olmalıdır. Elmə, maarifə, mədəniyyətə, səhiyyəyə maddi yardım edən firmalar, müəssisələr, imkanlı adamlar dövlət tərəfindən rəğbətləndirilməlidirlər. Yüksək ixtisaslı alimlərin sosial müdafiəsinə dövlət qayğısı olmalıdır. Təhsilin maddi-texniki bazası, xüsusilə laboratoriyaların zənginliyi və müasir səviyyədə olması diqqət mərkəzində saxlanmalıdır. Respublikada hərbi-sənaye kompleksi və ona xidmət edən tətbiqi əhəmiyyətli elm sahələri xüsusi maliyyələşdirilməlidir.

Bizim Pedaqoji universitetə gəldikdə isə istərdim ki, onun məzmunu adına uyğun olsun. Belə ki, universitetimizi çoxpilləli, universal təhsil müəssisəsi kimi görmək istərdim. Əgər onun nəzdində məktəbəqədər tərbiyə müəssisələri (bağçalar), orta məktəblər, pedaqoji ixtisas məktəbləri, sənət məktəbləri olarsa, bu həm ali məktəb alimlərinə öz ideyalarını həyata keçirmək üçün baza yaradardı, həm də orta təhsil müəssisələrinə universitetin potensial imkanlarından istifadə etmək imkanı verərdi. Xatırladım ki, respublikada bu sahədə sınaqdan keçmiş mexanizm də mövcuddur. Hamıya yaxşı məlumdur ki, Tibb Universitetinin xəstəxanalarda bazası var və bu, kadr hazırlığına

zəruri köməyi göstərir. Dəfələrlə deyildiyinə baxmayaraq, Təhsil Nazirliyi bir neçə məktəbin Pedaqoji universitetə baza kimi verilməsini təmin etmir. Bir daha təklif edərdim ki, Pedaqoji universitetin metodika, pedaqogika, psixologiya kafedraları üçün baza məktəbləri ayrılsın və bu nazirlik tərəfindən rəsmiləşdirilsin. Pedaqogika və metodika elminin yenilikləri də bu məktəblərdə təcrübədən keçirilsin.

Respublikanın müxtəlif şəhər və rayonlarında son vaxtlarda xeyli özəl tədris müəssisələri fəaliyyət göstərir. Bu tədris müəssisələrinin bazası və ixtisaslı kadrları nəzərə alınmaqla, ekspert komissiyası tərəfindən təsdiq olunduqdan sonra fəaliyyətinə icazə verilməlidir. Yaxşı olardı ki, özəl ali və orta pedaqoji universitetin strukturuna daxil edilsin. Bu, mərkəzləşmiş qaydada pedaqoji kadrların hazırlanmasının keyfiyyətini yüksəltməyə kömək edər, maddi-texniki bazası çox zəif olan özəl müəssisələrə dövlət ali məktəbinin zəngin tədris vasitələrindən, kitabxanalarından və s. istifadə etmək imkanı yaradar.

– Nizami müəllim, eyni ixtisas üzrə bir çox ali məktəblərdə müəllim hazırlanır. Bunların keyfiyyətcə fərqi varmı? Sizin qiyabi və axşam təhsilinə münasibətiniz necədir?

– Nəinki müxtəlif ali məktəblərdə eyni ixtisas üzrə hazırlanan müəllimlərin keyfiyyətcə fərqi vardır, həm də bu fərq təsadüfi deyil. Özünüz müqayisə edin. Bizim universitetin pedaqoji kadrlar hazırlamaq işində ənənəsi, təcrübəsi və zəruri maddi-texniki bazası vardır. Tələbəyə ixtisasla bərabər uyğun peşə və sənət də öyrədilməlidir. Ona görə də bizdə pedaqogika, psixologiya və fənlərin tədrisi metodikalarına tədris planında geniş yer verilir. Başqa ali məktəblərdə belə deyil. Təhsil Nazirliyi tələbə qəbulu planını müəyyənləşdirərkən bunu nəzərə almalıdır.

Qiyabi və axşam təhsilinə isə günümüzün reallıqları baxımından yanaşmalıyıq. Ölkədə müharibə gedir. Mənzil

kirayəsi çox çətindir. İqtisadi çətinlik əyani oxumaq üçün çoxlarına imkan vermir. Belə bir şəraitdə gənclərin istehsalatdan ayrılmamaqla təhsil almaları daha məqsədəuyğundur. Faktlar isə bunun əksini göstərir. Keçən il universitetimizə qiyabi təhsil üzrə qəbul planı 200 nəfərdən 60 nəfərə, axşam şöbəsinə isə 140-dan 110 nəfərə endirilib.

Dövlətdən az xərc tələb edən qiyabi və axşam şöbələrinə tələbə qəbulunun azaldılmasına məncə, heç bir lüzum yoxdur.

Yeri gəlmişkən, sualınıza yaxın olan bir neçə mətləbə də toxunum. Respublikada pedaqoji təhsil verən orta ixtisas məktəbləri fəaliyyət göstərir. Onlara səkkizillik bazadan qəbul olunanların ümumi təhsil fənləri üzrə hazırlığı orta məktəblərdən fərqlənir. Ona görə də ümumi test üsulu ilə ali məktəblərin qiyabi və axşam şöbələrinə qəbul olunanlar arasında belələri təsadüfdən-təsadüfə olur. Bu qisim müəllimlərin ali təhsil alması üçün Pedaqoji universitetdə ixtisasartırma fakültələri açmaq olar.

Pedaqoji ali məktəblərin çətin iqtisadi şəraitdə yaşaması üçün ödənişli təhsil fakültələri zəruri addımdır. Lakin sürətli inflyasiya şəraitində təhsil haqları dəyərdən düşür. Bu pullar indeksasiya olunmalıdır. Qiyabi və axşam şöbələrində ödənişli əsaslarla kadr hazırlamaq səmərəli olardı.

Fikirlərimi yekunlaşdıraraq qeyd edim ki, bir müsahibədə pedaqoji ali təhsilin bu gün üçün aktual olan bütün problemlərini əhatə etmək mümkün deyil. Bunu qarşımıza məqsəd də qoymamışıq. Lakin bir həqiqət var. Problemləri zaman qarşıya qoyur, onu həll etmək isə bizim öhdəmizə düşür.

Müsahibəni apardı:
Əziz Axundlu
"Azərbaycan" qəzeti,
16 fevral 1995-ci il

TƏHSİL SİSTEMİNİN MÜQƏDDƏSLİYİ CƏMİYYƏTİN SAĞLAMLIĞIDIR

Müsahibimiz N. Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru, filologiya elmləri doktoru, professor Nizami Xudiyevdir.

– Nizami müəllim, respublikamızda BDU-dan sonra ikinci yaxşı keçmiş ənənələri olan ali tədris müəssisəsi sizin Universitetdir. Xahiş edirik, oxuculara bu barədə ətraflı məlumat verəsiniz.

– N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universiteti respublikamızda ali təhsilli müəllim kadrları hazırlayan ilk və böyük müəssisədir. 1921-ci ildə Pedaqoji institut kimi fəaliyyətə başlayarkən burada cəmi üç ixtisas: tarix-ədəbiyyat, təbiət-coğrafiya, fizika-riyaziyyat sahələri üzrə mütəxəssis hazırlanırdı. 1924-cü ildə institutun birinci buraxılışı oldu. O vaxt institutun cəmi 28 məzunu var idi. 74 illik fəaliyyəti dövründə universitet respublika üçün 80 mindən artıq müəllim kadrları hazırlamışdır ki, bu da pedaqoji kollektivin gərgin zəhmətinin layiqli bəhrəsidir.

Pedaqoji universitetdə aparılan elmi-tədqiqat, təlim-tərbiyə və təhsil işi respublikamızın prezidenti Heydər Əliyevin həmişə diqqət mərkəzindədir. Bu yüksək ixtisaslı kadr ocağının 50 və 60 illik yubiley yığıncaqlarında iştirak edərkən dərin məzmunlu nitq söyləyən Heydər Əliyev yoldaş pedaqoji kollektivin qarşısında duran vəzifələri konkret müddəalarla açıqladı. Proqram xarakterli həmin çıxışlar pedaqoji kollektivin bir çox sonrakı uğurlarının ilham mənbəyi olmuşdur.

Hazırda universitetdə 28 ixtisas üzrə 10 minə yaxın

tələbə təhsil alır. Gənclərin təlim-tərbiyəsi ilə 58 kafedranın 760 professor-müəllim heyəti məşğuldur.

– Artıq üçüncü ildir ki, ölkəmizdə qəbul imtahanları test üsulu ilə keçirilir. Qəbul imtahanı verib daxil olmuş abituriyentlərlə müqayisədə testlə daxil olanların bilik səviyyəsi necədir?

– İnsaf naminə demək lazımdır ki, bu il test imtahanları əvvəlki illərdən çox mütəşəkkil keçirildi. Nəticələr vaxtında elan edildi. Test imtahanlarının iki gün aparılması bir sıra yararsız binalardan imtina etməyə imkan verdi. İmtahanlar əsasən ali məktəblərin binalarında və bəzi mərkəzi orta məktəblərdə aparıldı. Bu nəzarətçilərin daha yaxşı seçilməsinə və Prezident Aparatı tərəfindən xüsusi nəzarət edilməsinə imkan yaratdı.

Yəqin Tələbə Qəbulu üzrə Dövlət Komissiyası da bu rəydədir ki, bizim universitet bu kompaniyada öz nizam-intizamı ilə fərqlənirdi. Ona görə də avqustun 6-da IV qrupda rus bölməsi üzrə təkrar imtahanlar, həmçinin ödənişli təhsilə qəbul üzrə ərizələrin toplanması məhz bizə tapşırıldı.

Keçmiş qaydalar üzrə qəbul imtahanı verib daxil olmuş abituriyentlərlə müqayisədə testlə daxil olanların bilik səviyyəsi arasında müsbət mənada fərqlər vardır. Təəssüf ki, testlə qəbul olunan tələbələr arasında zəif oxuyanlar da olur. Bunun səbəbləri araşdırılmalı, öyrənilməli və üzə çıxarılmalıdır. Günahın testdə, yoxsa ali məktəbdə olduğu müəyyənləşdirilməlidir.

– Qəbul imtahanlarından əlləri çıxmış bəzi müəllimlər tələbədən semestr imtahanlarında "qisas" alırlar. Yəqin ki, sizin universitetdə də belə hallar var. Belə müəllimlərə qarşı necə mübarizə aparırsınız?

– Sizin dediyinizi bütün müəllimlərə şamil etmək ədalətsizlik olardı. Universitetimizdə müəllim sənətinə müqəddəs münasibət bəsləyənlər, onu bütün məsuliyyəti ilə

dərk edənlər çoxdur. Lakin imtahanlarda qeyri-obyektivliyə yol verənlər də vardır. Belələri ilə fərdi söhbətdən tutmuş, imtahanlardan uzaqlaşdırmağa qədər tədbirlər həyata keçiririk. Rektorluğun üzvləri fakültə-fakültə bütün tələbələrlə görüşürlər. Bu görüşdə rektor, prorektorlar, dekan və fakültənin tələbələri iştirak edirlər. Şərait yaradırıq ki, tələbə imtahanların normal aparılmasında şübhəsi olan müəllim haqqında rektorluğa məlumat verə bilsin. Və tələbə inansın ki, müəllim ona qarşı ədalətsizlik edərsə, rektorluq onun hüququnu müdafiə edəcəkdir.

– Bir ali məktəbi bitirənlər ikinci təhsil almaq məqsədilə ikinci ali məktəbin ikinci kursuna götürülürlər. Bu nə ilə bağlıdır?

– Təlimatda nəzərdə tutulur ki, bir ali məktəbi bitirən şəxs digər ali məktəbin II və daha yuxarı kurslarına daxil ola bilər. Özü də bu ixtisaslar bir-birinə yaxın olmalıdır. Belə olan halda birinci kursun təkrar olunmasına ehtiyac yoxdur. Əgər tədris planı imkan versə (fərq imtahanları çox olmasa) tələbə III-IV kursa da qəbul ola bilər.

– Hal-hazırda Azərbaycanda 114 özəl universitet var. Bu da respublikada diplomlu savadsızlar ordusu yaratmırmı?

– Özəl universitetlərin məzunlarının hamısının savadsız olacağını hökm etməyə əlimizdə heç bir əsas yoxdur. Respublikamızın bir çox görkəmli alimləri özəl universitetlərdə dərs deyirlər. Lakin özəl universitetlərə tələbə qəbulu, onlarda tədrisin keyfiyyəti dövlət nəzarətindən kənarda qalmamalıdır. Sertifikat alan ali məktəblərə münasibət bu il məhz belə oldu. Tələbələr həmin ali məktəblərə test imtahanlarının nəticələrinə görə qəbul olundular. İnkar olunmaz bir həqiqət də var: özəl ali məktəblər haqqında zaman öz hökmünü verəcəkdir. Kəskin rəqabət şəraitində onlardan ən layiqliləri yaşayacaq, digərləri

isə sıradan çıxacaqdır.

– Qarşıdan parlament seçkiləri gəlir. Əgər sirr deyilsə, namizədliyinizi irəli sürəcəksinizmi?

– Doğrusu məni deputat görmək istəyənlərdən çoxlu müraciətlər alıram. Məncə millətə xidmət etmək üçün parlamentdə təmsil olunmaq yeganə şərt deyil.

Söhbəti yazdı:
Surxay Əlibəyli.
"Ədalət" qəzeti,
28 sentyabr 1995-ci il

TƏHSİL ÖZFƏALİYYƏTƏ ÇEVRİLİB

Millət vəkili, N. Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru bu fikirdədir.

– Son vaxtlar ali məktəblərdə qəbulun test üsulu ilə keçirilməsinin ləğv olunması barədə fikirlər söylənilir. Siz bir rektor kimi bu üsulun saxlanmasının lehinəsiniz, yoxsa?…

– Tələbə qəbulu ilə məşğul olan Dövlət Tələbə Qəbulu Komissiyasının Təhsil Nazirliyindən ayrılıqda fəaliyyət göstərməsi təhsil sisteminin vahid rəhbərlik prinsipinə ziddir. Məncə, tələbə qəbulunun təşkilində müvafiq dəyişiklik etməklə təhsil müəssisələrinin bu işdə məsuliyyətini artırmaq lazımdır. Bu məqsədlə tələbə qəbulunun iki mərhələdə aparılmasını təklif edərdim. Əvvəlcə bütün abituriyentləri ümumi test yoxlamasından keçirmək lazımdır. Sonra isə müvafiq bilik həddini (minimumunu) nümayiş etdirən abituriyentləri müvafiq tədris müəssisəsində seçdikləri ixtisasın profil fənni üzrə müsabiqə imtahanından keçirmək səmərəli olar. Bununla da adətən test imtahanında müəyyənləşdirilməsi mümkün olmayan bilik, bacarıq və qabiliyyətləri və ya onların lazımi tələblərdən aşağı olmasını aşkar etmək imkanı yaranar. Müşahidə və təcrübə göstərir ki, hətta filologiya ixtisası üzrə test imtahanından müvəffəqiyyətlə keçib I kursa qəbul olunan tələbələrin xeyli hissəsi adi imla qaydalarını bilmir. Güman edirəm ki, bəzi ixtisaslara tələbə qəbulunda tətbiq olunan qabiliyyət imtahanı qaydası bütün ixtisaslara şamil edilməlidir.

– Nizami müəllim, özəl ali məktəblərin sayı getdikcə artmaqdadır. Bu sahədəki qüsurlar da kifayət qədərdir. Sizcə, özəl məktəblər ölkədə təhsilin inkişafına xeyir gətirirmi?

– Özəl təhsil sahəsində reallıqla mövcud qanunvericilik arasında ziddiyyəti və onun həlli lüzumunu qeyd etmək istərdim. Təhsil qanununda göstərilir ki, qeyri-dövlət təhsil müəssisələri maarifçilik-xeyriyyəçilik niyyəti ilə yaradılır və şəxsi qazanc məqsədi güdmür. Halbuki mövcud özəl təhsil müəssisələri, əsasən, tələbələrin vəsaiti hesabına maliyyələşir.

Təhsil qanununda müəyyən edilib ki, qeyri-dövlət təhsil müəssisələri təhsil qanunvericiliyinə əsaslanan daxili nizamnamələrə müvafiq surətdə idarə olunur. Lakin bunun əməli həlli mexanizmi hələ müəyyənləşdirilməyib. Doğrudur, ölkə başçısının müvafiq fərmanına əsasən, özəl təhsil müəssisələrinin fəaliyyətini tənzim etmək məqsədilə Nazirlər Kabinetinin yanında Dövlət Ali Ekspert Komissiyası (DAEK) yaradılmışdır. Lakin həmin komissiya öz işini hələlik yalnız özəl təhsil müəssisələrinin ekspertizası və qeydiyyatı üzərində cəmləşdirib, tədris fəaliyyəti isə onun nəzarətindən kənarda qalıb.

DAEK əməkdaşlarının bildiklərinə görə, qısa müddət ərzində ölkədə 150-dək özəl təhsil müəssisəsi yaradılıb, amma onlardan yalnız 84-nün sənədləri komissiyaya daxil olub. Azərbaycanda təhsil bir növ özfəaliyyət meydanına çevrilib. Yoxlamaların nəticəsinə görə 45 özəl təhsil müəssisəsinə mənfi rəy verilib. Hətta heç bir elmi potensialı və maddi bazası olmayan kənd rayonlarında da özəl təhsil müəssisələrinə aludə olublar. Görünür, bu sahədə müəyyən məhdudiyyətlər qoyulmalıdır.

Nəhayət, prinsipial əhəmiyyətli bir məsələ: özəl təhsil müəssisələri mahiyyətcə alternativ məktəb hesab edilsə də, əsas diqqəti rəqabətə yox, indi respublikamızda çatışmayan ixtisaslar üzrə kadr hazırlığına yönəltməlidir.

– MM-in təhsil, elm və mədəniyyət komissiyasında təhsil qanununa dəyişiklik və əlavələr edilməsi üçün işçi qrup yaradılıb. Bu qrupun, eləcə də ölkənin ali təhsil

ocaqlarından birinin rəhbəri kimi qanunda hansı dəyişiklik və əlavələri zəruri sayırsınız?

– Azərbaycanda ictimai-siyasi mübarizə və ziddiyyətlərin çox mürəkkəb şəraitində işlənib hazırlanan ilk təhsil qanunumuza tamamilə inkar edilməsindən tutmuş, yeni dövrün tələbləri ilə ayaqlaşan bir sənəd sayan baxışa qədər müxtəlif qiymətlər verilməkdədir. Belə rəylərə ictimai-siyasi dairələrdə, elm-tədris müəssisələrində və kütləvi informasiya vasitələrində kifayət qədər geniş yol verilir, hətta təhsil qanununu işləyib hazırlamaq təklifləri irəli sürülür. Həqiqətən, ötən dövr ərzində təhsil qanununun həyata keçirilməsi prosesində ortaya bir sıra ziddiyyət və çətinliklər çıxdığına görə, ona yenidən baxmağa ehtiyac var. Bunu bir sıra obyektiv amillər də şərtləndirir. Onlardan ən başlıcası 1995-ci il noyabrın 12-də ümumxalq referendumunda qəbul olunan ölkənin yeni konstitusiyasıdır. Hər bir normal cəmiyyətdə olduğu kimi, Azərbaycanda da bütün qanunvericilik aktları, o cümlədən təhsil qanunu yeni konstitusiyaya uyğunlaşdırılmalıdır. Bu zərurət onunla bağlıdır ki, yeni konstitusiyamız ölkə vətəndaşlarının təhsil hüququnu (42-ci maddə) ondan əvvəl qəbul edilmiş təhsil qanunundan fərqli müəyyən edir. Təhsil qanununun fəaliyyətdə olduğu üç il ərzində prezident fərmanı səviyyəsində ona bir sıra başqa əlavə və dəyişikliklər də edilib. Şübhəsiz, bunlar da təhsil qanununun mətninə daxil edilməlidir.

Təhsil islahatının strateji əhəmiyyətli problemlərindən biri də yüksək ixtisaslı elmi-pedaqoji kadrların hazırlanmasıdır. Bununla əlaqədar ortaya çıxan ən gərəkli məsələlərdən biri dünya təcrübəsinə uyğun olaraq ali təhsilin bakalavr, magistratura və doktorantura pillələrinin tətbiqi və bunun nəticəsində mövcud aspiranturaların taleyinin aydınlaşdırılmasıdır. Bir sıra mütəxəssislər elmlər namizədi dərəcəsini spesifik pillə kimi saxlamağı, statusunu isə magistrlə doktor arasında müəyyənləşdirməyi və yaxud bir sıra xarici

ölkələrdə hazırlanan doktor elmi dərəcəsinə bərabər tutmağı təklif edir. Buna uyğun olaraq magistratura ilə doktorantura arasında bir vasitə kimi aspiranturanı saxlamağı məsləhət görürlər. Lakin mütəxəssislərin digər qrupu bunu keçici hal sayır, təhsil qanunvericiliyində strateji məqsədləri, perspektivi əsas götürməyi irəli sürür. Nəticədə, ali ixtisas təhsili sistemində elmi dərəcələrin iki xəttindən birini seçmək təklif olunur: 1) bakalavr-magistr-elmlər namizədi-doktor; 2) bakalavr-magistr-doktor.

Qeyd etməliyik ki, ali təhsilin ikinci pilləsini təşkil edən magistratura, onun məzmunu, forması, harada və necə təşkili məsələləri də hələ açıq qalır. Görünür, burada qabaqcıl dünya ölkələrinin təcrübəsini daha dərindən təhlil edib milli mənafe və şəraitimizə uyğun nəticə çıxarmağa ehtiyac var.

Ali məktəblər həm də elmi mərkəz olduğundan, kafedranın tədqiqat mərkəzi kimi əhəmiyyəti böyükdür və onun bu funksiyası indiki böhran şəraitində xüsusilə artır. Ölkəmizdə elmi-tədqiqat institutları, laboratoriya və bölmələrinin aqibəti də qəti müəyyənləşməyib. Şübhəsiz, bu sahədə ayrıca bir qanunvericilik aktına ehtiyac var. Lakin bu məsələnin necə həll edilməsindən asılı olmayaraq, ali məktəb təhsillə yanaşı elmi mərkəz funksiyasını da qoruyub saxlamalıdır. Ancaq təəssüf ki, təhsil qanununda ali məktəblərin elmi fəaliyyəti ilə Respublika Elmlər Akademiyası arasında əlaqə və qarşılıqlı fəaliyyət məsələlərinə dair heç bir bölmə və ya maddə yoxdur. Belə güman edirik ki, bu məsələnin də qanunvericilik səviyyəsində həlli və təsbit olunması vacibdir.

"Azadlıq" qəzeti,
2 may 1996-cı il

TƏHSİL QURUCULUĞU: PROBLEMLƏR, MÜLAHİZƏLƏR

Müstəqilliyinin beşinci ilini yaşayan Azərbaycan Respublikası hüquqi, demokratik, sivilizasiyalı cəmiyyət quruculuğunun yalnız başlanğıc mərhələsini keçməkdədir. Lakin bu kiçik zaman kəsiyinin özü həm başqalarının təcrübəsini öyrənib tətbiq etmək, həm də öz təcrübəmizə nəzər salıb, uğurlarımızı diqqətlə seçərək daha da inkişaf etdirmək, nöqsan və uğursuzluqları isə dəf etməklə əvəzində yeni təşəbbüslər irəli sürmək baxımından kifayət qədər böyük zaman ölçüsüdür. Bu cür iki meyarla, iki dəyərlər sistemi ilə yanaşmaq lazım gələn əməli praktikamızın mühüm sahələrindən biri, müstəqil dövlətimizin ilk qanunvericilik aktlarından olan Azərbaycan Respublikasının Təhsil Qanunu və onun üç ildən artıq bir dövr ərzində həyata keçirilməsi təcrübəsidir.

Respublika ictimaiyyəti arasında ölkəmizdə təhsil islahatına, onun qanunvericilik əsaslarının hazırlanması və həyata keçirilməsinə, əldə etdiyimiz ilk təcrübəyə verilən qiymət müxtəlifdir. Azərbaycanda ictimai-siyasi mübarizə və ziddiyyətlərin çox mürəkkəb şəraitində işlənib hazırlanan ilk Təhsil Qanunumuza onun tamamilə inkar edilməsindən tutmuş yeni dövrün tələbləri ilə ayaqlaşan bir sənəd kimi qəbul edən baxışa qədər müxtəlif qiymətlər verilməkdədir. Belə rəylər ictimai-siyasi dairələrdə, elm-tədris müəssisələrində, kütləvi informasiya vasitələrində, o cümlədən qəzet səhifələrində kifayət qədər geniş söylənir, yeni reallıqları nəzərə alan Təhsil Qanunu işləyib hazırlamaq təklifləri irəli sürülür.

Əlbəttə, burada həmin mülahizə və qiymətlərin mənəvi-siyasi, fərdi-psixoloji incəliklərinə varmaq, hər birinin ictimai dəyərini, qərəzli-qərəzsiz şəxsi məqamlarını aydınlaşdırmaq nəinki yersizdir, hətta əsas mətləbdən yayınmaq kimi lüzumsuz

bir hərəkətdir. Bununla belə, respublikamızda suveren dövlətin öz ilk müstəqil Təhsil Qanununun geniş ictimai müzakirələrdən keçməklə qəbul olunması da faktdır. Lakin onun həyata keçirilmə prosesində ortaya bir sıra ziddiyyət və çətinliklərin çıxdığı da danılmazdır. Obyektivlik zəminində duran hər kəs bütün bu ziddiyyətlərin mənbəyini yalnız mövcud Təhsil Qanununun indikindən fərqli başqa bir ictimai-siyasi şəraitdə yaradılmasında axtarmamalı, yaşadığımız mürəkkəb keçid dövrünün öz obyektiv daxili çətinliklərini də nəzərə almalıdır.

Müstəqil Azərbaycan Respublikası gənclərinin fevralın 2-də Respublika sarayında keçirilən birinci forumunda Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev demişdir: "… indi bizim təhsilimiz bütün həyatımızın başqa sahələri kimi böhran dövrü keçirir… Məlumdur ki, bir neçə il bundan əvvəlki vəziyyət indi yoxdur. Yəni orta məktəblərdə, ali məktəblərdə təhsili təmin etmək üçün, dərsliklər hazırlamaq üçün və təhsili yüksək səviyyədə aparmaq üçün istənilən şərait yoxdur… Ancaq eyni zamanda bizim böyük müəllim potensialımız var, böyük alimlər potensialımız var, böyük elmi potensialımız var. Biz çalışmalıyıq ki, bu ağır dövrdə bütün bu imkanlarımızı gənclərin təhsillənməsinə, tərbiyələnməsinə həsr eləyək".

Bir sözlə, Azərbaycanda müstəqil təhsil sisteminin formalaşması prosesini ölkədə ümumi ictimai-iqtisadi, mədəni-siyasi yeniləşmə prosesinin daxili tərkib hissəsi kimi götürmək lazımdır.

* * *

Təhsil Qanununa yenidən baxılmasını şərtləndirən obyektiv amillərdən ən başlıcası Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin rəhbərlik etdiyi komissiya tərəfindən hazırlanıb 1995-ci il noyabrın 12-də ümumxalq referendumunda qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasıdır. Hər bir sivilizasiyalı cəmiyyətdə olduğu kimi Azərbaycan dövlətində də

bütün qanunvericilik aktları yeni Konstitusiyaya uyğunlaşdırılmalıdır. Əslində bu, referendumla eyni vaxtda seçilmiş yeni Azərbaycan parlamentinin də qarşısında duran ən mühüm və təxirəsalınmaz vəzifələrdən biridir. Azərbaycan Respublikasının Təhsil Qanunu da həmin hüquqi sənədlər sırasındadır. Bu zərurət onunla bağlıdır ki, Azərbaycan Respublikasının Konstitusiyası ölkə vətəndaşlarının təhsil hüququnu (42-ci maddə) ondan əvvəl qəbul edilmiş Təhsil Qanunundan fərqli müəyyən edir. Konstitusiyanın aliliyi prinsipi isə Təhsil Qanununun ona uyğunlaşdırılmasını tələb edir.

Təhsil Qanununun fəaliyyətdə olduğu ötən üç il ərzində prezident fərmanı səviyyəsində ona bir sıra başqa əlavə və dəyişikliklər də edilmişdir. Şübhəsiz, bunlar da Təhsil Qanununun mətninə daxil edilməlidir.

Təhsil islahatının həyata keçirilməsi prosesi, təbii ki, canlı bir prosesdir. Burada qanunvericilik təşəbbüsü nə qədər obyektiv və səriştəli olsa da, canlı həyatın bütün çalarlarını qabaqcadan görüb əhatə etmək mümkün deyil. Həyat isə bizi hətta təhsil kimi zahirən akademik görünən, mühafizəkar təsir bağışlayan, "ölçülü-biçili" bir sahədə də daxili ziddiyyətlərdən tutmuş təşəbbüs rəngarəngliyinədək ən müxtəlif hallarla qarşılaşdırır.

Nəhayət, hər bir yazılı sənəd nümunəsi, o cümlədən qanunvericilik aktı kimi Təhsil Qanunu da məzmun ünsürlərindən tutmuş üslubi məqamlarınadək müxtəlif variantlar, rəy və iradlar doğura bilər. Milli Məclisin Təhsil, Elm və Mədəniyyət komissiyasının tapşırığı ilə Təhsil Qanununu yenidən nəzərdən keçirən işçi qrupuna daxil olan rəy və təkliflər bunu bir daha təsdiq edir.

Azərbaycan Respublikasının yeni konstitusiyası iqtisadi, siyasi, humanitar-mədəni həyatımızın bütün sahələrində olduğu kimi respublika vətəndaşlarının təhsil hüququnu, onun həyata keçirilməsi yollarını, təhsil sisteminin təşkili prinsiplərini də müəyyən etmiş və burada mövcud təhsil qanunvericiliyindən

fərqli müəyyən cəhətlər ortaya çıxmışdır. Bunların arasında prinsipial əhəmiyyətli yenilik ölkə vətəndaşlarının pulsuz icbari ümumi orta təhsil almaq hüququna dövlətin təminat verməsidir (42-ci maddə 2-ci bənd). Məlum olduğu kimi, Təhsil Qanununun 15-ci maddəsində (5-ci bənd) əsas təhsil icbari elan edilir və "əsas təhsil" anlayışı altında V-VIII siniflər nəzərdə tutulur. Konstitusiyada isə bütün orta təhsil icbari hesab edilməklə xalqımızın ötən illərdə qazandığı mühüm mədəni nailiyyətlərdən biri olan hamılıqla tam orta təhsil almaq hüququ bərpa olunur və buna yüksək hüququ səviyyədə dövlət təminatı verilir. Həm də bu hüquq maddi vəziyyətindən asılı olmayaraq hər bir istedadlı gəncə şamil edilir. Orta təhsilin icbari hesab olunması Təhsil Qanununda ümumi orta təhsilin pillələrinin müəyyənləşdirilməsində müvafiq təshih aparılmasını zəruri edir. Daha doğrusu, bizim "natamam orta təhsil" adlandırmağı təklif etdiyimiz əsas təhsil pilləsini V-VIII siniflər deyil, V-IX siniflər, orta təhsil pilləsini isə X-XI siniflər kimi müəyyənləşdirmək məqsədəuyğun görünür.

Təhsilin icbariliyi anlayışı Təhsil Qanununda "məcburilik" kimi getmişdir və bu, elmi-pedaqoji ictimaiyyət arasında müxtəlif rəylərə səbəb olmuşdur. Belə fikir söylənir ki, təhsilin icbariliyi dedikdə, ona dövlət təminatı nəzərdə tutulur, vətəndaşlar tərəfindən məcburi mükəlləfiyyət kimi başa düşülmür. Zahirən sxolastik görünən bu mübahisənin ictimai-hüquqi cəhətinə diqqəti cəlb etmək istərdik. Hamılıqla tam orta təhsil almaq şəxsiyyətin hüququ olmaqla yanaşı həm də onun vəzifəsidirmi? Başqa sözlə, bu şagirdə hər hansı səbəbdən (ailənin maddi imkanının olmaması, şagirdin zehni qabiliyyətinin zəifliyi və s. və i.a.) orta təhsilin müəyyən pilləsində onu davam etdirməmək ixtiyarı verirmi? Konkret desək, natamam orta təhsil (əsas təhsil) pilləsindən sonra vətəndaş təhsilini dayandırıb sərbəst əmək fəaliyyətinə keçə bilərmi? Bu suallara müsbət cavab verənlər bir sıra ölkələrin pedaqoji praktikasına istinad etməklə yanaşı onu orta təhsil pilləsində qabiliyyətli şagirdlərə daha geniş şərait

yaradılması mülahizəsi ilə də əsaslandırırlar. Bu məsələ vətəndaşların konstitusiya hüquqlarına aid olduğuna görə, zənnimcə, onun təfsirində hüquqşünasların da rəyini bilmək lazımdır.

Təhsil hüququ problemləri sırasında onun idarə olunması ilə bağlı Təhsil Qanununun qüvvədə olduğu müddətdə qarşıya çıxan problemlər üzərində dayanmaq lazımdır. Doğrudur, son vaxtlar Təhsil Qanununun həyata keçirilməsi ilə bağlı Təhsil Nazirliyi tərəfindən 200-dək müxtəlif normativ sənəd hazırlanmışdır. Lakin mübahisəli məsələlər də var. Belə məsələlər arasında müxtəlif pilləli məktəblərin (ali, orta ixtisas) idarə tabeçiliyi məsələsi zidd rəylər doğurur. Əgər bu və ya digər sahə üçün kadr hazırlayan (səhiyyə, kənd təsərrüfatı, idman, mədəniyyət və s.) təhsil müəssisələrinin öz gələcək peşə – fəaliyyət sahəsinə yaxınlığını əsas götürənlər sahə-idarə tabeçiliyini müdafiə edirlərsə, elmi-pedaqoji prosesin vahid dövlət standartları mövqeyindən idarə olunmasını əsaslandırmağa çalışanlar isə bütün təhsil müəssisələrinin Təhsil Nazirliyində cəmləşdirilməsini məqsədəuyğun hesab edirlər. Bizə elə gəlir ki, hər iki tələbi ödəmək üçün ikili tabeçilik və ya səlahiyyətlərin dəqiq bölüşdürülməsi və uzlaşdırılması prinsipi əsas götürülməlidir.

Digər problem qeyri-dövlət (özəl) təhsil müəssisələrinin fəaliyyətinin təşkili, tədrisin məzmunu və onun həyata keçirilməsinə kömək və nəzarət məsələsidir. Təhsil Qanununun 29-cu maddəsində (təhsilin idarə olunması) müəyyənləşdirildiyinə görə qeyri-dövlət təhsil müəssisələri təhsil qanunvericiliyinə əsaslanan öz nizamnamələrinə müvafiq surətdə idarə olunur. Lakin əməli təcrübədə bunun həlli mexanizmi hələ müəyyənləşdirilməyib. Doğrudur, Azərbaycan prezidentinin müvafiq fərmanına əsasən özəl təhsil müəssisələrinin fəaliyyətini tənzim etmək məqsədi ilə Respublika Nazirlər Kabinetinin yanında Dövlət Ali Ekspert Komissiyası yaradılmışdır. Lakin həmin komissiya öz işini hələlik yalnız özəl təhsil müəssisələrinin

ekspertizası və qeydiyyatı üzərində cəmləşdirmiş, tədris fəaliyyəti isə onun nəzarətindən kənarda qalmışdır. Müzakirələrin gedişində belə rəylər söylənir ki, əməli rəhbərlik üçün Təhsil Nazirliyinin strukturunda da müvafiq bölmə yaradılması məqsədəmüvafiqdir.

İşçi qrupuna daxil olan təkliflərdə tələbə qəbulunun təşkili, bu işlə məşğul olan Dövlət Tələbə Qəbulu Komissiyasının Təhsil Nazirliyindən ayrılıqda fəaliyyət göstərməsi də təhsil sisteminə vahid rəhbərlik prinsipinə zidd hal kimi səciyyələndirilir. Tələbə qəbulunun təşkili mexanizmində də müvafiq dəyişiklik etməklə təhsil müəssisələrinin bu işdə məsuliyyətini artırmaq fikri söylənir. Bu məqsədlə tələbə qəbulunu iki mərhələdə aparmaq – əvvəlcə bütün abituriyentləri ümumi test yoxlamasından keçirmək, sonra isə müvafiq bilik həddini (minimumunu) nümayiş etdirən abituriyentləri müvafiq tədris müəssisəsində seçdikləri ixtisasın profil fənni üzrə müsabiqə imtahanından keçirmək irəli sürülür. Bununla da, adətən, test imtahanında müəyyənləşdirilməsi mümkün olmayan bilik, bacarıq və qabiliyyətləri və ya onların lazımi tələblərdən aşağı olmasını aşkar etmək imkanı yaranar. Bir sıra ali təhsil müəssisələri əməkdaşlarının bildirdiyinə görə, hətta filologiya ixtisası üzrə test imtahanından müvəffəqiyyətlə keçib I kursa qəbul olunan tələbələrin xeyli hissəsinin adi imla qaydalarını bilmədikləri üzə çıxmışdır. Belə təklif müəlliflərinin fikrincə, bəzi ixtisaslara tələbə qəbulunda tətbiq olunan qabiliyyət imtahanı qaydası bütün ixtisaslara şamil edilməlidir. Əks təqdirdə, onların təbirincə, müəllimliyə lal-pəltək, həkimliyə kar-kor və s. qüsurları olan abituriyentlər də gəlib düşə bilər. Qabiliyyət imtahanının bütün ixtisaslarda tətbiqi, habelə test imtahanından təsadüfi keçmə hallarının üzə çıxarılıb aradan qaldırılmasına da kömək edərdi.

İşçi qrupunun keçirdiyi müzakirələrdə Dövlət Ali Ekspert Komissiyası (DAEK) əməkdaşlarının bildirdiklərinə görə qısa müddət ərzində respublikamızda 150-dək özəl təhsil müəssisəsi yaradılmış, amma onlardan yalnız 84-nün sənədləri komissiyaya daxil olmuşdur. Təhsil bir növ özfəaliyyət meydanına çevrilmişdir.

Yoxlamaların nəticəsinə əsasən 45 özəl təhsil müəssisəsinə mənfi rəy verilmişdir. Hətta heç bir elmi potensialı və maddi bazası olmayan kənd rayonlarında da özəl təhsil müəssisələri yaratmağa qurşanıblar. Görünür, burada müəyyən məhdudiyyətlər qoyulmalı, bu sahədə mükəmməl mexanizm yaradılanadək yeni təhsil müəssisələrinin açılması və qeydiyyata alınması müvəqqəti dayandırılmalıdır.

Azərbaycan Respublikasının prezidenti H.Əliyev gənclərin ümumrespublika forumunda indi təhsil sistemimizdə digər islahat və dəyişikliklərlə yanaşı özəl təhsil sistemləri yaranmasını da təbii hesab etmişdir. "Bu özəl təhsil sistemləri, təhsil ocaqları təhsilimizin ümumi səviyyəsini aşağı salmamalıdır. Təəssüf ki, bəzi adamlar indi belə bir ağır şəraitdən istifadə edərək cürbəcür yollarla ancaq öz şəxsi məqsədlərinə nail olmağa, şəxsi mənfəət götürməyə çalışırlar… O yerdə ki, özəl təhsil təşkilatları doğrudan da günün ,, tələblərinə uyğun ola bilər, onlar fəaliyyət göstərə bilərlər. Ancaq o yerdə ki, günün tələblərinə uyğun deyillər, onların fəaliyyətinə imkan vermək olmaz".

Özəl təhsillə bağlı real praktika ilə mövcud qanunvericilik arasında yaranmış ziddiyyəti və onun həlli lüzumunu da qeyd etməliyik. Təhsil Qanununda (28-ci maddə) göstərilir ki, qeyri-dövlət təhsil müəssisələri maarifçilik-xeyriyyəçilik niyyəti ilə yaradılır və şəxsi qazanc məqsədi güdmür. Halbuki mövcud özəl təhsil müəssisələri əsasən tələbələrin vəsaiti hesabına maliyyələşir, onların müəyyən qismi təhsil xərcindən azad edilsə də əslində bunu digər tələbələr ödəməli olur. Yeri gəlmişkən, Təhsil Qanununda özəl məktəblərin yaradılması ilə bağlı işlədilən "şəxsi qazanc məqsədi güdmür" (28-ci maddə) ifadəsi hüquqi baxımdan dəqiqləşdirmə tələb edir. Çünki "şəxsi qazanc" anlayışına görülmüş işin müqabilində verilən əmək haqqı da daxildir. Görünür, burada "qeyri-qanuni qazanc" ifadəsi işlətməklə məsələyə aydınlıq gətirmək lazımdır.

* * *

Təhsil islahatının strateji əhəmiyyətli problemlərindən biri də yüksək ixtisaslı elmi-pedaqoji kadrların hazırlanmasıdır. Bununla əlaqədar ortaya çıxan ən ümdə məsələlərdən biri dünya təcrübəsinə uyğun olaraq "bakalavr", "magistratura" və "doktorantura" pillələrinin tətbiqi nəticəsində mövcud aspiranturaların taleyinin aydınlaşdırılmasıdır. İşçi qrupunda aparılan müzakirələrin gedişində Təhsil Qanununun 22-ci maddəsində yeni doktoranturalar fəaliyyətə başlayarkən elmlər namizədlərinin attestasiyasının keçirilməsi və onun nəticələrinə uyğun olaraq onlara "magistr" və ya "doktor" elmi dərəcəsi verilməsi kəskin mübahisələrə səbəb olmuşdur. Bəziləri "elmlər namizədi" dərəcəsini spesifik pillə kimi saxlamağı, statusunu isə magistrlə "doktor" arasında müəyyənləşdirməyi və yaxud bir sıra xarici ölkələrdə hazırlanan "doktor" elmi dərəcəsinə bərabər tutmağı təklif edirlər. Buna uyğun olaraq magistratura ilə doktorantura arasında bir vasitə kimi aspiranturanı saxlamağı məsləhət görürlər. Lakin mütəxəssislərin bəziləri həmin təklifi bu günün reallığından doğan hal kimi qiymətləndirərək təhsil qanunvericiliyində strateji məqsədləri, perspektivi əsas götürməyi irəli sürürlər. Nəticədə ali ixtisas təhsili sistemində elmi dərəcələrin iki xəttindən birini seçmək lazım gəlir: 1) bakalavr-magistr – elmlər namizədi – doktor; 2) bakalavr-magistr – doktor.

Qeyd etməliyik ki, ali təhsilin ikinci pilləsini təşkil edən magistratura, onun məzmunu, forması, harada və necə təşkili məsələləri hələ də açıq qalır. Görünür, burada qabaqcıl dünya ölkələrinin təcrübəsini daha dərindən təhlil edib milli mənafe və şəraitimizə uyğun nəticə çıxarmağa ehtiyac var.

Ali məktəblər həm də elmi mərkəz olduğundan kafedranın tədqiqat mərkəzi kimi əhəmiyyəti böyükdür və onun bu funksiyası indiki böhran şəraitində xüsusilə artır. Ölkəmizdə elmi-tədqiqat institutları, laboratoriya və bölmələrin aqibəti hələ qəti müəyyənləşməyib. Şübhəsiz, bu sahədə ayrıca bir qanunvericilik

aktına ehtiyac var. Lakin bu məsələnin necə həll edilməsindən asılı olmayaraq ali məktəb təhsillə yanaşı elmi mərkəz funksiyasını da qoruyub saxlamalıdır. Ancaq təəssüf ki, Təhsil Qanununda ali məktəblərin elmi fəaliyyəti ilə Respublika Elmlər Akademiyası arasında əlaqə və qarşılıqlı fəaliyyət məsələlərinə dair heç bir bölmə və ya maddə yoxdur. Belə güman edirik ki, bu məsələnin də qanunvericilik səviyyəsində həlli və təsbit olunması vacibdir.

Ölkəmizin iqtisadi, ictimai-siyasi, sosial-mədəni həyatının bütün sahələri kimi, təhsil sistemi də özünün mürəkkəb keçid dövrünü yaşayır. Təhsil Qanunundan tutmuş daxili intizam qaydalarınadək bütün normativ aktlar bir növ aprobasiya dövrünü keçirir. Məhz bu cəhət nəzərə alınmaqla hələ Təhsil Qanununun qüvvəyə minməsi barədə Milli Məclisin qərarında beşillik keçid dövrü müəyyən edilmişdir. Həmin müddət 1997-ci ilin axırınadək olan bir dövrü əhatə edir. Qanunun bəzi müddəalarının tətbiqində bunu yada salmaq lazım gəlir. Bu, xüsusən dövlət təlim-tərbiyə müəssisəsinə müvafiq olaraq müdir, direktor, rektor, prezident və s. adları başçı seçkisində nəzərə alınmalıdır. Bir sıra təklif müəllifləri Təhsil Qanununun 37-ci maddəsinin 3-cü bəndinin müvafiq tələbini dayandırmağı, rəhbər vəzifələrə təyinat qaydasını saxlamağı irəli sürürlər. Statistik məlumata görə, indi respublikamızda 4500 orta məktəb, 1600 uşaq bağçası, 170 peşə məktəbi, 80 texnikum və digər orta ixtisas məktəbi, 22 ali məktəb qeydiyyatdan keçmiş, 10 özəl təhsil müəssisəsi fəaliyyət göstərir. İndiki mürəkkəb şəraitdə bu sayda rəhbər işçinin seçkisinin keçirilməsi zamanı necə problemlərin qarşıya çıxacağını təsəvvür etmək çətin deyil. Təxminən 2 milyon 200 min kontingenti olan təhsil sistemi ölkə əhalisinin 30 faizi deməkdir.

* * *

Azərbaycan müstəqillik qazandıqdan sonra yeni cəmiyyət quruculuğunun sivilizasiyalı, demokratik modellərin axtarışı

prosesində, təhsil sisteminin yeniləşməsində dünya təcrübəsinə müraciət geniş miqyas almışdır. Burada başlıca problem ənənəvi milli dəyərlərlə dünya təcrübəsinin düzgün əlaqələndirilməsindən ibarətdir. Təhsil Qanununun önlüyündə bu cəhət işarə ilə göstərilir ki, Azərbaycan Respublikasının təhsil sistemi milli zəminə, ümumbəşəri dəyərlərə əsaslanır, demokratik xarakter daşıyır. Qeyd etməliyik ki, ümumiyyətlə, mədəni quruculuq sahəsində suveren dövlətimizin ilk müstəqil hüquqi aktlarından olan Təhsil Qanunu bu yolda irəliyə doğru atılan ciddi addımdır. Təhsil sisteminin yeni strukturu müəyyənləşdirilərkən təhsil müəssisələrinin tipləri və pillələri, elmi dərəcə və adlar, onların verilməsi qaydaları, ali məktəblərə qəbul, təhsil müəssisələrinin mülkiyyət mənsubiyyəti, sahə üzrə beynəlxalq əlaqə və əməkdaşlıq, o cümlədən əcnəbilərin ölkəmizdə və Azərbaycan vətəndaşlarının xaricdə təhsil almaq hüququ, bunun həyata keçirilməsi qaydaları və s. və i.a. məsələlər araşdırılmış və Təhsil Qanununda hüquqi ifadəsini tapmışdır. Bununla belə, təcrübədə bir tərəfdən yeni cəhətlər üzə çıxmış, digər tərəfdən Təhsil Qanununun özündə dəqiqləşdirmələr aparmaq, əlavə və düzəlişlər etmək, bir sıra məsələlərin yeni həllini tapmaq zərurəti yaranmışdır. “Lisey”, “kollec”, “seminariya”, “gimnaziya”, “akademiya” və s. adlar altında yaradılan və ya adı dəyişdirilən təhsil müəssisələrinin hüquqi statusu onların xarici ölkələrdəki statusu ilə bir sıra hallarda uyğun gəlmir. Şübhəsiz, tədris müəssisələrinin adlandırılmasında dəqiqlik və aydınlıq olmalıdır.

Beynəlxalq təcrübənin nəzərə alınması ilə bağlı çətinliklərin digər qismi yuxarıda qeyd etdiyimiz kimi, elmi dərəcə ixtisas dərəcəsi və elmi adlar və onların verilməsi qaydaları ilə bağlıdır. İş orasındadır ki, burada sovet məktəb ənənələri ilə yanaşı xarici ölkələrin təcrübəsinə də uyğun gəlməyən cəhətlər var. Burada da milli və ümumbəşər dəyərlərin düzgün əlaqələndirilməsinə çalışmaq lazımdır.

Mütəxəssislər və ictimaiyyət nümayəndələrinin mətbuatda

və digər kütləvi informasiya vasitələrindəki çıxışlarında bir tərəfdən beynəlxalq praktikanın milli dəyərlərimizlə uzlaşdırılması əsaslandırılır, digər tərəfdən isə, təhsilin yalnız müəyyən bir modelinə, məsələn, Türkiyə nümunəsinə üstünlük verilir. Belə nümunələrin təcrübə mübadiləsi və örnək kimi öyrənilməsini, hətta ölkəmizdə tək-tək hallarda fəaliyyət göstərməsini bir təcrübə sınaq kimi qəbul etmək olar. Lakin bütün təhsil sistemini kompilyasiya prinsipi ilə qurmaq, milli ənənə və dəyərlərə arxa çevirmək gənclərimizin təlim və tərbiyəsini başqa ölkə və xalqların dəyərləri üzərində kökləmək azı milli ideologiya aşılanması, vətənpərvərlik tərbiyəsi kimi yüksək prinsiplərlə uyuşmur.

Hörmətli prezidentimiz Heydər Əliyev forumdakı nitqində bu sahədə strateji xəttimizi belə ifadə etmişdir: "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır. Bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz". Hörmətli prezidentimiz yalnız belə bir zəmində ümumbəşər mədəni sərvətlərə, o cümlədən islam dininin dəyərlərinə yiyələnməyi, Şekspiri ingilis, Puşkini rus dilində oxumağı, digər dilləri də öyrənməsini tövsiyə edir.

Bir sıra ali məktəb rəhbərləri təhsil sahəsində beynəlxalq əlaqələrin, o cümlədən müəllim-tələbə mübadiləsinin gücləndirilməsi üçün onların müstəqillik dərəcəsinin artırılmasını təklif edirlər. Təhsil Qanununda bu barədə müvafiq müddəa (24-cü maddə) olsa da, həmin məsələlərə hüquqi aydınlıq gətirilməsinə, görünür, ehtiyac var.

* * *

Cəmiyyət həyatımızın mürəkkəbliyi, sosial problemlərin kəskinliyi hamıdan əvvəl müəllim və tələbələrə, məktəbin maddi

təchizatı məsələlərinə daha ağır təsir göstərməkdədir. Bütövlükdə mədəniyyətimiz kimi, elm və məktəbin də həm strateji qanunvericilik səviyyəsində, həm də cari himayə və qayğıya böyük ehtiyacı var.

Bütün dünyanın hüquqi mədəniyyət tarixindən göründüyü kimi hər bir qanunvericilik aktı uzunömürlülük iddiası ilə hazırlanıb qəbul edilsə də, zaman, canlı praktika öz işini görür, sözünü deyir. Təhsil Qanununun qəbulundan çox vaxt keçməsə də burada yeni reallıqlara uyğun gəlməyən müddəa və ifadələrin, il göstəricilərinin və s. düzəlişinə ehtiyac var. Bunların bir çoxu maddələr üzərində redaktə işi kimi səciyyələndirilə bilər. Elə məsələlər də var ki, praktikada müəyyən çətinlik törətdiyinə, dolaşıqlıq yaratdığına görə yeni qaydada ifadə olunmalıdır. Məsələn, Qanunun 20-ci maddəsində ali təhsil müəssisələrinin "bakalavr" pilləsində əsas ixtisas fənlərinin tədrisi başa çatdıqda tələbələrin kafedra qarşısında yekun dövlət imtahanları verməsi qaydası tətbiq olunur. Ali məktəb rəhbərləri haqlı gileylənirlər ki, bu qaydanın tətbiqi, əvvəla, çoxlu dövlət imtahanlarına, başlıcası isə ixtisas fənni bir neçə kafedra arasında bölünən təhsil müəssisələrində kafedralararası mübahisələrə gətirib çıxarır. Burada çıxış yolu kimi yekun dövlət imtahanlarının kafedra qarşısında deyil, əvvəlki praktikada sınaqdan çıxmış qaydada dövlət imtahan komissiyası qarşısına verilməsi təklif olunur.

Təhsilin formaları sırasında ekstern, sərbəst təhsilin müasir şəraitdə özünü doğrultmadığı, yaxud bunun üçün hələ şərait yetişmədiyi göstərilir.

Təhsil Qanununun 3-cü maddəsində (9-cu bənd) dövlət və qeyri-dövlət təhsil müəssisələri məzunlarının yuxarı pillədən olan növbəti təhsil müəssisəsinə qəbul edilərkən bərabər hüquqa malik olduqları göstərilir. Lakin həmin təhsil müəssisəsi tiplərinin (dövlət və qeyri-dövlət, ödənişli və ödənişsiz) birindən digərinə keçidin mümkünlüyü və ya qeyri-mümkünlüyü məsələsi öz hüquqi həllini tapmamışdır.

Nəhayət, təklif və müzakirələrdə Təhsil Qanununun bir sıra maddələrinin işləmədiyi göstərilir, onlara hüquqi səviyyədə münasibət bildirilməsi (qanundan çıxarılması və ya həyata keçirilmə mexanizminin tapılması) təklif olunur. Məsələn, Qanunun 50-ci maddəsinin 1-ci bəndində təlim-tərbiyə müəssisəsi işçilərinin əmək haqqının tədriclə qabaqcıl ölkələrin təhsil işçilərinin əmək haqqı səviyyəsinə çatdırılması, həmin maddənin 8-ci bəndində təhsil işçilərinin müəyyən kateqoriyalarına səhhətinə dəyən zərəri ödəmək üçün əmək haqlarının (vəzifə maaşlarının) 15-25 faizindən az olmayaraq ödənc verilməsi; 3-cü maddənin 5-ci bəndində pullu təhsil müəssisələrində təhsil alan az təminatlı vətəndaşlara eyni növ və tipdən olan dövlət təhsil müəssisələrinin normativləri əsasında dövlət tərəfindən ödənc verilməsi; 39-cu maddədə pedaqoji mətbuat, dərsliklər, tədris-metodiki vəsaitlərin nəşri, ali məktəblərin nəşriyyatlarının dövlət vəsaiti hesabına maliyyələşdirilməsi; 48-ci maddədə icbari təhsil fondu yaradılması, aztəminatlı ailədən olan ibtidai sinif şagirdlərinə pulsuz isti nahar yeməyi müqabilində pul ödənişi verilməsi, forma və dərsliklərin pulsuz verilməsi, kənd yerlərində məktəbdən aralı yaşayan şagirdlərin nəqliyyat təminatı, tələbə və aspirantların təqaüdünün qabaqcıl ölkələrdəki səviyyəyə çatdırılması; 54-cü maddə təhsil müəssisələri və işçilərinə xidmət edən təmir-tikinti idarələri üçün güzəştli vergi sistemi və s. müddəalar bu günədək əslində deklarativ bəyanatlar həddini keçə bilməmişdir.

Beləliklə, Təhsil Qanununun yaşadığımız dövrün gerçəkliyi, hüquqi dövlət quruculuğunun təcrübəsi, qanun yaradıcılığı praktikası baxımından yenidən nəzərdən keçirilməsi ictimai-hüquqi tələbdir, inkişafın gedişindən doğmuşdur.

Məqalə 1996-cı ildə yazılmışdır

CƏNUBİ AZƏRBAYCANDA TƏHSİL MƏSƏLƏLƏRİ

Dünyəvi təhsil sisteminin on min ildən artıq yaşı var. Bəşəriyyət bu müddət ərzində öyrənib, öyrədib, öyrənmə prosesini mərhələli şəkildə təkmilləşdirib. Uzaq dövrlərin təhsil sistemi, onun metod və mexanizmi haqda dəqiq fikirlər söyləmək çətin olsa da, bu gün bəşəriyyəti inkişafa və tərəqqiyə istiqamətləndirən maarif işığının bir zamanlar möhkəm təməllər üzərində qurulduğunu etiraf etmək lazımdır. Əsas məqsədi xalqın mənəvi potensialını üzə çıxarmaq və cəmiyyətin faydası üçün istiqamətləndirmək olan bu xidmət sahəsi öz işini mərhələli şəkildə həyata keçirməkdədir. Ayrı-ayrı ölkələr üzrə təhsilin tarixinə nəzər saldıqda məlum olur ki, İngiltərədə bu işə XIII əsrdə başlanılıb. İtalyanların mükəmməl təhsil sistemi isə təxminən üç əsr sonra – XVI əsrdə formalaşmağa başlayıb. Fransada təhsilin, maarifin tarixi XVIII əsrdən hesablanır. Almaniyada XIX əsri təhsilin dirçəliş dövrü hesab etmək olar. Bu gün hər sahədə dünya hegemonluğu qazanmış Amerika Birləşmiş Ştatlarında isə təhsilin yaşı çox cavandır: XX əsrdən başlanır. Azərbaycanda da sivil dünyəvi təhsil sistemi ötən əsrdən qurulmuşdur. Lakin tarixi Azərbaycan ərazisində eyni dil, düşüncə, ədəbi-mədəni dəyərlərin təbliğinə əsaslanan təhsil sistemi “Gülüstan” və “Türkmənçay” müqavilələrinə qədər bu və ya digər formada mövcud olmuş, həmin təlimin əsasında vahid Azərbaycan xalqı, ədəbi dili, coğrafi əraziləri, mənəvi dəyərləri və tarixi şəxsiyyətlərinin təbliği baxımından əsaslı işlər görülmüşdür. Lakin XIX əsrin birinci yarısında dünyanın siyasi xəritəsində baş verən radikal dəyişikliklər Azərbaycan xalqının taleyində faciələrlə

nəticələndi: ərazisi iki imperiya arasında parçalandı, bu ərazilərdə yaşayan bir xalqın siyasi, iqtisadi, mədəni həyatı hegemon dövlətlərin maraqları ilə müxtəlif inkişaf sürəti ilə yaşamağa məcbur edildi. Bu təsir, xüsusən təhsil sistemində öz faciəli təsirini buraxmış oldu. Güney Azərbaycanla Quzey Azərbaycanın təhsilində həm formaca, həm də məzmun və mahiyyətcə ciddi fərqlər üzə çıxmağa başladı. Quzeydə SSRİ birliyinə qatılmış respublikaların şərti müstəqilliyi zəminində milli təhsilə geniş şərait yaradılsa da, ideoloji təzyiqlərin təsiri hər an öz desturiktiv nəticəsini göstərirdi. Sovet məktəblərində, xüsusən humanitar fənlərin tədrisi zamanı ateizm ruhunun aşılanması, kommunist əxlaqı və təlimindən irəli gələn tələblər – fərdin maraqlarını, düşüncə və təşəbbüskarlığını kollektivin maraqlarına tabe etdirmək, milli dil, əxlaq, adət-ənənə, bayram və mərasimlərində kommunist modeli formalaşdırmaq baş alıb gedirdi. .. Novruz bayramının yasaqları bu sahədəki mənəvi qadağaların bariz nümunəsidir. Əksinə, milad bayramının hüdudsuz təntənəsində 15 müxtəlif düşüncə tipinə məxsus milləti bir əxlaq çevrəsinə sıxışdırmaq meyili gündən-günə güclənirdi.

Təhsil milli dildə keçirilsə də dövlət dilinin o zamankı məhəlli xarakteri, yerli xalqı imperiya dilində təhsil almağa məcbur edir, xüsusən, Bakıda anadilli məktəblərin sayı get-gedə azalırdı. Azərbaycanın paytaxtında azyaşlı uşaq müəssisələrinin, körpələr evi və uşaq bağçalarının vəziyyəti isə bu mənada daha acınacaqlı idi.

Milli dildə təhsilin kosmetik azadlığı, müstəqilliyi fonunda SSRİ xalqlarının tarixinin saxtalaşdırılması, tədrisdə imperiya tarixinin tədrisinə böyük üstünlük verilməsi, ədəbi şəxsiyyətlərin təbliği zamanı rus klassiklərinə on dəfələrlə çox yer ayrılması adi hala çevrilmişdi. Azərbaycanın tarixi qəhrəmanları haqda oçerklərə milli dərsliklərdə belə çox səthi yer ayrılır, yeniyetmə və gənclərdə milli natamamlıq

kompleksi formalaşırdı.

Bu proses Vətənin ayrı salınmış başqa bir parçasında – Güney Azərbaycanda şovinizm üsuli-idarənin maraqları çevrəsində həll olunurdu. İranda mövcud olmuş fərdi, dövlət təhsil müəssisələrində Azərbaycan dilində təhsil birmənalı şəkildə qadağan olundu. İslam faktorunu milli dəyərlərdən önə çəkənlər İrandakı ən azsaylı etnik toplum olan ermənilərin bütün dini, dünyəvi maraqlarını söz-süz yerinə yetirdikləri halda, 35 milyondan artıq soydaşımızın milli hüquqlarını şovinizm süngüləri ilə qarşıladılar.

Təhsil insanların əqli, intellektual bacarıq və qabiliyyət potensialının hərtərəfli inkişafına, dirçəlişinə və fəallığına kömək edən təməl vasitəsidir. Bunu nəzərdə saxlayan imperiya funksionerləri hər iki sahədə xalqın harmonik inkişafına fərd və kütlə kontekstində destruktiv təsirlər göstərməyə çalışırlar. Əsl faciə budur ki, hər iki Azərbaycanın (Güney və Sovet Azərbaycanı – N.X.) təhsil sistemində ikiyə bölünmüş vətənin problemlərindən məlumatsızlıq çevrəsi yaratmaq başlıca vəzifə kimi həyata keçirilirdi. Bunun da nəticəsində zaman keçdikcə sərhədlə ayrılmış bir xalqın yadlaşması prosesi başlanmış, quruluş, ictimai formasiya fərqi Vətənin ögeyləşməsi hissini yarada bilmişdi. Xüsusən, Cənubi Azərbaycanda ana dili, tarix, ədəbiyyat kimi humanitar fənlərin öyrədilməməsi nəticəsində orta məktəbi bitirənlərin 90 faizi dünya şöhrətli Azərbaycan dahilərini tanımırlar. Dili, tarixi, görkəmli şəxsiyyətləri ilə Vətən olan ərazi haqda informasiya qıtlığı yaradılan belə "təhsil ocaqları" azərbaycanlıları öz milli varlığından, etnik qaynaqlarından ayırmağa xidmət edir. Cənubi Azərbaycanda təhsilin zəruri olan üç təməl prinsipi: məzmun, texnologiya və keyfiyyət prinsipləri şovinist qüvvələrin tam nəzarətində olduğuna görə burada demokratiyanın heç izlərini də müşahidə etmək olmaz. 1945-

ci ildən sistemli şəkildə keçirilən assimilyasiya siyasəti təhsildə də özünü qabarıq şəkildə büruzə verməkdədir. “Cahil olan daim ağıllının quludur” prinsipi üzrə azərbaycanlıların təhsilinə müdaxilə edənlər həmişə strateji maraqları diqqətdə saxlamış, savadsız kütləyə hökm etməyin asan olduğuna inanmışlar. “Bilikdə Allahın gücü var” deyən Hüseyn Cavidin fikirlərini öz məqsədlərinə istiqamətləndirən şovinistlər milyonlarla soydaşımızı kor kütləyə çevirməyi qarşıya məqsəd qoymuşdular…

Milli təhsilin əsasında milli ədəbi dil dayanır. Güney Azərbaycanda ədəbi dilin qanun və normativlərini hazırlayıb həyata keçirmək arzusunda olanlar hələ XIX əsrin II yarısında ilk təşəbbüslər göstərmişlər. 120 il bundan əvvəl Azərbaycanın görkəmli maarifçisi Mirzə Həsən Rüşdiyyə “Vətən dili” kitabını yazarkən xalqın bu sahədəki ehtiyaclarını aradan qaldırmaq məqsədini nəzərə almışdı. Onun Təbrizdə açdığı anadilli məktəblərdə “Vətən dili” yeganə və məqsədli dərslik kimi savadsızlığın aradan qaldırılmasında böyük iş gördü.

Mirzə Həsən Rüşdiyyə (1899) həm də öz təhsilini, biliyini daim zənginləşdirmək qayğısına qalır, əvvəl Nəcəfdə sonra isə 9 il İstanbulda, Beyrutda, eləcə də Misirdə müəllimlik dərsi alır. Mükəmməl təhsil görən Mirzə Həsən yenidən Təbrizə qayıdıb Şişgilan məhəlləsində yeni üsullu məktəb açır. 60 saat ərzində azərbaycanlı balalarına yazıb-oxumağı öyrədən görkəmli maarifçi (1), həm də onları milli ruh azərbaycançılıq ideologiyası ilə tərbiyə edirdi. Mirzə Həsən Rüşdiyyənin maarifçilik xidmətləri hələ xeyli əvvəl başlamış, Təbrizə gəlməzdən əvvəl İrəvanda 5 il Azərbaycan məktəblərində dərs demişdi. 1882-ci ildə İrəvanda fəaliyyətə başlayan yeni nümunəli “Üsuli-cədid” məktəbi Mirzə Həsənin adı ilə bağlıdır. Görkəmli maarifçi dilimizin bütün incəliklərini, qanunauyğunluqlarını sadə və müxtəsər şəkildə

öz dərsliyində əks etdirmişdi. O, bütün ömrü boyu Azərbaycan övladlarına asan yolla mükəmməl təhsil verməyin yollarını işləyib hazırlamış, bu yolda heç nəyi əsirgəməmişdir (2). F.Köçərli yazırdı: "Azərbaycan yeganə ölkədir ki, səs üsullu (ahəng qanunu) uyğunluğu ilə tədrisin əsasını qoymuşdur" (3).

Qeyd etmək lazımdır ki, o vaxtlar Təbriz ölkədə ictimai fikrin mərkəzlərindən birinə çevrilmiş, yeniliklərin və inkişafın əsas ünvanına çevrilmişdi. İran ərazisində ilk çap avadanlığının 1811-ci ildə Təbrizdə quraşdırılması da buradakı ictimai-mədəni mühitin aparıcı mövqeyindən xəbər verir. Maarifçi M.H.Rüşdiyyənin "Vətən dili" kitabı da Təbriz Universitetinin təhsil mərkəzindəki mətbəədə işıq üzü görmüşdü. İngilis alimi doktor Barenza 1830-cu ildə İrana səyahət edərkən Təbriz əhalisinin 400 minə çatdığını qeyd edirdi (nəzərə alaq ki, o vaxt Tehranda cəmi 25 min əhali yaşayırdı). Barenza fəxr edərək yazırdı ki, avropalılar Təbrizdə özlərini Avropadakı kimi hiss edirlər. Buradakı mədəni mühit heyranedicidir (4).

XIX əsrin ortalarında Cənubi Azərbaycanda beş çapxananın mövcudluğu faktı da Təbrizin həmin dövrdəki aparıcı mövqeyindən xəbər verir. 1951-1953-cü illərdə bir-birinin ardınca çap olunan "Qarabağnamə", "Dərbəndnamə", "Müntəxəbat" kimi kitabları Azərbaycan xalqının ictimai şüurunda fəallaşma ilə müşahidə olunurdu. Təbrizdə çap olunan kitablar tezliklə yaxın-uzaq ölkələrin kitabxanalarına yayılaraq Azərbaycan dili, tarixi və mədəni dəyərləri haqda məlumatların coğrafiyasını genişləndirdi. Məhəmmədəli Tərbiyətin yazdığına görə, Təbriz dünyada birinci türk şəhəridir ki, mətbəəsi var. Bu mətbəələrdə türk ruhu hakim kəsildiyindəndir ki, mətbəə əvəzinə basmaxana deyimi işlədilirdi (5). Məhz bu çap avadanlığı, elmə, maarifə marağın güclü olduğu mühitdə xalqın ehtiyaclarını öz

çiyinlərinə götürən yeni ziyalılar meydana çıxır, anadilli təhsilin elmi əsaslar üzrə geniş arenada tətbiqinə imkan yaradır.

M.H.Rüşdiyyə ənənələrinin davamı kimi 21 il sonra Xalxal şəhərində açılan məktəb də milli təhsil və müasir təlim üsulu ilə xalqın marağına səbəb oldu. Nasir Dəftər Rəvayi tərəfindən əsası qoyulan bu təhsil ocağında bir vaxtlar Bakıda təhsil alıb gəlmiş azad fikirli maarifçi Mirzə Məhəmməd Tağı dərs deyir, təlim işinə rəhbərlik edirdi. Məktəbdə türk dili Osmanlı ləhcəsi ilə tədris olunurdu. Deyilənə görə, bu tədris azərbaycanlıların da xoşuna gəlirdi. Tədrisdə tətbiq olunan yeni üsullar sürətli və mükəmməl qavramaya şərait yaradırdı (6).

Cənubi Azərbaycanda xalq maarifinin həqiqi çiçəklənmə dövrü kimi yadda qalan bu illərdə dərsliklərin yeni çapı və təkmilləşməsi istiqamətində xeyli iş görülmüşdür. Mirzə Sadiq Təbrizli Molla Əsədulla məhz bu ədəbi qaynarlığı hiss edərək 1893-cü ildə 5 cildlik "Xəmsə Ədəbiyyə" adlı dərsliyini yazıb çap etdirdi. Bu kitab tezliklə yeni yaradılan məktəblərdə dərslik kimi istifadə olundu (7). İlk növbədə savadsızlığın ləğvinə istiqamətləndirilən bu məktəblər dərsliklərin sadəliyinə və sanbalına daha çox əhəmiyyət verirdi. Çox vaxt dərsliyin məzmun və əhəmiyyətindən tədris ocağının gələcək uğuru asılı olurdu. Sevindirici haldır ki, istər yeni dərsliklərin, istərsə də təhsil ocaqlarının boy artımı, həm də məna-məzmun inteqrasiyası ilə tamamlanırdı. Maraqlıdır ki, Təbrizdə açılan "Tərbiyyət" adlı məktəbin müdiri Mirzə Əbdülrəhim də buradakı tədrisi 1912-ci ildə yazıb çap etdirdiyi "Ana dili" kitabı əsasında qurmuşdu. Mirzə Əbdülrəhimin dərsliyi tezliklə yaxın şəhər və qəsəbələrdə, o cümlədən Marağada dərs vəsaiti kimi məşhur oldu.

Azərbaycan dilində tədrisin şəbəkəsi genişləndikcə

İrandakı əcnəbilərin də bu dilə münasibətində yumşalma hiss olunurdu. Xarici missionerlərin İrandakı təhsil ocaqları ᵘMemorialiskul”da Azərbaycan dilinin öyrənilməsi də cəmiyyətdəki ab-havanın təsiri ilə baş vermişdi. Əsas məqsədi ölkədə xristian tələssübkeşliyi, xüsusilə erməni diasporuna xidmət etmək olan bu təhsil ocağı Azərbaycan faktorunun real siyasi gücə çevrilməsindən ehtiyatlanaraq onun dilini öyrənmək, bu vasitə ilə ünsiyyət yaratmaq məcburiyyətində qalmışdı.

Təhsilin milliləşməsi istiqamətində başlanan bu proses tezliklə mədəni-kütləvi tədbirlərin, şeir-sənət törənlərinin ana dili müstəvisinə keçməsi ilə nəticələndi. Şah İsmayıl Xətai ideyalarının cəmiyyətə transformasiyası istiqamətində görülən tədbirlərin nəticəsində Təbriz tezliklə anadilli mətbuatın, elan və reklamların, şüar və transporantların şəhərinə çevrilirdi. Xalq artıq öz dilində yazıb-oxuyur, gözəl sənət əsərləri yaradırdı:

Amalımız, əfkarımız iqbalı Vətəndir,
Sərhəd bizim, qala bizim xaki Vətəndir.
Dava günü yeksər görünən qanlı kəfəndir,
Azərbaycanlılarıq, can veribən nam alaraq biz…

Belə kamil bədii nümunələr məhz Təbrizdə fəaliyyət göstərən “Səadət”, “Ədəbiyyə”, “Novbar”, “Rüşdiyyə”, “Rüşdi-qüds” kimi anadilli məktəblərin təlim-tərbiyəsi əsasında həyata atılan gənclərin qəlbindən qopurdu. Bu dil məşrutə hərəkatı zamanı da yazı və şüarların rəsmi dilinə çevrildi:

“Çox yaşa, ey əncumən, ey əfsərü fövqi Vətən,
Dövləti məşrutə ilə millət oldu dərəman!..”

Milli təhsil haqqını yuxarıların yardımı olmadan öz iradəsilə həyata keçirən xalqın oyanışı, özünüdərkini görən şovinistlər radikal tədbirlərə əl atdılar. Bütün məktəblərdə farsca tədris qanun səviyyəsinə qaldırılarkən Azərbaycan dilinə qəti qadağalar qoyuldu. Milli mətbuatın təqibi tezliklə onun tam qapanması, mətbəə və çapxanaların dağıdılması ilə nəticələndi. 80 ildən artıq sürən bu milli qadağalardan İranda yaşayan xalqlar sırasında azərbaycanlılar daha çox əziyyət çəkirdilər (8).

Nəhayət, xalqın iradəsi hesabına 1945-ci ildə baş verən inqilab nəticəsində bir illik də olsa, öz milli haqlarının qaytarılmasına nail oldular. Azərbaycan siyasi, iqtisadi, mədəni haqlarını, o cümlədən təhsil haqlarını da tez bir zamanda bərpa etdi. Xalq yenə öz dilində yazıb-oxumağa, qəzetlər, dərgilər çap etməyə, kitablar buraxmağa başladı. Lakin bunların əsasında yenə də xalq maarifi, milli təhsil sistemi dayanırdı. Çünki 80 ildən artıq baş vermiş durğunluq öz neqativ izlərini buraxmış, ədəbi dilin ənənələri yaddaşlardan pozulub getmişdi. Bunu nəzərə alan Azərbaycan Demokratik hökuməti ilk fərmanlarını milli təhsilin yenidən bərpasına istiqamətləndirdi. Bu fərmanda təhsilin ana dilində (Azərbaycan dilində) ibtidai, orta, ali məktəblər üzrə icbari surətdə həyata keçirilməsi nəzərdə tutulurdu. Bu milli borcu yerinə yetirməyə mane olanlar xalq düşməni kimi ağır cəzaya layiq görülürdülər. Bu sahədə sürətli təşkilatlanma işi görülür, görkəmli maarifçilər, müəllimlər səfərbər olunurdular. Yeni dərsliklərin, proqram və ədəbiyyatın nəşrinə geniş imkanlar yaradılırdı. Hətta dərsliklərin birinci səhifələrində yaddaş xarakterli qeydlər öz əksini tapırdı: “İllərdən bəri sürən zülm və ədalətsiz siyasət nəticəsində unutdurulmuş ana dilimizin yenidən bərpası üçün, böyük tarixə malik yurdumuzu maarif və mədəniyyət sahəsində tanıtmaq, millətimizi mütərəqqi millətlər sırasına

çıxarmaq üçün Azərbaycan milli hökuməti öz proqramında ana dilini rəsmiləşdirmiş, məktəblərdə milli tədris üsulunu tətbiq etmək məqsədilə kitab komissiyasının yaradılması haqda 28 Azər tarixli əmr imzalamışdır".

Bu fərman təhsili icbari edir və hər bir vətəndaşın ana dilində təhsil almaq hüququnu qanuniləşdirir. Humanitar fənlərin geniş tədrisi ilə müşayiət olunan təhsil sistemində ən çox milli dil, dövlətçilik, xalqın qəhrəmanlıq tarixi öyrədilir. Qısa müddət ərzində Təbriz Universiteti öz fəaliyyətini bərpa edərək 10 minlərlə azərbaycanlını milli təhsilə qovuşdurur.

Amma xalqın milli dirçəlişi və siyasi oyanışı ilə yadda qalan azadlıq sevinci çox sürmür. Şovinist İran üsuli-idarəsi 100 minlərlə azərbaycanlını qətlə yetirməklə yenidən onların bütün insani hüquqlarını süngülərlə qarşılayır. Məktəblərin, universitetlərin qarşısında dar ağacları qurulur, milli hissini, duyğusunu ifadə edənlər edam olunur, dustaqxanaların qaranlıq küncünə atılır. Azərbaycan məktəbləri bağlanır, mətbəələr dağıdılır, kitabxanalara od vurulur. Bu acı səhnələrin şahidi olanlar sırasında xalq şairi Balaş Azəroğlu da vardı. O, tonqallara atılan xəzinəni gözləri önündə canlandıraraq belə yazırdı: "Xalqın təfəkkür dünyasının yadigarları odlandı. Alovların dilləri kitabları vərəqlədikcə neçə-neçə dahinin, mütəfəkkirin, sənət bahadırlarının şəkilləri tonqallardan boylanıb cəlladlara nifrətlə baxırdı".

Bu qəddarlıq İranda İslam inqilabının qələbəsi, Pəhləvi rejiminin çökməsi gününədək davam etdi (1970). İnqilab İranda yaşayan bütün xalqlara öz milli düşüncəsini, mədəniyyətini inkişaf etdirmək üçün konstitusiya hüququ verirdi. Lakin bir il keçməmiş bu vədlər unuduldu, milli mədəniyyətlərin inkişafı istiqamətində atılan bütün addımlar şovinist qarşıdurma ilə müşahidə olundu.

Təəssüflər olsun ki, imperiya funksionerləri belə bir ziddiyyətli şəraitdə milli manqurtların kosmopolit

təkliflərindən də yararlanaraq, guya İranda bütün xalqların farsdilli təhsilə yüksək maraqları olduğu fikri yayırdılar. Məktəblərin qapadıldığı, mətbəələrin dağıdıldığı bir şəraitdə ana dilinin keşiyində yenə də tarixən dili yaradan və ən uca duyğuya çevirənlər qalxdılar: "M.Şəhriyar, Bulud Qaraçöplü (Səhənd), Cabbar Baxçoban, Səməd Behrəngi, Nüsrətulla Fəthi, Məmmədəli Məhrun, Məmmədəli Fərzanə, Yadulla Əmini, Həbib Sahir, Əli Təbrizli, Cavad Heyət, Əli Daşqın, Mehdi Nəimi, Hüseyn Şərqi Soytürk, Hüseyn Düzgün kimi şair ədib, sənətçi, ziyalıların hesabına dil öz milli mövcudluğunu qoruyub saxlaya bildi". Xalqın siyasi fəallığı getdikcə artır, azərbaycanlıların etnik varlığının qorunması istiqamətində daxili təşkilatlanma sürətlənirdi.

Dil tarixi, etnogenez məsələlərinə həsr olunmuş əsərlərin qeyri-leqal çapı da bu sahədə öz təsirini göstərir, milli dilə, mədəniyyətə təşnə olan xalqın siyasi şüurunun formalaşdırılmasında öz xidmətini göstərirdi. Şahlıq rejiminin şovinist siyasətini yeni şəraitdə davam etdirən imperiya funksionerləri türkdilli təhsilin və mətbuatın qarşısını almaq üçün müxtəlif gizli üsullara əl atırdılar (9). Lakin bu milli potensialı, əks təsiri hiss edən ölkə rəsmiləri açıq qarşıdurmadan çəkinərək kosmetik düzəlişlərə imkan yaratdılar. Bir sıra qoşadilli (fars-türk) qəzetlərinin, əyalət radio-televiziyalarındakı kanalların milli dildə yayımı da son illərin davamlı mübarizələrinin nəticələri kimi yadda qalır. Lakin bütün cəhdlərə baxmayaraq, əldə olunan şərti güzəştlər ehtiyacın bir faizini ödəmirdi. Müqayisə üçün deyək ki, İranda çıxan qəzetlərin bir faizi Azərbaycan dilində çap olunur. Ədəbi dilin olmaması bu qəzetlərin də oxunaqlılıq faizini heçə endirir. Yalnız 1996-cı ildə Şimali Azərbaycanda çıxan bir sıra nəşrlərin əski əlifbaya çevrilərək qəzetlərdə çap olunması hesabına Cənubda ədəbi dilə olan maraq və ehtiyacı ödəmək planlaşdırılıb.

Bir neçə kəlmə də müasir İranın təhsil sistemi barədə. Bu, demək olar ki, Qərbi Avropa təhsil modelinin yerli şəraitə uyğunlaşdırılmış variantıdır: ibtidai (5 il), baza (3 il) və orta (4 il) təhsildən ibarətdir – 12 illik təhsil sistemi. İranda təhsil işi üzrə iki nazirlik – "Amuziş" (orta təhsil), "Pərvəriş" (təlim-tərbiyə) nazirliyi və ali təhsil nazirliyi İran dövlətinin bu sahədəki siyasətinə nəzarət edir. "Danişgahi Azad" təşkilatı isə qeyri-dövlət sektorundakı təhsil müəssisələrinə, "Növzeyi-elmiyyə" dini elmlər tədris edən müəssisələrə nəzarəti həyata keçirir.

Bu ölkədə 16 milyon məktəbli təhsilə cəlb olunub. Onlardan hər il 2 milyona yaxını buraxılış sinfində oxusa da yalnız 300 minə qədərin taleyinə ali məktəb tələbəsi olmaq qismət olur. İranda savadlıların sayı 70 faizdir. Azərbaycanlıların 70 faizi fars dilini bilmir. İbtidai təhsili başa vurub baza təhsilinə qoşulmaq istəyənlərin 40 faizi kənarda qalır. Savadlıların baza təhsilindən orta təhsilə yüksəlmə şansı azərbaycanlılar arasında 25 faizdir. Ali təhsilə gedən yol isə daha minimuma enir: cəmi 6 faiz. İrandakı təhsil sistemində azərbaycanlılar üçün yaradılmış süni maneələrin hesabına soydaşlarımızın əksəriyyəti mükəmməl təhsildən kənarda qalır və məcburiyyət üzündən ticarətlə məşğul olmağa üstünlük verir. Azərbaycanlılara qarşı mənəvi terrorun gündən-günə sürətləndiyini hiss edən görkəmli ziyalılar və maarifçilər xilas yolunu leqal və qeyri-leqal mətbuatın nəşrində, anadilli şəxsi təhsil ocaqlarının yaradılmasında könüllü "Xalq könüllü təhsil üsulu" adı altında hərəkatı gücləndirirlər. Bu hərəkatın miqyas alması son illər azərbaycanlılar arasında milli şüurun oyanması, anadilli təhsilə, kitab və mətbuata marağın artması ilə müşahidə olunur. Bu gün İranda fəal maarifçilik işi görən bir neçə təhsil formasının əsas prinsipləri barədə söz açа bilərik:

1. Ailələrdə – valideynlərin vasitəsi ilə həyata keçirilən

anadilli təhsil.

2. Pullu özəl təhsil mərkəzləri – a) iqtisadi elmlərə ünvanlanmış təhsil; b) humanitar maraqlara (televiziya verilişlərini izləmək üçün) ünvanlanmış təhsil. Burada gündəlik danışıq, ünsiyyət leksikonunun öyrədilməsi əsas şərtdir.

3. Pulsuz özəl təhsil mərkəzləri. Bu növ təhsil Azərbaycan mədəniyyət sevərləri tərəfindən həyata keçirilir; a) universitet tələbələri arasında milli şüurun yüksəldilməsi istiqamətində (tarix, türkologiya, azərbaycanşünaslıq, incəsənət və s. fənlər üzrə); b) könüllü, azad dil kursları. Bu tədris üsulu da öz məkan və formasına görə fərqlənir. Çox vaxt tələbələr, yaxud öyrəncilər professor və müəllimlərin şəxsi evlərində toplaşır, görkəmli ziyalılardan, məs: Cavad Heyət, Əli Daşqın, Hüseyn Düzgün, Hüseyn Şərqi Soytürk, Səid Həccari, Əlirza Sərraf, Eloğlu, Mehdi Nəimi və başqalarından dil, tarix, digər ictimai elmlər sahəsində ən vacib olanları öyrənirlər.

4. Xaricdə təhsil almaq yolu ilə. Bəllidir ki, Cənubi Azərbaycan vətəndaşlarının bir qismi ölkə xaricində, o sıradan Azərbaycan Respublikasında öz təhsilini davam etdirir. Bu məqsəd üçün ən münasib seçim də Müstəqil Azərbaycan hesab olunur. Buradakı dil birliyi, təfəkkür, düşüncə kodlarının yaxınlığı Cənuba qayıdan ziyalıların sonrakı fəaliyyətində onlara çox kömək edir.

Bəşəriyyətin ən etibarlı mənəvi dayaqlarından, insanın qabiliyyət və işgüzarlığının üzə çıxarılmasında önəmli vasitə olan təhsil soydaşlarımızın XXI əsrdə də ən böyük problemlərindən biri kimi qalmaqdadır. Cənublu soydaşlarımızın problemləri həm də bizim problemlərimizdir. Dil birliyimizdən, bütöv Azərbaycan arzularımızdan keçən qayğılar və problemlərdir.

ƏDƏBİYYAT

1. Səməd Sərdarniya. Təbriz – birincilər şəhəri. Təbriz, 2000.
2. Ağamməd Abdullayev. Azərbaycan dilinin tədrisi tarixi. Bakı. “Maarif”, 1966. səh. 103, 238.
3. Məhəmmədəli Hüseyni. Rüşdiyyə və “Vətən dili”. “Mehdi-Azadi” jurnalı. Türkcə ədəbiyyat səhifəsi. Təbriz, 2000.
4. Jan Yuniyev. İran və Rusiya müharibəsində itkin düşənlər (farsca tərcümə, Zəbihullah Mərzurinindir). Tehran, səh.682.
5. Səməd Sərdarniya. Təbriz çap sənətinin beşiyi. “Nəvid-Azərbaycan” qəzeti. səh.16, Urmiya, 2004.
6. Nasir Dəftər Rəvayi. Xatirələr və sənədlər. Tehran 1984, səh.21.
7. Məhəmməd Luyi Abbasi. “Şəfəq” jurnalı. Yay nömrəsi. 1946. səh.41. Tehran.
8. Səməd Sərdarniya. Təbrizin darilfünunu. “Hüdayi-şəms” nəşriyyatı. Təbriz, 2003, səh. 126.
9. “Varlıq” jurnalı. №109, səh.36, Tehran, 1998.

“Respublika” qəzeti,
20 may 2004-cü il

ZAMANIN YADDAŞI

MƏNİM ƏZİZ İLLƏRİM

PİLLƏLƏR

Pillələrdən danışmaq istəyirəm. Tələbəlik həyatımın pillələrindən. Elə bir dövrdən ki, ömrümün həm narahat, həm də həyəcanlı illəri, gəncliyimin ən qaynar dövrü, həyatımın ən mənalı çağları həmin pillələrlə bağlıdır.

Hələ orta məktəbdə oxuyarkən ədəbiyyatçı olmaq arzusu ilə yaşayırdım. Ona görə müntəzəm olaraq öz üzərimdə çalışar, mənə qaranlıq gələn məsələləri ədəbiyyat müəllimim Əbülhəsən Cəlilovdan öyrənərdim. 1966-cı ildə C.Məmmədquluzadə adına Şahbuz qəsəbə orta məktəbini bitirib sənədlərimi V.İ.Lenin adına APİ-nin filoloji fakültəsinə təqdim etdim. Xoşbəxtlik nəsibim oldu. İnstituta daxil oldum. Tələbəlik həyatı məni öz qoynuna aldı. Qrup komsomol təşkilatının katibi seçildim. İlk semestr imtahanlarından müvəffəqiyyətlə çıxdım. Tələbəlik həyatının birinci pilləsini əla qiymətlərlə başa çatdırdım.

1968-ci il. Fakültə komsomol təşkilatının katibi seçildim. Bir tərəfdən dərslər, bir tərəfdən də ictimai iş daha səylə çalışmağı tələb edirdi. Yuxusuz gecələrin, gərgin əməyin nəticəsi olaraq tələbəlik həyatının ikinci pilləsini də əla qiymətlərlə başa çatdırdım.

1969-cu il. Bu il həyatımda daha əlamətdardır. Nizami adına təqaüdə layiq görüldüm. Bununla bərabər Sov. İKP üzvü namizədliyinə qəbul olundum.

1970-ci il. Tələbəlik həyatının sonuncu pilləsi ilə vidalaşmağıma az qalıb. Həm sevinir, həm də kədərlənirəm. Sevinirəm ona görə ki, yolun çoxunu

getmişəm, tezliklə institutu bitirəcəyəm. Kədərlənirəm ona görə ki, illərlə birlikdə olduğum sevimli tələbə dostlarımdan ayrılacağam,

Mənə elə gəlir ki, V.İ.Leninin anadan olmasının 100 illiyi və Azərbaycanda Sovet hakimiyyəti qurulmasının 50 illiyinə tələbə tərəfindən ən yaxşı hədiyyə əla qiymətlərlə oxumaqdır. Mən buna nail olduğum üçün sevinirəm.

"Gənc müəllim " qəzeti,
26 mart 1970-ci il

HEYDƏR ƏLİYEV FENOMENİ

İnsanlar var ki, bir müddət ağızlarda dolaşan nəğmələrə bənzəyirlər, az sonra bu nəğmə unudulur. Dahilərin adı isə hər zaman dillərdə olur. O da dahi idi. Və bütün dövrlərin dahisi olaraq qalacaq…

Bu gün yenə HEYDƏR ƏLİYEV fenomenindən danışırıq, HEYDƏR ƏLİYEV bənzərsizliyindən söhbət açırıq. Bu siyasət korifeyinin heç vaxt heç bir təbliğ təntənələrinə ehtiyacı olmasa da, biz dönə-dönə ona qayıdacağıq, o səbəbdən ki, özümüzün ona ehtiyacımız var…

HEYDƏR ƏLİYEV…

Müdrikliyi, uzaqgörənliyi, titanik fəaliyyəti ilə dünyanın ən nəhəng, sayseçmə siyasətçiləri ilə bir sırada özünə əbədi yer alan ən böyük AZƏRBAYCANLI. Adı Azərbaycanın, bütövlükdə türk dünyasının tarixinə qızıl hərflərlə yazılmış DAHİ. Belə dahilər, bu cür hərtərəfli düşüncə və dərrakəyə, təfəkkürə malik insanlar isə hər əsrin və hər xalqın bəxtinə düşmür!

Heydər Əliyev böyük uzaqgörənliklə: “Mən həmişə xalqa arxalanmışam, xalqa bel bağlamışam… Mənim həyatım həmişə xalqla bir yerdə olub, bu gün də bir yerdədir, sabah da bir yerdə olacaqdır” dedi və xalqımız qarşısında göstərdiyi möhtəşəm xidmətlərinə görə tarixdə əbədi yaşamaq haqqı qazandı. O, sözün əsl mənasında, Vətənin böyük oğlu, liderlər lideri, bənzərsiz dövlət xadimi idi. O, sağlığında Azərbaycan atası olmağı bacardı, bu zirvəyə ucaldı, xalqın sevgisini qazandı. O, müstəqil Azərbaycanın yaradıcısı,

qurucusu, dövlətçiliyimizin qarantı oldu. O, respublikamızı hərtərəfli inkişafa, tərəqqiyə çatdırdı, onun siyasətini, iqtisadiyyatını, elmini, təhsilini, mədəniyyətini dünya standartları səviyyəsinə qaldırdı, 34 illik rəhbərliyi dövründə Vətənimizin ən ağır vaxtlarında, ən çətin məqamlarında belə onu təklənməyə, dağılmağa, parçalanmağa qoymadı. İndi bütün dünyadan səsi eşidilən, sözü eşidilən, ən super dövlətlərin belə hesablaşdığı Azərbaycan bu fenomenal şəxsiyyətin ən parlaq əsəridir.

Heydər Əliyev və Azərbaycan dili

Xalqımızın böyük lideri, əvəzolunmaz şəxsiyyət, nəhəng siyasətçi Heydər Əlirza oğlu Əliyevin müasiri olmaq səadəti mənə də nəsib olub. Ağlım kəsəndən onun nümunəsi məni ahənrüba kimi özünə çəkib. Bu qüdrətli insanın ömür yolundan çox təsirlənmişəm. Onun ağlı, müdrikliyi, uzaqgörənliyi, fəaliyyəti, bütövlükdə həyatı hər kəs üçün nümunədir. Bu nümunədən görüb-götürməliyik, hər birimiz onun ibrətamiz həyat yolundan öyrənməliyik. Əlbəttə, onun müasiri olub, ondan öyrənməmək qeyri-mümkündür. Ondan öyrənməyin özü böyük xoşbəxtlikdir! Təbii ki, o zirvəyə çatmaq, o zirvəni fəth etmək olduqca çətindir, amma ondan öyrənmək, ondan bəhrələnmək olar…

Mən bu gün fəxrlə deyirəm ki, Heydər Əliyev dövrünün yetirməsiyəm, onun zəmanəsinin övladıyam, onun liderlik məktəbindən dərs almışam. Əslində, o, hər kəlməsi, hər sözü, hər çıxışı, hər hərəkəti ilə insanlara dərs keçirdi. O, bitib-tükənməyən bir xəzinə, bir örnək, Allah tərəfindən Yer üzünə göndərilmiş müqəddəs bir varlıq, xarizmatik bir qüvvə idi. Onun çox zəngin həyatını, ömür yolunu, titanik fəaliyyətini, Azərbaycan və azərbaycanlılar üçün, bütövlükdə türk dünyası üçün gördüyü misilsiz işləri ifadə etməkdə az

qala söz də acizdir. Əslində, bunun üçün qalaq-qalaq, cild-cild kitablar yazılmalıdır və mütləq yazılacaqdır.

Mən bir də ona görə xoşbəxtəm ki, hələ sağlığında ikən xalqımızın ümummilli lideri Heydər Əliyev haqqında kitab yazmışam: "Heydər Əliyev və Azərbaycan dili". "Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir" deyən Heydər Əliyevə mənəvi borcum məni o kitabı yazmağa vadar etdi, milli mədəniyyətimizin, o sıradan dilimizin inkişafı üçün külüng çalan, onun ictimai statusunun qorunması, dövlət dili kimi işlədilməsi, geniş auditoriyalara yayılması üçün fövqəladə güc, enerji və zəhmət sərf edən ulu öndərimizin natiqlik təcrübəsini ümumiləşdirib yaymaq əsas məqsədim oldu. Onun ana dilimizə bu qədər yüksək dəyər verməsi, Azərbaycan dövlətçiliyinin qurucusu və memarı olması məni biganə qoymadı. Bu gün ana dilimizin dövlət statuslu diilər arasında olmasına görə biz hamımız məhz Heydər Əliyevə borcluyuq. Amma düşünürəm ki, hələ çox az iş görmüşəm. Biz alimlər bu mahir siyasətçinin, görkəmli dövlət başçısının həyat və fəaliyyətini hələ geniş tədqiq etməliyik, onun haqqında hələ çox ədəbiyyat yazmalıyıq. Bundan əlavə, məncə, həm də bütün müəssisələrdə, təhsil ocaqlarında xalqımızın bu böyük övladının nitqinə, natiqlik məharətinə aid xüsusi məşğələlər keçirilməli, yeniyetmələrə, gənclərə, gələcək nəsillərə bu görkəmli şəxsiyyətin həyat yolu hərtərəfli öyrədilməlidir.

Heç şübhəsiz, millətin simasını səciyyələndirən amillərdən birincisi dildir. Əgər bu gün planetimizdə yaşayan minlərlə millət və etnik qrupun cəmi iki yüzə qədər dövlətin bayrağı altında cəmləşdiyini və rəsmi dövlət dillərinin sayının yetmişi keçmədiyini nəzərə alsaq, onda hər hansı bir millətin dilinin öz dövlətində dövlət dili olmasının əhəmiyyətini dərk etmək o qədər də çətin olmaz. Bu mənada, dilin dövlət statusu qazanması, həqiqətən tarixi

hadisə, millətin millət olaraq təsdiq, bəşəri təkamüldə təkanverici qüvvə kimi çıxış etmək şansıdır. Çünki dilin dövlət dili statusuna yüksəlişi millətin öz taleyinə sahibliyinin, dövlət qurmaq və qorumaq qüdrətinin sübutudur. Ana dilimizin qürur zirvəsinə yüksəlişi yolunda HEYDƏR ƏLİYEVİN gərgin əməyi və gördüyü iş isə həyatını bu yöndə araşdırmalara sərf edən onlarla alimin fədakarlığına bərabərdir.

Yüksək kübarlıq, ziyalılıq etalonu olan HEYDƏR ƏLİYEV, həm də bənzərsiz natiq idi. O, müdrik, ağıllı qərarları ilə yanaşı, danışığı, nitqilə ilə də bu dilin keşiyində duran bənzərsiz bir insan, böyük mütəfəkkir və alim idi. Öz təfəkkürü və nitqi ilə ağılları fəth edən bu insanın natiqlik məktəbindən öyrənəcəyimiz çox nüanslar var. Mən 1969-cu ildən bu yana onun bütün çıxışlarını ardıcıllıqla, diqqətlə izləmişəm. Bu böyük insanın siyasi məsləkdaşı olduğumdan onunla yaxından təmas, ünsiyyət də mənə qismət olub, bir sıra xarici səfərlərdə onu müşayiət edənlər arasında olmuşam. Və onun nitqinin gözəlliyinə, zənginliyinə, axıcılığına, səlisliyinə, sistemliliyinə, ardıcıllığına, məntiqliliyinə heyran olmuşam, hər dəfə də bu nitqdə yeni-yeni çalarlar tapmışam. HEYDƏR ƏLİYEV hər zaman sırf ədəbi dildə danışır, “sənətlər içərisində ən gözəl sənət” olan natiqlik məharəti ilə də hər kəsi valeh edirdi. “Hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini – Azərbaycan dilini, dövlət dilini mükəmməl bilməlidir… Xalqın, millətin, insanın öz ana dilindən əziz heç bir şeyi ola bilməz” deyən HEYDƏR ƏLİYEV uzun illər Moskvada yaşamasına baxmayaraq, heç vaxt ana dilini unutmadı. O, gözəl nitq mədəniyyəti, danışıq tərzi, habelə səsinin tembri, aydın diksiyası, intonasiyası, hətta üz cizgiləri, mimikası ilə də auditoriyanı ələ alır, onu zənginləşdirir, tərbiyə edirdi. Sanki sənin qarşında dilin bütün incəliklərinə dərindən bələd

olan, uzun illər natiqlik, nitq mədəniyyətindən dərs verən mahir bir dilçi alim çıxış edirdi. Onun nitqi mükəmməl, kamil bir nitq idi. Bu nitqdə yeknəsəklik yox idi. Heydər Əliyev saatlarla heç bir qeyd-filana baxmadan, yanılmadan nitq söyləyir və hamını heyrətləndirirdi!

Zəngin biliyə, analitik təfəkkürə malik bu insan tarixçi ilə tarixçi, kimyaçı ilə kimyaçı, musiqiçi ilə musiqiçi, yazıçı ilə yazıçı dilində danışırdı. İti yaddaş və güclü hafizəyə malik HEYDƏR ƏLİYEV nitqlərində bəzən elə yeni məlumatlar söyləyirdi ki, hətta həmin sənətin biliciləri də məəttəl qalırdılar. Onun saatlarla çıxışı heç vaxt auditoriyanı yormurdu, çünki o, nitq söyləməyin bütün sirlərini ən yüksək səviyyədə bilirdi.

Heydər Əliyevin əzəmətli görkəmi, mənalı sifəti, gur, məzmunlu səsi də danışığındakı məntiqi, emosiyanı gücləndirir və dinləyicilərdə, onların yaddaşında dərin iz qoyurdu.

Bəli, hər bir millətin ana dili onun milli varlığının göstəricisidir və ana dilinə dəyən zərbə də, ilk növbədə, milli varlığa dəyən zərbədir. HEYDƏR ƏLİYEV isə müqəddəs ana dilimizi hər şeydən qorudu.

Heydər Əliyev: müstəqilliyimiz və dövlətçiliyimiz

HEYDƏR ƏLİYEV xalqımızın danılmaz tarixidir.

… 1982-ci il 23 noyabrda o, Siyasi Büroya üzv seçildi, Moskvaya getdi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini oldu, ölkənin ən mühüm sahələrinə rəhbərlik etdi və öz güclü təsir qabiliyyəti ilə inkişafa təkan verdi. Ətrafında belə güclü siyasətçini görüb xoflanan, ona qısqanclıqla yanaşan Qorbaçov hər vəchlə HEYDƏR ƏLİYEVİ hakimiyyətdən uzaqlaşdırmağa çalışdı və buna nail oldu. Bu,

ona qarşı ən böyük haqsızlıq idi. Lakin HEYDƏR ƏLİYEV Siyasi Büro tarixində ilk şəxsiyyət idi ki, sovet siyasi maşını onu sındıra, əyə, məhv edə bilmədi. O, Siyasi Bürodan uzaqlaşdırılan yeganə şəxs idi ki, yenidən siyasi olimpə qalxmağı bacardı! Çünki o, artıq çoxdan milyonların sevgisini qazanmışdı.

Qorbaçov 1990-cı il 20 yanvarda təpədən dırnağadək silahlanmış sovet ordusu ilə Bakıda qanlı faciə törətdi. Dəhşətli gecənin səhəri günü xalqımızın böyük övladı HEYDƏR ƏLİYEV özünün və ailəsinin həyatını təhlükə altına qoyaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəldi, mətbuat konfransı keçirərək kütləvi informasiya vasitələri işçilərinə törədilmiş qətliam barədə ətraflı məlumat verdi, Kommunist Partiyası və Sovet hökumətinin rəhbərlərini ittiham etdi, partiya biletini atdı. Bu, 20 Yanvar faciəsinə verilən ilk qiymət idi.

Bir məqama diqqət yetirək. Əvvəla, o tarixə qədər HEYDƏR ƏLİYEV bir şəxsin çata biləcəyi bütün mümkün zirvələri fəth etmişdi, bir fərdin öz milləti, öz dövləti üçün edə biləcəyi xidmətlərin ən alilərini göstərmişdi, bununla da Azərbaycan tarixində öz əbədiyaşarlıq hüququnu artıq təsdiqləmişdi. Digər tərəfdən o, yaxşı bilirdi ki, bu addımdan sonra Moskvada qalmağı təhlükəlidir. Başqası olsaydı, bəlkə də, belə təhlükəli məqamda bu yüksək mövqeyi ilə kifayətlənər, öz həyatını riskə getməzdi. Bəli, başqası olsaydı! Amma bu, HEYDƏR ƏLİYEV idi! Və o, canından çox sevdiyi xalqı, Vətəni, Azərbaycanın milli dövlətçiliyi naminə bu addımı atdı. Azərbaycanın müstəqilliyi ona hər şeydən əziz idi – hətta həyatından da. Bu, onun mənliyi idi. Sonralar deyəcəkdi: "… Mənim üçün hər şeydən üstün mənim milli mənliyimdir. Milli mənliyim məni həmişə bütün çətin vəziyyətlərdən çıxarıb. Milli mənliyimə görə mən istədiyim yolla gedə bilmişəm, istədiyimə nail ola bilmişəm

və xalqıma xidmət edə bilmişəm. Ona görə milli mənliyimizi gərək itirməyək…” Bəlkə də, elə yüksək mənəviyyat sahibi olduğuna görə də Tanrı bu fövqəlbəşər insanı hər zaman hər bir təhlükədən qorudu. Həm də Azərbaycan üçün, xalqı üçün qorudu!

…İstər mərkəz, istərsə də respublika rəhbərləri tərəfindən təqiblərə məruz qalan Heydər Əliyev ata yurduna – Naxçıvana üz tutdu. Və həmin andan etibarən Azərbaycanın qədirbilən insanlarının diqqəti Naxçıvana yönəldi.

Naxçıvan Ali Məclisinin sədri olarkən Azərbaycanın üçrəngli bayrağını ilk dəfə iclas salonuna məhz HEYDƏR ƏLİYEV gətirdib!

Xalqın böyük sevgisi, tələb və təkidi 1993-cü ildə HEYDƏR ƏLİYEVİ yenidən hakimiyyətə gətirdi.

Bu, BÖYÜK QAYIDIŞ idi. Bu, xalqın ümidlərinin bərpası idi, onun öz XİLASKARINA qovuşması idi! Bu, Azərbaycanın tarix səhnəsindən həmişəlik silinmək təhlükəsindən QURTULUŞU idi! Bu, “ölüm-qalım” dilemmasının xalqın, millətin, dövlətin xeyrinə həll olunması idi! Bu, azadlıq və dövlətçilik rəmzinə çevrilən real və əfsanəvi liderin: “Müstəqilliyimiz dönməzdir, qətidir və əbədidir” fikrinin təsdiqi idi!

Heç vaxt silinməyən yaddaş

Bu gün Azərbaycanda hara baxsan, HEYDƏR ƏLİYEVİN izini görərsən. O, sağlığındaykən Azərbaycan üçün nə küləyin, nə yağışın, nə tufanın soldura bilmədiyi elə möhtəşəm abidələr yadigar qoyub ki, onlar HEYDƏR ƏLİYEV haqqında heç vaxt silinməyən yaddaşdır…

Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycanda dövlət quruculuğu, ictimai-siyasi sabitlik təmin edildi, iqtisadi

inkişaf, beynəlxalq əlaqələrin gücləndirilməsi istiqamətində davamlı proses başlandı, ölkədə bütün sahələr üzrə köklü islahatlar aparıldı. Bunlardan ən birincisi hüquqi islahatlar idi. SSRİ dağıldıqdan sonra ölkə daxilində yaranmış hərc-mərclikdən əsər-əlamət qalmadı. Müdrik bir rəhbərin aydın təfəkkürü, qəti iradəsi, möhkəm əzmi ilə 1994-cü il oktyabr, 1995-ci il mart dövlət çevrilişlərinin qarşısı məharətlə alındı.

Müstəqillik yolunda inamla addımlayan Azərbaycan qısa zaman kəsiyindən sonra dünyada baş verən demokratikləşmə prosesinin iştirakçısına çevrildi.

HEYDƏR ƏLİYEV 1994-cü ilin may ayında atəşkəs haqqında müqavilə imzalamaqla Azərbaycanı siyasi, iqtisadi və hərbi böhrandan qurtardı, dünyanın Azərbaycana qarşı siyasətini dəyişdi, onun diqqətini Vətənimizə yönəltdi…

O, 1994-cü il sentyabrın 20-də əsasını qoyduğu "Əsrin müqaviləsi" ilə dünyanın neft siyasətini birmənalı şəkildə Xəzər regionuna istiqamətləndirdi. Bu neft strategiyası Xəzərin Azərbaycan sektorunda 15 ölkənin, 33 iri neft şirkətinin iştirakı ilə 22 neft-qaz müqaviləsinin imzalanmasına səbəb oldu. HEYDƏR ƏLİYEVİN siyasi uzaqgörənliyinin nəticəsidir ki, indi Azərbaycan dünyanın aparıcı dövlətlərinin iqtisadi maraq meydanına çevrilmişdir.

Bakı-Ceyhan Azərbaycanın yeni neft strategiyasının təməl daşı, iqtisadiyyatımızın ana xəttidir. Mütəxəssislər haqlı olaraq bu layihəni Azərbaycanın taleyində dövlət müstəqilliyi qədər əhəmiyyətli tarixi hadisə hesab edirlər. Azərbaycanın sosial-iqtisadi tərəqqisinə, onun beynəlxalq iqtisadi inteqrasiyasına zəmin yaradan bu misilsiz layihəyə görə nəinki Azərbaycan, hətta bir çox xalqlar HEYDƏR ƏLİYEVƏ minnətdar olacaqlar. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilməsi haqqında müqaviləni bağlamaqla HEYDƏR ƏLİYEV təkcə Azərbaycanın yox, Gürcüstan və Türkiyənin də iqtisadi inkişafına zəmin yaratdı, üstəlik, hərbi

təhlükəsizliyi təmin etdi.

Bu kəmərin böyük iqtisadi əhəmiyyətini dərk etdiyindəndir ki, xalqımız ona dahi öndərimizin adını verdi. İndi Bakı-Tbilisi-Ceyhan neft kəməri HEYDƏR ƏLİYEVİN adını daşıyır.

HEYDƏR ƏLİYEV təxəyyülünün qlobal siyasətə bu uzaqgörən təsiri bütün Qafqaza aid dünya siyasətinin dəyişməsinə səbəb oldu.

Qədim İpək yolunun bərpası ideyasını qaldırmaq və onun həyata keçirilməsi işini təşkil etmək isə HEYDƏR ƏLİYEV şəxsiyyətinin regional yox, dünyəvi xarakter daşıdığını sübut etdi. Böyük İpək yolu ilə bağlı otuzdan çox dövlətin müasir inkişafında bu yolun müstəsna rolu HEYDƏR ƏLİYEVİN adı ilə bağlıdır.

Siyasi nüfuz və qüdrətin təzahürü

Mən 1992-ci ildən HEYDƏR ƏLİYEVİN yaradıcısı və qurucusu olduğu Yeni Azərbaycan Partiyasının, YAP İdarə Heyətinin üzvüyəm. Bu partiyanı məhz onun rəhbərinə inandığıma görə seçmişəm. Çox yaxşı dərk etmişəm ki, belə bir dahinin yaratdığı partiya 5-10 ilin partiyası deyil. Həqiqətən də, tarix sübut etdi ki, siyasət və idarəetmənin böyük ustası, dünya siyasətinin nadir simalarından olan Heydər Əliyevin Yeni Azərbaycan Partiyası dünənin, bu günün və sabahın partiyasıdır.

YAP mövcud olduğu 12 il ərzində məhz qüdrətli liderinə görə özünü cəmiyyətə hakimiyyət hərisi olan qruplaşma kimi yox, dövlətçiliyə xidmət edən mükəmməl bir ordu kimi təqdim edə bilib. Bu gün YAP sıralarında üç yüz mindən çox insanın birləşməsi onun liderinin siyasi nüfuz və qüdrətinin təzahürüdür.

Heydər Əliyev elə bir nəhəng siyasətçi idi ki, bircə

çağırışına milyonlarla adam səs verirdi. Bu, onun iradəsinin xalqın iradəsinə söykənməsi faktıdır.

Xeyirxahlığın ali nümunəsi

Heydər Əliyev Azərbaycan rəhbərliyinə gələn kimi qədim milli dəyərlərimizi, ədəbiyyatımızı, mədəniyyətimizi, incəsənətimizi, tariximizi özümüzə qaytarmaq sahəsində də çox ciddi işlər gördü. Dədə Qorqudu, Nizamini, Nəsimini, Xətaini layiq olduğu müdriklik zirvəsinə qaldırdı. Alimlərin, bəstəkarların, sənətkarların yetişməsi üçün lazımi şərait yaratdı.

HEYDƏR ƏLİYEVİN çox böyük xidmətlərindən tək birini yada salmaq istəyirəm. 37-ci il repressiyasının qurbanlarından biri, görkəmli ədibimiz Hüseyn Cavidin Vətənə "dönüşü", yəqin ki, orta yaşlı hər bir azərbaycanlının yaxşı xatirindədir. 45 illik Vətənsizlikdən sonra Hüseyn Cavid məhz HEYDƏR ƏLİYEV böyüklüyü sayəsində Azərbaycana, Vətən torpağına qovuşdu. Bu, xeyirxahlığın ali nümunəsi idi!

1993-cü ildə prezident seçkilərindən sonra HEYDƏR ƏLİYEV Cavid məsələsinə yenidən qayıtdı. O, 1995-ci il iyun ayında keçirdiyi müşavirədə Cavidin məqbərəsi, ev muzeyi ilə bağlı problemləri həll etdi. 1996-cı il oktyabrın 29-da Naxçıvanda Hüseyn Cavidin məqbərəsinin açılışı oldu. Mən də həmin tədbirdə iştirak edirdim. Və orada bir daha HEYDƏR ƏLİYEV ucalığının, qədirbilənliyinin şahidi oldum. Həmin gün o, hər kəsdən artıq sevinirdi. Bu misilsiz xidmətinə görə ona minnətdarlıq edənlərə isə sözü bu oldu: "Mən çox məmnunam. Sevinirəm ki, 15 il bundan əvvəl qəbul etdiyim qərar həyata keçir. Mənim arzularım həyata keçir. Mən sizi də, özümü də bu münasibətlə təbrik edirəm".

Bəli, HEYDƏR ƏLİYEV elə hər sahədə misilsiz lider və böyük rəhbər olduğunu bütün bəşəriyyətə öz əməlləri ilə sübut etdi…

Böyüklük… sadəlik

Heydər Əliyevin elmimizə, təhsilimizə, müəllimlərə və ziyalılara qayğısı da hədsiz idi və bu qayğıdan mənə də pay düşüb. İndi onun: "Mən Yer üzündə müəllimdən başqa yüksək ad tanımıram", "Cəmiyyətimizdə, Azərbaycan ziyalılarının içərisində müəllimlər xüsusi yer tuturlar, onlar hörmətə layiqdirlər və xüsusi qayğı ilə əhatə olunmalıdırlar" kimi çox uca kürsüdən deyilmiş fikirlərini böyük minnətdarlıqla yada salıram. Heydər Əliyevin bu yüksək qiyməti bizi həmin diqqətə layiq olmağa səfərbər edirdi.

Xoşbəxtəm ki, 1996-cı ildə HEYDƏR ƏLİYEVİN fərmanı ilə məsul dövlət vəzifəsinə – Dövlət Teleradio Verilişləri Şirkətinin sədri vəzifəsinə təyin olunmuşam, o dahi insanın xeyir-duasını almışam. Həmin günü ömrümün ən unudulmaz günü hesab edirəm.

Şübhəsiz, televiziya siyasətinin əsas qayəsini Azərbaycan prezidentinin daxili və xarici siyasət kursunun həyata keçirilməsinə layiqli xidmət təşkil edir.

"Radio və televiziya insanları təsirləndirir, onların təkmilləşməsinə, mənəviyyatca inkişafına kömək edir, dünyaya gözünü açır, onları bütün dünya ilə birləşdirir" deyən Heydər Əliyev mətbuata, radio-televiziyaya yüksək dəyər verirdi, mətbuat işçilərinə böyük hörmətlə yanaşırdı. Jurnalistlərlə çox səmimi münasibət yaratması, sözün həqiqi mənasında, onların dostuna çevrilməsi fakt idi və indi hər kəs bu barədə ürəkdolusu danışır.

Mətbuatdan senzuranın götürülməsi, ona qayğı isə Heydər Əliyevin nə qədər böyük demokrat olduğunu

göstərirdi.

Böyük öndərimizin Dövlət Teleradio Verilişləri Şirkətinə hər gəlişi əməkdaşlarımızın yaddaşında silinməz izlər qoyub. Məlum olduğu kimi, hər il dekabr ayında BMT-nin Uşaq Fondu – YUNİSEF-in xətti ilə bütün dünyada Beynəlxalq teleradio günü keçirilir. “Biz uşaq dalğasına qoşuluruq”, “Biz yenilik arzulayırıq” devizləri ilə keçirilən həmin gün 120-dən çox ölkədə eyni vaxtda həm televiziyada, həm də radioda mikrofonlar uşaqlara verilir. Onlar 4-5 saat ərzində canlı efirdə olur və böyüklərin diqqətini öz problemlərinə yönəltmək istəyirlər. Onların ən böyük arzusu isə dövlət başçısını öz verilişlərində görmək olurdu.

Amma Azərbaycan yeganə ölkədir ki, Prezident həmin tədbirə qatılırdı. Təsəvvür edin, işi başından aşan, vaxtın hər dəqiqəsinin ondan ötrü qızıla bərabər olduğu ümummilli liderimiz HEYDƏR ƏLİYEV heç vaxt uşaqların gözünü yolda qoymur, onlara biganə qalmır, proqramı ekran qarşısında izləyib, ürəyinin səsi ilə birbaşa studiyaya gəlirdi. O, böyük məhəbbətlə, səbirlə uşaqları dinləyir, hətta onlarla qol götürüb oynayırdı da! Bu, onun sadəliyindən, uşaqlara – Azərbaycanın sabahına qayğısından, sevgisindən irəli gəlirdi…

Belə faktlar minlərlədir…

Azərbaycanın işıqlı gələcəyinin təminatı

Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı İlham Əliyevin xalqın yekdil rəyi ilə prezident seçilməsi qanunauyğunluq idi. Onun seçkilər ərəfəsində xalqla görüşlərində, bəlkə də, yaşına uyğun olmayan müdrikliyi, xalqla səmimiliyi, hədsiz təvazökarlığı, alicənablığı, insanlara təmənnasız münasibəti, xalqına, millətinə, Vətəninə, sələfinə, üstəlik, öz şəxsiyyətinə hörmət

və ehtiramı yüksək, ali tərbiyəsindən, zəngin mənəviyyatından, siyasi yetkinliyindən xəbər verirdi. O həm də bu səbəblərdən qalib gəldi. Xalq artıq kimi seçdiyinin fərqindədir!

Bu gün, doğrudan da, Azərbaycan adlı nəhəng bir gəminin sükanı etibarlı əllərdədir. Gəlin, çox uzağa getməyək, elə son vaxtlar onun xarici ölkələrə səfərləri, Avropa Şurası Parlament Assambleyasındakı olduqca uğurlu çıxışı, bu səfərlərdə prezidentimizə göstərilən yüksək ehtiram, onun ən nüfuzlu beynəlxalq mükafatlara layiq görülməsi dünya siyasət arenasında İlham Əliyevin reytinqinin çox yüksək olduğunu təsdiq edir. Bu isə Azərbaycanın işıqlı gələcəyinin təminatı deməkdir.

İndi ölkəmiz nüfuzlu beynəlxalq təşkilatların, demək olar ki, hamısında təmsil olunur. Müstəqillik yolu ilə inamla addımlayan respublikamız dünyada baş verən demokratikləşmə və əməkdaşlıq prosesində yaxından iştirak edən dövlət kimi dünya birliyinin tərkib hissəsinə çevrilmişdir. Demokratiya və müstəqillik ideyalarına sadiq olan İlham Əliyev indi milli mənafelərimizi yüksək səviyyədə qoruyur. Bu gün HEYDƏR ƏLİYEV siyasətinin uğurlu davamını görmək nə qədər xoş və ürəkaçandır!

Bəli, İlham Əliyev prezident kimi elə ilk addımlarında sübut etdi ki, ona inanmaq, ona arxalanmaq, ona güvənmək olar! İnanırıq ki, o “Bizim yolumuz Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı dövlət qurmaqdan, demokratik prinsipləri gündən-günə inkişaf etdirməkdən, dünyanın əldə etdiyi bütün demokratik nailiyyətləri Azərbaycanda yaymaqdan, onlardan bəhrələnməkdən ibarətdir” deyən Heydər Əliyevin amallarını uca tutacaq. O, buna qadirdir! Qoy olsun! Bu, həm də bizim arzumuzdur!..

Həmişə zirvədə…

Ümummilli liderimizin fiziki yoxluğunu mən də böyük ürək ağrısı və yanğı ilə yaşayıram. Çünki o, Azərbaycanın itkisidir, bütün türk dünyasının itkisidir. Amma bu cismani yoxluqdur, o, ölməzdir, bizimlədir, nə qədər ki, Azərbaycan adlı məmləkət var, yenə də var olacaq və hər zaman insanlara doğru yol göstərəcək!

Unutmayaq ki, yaşarı dünyasından sonra xalqın yaddaşında qalmaq hər kəsə qismət olmur. Xalq yalnız sevdiklərini yadda saxlayır və yaşadır. HEYDƏR ƏLİYEV misilsiz xidmətlərinə görə hər zaman doğulub-böyüdüyü torpaq üçün, xalqı, milləti üçün, Azərbaycan üçün müqəddəslər müqəddəsi olaraq qalacaq! Bu sevgi onun halal haqqıdır!

İllər keçəcək, əsrlər dəyişəcək, amma bir fakt faktlığında qalacaq: dünyanın Atilla, Atatürk, Vaşinqton, Şarl de Qol, Bismark, Ruzvelt, Çerçill kimi siyasi liderləri sırasına Azərbaycan XX əsrdə HEYDƏR ƏLİYEV kimi dahini bəxş etdi! Bu, xalqımızın xoşbəxtliyidir!

HEYDƏR ƏLİYEV hər zaman zirvədə dayandı və indi də zirvədədir. Qoy ruhu o zirvədən canı qədər sevdiyi Azərbaycana, "… həyatımın qalan hissəsini də xalqıma bağışlayıram" dediyi Azərbaycan xalqına duaçı olsun!

"Yeni Azərbaycan " qəzeti,
7 may 2004-cü il

DƏRİN ZƏKA VƏ YADDAŞ SAHİBİ

Allah təala Heydər Əliyevi adi insanlardan fərqləndirən bir çox fenomenal xüsusiyyət və bacarıqla mükafatlandırmışdı. Hansı idi bu xüsusiyyətlər? Hər şeydən əvvəl dərin bilik, yüksək idarəçilik qabiliyyəti, intuisiya, yaddaş, işgüzarlıq. Heydər Əliyev həftələr, aylar, bəlkə də illərlə gündə 15-18, bəzən isə 20 saat işləməyi bacarır, yoruldum demirdi. Onun ətrafındakılar deyə bilməzlər ki, nə vaxtsa biz ümummilli liderimizi səhər işə gələndə yorğun, əzgin görmüşük. O, həmişə işə gümrah gələr, gəncliyində, ahıl və yaşlı vaxtlarında da öz geyimi, səliqəsi ilə hamıya nümunə olardı.

Heydər Əliyev elə bil onlarca ixtisas üzrə ali təhsil almış, universitet bitirmişdi. Elmin elə sahəsi yox idi ki, həmin sahənin ən yüksək ixtisaslı mütəxəssisləri ilə danışanda həmsöhbətlərini heyrətdə qoymasın. Onun Azərbaycan ədəbiyyatını, tarixini, mədəniyyətini, incəsənətini necə dərindən bildiyini televiziya ilə nümayiş etdirilən yığıncaqlarda hamı görüb. Ədəbiyyatımızın, musiqimizin, rəssamlıq, memarlıq sənətinin korifeyləri etiraf edirlər ki, Heydər Əliyevlə sənət haqqında söhbət etməkdən sözün əsl mənasında ehtiyat edirdilər, çünki o, qəflətən sənətlə bağlı elə incə məqamlara toxunurdu ki, şairi də, yazıçını da, bəstəkarı, rəssamı, heykəltəraşı da heyrətdə qoyurdu. Bu məsələ ilə bağlı bir misal çəkmək istəyirəm. Bakı şəhərinin yenidən qurulması, paytaxtda yeni yaşayış massivləri, parklar, yaşıllıqlar salınması ilə məşğul olan memarlar etiraf edirlər ki, Heydər Əliyev hələ 60-cı illərdə, Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, sonralar isə komitənin sədri vəzifəsində çalışanda Bakının yenidən

qurulması, şəhərsalma məsələləri ilə bağlı onlara verdiyi gözəl, dəyərli məsləhətlərin əhəmiyyətini indinin özündə də qiymətləndirməmək mümkün deyil.

Heydər Əliyev nəinki ölkəmizdə, eləcə də bütün dünyada indiyə qədər yaşamış dövlət və siyasət xadimləri arasında ən uzaqgörən şəxsiyyətlərdən biri olub. Bunu sovet hakimiyyətinin son 20 ilində, habelə müstəqilliyimizin bu ağır, çətin illərində Azərbaycanın əldə etdiyi nailiyyətlərin hamısını yox, yalnız bir qismini yada salsaq, belə aydınca görərik. Vaxtilə SSRİ Dövlət Plan Komitəsində, SSRİ Nazirlər Sovetində və SSRİ-nin bir sıra nazirliklərində yüksək vəzifədə çalışan erməni və ermənipərəst mütəxəssislər Azərbaycana müasir texnologiyaların gətirilməsinin qarşısını alır, ən güclü, ekoloji baxımdan ən zərərli istehsalat müəssisələrinin bizim ölkəmizdə tikilməsinə çalışırdılar. Bunu Sumqayıtın timsalında aydınca görmək olar. Yaşlı nəslin nümayəndələri yaxşı bilirlər: 60-70-ci illərdə Sumqayıtda bir neçə zəhərli müəssisə fəaliyyət göstərirdi, ətraf mühitin çirklənməsi ucbatından müxtəlif fəlakətlər baş verirdi. Dəqiq deyə bilmərəm, hansı müəssisələrsə havaya külli miqdarda zəhərli qazlar, müxtəlif tullantılar buraxırdılar. Bunun təsirini təkcə Sumqayıtda deyil, Bakının şimal hissəsində belə aydınca hiss etmək olurdu. Belə müəssisələrin tədricən bağlanması əvəzində yeni, ekoloji baxımdan daha təmiz texnologiyalarla işləyən istehsalatlar qurulması, Bakıda, Sumqayıtda, Gəncədə və bir sıra digər iri şəhərlərimizdə dünya bazarına çıxarılan müasir sənaye məhsulları istehsal edən müəssisələrin tikilməsində Heydər Əliyevin müstəsna xidmətləri olub. Bu baxımdan təkcə Bakı Məişət Kondisionerləri zavodunu misal gətirmək kifayətdir.

Ümummilli liderimiz Heydər Əliyevin ən heyrətamiz xüsusiyyətlərindən biri onun son dərəcə güclü yaddaşa malik

olması idi. O, 30-40, bəzən 50 il əvvəl gördüyü və yaxud bir neçə dəqiqə söhbət etdiyi adamı görəndə dərhal tanıyır, gülümsəyərək az qala yarım əsr bundan əvvəl baş vermiş bir olayı yada salanda həmin adamın heyrətini təsəvvür edə bilərsiz. Dövlət xadimində, dövlət başçısında belə yaddaşın olması son dərəcə nadir hadisə sayılsa da bunun həm də dəyəri ölçüyə gəlməyən bir xüsusiyyət olduğunu etiraf etməliyik.

Heydər Əliyev sovet hakimiyyəti illərində təhlükəsizlik orqanlarında çalışdığı vaxtlarda həm bacarıqlı çekist, ölkənin sərhədlərinin etibarlı surətdə qorunması, təxribatların, terror aktlarının qarşısının alınması baxımından bacarıqlı və istedadlı rəhbər işçi kimi, daha sonralar, Azərbaycana hakimiyyətə gəldiyi, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin I katibi vəzifəsində çalışdığı illərdə ölkəmizin hərtərəfli tərəqqisi naminə gördüyü işləri həmişə yorulmadan, əzmkarlıqla həyata keçirilib. Yaşlı nəsil yaxşı xatırlayır: Heydər Əliyev ölkəmizdə hakimiyyətə gəldikdən sonra Azərbaycan 14 dəfə SSRİ üzrə sosializm yarışlarının qalibi olmuş, keçici qırmızı bayraqlar almışdı. Yüzlərlə, minlərlə Azərbaycan zəhmətkeşi dövlət və hökumət mükafatlarına layiq görülmüş, orden və medallarla təltif edilmişdi. Əhalinin güzəranı xeyli yaxşılaşmışdı.

Müstəqillik illərində ümummilli liderimizin fəaliyyəti isə bugünkü nəslin gözü qabağında olub. 1993-cü ildə xalqın çağırışı ilə hakimiyyətə gələn Heydər Əliyev ölkədə mövcud olan xaosun, özbaşınalığın və bir az da dəqiq desək, vətəndaş müharibəsinin qarşısını aldı. Azərbaycanın bugünkü tərəqqisinin təkanverici anı saydığımız "Əsrin müqaviləsi"nin imzalanması, Bakı-Supsa neft kəmərinin çəkilişinin istifadəyə verilməsi, hazırda isə artıq işlərin az qala yarısının görüldüyü Bakı-Tbilisi-Ceyhan kəməri layihəsinin reallaşması, Xəzərin sülh və əməkdaşlıq dənizinə

çevrilməsi ilə bağlı gördüyü bir sıra təbdirlər, ölkədə qanunvericilik fəaliyyətinin gücləndirilməsi sahəsində Milli Məclisə verdiyi tövsiyələr, başlıcası isə xarici siyasət sahəsində fəaliyyəti nəinki Azərbaycan gənclərinə, həmçinin öz xalqını, vətənini sevən, həyatını siyasətə, diplomatiyaya həsr etmək istəyən bütün dünya gənclərinə örnək ola bilər.

"Gəncliyin səsi" qəzeti,
(Xüsusi buraxılış)
07-14 may 2004-cü il

İSMAYIL MÜƏLLİM XALQ TƏRƏFİNDƏN SEVİLƏN, QƏBUL EDİLƏN İCTİMAİ XADİM İDİ

Azərbaycan ədəbiyyatına və mədəniyyətinə, elmi-pedaqoji ictimaiyyətinə ağır itki üz vermişdir. Amansız ölüm ictimai-siyasi xadim, Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, istedadlı alim, pedaqoq, Milli Məclisin üzvü İsmayıl Şıxlını sıralarımızdan qopardı.

İsmayıl Şıxlının tərcümeyi-halı haqqında geniş danışmağa ehtiyac yoxdur. Çünki onu bütün Azərbaycan xalqı yaxşı tanıdığı üçün hamı onun tərcümeyi-halına bələddir. O, 76 il bundan əvvəl Qazax rayonunun Şıxlı kəndində ziyalı ailəsində dünyaya göz açmışdır. Uşaqlıq illəri, məktəb həyatı, sonra heç kəsə bənzəməyən, özünəməxsus İsmayıl Şıxlı ömrü başlayır. Bu ömrün tələbəlik, aspirantlıq, müəllimlik, alimlik, yazıçılıq səhifələri N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universiteti ilə bağlıdır. 1937-ci ildə Pedaqoji Universitetin filologiya fakültəsinə qəbul olan İsmayıl Şıxlı Vətən müharibəsinin ilk günlərində qələmi süngü ilə əvəz edərək könüllü surətdə müharibəyə gedir. Gənc döyüşçü sovet ordusu sıralarında Mozdokdan-Berlinədək ağır döyüş yolu keçmiş, müharibənin min bir əzab-əziyyətini görmüşdür.

Müharibədən sonra o, əsgər şinelində tələbə auditoriyasına qayıdaraq təhsilini davam etdirmişdir.

İsmayıl Şıxlının əmək kitabçasında bircə müəssisənin adı var: N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universiteti. Onun bütün şüurlu həyatı müəllim kadrların yetişdirilməsinə həsr olunub.

O, filologiya fakültəsində az tədqiq olunan sahədə – xarici ölkələr ədəbiyyatı ilə məşğul olmuş, “Xarici ölkələr

ədəbiyyatı” kitabı istedadlı yazıçı və bacarıqlı tədqiqatçının məhsulu kimi uzun illərdir ki, ali məktəblərdə tədris olunur.

“Ayrılan yollar”, “Dəli Kür” romanları Azərbaycan ədəbiyyatının roman janrının ən sanballı, qiymətli, əvəzsiz nümunələri kimi hər bir evin stolüstü kitabıdır. “Dəli Kür” Azərbaycan xalqının tarixində son dərəcə mürəkkəb və ziddiyyətli bir mərhələnin milli-mənəvi qəhrəmanlığının bədii salnaməsidir. Cahandar ağa obrazı sanki İsmayıl müəllimin özüdür. O da Cahandar ağa kimi qətiyyətli, prinsipial, xeyirxah, qayğıkeş, sözü keçən alim-pedaqoq idi. Pedaqoji universitetdə ən mürəkkəb, barışmaz, qarşıdurma yaradacaq mübahisələr İsmayıl müəllimin təmkini, məsləhəti ilə sülhlə qurtarardı.

70-ci illərdə İsmayıl Şıxlı Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin şəxsi təşəbbüsü ilə əvvəlcə “Azərbaycan” jurnalına baş redaktor, sonra isə Yazıçılar İttifaqının katibi seçilmişdi. İşinin çox olmasına baxmayaraq, o, tələbə auditoriyasından ayrılmadı, ən çox sevdiyi peşəsini – müəllimliyini davam etdirdi.

İsmayıl müəllim xalq tərəfindən sevilən, qəbul edilən ictimai xadim idi. Zahirən sakit, təmkinli görünən bu böyük insanın qəlbində xalq odu, xalq alovu yanırdı. Bu alov Azərbaycan xalqının ən ağır sınaqlarında – 1990-cı ilin qanlı yanvar faciələrində püskürdü. Respublikanın o vaxtkı rəhbərliyi Ə.Vəzirov, A.Mütəllibov, V.Hüseynov xalq al qana boyananda qaçıb küncdə-bucaqda gizlənəndə İsmayıl Şıxlı xalqla, onun kədəri, faciəsi ilə birgə idi. O, Ali Sovetin sessiyasının təcili çağırılması üçün əlindən gələni əsirgəmədi, xalqı sakitləşdirmək, hadisələrə açıq gözlə baxmaq üçün iclasa özü sədrlik etdi.

Düz bir il əvvəl respublika səviyyəsində İsmayıl müəllimin 75 illik yubileyini təntənə ilə keçirdik. Bu gün isə biz o böyük insanla, qayğıkeş və xeyirxah müəllimlə,

görkəmli yazıçı, ictimai-siyasi xadimlə vidalaşdıq, onu özü qədər sevdiyi Vətən torpağına tapşırdıq.

Əlvida, müəllimimiz, dostumuz, yaxşı məsləhətçimiz İsmayıl müəllim. Sizin adınız təkcə çoxminli oxucular deyil, həm də tələbələrimiz tərəfindən illərlə xatırlanacaq, əziz tutulacaq.

Allah Sizə rəhmət eləsin!

"Dəli Kür" qəzeti,
1 sentyabr 1995-ci il

YAZIÇI, ALİM, İCTİMAİ XADİM

Dünya miqyaslı ictimai-siyasi xadim H.Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə elmin, ədəbiyyatın, incəsənətin inkişafına, bu sahədə xidmət göstərənlərin dövlət qayğısı ilə əhatə olunmasına, həm sosial, həm də mənəvi müdafiəsinə diqqət yetirilmişdir. H.Əliyev Azərbaycandan gedəndən sonra, açıq demək lazımdır ki, ictimai həyatın ən müxtəlif sahələrində olduğu kimi, mədəniyyət sahəsində də bir durğunluq, hətta geriləmə müşahidə edildi. Dövlət nə az, nə çox, elmdən, ədəbiyyatdan, incəsənətdən əlini çəkib xalqın mədəniyyətini taleyin ixtiyarına buraxdı, bir növ "özfəaliyyət" dövrü başlandı.

Şübhəsiz, elmi, ədəbiyyatı, incəsənəti dövlət nəzarətindən, köməyindən kənarda qalan xalq, öz mədəniyyət xadimləri ilə fəxr etməyən cəmiyyət sivilizasiyalı bir xalq, sivilizasiyalı bir cəmiyyət ola bilməz. Ona görə də möhtərəm prezidentimizin mənsub olduğu, ürəkdən sevdiyi millətinin mədəniyyətinə hər vasitə ilə qayğı göstərməsi, onun hərtərəfli müdafiəsində durması tamamilə təbiidir…

Azərbaycanın müasir tarixində elə böyük şəxsiyyətlər mövcuddur ki, onlarla sadəcə fəxr eləmək, vaxtaşırı yubileylərini keçirmək kifayət deyil, onların həyatını, yaradıcılığını, fəaliyyətini araşdırıb öyrənmək, təbliğ etmək lazımdır. Bu cür şəxsiyyətlər neftimiz, pambığımız, gözəl təbiətimiz kimi, bizim milli sərvətimizdir: Nəriman Nərimanov, Məmməd Əmin Rəsulzadə, Səməd Vurğun, Üzeyir Hacıbəyov, Mirzə İbrahimov, İsmayıl Şıxlı, Şıxəli Qurbanov… Müxtəlif dünyagörüşlərə malik və müxtəlif talelər yaşayan həmin şəxsiyyətlərin hamısı eyni millətin övladlarıdır və heç bir ideologiya onları Azərbaycan tarixindən çıxarıb atmaq iqtidarında deyil.

…Şıxəli Qurbanov gözəl yazıçı-dramaturq, böyük alim, görkəmli ictimai xadim idi, lakin irəlicədən deyək ki, xalq arasında ona ən böyük hörmət qazandıran, adını məşhurlaşdıran hadisə – Bakıda ilk dəfə dövlət səviyyəsində Novruz bayramı keçirilməsini təşkil etməsi olmuşdur. Moskvanın siyasi-ideoloji təzyiqlərinə, qadağalarına baxmayaraq, 60-cı illərin ortalarında öz rəsmi mövqeyindən istifadə edən Şıxəli Qurbanov "ləbbeyk buzu"nu sındırdı, bir neçə il sonra respublika rəhbərliyinə gələn böyük ictimai-siyasi xadim, nəhəng ideoloq Heydər Əliyev isə Novruz bayramının "Bahar bayramı" adı ilə hərtərəfli təbliğinə hər cür şərait yaratdı. Məsələ bayramın keçirilməsində deyildi, məsələ millətin öz mənəvi müstəqilliyini genişləndirməsində idi.

Şıxəli Qurbanov 1925-ci ilin avqustunda Bakı şəhərində anadan olmuş, orta təhsilini başa vurduqdan sonra 1941-ci ilin iyulunda könüllü olaraq müharibəyə getmişdir. Müharibə müstəqil həyata yenicə qədəm basmış gəncin xarakterini formalaşdırdı, onu bərkə-boşa salıb möhkəmləndirdi.

…Cəbhədən qayıdıb Azərbaycan Pedaqoji İnstitutunun filologiya fakültəsinə daxil oldu, ali təhsilini müvəffəqiyyətlə bitirib həmin institutun aspirantı kimi elmi axtarışlara başladı. 1956-cı ilin iyununda "Puşkin və Azərbaycan poeziyası" mövzusunda namizədlik dissertasiyası müdafiə etdikdən sonra Şıxəli Qurbanov APİ-də baş müəllim, dosent vəzifələrində çalışmış, rus ədəbiyyatından dərs demişdir.

Göründüyü kimi, onun həyatının axtarışlarla zəngin olan mühüm bir mərhələsi (təxminən 15 illik bir dövr) Pedaqoji İnstitutda keçmiş – o, burada həm tələbəlik, həm də ilk müəllimlik illərinin hər bir insanın həmişə xatırlayacağı günlərini yaşamışdır. İnstitutun müharibədən sonrakı həyatında "əyni şinelli" gənclərin – tələbələrin, aspirantların, müəllimlərin xidməti böyük olmuşdur. Onlardan biri də Şıxəli Qurbanov idi.

Əlbəttə, Şıxəli Qurbanovun istedadı imkan vermirdi ki,

yalnız elmi-pedaqoji işlə məhdudlaşsın; o, daha geniş fəaliyyət meydanı axtarır, cəmiyyətə daha çox gərək olmağa çalışırdı. Ona görə də APİ-dəki elmi-pedaqoji işini davam etdirməklə yanaşı 50-ci illərin ikinci yarısında müxtəlif partiya-dövlət vəzifələrində olmuş, xüsusilə təbliğat-təşviqat sahəsində fəaliyyət göstərmişdir. Onun təşkilatçılıq, xalqı öz ətrafında toplamaq, camaatla işləmək qabiliyyəti həmin illərdə formalaşdı, ona böyük nüfuz qazandırdı.

…Şıxəli Qurbanov 1961-ci ildə Azərbaycan EA Nizami adına Ədəbiyyat və Dil İnstitutuna keçir, burada ədəbi əlaqələr şöbəsinə başçılıq edir, eyni zamanda ardıcıl şəkildə həm elmi, həm də bədii yaradıcılıqla məşğul olur. Həmin illərdəki axtarışların məhsulu "XIX əsrdə Azərbaycanda rus ədəbi əlaqələrinin inkişaf mərhələləri" mövzusundakı doktorluq dissertasiyası müəllifə böyük elmi şöhrət gətirir. "XIX əsrin müxtəlif tarixi mərhələlərində Azərbaycan-rus ədəbi əlaqələrinin inkişafı problemlərini tədqiq etmək işində ilk təcrübə" olan məşhur monoqrafiyasında görkəmli ədəbiyyatşünas yalnız ədəbi əlaqələrin müxtəlif (və mürəkkəb) məsələlərini aydınlaşdırmaqla kifayətlənməmiş, eyni zamanda dövrün zəngin ictimai-estetik problemlərini şərh etməyə çalışmışdır.

Elmi yaradıcılığı, əsasən, ədəbi əlaqələr mövzusuna həsr olunsa da, Şıxəli Qurbanov həmin mövzudan kənara çıxan məsələlər üzərində də düşünmüşdür, xüsusilə müasir Azərbaycan ədəbiyyatına (məsələn, S.Vurğuna), ədəbiyyatın tədrisi metodikasına (xatırlayaq ki, o, ixtisasca müəllim idi) və s. aid məqalələri respublika mətbuatında vaxtaşırı çap edilirdi. Elmi, ictimai-estetik təfəkkürü, ədəbi hadisələri bütün mürəkkəbliyi ilə dərk və şərh etmək istedadı, yüksək yazı-ifadə mədəniyyəti (birinci növbədə, lakonikliyi) onun ədəbiyyatşünas-alim üslubunu müəyyən edən əlamətlərdir ki, həmin əlamətlər müəllifin demək olar ki, hər bir

monoqrafiyasında, elmi-tənqidi məqaləsində özünü göstərir.

Şıxəli Qurbanov şeirlər, hekayələr, xüsusilə gözəl dram əsərləri də yazmışdır. Şeirlərindəki satirik motivlər onun hekayələrində də özünü göstərir. "Elmi ezamiyyət", "Mənə bu da azdır", "Balaxanımın dərdi", "Xaş Məmiş", "Nekroloq əvəzinə" və s. hekayələr 60-cı illərdə yazılmış, əksəriyyəti "Kirpi" jurnalında dərc edilmişdir.

Şıxəli Qurbanov, əsasən, 50-60-cı illərin mənəvi-əxlaqi problemlərini əks etdirən "Rəis məşğuldur" (1958), "Əcəb işə düşdük" (1962), "Özümüz bilərik" (1963), "Olmadı elə, oldu belə" (1964), "Milyonçunun dilənçi oğlu" (1966) dramlarının, "Bahadır və Sona" (1961) librettosunun müəllifidir.

Həm şeirlərində, həm hekayələrində, həm də dram əsərlərində (onların çoxu komediyadır) yazıçı o dövr Azərbaycan cəmiyyətindəki eybəcərliklərə gülür, onların islahı üçün yollar axtarırdı…

"Sənsiz", görkəmli ədəbiyyatşünas Abbas Zamanovun qeyd etdiyi kimi, Şıxəli Qurbanovun dramaturgiyada, ümumən, ədəbiyyatda "hələ möhkəmlənməmiş mövqeyini… möhkəmləndirdi". "Sənsiz"i yazıçı-dramaturq səhnədə görə bilmədi, ancaq müəllifin ölümündən bir neçə gün sonra əsərinin böyük müvəffəqiyyətlə keçən ilk tamaşası oldu. Yaxşı yadımdadır. Tamaşaçılar həm həyatdan vaxtsız getmiş Şıxəli Qurbanov üçün göz yaşları tökür, həm də onun gözəl əsərinin uğuruna sevinir, əl çalırdılar.

İnsanı təbiət qədər gözəl, nöqsansız, təmiz görmək Şıxəli Qurbanovu yalnız bir yazıçı-idealist kimi maraqlandırırdı. Və o, inanırdı ki, hər bir insanın daxili təbiətin özü qədər safdır, ancaq həyat onu bərkə-boşa salanda bəziləri öz müvazinətini itirib yıxılır, müxtəlif səhvlər edirlər. Halbuki insan həyatın onun qarşısına çıxardığı hər cür gözlənilməz çətinliklərə hazır olmalıdır.

…Şıxəli Qurbanov 1966-cı ilin əvvəllərində Azərbaycan

KP MK katibi seçildi, qısa bir müddətdə böyük işlər gördü, lakin qəfləti ölüm ona imkan vermədi ki, həmin işləri davam etdirib başa çatdırsın. Gözəl yazıçı, böyük alim, görkəmli ictimai xadim 1967-ci ilin baharında gözlərini əbədi olaraq yumdu…

Onun "ancaq özü üçün yazdığı" şeirlərin içərisində diqqəti cəlb edən bir şeir var. Həmin şeirdən aşağıdakı misralar adamı sarsıdır:

…Şamlar, bayram şamları…
Bu bayram axşamları,
Məni də yandıraydı,
Sizi yandıran əllər…
Mənə bir od vuraydı,
Yanaydım bir şam kimi,
Bir ürək sahibinin,
Süfrəsin bəzəyəydim,
Ürəyimin sözünü,
Bəlkə ona deyəydim…
Yaşayaydım sizinçün,
Ay xeyirxah əməllər,
Ay xeyirxah əməllər…

Şıxəli Qurbanov özünün ən gözəl obrazını bu şeirdə məhz özü yaratmışdır, həm də rəsmi adam olmasına baxmayaraq, qeyri-rəsmi bir intimliklə yaratmışdır; onun həyatı, həqiqətən, bahar şamını xatırladır. Ürəyinin hərarətini, işığını heç kimdən əsirgəməyən bu böyük insan ancaq "xeyirxah əməllər" üçün doğulmuşdur. Və onun ürəkdən sevdiyi, tərənnüm etdiyi bahar, ancaq bir adamın baharı deyildi, ümumən, Azərbaycan xalqının – yazıçı, alim və ictimai xadim Şıxəli Qurbanovun mənsub olduğu xalqın baharı idi…

"Azərbaycan" qəzeti,
6 dekabr 1995-ci il

DOSTLUĞUN İŞIĞINDA

Əllinci illərin ortaları idi. Hər tərəfin gül-çiçəyə qərq olunduğu xoş bir bahar günüydü. Naxçıvanın al-yaşıla bürünmüş dağları, düzləri yaz günəşinin işığında xumarlana-xumarlana gülümsəyirdi. Maşın irəlilədikcə göz oxşayan, ruhu qanadlandıran may mənzərələri kino kadrları kimi bir-birini əvəz edir, yolçuları dinib-danışmağa "qoymur", gözəlliyin möcüzəli hökmü ilə ovsunlayırdı onları.

Keçili-Külüs yolu ilə irəliləyən maşın Naxçıvan çayına çatıb dayandı. Neçə günün leysan yağışı ilə kükrəyən çaya yaxın düşmək mümkün deyildi. Şahbuz Rayon Partiya Komitəsinin birinci katibi Mənaf Xudiyev Naxçıvan Muxtar Respublikası Nazirlər Sovetinin sədri Rəhim Rəhimova üz tutub ərklə dedi:

– Bilirdim ki, çayı keçib gedə bilməyəcəyik o kəndlərə…

Rəhim Rəhimov təəccüblə dostuna baxdı:

– Bəs onda niyə gəldik?

– İstəyirdim ki, Şahbuzun bu vəziyyətini əyani görəsiz. Biləsiz ki, kəndlərin bir yaxşı körpüyə necə böyük ehtiyacı var.

– Düz deyirsən, Mənaf müəllim, mənə yaxşı ideya verdin.

Elə səhərisi günü Nazirlər Soveti sədrinin xüsusi göstərişi ilə bir qrup yol mühəndisi və operativ tikinti-quraşdırma dəstəsi işə başladı. Bir-iki həftə keçdi. Naxçıvan çayının üstündən salınan körpü hamının böyük sevincinə, razılığına səbəb oldu…

İki dostun yadigarı olan həmin körpü əlli ildən artıqdır ki, el-obanın xidmətindədir.

Bu maraqlı epizod hansısa bədii əsərdən, roman və ya povestdən götürülməyib. Bunu rəhmətlik atam Mənaf Xudiyev danışardı. Özü də şövqlə danışardı ki, elə bil ömür kitabının ən gözəl, ən unudulmaz, ən xoş bir səhifəsini oxuyurdu. Danışa-danışa sevinirdi, kövrəlirdi: "Rəhim Rəhimov belə oğuldur, dostluğa sədaqəti, etibarı tükənməyən bir insandır" – deyirdi. Və mən atamın bu isti, ürəkli söhbətlərini, işıqlı, nurlu xatirələrini dinləyə-dinləyə təmənnasız, halal, mərdanə dostluğun həqiqətən necə böyük nemət, nə qədər uca zirvə olduğunu görür, buna bütün varlığımla inanırdım.

Bütün bunları düşündükcə hiss edirəm ki, gözəl təşkilatçı və xeyirxah insan olan Rəhim Rəhimovun haqqındakı kitaba əsl dost sözünü atam Mənaf Xudiyev yazmalı idi. Ancaq yoxdu atam, çoxdan haqq dünyasına qovuşub və bu gün mənəvi borc onun övladı kimi mənim üzərimə düşür.

Atalı xatirələrimin gözü ilə əlli illik ömür kitabımın səhifələrini vərəqləyir və hər səhifədən Rəhim əminin – özgə cür deyə bilmirəm, hələ uşaq vaxtlarından mən onu belə çağırmışam – bəli, Rəhim əminin müdrik baxışları boylanır, doğma, ağayana səsi gəlir.

Xatirə axarında sevinc, ümid dolu həmin günlərin bir xoş sədasını da aydın eşidirəm. Şəhərdə evimiz yox idi. Atam Şahbuzdan hər səhər işə gedər, gecədən xeyli keçmiş qayıdardı. O, çox təvazökar insan, heç kimə əyilməyən, özünü sındırmayan adam idi. Özü haqqında heç vaxt kimsədən xahiş, minnət etməzdi. Günlərin birində Rəhim Rəhimov atamı yanına çağırıb təəccüblə soruşur:

– Mənaf, sən hər gün Şahbuza gedib gəlirsən?

– Bəli, başqa çarəm yoxdu. – Atam qısa cavab verir, məsələni tam açmağı şəninə sığışdırmır.

Bir neçə gündən sonra Rəhim əmi yenidən onu yanına

dəvət edir:

– Şəhər sovetinə get – deyir – orderi al, sənə gözəl bir mənzil ayrılıb.

Uzaq, çox uzaq uşaqlıq illərimdən ən çox yadımda qalan gün idi həmin gün. Atam bizi bağrına basıb fərəhlə deyirdi:

– Yığışın, sabah Naxçıvana, təzə evimizə köçürük.

Sonra bir anlığa nəsə düşünüb öz-özünə pıçıldadı:

– Dost belə olar, insanlıq belə olar, halal olsun!

Bakıda oxuduğum illərdə həmişə Rəhim əminin qayğısını, köməyini hiss eləmişəm. Düzdür, həm orta məktəbdə, həm də institutda əla oxuyurdum. Dərs sandan nigarançılığım yox idi. Amma elə məsələlər olurdu ki, atamdan əvvəl Rəhim müəllimlə məsləhətləşir, onun fikrini öyrənir, xeyir-duasını alırdım.

Rəhim əminin ağsaqqallığına, müdrikliyinə, hər hansı çətin məqamda çıxış yolu tapıb, düzgün məsləhət verəcəyinə həmişə inanmışam, bu gün də inanıram. Və bu sözləri yaza-yaza minnətdarlıqla xatırlayıram ki, Bakının Yasamal rayonundakı kooperativ binada mənzil almağımın səbəbkarı da Rəhim Rəhimov olub. O vaxtlar son dərəcə çətin başa gələn, adətən əyri yollarla düzələn bu məsələ Rəhim müəllimin yaxından köməyi, təmənnasız səyi nəticəsində çox “asanca” həll olundu. Və indi hər dəfə həmin mənzilin qapısını açanda Rəhim Rəhimov adının işığıyla qəlbim dolur, həqiqi dost ucalığının saf, enməz zirvələrindən keçirəm.

Düşündükcə yeni-yeni məqamlar xəyalıma gəlir. Atam danışardı ki, Rəhim müəllim mötəbər bir qonaqla Şahbuza gəlmişdi. Dedi ki, Mənaf, tədarük gör, qalxaq yuxarılara, Batabat tərəflərə.

Yayın isti vaxtları idi. Ancaq dağlara qalxdıqca zirvələrin buz nəfəsini, saf soyuğunu hiss edirdik. Zor bulağının başında köç saldıq, özü də məcbur olub açıq havada oturduq. Baxıram, bu səfalı yeri, gözəlliklər məskənini

heyranlıqla seyr edən mötəbər qonaq narahatdır, üşüyür. Fürsəti fövtə vermədim:

– Zor bulağının ayağında bir gözəl ev tiksəydik – dedim – qonaqlarımız heç belə üşüməzdi.

Rəhim Rəhimov sözü göydə tutdu:

– Haqlısan, Mənaf, gözəl ideyadır, fərz elə ki, artıq həyata keçib.

Beləcə, Nazirlər Sovetinin sədri Şahbuzun birinci katibinin sözünü dəstəklədi və bir neçə aydan sonra məşhur Batabat yaylağında hərəsi dörd otaqlı iki ev tikildi.

Atamın bir sözü də yadımda qalıb. Rəhmətlik deyərdi ki, Naxçıvana yüksək gərginlikli elektrik xətti çəkiləndə Rəhim Rəhimov mənə görə göstəriş verdi ki, ilk öncə uzaq Şahbuz rayonundan başlanılsın. Belə də oldu. Şahbuzun kəndləri birinci olaraq elektrikləşdirildi.

Mənaf Xudiyevin öz sadiq dostu Rəhim Rəhimov haqqında unudulmaz sözü-söhbəti çox olub. Hamısı yadımdadır. O maraqlı söhbətlər, böyük bir yazının mövzusu, obyekti ola bilər. Atamla Rəhim əminin saf, halal, təmənnasız dostluğuna güzgü tutan bu yazı isə ümmandan damladır. Və deyirlər ki, ümmanın dadını-tamını bilmək üçün bəzən bir damla da kifayət edir.

Dəyərli ömrünü doğma xalqına, vətəninə həsr edən, illər boyu qurub yaradan, həyatda silinməz izlər qoyan Rəhim Rəhimov bu gün də bizimlədir, əvvəlki şövqlə, gənclik həvəsi ilə iş başındadır.

Professor Rəhim Rəhimovun elmdə, tədrisdə olan bütün uğurları hamımızı sevindirir. Mənə isə bu, ikiqat xoşdur: həm atama, həm də özümə görə!

Atam Mənaf Xudiyeviə əmim Rəhim Rəhimovun illərin sınağından çıxan qeyri-adi dostluğu haqqında düşünəndə təxminən doqquz yüz il əvvəl yazılan “Qabusnamə”dən kiçik bir dialoq yada düşür. Bir alimdən

soruşurlar: “Dost yaxşıdır, yoxsa qardaş?”. Alim fikirləşmədən cavab verir: “Qardaş da dost olsa yaxşıdır”.

Onlar belə sadə, səmimi, fəqət çox sadiq, çox bütöv dost idilər. Hər dəfə Bakıya gələndə qatardan düşən kimi atam deyərdi: “Gedək Rəhim müəllimə salam verək”. Bu, ürəyin dərinliklərindən gələn duru bir istək, heç nə ilə əvəz olunmayan mənəvi ehtiyac, sanki müqəddəs bir borc idi. Və mən atamla Rəhim əminin bu bütöv, bu mərdanə, misilsiz dostluğuna həmişə həsəd aparmışam. Doğrusunu deyim ki, ömrü boyu bu dostluğun işığında qızınmışam, bu gün də həmin saf, səmimi dostluqla fəxr edirəm.

Böyük alim, həqiqi vətəndaş, müdrik el ağsaqqalı, əsil ziyalı kimi tanıdığım professor Rəhim Rəhimova can sağlığı, daha böyük uğurlar arzulayıram. Həm öz adımdan, həm də atam Mənaf Xudiyevin yerinə!

Əhməd İsayev “Dəyərli ömrün anları”.
“Azərbaycan Ensiklopediyası” nəşriyyatı,
1999, səh. 182-186

ƏDƏBİ DİLİMİZİN TƏBİBİ

(DOKTOR CAVAD HEYƏT VƏ ONUN "MÜQAYİSƏTÜL LÜĞƏTEYN" KİTABI HAQQINDA)

Elmin, mədəniyyətin inkişafı görkəmli şəxsiyyətlərin, elm və sənət fədailərinin konkret zaman kəsiyindəki fəaliyyətlərindən çox asılıdır.

Bu qeyri-adi bilik, istedad sahibləri öz kəşfləri, elmi nailiyyətləri ilə mənsub olduqları millətin adını dünyaya tanıdır, bəşəriyyətin mənəvi dəyərlər xəzinəsinə töhfələr vermiş olurlar.

Doktor Cavad Heyət şəxsiyyəti, elmi, ictimai fəaliyyəti, Azərbaycan-türk dünyası üçün göstərdiyi xidmətlər bu işıqlı insanı daha yaxından tanıtmağa ehtiyac yaradır.

Görkəmli tibb alimi, dünya miqyasında tanınmış cərrah və tədqiqatçı Cavad Heyət 1925-ci ildə Güney Azərbaycanın Təbriz şəhərində dünyaya göz açmışdır. O, orta məktəbi bitirdikdən sonra Tehran Universitetinin tibb fakültəsinə daxil olur. İkinci kursu uğurla bitirdikdən sonra Türkiyə hökumətinin dəvəti ilə təhsilini İstanbulda davam etdirir. Sonra o, ixtisasını tamamlamaq üçün Paris Universitetinin cərrahlıq klinikasında 3 il çalışır. 40 ildən artıq insanların sağlamlığı keşiyində duran görkəmli cərrah İranda ilk dəfə "Tibb elmi" adlı jurnal nəşr etdirir, tibbə aid ən son yeniliklər bu dərgi vasitəsilə yayımlanır.

Yenə də İran mühiti üçün böyük elmi uğur sayılan açıq ürəkdə cərrahiyyə əməliyyatı (1962), böyrək peyvəndi üzrə uğurlu əməliyyat (1968) məhz Cavad Heyətin əli ilə həyata keçirilir. Bu nailiyyətlərinə görə o, 1963-cü ildən Beynəlxalq Cərrahlar Birliyinin, 1983-cü ildən isə Paris Cərrahlıq

Akademiyasının üzvü seçilir. C.Heyət hazırda İranda Azad İslam Universitetinin cərrahlıq şöbəsinə rəhbərlik edir.

O, 1998-ci ildən Azərbaycan MEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun elmi şurasının fəxri üzvüdür. Bu günə kimi Cavad Heyətin çıxış və məruzələri mötəbər elmi simpoziumlarda səslənmiş, İngiltərə, Fransa, eləcə də Avropanın digər ölkələrinin ən nüfuzlu jurnallarında 25-dən çox məqaləsi çap olunmuşdur. Məşhur cərrah tibb elmi ilə yanaşı, türkologiya, fəlsəfə, islamşünaslıq elmləri sahəsində ciddi elmi araşdırmaları və fundamental əsərləri ilə tanınmışdır. C.Heyət türk mənəvi birliyinə qapılar açmaq məqsədilə İran inqilabından sonra Tehranda "Varlıq" jurnalını çap etdirməyə müvəffəq olur ki, həmin jurnal bu gün də ən kütləvi mətbu orqanı kimi fəaliyyət göstərir. "Varlıq" hər sayında elmin, ədəbiyyatın, folklorun seçmə nümunələri ilə öz oxucularını sevindirir.

İstər tibbə, istərsə də türkologiyaya aid 180-dən çox məqalə yazıb çap etdirmiş görkəmli alimin əl-əl gəzən "İran türklərinin inkişaf tarixi" (fars dilində), "Ümumi cərrahlıq", "Azərbaycan ədəbiyyatı tarixinə baxış" (2 cilddə), "Müqayisətül lüğəteyn", "XX əsrdə Güney Azərbaycan türklərinin dil və ədəbiyyatı", "Türklərin tarix və mədəniyyətinə baxış", "Azərbaycan şifahi xalq ədəbiyyatı", "Qərb fəlsəfə tarixinin xülasəsi", "Azərbaycan ədəbiyyatı tarixi" (2 cilddə), "Ədəbiyyatşünaslıq" kitabları bu vaxtacan gördüyü elmi-ədəbi, mədəni fəaliyyətin əzəmətindən xəbər verir.

Cavad Heyət həm də görkəmli ictimai xadimdir. Onun Azərbaycana qarşı erməni terrorizmini, işğalçılıq siyasətini ifşa edən çıxışları ən ali məclislərdə səslənmiş, məqalələrdə, məruzələrdə öz əksini tapmışdır. C. Heyət Azərbaycanın haqq səsini dünya ictimaiyyətinə çatdırmaq sahəsində fədakarlıq göstərmişdir.

Böyük alimin yaradıcılığının son elmi uğurlarından sayılan “Müqayisətül lüğəteyn” (iki dilin müqayisəsi) əsəri də əsl vətəndaş duyğusundan, milli qeyrət qaynaqlarından su içir. Bu kitab mənəvi həyatımızı yalnız elmi-metodik baxımdan deyil, həm də tarixi-əxlaqi haqların təhlilə cəlb etməsi baxımından böyük əhəmiyyət kəsb edir. Bir çox milli dəyərlər kimi bu əsər də 23 ildən artıq xalq yaddaşını, milli problemləri, ədəbi qaynaqlarda yaşayan sənət həqiqətlərini üzə çıxarmağı qarşısına məqsəd qoymuş “Varlıq” jurnalında çap olunmuşdur. Cavad Heyətin “Varlığ”ı Cənubi Azərbaycanda xalqın varlığını, sabahkı inkişaf, mübarizə mərhələlərini istiqamətləndirən ən nüfuzlu jurnaldır.

“Müqayisətül lüğəteyn” müəllifin 40 illik gərgin axtarışlarının elmi nəticəsidir. Əsər Azərbaycan türkcəsinin fars dili ilə müqayisədə son dərəcə zəngin lüğət fonduna, söz ehtiyatına, məna tutumuna malik olduğunu göstərməklə İran mühitində dilimiz, milli mənsubiyyətimiz haqqında bu vaxta kimi formalaşan şovinist baxışları alt-üst edir.

Doktor Cavad Heyət konkret misallar əsasında göstərir ki, Azərbaycan türkcəsi bəzilərinin təbirincə təkcə folklor, şifahi dil faktı deyil, həm də müasir elmi, ədəbi, publisistik əsərlərə mənbə olan dil bazasıdır.

Müəllif dilin inkişaf prosesində təfəkkür amilini, cəmiyyətin inkişaf meyillərini ön plana çəkərək azərbaycanlıların necə zəngin mənəvi sərvətə malik olduqlarını vurğulayır. Kitab eyni zamanda Güney Azərbaycan türkcəsinin tarixi təkamül prosesinə uyğunlaşaraq ümumtürk dil ailəsinə daxil olduğunu göstərir. Məhz bu kitabın elmi nəticələrində dilimizin yeni ədəbi imkan, ifadə qabiliyyətinin başqa dillərlə müqayisədə üstünlüyü və zənginliyi faktı ilə əyani tanış ola bilirik.

Əslində Cavad Heyət bu əsəri ilə tarix uzunu haqqı tapdalanan bir türkcəyə vətəndaşlıq pasportu vermişdir.

“Müqayisətül lüğəteyn” elmi aktuallığına, sanbalına, ictimai və ədəbi məzmununa, işlənmə üslubunun orijinallığına görə mədəni həyatımızda hadisə hesab oluna bilər. Belə əsər məhz öz xalqına, ana dilinə, onun müdrik dahilərinə sonsuz məhəbbət nəticəsində yarana bilər. Bu kitab böyük Füzulinin söz, dil haqqını qoruyan müəllifin türkcəmizə xor baxan şovinist qələm sahiblərinə tutarlı cavabdır. Əsərin dəyəri bir də türkcəmizə müxtəlif münasibətlər formalaşdıran İran mühitində, özü də fars dilində çap olunmasındadır. C.Heyət burada təkcə həqiqəti göstərməklə kifayətlənməmiş, həm də əyani misallar, sübutlarla opponentlərini elmi etirafa məcbur etmişdir. Bu mənada “Müqayisətül lüğəteyn” əsəri 500 il əvvəl yaşamış görkəmli özbək şairi Əlişir Nəvainin “Mühakimətüi lüğəteyn” adlı dahiyanə əsəri ilə müqayisə oluna bilər. Əlişir Nəvai zəmanəsinin dil problemlərindən bəhs edərkən elmi, ədəbi həqiqətləri Cığatay türkcəsi ilə fars dilinin müqayisəsində axtarırdısa, onun mənəvi varisi bu müstəviyə Azərbaycan türkcəsini çıxarmış olur. Ədəbi mənbələrin işığında tarixə ekskurs edən tədqiqatçı ümumtürk coğrafi məkanını tam halda öyrənməyi vacib sayır, 1200-1400 yaşlı Orxon-Yenisey abidələrinin dilini tutarlı dil faktı kimi təhlilə cəlb edir. C.Heyət dilin arealını, nüfuz dairəsini müəyyənləş-dirərkən o vaxtı Sovetlər Birliyinin geniş məkanını Şərqi Türküstan, İran və Balkanları xatırlamaqla, ümumiyyətlə, 28 türk ləhcəsindən xəbər verir. C.Heyət bu əsərində türkcəmizin el-mi-metodik və terminoloji cəhətdən açıqlamasına da xüsusi diqqət yetirir, bu sahədəki kölgəli məqamlara aydınlıq gətirməyə çalışır. Müasir dilimizin inkişaf tempində onun gələcək perspektivləri barədə vətəndaş sevgisi ilə söz açan müəllif dilin strukturunu müəyyənləşdirərkən qrammatik normalamı və sintaksisin əhəmiyyətindən geniş bəhs edir.

Dilə canlı orqanizm kimi daim inkişafda və dinamik yeniləşmədə baxan tədqiqatçı ümumtürk dil məkanında Azərbaycan türkcəsinin imkanlarını onun praktikliyi ilə şərtləndirir. Belə dil öz istifadə məkanını hər gün genişləndirə bilir ki, bu da dil üçün böyük xoşbəxtlikdir.

Dildə tarixi yaddaşın izlərini araşdıran qocaman tədqiqatçı türkcəmizin ən sivil dil ailəsi məkanında yer aldığını tam qətiyyət hissi ilə deyir. Bu dilin lüğət fondunun zənginliyini yeni söz yaratma bacarığında, alınma sözləri doğma dilə uyğunlaşdıra bilməsində görən C.Heyət oxşar dillər arasında mübadiləni normal və vacib proses hesab edir.

Dilimizin bugünkü zənginliyində ana – kök sözlərin bolluğu əsas götürülürsə, digər səbəb onun daim söz qəbul edib inkişafa meyilli olmasındadır. Maraqlıdır ki, biz bu müsbət meyili müqayisəyə cəlb olunmuş fars dilində görmürük. Tədqiqatçı "Müqayisətül lüğəteyn"də 1650 türk sözü göstərir ki, fars dilində onların qarşılığı yoxdur. Bu dildə yaranan konservatizm zaman-zaman ona zərbə vurmuş, lüğət fondunda ciddi çatışmazlıqlar yaratmışdır. İndi qarşılığı olmayan 1650 türk sözü əvəzinə farsca ərəb dillərindən seçilən sözlərdən istifadə edirlər. Bu qarşılıqlı müqayisələrə əsaslanan əsər Azərbaycan türkcəsinin üstünlüyünü sübut edir.

Professor Cavad Heyətin "Müqayisətül lüğəteyn" əsəri gələcəkdə dil tariximizin tədqiqi ilə məşğul olacaq gənc alimlərə elmi və mənəvi dəstək ola bilən çox zəngin mənbədir.

"Respublika " qəzeti,
4 yanvar 2002-ci il

DƏMİRÇİZADƏ DÜNYASI

O, dəmirçi oğlu idi. Taleyində nəslinin dəmirçi möhkəmliyi ilə şəxsiyyətinin elmi-intellektual ucalığı qovuşmuş, bütöv vəhdət yaratmışdı. Bədii təxəyyül zənginliyi, elmi təfəkkür qüdrəti ilə sonsuz zəhmətdən, fədakar, yaradıcı əməkdən yaranmışdı professor Əbdüləzəl Dəmirçizadə dünyası.

Ana dilinin, Azərbaycan türkcəsinin ürək döyüntülərini, qan yaddaşını duyurdu. O dilin keçib gəldiyi tarix, təkamül yollarının ayağı dəmir çarıqlı, əli dəmir əsalı müdrik yolçusu ola bilirdi Dəmirçizadə. Tale onu dilimizin bəxtinə seçib göndərmişdi. O, Mahmud Kaşğarlı, Mirzə Kazımbəy, Bəkir Çobanzadə kimi elm korifeylərinin mənəvi varisi, sədaqətli, fədakar davamçısı idi. Və mən bu sözləri yaza-yaza unudulmaz müəllimimin təbəssüm dəryası xırda gözlərini, sehrli bir ay işığı sayrışan ağ-gümüşü saçlarını, geniş, nurlu alnını, asta-usta yerişini, hətta bütöv obrazını tamamlayan mil-mil araqçınını düşünürəm; onun özünəməxsus dilçilik məktəbi yaradan müdrik alim ömrü, işıqlı mütəfəkkir obrazı gözlərim önündə canlanır. Azərbaycan dilçiliyinin ciddi elmi təfəkkürə, yaradıcı milli alim şəxsiyyətinə olan böyük ehtiyacından yaranmışdı Ə.Dəmirçizadə. Bir vaxtlar böyük alim Bəkir Çobanzadənin aspirantı olan gənc Əbdüləzəl Dəmirçizadə öz fenomenal araşdırmaları, fundamental elmi tədqiqatları, dəyərli, sanballı monoqrafiyaları ilə müasir Azərbaycan dilçiliyinin yolgöstərən ağsaqqallarından birinə çevrilmişdi.

Onun elmi fəaliyyətində, yüksəlişində təsadüflər yox, zərurətlər, intellekt və istedadın, zəhmət və fədakarlığın bütöv vəhdətinə əsaslanan halal, özünəməxsus təkamül yolu

mühüm rol oynamışdı. Mühazirələrində dəfələrlə fəxrlə xatırladığı kimi, o, Bəkir Çobanzadədən, Əbdürrəhim bəy Haqverdiyevdən, Yusif Vəzir Çəmənzəminlidən, Abdulla Şaiqdən dərs almış, onların tələbəsi olmuşdu. Ə.Dəmirçizadə Səməd Vurğun, Süleyman Rüstəm, Əbdülhəsən, Sabit Rəhman, Həmid Araslı, Cəfər Xəndan, Salam Salamzadə və başqa görkəmli elm və sənət adamları ilə sinif, məktəb yoldaşı olmuşdu. Məhz belə bir mühitdə fitrən çox böyük istedad sahibi olan Əbdüləzəl Məmməd oğlu Dəmirçizadə qüdrətli alim-şəxsiyyət kimi yetişmiş, fitri imkanlarını praktik fəaliyyətdə reallaşdıra bilmişdi. Mən bu mətləb üzərində bir qədər geniş dayanıram. Çünki uzun illərin elmi-pedaqoji fəaliyyətindən sonra bu qənaətə gəlmişəm ki, fitri təməl, anadangəlmə potensial imkanlar mühitin inkişafında əsas rol oynayır. Ə.Dəmirçizadə dünyası bunu təsdiq edən uğurlu nümunələrdən biridir. E.Struve, İ.İ.Meşşaninov, A.N.Kononov, N.K.Dmitriyev kimi onlarca məşhur alimin yüksək qiymətləndirdiyi, təsdiq və etiraf etdiyi müəllimimin uğurları bu gün də bizim üçün elmi araşdırmalarda əsas istinad nöqtələrindən biridir.

O, Azərbaycan dilçilik elminin (yadıma Ə.Əfəndizadənin 1969-cu ildə "Elmi əsərlər" jurnalında çap etdirdiyi "Onun həyat yolu" məqaləsindəki "Azərbaycan sovet dilçilik elminin banilərindən biri olan prof. Ə.Dəmirçizadə" sözləri düşür) banilərindən biri və bəlkə də birincisidir.

Biz tələbələr ona tarix yaşlı, tarix yaddaşlı əlçatmaz bir varlıq, Azərbaycan dilçilik elminin canlı klassiki, əfsanəvi ustadı kimi baxırdıq. O, qeyri-adi elmi nəzəri fikirləri, analitik məntiqi, çox halda ciddi elmi təfəkkür tərzi ilə bizi valeh edir, ovsunlayır, heyrətləndirir, daxilən ucaldırdı. Professor Əbdüləzəl Dəmirçizadə hələ tələbəlik illərimizdə, yəni öz sağlığında diri ikən qəlbimizdə heykəlləşmişdi. Öz rəftarı, geyimi, danışıq tərzi, münasibəti, ciddiliyi, elmi

fədakarlığı, prinsipial, dəyişməz elmi mövqeyi ilə "professor" obrazı yaratmışdı və o zaman, elə indinin özündə də Azərbaycan dilçilik mühitində "professor" deyəndə hamı bilir ki, söhbət Əbdüləzəl Dəmirçizadədən gedir. Söhbət elə bir alimdən, elmi fikir nəhəngindən gedir ki, o, bütün yaradıcı ömrünü, misilsiz alim taleyini Azərbaycan dilçiliyinin inkişafına, tərəqqisinə həsr etmişdi.

… Dəmirçizadə adı mənə bir də ona görə əzizdir ki, digərlərinə nisbətən mənim ömür yolumda onun müəllim, alim, yol göstərən ustad kimi daha çox payı var. Onun professorluğundan, qayğıkeş, tələbkar müəllimliyindən mənim tələbəliyimdən başlanan doğmalıq və bu öyrənməyə can atan doğmalığın hərarəti ilə başlanan həyatımı bu gün Dəmirçizadə taleyinin – "Ədəbi dil tarixçisi" ömrünün davamı hesab edirəm. Məni ən çox sevindirən, qəlbimi qürur hissi ilə dolduran odur ki, ötüb keçən bütün bu illər ərzində həmin ömrü – unudulmaz ustadımın elm yolunu davam etdirməyə çalışıram.

… Professor Dəmirçizadənin auditoriyaya ilk gəlişini səbirsizliklə gözləyir, az qala mifik obraza çevrilən böyük alimlə tanışlığa tələsirdik. Bütün tələbələr kimi mən də hələ barmaqla sayılacaq qədər az olan dilçilik nəhənglərindən birinin, çağdaş dilçiliyimizin canlı klassikinin bizə dərs deyəcəyinin qeyri-adi vahiməsi içində idim. Budur, başında mil-mil araqçın, bəmbəyaz çöhrəsindən məsumluq tökülən "əfsanəvi" professor auditoriyaya daxil olur və biz salamı alaraq əsl alim nəhəngliyinin xofu qarşısında əyləşib donuq heyrət dolu nəzərlərlə ona baxırıq… Bəstəboylu, nəhəng professor beləcə, sonralar özünün fəxr elədiyi boylu-buxunlu gənclərə elmin və müəllimliyin ilk sirlərini aram-aram öyrətməyə başlayır, üzümüzə qəfildən sirlər dünyasının qapılarını açır, bizləri içəri – müqəddəs elm dünyasına dəvət edirdi Əbdüləzəl müəllim. Hələ ilk yazılı daş abidələrin

sirlərini açа-açа türkün nəhəng tarixini vərəqləyən professorun bu yolda çəkdiklərini eşitdikcə, keçib gəldiyi əzablı yollarla tanış olduqca ona maraq və rəğbətimiz daha da artır, onun canlı tarix olduğunu yəqin edirdik. Əsrlərin, min illərin sükut buzunu sındıran canlı, birbaşa mənbə olduğuna görə onu daha çox sevir, qiymətləndirirdik.

40-cı illərdə dediklərindən – amansız repressiya tufanlarından başı çox ağrıyan, çox bəlalar çəkən professoru sorğu-suala tutur, bizim üçün son dərəcə maraqlı olan cavablar alırdıq. Bu aktiv sorğu-sual müəlliflərindən biri kimi, görünür, professorun diqqətində idim və bəzən onun da mənə sualları, güman ki, gələcək fikirlərini dəqiqləşdirmək üçün idi. Bu gümanım sonralar özünü doğrultdu.

Qədim yazılı abidələrin dili ilə bağlı seminar məşğələlərinin təsiri ilə mənə bu mövzuda referat hazırlamağı tapşıranda sevincimin həddi yox idi. Mən böyük bir inamın sevincini yaşaya-yaşaya onu doğrulda biləcəyimin nigarançılığını da yaşayırdım. Çox illər keçəndən sonra indi düşünürəm ki, professorun həmin işlə bağlı müsbət fikri, etimad və etibarı gələcək dilçi taleyimin uğurlu xeyir-duası oldu. Ə.Dəmirçizadədən aldığım o ilk mənəvi dəstək dilçilik elmi sahəsində qazandığım uğurlara yaşıl işıq yandırdı.

Sonralar professorun isti münasibətini gördükcə, onun qayğısını hiss etdikcə, sanballı, monoqrafik tədqiqat səviyyəli elmi mühazirələrinə qulaq asdıqca məndə "Dəmirçizadənin fənninə" – ədəbi dil sahəsinə meyil və maraq güclənir, nəzərlərimdə qəribə problemlərin silueti cızılırdı. Bu problemlər bir müddət sonra tədqiqat mövzularıma çevriləcəkdi…

"Nizami" təqaüdünə təqdim olunanda professorun haqqımdakı çıxışı mənə əsl qol-qanad verdi, elmi, yaradıcı güc-qüvvətimi yenidən səfərbər etdi, istiqamətləndirdi.

İnstitutu bitirəndə kafedrada saxlanıldım: onun 1943-cü ildən rəhbərlik etdiyi kafedrada. Təbii ki, 21 yaşlı bir gəncin

öz müəllimləri ilə bir cərgədə işləməyə başlaması nə qədər şərəfli idisə, o qədər də məsuliyyətli idi. Professor Ə.Dəmirçizadə kimi tələbkar bir alimin kollektivinin inamına qısılmaq, ümidləri doğrultmamaq, kölgədə qalmaq olmazdı. Professor tez-tez dərslərimizdə iştirak edər, arxada oturub diqqətlə müşahidə aparar, sonra kafedra iclaslarında təəssüratını danışar, məsləhət və göstərişlərini verərdi. Bir dəfə də apardığım seminar məşğələsini dinlədikdən sonra professorun: "Birləşmənin birində mühazirəni də Nizamiyə yazın" tapşırığı, "Ədəbi dil tarixi" fənninin tədrisini mənimlə bölməsi Ə.Dəmirçizadənin nəzərlərimdə yaranan və təsəvvür oluna bilən böyük obrazı idi. Həmin obraz indi də dəyişilməyib, 10 illər əvvəlki həmin ucalıqda, həmin enməzlikdədir.

Elmi rəhbərim oldu. Əlimdən tutub dilin tarixində gəzdirdi. Bu tarixin qaranlıqlarından tapılan "söz"ün üzərində işləməyi öyrətdi. Azərbaycan ədəbi dilinin tarixi kimi nisbətən az işlənən, ənənəvi problem, mübahisə, diskussiya bolluğu ilə seçilən bir sahədə tədqiqat aparmağı öyrətdi. Gərgin elmi polemikaları aparmağı bacardığım üçün müəllimim Ə.Dəmirçizadəyə borcluyam. Çünki, adətən, onun göstərdiyi yolla gedirdim, onun məsləhətləri daim əlimdən tuturdu. Xüsusilə, elmi araşdırmalarımın ilk dövründə Ə.Dəmirçizadə qayğısı, onun müdrik məsləhətləri həmişə köməyim olurdu. İlk yazılarımın razılığını üzünün ifadəsində tapdıqca işləmək həvəsim birə min çoxalırdı. Ə.Dəmirçizadədə öz yetirmələrini elmi yaradıcılığa, elmi fədakarlığa, yorulmaz axtarışlara hazırlamaq, təlqin və təsdiq etmək qüdrəti vardı.

1979-cu ildə professor dünyasını dəyişdi, əbədiyyətə qovuşdu. Türkologiya nəhəng bir söz, fikir sahibini itirdi. Lakin dedikləri, yazdıqları dilçiliyin həmişə güvənc yeri olacaq. Həmişə Ə.Dəmirçizadəyə müraciət ediləcək, ondan

kömək istəniləcək, bu ziya çox qaranlıqlara işıq salacaq. Onun son dərəcə sanballı, müstəsna əhəmiyyətli elmi-nəzəri irsi dilçiliyimizin məhək daşlarından sayıla bilər.

… Şəkidə orta məktəbdə işlədiyi zaman dilin tədrisi ilə bağlı problemlərlə üzləşərkən, onların aradan qaldırılması yollarını da düşünən Ə.Dəmirçizadənin mətbuatdakı ilk çıxışları elmə yeni nəfəsin gəldiyindən xəbər verirdi. Yaxşı ki, yaxşılar var və bu yaxşılardan biri də görkəmli türkoloq B.Çobanzadə idi. Tələbəlik illərindən Ə.Dəmirçizadənin fəhmini, duyumunu hiss etməsi, onun təkidi ilə aspiranturaya gətirilərək bu yaxşılığın işığında zəmanəmizin ən güclü alimlərindən birinə çevrilməsi ibrətamiz bir hadisə, nəsillərə örnək olacaq tarixi bir faktdır.

"Professor Ə.Dəmirçizadə filologiya sahəsində hərtərəfli bir alim, yenilikçidir. Dilçiliyimizdə bir sıra məsələlərin ilk dəfə qoyuluşu və ilk müvəffəqiyyətli həlli onun adı ilə bağlıdır" (Qəzənfər Kazımov. "Dilçi- etimoloq", "Elmi əsərlər", 1969, səh 28).

Meydanın genişliyi, tədqiqatçının hüdudsuz marağı və manevrləri, yorulmaz və inadkar iş üsulu, orijinal düşüncə tərzi və nəhayət, ümumiləşdirmələrinin inandırıcılığı və elmiliyi dilçilik aləmində çox da böyük olmayan zaman kəsiyində uğurlarla nəticələndi. Professor öz imzasına son dərəcə hörmətlə yanaşır, gərgin əməyi, elmi qüdrəti ilə yüksək zirvələr fəth edirdi. Onun qazandığı hörmət, ucaldığı ehtiram zirvələrinə həsədlə, qısqanclıqla baxanlar da vardı. Amma o əzəmətli, halal elm zirvələrinin sahibinə sonsuz sevgi, hörmət və ehtiram göstərənlər daha çox idi.

Ə.Dəmirçizadə dialektologiyadan başqa, demək olar ki, dilçiliyin bütün sahələrində nüfuzlu elmi tədqiqat işləri aparmış, sanballı, seçilən nəticələrə nail olmuşdur. Bu baxımdan etimologiya sahəsindəki axtarışlarını, dilçiliyimizin ümumi mənzərəsində diqqəti cəlb edən tapıntılarını xüsusi

olaraq qeyd etmək istərdim. *“Azərbaycan”, “Midiya”, “Alban”, “Xəzər”, “Ağvan”, “Muğam”, “Qafqaz”, “Kaspi”* və başqa tarixi tutumlu sözləri etimoloji tədqiqata cəlb edən alim əslində bu vacib sahədə açar rolu oynayacaq bütöv bir sistem yaratmışdı. Onun müxtəlif məqalələri, eləcə də “50 söz” adlı fundamental fikirlər kitabı Azərbaycan etimologiyasında özünəməxsus yer tutur. Qədim türk, yunan, ərəb, fars, erməni müasir Avropa və Asiya mənbələrinin tarixçi etnoqraflarının əsərlərinə dərindən bələd olan, heç vaxt kəskin elmi-nəzəri polemikadan çəkinməyən Ə.Dəmirçizadə XX əsr milli dilçiliyimizin etnoqrafiyası, etnolinqvistikası sahəsində ilk söz deyənlərdən, ilkin yol açanlardan biri olmuşdur. 0, bütün elmi fəaliyyətində novator, yenilikçi idi.

Ə.Dəmirçizadənin yaradıcılığında aparıcı sahə dil tarixi olmuşdur. Alimin dil tarixi ilə bağlı araşdırmaları indi bütövlükdə bu sahənin söykəndiyi ən etibarlı, ən zəngin güvənc yeridir. Çünki o, dilə, onun tarixi təkamül, inkişaf yollarına canlı bir orqanizm kimi yanaşır, xalqımızın milli-mənəvi yaddaş saxlancı olan dilimizə müqəddəs məbəd kimi baxır, onu bütün qəlbi, qanı ilə duyur, dərk edir, qiymətləndirir, son dərəcə həssaslıqla, əsl övlad məhəbbəti, alim-vətəndaş qeyrəti ilə tədqiqata cəlb edir, daim həqiqətin və yalnız həqiqətin qulluğunda baş əyirdi.

Professorun dil tarixi sahəsindəki araşdırmalarına nəzər saldıqca onun bu problemlərə nə qədər həssas, nə qədər ehtiyatlı, məsuliyyətlə yanaşdığının şahidi oluruq.

Ə.Dəmirçizadə mürəkkəb dil tarixi məsələlərinin həlli üçün gah ayrı-ayrı dövrlərdə yaranmış ədəbi əsərlərin dilini araşdırır, gah çox mühüm nəticələr əldə etmək üçün əvəzsiz materiallar verən etimoloji tədqiqatlar aparır, gah da fonetika və qrammatika tarixinin öyrənilməsi işini davam etdirir. Bütün bunlar bütöv vəhdət, fundamental elmi-nəzəri sistem

yaradaraq dilçiliyimizdə hadisə kimi səslənən "Azərbaycan ədəbi dili tarixi xülasələri" (1938), "Azərbaycan ədəbi dilinin inkişaf yolları" (1958), "Kitabi-Dədə Qorqud dastanlarının dili" (1958), "Azərbaycan ədəbi dilinin inkişaf yolları" (1958), "Azərbaycan dilinin tarixi qrammatikası" (1967), "50 söz" (1968), "Azərbaycan ədəbi dilinin tarixi" (1979) kimi monoqrafik əsərlərə çevrilirdi. Bu əsərlərdə dilimizin tarixi haqqında ilk, daha inandırıcı məlumatlar, tutarlı dəlillər və təhlillər, təqdim olunan nəticələr əslində on illər boyu bir çox mübahisələrin, şübhə və gümanların, məqsədli siyasi manevrlərin qarşısını alırdı və təbii ki, bütün bunlar professora heç də həmişə sevinc və rahatlıq gətirmirdi. Dilimizin tarixini türk dilləri tarixinin içində axtarıb tapdığına görə 1947-ci ildə "Azərbaycan dilinin tarixi" (I hissə) əsərinin siqnal nüsxələri nəşr olunan kimi siyasi əqidəsinə görə yığışdırıldı, kütləvi çapı dayandırıldı. Əlbəttə, bu fikirlər sonra yaranan əsərlərə səpələndi və hörmətlə qarşılandı.

Ədəbi dil tarixinin araşdırılmasının 30-50-ci illərini professor Ə.Dəmirçizadə mərhələsi adlandırsaq, səhv etmərik. Yəni bu dövrün ən ağır problemi, şübhəsiz ki, "Kitabi-Dədə Qorqud"un sistemli araşdırılmasıdır ki, bu da Ə.Dəmirçizadənin adı ilə bağlıdır.

Məlumdur ki, 30-cu illərin dəhşətli repressiyaları ədəbiyyatımızdan, dilçilik elmimizdən də yan keçməmişdir. Hüseyn Cavid və Mikayıl Müşfiq, Əhməd Cavad və Almas İldırım, Salman Mümtaz və Yusif Vəzir Çəmənzəminli, Bəkir Çobanzadə və Məmmədkazım Ələkbərli kimi böyük sənət və elm adamlarına tutulan divanın acı, ağrılı dalğaları milli-mənəvi yaddaşımızın ürəyini göynədirdi, Dədə Qorqud ruhunun sinə dağlarına çevrilirdi. M.C.Bağırovun "Dədə Qorqud" eposuna qarşı birbaşa hücumları, onu xalqlar arasında düşmənçilik yaymaqda ittiham etməsi, Stalinin

tapşırığı ilə Bakıda çağırılan "Azərbaycan ziyalılarının respublika müşavirəsi" də bu misilsiz abidəni ləkələyib tariximizdən silib atmağa cəhd göstərməsi, H.Hüseynov, Ə.Dəmirçizadə, M.A.Dadaşzadə, H.Araslı kimi ciddi alimlərin təhqir olunması… bütün bunlar xalqımızın etnogenez, qlottogenez problemlərinin elmi həllinə can atanlara, bu yolda "Kitabi-Dədə Qorqud" dil faktına əsas tarixi, etnolinqvistik baza kimi söykənənlərə repressiv təzyiqlər idi.

Bu dəhşətli hədə-qorxulardan, gecə döyülən qapıların vahiməsindən, Şimalın Solovki ada – ölüm düşərgələrinə aparan gedər-gəlməz yollarından qorxmayan alimlər, o cümlədən fəxrlə deyə bilərəm ki, ustad dilçimiz Ə.Dəmirçizadə tarix və mədəniyyətimizin Dədə Qorqudlu dünyasını heç vaxt unutmadılar. Onun "Kitabi-Dədə Qorqud dastanlarının dili" (1958) kitabı, eləcə də çoxsaylı monoqrafik tədqiqatları Dədə Qorqud həqiqətlərinin üzə çıxmasında, müasir Azərbaycan ədəbi, elmi, mədəni fikrinin əsas özəyinə, onurğa sütununa çevrilməsində, cəmiyyətimizin, milli mühitimizin Qorquda qayıdışında çox mühüm rol oynadı. Və bu ürək sözlərimi yaza-yaza düşünürəm ki, Ə.Dəmirçizadə xalqımıza, dilçiliyimizə nəyin və nə üçün lazım olduğunu bilən, bu yolda bütün fədakarlıqlara daim hazır olan bir alim-vətəndaş idi. O, sözün tam mənasında Azərbaycan alimi idi.

Sonralar ədəbi dil tarixi sahəsində apardığım araşdırmalar zamanı hiss edirdim ki, Ə.Dəmirçizadə möhtəşəm bir alimdir. Tədqiqatçılıq ənənəsinin olmaması, məxəzlərin, istinad ediləcək dilçilik mənbələrinin azlığından, qoyulan məsələlərin son dərəcə ağırlığından nə qədər əziyyət çəkdiyini, həmişə elmi münaqişələrin mərkəzində olduğunu, mübahisələrdə bərkidiyini, öz qururunu, nüfuzunu qoruduğunu gördükcə müəllimimin böyüklüyü ilə öyünür,

fəxr edirdim.

Ümumiyyətlə, çoxları kimi mən də tam səmimiyyətlə etiraf edirəm ki, "Ə.Dəmirçizadə təkcə bugünkü onlarca məşhur dilşünas alimlərimiz deyil, Qorqudşünas ədəbiyyatçı alimlərimizin də böyük bir nəslinin ustadıdır" (Şamil Cəmşidov. "Ustadı xatırlayarkən". "Azərbaycan" qəzeti, 30 iyul 1994-cü il).

Ə.Dəmirçizadənin müasir Azərbaycan dili problemləri ilə bağlı araşdırmaları da çox qiymətlidir. Onun "Müasir Azərbaycan dili. Cümlə üzvləri" (1947), "Müasir Azərbaycan dilinin fonetikası" (1960), "Azərbaycan dili orfoepiyasının əsasları" (1969), "Müasir Azərbaycan dili" (I hissə) (1972) əsərlərində dilçiliyin bir sıra mühüm problemləri öz həllini tapmışdır. Cümlə üzvləri haqqındakı orijinal fikirləri, sifətin əsaslı elmi təhlil və strukturu, mürəkkəb cümlə, sadə cümlə və onun intonasiyaya görə növləri, fonetika, orfoqrafiya və orfoepiya ilə bağlı dəqiq mülahizələri və qənaətləri dilçilik elmimizdə öz dəyərli qiymətini almışdır.

Üslubiyyat məsələlərinin tədqiqi Ə.Dəmirçizadəni 30-cu illərdən, yəni tədqiqatçılığa başladığı ilk illərdən düşündürmüşdü. Sabir kimi böyük bir satirikin dil normalarından istifadəsi, onun satira texnikası kimi məsələlərin həlli ilə başlanan üslubi araşdırmaları 1962-ci ildə "Azərbaycan dilinin üslubiyyatı" əsərində kompleks həllini tapmışdır ki, bu əsərin nəşri bütövlükdə türkologiyada hadisə idi.

Professor Ə.Dəmirçizadə əsl metodist müəllim idi. Sırf tədqiqat əsərlərilə yanaşı metodika sahəsindəki tədqiqləri onun fəaliyyətinin böyük bir hissəsini təşkil edir. Ə.Dəmirçizadənin Azərbaycan dilinin tədrisi metodikasına aid araşdırmaları həm orta məktəb dərslik və proqramlarını, həm qrammatikanın tədrisini, həm tədrisin tarixini, həm də

müəllimlərə kömək xarakterli yazıları əhatə edir.

Xüsusi olaraq qeyd olunmuşdur ki, 1946-47-ci illərdə yazdığı "Ana dili təlim fənlərinin əsasıdır" adlı üç böyük məqaləsində Ə.Dəmirçizadə ana dili tədrisinin inkişaf yolunu arxiv sənədlərilə bizə təqdim edir və gəldiyi bu nəticəni aşılayırdı ki, ana dili hər şeyi dərk etmək üçün şagirdin dərrakəsini cilalandırır, müsəlləh edir. Çünki ana dilini öyrənməklə şagird, eyni zamanda dillə ifadə olunan fikirləri, məfhumları da öyrənmiş olur. Bununla o, hər şeyi dərk etməyə hazırlaşmış olur. Bütün digər fənlərin mövzusu rüşeym halında ana dilində mövcuddur.

Möhtərəm prezidentimiz cənab Heydər Əliyevin on illər boyu uğurla apardığı ana dili – dövlət dili siyasətinin nəticəsi idi ki, "Müasir Azərbaycan dili" əsəri də böyük diqqət sahibi, uzaqgörən dövlət başçısının imzası ilə 1972-ci ildə "Dövlət mükafatı"na layiq görülmüşdür. Bu, dilçiliyimizə, eləcə də digər alimlərlə yanaşı Ə.Dəmirçizadə əməyinə rəhbərin verdiyi böyük qiymət idi.

Azərbaycan dili zəngin yaradıcılıq imkanlarına malikdir. Bütün ruhu ilə yaradıcı olan Əbdüləzəl müəllimin bədii duyumu, jurnalistliyi, xüsusilə ömür yolunun ilk dövrlərində, daha çox gənclik illərində yazdığı bədii əsərlərinin elmi fəaliyyəti ilə tən gəlməsi də böyük maraq doğurur. Maraq doğuran məsələlərə bədii münasibətini əks etdirən özünəməxsus şeir və hekayələri, "Dədə Qorqud" librettosu və "Qaraca Çoban" pyesi Ə.Dəmirçizadənin bədii sözün imkanlarından istifadə bacarığının bariz nümunələridir.

Bütün bunlar Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının müxbir üzvü, filologiya elmləri doktoru, Dövlət mükafatı laureatı, professor Ə.Dəmirçizadənin əlavə portret cizgiləridir. Bu portretin əsas cizgiləri fundamental elmi əsərlər müəllifi olan böyük dilçi alimin parlaq obrazını canlandırır, əbədiləşdirir.

Ə.Dəmirçizadə Azərbaycan dilinin və dilçilik elminin təəssübünü çəkən, on illər boyu onun keşiyində şərəflə dayanan, sanballı elmi əsərləri ilə dilçilik elmimizə başucalığı gətirən, özünəməxsus məktəb yaradan fədakar alim idi. Dilimizi, xüsusilə ədəbi dil tariximizin təkamül yollarını, inkişaf pillələrini bütün ruhu, qanı ilə duyur, onun ümumtürk miqyasında yerini, rolunu cəsarətlə qiymətləndirir, müdafiə edirdi. O, təbiətən, fitrən dilçi-alim idi. Bədii təxəyyüllə elmi təfəkkürün qeyri-adi qovuşuğunda, sintetik vəhdətində reallaşan Ə.Dəmirçizadə dünyası heç vaxt elmi mübahisələrdən, gərgin polemikalardan çəkinmədi, həmişə inandığı, güvəndiyi həqiqəti müdafiə və təsdiq etdi. Biz tələbələri, yetirmələri onu elm məbədinin sahibi-ixtiyarı, əfsanəvi idrak mücəssəməsi kimi tanıyır və sevirdik. Ondan elmin, xüsusilə dil tarixinin, etimologiyanın, etnolinqvistikanın ən çətin suallarına ən sadə cavablar almaq olurdu. Ensiklopedik biliyi, sehrli idrak qabiliyyəti, heyrətamiz intellektual səviyyəsi ilə gözümüz önündə heykəlləşən bu böyük alimin bircə dəfə sual önündə təntidiyini, donub qaldığını görmədik. O, mürəkkəb problemlərlə zəngin olan ədəbi dil tariximizin keçilməz yollarına yaşıl işıq yandırır, qırxıncı qapılarını açırdı. Yaddaşımızda beləcə əbədiyyətə dönüb, mifik bir qəhrəmana çevrilib Əbdüləzəl Dəmirçizadə. Bu gün də köməyimizə çatır, əlimizdən tutur, bizə gedilməz yolların mənzil başını, açılmaz qapıların o üzünü nişan verir Dəmirçizadə dünyası.

"Azərbaycan" qəzeti,
4 sentyabr 2002-ci il

ÖMRÜ ÖRNƏK OLANLAR

Müəllim adı ali, müqəddəs bir müraciət forması olmaqla yanaşı, həm də şübhəsiz daşıyıcısının üzərinə böyük məsuliyyət qoyur. Müəllimlik peşəsinə gəlincə isə bu təkcə elm öyrədən, gəncləri, insanları elmin sirlərindən hali edən demək deyil. Müəllim öz şəxsi nümunəsi ilə hamıya həyat dərsi keçir, ali insan fenomeni formalaşdırır, bir ömürlə neçə ömrə örnək olur.

Tam məsuliyyətlə demək olar ki, bu gün Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Ümumi psixologiya" kafedrasına rəhbərlik edən psixologiya elmləri doktoru, professor Əbdül Əli oğlu Əlizadənin yetirmələri də, onu uzaqdan, yaxından tanıyanlar da, eləcə də Əbdül müəllimi Azərbaycan radiosu efirindən dinləyənlər, televiziya ekranlarından istər müəllifi, istər qonağı olduğu verilişlərdən bələd olanlar da onu özlərinə həqiqi mənada müəllim hesab edirlər.

Deyirlər dünya elmin nuru ilə ziyalanar, əqldən qüvvət alar, mənəvi dayaqlar üzərində möhkəmlənər. Professor Əbdül Əlizadənin ömür yoluna nəzər salsaq, mübaliğəsiz dünyanın məhz belə insanların, alimlərin, müəllimlərin, ataların, oğulların çiynində dayandığına şübhə etmərik.

Bu gün dünya alimlərinin ən çox maraq göstərdiyi elmlər sırasında dayanan, həqiqətən də insan həyatının fəaliyyətində, bütün sahələrində danılmaz rolu olan psixologiya elmi Azərbaycanda məhz belə alimlərimizin əməyi sayəsində çox əhəmiyyətli, parlaq bir dövrünü yaşayır. Ötən yüzilliyin ikinci yarısından sonra psixologiya elminin yeni tədqiqat sahələri – sosial psixologiya, pedaqoji psixologiya, tibb psixologiyası, idarəetmə psixologiyası və s.

bu kimi qolları respublikamızda uğurla öyrənilən və öyrədilən sahələrdir. Bu işdə isə istedadlı alim, yorulmaz müəllim, pedaqoq Ə.Əlizadənin çoxsahəli yaradıcılığının xüsusi xidmətləri var.

Psixologiya elmin elə bir sahəsidir ki, onun araşdırıcısı özü hər şeydən əvvəl zəngin mənəviyyata, həssas qəlbə, dərin düşüncəyə, müşahidə qabiliyyətinə malik olmalıdır. Dünyanı dərk etməzdən, ətrafdakı insanların mənəvi aləminə nüfuz etməzdən əvvəl sözsüz ki, insan özünü öyrənməli, bu dünyaya gəlişinin-gedişinin mənasını anlamalıdır. Yalnız əqidəcə aydın, həyat anlamı sərrast, insanlara münasibətdə həssas olanlar bu çətin elmi özlərinə peşə seçə bilərlər.

Hörmətli professor, Sizin elm aləminə bəxş etdiyiniz 30-dan artıq dərin psixoloji araşdırmalar, psixologiya elminə gətirdiyiniz yeniliklər, "insan" adlı ümmanın ən kiçik zərrələrini belə nəzərdən qaçırmadığınız, onun tərkindəki "inciləri" kəşf edə bildiyiniz elmi kitablarınız, 250-dən çox monoqrafiya və məqalələriniz əslində bir alimin, pedaqoqun insani müşahidələrinin nəticəsidir. Elmin tərəqqisi, yüksəlişi yolunda sözsüz ki, bu əsərlərin böyük xidməti olub, bu gün də var. Amma əminliklə deyə bilərik ki, Sizin elmi tədqiqatınız, alimlik fəaliyyətinizlə yanaşı pedaqoji fəaliyyətiniz də böyük əməli nəticələr vermişdir. Yetirdiyiniz böyük bir nəsil bu gün məmləkətimizin müxtəlif elm ocaqlarında, maarif sahəsində, ən mötəbər təşkilatlarda, idarə və müəssisələrdə çalışır, Sizə baş ucalığı gətirirlər. Onlarca psixoloq-alim məhz Sizin şəxsinizdə bu peşəyə bağlanaraq ömrünü psixologiya elminə həsr etmişsə də, tam səmimiyyətlə deyə bilərik ki, bu sahədə çalışmayan yetirmələriniz də ömür yolunda hər an, hər dəqiqə rast gəlinən asan, çətin situasiyalarda Sizin tövsiyələrinizi örnək tutur, Sizdən öyrəndikləri, aldıqları həyat dərsi ilə zamanın sınaqlarına sinə gərə bilirlər.

70 yaş ömrün elə bir zirvəsidir ki, insan bu zirvədə dayanıb ötənlərə, keçənlərə nəzər salır, keçilmiş yolların işıqlısından ziyalanır, çətin günlərin həyat dərslərindən çıxardığı nəticələri gələcək nəsillərə öyrədir. Yalnız ömrü hədər yaşamayanlar, hər anın, günün, ilin qədrini bilərək onu insanlığın xeyrinə xərcləyənlər bu zirvədən cəmiyyətin gözünə qürurla, şax baxa bilirlər. Müqtədir alimimiz, ömrü, həyatı, şəxsi nümunəsi ilə özündən sonra böyük bir nəslə həm nümunə, həm çıraq olan Əbdül Əli oğlu Əlizadənin bu gün bu zirvədə qürurlanmağa haqqı var.

…1955-ci ildə Azərbaycan Dövlət Universitetinin "Məntiq psixologiya" şöbəsini fərqlənmə diplomu ilə bitirən Ə.Əlizadə rəsmi olaraq müəllim adını qazananda bəlkə heç özü də bilmirdi ki, o, təkcə dərs dediyi, bilavasitə ünsiyyətdə olduğu insanların deyil, nəsillərin müəlliminə, öyrədicisinə çevriləcək. Qismətdən iş elə gətirdi ki, o, ilk əvvəl dünyanın gözəlliyini rənglərin dili ilə insanlara çatdıran rəssamlara mənəvi gözəllikdən, təxəyyülün yaradıcılıqdakı rolundan söz açdı, mühazirələrində saflığın sözlə "rəsmini" cızdı.

İlk pedaqoji təcrübələr, sənət və sənətkar psixologiyası ilə ilgili düşüncələr az sonra Əbdül Əlizadəni bu sahədə bilgilərini daha da zənginləşdirmək, yeni tədqiqatlar aparmaq arzusu ilə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun aspirantura şöbəsinə gətirdi. Elmi rəhbəri əməkdar elm xadimi, professor Ə.K.Zəkizadə ilə bərabər apardığı tədqiqatlar, yuxusuz gecələrin məhsulu olan yeni elmi nəticələr gələcək uğurlardan soraq verirdi. Və təsadüfi deyil ki, görkəmli filosof Ə.Zəkizadə onun sabahına böyük ümidlə baxır, haqqında söz düşəndə: "Bu oğlanın böyük gələcəyi var" – deyirdi. Bəli, "bu böyük gələcək" çətin sınaqlardan keçərək gəlməkdə idi.

…1962-ci il. Ə.Əlizadə namizədlik dissertasiyasını uğurla müdafiə edərək psixologiya elmləri namizədi alimlik

dərəcəsi alır. 1962-ci ildən 1975-ci ilə qədər gərgin axtarışlarla keçən bir pedaqoq ömrü yaşayır. Həm pedaqoji universitetdə "Psixologiya" kafedrasında müəllimlik edir, həm də gecəli-gündüzlü bu sahədə elmin daha dərin qatlarına varmaq üçün yeni tədqiqatlarla, axtarışlarla məşğul olur. 1975-ci ildə doktorluq dissertasiyasını müdafiə edən görkəmli mütəxəssis Azərbaycan psixologiya elminə yeni, daha qiymətli bir töhfə vermiş olur.

1976-cı ildən bu günə qədər Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Ümumi psixologiya" kafedrasına rəhbərlik edən Ə.Əlizadə təkcə gənclik illərindən bağlandığı bu elm məbədində deyil, bütövlükdə respublikamızda və onun hüdudlarından kənarda da böyük hörmət və rəğbət qazanmışdır.

Azərbaycan Dövlət radiosunun dinləyicilərinə bu elan yaxşı tanışdır: "Ziyalı sözü", "Mənliyimiz, mənəviyyatımız". Mikrofon önündə psixoloq-alim Əbdül Əlizadədir".

Bəli, 60-70-ci illərin dinləyiciləri efirdə hər dəfə bu elanı eşidəndə daha yaxın əyləşir, özlərinə efir ənginliklərində maraqlı bir həm-söhbət, aqil bir sirdaş, çətin gündə doğru yola yönəldən müdrik bir məsləhətçi, simsar tapdıqlarına əmin olurdular. Radioya, eləcə də Əbdül müəllimin özünə ünvanlanan məktublar təşəkkür və minnətdarlıq ifadə edirdi. Dinləyicilər həm də həyatın çətin məqamlarında çıxış yolu tapmaq üçün ona üz tuturdular. Dinləyici ilə hər görüş böyük psixoloqun öyrəşdiyi adi universitet auditoriyası deyildi. Efir ənginliklərindən ona diqqət kəsilən minlər, milyonlar insan mənəviyyatının incəliklərinə vara bilən bu alimdən narahat dünyanın suallarına cavab gözləyirdilər. Belə böyük auditoriya qarşısında deyilən hər sözün, söylənən hər kəlmənin, verilən hər hökmün məsuliyyəti daha böyük idi. Və bunu duyan alim hər çıxışına insanlıq önündə hesabat verirmiş kimi hazırlaşırdı.

Azərbaycan televiziyasında da maarifləndirici, öyrədici tendensiyanın olduğu heç kəsə sirr deyil. Uzun illərdir ki, televiziyamız milli-mənəvi dəyərlərimizin keşiyində dayanır. İdeya və estetik istiqamətdə geniş tamaşaçı auditoriyasına nümunə göstərmək üçün şübhəsiz ki, milli televiziyanın ən yaxın yardımçısı məmləkətimizin alim, pedaqoq potensialıdır. Televiziya tamaşaçıları "Elm" redaksiyasının təqdim etdiyi "Ziya", "Alim sözü" proqramlarından da Əbdül Əlizadəni yaxşı xatırlayırlar. Keçdiyi ömür yolu ilə gəncliyə örnək olan bu insan öz şəxsi ziyası və nümunəsi ilə bütün söhbətlərində, müsahibələrində insan mənəviyyatının başqa dünyəvi dəyərlərdən daha yüksəkdə dayandığını və insanın bu dünyada qazandığı ən uca zirvənin mənəvi saflıq məqamı olduğunu elə əminliklə, inandırıcı həqiqətlərlə tamaşaçıya təlqin edə bilirdi ki, hər kəs – alim də, şagird də, tələbə də, fəhlə də bu sözdən bir öyüd alır, mənəvi aləmini zənginləşdirirdi.

Son illərdə Azərbaycan televiziyasında böyük uğur və tamaşaçı etimadı qazanan "Ailələr, talelər" verilişinin daimi tamaşaçıları professor Əbdül Əlizadəni respublikanın görkəmli pedaqoqları, psixoloqları, tanınmış ziyalıları, mənalı və ibrətamiz ömür yolu keçmiş insanları sırasında bu verilişin daimi qonağı, eksperti kimi yaxşı tanıyırlar.

Professor Əbdül Əli oğlu Əlizadə ömür yolu bərkdən, boşdan keçən, hər çətinlikdə sınmayan, əksinə möhkəmlənən, saflığını, təmizliyini, ucalığını qoruya bilən gözəl alim, pedaqoq və nəhayət nümunəvi ailə başçısı, şübhəsiz ki, Azərbaycan ailəsinin mənəvi, sosial və hüquqi problemlərinin həlli yolunda ictimai fikrə istiqamətverici təsir göstərməyə haqqı olan bir insandır.

Ömrü müdriklik, aqillik təcəssümü olan alimin indiyədək işıq üzü görən 500-ə yaxın kitab və məqalələrinin təxminən 50-si dərslik, dərs vəsaiti və bu sıradan olan

öyrədici xarakterli bilgi mənbələridir. Professorun "İlk addımlar", "Uşaqlarda diqqətin inkişaf və tərbiyəsi", "Şagirdlərdə təxəyyülün inkişafı", "Yoldaşlıq və dostluq tərbiyəsi", "Yaradıcı fəaliyyətin psixologiyası", eləcə də professor A.Abbasovla birgə yazdığı "Ailə həyatının etikası və psixologiyası" tədris kitabları hər biri öz-özlüyündə böyük bir həyat dərsi, gələcək nəsillərin doğru, düzgün tərbiyə edilməsi üçün əsl bilik mənbəyidir.

Alimin ötən əsrin sonlarında işıq üzü görən "Müasir Azərbaycan məktəbinin psixoloji problemləri" adlı kitabı yeni əsrin astanasında formalaşmaqda olan, müasir təhsil konsepsiyasına tamamilə yeni baxış, ciddi tədqiqatdır. Müəllif kitabda müasir təhsilin aktual psixoloji cəhətlərini, əsrin ictimai-siyasi tələtümləri aspektindən psixoloji alternativlərini, tədris və fəaliyyətini tamamlamaq üçün təlimin humanistləşdirilməsini, tərbiyənin psixoloji effektləri və s. nəzərə alınmaqla bütün bunları dünya ölçülərinə və təcrübəsinə uyğun şəkildə yenidən araşdırmağa müvəffəq olmuşdur.

Cəmiyyət əslində tək-tək insanlardan, fərdlərdən, daha sonra isə ailələrdən ibarətdir. Qalaq-qalaq kitablar, elmi əsərlər yazmaq, insanlığı haqq yoluna, aydın fikrə yönəltmək nə qədər müqəddəs, ali işdirsə, ayrı-ayrılıqda hər kəsin ailədə öz övladına düzgün tərbiyə verməsi, onu cəmiyyət üçün, vətən üçün layiqli övlad kimi yetişdirməsi də o qədər önəmli və vacibdir. "Alimin ən gözəl əsəri onun övladıdır" deyənlər yanılmırlar. Professor Əbdül Əlizadənin ailəsində tərbiyə alıb, boya-başa çatan övladlar da bu gün həm valideyninə, həm də vətənə öyüncdür. Onun şərəfli həyat yolunu həm pedaqoq, həm də alim kimi davam etdirən böyük oğlu Hikmət Əlizadə pedaqoji elmlər doktorudur. Kiçik oğlu Səlim Əlizadə insan mənəviyyatına öz fırçası ilə xidmət etməyi üstün tutub, Rəssamlar İttifaqının üzvüdür. Qızı isə

tərbiyənin ən vacib məqamından başlayıb; uşaq bağçasında tərbiyəçidir.

Hörmətli Əbdül müəllim, deyirlər gənclər valideynlərindən daha çox zəmanələrinə bənzəyirlər. Biz Sizinlə XXI yüzilliyə qədəm qoymuşuq. Kosmos əsri, elmi sivilizasiya əsri adlandırdığımız XX yüzillik arxada qalıb. Yeni əsr gəncliyimizin, övladlarımızın bənzəyəcəyi əsr olacaqsa, demək olar ki, bu əsri əsl insani dəyərlərlə zəngin bir yaşam dövrü – sülh, əmin-amanlıq, insansevərlik, səadət əsri görmək arzusu ilə Sizin kimi müdrik, dünyagörmüş alimlərin üzərinə daha böyük məsuliyyət düşür.

XXI əsrin ömrümüzə gətirdiyi yeni ab-hava öz müstəqilliyinin ilk on ilini yaşayan məmləkətimizin bütün sahələrində olduğu kimi təhsil, tədris, tərbiyə sahəsində də müdrik insanlardan, təcrübəli alimlərdən yeni əzmlə çalışmağı, "yoruldum, usandım" demədən əsrlə ayaqlaşmağı və bunu gəncliyə də öyrətməyi tələb edir.

Müqtədir alim Əbdül Əlizadə yaşının bu çağında da əsl gənclik həvəsi ilə Azərbaycan elminin qarşısında öz borcundan layiqincə çıxaraq 2001-ci ildə "Yeni pedaqoji təfəkkür", 2002-ci ildə "Xəmsədə yaş və pedaqoji, psixologiya məsələləri" kimi dəyərli elmi əsərlərini çap etdirmişdir. Bütün bunlar bizə əsas verir ki, görkəmli professora həm də XXI əsrin alimi deyək.

Ölkəmizin adını, Azərbaycan elminin şərəfini həmişə uca tutan, ötən əsrin 60-cı illərindən bu günə qədər dünyada, postsovet məkanında keçirilən bütün elmi-psixoloji konfrans və qurultaylarda Azərbaycanı layiqincə təmsil edən, hazırda Bakı Dövlət Universitetinin nəzdindəki İxtisaslaşmış Müdafiə Şurasının sədri, Respublika Təhsil Şurasının idarə heyətinin, tədris metodik koordinasiya şurasının, psixologiya və pedaqogika üzrə tədris şurasının üzvü olan müqtədir alim, jurnalistlik fəaliyyətinə görə Azərbaycan Jurnalistlər

Birliyinin üzvü seçilib.

70 illik işıqlı bir ömrün xidmətləri "Qırmızı Əmək Bayrağı" ordeni, "Əmək veteranı", Ali Sovetin fəxri fərmanı, Akademik M.Mehdizadə adına mükafat və onlarca fəxri fərmana layiq görülüb. Onun ən böyük mükafatı isə qazandığı təmiz insan, müdrik alim, əvəzsiz müəllim adıdır.

"Respublika" qəzeti,
4 oktyabr 2002-ci il

TƏBİƏT AŞİQİ, ELM FƏDAİSİ

Təbiət kimi, torpaq kimi sadə, müdrik, xeyirxah bir insan tanıyıram. Uzun ömür, tale yollarında, elmi yaradıcılıq axtarışlarında pillə-pillə ucalan, ucaldıqca zirvələşən, başı qarlı dağlara bənzəyən bir insan. Azərbaycan Milli Elmlər Akademiyası Coğrafiya İnstitutunun direktoru, Azərbaycanın ilk milli qlyasioloqu, Respublika Ağsaqqallar Şurasının sədri, akademik Budaq Budaqov!

Ona təbiət aşiqi, elm fədaisi deyirlər. Azərbaycan coğrafiyasının öyrənilməsində, fundamental elmi tədqiqata cəlb edilməsində, milli coğrafiya elminin nəzəri-praktik əsaslarının, metodoloji problemlərinin müəyyənləşdirilərək sistemləşdirilməsində, çoxsaylı coğrafiyaçı alimlərin, elmi işçilərin yetişdirilməsində, eləcə də geologiya, torpaqşünaslıq, toponimiya, ekologiya və digər elm sahələrində onun özünəməxsus xidməti, şərəfli uğurları var. Uzun illər unudulmaz alim, akademik Həsən Əliyevin rəhbərliyi altında işləyən, onun ən sadiq həmkarlarından, yaxın dostlarından biri olan Budaq Budaqov ciddi elmi axtarışları və tapıntıları, fədakar alim-ziyalı-vətəndaş mövqeyi ilə həmişə ön sırada, diqqət mərkəzində olub. Həyatını, bütün elmi yaradıcılığını Azərbaycana, milli coğrafiya elmimizin inkişafına həsr etməkdən həmişə qürur duyub, bununla fəxr edib Budaq Budaqov. Və bütün bu müsbət keyfiyyətlərinə, fədakar xidmətlərinə görə onu yaxın dostları, tanışları da, cəsarətlə deyə bilərəm ki, respublikamızın elmi ictimaiyyəti də, bütövlükdə xalqımız da həmişə sevib, qiymətləndirib. O, bu günümüzün, xüsusilə, çağdaş coğrafiya elmimizin canlı klassikidir.

Onun vətənə, xalqa, doğma torpağa, təbiətə bağlılığı,

deyərdim ki, xüsusi söhbətin, hətta elmi tədqiqatın mövzusudur.

Erməni faşizminin doğma Qarabağımıza qarşı bədnam torpaq iddialarıyla işğalçılıq müharibəsinə başladığı gündən akademik Budaq Budaqov qələmini süngüyə döndərdi, mətbuat səhifələrində erməni alimlərinə, ideoloqlarına tutarlı cavablar verdi. Bu elmi, publisistik yazılarda vətən, torpaq, Azərbaycan uğrunda döyünən bir ürəyin istisini, haqq səsini duyduq, gördük, eşitdik. Akademik Budaq Budaqov erməni daşnaklarına elmin danılmaz məntiqi ilə sübut edirdi ki, Dağlıq Qarabağ Azərbaycanın tarixi bir ərazisidir, bütün elmi-mədəni abidələri, tarixi-etnoqrafik həqiqətləri ilə Azərbaycan xalqına məxsusdur. Azıx mağarasının, Koroğlu, Boyat, Şuşa, Şahbulaq, Əsgəran qalalarının, Qarabağda yaşayan aborigen türklərin – azərbaycanlıların bu torpaqda əzəli-əbədi avtoqrafı olan minlərlə yer-yurd adlarının, toponimlərin, hidronimlərin … ermənilərə heç bir dəxli yoxdur. Bəli, o illərdə bütün xalqımız qocaman alim, akademik Budaq Budaqovun həqiqi vətəndaş-alim hünərinin şahidi oldu.

600-dən çox elmi-kütləvi əsərin, 18 monoqrafiyanın, 20 xəritənin, çoxsaylı dərsliklərin müəllifi olan akademik Budaq Budaqov işıqlı adamdır, sözün həqiqi mənasında ziyalıdır, yüksək intellekt, mədəniyyət və mənəviyyat sahibidir. Təsadüfü deyildir ki, o, uzun illərdir Respublika Ağsaqqallar Şurasına uğurla rəhbərlik edir. O, qeyd etdiyimiz kimi, bir sıra əsərlər, monoqrafik tədqiqatlar müəllifi, dəyərli elm xadimi, nüfuzlu akademik olmaqla yanaşı, həm də dəyərli el ağsaqqalı, müdrik müəllim, böyük vətəndaş-ziyalıdır. On illərdir ki, mən onu belə tanıyıram, belə qiymətləndirirəm.

Onun iştirakı və rəhbərliyi ilə Azərbaycanda landşaftşünaslığın müxtəlif sahələrində ciddi elmi tədqiqat işləri aparılmış, ölkəmizin irimiqyaslı landşaft xəritələri tərtib edilmiş, respublika ərazisinin, bütövlükdə Qafqaz bölgəsinin

geomorfologiyasının, toponimikasının, paleocoğrafiyasının, Azərbaycan coğrafiya tarixinin öyrənilməsində uğurlu nəticələr əldə edilmişdir.

Əlbəttə, akademik Budaq Budaqovun, təxminən 55 illik gərgin elmi yaradıcılıq yolu çox zəngindir, çox məhsuldardır və bu haqda çox danışmaq, yazmaq olar. Mən ona da əminəm ki, görkəmli alimin şərəfli ömür yolu, elmi yaradıcılıq dünyası bu günədək diqqət mərkəzində olduğu kimi, bundan sonra da nəzərdən yayınmayacaq, bu mövzuda layiqli tədqiqat əsərləri yazılacaq. Mən bu qısa qeydlərimi Budaq müəllimin təbiət və poeziya sevgisi haqqında düşüncələrimlə bitirmək istəyirəm.

Coğrafiya elmləri doktoru, professor, Azərbaycan MEA-nın həqiqi üzvü, Azərbaycan MEA-nın akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun direktoru, Respublika Ziyalılar Cəmiyyəti İdarə Heyətinin üzvü, Azərbaycan Coğrafiya Cəmiyyətinin prezidenti Budaq Budaqov sözün həqiqi mənasında ədəbiyyat, sənət, xüsusilə, poeziya vurğunudur. Onun poeziya, söz sənəti haqqında, eləcə də təbiətlə poeziyanın vəhdəti, assosiativ əlaqələri, bütövlüyü haqqında söhbətləri bir yerə yığılsaydı maraqlı bir əsər alınardı. O, Azərbaycan təbiətini, vətən coğrafiyasını on illər boyu şair qəlbiylə duyub, alim qüdrətiylə öyrənib, tədqiq edib. Akademik Budaq Budaqovun yaradıcılıq əzabları, uğur sevinclərilə dolu elm yolu bu gün də beləcə davam edir, yeni-yeni zirvələrə ucalır. O, əsl elm və ziyalılıq fədaisidir.

2003-cü il

KAMİLLİK

60 il insan ömrünün kamillik zirvəsidir. Bizim Mövlud müəllim də öz mənalı həyatının bu məqamına, kamillik zamanına yetişdi. Çox əlamətdardır ki, yazıçı Mövludun ad günü baharın gəlişilə – novruzun gəlişilə eyni vaxta düşür. Bu bərabərlik rəmzi məna daşısa da mənim fikrimcə burada həm də bir hikmət var. Ona görə ki, Mövlud müəllim özü də bahar oğludur, yəni təqvimə görə deyil, hər əməlinə, fəaliyyətinə, nəhayət çox dəyərli ədəbi irsinə görə. Baharda hər şey təzələnir, durulur, arınır, aydınlaşır, gözəlləşir. Yaşamaq, sevmək, yaxşılıq duyğuları bütün mənaların fövqündə dayanır. Bəlkə də ona görədir ki, Mövludun əsərləri belə aydın, saf, təmiz, hər qəlbə, hər könülə belə yaxındır və barlı-bəhərli Azərbaycan elləri, torpaqları kimi ətirlidir, kamildir, əbədidir.

Mövlud Süleymanlı milli ədəbiyyatımızda özünəməxsus mövqeyi olan, özünəməxsus xətti-hərəkəti olan, bir sözlə çox orijinal düşüncəyə malik yazıçılardandır. Elə bu günlərdə onun şərəfinə düzənlənən Azərbaycan Yazıçılar Birliyinin xüsusi buraxılışı, "Yazıçı" məcmuəsində dərc olunan məqalələr də bunu sübut edir.

Mövlud müəllimlə bizim şəxsi tanışlığımızın tarixi elə onun əsərlərinin yaşı qədərdir. Yəni, Mövlud Süleymanlını mən həmkar olmamışdan, bir yerdə işlədiyimizdən xeyli əvvəl tanımışam. Bəlkə də onun "Dəyirman" povestinin, "Köç" romanının ilk oxucularındanam. Povest və hekayələrini də oxumuşam. Daha doğrusu, bir tədqiqatçı alim kimi Azərbaycan xalqının ruhundan süzülən, onun fəlsəfəsinin, dünyagörüşünün, bir sözlə yaratdıqlarının çox gözəl göstəricisi olan hekayələrini həmişə izləmişəm, tədqiq etmişəm. "Şanapipik", "Çoban tbrahim və velosiped", "Şeytan", "Sığırçı Gülünün ala iti",

“Qar”, “Yanğın”, “Ayın aydınlığına” və s.

Öz dövründə Mövludun hər bir əsəri, ən kiçik hekayəsi belə, birmənalı qarşılanmırdı, böyük mübahisələrə, müzakirələrə səbəb olurdu. Bu da hər şeydən əvvəl ona görə idi ki, onun qələmindən çıxan hər bir əsər yeniliklərlə dolu idi. Bu əsərlərdə bizə doğma olan, amma yazılmamış, qələmə alınmamış həyat yeni dəst-xətlə təsvir olunurdu, yeni ifadələr, yeni üslub, yeni deyim tərzi, xalq təfəkküründən bəhrələnən zəngin ədəbi-bədii dil, folklorumuzdan orijinal tərzdə istifadə… bütün bunlar Mövlud yaradıcılığının gözəllikləri, yeniliklərdir. O, 70-80-ci illər ədəbi həyatımızda mübaliğəsiz deyərdim ki, ən çox oxunan yazıçılardan idi. İndi, Mövludun qələmi daha da püxtələşib, öz yolunu, məramını müəyyənləşdirib, öz üslubunu kamilləşdirib.

Mövlud xoşbəxt yazıçılardandır. Niyə? Mövlud bütün düşüncəsi, dili, yaradıcılıq manerası ilə Azərbaycan ədəbiyyatı tarixində yeni bir nəfəsdir. Doğrudur, mənsub olduğu 70-ci illər ədəbiyyatı məhz 60-cı illər ədəbiyyatından doğmuşdu, onun çiyinləri üstündə meydana gəlmişdi. Ruhu etibarı ilə doğma və “qohum” idi, bir mənşədən idilər. Cəsarətlə qeyd edim ki, seçilən və sevilən 60-cılar cərgəsinin 70-80-ci illərdə boy artımı, görünməsi ən bariz şəkildə Mövlud yaradıcılığında özünü göstərdi. Baxmayaraq ki, qeyd etdiyim kimi, bu illərdə yazıçının yaradıcılığı birmənalı qarşılanmırdı. O dövrün filoloqu, bir ziyalısı kimi həmin hadisələr yaddaşımda və gözümün önündədir. Təsəvvür edin ki, bir sırada Mövludun əsərlərini, obrazlarını, dilini bəyənməyən, qəbul etməyənlər, tənqid edənlər dayanırdı, digər tərəfdə onun yaradıcılığını sevməklə yanaşı onu Q.Markes, Ç.Aytmatovla müqayisə edən, dünyanın böyük yazıçılarıyla ruhu oxşarlığı görən çox görkəmli ədəbiyyat, mədəniyyət xadimləri dururdu. Milli ədəbiyyatımızın, dilimizin cəfakeşləri onun yaradıcılığının

ədəbi aləmə gətirdiyi yeniliyi böyük bir inqilab kimi səciyyələndirirdilər. Görkəmli şair R.Rzanın o zamanlar yazmış olduğu "Dəyirman dərdi" məqaləsini oxumaq kifayətdi ki, bu fikri təsdiqləyəsən.

"Dəyirman" povesti ciddi mübahisələrə səbəb olmuşdu. Əslində bu mübahisələrin mahiyyətində, məğzində müxtəlif ədəbi dünyagörüşlərin, yəni, yeniliklə geriliyin, doğmalıqla, təbiiliklə süniliyin, saxtalığın mübarizəsi, savaşı dururdu. Mövludun qəhrəmanları sadə, zəhmətkeş təbəqədən çıxmışdılar, təbiətə, əməyə bağlı insanlardı. Bu insanların sevgisi də, nifrəti də hiss olunacaq dərəcədə təbii, inandırıcı və insani idi. Mövludun obrazları yapma, süni, qələmlə "düzələn" kitab qəhrəmanları deyildi, mənim, sənin hamımızın gördüyümüz, yaxşı tanıdığımız ətrafımız idi. Məhz, bu xüsusiyyət yazıçınm qəhrəmanlarını ədəbi aləmə gələn kimi sevdirdi, onu indiyə qədər oxuduqlarımızdan seçdi, ucalara qaldırdı. Hamı "Köç" romanını oxuyub nəsli-nəcabəti ilə fəxr elədi, öz soyunu-kökünü axtardı, özünü tapmağa çalışdı, "Dəyirman"da dərdlərini gördü, sabahları – gələcəyi üçün narahatlıqlar yaşadı… müharibədən qayıtmayan doğmalarının təskinliyini "Şanapipik" povestindəki Telli qarıda, Ninnidə tapdı…

Qeyd edim ki, bir insan kimi Mövlud müəllimin özü də çox maraqlı adamdır: sadə, təvazökar, çalışqan, diqqətli… Xalq yaradıcılığının hansı sahəsini istəyirsən, ümumiyyətlə, dillə, xalqın yaratdıqları ilə, milli mənliyimizlə bağlı onun əsərlərində kifayət qədər material var və bunu tədqiq edərkən heyrətlənməyə bilmirsən. Bizə lazım olan örnəkləri, qaynağı onun nəinki bütöv yaradıcılığından, hətta yalnız bir əsərindən almaq, öyrənmək mümkündür. Onun əsərləri milliliyi, xəlqililiyi, canlı dili, dünyagörüşü, tarixiliyi və yaşı etibarı ilə o zaman da, indi də cəlbedicidir. Bunları mən peşəkar dilçi kimi söyləyirəm. Dilimizə məxsus arxaizmlərin, sözlər və

deyimlərin, dialekt və şivələrin çox asanlıqla və ustalıqla yazıya gətirilməsi, yerində işlədilməsi, ən əsası yad səslənməməsi, fikri daha sərrast verməkdə sözün aranıb tapılması, seçilməsi, Mövlud müəllimin yazı texnikasının şərtlərindədir. Ədəbi dildə işlənilməsi və ya ədəbi dilə yaxın düşməyə qadağa qoyulan bir çox ifadə və sözlər, Mövlud Süleymanlı yaradıcılığında yeni ömür yaşamağa başladı və çox təravətli göründü. Sinonim cərgələr, ədəbi dilimizi zənginləşdirən, təkrarçılıqdan qaçmağa kömək edən bir çox işlək sözlərin dilə gətirilməsi, bədii üslubda yazıya alınması və həmin üslubun müəyyənləşdirilməsi istedadlı yazıçının orijinal dəst-xəttidir, onun yaradıcılığının əsas əlamətidir. Bu, mənim fərdi fikrim kimi səslənsə də həqiqətdir. Yəni, demək istəyirəm ki, bütün bunlar yazıçının uğurudur. Və uğur heç vaxt asanlıqla qazanılmadığı kimi yenilik də sakitliklə qarşılanmır. Bu mənada görkəmli yazıçıların yolu ədəbi aləmdə heç də həmişə hamar olmur, bu yol asanlıqla keçilmir, uğurlar tez əldə edilmir. Bu yolda qalmaqallar (yazıçı qalmaqalları), eniş-yoxuşlar olur. Mövlud müəllim də ədəbiyyata belə gəldi, milli ədəbiyyatda "öz ərazisini", "öz məkanını" asanlıqla qazanmadı, halallıqla, zəhmətlə, başlıcası istedadla əldə etdi. Ədəbiyyat aləmində bu tək bir fərdin aqibəti deyil. İstənilən istedad gül-çiçəklə qarşılanmır. İndi nəzərinizə çatdıracağım müqayisə üçün yox, istər-istəməz yaddaşımdan doğduğu üçün yada salıram. Böyük S.Vurğunun, R.Rzanın yaradıcılığının ilk dönəmləri, Stalinin vəfatına qədərki irsi həmişə mübahisə doğurub, konservatorların müqavimətinə rast gəlib…

Ancaq, necə deyərlər, hər şeyin qiymətini zaman verir: vaxt yetişir, ağı qardan seçir. Bir zamanlar "Dəyirman"ına, "Şeytan"ma, "Qar"ına görə, yumşaq desək, məzəmmət edilən, (əslində "Dəyirman" povesti üzərində məhkəmə qurulmuşdu) görkəmli yazıçı Mövlud Süleymanlı bu gün Azərbaycan ədəbiyyatında öz halal, layiqli zirvəsindədir. Bu cəhətləri ilə

həmyaşıdlarından, sələf və xələflərindən seçildi, nəsrdə yeni bir dünya açdı. Təsadüfi deyil ki, onun "Köç"ü, "Şeytan"ı, "Ceviz qurdu", "Ot" povesti, "Dəyirman"ı unudulmaz, təkrarsız bir aləm oldu, bu aləmin sehri, möcüzəsi insanın qəlbindən, düşüncəsindən çıxmadı, oxucunu həmişəlik öz məhvərində saxladı.

Bir çox əsərlərinin ilk oxunma tarixindən 25-30 il keçməsinə baxmayaraq, mənim üçün Mövludun yaratdığı dünya, o dünyanın sakinləri bu gün yenə də diri, doğma və canlıdırlar….

Mövlud müəllim hər əsərinə, hər cümləsinə, hər kəlməsinə ciddi yanaşan yazıçıdır. Onun yaradıcılığından götürülmüş hər hansı bir səhifədən bir söz çıxarsan naqislik yaranar, harmoniya, təbiilik pozular. Əsərlərində artıq söz olmaz, fikrini bilərəkdən yükləməz, məqsədi çox aydın və bir mənalı olar, həqiqətə xidmət edər. Məhz elə bu ciddiliyin, yaradıcılığa belə məsuliyyətlə yanaşmanın nəticəsidir ki, radionun müəllifi olduğu "Bulaq" verilişi 30 ildən artıqdır ki, çağlayır, qaynayır. Azərbaycan efirində elə bir veriliş yoxdur ki, ömrü eyni şan-şöhrəti yaşamış olsun. "Bulağ"ın müasir müəlliflərinin dediyi kimi yazıçı Mövlud Süleymanlı öz möhürünü "Bulağ"a elə vurub ki, bu gün həmin dəst-xəttdən çıxanda, həmin üslubu dəyişmək istəyəndə hər şey pozulur, nə isə ayrı bir şey alınır, ancaq "Bulaq" olmur.

Həmkar kimi mən Mövlud müəllimlə 7 ildir ki, birlikdə çalışıram. Deməyi borc bilirəm ki, işində peşəkar, səliqəli və ciddidir, bu xüsusiyyət onun rəhbərlik etdiyi radionun fəaliyyətində, onun kollektivində öz əksini tapmışdır. Mövlud müəllim sözə qiymət verən və sözün qədir-qiymətini biləndir. Mövlud Süleymanlı ədəbi ictimaiyyət tərəfindən həmişə hörmətlə qarşılanır, ziyalılar onu sevir. Fəqət, heç nəyə baxmadan, zaman öz işini görməkdədir. Heç mənim də, bəlkə də özünün də, onun çevrəsinin də ağlına gəlməzdi ki, bu bahar

Mövlud müəllimin 60 yaşının baharıdır. Yuxarıda söylədiyim kimi bu rəqəm, ömrün, yəni fəaliyyətin, düşüncənin, hərəkətin, ümumiyyətlə, insanın haqq-hesab, götür-qoy sayıdır, dönüb geri baxmağa məcbur edən saydır. Mən də bir anlığa tanıdığım Mövludun gəncliyini, nisbətən yetkinlik dövrünü xatırladım. Onun televiziyaya, radioya ilk gəlişini xatırladım, kinostudiyadakı uğurlu fəaliyyəti yadıma düşdü. Yaddaşımı vərəqlədikcə isti xatirələr göz önünə gəldi.

Mövlud müəllim məqalənin çox çətinliklə çap olunduğu zamanlarda "Ulduz" və "Azərbaycan" kimi mötəbər jurnallarda məsul vəzifələrdə çalışırdı. Mən doktorluq işimi hazırlayırdım və mütləq belə jurnalların birində məqaləm dərc olunmalı idi. O vaxtlar çap işi indiki kimi "suiçim" deyildi: ciddi senzura, işin elmiliyi, yeniliyi, bir sözlə müsbət rəy olmasaydı, çap işi mümkün deyildi. Belə anlarımın birində "Azərbaycan" jurnalına yollandım, sözsüz ki, dostum Mövlud mənə kömək etdi ("Ulduz"da işləyərkən də belə xeyirxahlıqları əsirgəməmişdir). Sözüm ondadır ki, jurnalda o tərəfə baxdım, bu tərəfə baxdım işçi görmədim. Bircə Mövlud vardı. Yəni elə o vaxtlardan Mövlud müəllim öz işinə məsuliyyətli və ciddi yanaşandır. Bütün bunları bilib və qiymətləndirdiyimə görə də uzun illərdir şirkətdə həmkaram, görkəmli yazıçı Mövlud müəllimlə birgə çalışırıq. Bundan sonrakı illərdə də Mövlud müəllimə can sağlığı, işində uğurlar diləyirəm. Arzu edirəm ki, həmkarımın qələmi həmişə işləsin, gözəl əsərlərlə oxucularını sevindirsin.

"Ədəbiyyat" qəzeti,
29 avqust 2003-cü il

MƏNALI ÖMÜR YOLU

Doğma və məşhur adamlar haqqında yazmaq, söz demək bir neçə cəhətdən çətinlik yaradır. Adama elə gəlir ki, bu böyük şəxsiyyətlər sənin gördüyün, duyduğun kimi zaman-zaman hamının diqqətində öz insan, ziyalı obrazını formalaşdıra bilib. Doğmalarla gündəlik ünsiyyət, söz, fikir, arzu və sevinclərin pay-püşkt olunması da yazılacaq, deyiləcək səmimi duyğuların sanki təsirini azaldır. Şəxsiyyətin məşhurluğu, dövləti dəyər kəsb etməsi dilimizin lüğət fondundan saysız-hesabsız sözü saf-çürük etmək məsuliyyəti tələb edir. Bu vaxt təriflər, epitetlər, bənzətmələr götür-qoy edilir, qanadlı sözlər əvəzinə daha çox doğru seçilmiş təyinlər, böyük şəxsiyyətin mahiyyətini açıqlayan sərrast ifadələr işlətmək ehtiyacı hiss olunur. Uzun və şərəfli ömür yaşamış, daim ağsaqqal qayğısını və şəfqətini hiss etdiyim görkəmli alim, pedaqoq, tanınmış siyasi xadim, YAP-ın yaradıcı və davamlı funksionerlərindən olan professor Murtuz Ələsgərov haqqında yazmağın məsuliyyəti də onun mənalı, zəngin ömrünün bir çox hallarda sözdən ucada dayanması ilə bağlıdır. Yaşayan, hər günü yeni tariximizə, yeni söz və fikirlə yazılan insanların görünən, qəbul edilən cəhətləri onların xarakterindəki incəliklərin bolluğu qədər çoxplanlıdır. Özündə bir çox ümummilli maraqları, bəşəri dəyərləri birləşdirən və haqqını əməlləri ilə təsdiq edən ağsaqqal dostum, həmkarım Murtuz müəllimin ictimai fikir tariximizdə, Azərbaycan maarifində, pedaqoji mühitində, milli elmimizin və elmi potensialın inkişafında yerini, mövqeyini təyin etməyə ehtiyac yoxdur. Çünki o lap gənc yaşlarından ölkəmizin ən məşhur təhsil müəssisələrində

oxumuş, hüquq elmləri sahəsində perspektivli alim kimi özünü təsdiq etmiş, gələcək uğurları ilə hətta moskvalı mütəxəssislərin diqqətini cəlb etmişdir.

Davamlı şəkildə elmi dərəcələr, adlar alan Murtuz müəllim Moskvadakı təhsilini bitirib Bakıya qayıdarkən ömrünü pedaqoji fəaliyyətə bağladı. O, respublika gəncləri arasında hüquqi biliklərin genişlənməsinə, insan haqlarının tanınmasına ilk təşəbbüslər göstərənlərdən oldu. Dünyada gedən demokratik prosesləri izləyən bu beynəlxalq hüquqşünas, süni modellər əsasında amorf bir cəmiyyət kimi təsis edilmiş SSRİ-nin acınacaqlı taleyini hələ 60-70-ci illərdən hiss edirdi. Mürtuz müəllim tələbə cəmiyyətlərində, çalışdığı elm, təhsil müəssisələrində azadfikirli, demokratik cəmiyyət prinsipləri barədə məruzə və çıxışlar edir, elmi məqalə, monoqrafiyalar yazırdı. Murtuz müəllimin fəaliyyəti təkcə məhdud tələbə auditoriyalarına qapanıb qalmır, daha geniş auditoriyalarda özünə çoxlu tərəfdar qazanırdı.

Azərbaycan televiziyasının yarandığı ilk illərdə ölkədə gedən ictimai-siyasi proseslərin ən inandırıcı, analitik təhlili məhz o vaxtlar 40 yaşlı hüquq elmləri doktoru Murtuz Ələsgərovun televiziya çıxışları ilə tamaşaçılara təqdim olunurdu. Azərbaycan televiziyasında siyasi icmal janrının formalaşmasında böyük xidmətləri olan Murtuz müəllim "Qitələr və hadisələr", "Planetimizin mənzərəsi" proqramları vasitəsilə qapalı mühitdə yaşayan tamaşaçıların yaddaşında dünyaya pəncərə açırdı. Geniş siyasi, hüquqi biliklə birləşən natiqlik, jurnalistlik bacarığı Murtuz Ələsgərovun tezliklə populyar ictimai, siyasi şəxsiyyət kimi tanınmasına səbəb oldu. Onun siyasi icmalları öz elmi sanbalı, anlaşıqlı və aydın üslubu, dərin analitik təhlili, məntiqi ilə seçilirdi. Yadımdadır ki, bu siyasi icmallar yerlərdə ən kütləvi təbliğat vasitəsi kimi intensiv şəkildə izlənilir və partiya – sovet işçiləri bu çıxışların tezislərindən

gündəlik fəaliyyətlərində istifadə edirdilər. Lakin Murtuz müəllimlə tanışlığımızın və sonrakı dostluğumuzun təməlində onun pedaqoji fəaliyyəti dayanır. O, bu gün ölkəmizin ən böyük vəzifə kürsülərində belə müəllimlik peşəsinin xoş və şirin eyforiyasını unutmur. Uzun illər dərs dediyi, bütün vəzifə pillələrindən keçərək, nəhayət, rektoru olduğu Azərbaycan Dövlət Universitetinin elmi ənənələrinin davam və inkişaf etdirilməsində Murtuz müəllimin rolu böyükdür. Azərbaycan Pedaqoji Universitetinə rəhbərlik etdiyim illərdə bir həmkar kimi elmi konfranslarda, müşavirələrdə, xarici ölkələrə səfərlərdə Murtuz müəllimlə görüşlərimiz, ünsiyyətimiz sonralar ailəvi yaxınlığa, dostluğa çevrildi. Yaşından və təcrübəsindən doğan müdrikliyi, zəngin elmi, məntiqi təfəkkürü, səmimi qayğıkeş təbiəti onu mehriban həmsöhbətə, maraqlı yol yoldaşına, fikir, arzu, dərd ortağına, məsləhətçiyə çevirirdi.

Azərbaycan ali məktəb rəhbərlərinin qardaş Türkiyəyə səfərində Murtuz müəllimin yüksək intellektual, insani keyfiyyətləri hər addımda üzə çıxırdı. Gərgin polemikalar zamanı təmkinli elmi ümumiləşdirmələri, istirahət anlarındasa ciddi yumor və zarafatları onun hərtərəfli bir ziyalı olduğunu göstərirdi. Həmkarlıq etdiyimiz vaxtlarda ali məktəblərimizi elm, bilik yarışlarının ön sıralarına çıxarmaq sahəsində Murtuz müəllimin səmərəli məsləhətləri həmişə uğur qazandırırdı. Təhsil Nazirliyinin kollegiya iclaslarında ali məktəb rəhbərləri kimi yeni təhsil konsepsiyasının müzakirələrində çox vaxt Murtuz müəllimlə fikirlərimiz üst-üstə düşür, çıxışlarımız bir-birini tamamlayırdı. Ali məktəblərin bayraqdarı olan Azərbaycan Dövlət Universiteti (BDU) həmişə respublika əhəmiyyətli elmi konfrans və müşavirələrin mərkəzinə çevrilər, bu görüşlərə dəvət alarkən rektor Murtuz Ələsgərovun yüksək təşkilatçılığı, kollektivdə yaratdığı sağlam mühit diqqətimizi cəlb edərdi. Dünyanın ən

görkəmli elm, siyasət, mədəniyyət xadimlərinin universitetlərdə qəbulunun ənənəyə çevrilməsində Murtuz müəllimin alim, siyasətçi nüfuzu da böyük rol oynayırdı. Görkəmli diplomat, siyasi xadim və hüquqşünas alim BMT-nin Baş katibi Butros Butros Qalinin universitetdə qəbulu zamanı (1994) ölkəmizdəki ictimai-siyasi vəziyyət, demokratik dəyərlərə üz tutan Azərbaycanın Avropaya inteqrasiya meyilləri, Dağlıq Qarabağ ağrısının doğurduğu nəticələrin aradan qaldırılmasında beynəlxalq təşkilatların rolu və vəzifələri mövzusunda Murtuz müəllimin məruzəsi öz konstruktivliyi, arqumentliliyi və cəsarəti ilə böyük maraq doğururdu.

Murtuz müəllim dünyada gedən ictimai prosesləri peşəkar hüquqşünas kimi ardıcıl izləyən, təhlil edən, hadisələri proqnozlaşdırmağı bacaran ən nüfuzlu politoloqlardandır. Böyük Britaniyanın Azərbaycandakı səfiri Tomas Yanqın universitetdə qəbulu zamanı (1994) bu təhsil ocağındakı demokratik mühit yüksək qiymətləndirilmiş, xüsusən, tələbələrin beynəlxalq hüquq, sülh və demokratiya, insan haqlarına öz çıxışlarında geniş yer vermələri müsbət hal kimi qiymətləndirilmişdir.

Murtuz müəllimlə dostluğumuzun mənbəyi olan ideya, məslək ortaqlığı barədə fikirləşərkən xalq yaddaşında dostluq haqqında formalaşan sadə, lakin dəqiq deyimlər yada düşür: “Dostluq üç cür olur: çörək dostluğu, ürək dostluğu, bir də məslək dostluğu”… Məslək, ideya dostluğu yaşa, ictimai mənşəyə, cəmiyyətdə tutduğun mövqeyə baxmır. Qurucusu və memarı ümummilli rəhbərimiz Heydər Əliyev olan Yeni Azərbaycan Partiyası ideyaları ətrafında onun siyasi şurasını formalaşdıran cəsur, vətənpərvər insanlar içərisində Murtuz Ələsgərovla tanışlığımız sonralar əsil məslək dostluğuna çevrildi. YAP təkcə siyasi əqidə ətrafında toplaşan və bu ideyaların təkcə nəzəri bazasını hazırlayanların siyasi

təşkilatı deyildir. O, Heydər Əliyev ideyalarını kütlələr içərisinə daşıyan, mətbuat və TV-nin qadağaları şəraitində mövcud hakimiyyətin çürüklüyünü, xalqı uçuruma yuvarladacağını, torpaqlarımızın müdafiəsində uğursuz siyasəti ilə məğlubiyyətə düçar olacağını sübut etməliydi. Bu partiya kiçik bir qüvvə ilə mübarizə meydanına atılıb tezliklə yüz minlərin siyasi tribunasına çevrildi. Söz yox, partiyaya qısa vaxt ərzində siyasi divident qazandıranlardan biri də Murtuz Ələsgərov idi. O YAP-ın siyasi şurası tərkibində ən çətin, problemli məsələlərin qısa vaxt ərzində uğurla həllində siyasi çeviklik və qətiyyət göstərir, gənc silahdaşlarına nümunə olurdu. Partiyanın siyasi kursunun müəyyənləşməsində, kütlələrlə iş metodunun seçilməsində, təbliğat və təşviqatın dəqiqləşdirilməsində bu hüquq doktorunun rasional təklifləri birincilər sırasında qəbul olunurdu. Nəzəri, siyasi hazırlığın praktik fazaya modifikasiyasında da Murtuz müəllimin böyük xidmətləri olurdu. O, YAP-ın sədri, H.Əliyevin ideyalarının sınanmış əsgəri kimi mitinq və nümayişlərdə ön sıralarda gedənlərdən idi. Qaraguruh bu zaman partiya fəallarımıza qarşı gizli və aşkar qurğular qurub onların fiziki və mənəvi məhvinə tədbirlər tökəndə Murtuz müəllimi bu açıq çıxışlardan çəkindirmək mümkün olmurdu. Belə siyasi çəkişmələrdən birində Murtuz müəllimin həyatına o vaxtkı iqtidar dairələri tərəfindən qəsd edildi, aylarla xəstəxanalarda ölüm-olum arasında yaşamalı oldu. Belə ağır günlərində tez-tez baş çəkdiyimiz Murtuz müəllim gələcək haqqında işıqlı, ümidli fikirləri, nikbin, mübarizə apardığı ideyaların sabahına inamlı söhbətləri ilə necə sədaqətli bir insan olduğunu sübut edirdi. O, sağalıb yenidən siyasi fəaliyyətə qoşularkən başına gələnlərdən bircə dəfə də sui-istifadə etmədi, xarakter bütövlüyünə sadiq qaldı. İstər pedaqoji, istərsə də siyasi fəaliyyətində təvazökarlığı həyat tərzinə çevirmiş Murtuz müəllim yeni dövlət idarəçiliyinin möhkəmləndirilməsində

öz elmi və əməli fəaliyyətini əsirgəmədi. O, Milli Məclis seçkilərində də bir gənc siyasətçi ehtirası ilə iştirak etdi. Artıq xalq onu Heydər Əliyev ideyalarının mücahidlərindən bir kimi tanıyırdı. Buna görə də xalq 1995-ci və 2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinə deputat seçkilərində tərəddüd etmədən Murtuz müəllimə səs verdi.

Yeri gəlmişkən Azərbaycanda deputat seçkiləri barədə. Dünya, eləcə də Avropa standartlarına uyğun keçirilən bu seçkilər təkcə YAP kimi ümummilli siyasi partiyaya inamın deyil, həm də Heydər Əliyev komandasına xalqın etimadmı ifadə edirdi. Bu partiya ətrafında toplaşan, onun Siyasi Şurasını təmsil edən son dərəcə güclü elmi-siyasi potensial istər proporsional, istərsə də majoritar seçki sınaqlarında çətinlik çəkmədən böyük üstünlük qazanırdı. Murtuz Ələsgərov da elmi, əməli fəaliyyəti ilə bu partiyaya nüfuz qazandıran şəxsiyyətlərdəndir. Onun deputat seçkilərində asan qələbələri də siyasət meydanlarında çətin, əzablı mübarizələrində göstərdiyi dəyanət ideyalılıq, xalqa – H.Əliyev kursuna sədaqət hissinin hesabına başa gəlirdi. YAP-ın siyasi şurasında, parlamentdə birgə çalışdığımız uzun illər ərzində Murtuz müəllimin sözə həmişə "ehya" verdiyinin, az danışıb çox dinlədiyinin, çıxışları zamanı ciddi problemləri gündəmə gətirib həlli yollarını açıqladığının, ictimai, dövləti maraqları şəxsi maraqlardan daim üstün tutduğunun şahidi olmuşam. O, bir dəfə də siyasi populizm xətrinə, ucuz elektorat yığmaq naminə çıxış etmədi, irreal məsələlərdən söz salıb yalançı vədlər vermədi. Həlli mümkün olmayan problemləri dilə gətirib süni gərginlik yaradanlara isə qısa, kəsərli arqumentləri ilə günün reallıqlarından çıxış etməyi məsləhət gördü. Məhz onun bu təmkin və uzaqgörənliyi, siyasi müdrikliyi əksəriyyətin razılığını, rəğbətini qazandı. Bu yerdə 1996-cı ilin 16 oktyabrını xatırlayıram. Milli Məclisin sədrliyinə namizədliyi

irəli sürülmüş Murtuz Ələsgərov ideya silahdaşlarının müdafiə və dəstəyi ilə spiker seçilirdi. Məclisdə azlığı təşkil edən müxalifətin nümayəndələri Murtuz Ələsgərov şəxsiyyətinə, fəaliyyətinə kölgə salmaq, onun seçkisini pozmaq üçün dəridən-qabıqdan çıxırdılar. Bu vaxt opponentlərə verdiyim, günümüz üçün sərt və radikal təsir bağışlayan cavabımı xatırlayıram. Əslində mənim çıxışımın qəzəb notları uzun illərin sınağından çıxmış, siyasi yetkinlik, sədaqət nümunəsi kimi formalaşmış, elmi və təcrübəsi ilə həm real, həm də rəmzi mənada çoxlarına dərs deməyə layiq olan bir ağsaqqala atılan böhtanlara adekvat cavab idi. Akademiya sistemində laborant vəzifəsindən yuxarı qalxa bilməyib AXC-Müsavat hakimiyyətində Ali Sovetin sədri, Baş nazir, Dövlət katibi postları tutanların Murtuz müəllimə qarşı açıq hücumları qarşısında edilən bu çıxış ömründə bir ağac əkməyib, ölkənin 20 faizini düşmənə təslim edənlərin siyasi həyasızlığını susdurmaq məqsədini daşıyırdı. Siyasi opponentlərimiz Murtuz müəllimin alim məntiqindən, təcrübəsindən, dövlətə H.Əliyev ideyalarına hədsiz sədaqətindən qorxub belə hay-küy salmışdılar. Həyat da bunu sübut etdi. Adi məsələləri həlli müşkül problem kimi iclaslarda hallandırıb siyasi dividentlər qazanmağa alışmış müxalif deputatlar yeni spikerin dəmir məntiqi, təmkini və təcrübəsi qarşısında susmalı olurdular. Siyasi-şouların, qalmaqalların qarşısı beləcə birdəfəlik alındı. Parlamentdə siyasi debatları, həqiqətə, reallığa istiqamətlənən maraqlı təklifləri müzakirə zamanı hədsiz səxavət və təmkin nümayiş etdirən Murtuz müəllimin ədalətsizliyə qarşı bir an belə dözmədiyinin dəfələrlə şahidi olmuşam. Belə hallarda onun kəskin reaksiyası qaraguruhun “səfini pozur”, Ali məclisdə hər hansı qeyri-sağlam fikrin cücərib qol-budaq atmasına imkan vermir. Məhz Murtuz müəllimin rəhbərliyi ilə keçən Milli Məclis iclasları öz məhsuldarlığı, sakitliyi, ideyalılığı,

elitar diskussiya mədəniyyəti ilə hətta xarici qonaqların da rəğbətini qazanmışdır.

Murtuz müəllim indi ömrünün müdriklik çağlarını yaşayır. Həyatın bərk-boşundan çıxmış, elmi-siyasi mübarizələrdə bərkimiş bir insanın yaşadıqlarının demək olar ki, böyük bir hissəsi yazılmış, məruzə və çıxışlarda, məqalə və tezislərdə öz əksini tapmışdır. Ən emosional, ekspromt meydan çıxışlarından beynəlxalq qurumlardakı siyasi məruzələrə qədər öz fikir və düşüncələrində daim sayıq siyasi düşüncə, elmi sanbal nümayiş etdirən Murtuz Ələsgərov diplomatik bacarığını da təsdiq edə bilmişdir. Birgə iştirak etdiyimiz Strasburqdakı – Avropa Şurası iclaslarında Murtuz müəllimin çıxış və mülahizələri bir çox hallarda dəqiq ünvanını tapırdı.

Uzun illərin həmkarlığı, şəxsi, əqidə dostluğu fonunda onun portret cizgiləri haqqında düşünərkən hər şeydən əvvəl göz önünə bir insan kimi sabitqədəmliyi, sözübütövlüyü gəlir. Gəncliyindən sevərək yiyələndiyi hüquq elmi Murtuz müəllimə fikrini qısa, konkret, reallığın dili ilə ifadə etməyə imkan verir. Özündən çox ətrafdakıları, dostları qiymətləndirmək, gücünü əqidə birliyində, ideya əməkdaşlığında görmək də Murtuz müəllimdə müşahidə etdiyim yüksək keyfiyyətlərdəndir. Tam şəxsi hüquq çərçivəsində olan ən adi qərarı belə məsləhətləşdikdən sonra qəbul etməsi, onun ətrafındakılara, məslək dostlarına hədsiz hörmət və diqqətindən irəli gəlir. Bunlar sırf mənəvi dəyər sferasında gündəlik fəaliyyətə, məqsədə çevrildiyinə görə Murtuz müəllimin yaddaşlardakı obrazına hər gün müsbət cizgilər əlavə olunur. Onun dövlətə, üzvü olduğu partiyaya, məslək dostlarına sədaqəti ailəyə – çox nəcib bir ziyalı olan Nabat xanıma, övladlarına, qohum-qardaşa sədaqəti ilə tamamlanır. Tərbiyə etdiyi, böyütdüyü iki oğul və bir qız övladı, ali məktəbdə dərs dediyi yüzlərlə, minlərlə tələbəsi yaddaşında, əməlində Murtuz müəllimin xeyirxah

keyfiyyətlərini yaşadırlar.

Murtuz müəllim hüquq elminin ən ali mükafatlarını, elmi dərəcə və adları, beynəlxalq mükafatları səmərəli və davamlı xidmətləri ilə qazanmışdır. Xalqa, dövlətə, dövlətçilik kursuna sədaqəti və səmərəli fəaliyyətinə görə Azərbaycan Respublikasının ən ali mükafatı – "İstiqlal ordeni" ilə təltif olunmuşdur. Bu təvazökar insan adı altında sıralanan əzəmətli titulları cəmiyyət qarşısında borc hesab edir.

Müstəqil Azərbaycanın parlament təcrübəsi onun yaşı ilə paralel inkişafdadır. Təbii ki, parlament üzvləri də savad və siyasi qabiliyyətlərinə görə yekcins deyillər. Lakin ömrünü hüquq elminə həsr etmiş bu siyasət adamının səthi çıxışlara da sərt cavabını, qeyri-etik reaksiyasını bir dəfə də eşitməmişəm. Spikerin yaratdığı sağlam pülüralist parlament mühiti, xüsusən, gənclərin bu mühitdə yetişməsinə şərait yaradır. Bu siyasi dözümlülükdən sui-istifadə edən müxalifətçi millət vəkilləri bəzən spikerə qarşı şəxsi zəmində iftira və böhtanlara əl atsalar da, Murtuz müəllim dövlətin maraqlarını daha üstün tutur, həqiqi müdriklik nümayiş etdirir. Qaraguruh müxalifətin mətbuatı öz "ideoloqlarının" cəfəng məlumatları əsasında Murtuz müəllimlə digər cəbhədaşlar arasına nifaq toxumu səpəndə də bu dünya görmüş ağsaqqalın təmkini və səbri çox qovğaları heçə endirmişdir. Amma ictimai maraqlar üzərinə kölgə düşəndə Murtuz müəllim vaxtında həyəcan təbilini çalaraq "yaranın irinlənməsinə" imkan verməmişdir.

Hər işdə təmkin göstərib təkcə Heydər Əliyev siyasi kursuna xidməti ilə fəxr edən Murtuz Ələsgərovun bu günlərdə 75 yaşı qeyri-adi şəraitdə – vəzifə başında, xidmət stolu arxasında, çox əhəmiyyətli dövlət tədbirində, Heydər Əliyev ideyalarının parlaq davamçısı, XXI əsrin ən gənc və perspektivli siyasətçisi, ölkəmizin yeni prezidenti İlham Əliyevin dilindən qopan səmimi tərifler, dəqiq müşahidələr əsasında dəyərləndirilən xidmətlər fonunda qeyd olundu. Rus mətbuatının

V Ümumdünya Konqresinin Bakıdakı yekun tədbirində adi iş gününü keçirən Murtuz Ələsgərovun 75 yaşının tamam olduğunu xatırladan ölkə başçısı yığcam və hər cümləsi dəqiq dövləti xidmətlərə qiymət kimi səslənən çıxışında Murtuz müəllimin yüksək insani keyfiyyətlərini, xüsusən cəmiyyətimizin memarı Heydər Əliyevə olan sədaqətini yüksək qiymətləndirdi. O dedi: "Hörmətli qonaqlar, bu gün həm də bizim dostlarımızdan biri ağsaqqalımız, parlamentin spikeri Murtuz Ələsgərovun ad günüdür – 75 yaşı tamam olur. Mən bilirəm ki, bu əlamətdar günü Murtuz müəllim doğmaları, dostları arasında keçirməyi planlaşdırmışdı. Lakin bugünkü tədbirin Azərbaycan üçün əhəmiyyətli olduğunu dəyərləndirərək bizimlə birgə olmağa, əvvəllər deyildiyi kimi, ictimai marağı şəxsi maraqdan üstün tutmağa qərar vermişdir. Mən deməliyəm ki, Murtuz müəllim çox ləyaqətli, dəyanətli, mərd insandır. Prezident Heydər Əliyevə ən çətin anlarda – müxalifətin təqib və təhqirlərə məruz qaldığı, izlənildiyi vaxtlarda sadiq qalmışdı. Keçmiş hakimiyyət Heydər Əliyevə hətta Azərbaycanda yaşamağa imkan vermədiyi vaxtlarda Murtuz müəllim bir sədaqətli Azərbaycan oğlu kimi öz işini, vəzifəsini, həyatını riskə qoyaraq, Naxçıvana getdi, Heydər Əliyevi ədaləti müdafiə etdiyi açıq çıxışları ilə sübuta yetirdi. O vaxt prezident seçkilərində Heydər Əliyevin iştirakına süni sədlər, maneələr yaradılır, qondarma yaş senzi ortalığa atılırdı. Onda Heydər Əliyev tərəfdarları (budur mən Arif müəllimi görürəm – Murtuz müəllimin müavinini) kütləvi şəkildə təqib edilirdi. Lakin bu təqib və təzyiqlər onları əyə, alçalda, ideyalarından döndərə bilmədi. Azərbaycan xalqı bunu qiymətləndirir.

Murtuz müəllim uzun illərdir ki, bizim parlamentə rəhbərlik edir. Məhz onun rəhbərliyi ilə keçən iclaslar demokratik dəyərlərin, qanunvericilik bazamızın inkişafına geniş şərait yaradır. Bu, böyük hörmətə layiqdir. Mən Murtuz müəllimə uzun ömür, can sağlığı, əməli fəaliyyətində uğurlar arzulayıram".

Hörmətli cənab prezidentimizin dəyərləndirdiyi kimi, üzvü olduğu partiyaya ümumbəşəri, milli dəyərlərə, Azərbaycanın sabahı üçün parlayan Heydər Əliyev ideyalarına sədaqətli bir ömür yaşayan Milli Məclisin sədri, hüquq elmləri doktoru, professor Murtuz Ələsgərov gəncliyə nümunə göstərilməyə layiq şəxsiyyətdir.

2003-cü il

ŞEİRİMİZİN CANLI KLASSİKİ

Hamıya yaxşı bəllidir ki, tarixin ən qədim dövrlərindən üzü bəri tanınmış söz sahibi olmaq son dərəcə çətin və məsuliyyətlidir. Ona görə ki, söz hər zaman eşidiləndir, söz insanların bir-birinə etibarı və inamıdır.

Qələm sahiblərinin insana, həyata, dünyaya baxışı məhz sözdən gəlib keçir. Sözü duyan, sözlə insan kimi rəftar edən, sözə məhəbbətlə yanaşan, sözdə öz istəyini tapa bilən sənət adamları daha xoşbəxtdirlər. Çünki onlar duyduqlarını və düşündüklərini özlərinə yaxın və doğma olan sözə çevirməyi bacarırlar. Məncə, belə xoşbəxt sənətkarlar sırasında ədəbiyyata və sənətə öz qanı, canı ilə xidmət göstərən nadir qələm sahibi Məmməd Araz da var.

Dilçi alim də, ədəbiyyatşünas da, filosof da müəyyən bir məsələ barəsində əsl həqiqəti üzə çıxarmaqdan ötrü müxtəlif mənbələri araşdırır, araşdırma üçün faktlar, dəlillər seçir və nəhayət, müqayisələr aparır. Müqayisə yolu ilə deyilən fikir, müqayisədən doğan nəticə daha elmi, daha inandırıcı olur. Amma mən Məmməd Araz poeziyasını heç bir sənətkarın yaradıcılığı ilə müqayisə etmək fikrində deyiləm. Ona görə yox ki, M.Araz şeiri özündən əvvəlki sənət adamlarının, yaxud öz müasiri olan şairlərin yaratdığı poetik nümunələrlə müqayisəyə gəlmir. Əksinə, M.Araz öz sələfləri ilə müasirləri arasında elə bir ortaq nöqtədir ki, onun bədii düşüncəsindən süzülən fakt və nümunələr vasitəsilə Azərbaycan söz sənəti tarixinin böyük bir mərhələsini tam genişliyi ilə təhlil edib ümumi nəticələrə gəlmək olar. Məmməd Arazı başqaları ilə müqayisə etməmək, şeirini başqalarının şeirləri ilə tutuşdurmamaq istəyimiz ondan irəli gəlir ki, Məmməd Araz poeziyası öz-özü ilə müqayisəyə

daha çox meyillidir. Bax, bu cəhətdən M.Araz sələflərindən, müasirlərindən kifayət qədər seçilir və fərqlənir.

Məmməd Araz Batabata yaxın bir yerdə – Şahbuz dağlarının ətəyində yerləşən Nurs kəndində doğulub. O yerləri gəzənlər, tanıyanlar saf bulaqların suyu ilə sərin və təmiz havanın necə məhrəm olduğunun canlı şahididirlər. Oradakı çaylar, göllər, bağ-bağçalar, ətirli çiçəklər elə bir dünyadır ki, onlara baxanda hər dəfə gözlərim önündə yeni bir sirr açılır. Yollara, cığırlara nəzər yetirdikdə doğulan hər nisgilin də öz mənasını, öz siqlətini görürük. Elə düşünməyin ki, mən M.Arazın doğulduğu, gəzdiyi yerlərin bədii lövhəsini yaratmaq fikrindəyəm. Yox, M.Araz qələminin gücü və qüdrəti bu cəhətdən həm tükənməz, həm də daha sərrastdır.

Mənim şimşəklərim hara şığıdı?
Mənim dolularım haraya yağdı?
Mənim yağışlarım daha şıdırğı,
Qarım daha təmiz, daha da ağdır.

O zaman ləpirim quşlar hürküdür,
Torağay çıxmazdı qarşıma belə.
Kəpənək qonmazdı çiynimə bu cür,
Yemşan ələnməzdi başıma belə.

O zaman yarpaqlar biri bir palaz,
İndiki yarpaqlar qulaq boydadır.
O zaman uşaqlar böyükdü bir cız,
İndiki uşaqlar uşaq boydadı.

Bu bəndlərin məzmunu və ahəngi şairin özünün özü ilə müqayisəsi üçün nə qədər münbit zəminə malik olduğunu tam aydınlığı ilə sübut edir. Kəndin keçmişi və bu günü arasındakı fərq yalnız yağışa, qara, torağaya, kəpənəyə görə

deyil, həmçinin uşaqların seçilməsinə görə də müəyyənləşir.

M.Araz poeziyasında şairin doğulduğu doğma kəndin balacalığından doğan nisgil və təəssüf onun gözəlliyinə olan məftunluqla tarazlaşır və son dərəcə qeyri-adi bədii lövhə yaranır:

Kəndim, balacasan, çox balacasan,
Adın yox dünyanın xəritəsində.
Atılıb qalmısan gözlərdən uzaq,
Çaylı, baldırğanlı çay dərəsində.

Şair kəndin balacalığından, dünyanın xəritəsinə düşməməsindən doğan nisgili onun təbiətinin füsunkarlığı – "çaylı, baldırğanlı çay dərəsi" ilə yuyur və oxucu qəlbinə qəribə bir rahatlıq bəxş edir.

Elə buradaca qeyd etmək istəyirəm ki, M.Arazın gəzib dolaşdığı həmin yerləri mən də qarış-qarış gəzmişəm. Böyük şairin vəsf etdiyi bulaqları, meşələri, dağları, dərələri, çayları, yamacları mən də doyunca seyr etmişəm. Amma bunlar mənə öz yaşıma görə M.Arazdan sonra qismət olub. Bu yerdə etiraf etməli başqa bir məqam da var. O da bundan ibarətdir ki, mən o daşı, o torpağı Məmməd Arazı oxuduqdan sonra daha dərindən tanımışam. Bu tanışlıqda M.Araz şeiri mənim ən mehriban, ən səmimi müəllimim olub.

Məmməd Araz şeirlərinin birində təbiəti dərslik hesab edir. Bəli, təbiət bizim oxuduğumuz və öyrəndiyimizi bütün dərsliklərin ən mötəbəri, ən alisidir. Bəşəriyyət yarandıqdan bəri dərslik nə qədər vərəqlənir, nə qədər öyrənilirsə, yenə dünyanın bütün sirləri açılmır, tükənmir. Bu fikrin mənası təbiətin yalnız sirli-sehrli olmasını göstərməkdən ibarət deyil. Şairin başlıca məqsədi insanla təbiəti vəhdətdə götürmək, insanı təbiətə qarşı qoyanlara kəskin cavab verməkdir.

Məmməd Arazın təbiətə vurğunluğunda ən başlıcası

torpağa, daha geniş mənada doğma Vətənə olan sevgi dayanır. O, şeirlərinin birində yazır:

Yerdə çörək diləyin
Xış dili bilməliydi.
Quş dili bilməliydi,
Daş dili bilməliydi.

Həyata və dünyaya, keçmişə və gələcəyə, torpağa və daşa, nəhayət, insana və vətənə bağlılığın bu qədər səmimi, bu qədər dəqiq, eyni zamanda bu qədər poetik ifadəsi son dərəcə nadir sənət hadisəsidir. Qətiyyətlə deyə bilərəm ki, poeziya tarixində belə nümunələr hər zaman yaranmır. İdeya və qayəsinə, səmimi ifadə tərzinə, bədii dil xüsusiyyətlərinə görə bütövlük və tamlıq qazanan o cür şeir nümunələrinə, əsasən, şifahi xalq ədəbiyyatı xəzinəsində rast gəlmək olar. Bunun da əsas səbəbi folklor nümunələrinin xalq düşüncəsindən süzülüb gəlməsi, xalq tərəfindən cilalanmasıdır. Elə M.Araz şeiri də xalqdan gələn ruhla, xalqdan gələn tələblə yazılanda folklor nümunələrinə daha çox oxşayır, bəzən də xalq şeirindən heç nəyinə görə seçilmir.

Məmməd Araz "Məndən ötdü qardaşıma dəydi" şeiri ilə Azərbaycan oxucusunun vətən duyğusunu təkrarlanmaz bir forma və məzmunda canlandırıb. O, şeirimizi vətəni ümumi sözlərlə bəzəmək, vətəni qafiyəbazlıqla tərifləmək, vətəndən yazmağı sui-istifadəyə çevirmək yolundan saxladı. Yalnız sözdə görünən vətən çığır-bağırlarından doyan, iş və əməl çağırışına qoşulmaq istəyən oxucular M.Arazın həqiqətə səsləyən "Məndən ötdü qardaşıma dəydi" şeirini böyük "acgözlüklə" qarşıladı. M.Araz bircə şeirlə milyonlarla oxucuya vətəni necə sevmək, öz şair müasirlərinə isə vətəni sevdirmək dərsi verdi. Bircə şeirlə bütün Azərbaycan vətəndaşları vətənə dəyən daşın ağrısını öz ağrısı hiss etdi:

Səndən ötən mənə dəydi,
Məndən ötən sənə dəydi.
Səndən, məndən ötən zərbə,
Vətən, vətən sənə dəydi.

Şair ürəyinin çəkə bilmədiyi Araz dərdi ülvi bir vətənpərvərlik duyğusundan doğulmuşdur. Biganəliyə və laqeydliyə qarşı qılınc çəkən Məmməd Araz biganəliyin və laqeydliyin gətirdiyi bəlaların ən acı, ən ağrılı ünvanını da göstərir:

Xətainin süqutuna
qəh-qəh çəkdi.
Sonra-sonra
Səhərəcən başına yüz qədəh çəkdi.
O qəh-qəhin dalğasından,
o məstliyin baş fırladan
Havasından qopan daşdı –
Azərbaycan torpağından
Araz boyda şırım açdı.

Məmməd Araz şeirində hər sözün, hər kəlmənin öz yeri var. Bəzən oxucu heyrətə gəlir ki, ilahi adi bir insan – şair düşüncəsi bu qədər sözün içərisindən şeirin ideyasına və ahənginə uyğun bir vacib kəlməni necə həssaslıqla seçib tapa bilir. Görünür Məmməd Araz kimi böyük şair olmaq üçün xalqın bütün maddi və mənəvi sərvətlərini incədən-incəyə qədər duyub başa düşməlisən. Bu mənada bədii dilin yaratdığı mübaliğələrdən də şair o yerdə istifadə edir ki, məhz orada insan qəlbinin dağ boyda kədəri inikas etdirilir. “Arazın nəğməsi” şeirində bu həqiqətin ən parlaq nümunəsi var:

Qoca şahidisən qoca dünyanın,
Çox nahaq qanlara boyanmısan sən.
Nə bilim, bəlkə də neçə ananın
İlıq göz yaşından yaranmısan sən.

Anaların göz yaşından yaranan Araz boyda nisgil M.Arazın şeirində mövzu olur. Ona görə də "Mən Araz şairiyəm" deyir. M.Arazın yuxularına buta timsallı gözəl-göyçək qızlar deyil, məhz Araz girir. O öz yuxularından Arazın dərdi ilə diksinib ayılır. Araz dərdi ilə Araz sevgisi Məmməd Araz poeziyasında elə qaynayıb qovuşur ki, onları bir-birindən ayırmaq ananı baladan ayırmaq qədər çətindir:

Gündüzlər aynam olub,
Gecələr laylam olub.
Qamışından kəsilib
Mənim çaldığım tütək,
Mən ondan süd içmişəm
Anamdan süd əmən tək.

M.Arazın bir çox misralarını aforizmə çevirən də məhz elə onun poeziyasının həmişə bizə gərək olan əqidə, məslək damarıdır. Sənətin əqidə, məslək gücündən doğulan canlı misralar "vətən daşı" olmaq istəməyən adamlardan daha məğrurdur. Bu məğrurluğu biz aşağıdakı misraların izi ilə gedə-gedə M.Arazdan öyrənirik:

Vətən mənə oğul desə nə dərdim,
Mamır olub qayasında bitərdim.

Qəribədir, Məmməd Arazın çəkdiyi dərd heç kəsin dərdinə bənzəmir. Azərbaycan oxucusuna Füzulinin, Sabirin, Mirzə Cəlilin dərdi yaxşı tanışdır. Ədəbi yaddaşın

səhifələrində xalqın istək və arzularının həqiqətə çevrilə bilməməsindən doğan ictimai kədər Füzuli və Sabirdə, Mirzə Cəlil və Məmməd Arazda eyni mənbədən qaynaqlanır. Fərq burasındadır ki, Füzulidə, Sabirdə, Mirzə Cəlildə çəkilməyən dərd öz ağırlığı ilə daha çox tanınır və çiyinlərin tab gətirə bilmədiyi ağrı ilə reallaşır. Bəzən də bu dərdə ürək dözmür, ürək tab gətirmir. Əslində bu dərd vətəndaş mövqeyinin mübaliğəsindən, yanğıdan, iztirabdan keçən bədii inikasıdır. Lakin Məmməd Arazda dərdin ölçüsü çəki ilə, ağırlıq vahidi ilə deyil, vaxt və zamanla ölçülür:

Bəlkə bu halımdan incidi dağ-daş,
Bunu öz vaxtında duya biləydim.
Bir günlük uşaqlıq günahımı, kaş
Bütün ömrüm boyu yuya biləydim.

Hələ biz onu demirik ki, çox şairlər özlərini günahsız – "aydan arı, sudan duru" hesab edirlər. Günah kiçik olsa belə onu görüb etiraf etmək cəsarəti Məmməd Araz ürəyinin böyüklüyü və işığıdır. Əslində Məmməd Arazı yaşadan da elə bu böyüklüyün və işığın gücüdür.

Azərbaycan mədəniyyət tarixinə baxışda XX əsrin əvvəlləri ilə sonları arasında kifayət qədər müqayisələr aparmaq olar. Bu müqayisələr həm oxşar, həm də fərqli cəhətləri ortaya çıxarmaq üçün xeyli əsas verir. Dildə də, ədəbiyyatda da, incəsənətdə də, hətta siyasətdə də bunu görmək və göstərmək çətin deyil. Həmin müqayisə zəmininin daha bariz nümunəsi Mirzə Cəlil və Məmməd Araz yaradıcılığındadır. Həqiqət belədir ki, XX əsrin əvvəllərində Mirzə Cəlil "Anamın kitabı" əsərini yazıb xalqımızın taleyinin bir çox məqamlarını əbədiləşdirdi. XX əsrin axırlarına yaxın isə Məmməd Araz "Atamın kitabı" poeması ilə yeni dövrün canlı epopeyasını yaratdı. Hər iki

kitabın bir qədim qaynağı var. Bu qaynaq "Dədə Qorqud kitabı" adlanır. Deməli, Məmməd Araz poeziyası ən qədim milli qaynaqdan, ən saf ənənədən qida alır.

Həqiqi poeziya yarışı səmimi söz sahibi olmaqdan keçir. Əsl şair səmimiliyi bədii dildən, sözdən, misradan süzülüb gələndə daha güclü, daha həqiqi olur. Məmməd Araz səmimiyyəti gözə girmir, ürək bulandırmır, əksinə göz oxşayır, ürəyə yayılır. Çünki onun yaradıcılığında səmimiyyətin ifadə imkanlarının özü də son dərəcə səmimi və qeyri-adidir:

Anadan-bacıdan gizlətdiyimi,
Kağızdan, qələmdən gizlətməmişəm.

Bu deyim, anaya və bacıya üzbəüz deyilə bilməyən hiss və duyğunu bədii sözə, şeirə söyləməyin ən klassik etirafıdır. Bundan sonra adam öz-özünə düşünür: nə qədər səmimi olmaq lazımdır ki, səmimiyyətin Məmməd Araz etalonu qarşısında duruş gətirə biləsən?

Şair üçün şeirin janrını, vəznini, bölgüsünü, qafiyəsini öyrənmək və bilmək o qədər də çətin deyil. Ədəbiyyat tarixini, ayrı-ayrı sənətkarların yaradıcılığını dəyərləndirmək qələm əhli üçün heç bir problem yaratmır. İnsani və həyati müşahidə qabiliyyəti də hər insanda öz səviyyəsinə uyğun olaraq yetərincə var. Amma sözü duymaq və sözü danışdırmaq hər kişinin işi deyil. Bunun üçün fitri istedad, sözün gücünü duymaq gərəkdir. Ona görə də Məmməd Araz sözə, bədii dilə cansız material kimi baxmır, onu hərəkətə gətirir və daim hərəkətdə görür:

Söz gərək ox keçməz qaydadan keçə,
Yoxdursa sözünün kəsəri yazma.

Özün sevməyincə, sevilməyincə,
Özgədən məhəbbət əsəri yazma.

Təkcə bu misraların özü sənət yoluna qədəm qoyan yeni yaradıcı nəsillər üçün çox əhəmiyyətli və mənalıdır. Böyük bir təcrübə məktəbinin nəticəsi kimi meydana çıxan sözün kəsərli olmasına, şairin duyulan və düşünülən mətləblərindən yazmasına çağırış əsl ustad nəsihətidir. Məsələ burasındadır ki, M.Araz dərindən bildiyi bir mənanı ürəyində sirr kimi saxlamır, onu kiməsə qısqanmır, hətta açıb söyləməkdən həzz alır, həmin mənanın kim üçünsə gərəkli olacağına ürəkdən inanır. Etiraf etmək lazımdır ki, belə bir ürək genişliyi az-az təsadüf edilən poetik və əxlaqi keyfiyyətdir.

Məmməd Araz şeirinin lirik qəhrəmanı adi adam deyil. Bu qəhrəman sözün həqiqi mənasında şəxsiyyətdir.

Məmməd Araz şeirlərində sevən də, nifrətə layiq olan da, bağışlanan da, dərd çəkən də, dərdini bölüşən də gözümüz qarşısında şəxsiyyət kimi ucalır:

İsmi dönük son tufanım olsa da,
Son ümidim, son gümanım olsa da,
Gündoğanım, günbatanım olsa da,
İnnən belə o gözlərə baxmaram.

Vəfasızlığa qarşı bu qədər inadkar olmaq yalnız Məmməd Araz poeziyasına xasdır!

Tutarlı söz gəzmə özünü yorub,
Məni bilirsən ki, aldatmaq asan…
Desələr: "Ay səni qonaq çağırıb,
Marsla evlənəcək" inanasıyam.

Sevgiyə qarşı bu qədər məhəbbət də elə Məmməd Araz şeirinin möcüzəsidir! Bütün bunlar Məmməd Araz şəxsiyyətindən süzülüb gəlir. Çünki o, həyatda və cəmiyyətdə öz sözünü deyə bilən, öz sözünə hörmətlə yanaşmağı bacaran şəxsiyyətdir.

M.Araz "Əl dəydi, çaxmaq daşıyam" şeirində yazır:

Təklikdə çaylaq daşıyam, Məni qoymayın təklənəm! Əl dəydi, çaxmaq daşıyam! Məni qoymayın təklənəm!…

Əslində M.Araz təklikdən qorxmur. Onun hər bir şeiri tək-tənha olduğu çağların bəhrəsidir. M.Araz şeir, sənət adamının təkliyindən deyil, ümumiyyətlə, təkliyin faciəsindən yazır, tək qalıb yalquzağa dönməyin ağrısından danışır. Şeirdəki M.Arazdan fərqli olaraq həyatdakı Məmməd Arazın təklənməsinə yol verməmək isə hər bir oxucunun vətəndaşlıq borcudur. Bu mənada M.Araz haqqında yazmağı mən də özümə borc bildim və bu yazını vaxtilə "50 yaşıma ön söz" şeirini yazan böyük şair Məmməd Arazın 70 yaşına ön söz kimi ünvanladım.

"Xalq qəzeti"
29 noyabr 2003-cü il

ÇƏTİN VƏ ŞƏRƏFLİ YOLUN SALNAMƏSİ

Bütün dövrlərdə, bütün cəmiyyətlərdə müəllim adı hörmət və ehtiramla çəkilib. Çünki dövrlərin, cəmiyyətlərin həqiqi müəllimlərə həmişə ciddi ehtiyacı olub. Əslində, qlobal dövrdəyişmələr, sosial-siyasi yeniləşmələr də, elə cəmiyyət özü də məktəb-maarif sistemindən, məktəbin, müəllimin yetirdiyi, təqdim etdiyi nəsillərdən, onların kəmiyyət və keyfiyyət vəziyyətlərindən başlanır. Ona görə böyük ziyalılarımız, dahi elm və sənət adamlarımız məktəbə, maarifə, müqəddəs müəllim əməyinə daim yüksək qiymət verib, onu cəmiyyətin əsas mənəvi güc mənbəyi, hərəkətverici qüvvəsi adlandırıb. "Açılsın hər yerdə məktəb, mədrəsə, Balalar quş kimi versin səs-səsə" arzusu bütün dövrlərdə ədəbiyyatımızın, mədəniyyətimizin, bütövlükdə cəmiyyətimizin, ümummilli yaşantılarımızın əsas məramı, istəyi, əsas amalı, qayəsi olub. Həsən bəy Zərdabi və Mirzə Kazımbəylər, Mirzə Fətəli Axundzadə və Seyid Əzim Şirvanilər, Sabir və Səhhətlər, Mirzə Cəlil və Abdulla Şaiqlər, Hüseyn Cavid və Bəkir Çobanzadələr, Əzəl Dəmirçizadə və Muxtar Hüseynzadələr, Mir Cəlal və Mirzə Feyzullalar… onlarla, yüzlərlə, minlərlə başqa şəxsiyyətlərimiz bu müqəddəs yolda – milli məktəb və maarif yolunda qəlblərini şam kimi yandırıblar, qaranlıqlara aydınlıq, elm və əməl ziyası gətiriblər. Artıq neçə on ildir ki, "Azərbaycan müəllimi" qəzeti də o müqəddəs yolun yolçusu və davamçısıdır.

"Azərbaycan müəllimi" qəzeti həmişə mənim sevimli qəzetim olub. Ömrümün otuz ildən artıq bir dövrünü məktəbə, maarifə həsr edən, əslində, bu gün də rəsmi işlərimlə yanaşı müəllimlikdən ayrılmayan bir alim, müəllim

kimi deyə bilərəm ki, “Azərbaycan müəllimi” qəzeti müasir dövrümüzə qədər şərəfli, hünərli, özünəməxsus bir yol keçib, özünəməxsus, layiqli zirvələr fəth edib.

“Azərbaycan müəllimi” çətin və şərəfli yolun qəzetidir.

Bir qədər tarixi ekskursa ehtiyac hiss edirəm.

Artıq on birinci ildir ki, Azərbaycan azadlığını, dövlət müstəqilliyini yenidən bərpa edib, milli istiqlalına qovuşub. Xalqımızın tarixində, bu, çox mühüm, çox şərəfli, misilsiz bir hadisədir. Sosializm sistemindən kapitalizm sisteminə, bazar iqtisadiyyatına keçidin, xüsusilə, erməni faşizminin ədalətsiz, bədnam torpaq iddiaları, qanlı təcavüzü ilə başlayan Qarabağ müharibəsinin ağrılarını yaşayan xalqımız ilbəil həyatın, cəmiyyətin müxtəlif sahələrində yeni-yeni uğurlar qazanır, dahi dövlət xadimi, müdrik prezidentimiz Heydər Əliyevin uzaqgörən siyasəti, misilsiz, fenomenal rəhbərlik fəaliyyəti sayəsində azadlığın dönməz və əbədi yollarına çıxır. Bu baxımdan, istiqlalçı milli təfəkkürün kütləviləşməsi, gündəlik həyat normasına çevrilməsi, məktəb, maarif, təhsil şəbəkəsində layiqli yer tutması dövrün, zamanın tələbidir.

Sevindirici haldır ki, “Azərbaycan müəllimi” qəzeti əsasən bu istiqamətdə fəaliyyət göstərib, gənc nəslin həqiqi vətənpərvərlik, vətəndaşlıq tərbiyəsinə, milli istiqlalçı təfəkkürünə qovuşmasına böyük əmək sərf edib. Məncə, məktəblə, maariflə bağlı milli mətbuat tədrisin elmi-praktik metodologiyasından, sırf pedaqoji problemlərindən daha çox, məhz həmin məsələ ilə məşğul olmalıdır. Buna görə, “Azərbaycan müəllimi” qəzetinin ümumi istiqamətini, əsas strateji xəttini bəyənir və müdafiə edirəm. Əlbəttə, bu xətdən kənara çıxmalar, bəzən qəzetin boz, məddah məqalələr meydanına döndərilmə halları da olur; necə deyərlər iş olan yerdə nöqsan da olar; amma bütövlükdə “Azərbaycan müəllimi” qəzeti müasir milli mətbuatımızın panoram mənzərəsində öz sanbalı ilə görünür, diqqəti cəlb edir. Bunu

respublikamızın nüfuzlu pedaqoqları, müəllimləri, bütövlükdə elmi pedaqoji ictimaiyyəti də təsdiqləyə bilər.

Bu günlərdə eşitdim ki, "Azərbaycan müəllimi" qəzetinin səkkiz mininci sayı çapdan çıxır. Çox sevindim. Sevincimi qəzetin fədakar kollektivi ilə, respublikamızın ümumi elmi-pedaqoji ictimaiyyəti ilə bütövləşmək istədim.

Bu, milli mətbuat tariximizdə fərəhli bir hadisədir.

Bu, adicə 8000 qəzet sayı deyil, elm və məktəb, maarif və mədəniyyət mühitində yandırılan 8000 məşəldir.

Bu, səkkiz milyon Azərbaycan vətəndaşına, bütövlükdə əlli milyonluq dünya azərbaycanlılarına, bütün xalqımıza ünvanlanan ziyadır, ziyalı işığıdır.

Nəhayət, bu, hamımız üçün sevindirici, xoş xəbərdir. Və mən əminəm ki, "Azərbaycan müəllimi" qəzetinin səkkiz minlik sayının azərbaycanlı ürəklərinə ünvanladığı o əbədi məşəl işığı, o ziya, o ziyalı nuru mənzil başına çatıb, məqsədinə, məramına qovuşub. Şəxsən mən özüm on illər boyu bu qəzetin çoxsaylı nüsxələrini oxuyarkən bunun şahidi olmuşam. Şahidi olmuşam ki, "Azərbaycan müəllimi" qəzeti bizim qəzetdir, həqiqi məktəb, maarif, müəllim qəzetidir, sözün əsl mənasında ümumrespublika elmi-pedaqoji ictimaiyyətinin, bütöv xalqın qəzetidir.

Bütün bunlara görə doğma "Azərbaycan müəllimi" qəzetinin istedadlı, vətənpərvər, zəhmətkeş kollektivini, on illər boyu bu qəzetdə çalışanların, bu qəzetlə əməkdaşlıq edənlərin hamısını, eləcə də həmin mətbuat orqanının çoxmilyonlu oxucularını ürəkdən təbrik edirəm. Qəzetin yaradıcı kollektivinə milli maarifimizin, məktəbimizin dirçəlişi, tərəqqisi naminə daha böyük uğurlar arzulayıram. Arzu edirəm ki, "Azərbaycan müəllimi" qəzeti tarixi ənənələrinə sadiq qalaraq xalqımıza, azad, müstəqil dövlətimizə və dövlətçiliyimizə daha səmərəli, daha fədakar şəkildə xidmət göstərsin, müxalifət mətbuatının çox halda

qərəzli, bəzən hətta düşmən mövqedə dayandığı, hər şeyə, bütün uğurlarımıza qara yaxdığı bu dövrdə həqiqəti, haqqı daha qətiyyətlə müdafiə etsin, dahi dövlət xadimi, müdrik rəhbərimiz Heydər Əliyev ideyalarının təbliğində, təşviqində əsl fədakarlıq nümunəsi göstərsin, həqiqi milli mətbuat missiyası həyata keçirsin.

Səkkiz mininci sayın mübarək, doğma qəzet, sevimli Azərbaycan müəllimi"! Gün o gün olsun ki, səksən mininci sayının çap olunmasını bayram edək!

"Azərbaycan müəllimi" qəzeti,
29 noyabr 2002-ci il

KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ VƏ İNFORMASİYA MÜBADİLƏSİ

(Dünya azərbaycanlılarının I qurultayında çıxış)

Möhtərəm cənab Prezident!

Hörmətli qurultay iştirakçıları!

Əziz qonaqlar!

Dünəndən bəri sevinc dolu həyəcanlarını yaşadığımız bu iki gün dünya azərbaycanlılarının təşkilatlanması və xalqımızın mənəvi birliyinin təntənəsi yolunda mühüm bir mərhələ kimi tarixə çevrilir. Bu parlaq tarixi yaradan, bütövlükdə müstəqilliyimizin memarı və onun qarantı olan möhtərəm Heydər Əliyevin dünən qurultayda iştirakı və proqram xarakterli çıxışı Azərbaycan diasporu anlayışına yeni məzmun, yeni ictimai çalar gətirmiş oldu. Bu çıxışı dinləyən soydaşlarımız bir daha əmin oldular ki, onların güvənc yeri sayılan müstəqil Azərbaycanın sükanı arxasında müasir dünyanın siyasi liderləri içərisində zəngin dövlətçilik təcrübəsi, dərin zəkası, iti ağlı və möhkəm iradəsi ilə fərqlənən Heydər Əliyev kimi nəhəng bir şəxsiyyət dayanır.

Bu gün bizim ən böyük xoşbəxtliyimiz odur ki, siyasi çəkisinə görə müasir dünya siyasətçiləri arasında adı ön sırada çəkilən və çağdaş dünya siyasətinin müəyyənləşdirilməsində rolu etiraf olunan Heydər Əliyev məhz bizim xalqımızın yetişdirməsidir.

Heydər Əliyevin bu gün əsrlərin qovşağında, müstəqilliyimizin on illiyinin qeyd olunduğu bir vaxtda dünya azərbaycanlılarının bu möhtəşəm qurultayını keçirməsi də onun uzaqgörənliyinin bariz bir nümunəsidir. Dünən və bu gün bizim kütləvi informasiya vasitələri və informasiya

mübadiləsi bölməsinin iştirakçıları da məsələnin bu cəhətinə xüsusi diqqət yetirmişlər. Soydaşlarımız müstəqil Azərbaycanın beynəlxalq aləmdə layiqli mövqe qazanmasında, ölkəmizin iqtisadi qüdrətinin artırılmasında, sülh və sabitliyə əsaslanan vətəndaş cəmiyyətinin qurulmasında, dil quruculuğu və mədəniyyət sahəsində əldə edilən nailiyyətlərdə Prezident Heydər Əliyevin misilsiz rolunu xüsusi qeyd etmişlər.

Bütün dünya informasiyalı cəmiyyətə can atır və belə bir aforizm öz həyatiliyini təsdiq edir ki, indi informasiya çatmayan yer əyalətə çevrilir. Bu prosesdə fəal element olan kompüterləşmə tədricən insan həyatının bütün sahələrinə daxil olur. Bu gün kompüter təkcə servis sistemi deyil, həm də saysız-hesabsız dağınıq faktları toplayıb cəmləşdirmə və hamının istifadə edə biləcəyi vəziyyətə gətirmək imkanlarına malikdir. Bunun nəticəsidir ki, hər bir mütəxəssis 15-20 dəqiqə ərzində elmi publikasiyalardan ona lazım olan materialı əldə edə bilir. Gənc, müstəqil Azərbaycan dövləti də hazırda internet şəbəkəsində öz yerini tutur, müxtəlif saytlar açıb informasiyalar yayır. Yəni bu gün Azərbaycan müstəqil dövlət kimi özünün iqtisadi, siyasi, mədəni həyatında baş verən ən mühüm hadisələr, reallıqlar və nailiyyətlər barədə dünyanın əksər ölkələrinə lazımi məlumat çatdıra bilir və diaspor məlumatlarından geniş istifadə edir. İnternetin bu üstünlüyünü nəzərə alaraq Azərbaycanda çap olunan bir sıra qəzet və jurnallar gündəlik olaraq internetə çıxarılır. Bunu nəzərə alaraq, möhtərəm Prezidentimiz Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə bu il oktyabrın 1-dən Azərbaycan Dövlət Televiziyasının birinci proqramı 19 saat və Dövlət Radiosunun iki proqramı 36 saat, cəmi 52 saat həcmində internetlə bütün dünyaya yayımlanır. İndi bizim dünyanın bütün qitələrində tamaşaçılarımız və dinləyicilərimiz var.

İnformasiya mübadiləsi sahəsində biz ilk addımı da məhz uzaqgörən Prezidentimiz Heydər Əliyevin təşəbbüsü ilə 1996-cı ildə Türkiyənin dünyanın üçdə iki hissəsinə yayımlanan TQRT kanalında "Azərbaycan bu gün" bir saatlıq televiziya proqramı ilə açmışıq. Hər həftənin bazar günü efirə çıxan bu proqramda biz Azərbaycan haqqında həqiqətləri, Azərbaycanın bu günü, ölkə Prezidentinin titanik fəaliyyəti və Qarabağ problemi haqqında məlumatları bütün dünyaya yayırıq. İndi artıq Azərbaycan Televiziyası kabel televiziyası vasitəsi ilə Türkiyənin 90 faiz ərazisinə yayımlanır. Şübhəsiz ki, möhtərəm Prezidentimiz Heydər Əliyevin diasporumuzun inkişafına xüsusi diqqət yetirməsi onun xarici ölkələrə səfəri zamanı xüsusən Avropa və Amerikada diasporun formalaşdırılmasına göstərdiyi kömək informasiya mübadiləsi sahəsində qarşıya bir sıra vəzifələr qoymuşdur. Bu vəzifənin həlli həm bizdən, həm də xaricdəki soydaşlarımızın səylərindən çox asılıdır. Fərəhlə deyək ki, Azərbaycan diasporu bu istiqamətdə son illər nəzərə çarpacaq dərəcədə canlanıb. Hazırda dünyanın 12 ölkəsində Azərbaycan və oradakı xalqların dillərində televiziya və radio verilişləri yayımlanır. Qəzet və jurnallar nəşr edilir. 1999-cu ildə isə Azərbaycan Prezidenti Los-Anjeles şəhərində Azərbaycan televiziyasının açılması barədə sərəncam imzalayıb. Gün ərzində 7 saatlıq veriliş yayan bu kanalın açılması diasporumuzun tarixində böyük nailiyyətdir. Amerikada Azərbaycan televiziyasını açmaqda əsas məqsəd millətimizi dünyaya olduğu kimi, yəni yüksək səviyyədə tanıtmaqdır. İndi bu televiziya Azərbaycan musiqisini, mədəniyyətini təbliğ etməklə yanaşı, həm də respublikanın ictimai, iqtisadi və siyasi həyatı barədə məlumat verir, önəmli hadisələr barədə operativ informasiyalar yayır.

Amerika Birləşmiş Ştatlarında televiziyadan başqa Azərbaycan radiosu da yayımlanır. "Azərbaycan İnter-

neyşnl", "Azərbaycan Nyus Leta" və "Azərbaycan xəbərləri" adlı jurnallar dərc edilir. Almaniyada "Azad" adlanan telekanal və "Azərbaycan radiosu" işləyir. Eləcə də Kölndə "Azərbaycan", "Ana dili", "Ulus" qəzetləri çıxır. İsveçin Malmiya şəhərində Azərbaycan televiziyasının fəaliyyəti, həmçinin "Azərbaycanın səsi", Araz radiolarının verilişlərini xüsusi qeyd edə bilərik.

Bundan başqa Stokholm şəhərində "Səhəng" və "Durna" jurnallarının, Lund və Stokholm şəhərlərində "Tribuna", "Araz" və "Azərbaycan" qəzetlərinin nəşri dilimizin, mədəniyyətimizin və ölkəmiz haqqında həqiqətlərin yayılması sahəsində böyük işlər görür. Kanadanın Monreal şəhərində "Azər" televiziyasının açılması da diasporamızın diqqətəlayiq uğurlarındandır. Böyük Britaniyada, Fransada, Polşada, İspaniyada, İraqda, Rusiya və Ukraynada çıxan qəzet və jurnallar ölkələrimiz və xalqlarımız arasında əlaqələrin genişlənməsi sahəsində fəaliyyətini davam etdirir. İndi isə mən çıxışımın sonunda bölməmizdə aparılan müzakirələr nəticəsində irəli sürülən bəzi mühüm təklifləri nəzərinizə çatdırmaq istəyirəm.

Birincisi, Azərbaycanın internetdəki saytlarının sayının artırılması arzulanır.

İkincisi, xarici ölkələrdəki diasporu müntəzəm informasiya ilə təmin etmək üçün xüsusi analitik mərkəz yaradılması təklif olunur.

Üçüncüsü, qurultay iştirakçıları möhtərəm Prezidentimizdən Azərbaycan Dövlət Televiziyasının verilişlərinin bütün Avropaya maneəsiz yayımlanması üçün Avropa peyk sisteminə də qoşulmağa köməklik göstərilməsini xahiş edirlər.

Dördüncüsü, informasiya agentlikləri və aparıcı qəzetlərlə sabit əlaqə mexanizmi yaradılmasını təklif edirlər.

Beşincisi, Gürcüstandakı soydaşlarımız bu ölkədə

Azərbaycan dilində çıxan eyni adlı qəzetin və gürcü radiosunun Azərbaycan dilində verilişlərinin bu ölkə ərazisində geniş yayımlanmasına köməklik göstərilməsini xahiş edirlər.

Altıncısı, Azərbaycanın televiziyası ilə Avropa ölkələrindəki diaspor televiziyaları arasında veriliş və informasiya mübadiləsinin genişləndirilməsi arzu olunur.

Yekun olaraq deyim ki, çıxış edənlərdən hər biri Azərbaycan Prezidenti Heydər Əliyevi müasir dünya proseslərinə təsir edə bilən dahi siyasətçi kimi qiymətləndirdilər, Heydər Əliyev adının hər birinin qəlbində fərəh və qürur hissi doğurduğunu bildirdilər, Azərbaycan xalqının gələcəyi naminə möhtərəm Prezidentimizə cansağlığı və uzun ömür arzuladılar. Sağ olun.

"Dünya azərbaycanlılarının I qurultayı"
(9-10 noyabr 2001-ci il). Bakı,
"Azərbaycan" nəşriyyatı, 2002, səh. 116-120

AZTV – MİLLİ SİMASI OLAN BİR TELEVİZİYADIR

– Nizami müəllim, bu vəzifədə keçmiş iqtidarla işləyərdinizmi?

– Heç zaman əvvəlki iqtidarın fəaliyyətini, onların yeritdiyi siyasi xətti bəyənməmişəm və bu səbəbdən də qətiyyən razılıq verməzdim. Özümü Heydər Əliyevin şagirdi hesab etdiyimdən ancaq onun siyasi xəttinə qulluq edə bilərəm.

– 1997-ci ildə açılan yeni verilişlərdən hansı daha yaddaqalan oldu?

– İşlədiyim dövrdən bəri həmişə yeni verilişlər açılıb və televiziya ilə bunları göstərmişik. Yönümü müxtəlif istiqamətdə olan siyasi məsələlər, türkçülük, turançılıq, musiqi və əyləncə xarakterli verilişlərdən "Vətəndaş", "İşıq", "İbrət", "Turan" və "Türk elləri" daha çox tamaşaçı auditoriyası toplayaraq diqqəti cəlb etdi. Hətta uzun müddət davam edən verilişlərdən "Gəlin birlikdə gülək", "Eşitdiklərimiz, bildiklərimiz və gördüklərimiz" verilişləri də öz aktuallığını itirmədi. Ötən il ərzində ictimai-siyasi mövzuda hazırlanmış verilişlərdən "Qanlı yanvar"ı, iyun hadisələri ilə bağlı açılan müzakirələri, "Qarayara", "Xəyanət" verilişlərini də misal çəkmək olar.

– Çox incə sayılan kadr siyasəti necə qurulub?

– Kim işin öhdəsindən gəlir, bacarıqlıdır, məhsul verə bilir, yaradıcı adamdır, onlarla əvvəl də işləmişik, indi də işləyirik, gələcəkdə də işləyəcəyik. O adam ki, köhnə düşüncələrdən, stereotiplərdən ayrıla bilmir, verilişləri də köhnədir, öz üzərində çalışa bilmir və təbii ki, beləsi ya uzaqlaşır, ya da ərizəsini verib gedir. Ancaq belə hallar

kütləvi hal deyil. Ümumiyyətlə, şirkətə yeni işçilər də qəbul edilir. Qələmi, yaradıcılığı olan, uzun müddət qəzet sahəsində fəaliyyət göstərən jurnalistləri də işə dəvət edirik.

– Müxalifət qəzetləri gileylənir ki, onların liderləri televiziyada az-az görünür.

– Biz onlara danışmaq üçün həmişə imkan yaratmışıq. Və bu gün də onları dəvət edirik ki, öz fikir, mülahizələrini söyləsinlər. Hətta Əbülfəz Elçibəy Kələkidən qayıdandan sonra televiziyada çıxış etdi. AMİP-in sədri Etibar Məmmədova da belə şərait yaradıldı. Qarşıdan gələn qanlı 20 yanvarla bağlı müxalifət nümayəndələrinə, partiya rəhbərlərinə xəbər göndərmişik ki, gəlib danışsınlar. Onlardan bəziləri deyir ki, bu təklifi gərək idarə heyətində müzakirə edək. Bəzisi də deyir ki, gərək Divan icazə versin. İndi demokratiyadır, gəlməsələr də elan edəcəyik ki, özləri istəmir.

– Yəqin prezident seçkiləri ərəfəsində də bu ənənə davanı etdiriləcək.

– Təbii ki, hər bir namizəd üçün xüsusi efir vaxtı ayrılacaq.

– Qəzetlər bəzən sizin şirkət haqda tənqidi yazılar dərc edir.

– Belə yazılara cavab vermək fikrində olmamışıq, çünki qəzetə qəzet cavab verər. Bununla yanaşı, hesab edirəm ki, beş milyon tamaşaçının da beş milyon fikri ola bilər.

– Digər özəl şirkətlərlə əlaqələriniz necə qurulub?

– Onlar bizdən istənilən vaxt məsləhət ala bilərlər. Çünki AzTV-nin texniki imkanları çox böyükdür. Bəzən müəyyən çəkilişlərə görə avadanlıqdan istifadə etmək üçün müraciətlər edirlər. İmkan daxilində hamıya kömək etməyə hazırıq. Əgər bizə də nə isə lazım gələrsə, onlarla əlaqələrimiz çox normaldır.

– Teleşirkətin girişi müasir dəbdə təmir edilib. Hətta

bura gələndə görürük ki, dəhliz və otaqlarda da təmir işləri aparılıb…

– Əvvəllər giriş qapısındakı pis vəziyyətdən adam utanırdı. Çünki televiziyaya respublikamızın hər yerindən tez-tez hörmətli adamlar, xarici qonaqlar gəlirdi. Və istər-istəməz şirkətin bu halına acıyırdılar. İndi əlimizdə olan imkanlardan istifadə edərək giriş qapısını, bəzi otaqları, studiyaları zövqlə təmir etdik. Və sonra bu, işçilərimizin əhval-ruhiyyəsini də yüksəltdi. İndi onların özləri sanitariya qaydalarına, təmizliyə riayət edir. Çünki söhbət təkcə tikmək deyil, onu həm də saxlamaqdır.

– Sizə doğma olan Pedaqoji Universitet üçün darıxırsınızmı?

– Təbii ki, otuz illik həyatım o universitetlə bağlı olub. İndi buraya da, bu kollektivə də yavaş-yavaş alışıram. Ora da mənim üçün doğmadır, bura da.

– Tələbələriniz, tanışlarınız sizin qayğıkeş, səmimi bir müəllim, yoldaş olmağınızdan söhbət açır. Bu, yəqin ki, ailə tərbiyəsindən irəli gəlib…

– Bəli, mən müəllim ailəsində dünyaya gəlmişəm. İstər tələbələrimlə, istərsə də müəllim yoldaşlarımla həmişə mehriban ünsiyyətdə olmuşam. Öz bilik-bacarığımı tələbələrimdən əsirgəməmişəm. Söhbət zamanı çalışmışam ki, səmimi olum. Məncə, bunun başqa sirri yoxdur.

– MDB teleşirkətləri ilə ünsiyyətdə olursunuzmu?

– Bəli. Xüsusilə Orta Asiya, Gürcüstan, Dağıstan şirkətləri ilə sıx əlaqə saxlayırıq. Bəziləri ilə də kaset mübadiləsi aparırıq. Daha çox sıx əməkdaşlığımız isə Türkiyənin kanalları ilədir.

– Tehran televizyası ilə danışıqlarınızın sonu nə ilə nəticələndi?

– Söhbətlər dayanmayıb, yenə davam edir. Biz təkliflərimizi vermişik ki, Tehranda AzTV-nin

nümayəndəliyi açılsın və bizim verilişlər orada yayımlansın. Əgər razılığa gəlinərsə, birgə əməkdaşlıq etməyə hazırıq.

– Ekranda göstərilən teleserialların kasetini haradan alırsınız?

– Bunları əsasən qanun çərçivəsində qeydiyyatdan keçirib lisenziya ilə "Mosfilm"dən alırıq.

– "Avrasiya"ya sözünuz.

– Qəzetinizi ilk nömrəsindən diqqətlə oxuyanlardan biriyəm. Onun üslubu da, yazı manerası da çox xoşuma gəlir. Xüsusilə, türk dilinin, turançılığın təbliği mənim ürəyimcədir. Ümumiyyətlə, "Avrasiya" respublikamızda və onun kənarlarında da oxunaqlı, öz auditoriyası olan bir qəzetdir. Və işlərində ona müvəffəqiyyətlər arzulayıram.

Müsahibəni apardı:
Babək Göyüş
"Avrasiya" qəzeti,
18 yanvar 1998-ci il

YALNIZ BİZİM TELEKANAL AİLƏLİKLƏ ARXAYIN BAXMAĞA İMKAN YARADIR

XX əsrin yetirməsi olan televiziya XXI əsrdə də öz efir liderliyini qoruyub saxlayır. Mübaliğəsiz demək olar ki, televiziya istər informasiya, intellekt, musiqi, istərsə də etik, estetik dəyərlər daşıyıcısı kimi yarım əsrdir sənət hakimiyyətinin olimpindədir. Özəl teleradio şirkətlərinin yaranması bu sahədə rəqabəti artırmaqla yeni sənət axtarışlarına da təkan verir. Lakin respublika teleməkanında bu proseslər problemsiz də ötüşmür. Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətinin sədri, professor Nizami Xudiyevlə əməkdaşımızın söhbəti də müstəqillik və sürətli inkişaf fonunda televiziyanın əvəzsiz keyfiyyətləri, imkanları, bu hüdudsuz güc və imkanlardan optimal istifadə yolları ətrafında olmuşdur.

– Nizami müəllim, 1988-ci ildən etibarən yeni tarixi-siyasi mərhələyə qədəm qoyan ölkəmizdə televiziyanın ictimai rolu dəfələrlə artmış, o, cəmiyyətimizdə gedən proseslərin avanqard ruporuna, çox vaxt isə istiqamətverici vasitəsinə çevrilmişdir. Birmənalı demək olar ki, bu gün televiziya hüdudsuz ictimai təsir qüvvəsinə malik olan subyektdir. Azərbaycan tamaşaçısının ölkə teleməkanında seçim etmək imkanlarının yarandığı indiki dövrdə telekanalların malik olduğu yaradıcı potensial həm də həmin şirkətin uğurunu səciyyələndirən amildir. Bu baxımdan milli televiziyamız tələb edilən meyarlara cavab verirmi və ümumiyyətlə, AzTV keyfiyyət faktoruna nə dərəcədə əsaslanır?

– Sualın özündə bu sahədə işin məsuliyyəti ifadə olunur. Ötən əsrin sonu xalqımız üçün böyük sınaqlar mərhələsi kimi yadda qaldı. Televiziya da bu sınaqların bir növ yaddaşına çevrildi. Hələ o vaxt efir məkanında yeganə olan AzTV ictimai-

siyasi mühitdəki bütün çətinlik və məsuliyyəti təkbaşına çəkməli oldu. Sovet ideoloji buxovlarından azad olmamış ölkədə xalqa, heç olmasa, həqiqəti hiss etdirmək üçün o dövrdə də yüksək peşəkarlığı ilə seçilən televiziya işçiləri var idi. Sevinirəm ki, indi onların bir çoxu doğma kollektivdə çalışır. Azərbaycana hərbi müdaxilənin, 20 Yanvar faciəsinin, Xocalı soyqırımı qurbanları, Qarakənd səmasında vurulan təyyarədə, ümumiyyətlə, müstəqillik uğrunda başlanan mübarizələrin ön sırasında gedənlərin içərisində AzTV əməkdaşlarının qəhrəmancasına iştirakı qürur hissi doğurur. Sonrakı mərhələlərdə dövlətin siyasi-hərbi strategiyasının, daxili, xarici siyasətinin təbliği işində milli televiziyanın ardıcıl, sistemli fəaliyyəti ekstremal şəraitdə ən düzgün iş üslubu kimi təqdirəlayiqdir.

Müstəqilliyimizin ilk illərində dövlət idarəçiliyində yaranmış boşluqlar onun aparıcı strukturlarından olan televiziyadan da yan ötüşməmişdir. Ölkə rəhbərliyindəki sürətli dəyişmələr o dövrün televiziyasında stabil fəaliyyət xətti müəyyənləşdirməyə imkan vermədi. Lakin 1993-cü ildə möhtərəm prezidentimiz Heydər Əliyevin hakimiyyətə yeni qayıdışı taleyüklü bu strateji xidmət sahəsinə yeni məzmun, özünüifadə imkanları qazandırdı, onu həqiqi mənada Milli Teleradio Verilişləri Şirkətinə çevirmiş oldu.

Ölkə rəhbərinin hərbi-siyasi kursunu gündəlik fəaliyyət proqramına çevirən AzTV ilk növbədə ordu quruculuğu sahəsində gedən davamlı işi günün ritminə uyğun qurmaq üçün hərbi proqramlar redaksiyasını, demək olar ki, yenidən təşkil etdi. Xalqın milli ordusu onun müstəqillik rəmzidir. Bu ordunun gücü, qüvvəti barədə insanlarda inam yaratmaq isə elə ordunun görəcəyi işə bərabərdir. Ötən əsrin 90-cı illərinin ortalarından atəşkəsin əldə olunması, fəal ordu quruculuğu prosesinin başlanması bu sahədə ciddi dönüşlər vəd edirdi. Son 10-12 ildə yaranmış hərbi vətənpərvərlik istiqamətli verilişlərin təhlili

göstərir ki, burada kütləvilikdən, xaosdan sistemə, populist təqdimatdan dövlətçilik marağına meyil güclənir. Hər şeydən əvvəl, onu deyim ki, radio və televiziyanın birləşmiş "Hərbi proqramlar" redaksiyası dövlətin bu sahədəki ali qurumu olan Müdafiə Nazirliyi ilə sıx əməkdaşlıq şəraitində öz işini qurur. Həm hərb tariximizin şərəfli salnaməsindən, həm də ordu quruculuğunun bu günündən bəhs edən verilişlərdəki nizamlanmış təbliğat öz əməli səmərəsini verir. "Türk hərb tarixindən", "Qəhrəmanlıq tariximizdən", "Xanlıqlar dövrünün hərbi tarixi", "Aypara", "Azərbaycan ordusu", "Səngər", "El bir olsa", "Sən mənə oğul de" kimi silsilə verilişlər hərbi vətənpərvərlik istiqamətində dəyərli iş görür. Bu mövzunun televiziyada işıqlandırılmasının başqa sınanmış formaları kimi hərbi publisistik verilişlərin, sənədli və bədii televiziya filmlərinin əhəmiyyəti əvəzsizdir. AzTV-nin zəngin hərbi materiallar arxivi əsasında belə təsirli filmlər ardıcıl olaraq hazırlanıb nümayiş etdirilir. "Səngərdə", "Azadlıq ordusu", "Əsrin faciəsi – Xocalı", "Qan yaddaşı" və s. belə nümunələrdəndir.

– Televiziya-ordu münasibətlərindən söhbət düşmüşkən, bu gün çağırışçının hərbi xidmətə könüllü yollanmasında, heç şübhəsiz, televiziyanın ordu quruculuğu sahəsində təbliğatının da böyük rolu var. Gənclərin hərbi xidmətə münasibəti son vaxtlar köklü şəkildə dəyişib. Maraqlıdır, milli televiziya gənclərlə bağlı yaradıcı siyasətini necə qurub?

– Gənc nəsli vətənpərvərlik ruhunda, dövlətə, dövlətçiliyə sədaqətli yetişdirmək işində televiziyanın da üzərinə böyük vəzifə düşür. Sirr deyil ki, dünyanın hər yerində gəncləşmə meyili güclənir. Bu XXI əsrin düşüncə və təfəkkürlərdəki sürət, yeniləşmə tələblərindən irəli gəlir. Zamanın nəbzi ilə yaşayan və çalışan gənclərin ruhuna və düşüncə tərzinə uyğun efir materialı hazırlamaq, bu sahədə

onların suallarını cavablandırmaq böyük intellekt, müasirlik tələb edir. Əvvəllər müstəqil fəaliyyət göstərən "Gənclik" və "İdman" redaksiyalarının birləşdirilməsi də bu oxşar sahələr arasında düzgün koordinasiya aparmaq, maraqlı nəticələr əldə etmək istəyindən yarandı. Hər günü axtarış və eksperimentlərlə yadda qalan redaksiya mütləq həqiqətlərə doğru inamlı hərəkətdədir. Xüsusən, idman sahəsində son illərin uğurlarını, respublikadakı olimpiya hərəkatının, ölkə xaricində gənc atletlərimizin zəfər soraqlarının kütlələrə çatdırması işində redaksiya əməkdaşları son dərəcə səmərəli fəaliyyət göstərirlər. TV janrlarının ən müxtəlif növlərində hazırlanan bu proqramlar sabah ölkənin müdafiəsinə yollanacaq gəncliyin gücünü və qüvvətini bütün reallığı ilə nümayiş etdirə bilir. Gəncliyin müxtəlif maraq dünyasına həsr olunmuş "Ailələr və talelər", "Moda, moda", "Telerinq" kimi proqramları da orijinal düşüncə tərzi ilə seçilir.

– Gəncliyin öz arzu-düşüncələrini, istedad və qabiliyyətini bölüşməsi üçün ən geniş efir məkanı bəlkə də "Səhər" proqramıdır….

– "Səhər" əslində musiqi, informasiya proqramıdır. Bu günlərdə 8 yaşını qeyd edən bu canlı teleyayım forması, təbii olaraq gənc istedadların üzə çıxarılmasına da geniş yer ayırır. Son vaxtlar həcmi 2 saatdan 3 saata çatdırılan "Səhər" həm informasiyanın, həm də maraqlı mövzuların orijinal təqdimatında özünəməxsus üslubu ilə seçilir. Yayım boyu interaktiv formadan istifadə ekranla tamaşaçı arasında davamlı ünsiyyətin və ortaq mövzuların tapılmasına şərait yaradır. "Səhər"in tibb, hüquq məsləhətxanaları ən çox tamaşaçı marağı ilə seçilir. Bu sahədə "Səhər" həm də geniş maarifçilik işi görür.

– Son illər digər kanallarda olduğu kimi, milli televiziyamızda da bədii filmlərin nümayişinin sayı artıb. Düzdür, digər kanallarda demək olar ki, filmlər efir həcminin böyük hissəsini təşkil edir. AzTV tamaşaçının bu

tələbatında kəmiyyətlə keyfiyyəti uzlaşdıra bilirmi?

– Kino bədii lentin ən kamil nümunəsidir. Yüksək texnika və texnologiya, zəngin və məşhur aktyor ansamblının iştirakı ilə seçmə ssenariyə, ritmik məkan, povilion dəyişmələrinə əsasən hazırlanan kino təbii ki, kütləvi maraq doğuracaq. Bu günün kino fabriklərinin istehsalı mövzu, məzmun baxımından həmişə uğurlu olmasa da, ritm və peşəkarlıq öz qüvvəsində qalır. Dünya kinomotoqrafiyasının ən maraqlı filmlərinin alınıb istifadəsi, belə filmlərin anonsu, təbliği ilə "Kinoproqram" redaksiyası intensiv şəkildə məşğul olur. Retro filmlərinin böyük ideyaları ətrafında kinoşünasların icmalını da tamaşaçılar böyük maraqla qarşılayırlar. Azərbaycan kinosunun yaradıcıları "Kinoklubda görüş" proqramı ilə ən son nailiyyətləri barədə məlumat verirlər. "Kino tariximizdən" proqramının əməkdaşları isə kino salnaməmizin ən maraqlı nümunələrini tamaşaçıya təqdim etmək sahəsində həqiqi mənada fədakarlıq göstərirlər. "Kinotəqvim", "Kinobələdçi", "Kinorevyu", "Kinoalmanax" və s. verilişləri də geniş tamaşaçı auditoriyası qazanıb.

– Kino materialından söz düşmüşkən, bu işdə dublyajın da əhəmiyyətini qeyd etmək lazım gəlir. Ədalət xatirinə deyək ki, prezidentin milli dil haqqında məlum fərmanından sonra bütövlükdə milli yayıma yalnız AzTV keçdi. Özəl televiziyalarda qoşadillilik nəinki filmlərdə, hətta gündəlik proqramlarda da saxlanılmaqdadır. Ancaq şübhəsiz ki, milli televiziyamızın bu sahədəki uğurları ilə kifayətlənmək də olmaz.

– Fikrinizlə tam razıyam. Müstəqilliyimizin əsas göstəricilərindən olan milli dilin dövlət səviyyəsində işləkliyini təmin etmək mətbuatın, RTV-nin əsas vəzifələrindəndir. Bu ehtiyacın tam həllini ödəmək üçün hələ 2000-ci ildən daxili imkanlar hesabına Dublyaj redaksiyası yaratdıq. Böyük çətinliklər olsa da prezident sərəncamına kimi sürən iki il ərzində zəngin film fondu yarada bildik. Səhlənkarlıq və

baxımsızlıq dövründə (1988-1993) "Azərbaycanfilm"in dağıdılıb talan edilmiş fondunun da xeyli hissəsini əldə edib gündəlik efir axınına yönəldə bildik. İndi hər cümə axşamı Azərbaycan filmi, bazar ertəsi şərq kinosu, qalan günlər isə dublyaj filmləri nümayiş etdirilir. Ayda 55-60 saatlıq film dublyaj edən redaksiyanın fondunda artıq 800-1000 film efirə hazır vəziyyətdədir. Təkcə sayda deyil, sanbalda da AzTV-nin dublyaj filmləri birincidir. Ənənəyə sədaqətli ən peşəkar aktyorlar məhz bizim film seçimimizə üstünlük verir, öz dublyaj məharətlərini burada sınamaq istəyirlər.

Milli dilin inkişafına qayğı təkcə dublyaj filmləri vasitəsilə həyata keçirilə bilməz. Azərbaycan dili haqqında proqramların intensivliyi və professionallığı da bu işdə böyük rol oynayır. Efir dilinin aydınlığı, nitqin gözəlliyi və ədəbi dil normalarına uyğunluğu yarandığı gündən AzTV-nin böyük qayğı və diqqətlə qoruyub saxladığı keyfiyyətlərdəndir. Təsadüfi deyil ki, ən bədxah opponentlərimiz də efir nitqinin normativliyindən söz açanda AzTV-nin haqqını dana bilmirlər. Azərbaycan Televiziyası və Radiosu təkcə müstəqil respublikamızda deyil, Dərbənddə, Borçalıda, Cənubi Azərbaycanda, dünya azərbaycanlılarının yaşadıqları saysız-hesabsız ölkələrdə maarif ocağına, ana dili məktəbinə çevrilib. Bu məsuliyyəti və borcu hər bir proqram müəllifi hiss edir, özünün şərəf işi sayır.

– Nizami müəllim, müstəqillik illəri həm də özəl teleradio şirkətlərinin yaranması ilə əlamətdar oldu. Bugünkü efir məkanında say artımı nəticəsində yaranan yeniliklər hansı tendensiyaları ilə özünü büruzə verir və rəqabət şəraitində AzTV hansı nailiyyətləri ilə fərqlənir?

– Özəl teleradio şirkətlərinin yaranması sənət rəqabəti vasitəsi kimi əvəzsizdir. Təklik (bu elmdə, incəsənətdə də belədir) arxayınçılıq, passivlik yaradır, inkişafa, axtarışlara buxov olur. Bu gün təkcə Azərbaycanda deyil, dünyada özəl

teleradio şirkətləri şəbəkəsi genişlənir, ictimai kanalların yaranması prosesi davam edir. Dövlət teleradiosu ilə paralel fəaliyyətdə qarşılıqlı faydalanma və sağlam rəqabət, təbii ki, cəmiyyətin xeyrinədir. Yeni telekanalların yaranması tamaşaçı zövqünün formalaşmasına, seçiminin zənginləşməsinə, Azərbaycan həqiqətlərini dünyaya alternativ vasitələrlə çatdırılmasına xidmət edir. Bu sahədə uğurlu nəticələr də az deyil. Xüsusən, informasiya mübadiləsi, birgə canlı yayımlar həm dövlət, həm də özəl televiziyaların işinin koordinasiyasında əməli nəticələrini verir. Əzəli-əbədi qanunlardan bəllidir ki, təsir köhnədən, var olandan yeniyə keçir və bu faydalanma yeni düşüncə, forma axtarışları ilə zənginləşəndə özünütəsdiq, inkişaf başlayır. Bizim teleradio məkanında bu münasibətlərdən danışarkən təbii olaraq ehtiyatlanmaq lazım gəlir. Deməzdim özəl şirkətlərin hamısında, lakin bir çoxunda özünütəsdiqi özündən əvvəlkinin inkarı ilə həyata keçirmək meyili güclüdür. Bu, təkcə onların efir materialına münasibətlərində deyil, açıq söhbət, replika və reklam çarxlarında da özünü büruzə verir. Əsasən AzTV-nin yaradıcı bazasından bu və ya digər səbəblər üzündən qopub ayrılmış potensial əsasında formalaşan özəl televiziyaların bəzilərində yeniliyi millimənəvi dəyərlərə biganəlik, yabançı əxlaqa kütləvi, seçimsiz meyil, dilə, etnik yaddaşa sayğısızlıq, kosmopolit münasibətin efirdə geniş yer alması kimi baxırlar. Bəzən populyarlığa son dərəcə meyilli olan kəslərin əlinə keçən bu efir imkanı fərdi maraqların ictimai maraqları üstələməsi ilə müşahidə olunur. Bu da kiçik "fiqurların" həddən artıq təbliği, ictimai məzmundan, milli mövqedən uzaq mövzuların kütləviləşməsinə gətirib çıxarır. Düzdür, çoxları bunu kommersiya maraqları ilə izah etməyə çalışırlar. Amma bu maraqlar kiçik faiz təşkil etməlidir. Əslində belə deyil: efir kütləvi şəkildə fərdi marağın inhisarına verilir, xalqın əxlaq və mədəniyyətinə yabançı filmlərin, klip və ifaçıların meydanına çevrilir. Bu, təkcə bir

fərdin marağı çevrəsində qalsaydı, ötüşmək, əhəmiyyət verməmək olardı. Məsələ cəmiyyətin, xüsusən gələcəyimiz olan gəncliyin zövqünün korlanmasından gedirsə, buna biganə qalmaq olmaz. Yeni nəsildə elmə, mədəniyyətə maraq, vətənə, onun milli-mənəvi dəyərlərinə sevgi hissi oyatmaq əvəzinə, süni populyarlıq qazanmaq son vaxtlar dəbə çevrilib. Ölkə teleməkanına yabançı mədəniyyət transformasiyası yeniyetmə və gənclərin ilkin maraq ünvanına çevrilir, nəticədə onlar bu yad çevrədən ayrıla bilmirlər. Bu süni mədəniyyət eksportu konkret emissarlar tərəfindən strateji məqsəd daşıyırsa, bəzi özəl telekanallar bu işin qeyri-ciddi muzdlusuna çevrilirlər.

Qəribədir ki, belə eybəcərliklərə "hüquqi status" qazandırmaq üçün maraqlı tərəf adekvat tədbirlərdən – milli mədəniyyəti təbliğ edən və qoruyan teleradio, media ünvanlarına qarşı açıq təbliğatdan istifadə edir. Guya ənənəvi televiziya (AzTV) mühafizəkar mövqe tutur, yeni nəslin düşüncəsinin formasını tapa bilmir və s. Bu işin əsl mahiyyətindən o qədər də xəbərdar olmayanlar ilk anda həmin təbliğata aldana bilərlər. Çünki yalan şirin olur. Gəncliyə yalan satan bəzi özəl televiziyalar da müvəqqəti sevgi ünvanına çevrilirlər. Lakin sabun köpüyünə bənzər yalan partlayanda məzmun yoxluğu bu sevgini də heçə endirir. Göründüyü kimi, belə telequrumlarla sağlam rəqabətdən, efir yarışından söhbət gedə bilməz. AzTV belə hallara dövlətçilik, milli maraqlar dünyasını qorumaq sahəsində sistemli iş ilə cavab verir. Amma təəssüf doğuran haldır ki, cəmiyyətdə bu anormal prosesə seyrçi mövqedən yanaşanlar da çoxdur. İnsanlarda yaxşıya, pisə münasibət fəallığını formalaşdırmaq gənc nəslin düzgün tərbiyəsindən, əxlaqından ötrü məsuliyyət hissini artırmaq daha real nəticə verə bilər.

– KİV sahəsində qazanılan böyük nailiyyətlərə, geniş miqyaslı inkişafa baxmayaraq, mediada, televiziya məkanında sistemsizliyin davamlı şəkildə artdığı müşahidə olu-

nur. Özü də bu problem televiziyanın bütün istiqamətlərində – siyasətdən mədəniyyətədək olan mövzularda əks olunub. Qeyd edilən problemin AzTV-də mövcudluğunu qəbul edirsinizmi? Və ümumiyyətlə, bu vəziyyətdən çıxış yolu nədədir?

– İctimai şüuru formalaşdırmaq, mənəviyyatda yeni keyfiyyətlər bərqərar etmək davamlı fəaliyyətin nəticəsində mümkün olur. Bu sahədə görülən işə də pessimist münasibət bəsləmək hələ tezdir. Nəzərə almaq lazımdır ki, mətbuatla, KİV-lə bağlı son illərin qərar və sərəncamları demokratik dünyaya inteqrasiya üçün geniş imkanlar açır. Senzuranın ləğvi, KİV-in dövlət inhisarından ayrılması, bu sahədəki təşkilatı və yaradıcılıq mühitinin sadələşdirilməsi yeni münasibətlər formalaşdırsa da, kütlə tərəfindən birmənalı qarşılanmır. Belə ki, dünən dövlət əleyhinə susan mətbuat bu gün hər cür hədyan yazmağı qanuni hesab edir. Belə bir taleyüklü məqamda yeni ayaq tutan müstəqil ölkənin dövlət siyasətini, cəmiyyətin müxtəlif təbəqələri arasında yayıb təbliğ edən müharibədən qələbə ilə çıxacağımıza, qaçqın və köçkünlərimizin öz yurdlarına qayıdacaqlarına inam yaradan, ölkə daxilindəki separatçı qüvvələrin müxtəlif zaman kəsiyindəki xəyanətkar mövqeyini ifşa edən, milli, dini zəmində yaradılan gərginlik ocaqlarını söndürən strateji dövlət təbliğat sistemi kimi televiziya əvəzsiz vasitədir. 1993-cü ildən vahid dövlət siyasətinin ən müxtəlif teleformalarda təbliği işində ardıcıllığı ilə seçilən "İctimai-siyasi proqramlar" redaksiyası ötən 10-11 ildə yüz illərin gərginliyini yaşamış, müstəqil ölkəmizin mürəkkəb, siyasi, iqtisadi, sosial taleyini mərhələlər üzrə təhlil edərək "Qanlı yanvar", "Qara yara", "Xəyanət", "Qəsd" və s. silsilə verilişlərlə hadisələrin siyasi, hüquqi, sosial-mənəvi mahiyyətini üzə çıxarmağa çalışmışdır. İllər ötdükcə siyasi sabitliyini bir çox beynəlxalq qurumlara üzv olmaqla möhkəmləndirən dövlətimizdə demokratik dəyərlərdən sui-

istifadə edib təxribatlar, münaqişələr yaratmaq istəyən yalançı insan haqları müdafiəçilərinin "saman altından su yeridən" siyasəti məhz bu proqramların reallıq aynasında ifşa olunur. Müxalifət mətbuatının qeyri-konstruktiv, qərəzli mövqeyi "düşmən dəyirmanına su tökən" siyasəti də əlavə qayğılar yaratdığı şəraitdə Dövlət Televiziyasının həyati əhəmiyyəti daha da artmış olur. Təəssüf ki, demokratik dövlətimizin sahə təsisatları bu işlərin tənzimlənməsinə xidmət edən Milli Mətbuat Şurası, Milli Teleradio Şurası da hələ dəqiq mexanizm işləyib hazırlaya bilmir. Amma belə qurumların yaradılması gələcəkdə işin sistemli həllinə ümid yaradır. Bütün bu işlərin bir hüquqi tərəfi var, bir də əxlaqi-mənəvi tərəfi. Hüquq pozuntuları baş alıb gedir və buna görə inzibati cəza alanlar gündən-günə çoxalır. Lakin inzibati tənbehlə cəmiyyətin tam düzələcəyinə inanmayan bir şəxs kimi deyim ki, efirdə əxlaqi-mənəvi körpüləri uçuranların "cəsarət və sənətkarlığına" qəti yol vermək olmaz. Çıxış yolundan söhbət gedirsə, adekvat tədbir kimi yenə də şəxsi nümunəyə üstünlük verməyi düzgün hesab edirəm. Bayağı teleşouların, məhəlli, primitiv düşüncə daşıyıcılarının efir yolunu kəsmək üçün bu işə yüksək zövqlü, savadlı, dünyagörmüş, təkcə milli maraqlar baxımından deyil, həm də faktı, hadisəni ümumbəşəri dəyərlər səviyyəsindən təhlil etməyi bacaran mütəxəssislərin, zıyalıların ekspert mövqeyindən istifadə etmək lazımdır. Kommersiya yarışlarına qoşulub əsassız fikir yaymalarına baxmayaraq, yenə də bu teleməkanda nümunə olacaq efir vasitəsi Azərbaycan Dövlət Televiziyasıdır. Üç klassik funksiyanı – informasiya, maarifçilik və əyləncə vəzifəsini müasir mərhələdə şərəflə yerinə yetirən bu televiziya yeniləşən cəmiyyətin dərk olunmasında, iqtisadi, sosial münasibətlərin təhlilində tamaşaçıya yardımçı olur, ən maraqlı və yeni informasiyanın auditoriyaya çatdırılmasında birinciliyi əldən vermir. Böyük peşəkarlar ordusunun fəaliyyət sahəsi olan AzTV gündəlik işində aşağıdakı əsas istiqamətləri

diqqətdə saxlamağa çalışır: 1. Dövlət müstəqilliyi və onun qorunması; 2. Türkçülük-azərbaycançılıq; 3. Ədəbi-mədəni irsin qorunması və təbliği; 4. Dünyaya inteqrasiyada milli dəyərlərdən istifadə formaları.

Hər bir efir vasitəsinin ana xəttini təşkil edən dövlət, dövlətçilik istiqaməti müstəvisində xalqın bütün yaşam tərzi, gündəlik maraq və arzularını əks etdirən televiziya ictimai maraqlılığını qoruyanda daha böyük iş görmüş olur. Televiziyaya adi əyləncə vasitəsi kimi baxanlarsa onun sənədliliyini, əyaniliyini, konkret faktlara, hadisələrə təsir imkanlarını unudur, foto, kino, konsert, videoyazı ilə qarışdırırlar. Əslində televiziya öz mənəvi sələfi kinodan ictimai maraqlılığı, auditoriya genişliyi, daimi efir imkanı, fakt və hadisələrə operativ münasibəti, qəbulolunma, baxılma məkanı, sosial sferasının genişliyi, yayım hüdudsuzluğu ilə seçilir. Belə silsilə üstün keyfiyyətləri olan televiziyanı adi kino, yaxud şou proqramlar studiyası səviyyəsinə endirmək xalqı uzaqvuran strateji silahdan məhrum etmək, ekranı, efiri məhəlliləşdirib kabel televiziyasına çevirməyə bərabərdir. Lap adi konsertlərin tərtibində belə bu fikri sübuta yetirmək mümkündür. Bu gün hər hansı bir vasitə ilə öz proqramını yaradıb xalqa musiqi dərsi keçən müğənninin təqdimi ilə ədəbi-mədəni mühitin hörmətini qazanmış Sara Qədimovanın, Rübabə Muradovanın, Mirzə Babayevin, Şövkət Ələkbərovanın və b. konsertlərini yayımlamaq arasında böyük fərqin olduğunu sübut etməyə ehtiyac yoxdur. Dövlət televiziyasının öz ənənələri ilə seçilən "Musiqi və əyləncəli proqramlar redaksiyası" bu gün də növ və janrlarından asılı olmayaraq, Azərbaycan musiqisinin incilərinin, klassik ifaçılarının sistemli təqdiminə böyük həssaslıq göstərir. Saz musiqisindən simfonik musiqiyə kimi auditoriyanın təbii maraqları nəzərə alınır. Milli musiqimizin, klassik musiqinin təbliği işi də konseptual prinsiplər əsasında görülür. Müstəqil, dünyəvi dövlətimizin ümumbəşəri maraqları, Azərbaycanda

yaşayan xalqların və müxtəlif insan qruplarının musiqi zövqü bu işdə əsas götürülür. Musiqi əsərlərinin sifarişi, yaranması, alınması sahəsindəki xaos müəyyən çətinliklər törətsə də, biz ənənənin gözlənilməsinə əməl edirik. Azərbaycan Televiziyasında çıxış edən müğənnilər geyimlərindən repertuarlarına kimi fərqli təsir bağışlayırlar. Xüsusən, Azərbaycan musiqi sənətinin inkişafında xidmətləri olanların heç vaxt unudulmaması Milli Televiziyanın ən təqdirəlayiq keyfiyyətlərindəndir. Lakin bəzi özəl televiziyaların efir inhisarçıları sağlığında belə klassikə çevrilmiş incəsənət xadimlərinin xidmətlərini nəinki tamaşaçıya xatırlatmır, əksinə, onların ifalarının ekzotik yaddaş nümunəsi olduğunu deməklə əslində mənəvi dəyərlərimizə zərbə vururlar.

– Amma bir həqiqət var ki, kütləvi tamaşaçı belə şou-konsertlərin sanki aludəçisinə çevrilib. Bu mənəvi aşınma göstəricisini "stimullaşdıran" isə elə öz telekanallarımızdır. Sizcə bu zövqün korlanmasıdır, yoxsa tamaşaçı marağının öz axarını dəyişməsi, yaxud da telekanalların fəaliyyətinin nəticəsi?

– Ekran və efiri şəxsi maraq ünvanına çevirənlərin özünüreklam sahəsindəki fəallığı yeganə üstün cəhətləridir. Bu istiqamətli təbliğat, özlərini birinci, lider kimi qələmə vermək sarıdan qeyri-təvazökar reklamlar, söz yox, orta səviyyəli tamaşaçını cəlb edə bilir. Bir də, reklamda cəlbedici, xüsusən, gəncliyi çəkən məqamlar böyük yer tutur. Lakin elm, savad, maarif, təkamül yolu həmişə birmənalı, kütləvi qəbul olunmayıb. Burada inkişaf addımlarla ölçülür. Amma, görünür, bu məqamda opponentlərimizin özünütəbliğ formasından cəmiyyətin xeyrinə görə də olsa, istifadə etmək lazım gələcək. Bir iş var ki, belə vaxtlarda AzTV-nin vətəndaşlıq pasportu qazanmış proqramlarına heç əlavə reklam çarxı da gərək olmur. Onun adından doğan məzmun, məzmunundan yaranan müasir, bəşəri forması ilk baxışdan tamaşaçını cəlb edir və özünün

ictimai dəyəri ilə düşüncələrdə pozulmaz izlər qoyur. Türkçülük və azərbaycançılıq istiqamətində hazırlanan verilişlər ("Azərbaycan dili", "Oğuz", "Turan", "Dəmir-qapı Dərbənd", "Türk elləri", "Sorağınız gəlir") bunu təsdiq edir. Bu sıradan olan verilişlər dünya azərbaycanlılarının Bakıda keçirilən I qurultayını uzun illər reallığa çevrilmək yolunda böyük iş gördü. Zamanın yaratdığı ən kütləvi informasiya sistemi olan televiziyadan milli dəyərləri yaymaqla dünya mədəniyyətinə inteqrasiya etmək – müstəqil dövlətimizin atributları olan dil, adət-ənənə, folklor xəzinəmizin incilərini qoruyub inkişaf etdirmək sahəsində televiziya üzərinə böyük vəzifə düşür. Bu qlobal məsələlərin həllinə sözdə deyil, işdə əməl edən AzTV 1999-cu ildə "Xalq yaradıcılığı redaksiyası" yaratmaqla Azərbaycan parlamentinin "Folklor nümunələrinin hüquqi qorunması haqqında qanun"unu üç il qabaqlamışdır. İndi gündəlik televiziyanın efirində bir-birindən maraqlı "Qala", "Buta", "Elat", "Dastan", "Qobustan", "Karvan", "Yallı", "Yazı", "İrs" kimi proqramlar məhz folklor irsinin toplanması işinə xidmət edir.

Yeni cəmiyyət quruculuğunda keçmiş səhvlərin, cinayət və cəzaların təhlili, etirafı əsas sayılır. Postsovet rejimi illərində repressiya qurbanına çevrilmiş xalqımızın mənəvi terroru, genefondunun dağıdılması 50-ci illərə kimi davam etmişdir. Siyasi müstəqillik bu istiqamətdə həqiqətləri üzə çıxarmağa imkan verir. "Ədəbiyyat və publisistika" redaksiyası "İbrət", "Repressiya qurbanları", "Vətəndaş" silsilə verilişləri ilə tamaşaçı yaddaşında həqiqətlərin bərpa işinə xidmət edir* nakam taleli sənətçilərin halal haqqını qaytarmağa çalışır. Bu milli dirçəliş dövründə xalq ədəbi vicdanların əsl ünvanlarını tanımasa, yenə də səhvə yol verər, başına gələn müsibətləri təkrarlaya bilər. Ümumiyyətlə, televiziya bir növ ictimai yaddaşdır, təsvirlərin, səslərin daim oyaq, üzə çəkilən arxividir. Bu yaddaşdan hamının pay ummağa haqqı var. "İncəsənət və

teatr” redaksiyasının “Televiziya videosalonu” verilişi başqa teleməkanlarda analoqu olmayan yayım forması kimi maraq doğurur. Zamanın axarında həyatdan köçən görkəmli sənət ustaları bu proqramda daim diri, canlıdır. Fikirləşəndə ki, bizim gündəlik gördüyümüz iş neçə-neçə ailəyə sevinc, təsəlli və səadət aparır, görülən işin əhəmiyyəti bir neçə dəfə artır. Görkəmli sənətkarlarımızla telemüsahibələr də televiziyanın bədii fondunu gündən-günə zənginləşdirir.

– Nizami müəllim, bir çox hallarda AzTV-nin milli sərvəti olan tamaşaların, kinoların, ədəbi-bədii proqramların fraqmental və ya tam halda özəl efir dalğalarında nümayiş etdirilməsinin şahidi oluruq. Bütün bunlar Sizinlə razılaşdırılırmı və müəllif hüquqları Azərbaycan teleməkanında qorunurmu?

– Təəssüf ki, yox. Əslində belə razılığa getmək də mümkün deyil. Çünki bu milli sərvət uzun illər televiziyada çalışmış müxtəlif sənət, peşə adamlarının birgə əməklərinin məhsuludur. Sizin müşahidə etdiyiniz neqativ hallar istisnasız olaraq bütün özəl televiziyalarda baş verir. Buna nəzarət etmək, faktın hüquqi qiymətini vermək Müəllif Hüquqları Departamentinin səlahiyyətinə aiddir. Lakin dəfələrlə müraciət etməyimizə baxmayaraq, aidiyyatı təşkilatda bu işin texnologiyasını hazırlayıb həyata keçirmək mümkün olmamışdır. Əslində bu, qatığın ağ olduğunu sübut etmək kimi asan bir işdir. Məs: Məşhur müğənni Rəşid Behbudov, Şövkət Ələkbərova, Qulu Əskərov və bu sıradan olan onlarla səs klassikləri haqda AzTV-də filmlər və film-konsertlər çəkilib yadigar qoyulmuşdur. Bu və ya digər səbəbdən işdən uzaqlaşdırılmış adamlar müəyyən maraqlar hesabına bu filmlərin orijinalını, ya da üzünü köçürüb özəl televiziyalara aparıblar. Məgər 20-30 il əvvəl çəkilmiş bu lentlərin kimin mülkiyyəti olduğunu sübut etmək belə çətindir? Təəssüf ki, mədəniyyətimizdən belə talançılıqla istifadə səngimək əvəzinə gündən-günə artır. Milli

sərvətlərimiz AzTV-də bu gün sistemli şəkildə yaradılır. Xüsusən, ədəbi irsin, folklor, musiqi irsinin toplanması, lentə alınması, eposlarımızın filmləşdirilməsi işi ("Dədə Qorqud", "Koroğlu", "Abbas və Gülgəz" və s.) zamanın sürətilə gedir. Milli yaddaşın dayağı olan nə varsa AzTV-nin peşəkar əməkdaşlarının diqqətindən yayınmır. "Azərbaycantelefilm" yaradıcılıq birliyi 1971-ci ildən sənədli, bədii lentlərin yaradılmasında, ən yeni tariximizin xronikasının sistemə salınmasında, bədii televiziya filmlərinin, film-konsertlərin istehsalında zəngin təcrübə əldə edib. Tərəddüdsüz demək olar ki, bu sahədə ən peşəkar rejissor, kinooperator, texniki xidmət işçiləri "Azərbaycantelefilm"də toplaşıb. Səssiz təbiət filmlərindən tutmuş, siyasi portret filmlərinə kimi geniş arenada fəaliyyət göstərən bu qurumun da böyük zəhmətlər hesabına yığıb milli sərvətə çevirdiyi filmlər tez-tez kənar efir meydanında nümayiş etdirilir. Nə vaxtsa AzTV-də işləyib buradan getmiş rejissor və müəlliflər özlərində olan film nüsxələrindən tam müəllif haqqı kimi istifadə edir, bu işdə pərakəndəlik yaradırlar. Bununla belə, telefilm istehsalındakı son illərin görünməmiş sürət və keyfiyyəti deməyə əsas verir ki, təsadüfi oğurluq, mənimsəmə faktları dəryadan azalan damla kimi ümumi işə təsir göstərə bilməz…

Bədii lent istehsalı sahəsində xüsusi çəkisi olan qurumlardan biri kimi "Sabah" eksperimental studiyasının fəaliyyətini də qeyd etmək istəyirəm. Televiziyaya kütləvi maraq yönəldən lentlər içərisində bu studiyada hazırlanan tamaşaların çəkisi böyükdür: "Topal Teymur", "Dədə Qorqud", "Yarımştat", "Nekroloq", "Fatehlərin divanı" və s. Son dərəcə mobil qrupla titanik iş görən "Sabah" televiziyanın perspektivi üçün optimal istiqamətdə fəaliyyət göstərir. İstər tarixi, istərsə də müasir mövzuda hazırlanan tamaşalar ictimaiyyət arasında böyük sevinclə qarşılanır. İndi "Sabah"ın qovluğunda onlarla yeni tamaşanın ssenarisi hazırlıq mərhələsini yaşayır. Belə

güclü potensialı olan AzTV rəqabətdə alternativi olmayan efir vasitəsi kimi hər gün yeni ideyalar axtarışındadır.

– Televiziyanın yayım məkanı da xeyli genişlənib. Bildiyimizə görə, AzTV Avropanın bir çox ölkələrinə yayımlanır. Bu, yəqin ki, forma və məzmun yeniliklərilə də müşahidə olunacaq.

– Radio və televiziyanın funksionallığı həm də onun yayım məkanının genişliyindən asılıdır. 90-cı illərə kimi yalnız Azərbaycan məkanında izlənilən AzTV bu gün dünya efirinə ayaq açıb. Müstəqil dövlətin dövlətçiliyini dünyaya yaymaqda bundan gözəl fürsət düşünmək mümkün deyil. (Belə imkanı bəzi özəl kanallar da qazanıb). Lakin hələ 1998-ci ildə "Beynəlxalq proqramlar redaksiyası" yaradarkən belə efir imkanımız yox idi. Müstəqil məmləkətimizin nailiyyətlərini TQRT vasitəsilə dünyaya inteqrasiyasını reallaşdıran "Azərbaycan bu gün" həftəlik proqramı hazırladıq. Bu proqram zamanı üçün böyük dövlətçilik işi gördü və müstəqil Azərbaycanın efir blokadasını yaran ilk qaranquş oldu. Bu gün redaksiya əməkdaşları uzaq Çindən tutmuş Avropanın müxtəlif ölkələrinə kimi müstəqil proqram mübadiləsi ilə məşğul olur, xaricdəki Azərbaycan diasporunun fəaliyyətini istiqamətləndirmək işinə yardım edirlər. Belə bir sual ortaya çıxa bilər: dünyaya yayım imkanı bu redaksiyanın fəaliyyətini kölgədə qoymurmu? Bu, ilk baxışda belə görünə bilər. Çünki 24 saatlıq verilişin böyük əksəriyyəti tamaşaçılar üçün nəzərdə tutulur.

Bu gün ünvanlı proqramların bir çoxunu məhz "Beynəlxalq proqramlar redaksiyasının" əməkdaşları hazırlayırlar: "Qonağımız var", "Sorağınız gəlir", "Türk elləri" və s. Amma efir məkanının genişlənməsi təkcə mövzu baxımından deyil, həm də forma, təqdimat yeniliklərilə bütün proqramlarda özünü göstərir. Adam fikirləşəndə ki, günün adi iqtisadi problemlərinə həsr olunmuş proqramına dünyanın ucqar ölkəsində baxırlar, istər-istəməz inkişaf etmiş ölkələrdə bu mövzuya efir

münasibəti, təqdimat üslubu meyara çevrilir. Ədəbi folklor proqramları xaricdə daha böyük maraqla qarşılandığından baxımlı saatlarda belə yayımlara üstünlük veririk. Azərbaycan əxlaqı, milli mentaliteti, mətbəxi, həyat tərzi, təkcə xaricdə yaşayan soydaşlarımızın deyil, əcnəbi tamaşaçıların da böyük marağına səbəb olur. Aldığımız çoxsaylı məktublarda, internet saytlarına düşən arzu və təkliflərdə AzTV-nin ən çox dəyərləndirilən keyfiyyətlərindən biri milliliyini qoruyub saxlaması, bayağı, erotik kadrların bu efirdə yer tapmamasıdır. Xüsusən, Türkiyədə böyük maraqla izlənilən AzTV bugünkü beynəlxalq yayım imkanları ilə xalqımızın milli və bəşəri dəyərlərini, dövlət siyasətini, mədəniyyətini dünyaya çatdırmağa nail ola bilir.

– Bu gün yaranan müstəqil teleşirkətlər konkret sahə fəaliyyəti – informasiya, mədəniyyət və s. ilə məşğul olmağı qərarlaşdırırlar. Belə bir şərti bölgü aparılsa, AzTV öz fəaliyyətində nələri əsas götürər?

– Azərbaycan Televiziyası "Ana televiziya"dır və yarandığı gündən ölkənin ictimai-siyasi, mədəni mühitində ən aktual mövzuları öz fəaliyyət istiqaməti kimi əsas götürüb. O, 50 illik fəaliyyəti ərzində yüzlərlə peşəkarın hesabına sutkada 24 saat efir ömrü yaşayan elmi biliyin, intellektin, ən təzə informasiyanın, ədəbi-mədəni hadisələrin, görkəmli ictimai-siyasi şəxsiyyətlərin, tanınmış elm və incəsənət xadimlərinin, məşhur idman mütəxəssislərinin, ümumilikdə isə cəmiyyətin ən seçmə nümayəndələrinin birbaşa çıxışı və iştirakı ilə hazırlanır. Azərbaycan prezidenti cənab Heydər Əliyev ekranın, efirin gücünü, xidmətini yüksək qiymətləndirərək deyir: "Televiziya bütün informasiya vasitələrindən ən kütləvisidir. İndi heç kəs öz həyatını televiziyasız təsəvvür edə bilməz. Azərbaycan Milli Televiziyası xalqımızın milli sərvətidir".

Gündəlik fəaliyyətində ölkə başçısının daxili və xarici siyasətini, iqtisadiyyatımızın və mənəviyyatımızın ən müxtəlif

sferalarını əhatə edən qərar və sərəncamlarını proqram hesab edən Azərbaycan Televiziyası son illər xəbər xidmətində yeniliklər etməyə üstünlük verir. Ən modern televiziya texnikası, son model və dizayn əsasında tərtib olunmuş studiyalar xəbər xidməti əməkdaşlarının ixtiyarına verilib. Gündən-günə gərginləşən dünyamızda peşə və marağından asılı olmayaraq xəbər bütün insanların gündəlik tələbatına çevrilib. Xarici ölkələrdə yaradılmış müxbir postlarımız, peyk rabitəsinə, internet sisteminə çıxışlarımız, ən müxtəlif informasiya agentliklərilə sıx əlaqəmiz bu sahədə uğurlarla müşahidə olunur. Setkada informasiya proqramlarının çoxaldılması, ingilis dilində xəbər bülletenin yaradılması, "Səhər" kanalında xüsusi informasiya xidmətinin fəaliyyəti bu sahədə öz səmərəli nəticəsini verir. Operativ, bol, maraqlı informasiya bankı yaratmağa çalışan əməkdaşlarımız həm də dəqiq informasiya vermək, istiqamətində çalışırlar. Biz peşəkar maraqlarımızı dövlət maraqları ilə uzlaşdırmaqla əslində cəmiyyəti yersiz stressdən, çaxnaşmadan, gərginlikdən qorumuş oluruq. Efirə verdiyimiz hər bir informasiya isə ən azı 3 mötəbər mənbədən təsdiq dəstəyi almış olur. Bu televiziya müasir ədəbi dilin, ictimai fikrin, milli folklorun, etnik yaddaşın, adət və ənənələrimizin, milli və bəşəri dəyərlərin mühafizi və təbliğatçısıdır. Cəmiyyətin böyük əksəriyyətinin – Türkiyədəki seyrçilərimizin, Bakıda yaşayan və fəaliyyət göstərən diplomatik korpusların əməkdaşlarının da etiraf etdikləri kimi, AzTV etik, estetik, əxlaqi görüşləri gündəlik fəaliyyətində uca tutan, yabançı əxlaq və həyat tərzi axınları şəraitində hammın ailəliklə arxayınca baxa bildiyi yeganə televiziyadır. Biz bununla fəxr edirik.

Müsahibəni apardı:
İxtiyar Hüseynli
"Azərbaycan" qəzeti,
3 sentyabr 2003-cü il

SSENARİLƏR

HƏSƏN BƏY ZƏRDABİ

Qədim Bakının, İçərişəhərin dar küçələri, dalanları, meydanları tələsən adamlarla, səs-küylə doludur. Arada azan səsləri eşidilir. XIX əsrin əvvəllərridir. Bütün görüntülər, tarixi-etnoqrafik kino detalları bunu diktə edir. Qara çarşablara bürünmüş qadınlar kölgə kimi küçələrdə, döngələrdə görünüb itirlər. Qəzet satan uşaqların qışqırığı qulaq deşir. Kadrlar yarımqaranlıqdır və bu simvolik detal xalqın ümumi vəziyyətinin ağırlığına işarə edir. Bütün bu təsviri, fonu sənədli kino-foto-fono materialları tamamlayır.

Bu arxiv materiallarında qədim Bakının, bütövlükdə ölkəmizin yoxsulluğu, savadsızlığı, cəmiyyətin qara mühiti öz əksini tapır. Bu materialları Həsən bəy Zərdabinin obrazını əks etdirən aktyor oyunu əvəz edir, tamamlayır.

H.Zərdabi küçədə gəzən ayaqyalın, üstü-başı çirkli, yoxsul uşaqlara baxaraq çox nigaran bir ovqatda gəlir. Birdən faytonda gələn bir bəy Həsən bəyi görüb deyir:

– Ay uşaq, bir saxla görüm. Deyəsən, axı bu Həsən bəydi?

Faytonçu faytonu saxlayır. Həmin bəy Həsən bəyi çağırır:

– Həsən bəy, yolun hansı tərəfədir?

Həsən bəy faytona tərəf gələ-gələ cavab verir:

– Üzü şəhərə tərəf.

– Gəl otur bir yerdə gedək. Bir az söhbətləşək.

Həsən bəy faytona çatıb:

– Salaməleyküm, – deyir və qalxır faytona.

– Ya Allah, ya Allah – deyib bəy də salam verir.

Fayton tərpənir. Bəy soruşur:

– Xeyir ola. Üzü şəhərə tərəf? Yoxsa yayı burada keçirəcəksiniz?

– Bilirsən bəy, siz fikirləşdiyinizdən daha vacib işlər var.

Bəy maraqla ona baxıb soruşur:

– Ay səni sağ olmuş, yayın bu isti, bürkülü vədəsində istirahətdən vacib hansı iş ola bilər ki? Hə?

– Bəy, məsələ burasındadır ki, biz burada istirahət eləyirik, amma onlarla, yüzlərlə müsəlman övladı ac, susuz, çirkab içində küçələrdə dolaşır.

– Dolaşırlar, dolaşsınlar da. Onlardan bizə nə?

– Mən istəyirəm həmin uşaqları bir yerə toplayıb onlara elm, savad öyrədək.

– Öyrədək də.

– Amma o var ki, mən bir "xeyriyyə cəmiyyəti" yaratmaq istəyirəm.

– O nə üçün?

– İstəyirəm kasıb uşaqları həmin cəmiyyətin hesabına təhsil alsınlar.

– Cəmiyyət deyəndə ki? (bir qədər düşünür) Yəni bizim hesabımıza?

– Sizlərin köməyi hesabına, inşallah.

– Həsən bəy, vallah çətin məsələdi. Ay kişi, nəyinə lazımdı? Bəyəm bu millətin dərdini çəkmək elə sənə qalıb?

Həsən bəy bir şey deməyib sakitcə fikrə gedir. Bəy faytondan yerə düşüb deyir:

– Gedək səni nahara qonaq eləyim. Yəqin acsan.

Həsən bəy cavab verir:

– Çox sağ olun. Siz gedin nuş eləyin. Mən də görüm o bəylər nə fikirləşirlər.

– Bəy, özünü çox yorma. Onsuz da bu iş baş tutmayacaq. Ay kişi, nəyinə lazımdı? Xalqın dərdi-səri bəyəm sənə qalıb?

Həsən bəy başını yelləyib deyir: (faytonçuya)

– Sür gedək.

Faytonda gedə-gedə Həsən bəyin daxili monoloqunu eşidirik

HƏSƏN BƏY ZƏRDABİ: – Xalq üçün yaşamaq – bu, mənim məsləkimdir. Nə qədər çətin olsa da mən bu yoldan dönməyəcəyəm. Çünki ayrı bir yolum da yoxdur. Xalqın, millətin bu günü, sabahı uğrunda çalışmaq, onları cəhalət və nadanlıq qaranlığından işıqlı günə çıxarmağa çalışmaqdan özgə yaxşı nə ola bilər. Balalarımızı oxutmaq, savadlandırmaq, onların gözünü açmaq, millətimizi irəli getmiş xalqlarla bir sırada görmək – bax, bütün bunlar mənim amalım, arzumdur. Mən bu yolda çalışmaqdan qürur duyuram. Əgər insanın canında çalışmaq həvəsi varsa, o, hər hansı bir xeyir iş görmək istəyirsə, buna mütləq nail olacaq. Əsas odur ki, bu yolda durmadan düşünsün, ürəyi yorulmadan döyünsün, arzuya çatmaq üçün yollar axtarsın. Heç bir qara qüvvə mənə mane olub yolumdan döndərə bilməz, inadımı sındıra bilməz. Nə qədər ki, ömrüm var, bütün qüvvəmlə xalqım üçün çalışacağam.

Zərdabişünas alim Esmira Cavadovanın Zərdabi haqqında düşüncələri.

ESMİRA CAVADOVA: – Həsən bəy Zərdabi bu gün də bizimlədir. Onun Azərbaycan xalqına qoyub getdiyi elmi, ədəbi irsi bizim bu günümüzə, gələcəyimizə lazımdır. Həsən bəy Zərdabi XIX əsrdə yaşayıb yaradan ziyalılarımız arasında öz

qələmi ilə seçilirdi. O, əsərlərində xalqı maarifə, elmə, təhsilə səsləyirdi. Həsən bəy Zərdabi Azərbaycan xalqını qəflət yuxusundan oyadan, bu yolu axtarıb tapan, tapdıqdan sonra sevinən əsl vətəndaş idi. Yeganə nicat yolunu onda görürdü ki, Azərbaycan xalqı maariflənsin, Azərbaycan balaları savadlansın, Azərbaycan xalqının balaları təhsil alsınlar ki, öz hüquqlarını müdafiə etməyi bacarsınlar, özlərinin şəxsiyyət olduğunu desinlər. XIX əsrin II yarısında və XX əsrin əvvəllərində yaşayıb yaradan, bütün mənəvi həyatını, ömrünü xalqın güzaranının yaxşılaşmasına sərf edən ziyalılar arasında Həsən bəy Zərdabinin öz qələmi, öz sözü, öz mövqeyi olmuşdur. Həsən bəy Zərdabi Bakı quberniyasının Göyçay qəzasının Zərdab kəndində 1842-ci ildə dünyaya gəlmişdir. Onun babası Rəhim bəy, atası Səlim bəy öz dövrünün ən mütəfəkkir, ən qabaqcıl ziyalılarından idilər. Buna görə də Həsən bəy hələ uşaq yaşlarında ikən babası Rəhim bəy və atası Səlim bəyin əhatəsində dövrün ən maarifpərvər, ziyalı insanları ilə rastlaşmış, onların danışıqlarını, sözlərini eşitmişdir. Mən elə bilirəm ki, Həsən bəy o ocaqda böyüdüyü üçün onda elmə, maarifə maraq artmışdır. Buna baxmayaraq, o dövrün qaydasına görə atası Səlim bəy Həsən bəyi təhsil almaqdan ötrü ilk dəfə Zərdab kəndindəki mollaxanaya gətirir. Ancaq Həsən bəy mollaxanada 3-4 il təhsil alsa da onun fikirləri elə bil başqa bir aləmə uçub gedirdi. O, başqa bir sahədə təhsil almaq arzusunda idi.

Həsən bəy Zərdabi tənha düşüncələri ilə asta-asta gəlir, gələ-gələ düşünür.

HƏSƏN BƏY ZƏRDABİ: – Nə qədər çalışırsan, yenə də xalqı qəflət yuxusundan oyatmaqda çətinlik çəkirsən. Arzusunda olub hələ yerinə yetirə bilmədiyim işlərə görə durmadan çalışmalıyam. Bu gün işimizə qiymət verən, bizlərə dayaq duran çox azdır. Əzab-əziyyətlərə düçar olmuş bu xalqın xoş gələcəyi o qədər də uzaqda deyil.

Filologiya elmləri doktoru, professor Xeyrulla Məmmədovun Zərdabi haqqında düşüncələri.

XEYRULLA MƏMMƏDOV: – Azərbaycan həyatının bir sıra böyük islahatları və bir sıra mədəni nailiyyətləri birbaşa Həsən bəy Zərdabinin adı ilə bağlıdır. Həsən bəy Zərdabi Azərbaycanın universitet bitirmiş ilk professional müəllimi, ilk dövlət məmuru, ilk qəzet naşiri, ilk. xeyriyyə cəmiyyətinin təşkilatçısı, teatrın banisi və ümumiyyətlə, XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan gəncliyinin ideya rəhbəri olmuşdur. Həsən bəy Zərdabi öz həyatını zəhmətkeş xalqın, qara rəiyyətin, əkinçi, biçinçi və digər zəhmətkeşlərin azadlığı uğrunda mübarizəyə həsr edən böyük insandır.

Həsən bəy Zərdabi əmək fəaliyyətinə keçən əsrin 60-cı illərində Tiflisdə, Mirzəbəyi palata deyilən bir idarədən başlayır. Həmin idarənin əsas məqsədi kəndli torpaqlarının hüdudlarını müəyyənləşdirmək, kəndlilərlə bəylərin torpaq məsələsi üzərində etdiyi islahatları həll

etməkdən ibarət idi. Həmin bu idarədə fəaliyyətə başlayan Həsən bəy Zərdabi böyük zülmlərlə qarşılaşmışdır. Dövlət məmurlarının bəylərlə, xanlarla birləşib kəndli hüquqlarını məhdudlaşdırması, onların torpaqlarının əlindən alınması və sulu, əkinə yararlı torpaqları öz əllərinə keçirmələri son dərəcə biabırçı bir vəziyyət almışdı. Həsən bəy Zərdabi bəylərin, xanların, hökumət məmurlarının bu haqsızlığına qarşı mübarizə aparmış və buna görə də hakim dairələrlə daim qarşıdurmada olmuşdur. Həsən bəy Zərdabinin xanlar və məmurlarla başladığı mübarizə onu idarəni tərk eləməyə məcbur etmişdir. O, Bakıya gəlib bir müddət general-qubernatorun dəftərxanasında işləmişdir. Lakin burada Həsən bəy Zərdabi general-qubernatorla qarşılaşmış və belə bir vəziyyətdə o vəzifəsini də tərk etməyə məcbur olmuşdur. Bundan sonra Həsən bəy Zərdabi bir müddət Qubada məhkəmədə katib vəzifəsində işləmişdir. Bu, elə bir tarix idi ki, məhkəmə sahəsində böyük islahatlar getmişdi və xalqın xeyrinə bir sıra təlimatlar düzəldilmişdi. Həmin bu təlimatı, əhali rus dilini bilmədiyinə görə, vəkillər onların hüquqlarını məhdudlaşdırır, min bir yolla onları soyur, talan edir və beləliklə, hüquqlarını tapdalayırdılar. Həsən bəy Zərdabinin məhkəmədə dəllallıq edən vəkillərə qarşı mübarizəsi onu yeni bir konfliktə çəkir. Beləliklə, yazıçı məhkəmələrlə, vəkillərlə, dəllallarla mübarizə aparmalı olur.

Danışığın üstündə Həsən bəy Zərdabinin iş prosesi göstərilir Quba məhkəməsində işləyərkən ona sui-qəsd

zamanı başının üstündən keçən güllədən sonra dediyi sözlər təqdim olunur.

HƏSƏN BƏY ZƏRDABİ: – Qara qüvvələr deyəsən yenə də məndən əl çəkmək fikrində deyillər. İşləri, əməlləri düz olmadığı kimi, bircə gülləni də düz ata bilmirlər. Xeyri yoxdur, onsuz da onlar məni yolumdan döndərə bilməyəcəklər.

Yenidən Həsən bəy Zərdabinin tənha düşüncələrlə asta-asta gəldiyini görürük Onun daxili səsini, monoloqunu eşidirik.

HƏSƏN BƏY ZƏRDABİ: – Bir qəzeti nəşr etmək üçün xeyli çalışmalısan. Olmazın əzab-əziyyətlərlə rastlaşmalısan. Birini tapırsan, birini tapmırsan. Min bir əziyyət də olsa, çap etdirməliyəm. Çap etdirsəm də oxucu tapa bilməyəcəyəm. Onsuz da hər kəs başını aşağı salıb öz işi ilə məşğuldur. Bu minvalla biz nə vaxta tərəqqi edib savadlılar sırasına çıxa bilərik?..

Zərdabişünas alim Turan Həsənzadənin Zərdabi haqqında düşüncələri təqdim olunur.

TURAN HƏSƏNZADƏ: – Bir müddət keçəndən sonra Həsən bəy Zərdabi fikirləşir ki, xalqı hər şeydən məlum etmək, onu qəflət yuxusundan oyatmaq, cəhalətdən qurtarmaq üçün nə etmək lazımdır? O, xalqı bu məngənədən çıxartmaq üçün çox yollar axtarırdı. Həsən bəy Zərdabinin ən yüksək fikri maarifçilik, məktəb təşkilatı, yeni cəmiyyət-lərin yaranması, kitabxanaların açılması və nə-

hayət, məktəblərin təşkili, camaatın savadlanması məsələsi idi.

Professor Xeyrulla Məmmədovun Zərdabi haqqında düşüncələrinin davamını eşidirik.

XEYRULLA MƏMMƏDOV: – Bunun üçün Azərbaycanın bir sıra qəza şəhərlərini gəzmişdi, bəylərlə, mülkədarlarla görüşmüşdü. Cəmiyyət-xeyriyyə haqqında söhbətlər etmişdi və həqiqətən bir qədər pul toplamağa nail olmuşdu. Həmin pul ilə bir neçə şagirdi gimnaziyada oxutmuşdu. Lakin həmin şagirdləri oxutmaq məsələnin bir tərəfi idi. Onların tərbiyəsi ilə məşğul ola biləcək adam yox idi. Və bu məqsədlə Həsən bəy Zərdabi savadlı, oxumuş bir müsəlman qızı axtarırdı. O zaman Tiflisdə məktəb qurtarmış Babayeva soyadlı Şimali Qafqazdan bir qızın sorağını eşidib, Tiflisə gedir, ona evlənmək təklif edir və qızı Bakıya gətirir. Beləliklə, ər-arvad azərbaycanlı uşaqların həm oxuması ilə, həm də tərbiyəsilə məşğul olmağa başlayırlar.

Həsən bəy Zərdabi geniş dairədə mübarizə aparır və Azərbaycan xalqının mənəvi intibahına nail olmaq istəyirdi. Hər bir xalqın mətbuatının yaranması onun cavan ruhunun oyanması deməkdir. Və uzun müddət durğunluq həyatı keçirmiş Azərbaycan müsəlmanlarının həyatı ilk dəfə olaraq Həsən bəy Zərdabinin "Əkinçi" qəzetinin nəşri ilə oyanmağa, ictimai fəaliyyət meydanına gəlməyə başlamışdır. TURAN HƏSƏNZADƏ: – O, çar Rusiyası dövründə

Azərbaycan qəzetini çap etməyin çox çətin olduğunu fikirləşir, buna yollar axtarırdı. Yerli qubernatorun köməyilə bu qəzetin açılmasına razılıq aldı. Bu, "Əkinçi" qəzeti idi. Əkinçilik pərdəsi altında Həsən bəy Zərdabi maarifçilik fikirlərini, siyasi fikirlərini, çar Rusiyasına olan münasibətini camaata bildirir, onların gözünü açmağa, fanatizmdən uzaqlaşdırmağa çalışırdı. 1875-ci ildə bu qəzetin açılması ərəfəsində Həsən bəy Zərdabinin qarşısına yeni bir çətinlik çıxdı.

Qədim şəhər küçəsində Zərdabi sevincli halda gəlir. O, qəzet satan uşaqlara fərəhlə baxır.

– Ay camaat qəzet çıxıb, qəzet! Qəzet alın, qəzet alın, "Əkinçi" qəzetinin ilk nüsxəsi – deyə-deyə iki-üç uşaq qucaqlarında qəzet daşıyır, adamlara satırlar.

– A bala, qəzetdən birini də mənə gətir.

Uşaq onun yanına gəlir. Bir dənə qəzet çıxarıb verir və deyir:

– "Əkinçi"nin ilk məcmuəsidir ey.

– Doğrudan? Hardan bilirsən?

– Alanda elə deyiblər.

– Özün oxuya bilmirsən ki?

– Yox, heç məktəbə də getmirəm.

– Niyə getmirsən?

– Dəftər-kitab almağa pulumuz yoxdur. Necə gedim?

– Al bu pulu. Artıq qalanına da kitab-dəftər alarsan. Amma oxumaq lazımdır.

Həsən bəy Zərdabi küçədən gələrək həyətə daxil olur. O, həyətdə dayanıb nəfəsini dərir, sonra evə girib sevincli halda əlindəki qəzeti həyat yoldaşına verir.

– Bu da çoxdan gözlədiyimiz "Əkinçi" qəzeti!

Həyat yoldaşı Hənifə xanım "Əkinçi" qəzetini görüb gözləri yaşarmış halda deyir:

– İlahi, bu möcüzəyə oxşayır. Nəhayət ki, "Əkinçi" qəzeti işıq üzü gördü. Adam heç öz gözlərinə inanmır… Sən məni nə qədər sevindirdin. Heç həyatımda bu qədər sevinməmişəm. Yox, indi gördüm ki, sən tamam özgə insansan. Mən elə bilirdim ki, belə bir ağır şəraitdə sən bu işin öhdəsindən gələ bilməyəcəksən. Ancaq sən bu işin öhdəsindən uğurla gəldin. Sən doğrudan da xalqına, vətəninə layiq bir insansan. Sənlə fəxr etməyə dəyər.

Zərdabişünas alim Esmira Cavadova Zərdabi haqqında fikirlərinin davamını təqdim edir.

ESMİRA CAVADOVA: – Həsən bəy Zərdabinin yaradıcılığında onun etnoqrafiya ilə bağlı məsələləri çox qabarıq şəkildə verilmişdir. Yəni bu məsələləri arayıb araşdırmaq, yəni onun xalqına nə dərəcədə sıx bağlı olduğunu demək böyük bir cəsarət tələb edirdi. Çünki Zərdabi özü bir kəndli balası idi. Yəni kənddə dünyaya göz açmışdı. O, anadan olduğu gündən əhalinin torpaqla necə bağlı olduğunu, onu əkib becərdiyini, bu işin çətinliyini, hansı əmək alətlərindən necə istifadə olunduğunu görmüşdü.

Və çox işləyib alın təri ilə qazandığı, əldə etdiyi məhsulun nə qədər az olduğunu da bilirdi. Ona görə də bu problemlər Həsən bəy Zərdabini çox düşündürürdü. Elə ona görə də bu problemlərlə bağlı Həsən bəyin elmi irsində olduqca çox qiymətli, maraqlı materiallar, məqalələr var.

Professor Xeyrulla Məmmədov Zərdabi haqqında fikirlərini davam etdirir.

XEYRULLA MƏMMƏDOV: – Həsən bəy Zərdabinin tərcümeyi-halını yazanlar belə bir maraqlı fakt gətirirlər ki, o, boş vaxtlarında camaat arasında gəzər, dükanlara girər, xalqı maarifə, məktəbə təşviq edərmiş. Onun çox sevdiyi və söhbət etdiyi adamlardan biri də Bakıda dəmirçilik edən bir kişi olmuşdur. O, Həmişə bu kişini təşviq edərmiş ki, oğlunu məktəbə qoysun. O, Həsən bəy Zərdabinin sözünə görə oğlunu məktəbə qoyur. Lakin bir gün şikayət edir ki, oğlunu oxutmağa pulu çatmır. Həsən bəy Zərdabi ona bildirir ki, paltarını, palazını, zindanını, çəkicini sat, ver uşağın oxusun. Doğrudan da həmin dəmirçi uşağını oxudur. Və Zərdabinin həvəsləndirmələrinin nəticəsi o olur ki, həmin dəmirçinin oğlu başqa bir ölkədə tibb məktəbini qurtarır, Bakıya qayıdır və ölkəmizdə həkimlik edir.

Həsən bəylə dəmirçinin görüşü göstərilir. Görüşdən sonra teatr səhnəsinə keçid edilir. Hadisələr bu səhnədə davam edir.

MƏTN: – Həsən bəy realnı gimnaziyada işləyərkən sözün həqiqi mənasında tələbələrin sevimlisinə çevrilmişdi. Onun təbiət tarixindən oxuduğu mühazirələr tələbələrə böyük təsir göstərir, onların materialist dünyagörüşünün inkişafına təkan verirdi. Həsən bəy Zərdabinin təşviqi sayəsində realnı gimnaziyanın tələbələri ilk dəfə teatr oynamaq fikrinə düşürlər. Həsən bəy Zərdabi, Əsgər ağa Gorani, Xanlarov və başqalarının yaxından iştirakı ilə 1873-cü ilin martında M.F.Axundovun "Hacı Qara" komediyası səhnəyə çıxır. Bununla da Azərbaycan teatrının əsası qoyulur.

Dənizkənarı yollar diqqəti cəlb edir. Həsən bəy Zərdabinin dəniz kənarında gəzintisini görür və daxili monoloqunu eşidirik.

HƏSƏN BƏY ZƏRDABİ: – Həyat o qədər maraqlıdır ki, insan çalışdıqca çalışır, yorulmur. Tale məni tarixin dönəmli bir mərhələsində dünyaya gətirib. Elə bir vaxtda ki, millətin dərdləri yetərincədir. Arzu, istək də çox, di gəl ki, onları həyata keçirmək çətin. Digər xalqlar kimi bizim də xalqımızın tərəqqi etməsini kim arzulamır ki!.. Ağrılı, acılı ömrümdə xalqımıza zərrə qədər xeyir vermişəmsə, deməli, nahaq yerə yaşamamışam. Həyat çox mürəkkəbdir. Bəzən bir məqsədi həyata keçirmək üçün bütöv bir ömrü girov qoymalı olursan. Görünür, mənim də taleyimə belə bir ömür düşüb: əzablı, əziyyətli bir ömür…

Xalqımı təhsilli, savadlı görmək istəyirəm.

Çünki aldığım təhsil həyata baxışımı formalaşdırıb, keçdiyim qaranlıq yollara həmişə işıq tutub.

Zərdabişünas alim Esmira Cavadovanın Zərdabi haqqında düşüncələrinin davamı.

ESMİRA CAVADOVA: – Həsən bəy ilk təhsilini Şamaxıda açılmış dörd sinifli rus məktəbində alıb. Rus məktəbində təhsilini bitirərkən Həsən bəyin 14 yaşı olub. 1858-ci ildə Tiflis gimnaziyasına qəbul olunur və böyük uğurla, gümüş medalla buranı başa vurub 1861-ci ildə Moskva Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsinə imtahansız qəbul edilir. 1865-ci ildə universiteti böyük müvəffəqiyyətlə oxuduğuna görə təbiət elmləri namizədi alimlik dərəcəsi ilə bitirir. Zərdabi Moskva Dövlət Universitetində rus dilində təhsil alan ilk azərbaycanlı kəndli balasıdır. Moskvada təhsil aldığı illərdə onun dünyagörüşü genişlənir. Təbiət elmləri namizədi alimlik dərəcəsi ilə təhsilini başa vuran Zərdabini Moskvada da saxlamaq istəyirlər. Lakin o, Moskvada qalmır. Zərdabi bilirdi ki, Azərbaycan xalqına lazımdır. Elə buna görə də Moskvada təhsil illərini başa vurduqdan sonra vətənə qayıdır.

Zərdabinin dəniz kənarında gəzdiyini görürük. O, gəzə-gəzə evinə gəlir və daxili monoloqunu eşidirik.

HƏSƏN BƏY ZƏRDABİ: – Ömrümüz şam kimi ərisə də, əsas məsələ o şamın aydın və gözəl yanmasındadır. Bir də ki, əql ilə düşünsək, dünyanın bir çox sirlərinə yiyələnmək mümkündür. Bu baxımdan hər bir insan tam sərbəst düşünməli, bacardığı qədər bu həyatdan kam almalıdır.

Zərdabi evə gəlir. Qapıdan girir, xanımı onun paltosunu alıb asır, jiletini verir. Nəvələri onu qarşılayıb keçib əyləşirlər. Yoldaşı ona çay gətirir.

– Uşaqlar, keçin o birisi otağa, qoyun babanız dincəlsin. Axı bu qədər işi tək-tənha görmək olmaz. Bu işlər səni yoracaq.

– Hənifə, adam o zaman yorular ki, boş-boş işlər haqqında düşünsün.

– Bilirəm, yenə də deyəcəksən ki, millətin inkişafı onun elmindən asılıdır.

– Sən necə düşünürsən?

– Mən də elə düşünürəm. Amma…

– Nə amma?

– Axı, sən özün deyirdin ki, heç kim kömək eləmək istəmir. Bir iş görəndə də hərə öz yaxasını çəkir kənara. Sən də qalırsan meydanda tək-tənha.

– Tək niyə qalıram. Sənin dayağın mənə kifayətdir.

– Həsən bəy, çayını iç.

– Sağ ol.

Professor Xeyrulla Məmmədov çıxışını davam etdirir.

XEYRULLA MƏMMƏDOV: – Həsən bəy Zərdabi Bakı realnı gimnaziyasına təbiət müəllimi təyin olunur. Bu elə bir vaxt idi ki, Bakıda demək olar ki, müsəlmanların ictimai həyatda heç bir mövqeləri yox idi. İş o yerə çatmışdı ki, Bakı realnı məktəbində xeyli tələbənin oxumağına baxmayaraq, müsəlman əhalisindən bir nəfər də olsun tələbə yox idi. O zaman Zərdabi realnı gimnaziyada müsəlmanların sayını çoxaltmaq uğrunda mübarizəyə başlayır və küçələri gəzib ayrı-ayrı adamlarla söhbətləşib, onları dilə tutub uşaqlarını realnı gimnaziyaya verməyə təşviq edirdi. Zərdabinin səyləri nəticəsində qısa müddətə gimnaziya tələbələri arasında müsəlman uşaqları da görünməyə başlayırlar. Və beləliklə, Zərdabi ilk dəfə azərbaycanlıları təhsilə cəlb etməyə nail olur. Belə bir vəziyyətdə xalqı cəhalətdən qurtaracaq bir vasitə vardısa, o da elmi bilikdən ibarət idi. Buna görə Zərdabi göstərirdi ki, keçmişin rəşidlik, igidlik dövrü keçib. İndi igidlik, qəhrəmanlıq qılıncla, tüfənglə deyil, elmlə, biliklədir. Zərdabi klassik irsə müasir baxımdan yanaşırdı. O, elə hesab edirdi ki, klassik yazıçılar və şifahi xalq ədəbiyyatının nümunələri xalqın şüurunda elə bir dərin iz buraxıb ki, artıq onların yerinə yeni söz yeritmək, təzə ideya daxil etmək mümkün deyil. Və Zərdabi klassik ədəbiyyatın bəzi müasir dövrün tələblərinə uyğun gəlməyən cəhətlərini tənqid etməklə beyinlərdə yeni sözə meydan açmaq

istəyirdi. Ona görə Zərdabi publisistikasında "Koroğlu" nağılı, "Aşıq Qərib" nağılı, "Rüstəm Zal" nağılı və bu qəbildən ironik ifadələr də var. Zərdabi şifahi xalq ədəbiyyatının kütlə arasında geniş yayılmış bir sıra məzmunsuz nümunələrini tənqid edirdi.

Zərdabişünas alim Esmira Cavadovanın fikirlərinin davamı təqdim edilir.

ESMİRA CAVADOVA: – Həsən bəy Zərdabi 1889-cu ildə Tiflisdə keçirilən kənd təsərrüfatı sərgisində ömür-gün yoldaşı, Hənifə xanım ilə birlikdə yetişdirdikləri baramanın ən yaxşı nümunələri ilə sərgidə iştirak edirdilər. Yaxşı barama yetişdirdiklərinə görə Hənifə xanım da, Zərdabi də bu sərgidə yüksək mükafata layiq görülmüşdülər. Mən deyim ki, Zərdabinin bütün həyatı kənd təsərrüfatı sahəsi ilə, əkinçiliklə olduqca bağlı olmuşdur.

Həsən bəy Zərdabini evdə işlədiyi zaman görürük. Bu təsvirlə daxili monoloqu təqdim olunur.

HƏSƏN BƏY ZƏRDABİ: – Nə yaxşı ki, bu mübarizə meydanında tək deyiləm. Nə yaxşı ki, mənim səsimə səs verənlər var. M.F.Axundov, Əsgər bəy Adıgözəlov, Nəcəf bəy Vəzirov, Məmməd Tağı Əlizadə Şirvani və neçə-neçə məslək dostlarım var. Onlarla əlaqə saxlamaq, məktublaşmaq, məsləhətləşmək mənə ruh verir, işlərimi davam etdirməkdə mənəvi kömək olur. Belə ziyalı dostlar olmasaydı, adam bu cəhalət burulğanında məhv olardı.

Zərdabişünas alim Esmira Cavadova fikirlərini davam etdirir.

ESMİRA CAVADOVA: – Zərdabinin yaradıcılığında Azərbaycan xalqının məişəti, mədəniyyəti, adət-ənənələri ilə bağlı zəngin fikirlər vardır. Zərdabi Azərbaycan yeməklərinin ilk təsnifatını vermişdir. Onun əsərlərində torpaq, əkinçilik mədəniyyəti, maldarlıq məsələlərinə də çox geniş yer ayrılmışdır. Zərdabinin mədəniyyətlə bağlı da məqalələri bu günümüz üçün çox qiymətlidir. Məsələn, o xalq arasında qapı-qapı gəzib bizim milli nəğmələrimizi toplayaraq "Türk nəğmələri" adı altında kitab nəşr etdirmişdir. Zərdabinin mənəvi mədəniyyət məsələlərindən danışarkən, xüsusi vurğulamaq lazımdır ki, o, Azərbaycan xalqının öz ana dilində danışmasını, öz ana dilində yazıb-yaratmasını vacib bilirdi. O deyirdi ki, bir xalqı öldürmək istəyirsənsə, əvvəlcə onun dilini, sonra isə onun yazısını əlindən almaq kifayətdir. Ona görə də Zərdabi Azərbaycan xalqını öz ana dilində yazıb-yaratmağa çağırırdı. Ümumiyyətlə, o, xalqını elmə, təhsilə yiyələndirmək uğrunda mübarizə aparır və bu yolda həmişə onu irəliyə doğru çağırırdı. Zərdabi öz əsərlərində meşələrin qırılması məsələsinə də toxunurdu. O, xalqı başa salmaq istəyirdi ki, ey xalq, odun yerinə meşələrimizi qırıb çatmayın. Çünki o, sizə əkin əkmək işində, yəni əkini sulamaq üçün lazım olacaqdır.

Zərdabi öz kəndini xatırlayır. Kənd mənzərələri göstərilir.

HƏSƏN BƏY ZƏRDABİ: – Zərdab kəndi. Dünyaya göz açdığım doğma ocaq… Böyüyüb boya-başa çatdığım bu kəndə çox borcluyam. Çünki xeyir-duanı bu kənddən almışam. Şəhərdən əlim üzüləndə gəlib bu kəndə sığınmışam, ürəyimdəki arzularımı kənd adamları ilə bölüşmüşəm. Onların alın təri, qabarlı əllərinin zəhməti ilə qazandıqlarını zəli tək soranlara qarşı amansız olmuşam.

Esmira Cavadovanın çıxışının davamı təqdim olunur.

ESMİRA CAVADOVA: – Zərdabi Azərbaycan xalqını savadlandırmaq uğrunda yorulmadan çalışırdı. Ağır bir vaxtda onun yanına gələn ziyalılara vəsiyyət etmişdir ki, xahiş edirəm mənə təntənəli surətdə hüzn mərasimi düzəltməyin. Dəfnim üçün çəkilən xərcləri mənim başı bəlalar çəkmiş xalqımın rifahı yolunda sərf edin. Bu, Zərdabinin bir daha böyüklüyünü, onun xalqı üçün yandığını göstərirdi.

Xeyrulla Məmmədovun çıxışının davamı göstərilir.

XEYRULLA MƏMMƏDOV: – Həsən bəy Zərdabi öz qəlbini, bütün varlığını mənsub olduğu xalqın yolunda mübarizəyə sərf etmişdir. Gücünü bu mübarizəyə sərf elədiyinə görə də milyonlar şəhəri olan Bakıda milyonçular arasında yaşamA-

sına baxmayaraq, Həsən bəy yoxsul bir otaqda vəfat etmişdir. Amma Zərdabi öz fəaliyyəti ilə bütün Azərbaycanı özünə məkan, yurd etmişdi.

Esmira Cavadovanın fikirlərinin davamı təqdim edilir.

ESMİRA CAVADOVA: – Onun yaradıcılığı o qədər əhatəli, o qədər genişdir ki, onların hamısını bir nəfəsə deyib qurtarmaq mümkün deyil. Lakin bircə onu deyə bilərik ki, Zərdabinin yaratdığı əsərləri, bütün yaradıcılığı, ümumiyyətlə, onun Azərbaycan xalqına qoyub getdiyi miras bu gün də bizə əzizdir. Buna görə də Zərdabi bu gün də bizimlə yaşayır və yaşayacaqdır.

Zərdabinin daxili monoloqunu eşidirik.

HƏSƏN BƏY ZƏRDABİ: – Hər halda çəkdiyim əziyyət hədər getməz. Gələcək nəsillər bu işləri davam etdirəcəklər və xalqın nicat yoluna çıxmasına nail olacaqlar. Mən sabaha, sabahkı insanlara daha çox inandım. İnandım ki, bu millət tərəqqiyə çatacaq. Mənim məsləkdaşlarımın həyata keçirə bilmədiklərini onlar həyata keçirəcəklər. Duyanda ki, sənin əməllərini kim isə davam etdirəcək, çəkdiyin əziyyət yerdə qalmayacaq onda ancaq fəxarət hissi keçirmək olar. Mən elə bugünkü xoş gün üçün çalışırdım. Cismim ölsə də, fikirlərim yaşayır.

SON

2003-cü il

CAVAD HEYƏT VARLIĞI

Filmin ilk kadrlarından geniş, işıqlı cərrahiyyə otağı, mürəkkəb tibb avadanlığı diqqəti cəlb edir. Cərrahiyyə əməliyyatının gərgin anlarının şahidi oluruq. Dünya şöhrətli cərrah, böyük alim, Azərbaycan xalqının fədakar ziyalısı, öz vətəninin həqiqi vətəndaşı doktor Cavad Heyəti gərgin cərrahiyyə əməliyyatı anlarında görürük.

Cərrah Hüseyn Hezaveyi kadrda.

HÜSEYN HEZAVEYİ: – Ürəyə toxunmağa belə cürət edilmədiyi vaxtlarda doktor Heyət ürəkdə cərrahiyyə əməliyyatı aparıb.

Ürəkdə aparılan cərrahiyyə əməliyyatından fraqmentlər təqdim olunur.

MAARİF ƏLİYEV (Qarabağ müharibəsi əlili): – Elşənin ürəyində, damarların üstündə güllə oturmuşdu. Burda heç kəs onu risk edib çıxarda bilmirdi. O, gülləni doktor Cavad Heyət özü çıxartdı ordan.

Güllənin dəldiyi yaralı ürək aramsız döyünür. Qüdrətli alim-cərrahın sehrli əllərilə güllə götürülür, yaralı ürək xilas edilir.

BƏHRUZ SƏFƏRƏLİYEV (DTN tibb idarəsinin rəisi): – Respublikamız çətin bir şəraitə, böhranlı bir vəziyyətə düşdükdə yaralılarımıza ilk yardım əlini uzadanlardan biri də bizim Azərbaycanın ən sevimli oğullarından biri Cavad Heyət oldu.

YAŞAR QARAYEV (MEA-nın müxbir üzvü, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru): – Azərbaycanın indi ürəyi ağrıyır. Azərbaycanın ürəyinə Laçında, Şuşada, Qarabağda qəlpə dəyib. Əlbəttə, bunun üçün, bu qəlpədən xilas olmaq üçün bizim hər şeyimiz var: ordumuz var, sərkərdəmiz, dövlətimiz, öndərimiz var, həm də dünya şöhrətli cərrahımız, ürək həkimimiz var.

ABBASƏLİ HƏSƏNOV (Azərbaycan Respublikasının İİR-dəki fövqəladə və səlahiyyətli səfiri): – "Varlıq" jurnalı get-gedə yayımlandı, dünyanın müxtəlif ölkələrinə gedib çatdı və özü ilə bərabər Azərbaycan mədəniyyətini, Azərbaycan tarixini əks etdirən bütün varlığını dünyaya yaydı və eyni zamanda da onun əsasını qoyan doktor Cavad Heyəti bütün dünyaya tanıtdırdı.

Bu məqamda Cavad Heyətin canlı kadrı dondurulur, simvolik olaraq əbədiləşdirilir və bu planla – ikili təsvirlə filmin adı, əsas titri yazılır.

CAVAD HEYƏT VARLIĞI

Doktor Cavad Heyəti İranda və müstəqil Azərbaycan Respublikasında – müxtəlif tarixi yerlərdə, tarixi yaddaşla üz-üzə görürük. O, daxili düşüncələr aləmindədir. Müxtəlif yerlərdə gəzdikdə onun bioqrafik söhbətini, daxili monoloqunu eşidirik.

CAVAD HEYƏT: – Mən doktor Cavad Heyətəm. 1925-də may ayının 24-də Təbrizdə anadan oldum.

Atam böyük teoloq, ruhani idi, müctəhid idi. Eyni zamanda filosof idi. Heyət alimi idi, çox böyük ensiklopedik bir alim idi. Məşrutə inqilabının rəhbərlərindən idi. İranda ədliyyənin qurucularından idi. Anam da bir müctəhid qızı idi. Biz 10 bacı-qardaş idik – 6 qardaş, 4 bacı. Hamısı yüksək təhsilli. Uşaqlıqdan islamın əqidələri ilə, maarif ilə biz böyüdük və mən ilk təhsilimə Həmədanda başladım. Çünki atam həm də Həmədandakı ədliyyəni qurdu, oraya başçılıq edirdi. Biz də oraya getdik. Sonra ordan Təbrizə gəldik, Təbrizdən Tehrana. Nəhayət, mən Tehranda əsgərlik liseyində oxudum, oranın həmişə birincisi idim. Zabit olmaq istəyirdim, amma xoşuma gəlmədi ordakı o böyüklərə şəxsi itaətlər. Onun üçün həkimliyi seçdim. Daha sərbəst yaşaya bilmək üçün. Və Tehranda tibbiyyəyə girdim. 3-cü sinifdən atam məni İstanbula göndərdi. İstanbulda tibbiyyəni bitirdim, sonra cərrahi ixtisası apardım. Ondan sonra Parisə getdim, İstanbulda evləndim, Parisə getdim, Parisdə də 4 sənə cərrahi ixtisasıma davam etdim. O zaman yeni cərrahi – qəlb cərrahisi, ürək cərrahisi yeni qurulmuşdu. Mən də orda mümkün olduğu qədər ümumi cərrahi ilə bərabər ürək cərrahisini öyrəndim. 1952-də Tehrana qayıtdım.

* * *

İran İslam Respublikasının paytaxtı Tehrandan görüntülər. Doktor maşını ilə xüsusi klinikasına gedir. Orada onu iş prosesi zamanı görürük. Bütün bu planlarda Cavad

Heyətin daxili monoloqu davam edir.

CAVAD HEYƏT: – Bura mənim xüsusi klinikamdır. Burda xüsusi klinikaya mətəb deyərlər. Burda mən xüsusi xəstələrimi qəbul edərəm, günortadan sonralar və ondan sonra dərman veriləcək xəstəyə dərman yazaram, əməliyyat olunacaq xəstəni də bir məktubla xəstəxanaya göndərərəm və orda yatar, orda gedər əməliyyat edərəm.

Doktor Cavad Heyəti cərrahiyyə əməliyyatı aparan zaman gərgin anlarda görürük. O, növbəti ürəyi xilas edir, yenidən həyata qaytarır. Üzündəki xoş təbəssüm onun cərrah, alim, vətəndaş-ziyalı xoşbəxtliyindən soraq verir.

Hüseyn Hezaveyi, cərrah kadrda görünür. C.Heyət haqqında danışır.

HÜSEYN HEZAVEYİ: – Doktor Heyət dünyanın ən məşhur cərrahlarından biridir. Onun 50 il öncə gördüyü işlər indi də yenilik sayılır.

Doktor Cavad Heyət uzun elmi yaradıcılıq yoluna nəzər salır, özü haqqında danışır.

CAVAD HEYƏT: – Mənim həkimliyim çox macəralı keçmişdir. Çünki mən hər kəsin apara biləcəyi əməliyyatlara razılıq verməmişəm, daha böyük əməliyyatlar aparmaq istəmişəm. İranda olmamış əməliyyatları ilk dəfə aparmaq istəmişəm və bu işi aparmışam. Bunlar hamısı həyəcanla, emosiya ilə, stresslə, iztirabla bərabər olmuşdur. İlk apardığım ürək əməliyyatı bir macəra kimi

iztirablı olmuşdur. Və yaxud açıq ürək cərrahisinə başladığım zaman çox zəhmətlə bərabər, çox da narahatlıq çəkmişəm. Amma çox şükür müvəffəq olmuşam. İranda ilk dəfə açıq ürək cərrahisini burda müvəffəqiyyətlə apara bilmişik. Tehranda ilk dəfə böyük böyrək köçürmə əməliyyatını insanlarda və İranda ilk dəfə ürək köçürmə əməliyyatını itlərdə müvəffəqiyyətlə aparmışam. Bundan 33 il əvvəl o zaman belə əməliyyatlar möcüzə kimi sayılırdı. O zaman mən istədim insan üzərində də ürək köçürmə əməliyyatı aparam, amma bizim ruhanilər, ayətullalar icazə vermədilər ki, ölüdən mən ürək götürüm insana köçürüm. Amma sonra, mərhum İmam Xomeyni gələndən sonra, o inqilabçı bir adam idi, icazə verdi.

Kadrda divardan asılmış, doktora təqdim olunmuş diplomlar göstərilir.

CAVAD HEYƏT: – Gördüyünüz o diplomlar biri Paris Cərrahi Akademiyasının diplomasıdır ki, bunu mənə 1983-də vermişdilər. Bu da İstanbul türk fakültəsi tərəfindən mənə verilən altun diplomadır. Bu altun diploma ilk dəfə birisinə verilmişdir, əlli il tibb aləmində elmi çalışmalarına görə. Bu mənə qismət olmuşdur. Bunu da 4 sənə əvvəl, 4 il əvvəl verdilər. Demək, mən 54 ildir ki, həkiməm və həkimlik sahəsində çalışıram. Əlbəttə, həkimlik sahəsində yalnız biz xəstə müalicəsi, əməliyyatla razılaşmamışıq, eyni zamanda elmi təcrübələr aparmışıq. Mən 12 il "Daneş-e pezeşki" adında tibb dərgisi çıxarmı-

şam. Ondan sonra 3 cild dərslik kitabı yazmışam – cərrahi dərslik kitabı. Cərrahi dərsləri vermişəm. İndi də verirəm. Mən Azad İslam Universitetində cərrahi professoruyam.

Hüseyn Hezaveyi kadrda görünür, C.Heyət haqqında söhbətini davam etdirir.

HÜSEYN HEZAVEYİ: – Ürəyə toxunmağa belə cürət edilmədiyi vaxtlarda doktor Heyət ürəkdə cərrahiyyə əməliyyatı aparıb. Doktor Heyət əməliyyatları apara-apara eyni zamanda şagirdlərinə də öyrədirdi. Mən onun şagirdi olmağımla fəxr edirəm. Doktor Heyətin gördüyü işlərin hamısı qeyri-adi idi. Doktor Heyətin adı İrandan çox-çox uzaqlarda da məşhurdur. Dünyanın müxtəlif nöqtələrində keçirilən konfranslarda onun əməyinə yüksək qiymət verilir.

Doktor Cavad Heyət evində oturub, düşünür, sonra ötüb keçənlərdən söz açır.

CAVAD HEYƏT: – Bilirsiz, professor Barnard ilk dəfə insan üzərində ürək köçürmə əməliyyatını başarı ilə aparmışdır, Keyptonda. O zaman mən ona təbrik teleqrafı çəkdim və özüm də getdim yaxından onun əməliyyatlarını seyr etdim. Sonra Barnard buraya gəldi. Burada bizim işlərimizi gördü, burada konfrans verdi. Şiraza getdik, Abadana getdik. Sonra şəklini mənə hədiyyə etdi. Görürsüz, onun şəklidir, Barnardın. Bizim

dostluğumuz davam edirdi. Onun son illərdə əlləri, barmaqları xəstəlikdən əyilmişdi və əməliyyat apara bilmirdi. Bundan iki ay əvvəl də vəfat etdi.

Cərrah Hüseyn Hezaveyi görkəmli alimin Bakı ilə əlaqələrindən danışır.

HÜSEYN HEZAVEYİ: – Bakıda doktor Heyəti İranda olduğundan da yaxşı tanıyırlar. Həqiqətən doktor Heyətin Azərbaycan üçün elədiyi işlərin öhdəsindən heç kim gələ bilməzdi. 160-dan artıq müharibə əlilini Bakıdan Tehrana gətirib Punzdeyi Xordad xəstəxanasında yerləşdirmək böyük hünər idi. Onu da qeyd etməliyəm ki, əməliyyatın çoxunu özü aparırdı.

Bəhruz Səfərəliyev Cavad Heyətlə ilk tanışlığını belə xatırlayır.

BƏHRUZ SƏFƏRƏLİYEV (DİN tibb idarəsinin rəisi): – Cavad Heyətlə mənim tanışlığım ilk dəfə müharibənin ən kəskin vaxtlarında oldu. Alman-Azərbaycan cəmiyyətinin yaradıcısı, professor Cavad Heyətin bacısı oğlu doktor Ağabəy Azərbaycani bizdə yaralılarla görüşərkən respublikamızda müalicəsi mümkün olmayan yaralıların İran İslam Respublikasında müalicəsini təşkil etmək üçün öz dayısı Cavad Heyətdən məsləhət almış və mənimlə birlikdə biz İrana yollandıq. Cavad Heyətlə görüş keçirdik. Cavad Heyətə mən yaralılar barəsində danışarkən o kövrəldi, ağladı və bu işdə bizə kömək etməyinə söz verdi.

Almaniya-Azərbaycan Dostluq Cəmiyyətinin vitse-prezidenti Ağabəy Azərbaycani kadrda görünür.

AĞABƏY AZƏRBAYCANİ: – Onun sayəsində eliyə bildik ki, eyni zamanda 167 nəfər Qarabağ yaralısını da İrana göndərək.

BƏHRUZ SƏFƏRƏLİYEV: – Beləliklə, ilk dəfə olaraq 16 yaralını Azərbaycan sərhəddindən keçirərək, Tehrana yollandıq.

Kadrda təyyarə vasitəsilə Tehrana yollanan yaralılar müxtəlif planlarda görünür. Cavad Heyət onlarla görüşür, onları səmimi qarşılayır. Sonra məşhur doktoru azərbaycanlı yaralıları müayinə və müalicə edən anlarda görürük.

Cavad Heyət bir yaralı haqqında danışır.

CAVAD HEYƏT: – Gülləni bunun qəlbinin dalından – ciyərindən vurublar.

* * *

YAŞAR QARAYEV (MEA-nın müxbir üzvü): – Mən şəxsən şahidi olmuşam. Qarabağ yaralısının sinəsindən güllə dəymişdi. Ürək əzələsini də zədələmişdi. O qəlpəni nə cür böyük ustalıqla doktor Cavad Heyət həmin xəstənin ürəyindən çıxarıb.

MAARİF ƏLİYEV (Qarabağ müharibəsi əlili): – Burdan biz yanvar ayının 8-də 1993-cü ildə getdik. 16 nəfər idik. Bizdən 2 nəfəri, yəni məni, bir də Cəbrayıl rayonundan Elşən adlı oğlanı

doktor Cavad Heyət özü əməliyyat elədi. Elşənin ürəyində, damarların üstündə güllə oturmuşdu. Burda heç kəs buna risk edib çıxarda bilmirdi. Onu doktor Cavad Heyət özü çıxartdı. İkinci gündən sonra dedi ki, gəzə bilərsən. Bir də mənim ağ ciyərim təmiz dağılmışdı, qara ciyərimdə də qəlpələr qalmışdı. Məni də özü hazırlayırdı, hər gün də gəlirdi, soyundururdu, ölçürdü barmağıyla necə olacaq, nə cür olacaq. Məni operasiya edəndə fevral ayının 2-si idi, 1993-cü il. Orda əməliyyat müvəffəqiyyətlə qurtarmışdı, yəni ciyərimin qabaq hissəsini çıxartmışdılar. Cavad Heyət özü rəhbərlik eləmişdi. İndi bədənimə baxanda elə bil yapon maşını ziqzaq kimi tikib. Nə isə əməliyyatdan sonra mən ayılmamışdım. Doktor Cavad Heyət gör neynəmişdi. Gedib mənimlə Azərbaycandan gedən uşaqlardan gətirmişdi ki, Azərbaycan dilində, Bakı ləhcəsində, Azərbaycan ləhcəsində danışın. Hansı sözləri Maarif işlədirdi. Maarif atasının, anasının, bacısının, qardaşının, uşaqlarının hansının adını çəkirdi, o adları siz də çəkin ki, əsəblərinə toxunsun, bəlkə narkozdan ayılsın. Cavad Heyət həmin variantla məni narkozdan ayıltmışdı.

* * *

Ağır cərrahiyyə əməliyyatını uğurla başa çatdıran Cavad Heyət dərindən nəfəs alaraq kadrda danışır.

CAVAD HEYƏT: – Çox şükür, hamısı yaxşı oldu. Bura qayıtdılar və burda televizyonda çıxış elədilər və

təşəkkürlərini bildirdilər. Bu məsələ bu şəkildə cərəyan etdi və mənim həyatımın yaxşı xatirələrindən birisidir. Sayın möhtərəm Türkiyənin cümhur başqanı Süleyman Dəmirələ yazdığım məktub haqqında sizə qısa bir məlumat verim. Mən yenə Bakıya gəlmişdim. Bakıda həm tibbi yardım, əməliyyat, həm də ədəbiyyatçılarla görüşlərim var idi. Sonra burdan İrana qayıdarkən eşitdim ki, Kəlbəcər getdi. Bu hadisə məni çox pərişan etdi. Və mən o gecə yata bilmədim. Oturdum və o gecə məktub yazdım. Necə yazdım, indi xatırlamıram. Amma bilirəm ki, çox qeyri-adi bir halda yazdım.

Kadrda Cavad Heyətin keçmiş Türkiyə prezidenti Süleyman Dəmirələ yazdığı məktub göstərilir və oxunur. Arada Cavad Heyət müxtəlif planlarda görünür. Sanki o da məktubu dinləyir, vaxtı ilə yazdığı həmin həyəcanlı məktubla yenidən yaşayır.

CAVAD HEYƏT: – Sayın Süleyman Dəmirəl həzrətləri! Türkiyə cümhur rəisi! Sizi bu məşğul günlərinizdə narahat etdiyim üçün üzr diləyirəm. Bu cəsarəti Sizi 50 ildən bəri, yəni tələbəlik zamanından tanıdığımdan və Sizdə insani milli və dini duyğuların güclü olduğunu bildiyimdən və eyni zamanda təcrübəli, bəsirətli bir dövlət rəisi olduğunuzdan alıram. Müsəlman, azəri qardaşlarınızın faciəli vəziyyətini və tarixi düşmənləri arasında yalqız, kimsəsiz qaldıqlarını açıqlamağı lazım görmürəm. Bu gün Arazın quzeyindəki dindaş və soydaşlarımız tarixdə az rastlaşdığımız bir faciə və soyqırıma məruz

qalıblar. Həm də böyük bir millət və ya güclü bir dövlət tərəfindən deyil, bütün tarix boyu himayəmiz altında yaşayan və ədalətimiz sayəsində bütün insani haqlardan faydalanan ermənilər tərəfindən. Ermənilər ən modern silahlarla azəri qardaşlarımızın vətəninə hücum etmiş, insanları böyük-kiçik, qadın-kişi demədən vəhşi şəkildə öldürmüş, evlərini, yurdlarını da dağıdıb, talan etmişdir. 5 ildən bəri davam edən bu təcavüz və soyqırımlar son zamanlarda daha da şiddətlənmişdir. Bu durum qarşısında bütün dünya əfkari-ümumiyyəsi susur, insan haqlarını qoruyanlar da heç bir etiraz etmirlər. Belə bir durum qarşısında müsəlman dünyasının, türklərin, Türkiyə və İran İslam Cümhuriyyətinin və uluslarımızın vəzifə və məsuliyyətləri nə ola bilər? Bu məzlum, silahsız, ordusuz və əsarətdən yenicə çıxmış qardaşlarımızı yalqızmı buraxmalıyıq? Erməni daşnak ordusunun onların yurdlarına həyasızcasına təcavüzünə, qadın və kişilərini, qoca və uşaqlarını acımadan öldürmələrinə tamaşaçımı qalacağıq? Bu, bizlərin şərəfinə, türklüyə və müsəlmanlığa, nəhayət, insanlığa yaraşarmı? Bu bizim şanlı tariximizə sığarmı?

Sayın cümhur rəisi! Lütfən məni əfv edin. Bu sətirləri göz yaşlarımın qabağını ala bilmədən yazıram. Və bu anda Allah-Taaladan xalqımıza qurtuluş, ya da özümə ölüm istəyirəm. Sayın başqan! Mən diplomat və siyasət adamı deyiləm. Mənim bütün həyatım elm və həkimlikdə keçmişdir. Fəqət heç bir zaman insanlığın acılarını unutmadığım kimi, məmləkətim, millətim, din-

daşlarım və soydaşlarımın qayğı və kədərlərindən də kənarda qalmadım və onlardan ayrı yaşamadım. Arazın quzeyindəki qardaşlarımız məni azərilərin ağsaqqalı bilirlər. Mən özümü bu şərəfli ada layiq görmürəm. Amma onların mənə olan güvənci və bugünkü ağır və təci durumlarını göz önünə alaraq bir azəri ağsaqqalı kimi zatialinizdən xahiş edirəm. Hər şeyə rəğmən təcrübəli, bəsirətli dövlət rəisi, millət lideri və haqsevən bir insan kimi ciddi ölüm təhlükəsində qalan məzlum azəri qardaşlarımızın yardımına qalxın. Azərbaycan xalqı dünyanın ən igid, comərd, çalışqan və anlayışlı xalqlarındandır. Rus istilası və kommunist istibdadı onu bugünkü erməni cinayətlərinə qurban verib. Fəqət onlar qırmızı rus boyunduruğu altında yaşadığı zaman belə, bu qədər ağır duruma düşməyiblər və soyqırıma məruz qalmayıblar. Təəssüf ki, yenicə istiqlal və hürriyyətə qovuşduqdan sonra bir gün də olsa belə rahat nəfəs almayıblar. Üstəlik əmniyyətlərini, dolanışıqlarını, yurd-yuvalarını və hətta canlarını da itirməkdədilər. Əcəba, daima davam edən bu ölüm təhlükəsindən qurtulmaqçün nə etsinlər? Təkrar rus boyunduruğuna girsinlər? Təbii ki, buna nə özləri, nə Türkiyə, nə İran, nə də ki, bizlər təhəmmül edə bilmərik. Bu halda vaxt keçirmədən onların yardımına gedək və qardaşlarımızı bu zülm, yanğın və qırğından qurtaraq. Öz şərəf və heysiyyətimizi də qoruyaq. Səsimizə səs verəcəyinizə ümidli və əminəm. İranlı azəri qardaşlarınız adından hörmətimi bildirirəm.

Doktor Cavad Heyət.

Tehran, 21 noyabr, 1993-cü il

Cavad Heyəti evində, yazı stolu arxasında əyləşib məktub yazan anlarda görürük. O, məktuba son nöqtəni qoyub dərindən nəfəs alır.

YAŞAR QARAYEV: – Azərbaycan bu saat Qarabağ qayğıları ilə yaşayar. Və bu qayğılarla bağlı doktorun səsi, demək olar ki, əbədi-ictimai fəaliyyətinin bütün sahələrindən, dünyanın hər yerindən gəlir. Gah onu Süleyman Dəmirələ yazdığı məktubun səhifələrindən, sətirlərindən eşidirik, gah doktorun səsini İranın tibb dairələrində, tibb bakanlığında Azərbaycanın əvvəl yaralılarına, indi isə qaçqınlarına yardım, kömək üçün çağırışlarının səsi şəklində dinləyirik. Gah da Azərbaycan prezidenti ilə görüşlərdən gəlir bizim doktor Cavad Heyətin səsi. Bildiyiniz kimi, o, Cərrahlar Akademiyasının həqiqi üzvüdür. Doktor Cavad Heyət Azərbaycan Tibb Universitetinin fəxri üzvüdür, Azərbaycan Universitetinin, Bakı Dövlət Universitetinin, Təfəkkür Universitetinin… Onları sayıb-sadalamaqla qurtarmaq olmaz. Amma onların hamısının siyahısı, bizim bax bu otaqda yığışmış Elmi Şuranın üzvləri tərəfindən doktora təqdim olunmuş Nizami adına Ədəbiyyat İnstitutu elmi şurasının fəxri sənədi-diplomudur.

Doktor Cavad Heyət kadrda görünür. Başını qaldırıb pəncərəyə, pəncərədən görünən günəşə baxır. Sanki günəşlə görüşür, salamlaşır. Bu psixoloji ovqatla danışmağa başlayır.

CAVAD HEYƏT: – Ədəbiyyata mənim marağım çoxdan başlamışdır. Altıncı sinfi keçdiyim zaman

mən bütün Azərbaycan məktəblərində 3-cü oldum. Ona görə mənə bir Hafiz divanı bağışladılar, mükafat olaraq. Eyni zamanda bizim evimizdə "Hop-hopnamə" də var idi. Onun üçün mən bu iki kitabla ünsiyyət tapdım. Həm "Hop-hopnamə" ilə, həm də Hafizin divanıyla. Bu maraq məndə var idi. Sonra tibb fakültəsinin 3-cü sinfindən İstanbula getdim və orda gördüm ki, tibb tələbələri daha çox ədəbiyyatla, tarixlə məşğuldurlar. Orda ədəbiyyata, tarixə marağım artdı. Tibb təhsili ilə bərabər tarix və ədəbiyyatı da təqib etdim, izlədim. Parisdə də olduğum müddətdə, olduğum sənədə yenə fransız kitablarından tarixlə əlaqələndim. İnqilabdan sonra yavaş-yavaş kiril hərfləri ilə yazılmış Azərbaycan kitablarını başladım oxumağa. 34 sənədən bəri Şimali Azərbaycan ədəbiyyatı və dilçiliyi ilə də məşğul olmağa başladım.

* * *

Doktor Cavad Heyət məhəllə məscidinin qabağında dayanıb uşaqlıq illərini xatırlayaraq danışır.

CAVAD HEYƏT: – Bura "Əndölə" məscididir. Bizim evimizin tam üzbəüzündə, qarşısında. Burda Məhərrəm, Səfər aylarında mərsiyyə olardı, böyük vaizilər burda danışardılar. Rəhmətlik Mirhüseyn Vaizi kimi məşrutə rəhbərlərdən biri. Biz uşaq idik, gələrdik bura, onun sözlərinə qulaq asardıq. Məsciddə çox xatirəmiz var. Bizim evimizin tam qarşısında idi, ona görə axşamlar gələrdik bura.

Cavad Heyət məscidi kənardan seyr etdikdən sonra içəri daxil olur və oradakı yaşlı kişi ilə söhbət edir.

CAVAD HEYƏT: – Sizin adınız nədir?
KİŞİ: – Mənim adım Hacı Əbdülhəsəndir.
CAVAD HEYƏT: – Neçə yaşınız var?
KİŞİ: – Mənim 93.
CAVAD HEYƏT: – Maşallah.
KİŞİ: – Mən həmişə Mirzə Heyətin yanında olardım. (Kişi əli ilə Cavad Heyətin atasının evini göstərir) Mirzə Heyət orda olardı.

Cavad Heyət evlərini kənardan seyr edir, uzaq uşaqlıq illərini xatırlayır.

CAVAD HEYƏT: – Mən hər vaxt Təbrizə gedəndə uşaqlığım yadıma düşür. İlk məktəbə getdiyim günlər, o zamankı günlərim, xatirələrim gözümün qabağında canlanır. Mən bu günümü unuduram, uşaqlaşıram Təbrizdə.

Cənubi Azərbaycanın ən qədim, ən böyük şəhərlərindən olan Təbriz panoram və fraqmentik planlarda göstərilir. Sonra kadrda Şəhriyarın portretini görürük. Cavad Heyətin səsini bu təsvirlər üstündə eşidirik.

CAVAD HEYƏT: – Şəhriyar İranın XX əsrin ən böyük şairi sayılır. Zənn edirəm, bizim də istər cənub olsun, istər şimal olsun Azərbaycanın ən böyük şairlərindən birisidir. Şəhriyar fars şeirinin zirvəsinə çıxmış və müasir İranın Hafizi sayılır. Türk şeirində də "Heydər baba" məvzuəsini söyləməklə, zənn edirəm ki, o, türk şeirinin də

zirvəsinə çıxmışdır. Mənim onunla tanışlığım 1941-42-dən başlamışdır. O zaman İran müttəfiqlər qoşunu tərəfindən işğal olunmuşdu və Rza şah getmişdi. Tehranda mənim atam bir neçə Azərbaycan böyükləri ilə bərabər Azərbaycan Cəmiyyətini qurmuşdu. Oraya Şəhriyar gəlirdi, mən də gedərdim. Rəhmətlik doktor Nütqi də gəlirdi. Mən o cəmiyyətdə həm Şəhriyar, həm də doktor Nütqi ilə tanış oldum. Və o vaxtdan mən Şəhriyarla, Nütqi ilə dostluğumuzu davam etdirdik. Sonra bir neçə il mən İstanbulda, Avropada, Parisdə olduğum müddətdə əlaqələr kəsilmişdi. Sonra İrana qayıdıb işə başladıqdan sonra yenə bunlarla əlaqələrim yeniləndi və Şəhriyarı mən hər zaman Təbrizə gedişimdə gedər görərdim, danışardıq.

Doktor Cavad Heyət böyük Azərbaycan şairi Məhəmməd Hüseyn Şəhriyarın əzəmətli məqbərəsini, qəbrini ziyarət edir, onun qəbri yanındı dayanıb danışır.

CAVAD HEYƏT: – Bir gün professor Rüstəm Əliyev Tehrana gəlmişdi və orda Şəhriyarı soruşdu. Mən dedim ki, Şəhriyar daha ana dilində yazmır, fars dilində yazır. Rüstəm mənə dedi ki, bu sizin təqsirinizdir. Siz onu gedin gətirin buraya və ona yazdırın. Bu fikir mənim beynimə batdı və Səhəndi Təbrizə göndərdim. Şəhriyarın da mənimlə çox arası yaxşı idi, məndən söz eşidərdi. Məni sevərdi. Ondan xahiş elədik, ailəsiylə bərabər Tehrana gəldi və bizim evimizdə 5 ay qaldılar. Bu şəkildə yenidən biz əbədi məhvil qurduq. Türkcə, farsca şeir məhvi-

li. Və oraya Azərbaycan şairləri, fars şairləri gəlirdi, şeirlərini oxuyurdu. Şəhriyar da təkrar başladı türkcə şeir yazmağa. Sonra ona evimizin qarşısında bir ev tutduq. Bir neçə il orda idi. Xanımı vəfat etdikdən sonra yenə Təbrizə qayıtdı, amma bizim əlaqələrimiz həmişə davam edirdi.

Çox şadam ki, ustadın öz şeirini, həm də ana dilindəki bir şeirini qəbir daşının üstünə yazıblar.

Mehrabi-şəfəqdə üzümü səcdədə gördüm,
Qan içrə qəmim yox, üzüm olsun sənə sari.

Şəhriyarın sağlığında çəkilmiş kadrlar ekranda görünür. Kadr arxası təqdimatla şairin şeiri oxunur.

K/A MƏTN: – Azadlıq quşu varlıq.

Hərçənd qurtulmaq hələ yox darlığımızdan,
Amma bir azadlıq doğulur varlığımızdan.
Varlıq nə bizim təkcə azadlıq quşumuzdu,
Bir müjdə də vermiş bizə həmkarlığımızdan.
Bəh-bəh! Nə şirin dilli bu cənnət quşu – Tuti,
Qəndin alıb ilham ilə dindarlığımızdan.
Dil açmada karlıq da gedər, korluğumuz da,
Çün yallığımız doğmuş idi karlığımızdan.
Düşmən bizi əlbir görə təslim olu naçar,
Təslim oluruq düşmənə naçarlığımızdan.
Hər inqilabın vur-yıxı son bənnalıq istər,
Dəsdir, gərəy olmaq daha memarlığımızdan.
Huşyar olasız, düşməni məğlub edəcəksiz,
Düşmənlərimiz, qorxuruq hüşyarlığınızdan.
Birlik yaradın, söz bir olar biz kişilərdə,
Yoxluqlarımız bitdirəcək varlığımızdan.

Doktor Cavad Heyəti şəxsi klinikasında görürük. O, kadrda "Varlıq" jurnalı dərgisi haqqında danışır.

CAVAD HEYƏT: – Bundan 23 il əvvəl İranda İslam inqilabı oldu. İslam inqilabı olandan sonra bizə nisbi bir dil azadlığı verdilər. Çünşah zamanı o da yox idi. Qətiyyən Tinşah zamanı türkcə nəşriyyə çıxarmaq mümkün deyildi. İslam inqilabından sonra bu vəziyyət dəyişdi. Dərhal mən fürsətdən istifadə etdim və "Varlıq" nəşriyyəsinin imtiyazını aldım. Dilimizi, ədəbiyyatımızı bilən bir neçə azərbaycanlı dostumla "Varlıq" dərgisini çıxarmağa başladıq. O zaman mənə yardımçı olan arkadaşlarım bunlardır.

Doktor Cavad Heyət haqqında danışdığı dostlarının şəkillərini əlində tutub.

CAVAD HEYƏT: – Əlbəttə, şəkilləri burda olmayan daha bir neçə nəfər də vardır ki, o gün hazır ola bilməmişlər – doktor Fərzanə, mühəndis Əğnami, professor Həmid Məmmədzadə. Burdakılar, başdan məni tanıyırsız, doktor, professor Qulamhüseyn Beqdeli Bakıdan gəlmişdir, professor, doktor Həmid Nütqi – böyük ustad və türkoloq, İranda ümumi rabitələrin, əlaqələrin atası adı verilən bir şəxsiyyətdir. Mənim ən yaxın həmkarım doktor Nütqi olmuşdur. Sonra mərhum Pirhaşimi – Teymur Pirhaşimi, mərhum Mənzuri Xamneyi, mərhum Əli Kəmali savə türklərindən, ağayi Səməd Sərdariniya Təbrizdə bizimlə bərabər həmkarlıq edib, tarixi məqalələrimizi yazıb

farsca. Məşhur şairimiz Savalan Həsən Məcidzadə, bizim yaxın həmkarımız.

Tarixçi alim Səməd Sərdariniya Cavad Heyətin yaratdığı "Varlıq " jurnalındakı fəaliyyətini xatırlayır.

SƏMƏD SƏRDARİNİYA: – Mən 23 ildir ki, "Varlıq" jurnalında əməkdaşlıq edirəm, doktor Cavad Heyətin xidmətindəyəm. Bu 23 ildə biz Cavad Heyətlə Azərbaycanın tarix, kültür, ədəbiyyat və başqa sahələrində qələm vururuq. 23 ildə böyük xidmətlər edib bu jurnal Azərbaycan xalqına. Bu kişi bizim üçün də, doktor Cavad Heyətin tamam əməkdaşları üçün də bir ruhani atadır. Biz bu kişidən çox sözlər öyrənmişik. Biz bundan yaşayış dərsi almışıq. Bu bizə bir böyük atadır. Bizə yox, Azərbaycan xalqına, deyə bilərəm ki, layiqən bir atadı. O qədər xidmət edib. Doktor Cavad Heyət ikinci Cəlil Məmmədquluzadədir jurnalistika sahəsində. Bu o qədər xidmət eləyib, çün mən yaxından onun işlərin görmüşəm, xidmətlərin görmüşəm. Mən bilirəm ki, o, gecə-gündüz çalışıb, Azərbaycan xalqına xidmət edib, həmişə də təvazökarlıqla, heç bir dəfə də bu xidmətlərini dilə gətirməyib. Bunun elə yüksəkliyi, əzəməti və böyüklüyü ondadı.

Kadrda Cavad Heyət şəxsi klinikasında söhbətini davam etdirir.

CAVAD HEYƏT: – Çünki bizim məktəbimiz yox idi, "Varlığ"ı məktəb hesab etdik. "Varlıq"da silsilə məqalələrlə dilimizin tarixini, dilimizin

qrammatikasını, sonra ədəbiyyat tariximizi, folklorumuzu yazmağa başladım ki, oxucular kitab oxuyurmuş kimi müntəzəm məqalələri, silsilə məqalələri oxusunlar və dilimizi, ədəbiyyatımızı, tariximizi öyrənsinlər. Bu sırada mən yazdığım silsilə məqalələri ayrıca kitab şəklində nəşr etməyə başladım. "Azərbaycan şifahi xalq ədəbiyyatı", "Azərbaycan ədəbiyyat tarixinə baxış", "Türklərin tarix və mədəniyyətinə bir baxış", "İki dilin müqayisəsi", "Müqayisətül lüğəteyn", "Türk dili və ləhcələrinin tarixi" kitablarını farsca nəşr etdirdim. Mətnlər türkcə, amma əsas izahat farsca. Ona görə farsca nəşr etdirdim ki, oxusunlar, bütün iranlılar görsünlər ki, türk dili nə qədər əzəmətli, zəngin, gözəl, musiqili bir dildir. Və bizim ədəbiyyatımızla da tanış olsunlar. Bura eyni zamanda "Varlıq" dərgisinin də bürosudur. 8 sənədən bəri mənim aqrabam Məmmədrza Heyət mənimlə həmkarlıq edir məcəllədə. Bu işi biz bu günə qədər apara bilmişik. Əlbəttə, bunlar asan olmayıb. Əvvəla, həkimlikdən təmin etmişəm onun malı-məsrəfini. Ondan sonra onun başqa narahatlıqları, mənəvi narahatlıqlarının hamısına biz dözmüşük, hamısına. Ona görə də dərgini bu günə qədər davam etmişik. Çox şükür, bu gün bəlkə 70-ə yaxın qəzet və dərgi çıxır bizim dilimizdə. Tələbələr, öyrəncilər, bütün universitetlərdə, bütün İran şəhərlərindəki universitetlərdə oxuyan azərbaycanlı tələbələr dərgilər çıxardırlar. 35-ə qədər öyrənci dərgisi var – türkcə, farsca. Sonra bir neçə qəzet var. Halbuki uzun illər "Varlıq" tək idi. Amma indi tək deyil,

çox şükür. İndi bizim xalqımızda mədəni, milli şüur yaranıb. Özünü tanıyır, dilini yaxşı bilir. Dilində yaza bilir, oxuya bilir, ədəbiyyatını bilir, tarixini bilir, hər mədəni xalq kimi.

Cavad Heyətin evi panoram edilir. Kamera irəliləyərək evə daxil olur. Tipik planlar bir-birini əvəz edir. Doktor Cavad Heyət evində, ailəsi ilə birlikdə görünür.

CAVAD HEYƏT: – Mən iki dəfə evlənmişəm. Bir dəfə İstanbulda. Ondan dörd qızım olub. İkisi həkimdi. Biri İstanbulda göz həkimidir – Məhin, biri Los-Ancelsdə diş həkimidir – Maral. O birilər də yüksək təhsil görmüşlər. Üçü hal-hazırda evlidir, beş nəvəm var. Sonra ikinci dəfə evlənmişəm Fəridə xanımla. Bir qızım var Savarz adında.

Sovet rejimi vaxtında da mən buraya gəlmişəm. Buranı gördükcə daha çox sevdim. Gördüm ki, şah zamanında aparılan təbliğatlar hamısı boşuymuş. Moskvada bir beynəlmiləl cərrahi cəmiyyətində və qurultaylarında İran nümayəndəsi kimi həmişə iştirak edərdim. Mən bu fürsətdən istifadə elədim və Bakıya gəldim, sonra Moskvaya getdim. Ondan sonra professor Nurəddin Rzayevlə, bir neçə cərrahla dost olduq. Rüstəm Əliyevlə dost olduq, Bəxtiyar Vahabzadəylə dost olduq, sonra Nəbi Xəzriylə dost olduq. Sonra buraya dəvət olundum mən Nəbi Xəzri və Nurəddin Rzayev tərəflərindən. Və get-gedə həm Şimali Azərbaycan haqda məlumatım artdı, həm sevgim. Şimali Azərbaycan müstəqil olandan sonra da buraya sıx-sıx gəlməyə başladım və burda ədəbiyyatçılarla həmkarlığım var.

Nurəddin Rzayev kadrda görünür.

NURƏDDİN RZAYEV (tibb elmləri doktoru): – Cavad bəy təkcə cərrah deyil, Cavad bəy universal bir həkimdir. Həkimliyin elə bir sahəsi yoxdur ki, orda Cavad bəyin kifayət qədər dərin biliyi olmasın. Bir çox şeylərdə o, Şərqdə – islam aləmində birincidir. Birinci ürək köçürülməsi, birinci böyrək köçürülməsi, açıq ürəkdə birinci operasiyaları Cavad bəy eləyib. Cavad bəy bura gələndə birinci fəxri diplomundakı Cərrahlar Cəmiyyətinin fəxri üzvünü bizim institutumuzda alıbdı. Onda diplom bir idi, indi bir iyirmisi var, mənim bildiyim, iyirmi beşi var, divarda görəndə, siz təsəvvür edin, mənim qürurum nə qədər olmalıydı ki, zəmanəmizin ən böyük həkimi, ən böyük dilçisi, tarixçisi, ədəbiyyatçısı bizim cərrahlar cəmiyyətinin diplomunu öz otağında, kitabxanasında divara vurub.

Doktor Cavad Heyət İran İslam Respublikasında Azərbaycan Respublikasının səfirliyinə gəlir. Səfirliyin binası panoram edilir. Binanın üstündəki Azərbaycan bayrağı ön plana gətirilir. Cavad Heyət fərəhlə milli bayrağımıza baxıb, səfirliyə daxil olur.

ABBASƏLİ HƏSƏNOV (Azərbaycanın Respublikasının İİR-dəki fövqəladə və səlahiyyətli səfiri): – Doktor Cavad Heyət Azərbaycan-İran münasibətlərinin genişlənməsini, inkişafını ürəkdən istəyən bir şəxsdir. O, Azərbaycan-İran arasında dostluq körpüsünün təməl daşlarından biridir. Bütün vücudu ilə bu münasibətlərin, bu dostluq körpü-

sünün möhkəmlənməsi üçün çalışıbdı. Doktor Cavad Heyət İranda da sevilir, Azərbaycanda da sevilir, başqa ölkələrdə də sevilir. Doktor Cavad Heyətin tez-tez müxtəlif ölkələrə səfəri olur və istər-istəməz o, alim kimi, həkim kimi öz təcrübəsini başqa alimlər arasında yaymağa, başqa dünya elmindən faydalanmağa çalışır. Digər tərəfdən isə Azərbaycan-İran tarixini, Azərbaycan-İran mədəniyyətini başqa ölkələrdə yaymaqdan heç vaxt yorulmur. Doktor Cavad Heyətin bu baxımdan fəaliyyəti, mən deyirdim ki, biz diplomatların gördüyümüz işlərin bir növ tərkib hissəsidir. Çünki biz də, diplomatlar da çalışırıq ki, xalqlararası, dövlətlərarası münasibətlər inkişaf etsin. Doktor Cavad Heyət də bunu istəyir. Azərbaycan-İran arasında münasibətlərin inkişafı üçün əməli işlər görür.

Doktor Cavad Heyəti müstəqil Azərbaycan Respublikasının paytaxtı Bakıda, qədim Şirvanşahlar sarayında görürük. O, fəxrlə sarayı gəzir.

CAVAD HEYƏT: – Mən bilirəm ki, İran xalqları, İran milləti azərbaycanlıları sevir. Necə sevməz? Burda 7 milyon varsa azərbaycanlı, İranda 30 milyon hüdudunda Azərbaycan türkü var. Onunçün sizləri orda hamı sevir. Əlbəttə, düşmənlərimiz də vardır. Bu ifrat milliyyətçilik, bu bir xəstəlik kimi gəlmiş Orta Şərqə. Əlbəttə, hər kəs öz xalqını sevməlidir, milli şüuru olmalıdır, vətənini sevməlidir. Amma bu o demək deyil ki, öz xalqını hamıdan üstün bilsin, başqa xalqlara düşmən kəsilsin. Belə deyil bu. Qurani-Kərimdə də var, ayə vardır bu barədə

ki, biz insanları müxtəlif rəngdə, dildə, irqdə, müxtəlif qəbilələrdə yaratdıq ki, bir-birini tanısınlar. Deməyib ki, bir-birinə düşmən kəsilsinlər. Tanımağın şəraiti var. Bir ölkə bir ölkəni tanıdımı, onunla dostluq münasibəti bərqərar edər, bir-birinə hörmət göstərər. Demək ki, bu tanımağın çox vəzifələri, təklifləri var. O təklifləri biz yerinə yetirsək, kafi elər, biz dost, qardaş oluruq. Baxın, İranda zəlzələ oldu. Biz gördük necə Şimali Azərbaycandan xalq öylə içindən gələn bir hisslə bizim yardımımıza gəldilər. Və o zaman kimsə xəlqə "sən get İrana, get Rəştə, Gilana, Ərdəbilə kömək et" demədi. Özləri gəldi. Ya məsələ, burda 20 Yanvar oldu və rus ordusu burda camaatı qırdı. Sizinlə bərabər biz də yas tutduq, qırxına qədər, məqalələr yazdıq. Qarabağ faciəsi yalnız sizi kədərləndirmədi, yasa bürümədi. Bizi də kədərləndirdi, yasa bürüdü. Əsasən mən "siz-biz" deməyə heç razılıq verə bilmirəm. Biz hamımız birik. Qarabağ məsələsi bizim ürəyimizdə taxılıb qalır. İnşallah, bütün ümidimiz budur ki, bu, bir gün sülh yolu ilə həll olunsun və haqq haqlıya verilsin. Mən ümidliyəm, gələcəyə ümidliyəm. İnşallah görəcəyik. Bir gün mən prezidentlə danışırdım və dedim: "Görəsən, o günü görəcəyəm mən?" Prezident dedi: "Əlbəttə ki, görəcəksiniz ki, biz yenə Qarabağı Azərbaycana qaytarmışıq və orda görüşəcəyik". İnşallah!

SON

2001-ci il

MƏMMƏD ARAZ

Naxçıvanın uca, silsilə dağları, geniş düzənlikləri panoram olunur. Bu ümumi panoram planlardan Şahbuz rayon mərkəzinin bütöv görünüşünə keçilir. Sonra xalq şairi Məmməd Arazın dünyaya gəldiyi kənd, ata yurdu ümumi və fraqmental planlarda təqdim olunur. Şairin uşaqlıq və gənclik illərini əbədiləşdirən köhnə fotolar bir-birini əvəz edir...

Xalq şairi Məmməd Arazı öz evində, iş otağında, yazı masasının arxasında görürük. Şair dərin düşüncələrə dalıb. Stolun üstündəki lampanın qızılı rəngi sanki şairin gözlərində əks edir, qəribə assosiasiya yaradır. Şair qarşısındakı ağ vərəqə baxır, titrək əllərini gizlədir, duyğu-düşüncə dolaylarında xəyali gəzintisini davam etdirir. Sanki o ruhi gəzintinin şerə dönən səsini eşidirik.

MƏTN: – Bir taleyin oyununda cütlənmiş zərik,
Yüz il qoşa atılsaq da, qoşa düşmərik.
Bir zərrənin işığına milyonlar şərik,
Dünya sənin,
Dünya mənim,
Dünya heç kimin...

Çevrəsindən çıxsa əgər sevda fırfıran,
Bir ümidin ətəyindən tutub da fırlan.
Eşidirsən: pıçıldayır yıxılan, duran,
Dünya sənin,
Dünya mənim,
Dünya heç kimin…

Bu get-gəllər bazarına dəvədi dünya,
Bu ömür-gün naxışına həvədi dünya.
Əbədiyə qəh-qəh çəkər əbədi dünya,
Dünya sənin,
Dünya mənim,
Dünya heç kimin…

Ayaq saxla, dövrənə bax ötəri belə,
Min illərdir Araz belə, Həkəri belə.
Axşamların, səhərlərin təkəri belə,
Dünya sənin,
Dünya mənim,
Dünya heç kimin…

Gülünclərə gülünc gələn bu ada güldüm,
Yüyəninə hər əl yetən bu ata güldüm.
Mən özümlə oynadığım şahmata güldüm,
Dünya sənin,
Dünya mənim,
Dünya heç kimin…

Naxçıvanın qeyri-adi, əfsanəvi qayaları… Əshabi-Kəhf mağarasından möcüzəli görüntülər. Və şair düşünür. Xalq artisti Mikayıl Mirzə onun sənət dünyası haqqında qısa söz deyir. Bu sözü şairin müxtəlif foto və kino-xronika təsvirləri tamamlayır.

MİKAYIL MİRZƏ: – Bu yaxınlarda əlimə Səttar Bəhlulzadənin eskiz dolu bir dəftərçəsi keçdi və heyran qaldım rənglər dünyasına, rənglər aləminə. Bir artist kimi özüm üçün bir şey kəşf elədim ki, Səttar dünyası rənglərlə başlayıb, rənglərlə sona çatır. Nədədir bu rənglərin gücü?

Səttar Bəhlulzadə bu eskizdə ancaq yeddi rəngdən istifadə edib. Ancaq seyrçi, tamaşaçı bu yeddi rəngin arasında min bir rəng çalarını duyub sezə bilir və bu sistem ancaq və ancaq Səttar Bəhlulzadə yaradıcılığına xasdır. Beləcə mən Məmməd Arazı oxuyarkən rənglər dünyasına düşürəm və heyrət edirəm bu rənglər dünyasına. Məmməd Araz şeirində ağıl, düşüncə, hiss, emosiya gözəl dilə bələnib, oxucu dilində nəğməyə çevrilir.

Şairin doğulduğu kənd. Ümumi Şahbuz mənzərələrinin ümumi fonunda məlum şeir oxunur. Məmməd Arazı öz dədə-baba kəndində, doğmalarının arasında görürük. O, nəhəng ağaca söykənib baxır. Nursu bulağı sanki şairin gözlərindən, üzündəki dumduru təbəssümündən axıb tökülür…

MƏTN: – Budur, uşaqlığım keçən o yerlər!
Çadırdaş ətəyi, Nursu bulağı.
Burda böyümüşəm, burda deyirlər,
İnana bilmirəm, bilmirəm axı.

Bu dağlar, dərələr dəyişib yaman,
Dərələr daralıb, dağlar alçalıb.
O zaman nərəsi qulaq batıran,
Çayın da bir bulaq nəğməsi qalıb.

Mənim şimşəklərim hara şığıdı?
Mənim dolularım haraya yağdı?
Mənim yağışlarım daha şıdırğı,
Qarım daha təmiz, daha da ağdı.

O zaman ləpirim quşlar hürküdür…
Torağay çıxmazdı qarşıma belə.
Kəpənək qonmazdı çiynimə bu cür,
Yemşan ələnməzdi başıma belə.

O zaman yarpaqlar biri bir palaz,
İndiki yarpaqlar qulaq boydadır.
O zaman uşaqlar böyükdü bir az,
İndiki uşaqlar uşaq boydadır.

Mənim öz gecəmin öz ayı varmış,
Hardasa uyuyur, qocalıb indi.
Mənim ulduzlarım yağı qurtarmış,
Çırağımız kimi sozalıb indi.

Burda dəfn olunub anamın qəbri,
Qəbirlər batıqdır əvvəlki kimi.
Nənəmin qəbrilə babamın qəbri
Yanaşı yatıbdır əvvəlki kimi.

Bu yerlər necə də o yerlər deyil!
Bu yerlər necə də o yerlərimiş!
Gedən günlər ilə ömürlər deyil,
Təbiət gedərmiş, iqlim gedərmiş…

* * *

Nursu kəndinin şairanə təbiəti fonunda Məmməd Arazın uşaqlıq dostu Zeynal Bağırovu görürük. Kənd təsvirləri, uşaqlıq fotoları və kino-xronika bir-birini əvəz edir, tamamlayır. Filmin bu məqamında şairin uşaqlıq dünyasının bədii təqdimi əsas məqsəddir. Bu bədii təqdim sənədli materiallara əsaslanır.

ZEYNAL BAĞIROV: – Məmməd Arazla mən bir yerdə böyümüşük. Daha doğrusu, bizi o zaman yaylağa köçürərdilər. Şahbulaq yaylağına. Atalarımız aparıb alaçıq qururdular orda. Mal-qaramız, heyvanımız müəyyən qədər vardı. Biz də uşaq idik. Bizi də aparıb qoyurdular o uaulaqda, anamızın yanında. Mərhum Cahan xala, Məmməd Arazın anası, mənim anamla bir yerdə çörək bişirirdilər, bir yerdə çay qoyurdular, alaçığımız qoşa idi.

1937-ci ildə Məmməd Arazla, bu tarix mənim heç yadımdan çıxmaz, məktəbə getmişik, birinci sinfə. Özü də bir partada əyləşmişik. Kəndimizin ayağında üç otaqlı bir məktəb vardı. Bir ay orda oxumuşuq, Nursu kəndində. Bir aydan sonra bu köhnə bina ki var, dünən uşaqlar mənə dedilər ki, şəklini çəkirlər (kadrda həmin məktəbdən görüntülər görünür), o məktəbin binasının özülünü qoymuşdular, tikdilər. Kolxoz təzə qurulmuşdu, kolxozçuların köməkliyi ilə tikdilər. Sonra gəldik ora. Özü də biz oxuyanda indiki latın əlifbası ki var, onunla öyrənmişik.

Bir dəfə bir uşaq şuluqluq eləmişdi. Məmməd Arazla məni məhbus kimi məktəb direktorunun kabinetinə apardılar. Şuluqluq üstündə. Guya ki, biz eləmişik. Amma əslində bizim xəbərimiz yox idi. İbrahim müəllimi, Məmməd Arazın qardaşını bilmirəm hansı kəndəsə məktəb direktoru göndərmişdilər. O heç burda işləmədi. Sonra buranı qurtardıq, özü də imtahanlarımızı Şahbuz Rayon Xalq Maarif Şöbəsində, Çay Şahbuz deyirlər, rayonun

mərkəzi, orda verdik. Rayonda da bircə Azərbaycan dilində orta məktəb Şahbuz kəndi deyirlər, orda idi. Getdik orda oxuduq. Məktəbi qurtarandan sonra mən Naxçıvan Dövlət Müəllimlər İnstitutuna getdim, ikiillik. Məmməd Araz birbaşa Bakıya getdi. Özü də o, bizim hamımızdan yaxşı oxuyurdu.

O vaxt ixtisas müəllimi olmadığına görə Məmməd Araz institutu qurtaranda birinci ili bura müəllim təyin elədilər. Kimya müəllimi yox idi, kimya dərslərini dedi bu məktəbdə. Heç kəs onu boynuna çəkə bilməzdi.

Məmməd Araz orta məktəbdən, ümumiyyətlə, güclü, qüvvəli idi, yaxşı oxuyurdu. Sonra o, coğrafiya fakültəsinə qəbul olundu. Dedim, Məmməd, axı sənin şeirin, qələmin? Torpağın üstündə də bəzən oturub yazı yazırdı, elə əvvəldən həvəsi vardı. Dedim, sənin axı meyilin bu tərəfə idi? Dedi, dəxli yoxdur. Coğrafiya müəllimliyini qurtardı. Öz istəyinə nail oldu.

Filmin əsas leytmotivi – şairin iş otağındakı düşüncələr, möcüzəli yaradıcılıq anları diqqət mərkəzindədir. Qızılı çıraq və Məmməd Arazın sirli təbəssümü qeyri-adi assosiasiya yaradır, Və bu sehrli video anlardan növbəti şeirə keçid edilir.

MƏTN: – Mən özüm bilirəm nəçiyəm, nəyəm,
Tikdiyim bu daxma, hördüyüm budur.
Odası təptəzə, odu köhnəyəm;
Əlimdən bu gəlir, gördüyüm budur…
Beşi xoşlasa da, biri xoşlamaz,
Sinəmdə buz yanar, canlı qışlamaz,

Qələmim ot biçməz, küləş xışlamaz;
Məni bağışlayan olarmı?
Çətin!..
Özümdən danmışam öz günahımı,
Nə qədər xeyrimiz, şərimiz qalıb.
Dərdsiz yox bölüşəm könül ahımı,
Bircə soyulmayan dərimiz qalıb.
Soyun dərimizi, soyun yaşayaq,
Beş günlük ömürdü, qoyun yaşayaq.
Qurd ola bilmədik, qoyun yaşayaq…
Məni bağışlayan olarmı?
Çətin!..

Məmməd Arazın 60 illik yubiley gecəsindən müxtəlif görüntülər… Xalq artisti Mikayıl Mirzə şairin şeirini söyləyir. Şeir alqışlarla qarşılanır.

MİKAYIL MİRZƏ:

– Talelər dayaqsız dayaqlar üstə
Bir qəlbi göynətmir min könül dərdi.
Tüstülü, tüstüsüz ocaqlar üstə
Aşları buğlanan biganələrdi.
Mən ki hər ölənlə ölə bilmirəm,
Mən ki bölünməzi bölə bilmirəm,
Üzü dönüklərdən dönə bilmirəm,
Məni bağışlayan olarmı?
Çətin!..

Məmməd Arazın 60 illik yubiley gecəsi davam edir. Filologiya elmləri doktoru, professor Nizami Xudiyevin çıxışı.

NİZAMİ XUDİYEV: – Azərbaycanın böyük şairi Məmməd Araz bizim Azərbaycan Dövlət Pedaqoji

Universitetinin coğrafiya fakültəsini bitirib. Şair kitablarının birinin girişində, ön sözündə yazır ki, mən rektorluğa ərizə ilə müraciət etdim ki, məni coğrafiya fakültəsindən ədəbiyyat fakültəsinə keçirsinlər. Lakin rektorluq buna razılıq vermədi. Və mən indi deyərdim ki, yaxşı ki, razılıq vermədi. Əgər razılıq versəydi, bu gün Məmməd Araz yaradıcılığında Azərbaycanın coğrafiyası və Azərbaycanın obrazı – dağı, daşı, qayası, çəməni, çayları bu qədər dolğun əks olunmazdı. Və görünür, şairin ümumi qənaəti belə konkretliyə malik olmazdı. Məmməd Arazı böyük türk dünyasına Azərbaycanımızın ən qədim tarixə malik olan dilbər guşələrindən biri Naxçıvan torpağı bəxş edib. Bu o torpaqdır ki, Şərqin ilk astronomu Nəsrəddin Tusi bu torpaqdan ulduzları seyr etmiş, hürufilik təriqətinin banisi Fəzlullah Nəiminin əsarətə qarşı üsyan səsi bu torpaqdan ucalmışdı. XII əsrin böyük memarı Əcəmi Əbubəkr Naxçıvani, Şərqin böyük qadın şairi Heyran xanım, tarixi romanlar ustası Məmməd Səid Ordubadi, Molla Nəsrəddin məktəbinin banisi Cəlil Məmmədquluzadə, böyük romantik şair, dramaturq Hüseyn Cavid bu torpağın övladlarıdır.

Məmməd Araz öz torpağı haqqında:

"Qəlbimdə bu yerin dağ havasıdır,
Qaynar bulaqların qaynar qanımda.
Mənim ürəyimin bir parçasıdır,
Doğma Şahbuzum da, Naxçıvanım da"

deyən şair Şahbuzdan, Naxçıvandan Azərbaycan

dünyasına necə hiss olunmadan çıxırsa, Azərbaycandan da dünyaya o cür hiss olunmadan çıxır.

Məmməd Araz poeziyası ilə şeir, sənət dünyasına nur saçdı.

İcazə verin kollektivimiz adından Məmməd Arazı təbrik edim, ona uzun ömür, həyatın ən şirin neməti olan can sağlığı arzulayım və "Araz" lövhəsini təqdim edim. Bu, Araz sahilindəki Gülüstan qalasıdır. İndiyə qədər o, tikanlı məftillər arasında XII əsr abidəsidir və o taylı-bu taylı Azərbaycanımıza keşik çəkir. Məmməd Araz da bizim Araz şairimizdir. Arzumuz budur ki, bu qala kimi daima yaşayasan. Sağ ol.

* * *

Şairi öz evində, yazı masası arxasında görürük. Qarşısında yarımçıq yazı, əlində qələm. Büsbütün duyğular dünyasındadır, gözlərində sirli bir təbəssüm dolanır. O, sözün, sənətin heykəlinə bənzəyir (çəkilişdə bu məqam nəzərə alınmalıdır) və şeirin ayaq səsləri filmin ruhunu davam etdirir.

MƏTN: – Ələ gəlməz əldən gedən,
Şamamalı tağ quruyar.
Gül olmasa güldən gedər,
Tufan qopar, bağ quruyar
İndi vaxtın o vaxtıdır.

Bilmək olmur başın üstdən
Uçan quşdur, uçan daşdır.
Gözlərimdən nur istədi
Neçə gözsüz, gözü yaşlı,
İndi vaxtın o vaxtıdır.

Ünvanımı itirən çox
Təzə ünvan alan yoxdur.
Şübhə adlı vədəm hazır,
İnam adlı qalam yoxdur,
İndi vaxtın o vaxtıdır.

Qoca dustaq, körpə şəhid,
Nə gəzirdim, nələr gördüm.
Kişi gördüm dəm gölündə,
Qadın gördüm, mələr gördüm,
İndi vaxtın o vaxtıdır.

Bir-birinə tən yazığın
Söz didməyə yatmaz əli.
Sən yazığa mən yazığın
Yetər nəfsi, yetməz əli,
İndi vaxtın o vaxtıdır.

Haqdan qələm gəlsə belə,
Öz vaxtını özün yazsan,
Yüz dalğaları, min çalxalan
Sınma, sınsan yapışmazsan,
İndi vaxtın o vaxtıdır.

Şairin 60 illik yubileyindən fraqmental görüntülər təqdim olunur. Filologiya elmləri doktoru, tənqidçi Aydın Məmmədov Məmməd Araz poeziyası haqqında söz deyir.

AYDIN MƏMMƏDOV: – Şeirdə həm obrazlılıq olmalıdır, şeirdə həm dərin fikir olmalıdır, şeirdə həm təbiilik olmalıdır və bütün bunlarla yanaşı, heç şübhəsiz ki, birinci növbədə şeiri yaratmaq üçün şəxsiyyət olmalıdır, insan olmalıdır.

Biri mənə şair dedi, dondum yerimdə
Hər çiynində ağır bir qurquşun tayı.
Dünya məndən yer istədi bəbəklərimdə
Elə bil ki, canlı yoxdur məndən savayı.

Mənə belə gəlir ki, Məmməd Araz şeirinin, şeiriyyətinin əsas mayası bu mürəkkəb dünya ilə təkbətək qalıb; bu dünyanın dərdini-sərini özünün şair prizmasından keçirə bilmək bacarığıdır.

Deyirlər, sən nə üçün yaxşı yazırsan?

Deyir, eləsi var ki, həddindən artıq çox yazır, ona görə də o, həm yaxşı yaza bilər, həm pis yaza bilər. Amma mən həmişə az yazıram, yaxşı yazmaqdan başqa çarəm yoxdur. Eyni sözlər Məmməd müəllimə də aiddir, çünki Məmməd müəllim də az yazır, yaxşı yazmaqdan başqa da çarəsi yoxdur.

* * *

İBRAHİM İBRAHİMOV: – Məmməd Araz Məmməd Araz kimi yox, balaca, arıq bir uşaq kimi bu yurdda böyüyüb, bu evdə dünyaya gəlib. Məmməd məndən çox kiçikdir. Təxminən 12-13 yaş mən böyüyəm. Məmməd dünyaya gələndə sevindim, mən təkcə oğul idim. Sonra Əbülfəz də dünyaya gəldi. O, gec gəldi. Əbülfəz məndən 16-17 yaş kiçikdir. Onda da sevindim, amma Məmməd olanda daha çox sevinmişdim ki, mən tək idim. Anam Cahan, onu da qeyd edim ki, mənim anam şair idi, oxumamış şair idi. O deyərdi, bala, evə adam gəlir, bu uşağı götür at dala. Dal küllük idi, belə gözəllik deyildi hələ.

Aldım, baxdım, gördüm ki, arıq uşaq idi. Dedim mənim qardaşım görən nə olacaq. Sonra o uşaq getdikcə əmələ gəldi, arıq olmasına baxmayaraq, çox çevik, ağıllı, fərasətli uşaq olmağa başladı. Çox da dəcəl idi. Dəcəl Məmməd yavaş-yavaş məktəbə getdi, oxumağa başladı.

MİKAYIL MİRZƏ:

Bir səhər qəribə mənzərə gördüm
Ocaq tüstüləri millənib göyə.
Nə isə şairi fikir götürdü
Tüstüsü düz çıxsın kim deyib, niyə?
Fərqi yox ocaqda nə bişir, bişib
Tüstüsü düz çıxır ocaqdı demək.
Ocaq qırağında şeytan əyləşib,
Ya mələk? Tüstüdən nə bilinəcək.
Səhər küləyini səslədi qoca,
Gördüyüm bəlkə də duman, yuxudur.
Vur, dağıt gözümün qabağındaca
Düz çıxan tüstülər çox qorxuludu.
Düz çıxan tüstülər göyü də deşər,
Tüstülər burula, yata yaxşıdır.
Hərdən bir qayaya, dağa ilişər
Babalar qəbrinə çata yaxşıdır.
Burda, bu şəhərdə bir ocaq yanır
Tüstüsü topasız, tüstüsü zəif.
Orda Məmməd Araz qəlbi odlanır
Qılıncdan kəsərli, ipəkdən zərif.
Doğub ürəyimi ağıl, ağıllı ürək olub
İşdi bu gün itirsə, tapar gələcək olub.
Onu bir damla kimi dənizə tullasalar
Dalğalarla birləşib dağ yıxan dalğa olar.
O kiminin gözündə alışır ocaq kimi

Kiminin də gözünə sancılar bıçaq kimi.
Onu bir ola qəfil daşatandan qoruyun
Bir də qoltuqlar altda yaşadandan qoruyun.

* * *

MİRVARİD DİLBAZİ: – Mənim sizə indi oxuyacağım şeirin qəribə bir tarixi vardır. Bir dəfə mən Məmməd Arazın bir şeirini oxudum – "Məni tənkləməyin". Bu şeir mənə çox ağır təsir bağışladı və ona bu şeiri ithaf etdim. 1981-ci ildə yazmışam.

Tanıdım mən səni bir daha kimsən!
Sən ustad şairsən, sözə hakimsən.
Bizim muğamlarda sən elə simsən,
Daşlara çalsalar qırıla bilməz.

Sən Vətən havalı, el nəfəslisən,
Bizim poeziyada bahar fəslisən.
Nizami, Füzuli, Vaqif nəslisən,
Sənətin yollarda yorula bilməz.

Durmuş zalım azar sənlə qəsdə
Ey qələmi qızıl, şeiri güldəstə.
Elə sənətkarsan yolunun üstə
Təkliyin qılıncı sıyrıla bilməz.

Kim səni təkliyər, sənin xalqın var,
O qoynunda nadir incilər saxlar.
İndisə qəlbində olmasın qubar
Hər sədəf içində dürr ola bilməz.

* * *

MƏTN: – Ah, bu qısa sevda yolu
Vurulmadı başa, könül,
Halal qəlbə yol axtardım,
Çıxdı yolun daşa, könül.

Dönnəm ömrün qürubundan
Yön olsam mərd qururundan.
Vəfalıya canım qurban,
Vəfasızdan haşa, könül.

Bu olacaq heşnən oldu,
Namərd atan daşdan oldu,
Sənin ağlın başdan oldu
Nadan keçdi başa, könül.

Bir də hardan bizi anlar
O zamanlar, o məkanlar?
Əlimizə o xoş anlar
Bir də çətin düşə, könül.

Günahkarı mənmi, sənmi?
Gör anlaya bilərsənmi?
Gör yaşaya bilərsənmi?
Yaşa mənsiz, yaşa, könül.

Səhər. Şairin iş otağı. Həyat yoldaşı onun əlyazmalarını köçürür. Məmməd Araz ömrünün müxtəlif anlarını əbədiləşdirən foto və kino təsvirləri…

MƏTN: – Hələ ömrümüzün nə yazı olub,
Hələ bu dünyada nə yaşamışıq.
Bizim payımıza çatası olub
Təsəlli bir qaşıq, ümid bir qaşıq.

Demə ki, ömrümüz keçdi yarıdan
Biz yenə ümidli günlər yarıyıq.
Biz ki, gələcəyə inam sarıdan
Dünyanın ən varlı adamlarıyıq!..

Tanrım, məni məndən qoru bu yaşda:
Hər döngəyə döndərməyim döngəmi,
Boyaqçıdan borc almayım rəngimi,
Zurnaçıya pay verməyim cəngimi.

İnsana yad insanlığım göyərsə,
Yaxşı şumda yamanlığım göyərsə,
Köhnə-kösöy şeytanlığım göyərsə,
Tanrım, məni məndən qoru bu yaşda.

Bu dəyirman: nahaqqı dən, haqqı dən;
Ölən öldü: nahaqqı tən, haqqı tən;
Nahaqqa tən olan yerdə haqq itən…
Tanrım məni məndən qoru bu yaşda.

Tapqır bildim, quşqun bildim yaltağı,
Alçağa da alçalan gör alçağı.
Alçalmalı bir məqamda çal-çağır!
Tanrım, məni məndən qoru bu yaşda.

Bəla budur: dəmli ola bu dəstgah,
Sonra ipək nənni ola bu dəstgah,
Sonra məzar yönlü ola bu dəstgah…
Tanrı məni məndən qoru bu yaşda.

Mədəniyyət naziri Polad Bülbüloğlu 60 illik yubiley təntənəsində çıxış edir və sonra əlindəki qovluğu açıb

prezidentin təbrik məktubunu oxuyur.

POLAD BÜLBÜLOĞLU: – Xalq şairi Məmməd Araza.

Hörmətli Məmməd Araz! Sizi anadan olmağınızın 60 illiyi münasibətilə səmimi qəlbdən təbrik edirəm. 40 ildən çoxdur ki, dərin fəlsəfəli lirikanız çağdaş Azərbaycan poeziyasını zənginləşdirməkdədir. Məmməd Araz istedadının, təfəkkürünün məhsulu olan yüzlərlə şeiriniz milyonların qəlbinə yol taparaq özünə və sizə əbədi yaşamaq hüququ qazandırıb. Əmin olduğumu bildirmək istəyirəm ki, xalqımızın mənəvi təkamülündə, gənclərimizin estetik tərbiyəsi yolunda bundan sonra da yorulmadan çalışacaq, qədim və zəngin ənənələri olan milli poeziyamıza yeni töhfələr bəxş edəcəksiniz. Sizə uğurlar, xoş günlər arzulayıram.

Dərin hörmətlə: Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti.

* * *

Yollar uzanır. Quba. Kənd evi, təbiət təsvirləri fonunda şairi görürük. O, əl ağacına söykənərək təbiətə baxır, düşünür. Tamaşaçı hiss edir ki, yeni bir şeir yaranır.

MƏTN: – Tək qalmaq istərəm,
Tək qalmaq, hərdən.
Özümə çəkiləm bayquşdan betər.
Dartmalar, didmələr, deyinmələrdən
Qulağım dolubdur, Daşıbdı yetər…
Sanaram bir axşam düşüncəm duru,
Gör necə çırpınıb necələnmişəm.
Bir də görürəm ki, üz-üzə durub

Mən özüm-özümlə neçələnmişəm.
Ələnər başıma min sual – yağış,
Sualkeş də mənəm, cavabkeş də mən.
Bezərəm Xəyyamlar cavab tapmamış
İdrak “neyçin”ləri, “niyə”lərindən.
Çiynimə ən yüngül yük alanda da
Sığmır fikirlərim bir qəlbə, vallah.
Tək ola bilmirəm, tək olanda da,
Qəribə insanam, qəribə, vallah…

Filmin leytmotivi – şair öz iş otağında düşüncələrə dalıb. Jurnalist Camal Yusifzadə ona yaxınlaşıb oturur, salamlaşıb sual verir.

SUAL: – Biz sizin dostlar məclisində söhbətinizə qulaq asdıq. Siz orda deyirsiniz ki, mənim dostlara iki məktubum var. Birini arzu eləmişəm ki, açasınız, birini açmayın. Mən demək istəmirəm ki, siz o fikri inkar edəsiniz, amma şairin, sözsüz ki, özünün sirləri var, özünün deyilməyən sözləri var. O məktub nə məktubdur? Nəyi siz istəməzdiniz ki, deyəsiniz və yaxud nəyi istəyərsiniz ki, bilsinlər?

MƏMMƏD ARAZ: – Vallah, nə bilim? İndi bir az üstündən vaxt da keçibdi. Düzünü desəm, heç bilmirəm nə yazmışam. Heç təkrar özüm də açıb oxumamışam.

SUAL: – Amma hər halda şairin özünün özünə söhbəti var da?

MƏMMƏD ARAZ: – Əlbəttə, həmişə uşaqlara mənim vəsiyyətim, nəsihətim var, necə yaşayın.

SUAL: – Məmməd müəllim, elə şeirləriniz varmı ki, siz onları çap etdirməmisiniz?

MƏMMƏD ARAZ: – Var, elə şeirlər var, çoxdur. Bunların bir hissəsi zəif şeirlərdir, çap etdirməmişəm. Elələri də var ki, sərt yazılardı, belə demək mümkünsə. Əslində, elə bir mürəkkəb, qeyri-adi bir şey yoxdur. Ağlıma gələnlərdən nə məndən yadigar qalıb, nə yadigar qala bilər, ədəbiyyat orbitində deyirəm ha, bunları saxlamaq lazımdır.

SUAL: – Son dövrlərdə yazdığınız, hələ mətbuat üzü görməyən şeirlərdən deyə bilərsinizmi? Heç olmasa bir bənd.

MƏMMƏD ARAZ: – Şeir haqda düşünəndə, tarixdən söhbət gedəndə, böyük sənətkarlarımız qoymur məni yazmağa.

Bunların qarşısında gərək hesabat verəm. İstəyirsən yazasan, Nizami gəlir gözümün qabağında dayanır ki:

Şeirdən uzaq olma dünyada,
Çünki Nizamilə qurtarıbdı o da.

Doğrudan da Nizamilə qurtarıbdır o da? Sonra Füzuli gəlir, Nəsimi gəlir, Nəvai gəlir, Sabir gəlir, Səməd Vurğun gəlir, Rəsul Rza gəlir.

SUAL: – Siz yazırsız axı?

MƏMMƏD ARAZ: – Mən fikirləşirəm ki, mənim gəlişimlə nə dəyişildi, mənim gedişimlə də nə dəyişəcək? Ədəbiyyatımız çox zəngin ədəbiyyatdır, çox böyük ədəbiyyatdır. Doğrudan da, şeirdən ucalıq umma dünyada, çünki Nizamilə qurtardı o da. Nəsimi deyir ki, şəhribəyana sığmazam…

SUAL: – Məmməd Araz sığırmı belə bir dünyaya?

MƏMMƏD ARAZ: – Mən ya sığıram, ya sığmıram, hər halda hesabat verirəm özlüyümdə ki, sən ehtiyatlı ol, belə bir ədəbiyyatın var sənin.

Şair Məmməd Araz dünya faciələrini, tarixi abidələri və təbiət təsvirlərini əks etdirilən kadrlar fonunda görünür. Sonra əsgərlərlə görüşündən fraqment təqdim olunur. O, əsgərlərə fərəhlə, sevgilə baxır, onlara böyük uğurlar, böyük qələbə sevincləri arzulayır.

MƏTN: – Ya Rəbbim, bu dünya sən quran deyil,
İnsandan insana körpümüz sınıb.
Ya Rəbbim, hamımız sənə sığınıb,
Özünü özündə itirib insan,
Didişmə dişləri bitirib insan.
Ya Rəbbim, bizlərə qaytar bizləri,
Şeytan qulağında axtar bizləri,
Tələsi yoxların cələsi işlək;
Cələsi yoxların tələsi işlək;
Çaparlıq istəsək, yolumuz kəsik,
Qılınca əl atsaq, qolumuz kəsik.
Ya Rəbbim, əl açdıq, tut əlimizdən,
Çıxmasın bu doğma yurd əlimizdən.

Sən bizi kiçiklər kinindən qoru,
Fil tutur, şir tutur hörümçək toru.
Ya Rəbbim, adilsən hifz elə bizi,
Halal ocaqlara üzv elə bizi.
Qəbir qazmaq ilə məşğuluq hələ:
Külüng də bizimdir, torpaq da bizim,
Batmış da, yatmış da, oyaq da bizim.
Hələ öz içində batanımız çox,
Düşmən laylasına yatanımız çox.
Ya Rəbbim, xəlbirlə lovğa "mənləri",
Ələyib sovur da bölünənləri,
"Bizliyə", "sizliyə" bölünənləri.
Gəlir qulağıma bir səs dərindən:
Qoru sən özünü həndəvərindən!
Bir dinlə zamanın sevdiyi səsi:
Tülkü qaqqıltısı qurd mələrtisi!..
Ya Rəbbim, sən qaytar bizi bizlərə,
Cala boz günləri ağ gündüzlərə.
Ya Rəbbim, mən sənə olanı dedim,
Azacıq yadımda qalanı dedim.
Bizə qalmayacaq nə bizə qalsa,
Dağ dağa qovuşsa, düz düzə qalsa.
Qalan dərdimizi yükləsək əgər,
Kəl olsa, nər olsa, qəddi əyilər.
Ya Rəbbim, arabir düş yanımıza,
Arabir ölçü qoy vicdanımıza.
Harda dinimiz var, imanımız yox,
İmana gəlməyə gümanımız yox.
Gəlsən, tufanla gəl, tufanla qayıt,
Bu yeri, bu yurdu sahmanla, qayıt…
Ya Rəbbim, bu dünya sən quran deyil,
Adını, soyunu dəyiş dünyanın,

Odunu, suyunu dəyiş dünyanın,
Yolunu, yönünü dəyiş dünyanın.
Ya Rəbbim, bu dünya sən quran deyil,
Fəzada yerini dəyiş dünyanın.

ZEYNAL BAĞIROV: – Məmməd Araz heç bir vədə mənim xatirimdən çıxmaz, heç bir vədə Məmməd Araz heç kəsin qəlbindən çıxan deyil. Çünki Məmməd Araz vətəndaş şairdir, Məmməd Araz xalqı ilə ürəyi döyünən şairdir. Məmməd Arazından eşitmişəm ki, ona QAZ-24 maşın mükafat vermişdilər. Deyib ki, kim Şuşaya bayrağı sancsa, bu maşının açarını verəcəm ona.

Balaca qız Məmməd Arazın 60 illik yubileyində şairin şeirini ifa edir. Şeir və şair alqışlarla qarşılanır. Bu simvolik yozum Məmməd Araz sənətinin gələcəyini, əbədiliyini vurğulayır.

MƏTN: – Azərbaycan – qayalarda bitən bir çiçək.
Azərbaycan – çiçəklərin içində qaya.
Mənim könlüm bu torpağı vəsf eləyərək
Azərbaycan dünyasından baxar dünyaya.
Azərbaycan – mayası nur, qayəsi nur ki…
Hər daşından alov dilli ox ola bilər.
“Azərbaycan!” deyiləndə ayağa dur ki,
Füzulinin ürəyinə toxuna bilər.
Oğulları Kür gəzdirər biləklərində
Oğulların göz atəşi gözəl əridir.
Azərbaycan səhərinin bəbəklərində
Qütb ulduzu, dan ulduzu gözəlləridir.
Tariximə qara xətli hicri, miladi,
Qılıncların qan ağzıyla yazılmadımı!

Babaların boz çöllərə bənzər muradı,
Üç rəng bayraq dalğasından yaz almadımı!
İllər olub – kürrələrdə dəmir olmuşuq,
Sərhədlərdə dayanmışıq küləkdən ayıq.
Od gölündə, buz çölündə gəmi olmuşuq,
Biz Bakının ilk səadət carçılarıyıq.
Min illərlə zülmətlərə yollar açıqdır,
Dalğalandı sabirlərin ümman dünyası.
Azərbaycan qatarı da yollara çıxdı
Dağılanda Qoca şərqin duman dünyası.
Azərbaycan – mayası nur, qayəsi nur ki…
Hər daşından alov dilli ox ola bilər.
"Azərbaycan!" deyiləndə ayağa dur ki,
Ana yurdun ürəyinə toxuna bilər.

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev Məmməd Araz poeziyası haqqında ürək sözlərini deyir, şairin sənətini yüksək qiymətləndirir.

HEYDƏR ƏLİYEV: – Bu gün biz bir daha Məmməd Araz yaradıcılığının, onun şeirinin, onun bizim Azərbaycan xalqının mədəniyyətinə, ədəbiyyatına verdiyi töhfələri bir daha gördük, eşitdik, dinlədik və bir daha bunların nə qədər Azərbaycan xalqı üçün faydalı, gərəkli olduğunu bildik. Bir daha bu gün dərk edirik ki, Azərbaycan xalqının həyatında Məmməd Arazın yaradıcılığının nə qədər böyük əhəmiyyəti var. Bu, həqiqətən də belədir. Son bir neçə ay mən çox fikirləşirdim ki, bizim ziyalıların, mədəniyyət xadimlərinin, elm xadimlərinin hörmətini cəmiyyətdə qaldırmaq lazımdır. Çünki xalq həmişə öz ziyalıları ilə tanınır, öz mədəniyyəti ilə tanınır, öz elmi ilə

tanınır. Şübhəsiz ki, sərkərdələrin də böyük rolu var xalqın tarixində, siyasətçilərin də böyük rolu var. Ancaq xalq həmişə mədəniyyəti ilə, elmi ilə tanınır və keçmiş tariximiz də bunu sübut edir, bu gün də sübut edir. Buna heç kəsin şübhəsi də yoxdur. Buna görə də son illər bizim mədəniyyətimizə diqqət azalıb, qayğı azalıb, elmimizə diqqət, qayğı azalıb. Bu gün bizim üçün bu axşam nə qədər böyük bir mənəviyyat gecəsi, axşamı oldu. İndi nə qədər çıxıb hardasa nə danışsan, hardasa əylənmək istəsən, hardasa ürəyini açmaq istəsən bu cürə zövq ala bilməzsən. Hansını ki, bu gün biz aldıq. Bu qədər mənəviyyatı dərindən dərk edə bilməzsən, hansını ki, biz bu gün gördük. Niyə gördük? Çünki mədəniyyətimizin, ədəbiyyatımızın böyük nümunələri gəldi, səsləndi, canlandı, bizim gözümüzün önünə gəldi və biz bir daha özümüz özümüzü qiymətləndiririk, bir daha özümüz özümüzü tanıyırıq.

Şairin iş otağı, qızılı stolüstü lampa və Məmməd Arazın nurlu gözləri ön planda göstərilir. Artıq vərəq tamam yazı ilə, şeirlə dolub. Şair xoşbəxtdir…

MƏTN: – Biz iki ocaq kimi
Sinə sinəyə yandıq.
Odumuz öpüşəndə
Gözümüzə inandıq.
Dərd eləmə, desəm ki,
Yazı masam, ölürəm.
Ölə-ölə yazmıram,
Yaza-yaza ölürəm.

Nursu kəndində Batabat yaylağında lentə alınmış və şairin gənclik illərini əks etdirən xronikal kadrlar göstərilir. Şair Məmməd Araz sanki gedib gəldiyi yollara boylanır. Onun cild-cild kitablarını görürük…

MƏTN: – Dünənim, bu günüm ayağım altda,
Baxıram: üfüqdə sabah görünür.
İnsandır çıxaran insanı yaddan,
Sabahın əlində silah görünür.
Sabahın dilində silah səslənir,
İlahi, nə böyük günah səslənir,
Şair dodağında bir ah səslənir,
Məni bağışlayan olarmı?
Çətin!..

SON

2001-ci il

ŞIX OCAĞININ İŞIĞI

(İSMAYIL ŞIXLI)

Yaşıl düzlər, meşələr panoram edilərək Kür çayına qovuşur. Yarımqaranlıq fonda əzəmətli çay ay işığı kimi axıb gedir, üfüqlərdə şaxələnib qeyri-adi mənzərə yaradır. Kürdə əks olunan aydan başlayan panoramla Qazaxın bütöv bir mənzərəsi diqqətimizi cəlb edir. Kamera Qazaxın yolları ilə irəliləyib Şıxlı kəndinə daxil olur. Və bu kənddə böyük yazıçı, pedaqoq İsmayıl Şıxlının doğulub, boya-başa çatdığı evi görürük. İsmayıl Şıxlının uşaqlığını xatırladan balaca bir oğlan həmin evə, həyətə baxır və bu baxışlardan köhnə bir fotoya keçid edilir. Köhnə fotodakı İsmayıl Şıxlının uşaqlığıdır. O, həmin həyətin fonunda dayanıb baxır. Bu təsvirlər üstündə filmin adı yazılır:

ŞIX OCAĞININ İŞIĞI

Şəhriyar adına mədəniyyət sarayının böyük zalı panoram olunur. İ.Şıxlının dəfn mərasimi. Görkəmli yazıçının cənazəsi gül-çiçəyə, əklillərə bürünüb. Məşhur elm və sənət adamları fəxri qarovulda dayanıblar.

ADPU-nun o vaxtkı rektoru Nizami Xudiyev bir qədər ön planda dayanaraq danışır.

NİZAMİ XUDİYEV (filologiya elmləri doktoru, professor): – İsmayıl Şıxlı xalqın oğludur. Ona görə də biz onun tərcümeyi-halını çox gözəl bilirik. Lakin mən İ.Şıxlının fəaliyyəti ilə bağlı bir neçə məsələyə, daha doğrusu, dörd məsələyə

diqqət yetirmək istəyirəm. Birincisi, İsmayıl müəllim istedadlı yazıçı idi. İkincisi, İsmayıl müəllim gözəl müəllim idi – müəllimlər müəllimi idi. 1919-cu il martın 22-də şairlər vətəni olan Qazaxda dünyaya gələn İ.Şıxlı 50-ci illərdə bütün Azərbaycanın İ.Şıxlısı idi. 1937-ci ildə N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsinə daxil olmuş, müharibə başlayan vaxtdan Böyük Vətən müharibəsində iştirak etmiş, müharibədən qayıtdıqdan sonra əsgər paltarında öz təhsilini Pedaqoji Universitetdə davam etdirmişdir. Universiteti bitirdikdən sonra doğma kəndə qayıtmış, əvvəlcə müəllim, sonra dərs hissə müdiri, məktəb direktoru işləmişdir. Yenidən Pedaqoji Universitetə qayıdaraq aspiranturaya daxil olmuş və ondan sonra 47 ildir bütün əmək fəaliyyəti pedaqoji universitet ilə bağlı olmuşdur.

İsmayıl Şıxlı müəllim idi, gözəl müəllim idi, müəllimlər müəllimi idi. Mən şəxsən sevinirəm ki, İsmayıl müəllimin tələbəsi olmuşam, onun əlindən su içmişəm, dörd il böyük insanın mühazirələrini dinləmişəm. O, ilk dəfə olaraq Pedaqoji Universitetdə Xarici ölkələr ədəbiyyatı kafedrasını yaratdı. Onun ilk müdirlərindən oldu. “Xarici ölkələr ədəbiyyatı” dərsliyini yazdı. İndi də bizim tələbələrimiz həmin dərslikdən stolüstü kitab kimi istifadə edirlər. İsmayıl müəllimi hamımız – bütün tələbələr bir müəllim kimi, doğma ata kimi sevirdi. İ.Şıxlının fəaliyyətinin ikinci əsas cəhəti ondan ibarətdir ki, böyük ictimai xadim idi. Dövlət işlərində çalışırdı. Heç birimizin yadından çıxmır ki, 20 yanvar 1990-cı

ildə – qanlı yanvar günlərində keçmiş rəhbər Vəzirov, Mütəllibov, Vaqif Hüseynov kimi, xalqın dili ilə desək, qabdibi yalayanlar, ölkəni ağır vəziyyətdə qoyub, xalqı qana bürüyüb qaçdıqları bir vaxtda İ.Şıxlı xalqın kədərinə şərik oldu. Ali Sovetin sessiyasının çağırılmasında iştirak etdi, iclasda ictimai xadim kimi sədr oldu. İ.Şıxlı doğrudan da böyük ictimai xadim idi. Bax, ona görə də xalq onu sevirdi. Hər şeydən əvvəl isə İsmayıl müəllim gözəl bir insan idi – kamil bir insan. O, gözəl ailə başçısı idi. Bütün bu keyfiyyətlər İsmayıl müəllimin şəxsində birləşib və onu bütöv bir şəxsiyyət kimi xalqın gözündə qaldırıb. Həmişə Səməd Vurğundan – böyük müəllimindən misal çəkərdi. İndi isə mən üzümü İsmayıl müəllimə tutub deyirəm:

Ölüm sevinməsin qoy, ömrünü vermir bada,
El qədrini canından daha əziz bilənlər.
Şirin bir xatirə tək qalacaqdır dünyada,
Sevərək yaşayanlar, sevilərək ölənlər.

İsmayıl müəllim öz xalqını, vətənini sevə-sevə yaşadı. Xalqı, tələbələri, dostları tərəfindən sevilə-sevilə də dünyasını dəyişdi, vətən torpağına qovuşdu. İsmayıl müəllim hər şeydən əvvəl Pedaqoji Universitetin dosenti, müəllimi idi. Onun əmək kitabçasının böyük bir hissəsi doğma universitet ilə bağlıdır.

İcazə verin, Pedaqoji Universitetimizin 10 mindən artıq tələbəsi, 5 mindən artıq professor-müəllim heyəti adından respublika rəhbərliyinə, müasir dünyamızın ən nüfuzlu siyasi

xadimlərindən biri olan Heydər Əliyev cənablarına kollektivin minnətdarlığını bildirim ki, ziyalıya, müəllimə, yazıçıya belə diqqət yetirir. Bir daha kollektiv adından təşəkkürümü bildirirəm. Əziz İsmayıl müəllim, mən sizin tələbələriniz, həmkarlarınız adından söz verirəm ki, görkəmli pedaqoq, alim kimi fəaliyyətinizi biz uğurla Pedaqoji Universitetdə davam etdirəcəyik. İsmayıl müəllimi nə qədər ki, canımızda can var, həmişə xoş xatirələrlə yad edəcəyik. Rahat yat, İsmayıl müəllim! Allah sizə rəhmət eləsin!

Yenə Kür çayı boyunca panoram və Şıxlı kəndinin ümumi mənzərəsi diqqəti cəlb edir. Xəyal kimi görünən İ.Şıxlının söhbətini eşidirik.

İSMAYIL ŞIXLI: – Şıx oğlu deyərlər bizim nəslə. Deyilənə görə, iki qardaş olub. Onlar Kür SAhilində məskən salıblar. Sonradan ətrafda kəndlər böyüyüb. Şıxlı kəndinin adı həmin bu tarixçədən götürülüb.

Kadr arxasından mətn səslənir.

MƏTN: – Zamanında görkəmli hərbiçilər yetişdi Şıx oğullarından. General Əliağa Şıxlinski, Gəncə qiyamında bolşevik quldurlarına qan udduran general Cavad bəy Şıxlinski, ömrünü mühacirətdə keçirən Qiyas bəy Şıxlinski kimi adlı-sanlı hərbiçilər Şıx oğullarının ocağından çıxdılar.

Elçin Şıxlı atasının iş otağında əyləşib danışır.

ELÇİN ŞIXLI: – Atam İsmayıl Şıxlı gözünü dünyaya müəllim ailəsində açmışdır. Elə ilk gördüyü də dəftər-qələm, yazı-pozu olmuşdur. Atası Qəhrəman Şıxlınski rus dili müəllimi idi. Balaca şairliyi də var imiş kişinin. İlk yaşadığı illəri Şıxlı kəndində keçirsə də, sonradan atası, ailəsi ilə birlikdə Qaymaqlı kəndinə köçmüşdülər. Və bu dövrdə, onu söyləmək istəyirəm ki, 7 illik məktəbi atam 4 ilə bitirmiş və böyüdüyü mühitdən görünür irəli gəlirmiş ki, o da Qazax Pedaqoji Texnikumuna, (o zamanlar Qazax Müəllimlər Seminariyası da deyilirdi ona) daxil olmağa çalışırdı. Sənədlərini qəbul edəndə də müəllimlər onun yaşının neçə olduğunu bilirdilər və ona hələ balacasan, yaşın çatmır deyə sənədlərini qəbul etmək istəmirdilər. Və bu zaman atam bəlkə də həyatında ilk cəsarətli bir addım atmışdı. Axşamkən seminariyanın pəncərəsindən içəri keçib sənədlər saxlanılan otaqda doğum ilini 1922-ci ili 1919-cu ilə çevirmişdi və bundan sonra səhəri imtahana gələndə cavabın çox səlist və dəqiq olduğunu görüb onun yaşının az olmağına göz yumublar və atam həmin pedaqoji texnikuma girmişdir.

Kadr arxasından mətn səslənir.

MƏTN: – Qori seminariyasının türk bölməsi Azərbaycana, Qazaxa köçürüləndə ortaya bina çətinliyi çıxdı. Kosalar kəndindən bir bəy oğlu bəy irəli durdu. Qazaxdakı mülkünü bağışladı

seminariyaya. Beləliklə, zamanında böyük elm-maarif adamlarının dərs dediyi türk bölməsi müstəqil seminariya kimi işə başladı. Görkəmli ədəbiyyatçı, maarifçi, bütün zamanlarda millət üçün ziyalı etalonu sayılan Firudin bəy Köçərlinin çalışmaları Qazax Müəllimlər Seminariyasını mədəni mərkəzə çevirdi. Bütöv ziyalılar ordusu, görkəmli pedaqoqlar nəsli yetişib bu seminariyada. Səməd Vurğun, Osman Sarıvəlli, Mehdi Hüseyn, İsmayıl Şıxlı da bu təhsil ocağında dərs alıb.

Elçin Şıxlı Kür boyunca irəliləyir və düşünür. Onun daxili monoloqunu eşidirik

ELÇİN ŞIXLI: – Onun xatirələrində də var. Özü də söyləyirdi. O zamanlar atası Qəhrəman Şıxlinski Kosalar kənd məktəbində dərs deyirdi. Kosalardan Qazax seminariyasına yayın istisində də, qışın soyuğunda da palçıqlı yollarla ayaq döyüb dərs oxumağa gedirdi. Qazax Pedaqoji Texnikumu o zamanlar ən nüfuzlu təhsil ocaqlarından biri idi. Atam burada dövrün tanınmış müəllimlərindən olan Abdulla Babanlı, Yunus Əyyubov, Əli Əliyevdən dərs alıb. Onlardan müəllimlik peşəsinin sirlərini öyrənib.

Atam texnikumu bitirdikdən sonra müəllim oldu və bir müddət Kosalar kənd məktəbində dərs dedi. 1937-ci ildə atası Q.Şıxlinski ilə birlikdə atam İ.Şıxlı Bakıya gəlir. İlk qaldıqları və gecələdikləri ev ana babam Məmməd Şıxlının evi olur. Və çox qəribədir ki, atamın Bakıda ilk qaldığı, ilk gecələdiyi ev, həmən otaq sonradan

onun Yazıçılar İttifaqının I katibi olanda iş kabineti idi. Taleyin qəribə bir dönüşü var. Qəribə hadisə idi. İstəsəydin, düşünsəydin belə bir şey olmazdı. Atam Məmməd Şıxlı ilə atası Qəhrəman Şıxlinskinin səhər evdə danışıqlarını eşidib. Məmməd Şıxlı Qəhrəman Şıxlinskiyə belə bir söz demişdi ki, bacarığı, savadı varsa girsin, yoxdursa mən ona nə edə bilərəm?

Bu sözlərdən sonra atam öz atasına bilet alıb onu Qazaxa yola salır və sonradan özü yataqxanada özünə yer tapır və sənədlərini də təkbaşına gedib dil-ədəbiyyat fakültəsinə verir. O zamanlar 1937-ci ildə tutatut dövrü çox ağır illər idi. Ali məktəbə daxil olmaq istəyən tələbələrin bir çoxu dəqiq elmlər fakültələrinə girirdilər. Dil, ədəbiyyat, filologiya – bunlardan bir çoxları qorxurdular. Çünki təhlükəli idi. Atam məhz dil-ədəbiyyat fakültəsinə verdi sənədlərini və elə həmin ildəcə öz biliyi, bacarığı hesabına həmən ali məktəbə daxil olub, təhsil aldı orada. Çox ağır zaman idi. Tək qələm sahiblərinin başına oyun açmırdılar, adi tələbələrin də günü-güzəranı yox idi. O zamanlar atamın da başı çox əziyyətlər çəkib. Onu tez-tez universitetin xüsusi şöbəsinə çağırar, gecə 12-ni keçənə qədər sorğu-suala tutardılar ki, “Sən kimlərdənsən? Atan kimdir? Qohumların nə ilə məşğul olurlar?” Çünki familiya çox ağır familiya idi. Həmin familiyanın daşıyıcılarının böyük əksəriyyəti artıq güllələnmişdi, bir qismi sürgün olunmuşdu. Bəxtləri gətirənlər də adlamışdılar sərhəddin o tayına. Atamın iki dayısı – Qiyas bəy Şıxlinski və Aslan ağa Şıxlinski artıq çıxıb Türkiyəyə

getmişdilər. Böyük qardaşları Şəmyəddin bəy isə onlarla razılaşmayıb getməmişdi ki, ailə, uşaq var. Şəmyəddin bəyi güllələmişdilər…

Gənc İsmayıl Şıxlı həyatının ağır və çətin məqamlarının birini yaşamışdır o illərdə. Amma iş orasındadır ki, insanlara ümidini nə yaxşı ki, o zamanlar da, ondan sonra da itirməmişdir.

* * *

Şıxlı kəndinin yollarında irəliləyən Elçin Şıxlını görürük O, Şıx ocağına yaxınlaşır, baxır. İsmayıl Şıxlının fotoları diqqəti cəlb edir.

Kadr arxasından mətn səslənir.

MƏTN: – İçi Tanrıdan gəlmə nur ilə dopdolu idi İsmayıl Şıxlının. Çətin zamanlarda, sınaq məqamlarında büdrəmədi. Bu nurdan insanlara pay vermək eşqi ilə yaşadı.

Elçin Şıxlının daxili monoloqu davam edir.

ELÇİN ŞIXLI: – Atamın müəllim sarıdan ali məktəbdə də bəxti gətirmişdi. Həmişə bizə söyləyərdi, öz xatirələrində də yazırdı ki, ən çox sevdiyi müəllimlərindən biri professor Əli Sultanlı olub. Əli Sultanlı, deyilənə görə, atamın da söylədiyinə görə, elə gözəl müəllim, elə gözəl pedaqoq və öz fənninin elə gözəl bilicisi imiş ki, o fakültəyə, hətta ədəbiyyat-filologiya fakültəsindən çox “Əli Sultanlı fakültəsi” deyərlərmiş o zaman. Çünki Əli müəllimin mühazirələrinə təkcə həmin fakültənin tələbələri deyil, başqa fakültələrin

tələbələri də gələrmiş. Hətta başqa ali məktəblərdən də onun mühazirələrinə qulaq asmaq istəyən tələbələr var idi.

İ.Şıxlı ömrünün 40 ildən çoxunu həmin pedaqoji məktəbdə müəllim işləyib, dosent olub. Sonra kafedra müdiri olub. Tələbəlik illəri bəlkə də onlar üçün bir göz qırpımında gəlib keçib. Son kursda oxuyanda, 6 aylıq pedaqoji təcrübədən geri dönəndə (bu, 1941-ci ilin yayma təsadüf edilir) müharibə başlayıb.

Kadr arxasından mətn səslənir.

MƏTN: – Bu da ölüm saçan müharibə! Tanrı öz sevdiklərini oddan, alovdan, ölümdən, qandan keçirir. Dəmirçi zindanında döyür, alov kürəsində bişirir, saflaşdırır, görk edir insanlığa. İ. Şıxlı kimi…

Elçin Şıxlı atasının iş otağında oturub danışır.

ELÇİN ŞIXLI: – Ali məktəbi bitirən tələbələr buraxılış imtahanlarını belə verməyə imkan tapmayıblar. 41-ci ilin yayından sonra atam buraxılış imtahanlarını verə bilməyib, qayıdıb Qazaxa, orada birinci Şıxlıda dərs hissə müdiri işləyib. Daş Salahlı kənd məktəbinin direktoru olub və sonradan Kosalar kənd orta məktəbində dərs hissə müdiri və direktor vəzifələrində çalışıb. Həmin dövrdə atam Kosalar kənd orta məktəbinə işləməyə gələndən sonra uzun müddət onu cəbhəyə, müharibəyə də aparmayıblar. Nə üçün? Bu da qəribə bir şey idi. O dövrdə cəbhəyə

getməmək, yəni gizlənmək istəyənlər də var idi. Atam bəy nəslindən idi. Şıxlinskilərdən. Təsəvvürünüzə gətirin ki, düz 42-ci ilin payızına qədər atam əsgər getməyə, yəni müharibəyə, cəbhəyə getməyə can atıb. Onu sinəsindən vurub geri qaytarıblar. Nəhayət, Bakıya gəlib. Ən çox istədiyi müəllimlərindən biri Mikayıl Rəfilinin köməyi ilə buraxılış, yəni dövlət imtahanlarını verib diplomunu ala bilib. Atam Mikayıl Rəfili ilə bağlı qəribə epizod söyləyirdi. O zamanlar, dediyimiz kimi, müharibə vaxtı idi. Hamı bir-birindən çəkinirdi və atam deyirdi ki, bəlkə də ömrümdə ilk dəfə Şıxlinski familiyası köməyinə gəlib, yəni bu imtahanları verəndən sonra M.Rəfili diplomu atama təqdim eləyəndə, təxminən, onun qulağına pıçıltı ilə belə söyləyib: "Sən Şıxlinskisən və sənin bəlkə də balalarından, yaxud qohumlarından kim isə vaxtı ilə müsavat zamanında Gəncədə mənim işim çətinə düşəndə məni dardan qurtarıb, mənə böyük yaxşılıq edib və ona görə də mən elə hesab edirəm ki, həmin yaxşılığın əvəzini qohumuna verə bildim bu yol ilə".

Beləliklə, sentyabr ayının 16-sı 1942-ci ildən etibarən onun məşəqqətli həyatı başlayır. O müharibə, o qanlı-qadalı, odlu illər Dərbənddən başlayaraq Şabanov yoxuşlarına keçir. Atam əvvəlcə Kerç uğrunda döyüşlərdə, sonra Ukrayna uğrunda döyüşlərdə iştirak edir. Sonra Şərqi Prusiyanın paytaxtı olan Könenqsberq şəhərinin alınmasında, tutulmasında iştirak etmişdir. O döyüşün də medalları var idi. Və ən əsası onun müharibə illərində yazdığı, sonradan "Cəbhə gündəlikləri" adı almış sənədli oçerkləri idi. Çünki atam müharibəyə

gedəndə özü ilə indiki bloknotlara bənzəməyən, yəni dəftərxana ləvazimatlarına bənzəməyən çox qədimi bloknotlar aparmış, onları sonradan geriyə qaytarmışdı. Və biz onları da görmüşdük. Müharibənin ilk günündən son gününədək hər gün, demək olar ki, hər gün döyüşlərdən başları açılanda, imkanları olanda qeydlər edib, 4 ildən artıq bir müddət ərzində gündəliklərini yazırdı. Bunlar adi gündəliklər deyil, alovlu müharibə illərinin xatirəsidir.

İsmayıl Şıxlını ömrünün son illərində görürük. O, cəbhə xatirələrini danışır.

İSMAYIL ŞIXLI: – Mən cəbhəyə gedəndə hərdən bir şeir-zad yazırdım, amma yazıçı deyildim. Nədənsə, cəbhəyə gedən gündən gündəliklər yazırdım. Cəbhədə nə kağız tapılırdı, nə də ki, qələm. Orada yazdım mən bu gündəliklərin hamısını.

Uzun müddət məndə arxivdə qaldı bu gündəliklər. Bilirsən, müharibə illərində bir var həqiqəti yazasan, bir də var ki, onu bəzəyib yazasan. O bəzəməyi mən istəmirdim. Mən istəyirdim ki, müharibədə əsgər məişətini verim, hər şeyi olduğu kimi yazım.

Kadr arxasından mətn səslənir.

MƏTN: – Rotamız Etigenə, yenə Krıma desant keçirib. Vəziyyət ağırdır. Cəmilov öldü, Əhmədov Məşədi xəbərsiz itdi. Qalan uşaqlarımızdan hələ xəbər yoxdur. Görək sonu nə olur.

Krım. Duzlu göl.
11 noyabr 1943-cü il.

Elçin Şıxlı köhnə gündəliklərə baxa-baxa danışır.

ELÇİN ŞIXLI: – Atam ali təhsilli olmağına baxmayaraq, müharibəni əvvəldən axıra qədər sıravi əsgər kimi keçdi. Halbuki o dövrün qanunlarına görə, o, müəyyən təlim keçəndən sonra zabit rütbəsi almalı idi. Yenə də onun bəy nəslindən olmağı – Şıxlinskilərdən olmağı ona maneçilik törətdi. Nə isə… görünür, hərənin öz taleyi var.

Müharibənin qanlı-qadalı illərindən sonra, o, sağ-salamat geriyə dönür. Gəlir ilk olaraq öz kəndlərinə, Kosalara. Və bir şeyi də söyləmək istəyirəm, özü də deyirdi ki, bütün müharibə ərzində heç burnum da qanamayıb. Yəni heç bir yara, filan almamışdı.

MƏTN: – Müharibə qurtardı. Berlin alındı. Evə getmək arzusu daha da reallaşır. Qalibiyyət və geri dönmək nə qədər də xoşdur.

4 may 1945-ci il.
Frisqaf, Baltik suları.

İsmayıl Şıxlının bacısı Nəbibə xanımın dediklərindən.

HƏBİBƏ XANIM: – 41-ci ildə o, diplomunu aldı. Ondan sonra da anama verdi ki, bəlkə lazım olar. Onun müharibəyə getdiyi gün yadımda belə qalmışdır. Anam da getmişdi, mən də getmişdim. Anam ağlayırdı, özünü öldürürdü. Onu yuxuya verdilər ki, oğlun hələ getmir, bu gün aparmayacaqlar. Birtəhər başını qatdılar. İsmayıl da əsgərliyə getdi. Qalxanda gördük ki, yoxdur. Sonra müharibə dövründə düz 5-6 ay məktub gəlmədi.

Dedilər ölüb. Onda anam atama deyirdi ki, sən rus dilini yaxşı bilirsən. Atam da rus dili müəllimi idi. 45 il işləmişdi, bax, bu kənddə. Deyirdi get, mənim oğlumu gətir. O da deyirdi ki, mən adresini bilmirəm, haradan gətirim. Deyirdi, rus dilini sən yaxşı bilirsən, get, soruş, taparsan. Kişi də deyirdi ki, mən tapa bilmərəm, axı adresini bilmirəm. Axır ki, bir müddətdən sonra İsmayıl özü gəldi. Elə bax, belə gecə vaxtı idi. Dedilər ki, İsmayıl müəllim gəldi. Kənddən bir adam deyirdi bunu. Atam əsirdi. Sevindiyindən, qorxusundan heç yaxın gəlmirdi. Mən getdim, onu qucaqladım, əlini yoxladım, ayağını yoxladım ki, görüm salamat gəlibdirmi, nə təhərdi?..

Kadr arxasından mətn səslənir.

MƏTN: – Türk kişisinin, qadınının min-min illərdən gələn, yol boyu dolan, dolğunlaşan, bütövləşən, insanlığa görk olan əxlaqi-milli dəyərləri sərgilənib onun əsərlərində. Klassiklərimizin boy sırasında dayana bildi İsmayıl Şıxlı. Onu tanıyanlardan kimi dindirsən eyni şövq ilə danışar. Hamının sevimlisi idi. Kişilik etalonu idi o. Şəxsiyyəti, yaradıcılığı, fiziki imkanları, boyu-buxunu. Tanrının sevdiyi nadir adamlardan idi İsmayıl Şıxlı.

Elçin Şıxlının qısa qeydi.

ELÇİN ŞIXLI: – Yenə də Kosalarda bir müddət müəllimlik edən atam 46-cı ildə elə əsgər şinelində Əli Sultanlı deyib Bakıya gəlir. Və öz sənədlərini aspiranturaya təqdim edir.

İsmayıl Şıxlının dediklərindən.

İSMAYIL ŞIXLI: – O vaxt da ən çox sevdiyim müəllimim Əli Sultanlı idi. Və onu ürəyimdə tutub gəldim Bakıya. Onda məni məhkəməyə-zada veriblər Qazaxda. Nə bilim iş yerinə gəlməyib, praqul edib. O zamanlar belə qanunlar var idi. Əli Sultanlı baxdı, baxdı, dedi ki, balaca, sənsən? Onda böyümüşdüm. Dedim ki, Əli müəllim, belə bir fikrim var. O da fikrə getdi. Dedi ki, bir yerim var mənim. Oraya da ərizə verən var. Bilmirəm necə olacaq. Get kənddə, işlərini qur, sonra imtahana gir, baxarıq.

Elçin Şıxlı atasının fotolarına baxa-baxa danışır.

ELÇİN ŞIXLI: – Onun aspiranturaya daxil olmaq tarix-çəsi də çox qəribədir. "Mənim rəqibim" adlı hekayəsində aspiranturaya daxil olmaq tarixçə-sini qeyd edib. Yenə də Əli Sultanlı köməyinə gəlib.

Bəli, atam aspiranturanı oxuyur. Elmi iş üzə-rində işləyir. Onun dissertasiya müdafiə etməyi də çox başı bəlalı olub. Əvvəl antik dövr ədəbiy-yatından mövzu götürür və özü söylədiyi kimi, o zaman mənbə olmadığından, həmən o mövzudan vaz keçməli olur. Başqa bir mövzu götürür. Təx-minən, o da Qərbi Avropa ədəbiyyatı mövzusun-da olur. O zamanlar da yeni bir dalğa çıxır ki, burjua romantizminə meyillər əmələ gəlir və bu-na görə atam həmin mövzudan da imtina edəsi olur. Və nəhayət, gəlib Mehdi Hüseyn yaradıcılı-ğından dissertasiya işi işləyir. Burada da

qəribəliklərlə dolu hadisələr olur. Azərbaycan Mərkəzi Komitəsinin plenumunda Azərbaycan Yazıçılar İttifaqında millətçiliyin və yerliçiliyin baş alıb getməsi haqqında məsələ qaldırılmışdır. Bağırovun çıxışında belə bir cümlə var idi ki, bəli, Səməd Vurğun özü haqqında Bəxtiyar Vahabzadə deyilən bir kəsə dissertasiya yazdırır. Mehdi Hüseyn də özü haqqında İsmayıl Şıxlinskiyə dissertasiya yazdırır. Təxminən, 20-ci illərdə atamın o adını çəkdiyim dayısı Qiyas bəy Şıxlinski Bağırovu ölümdən qurtarıbmış. O da həmən adamı yadında saxlayıb. Və hətta belə bir sözü də olub: "Hə, Şıxlinski, mənə tanışdır bu familiya". Atamın bir gözlü mənzili var imiş, – deyir. Gecələr orada oturub işləyirdim. Bir də gördüm Bəxtiyar hövlanak gəlib ki, İsmayıl, bəs belə bir hadisə baş verib. Bağırov bizim adımızı çəkib, ikimizi də bu saat sürgün edəcəklər. Deyir, gecəni oturduq. Cavanlıq idi, heç kimin ailəsi yox idi. Nə bilim, gecəni birtəhər araqla, konservayla yola verdik. Bizi tutub eləmədilər bəxtimizdən. Amma eyni zamanda da o dissertasiyaları müdafiə etmək bizə müyəssər olmadı. 9 il keçəndən sonra atam həmən mövzuda müdafiəni edib filologiya elmləri namizədi adını aldı. Bu da ancaq Bağırovun ölümündən sonra mümkün oldu.

Elçin Şıxlının öz nəsli haqqında dedikləri.

ELÇİN ŞIXLI: – Babalarım əmizadə olublar. Atam cəbhədən qayıdandan sonra anam da Tibb İnstitutunda oxuyurmuş. Görüblər, meyillərini salıblar birbirlərinə. Amma babam, yəni babalarımdan biri

Məmməd ağa həddən artıq ağır təbiətli kişi idi. Ailədə onların beş qızı, bir oğlu var idi. Anam böyüyü idi. Demək, təxminən, atam ilə anam 7-8 ilə yaxın bir-birlərini istəyiblər. Amma kişinin zəhmindən evlənə bilməyiblər. Və nəhayət, atam Yazıçılar İttifaqının üzvü, az-çox müəyyən dərəcədə tanınmış yazıçı olandan sonra elçiliyinə Mehdi Hüseyn, Əli Vəliyev, Mehdixan Vəkilov gedib. Babam da bu kişilərin hamısını tanıyırmış və onlara da hörməti var imiş. Belə ağır kişilərin qapısına qız üçün gəldiyini görəndən sonra "hə"sini verib. 40-45 ilə yaxın birlikdə ailə həyatı sürüblər və mənə elə gəlir ki, bizi də bir övlad kimi pis böyütməyiblər.

Atam bədii əsərlərlə yanaşı, həm də bir neçə dərslik hazırlamışdı. Dediyimiz kimi, o, təxminən 40-45 il ərzində pedaqoji fəaliyyətlə məşğul olmuşdu. XVIII-XIX əsrlər xarici ölkələr ədəbiyyatı dərsliklərinin ikisini Azərbaycan dilinə çevirmişdi. Birini də özü yazmışdı. Yəni dərslik müəllifi idi və onun dərsliklərindən hələ indiyə qədər istifadə edirlər. Atam 66-cı ildə Yazıçılar İttifaqının 3-cü katibi seçilmiş və 68-ci ilə qədər burada işləmişdi. "Azərbaycan" jurnalının baş redaktoru vəzifəsində də çalışmışdı. Təxminən, 2-3 il ərzində, o zamanlarda öz pedaqoji fəaliyyətinə ara verməmişdi. Soruşanda deyirdi: "Bala, mən auditoriyaya girəndə, dərs deyəndə, insanlarla ünsiyyətdə olanda, öz biliklərimi bir başqalarına öyrədə biləndə həyatımı, günümü hədər sərf etmədiyimi görürəm, hiss edirəm".

1981-ci ildə Azərbaycan Yazıçılar İttifaqının

qurultayında atam Yazıçılar İttifaqının 1-ci katibi seçiləndən sonra ictimai işlərinin həddindən artıq çox olduğunu nəzərə alaraq universitetdəki pedaqoji fəaliyyətini dayandırmalı olmuşdu. 1981-ci ildən 1987-ci ilə qədər atam Yazıçılar İttifaqının 1-ci katibi, sonradan da Yazıçılar İttifaqının sədri vəzifəsində çalışmışdı. Vəzifə onun üçün həyatda heç vaxt ali məqsəd olmayıb. 1987-ci ildə öz təşəbbüsü ilə Yazıçılar İttifaqının plenumunu çağırmış və həmin plenumda da öz istefa ərizəsini vermişdi. Bu məsələnin müzakirə olunmasını istəməmişdi.

Kadr arxasından mətn səslənir.

MƏTN: – Çağdaş zamanda ərizə vermək, Yazıçılar Birliyinin sədrliyindən çıxmaq cəsarəti tapdı özündə. "Ayrılan yollar" əsəri Azərbaycan mühitində dissident ədəbiyyatın ilk qaranquşlarından biri idi. Mən yazıçı kimi özümdən heç nə uydura bilməmişəm – deyirdi İsmayıl Şıxlı. "Ayrılan yollar" "Dəli Kür" orbitinə yüksəlmək üçün platforma oldu. Açıq səmada şimşək tək çaxdı "Dəli Kür" romanı.

Elçin Şıxlı "Dəli Kür" əsəri ilə bağlı xatirələrini danışır.

ELÇİN ŞIXLI: – İsmayıl Şıxlı deyəndə "Dəli Kür" əsəri yada düşür. Çünki "Dəli Kür" onun şah əsəridir. Atam anasından, atasından, qohumlarından, el arasında gəzən söhbətlərdən eşitdiyi, gördüyü, hiss etdiyi, duyduğu bir həyat tərzini qələmə

almışdı. Məsələn, əsərin qəhrəmanı Cahandar ağa – onun prototiplərindən biri öz doğma babası olub. Atam gərək ki, o romanı 1947-ci ildə başlamış, 1967-ci ildə bitirmişdi. Bu romanın da işıq üzü görməyi bir xeyli müddət çəkmişdi. Yenə də çətinliklər var idi. Kitab şəklində çap eləmək çətinlikləri var idi. Söyləmişdilər ki, bu kitab Rusiya əleyhinə olan bir əsərdir və bəy obrazı ideallaşdırılıb. O dövrdə ilk dəfə idi ki, ədəbiyyata Azərbaycanda əsl məğrur bəy, heç kimdən çəkinməyən, cəsur, mərd bir insan obrazı gəlmişdi. Bir şeyi də qeyd etmək istəyirəm ki, atamın pedaqogika sahəsində müəllimi və ustadı Əli Sultanlı idisə, sənət müəllimi, ustadı, yazıçılıq aləmində yol göstərəni bizim mərhum xalq yazıçısı Mehdi Hüseyn idi. Atama ilk yüksək, müsbət qiymət verən Mehdi Hüseyn olmuşdur.

Kadr arxasından mətn səslənir.

MƏTN: – "Əzizim İsmayıl, "Dəli Kür" əsərini dünən oxuyub qurtardım. Düzünü deyim ki, mən səndən yaxşı əsər gözləyirdim. Bu cür qüvvətli əsər yazacağını məhz bu illərdə gözləmirdim. Əhsən! Bərəkallah!"

Qardaşın Mehdi Hüseyn.

Elçin Şıxlı atası haqqında xatirələrini davam etdirir.

ELÇİN ŞIXLI: – Romanın filmi də çəkildi. Və bu filmdə nələr baş verdiyinin hər halda mən özüm müəyyən dərəcədə şahidi idim. Çünki ssenari

yazıldı. Ssenari də iki hissədən ibarət olmalı idi, rəngli çəkilməli idi. Və buradan yenə Moskvaya məktublar yazıldı, rəylər söylənildi ki, əsər Rusiyaya qarşıdır, rus millətinə qarşıdır. Ona görə əvvəl filmin rəngini əlindən aldılar, sonra da seriyasının birini kəsdilər və nəhayət, hətta Cahandar ağanın iki oğlundan birini də ixtisara saldılar. Əsərdəki Əşrəf və Şamxal surətləri filmdə Şamxal obrazında cəmləşdirildi. Şamxal həm seminariyaya getdi, həm də atası tərəfindən filmin əvvəlində döyüldü. Bu da azmış kimi filmin sonunda – final səhnəsində, Cahandar ağanın ölüm səhnəsində Cahandar ağa kazaklarla qoruq üstündə döyüşür, onların pristavını, kazakların bir neçəsini vurur və əsl igid kimi döyüşdə həlak olur. Yenə də yazdılar, yenə də qoymadılar və filmin finalını tamam belə deyək, qayçıladılar və hətta final səhnəsini yenidən çəkməyə üç gün vaxt da verdilər. Filmin operatorunun assistenti Yuri Barnovski montaj edən zaman o həmən final səhnə kəsildi. Kazaklarla döyüş olan hissəni götürdü, özündə saxladı, təxminən, 2-3 il bundan əvvəl Yuri həmin lenti çıxartdı, dedi ki, bəs bu hissə durur.

* * *

Kür çayı bütöv planda görünür. Sahillərdə Qarayazı meşəsinin cəngəlliklər diqqəti cəlb edir. At belində olan başıpapaqlı kişi sahil boyu çapır, ağaclıqda gözdən itir. O, sanki Cahandar ağanın ruhudur.

Kadr arxasından mətn səslənir.

MƏTN: – Kökdən, soydan bəylik qüruru var idi içində. Seminariyaya, aspiranturaya imtahan verəndə də, Yazıçılar İttifaqının sədrliyindən könüllü şəkildə istefaya çıxanda da, partiya biletini atanda da bu qürur onu ayaq üstə saxladı.

Elçin Şıxlının xatirələri davam edir.

ELÇİN ŞIXLI: – 1988-ci il idi. Qarabağda məlum hadisələr başlamışdı. Məlum hadisələr deyəndə Qarabağda separatçılar Azərbaycanın tərkibindən çıxıb Ermənistanla birləşmək istəyirdilər və təbii ki, həmin o hərəkata qarşı Azərbaycanda əks-təsir başladı. Millət sanki oyanmışdı və oyandıqca özünü anlamağa başlayırdı. Özünü anlamağa başladıqca da həqiqi söz deyə bilən, əsl söz deyə bilən, qorxmadan həqiqəti üzə deyə bilən insanların sözünə ehtiyac yaranırdı. İnsanlar meydana çıxıb öz haqqını, torpaqlarını tələb edəndə onlara ağsaqqal sözü deyənlərdən biri də atam oldu. Bakı təlatümlü dənizə bənzəyirdi. Tək Bakı deyildi, bütün Azərbaycan başdan-başa titrəyirdi. Azərbaycanın hər yerindən Azadlıq meydanına insanlar axın edirdi və bu insanlar burada özlərinin doğrudan da bir millət, bir qüvvə olduğunu hiss etməyə başlamışdılar. Sovet imperiyası Azərbaycanın əldən getdiyini hiss edib 1990-cı ilin yanvar ayında – yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycanın paytaxtı Bakıya qoşun yeritdi. Yeritdi və böyük vəhşilik törətdi. Qanlı qırğın gecəsinin səhərisi yadıma gəlir. Bildik ki, insan kütləsi indiki prezident aparatının qabağına yığışıb. O vaxt da Azərbaycan Mərkəzi

Komitəsi Kommunist Partiyası Mərkəzi Komitəsinin binası idi. Və heç bir maşın ilə hərəkət etmək mümkün deyildi. Piyada atamla getdik o tərəfə. Yadıma gəlir ki, anam təşvişdəydi. Dedi ki, ay İsmayıl, bəs hara gedirsiz, atırlar. Doğrudan da ara-bir atışma olurdu. O zaman atamın belə bir kəlməsi yadımdadı. Dedi ki, mən müharibədə öləsiydim, ölmədim. İndi mənə güllə dəysə də heç nə olmaz.

Kadr arxasından mətn səslənir.

MƏTN: – Saat kimi meyili haqqa dolandı İsmayıl Şıxlının.

İsmayıl Şıxlının son sözləri təqdim olunur.

İSMAYIL ŞIXLI: – Cəmiyyətin müəyyən hissəsi fiziki zəhmətdən azad olmalıdır. Onlar ancaq mənəvi aləmlə məşğul olmalıdırlar. Bu yaradıcı ziyalılara, yaradıcı adamlara aiddir. Bu mənada onlara qayğı lazımdır. O yerdə ki, dəllallıq başlayır, dəllalıq başlayan yerdə mənəviyyat pozulur.

Kadr arxasından mətn səslənir.

MƏTN: – Simvollar, ibrətli milli dəyərlər gerçəklər üstündə qurulub. Ölən dünyam milli özgürlük və xarakterlər toplusudur. Neçə qalın-qalın kitabların ədəbi yükü var bu əsərdə. Şıx oğullarının bu azman kişisi son günlərində gözlərinin işığını itirdi. Ürək işığında yazdı. “Ölən dünyanı” ömürgün yoldaşı Firudə xanım kağıza köçürdü. “Ölən dünyanı” yazıb, zamanı öldürdü İsmayıl Şıxlı!

İsmayıl Şıxlının qəbirüstü abidəsi panoram olunaraq, böyük sənətkarın gözləri ön plana gətirilir. Gün işığı onun gözlərində bərq vurur və belə bir planda filmin sonluq titrləri yazılır.

SON

2003-cü il

MƏMMƏDHÜSEYN TƏHMASİB

Axşamçağıdır. Günəş qürub edir. Bakıya yavaş-yavaş qaranlıq düşür. Evlərin pəncərələri get-gedə işıqlanır. Küçə boyu irəliləyən kamera bu evlərdən birinə doğru istiqamətlənir. Bu vaxt həmin evin pəncərələri işıqlanır. Kamera işıqlanan, nurlu pəncərədən içəri daxil olur.

Qədimi üslubda döşənən bu otaq mərhum sənətkar, istedadlı alim Məmmədhüseyn Təhmasibin yaradıcılıq kabinetidir. Divarboyu şkaf müxtəlif kitablarla, qalaq-qalaq yazılarla doludur. Yazı stolunun üstündəki köhnə albom səhifələnir və Məmmədhüseyn Təhmasib ömrünün fotolarda əbədiləşən anları bir-birini əvəz edir. Bu təsvirlər və yanar şam işığında filmin adı yazılır:

MƏMMƏDHÜSEYN TƏHMASİB

Kadr arxasından mətn səslənir.

MƏTN: – Xalqın mənəvi dünyasından baş qaldırıb həmişəyaşıl bəhrəli ağac kimi qəlblərdə qolbudaq atmaq heç də hər kəsə nəsib olmur. Onun üçün bu xalqı öz varlığından artıq sevməklə ona elə təmənnasız, saf arzu və niyyətlə xidmət göstərməlisən ki, dövr, zaman dəyişsə belə həmin zəngin, mənəvi güzgüdə sənin həmişə yerin görünsün. Azərbaycan elmində yeri görünən belə işıqlı simalardan biri ədəbiyyatşünas, folklorşünas, dramaturq, kinossenarist, pedaqoq, filologiya elmləri doktoru, professor Məmmədhüseyn Təhmasibdir.

M. Təhmasibin portreti və kitabları göstərilir. Cəmilə Təhmasib qardaşının iş otağında danışır.

CƏMİLƏ TƏHMASİB: – Azərbaycan ilk dövlətdir, ilk xalqdır ki, XI əsrdən başlayaraq, öz qız övladlarına xüsusi müəllim dəvət etməklə təhsil verib. 34-cü il idi ki, Rza da, Təhmasib də Bakıda idilər. APİ-ni təzəcə qurtarmışdı, yenicə evlənmişdi Bilqeys xanımla. Biz – anam, atam və mən Naxçıvanda idik. Bilirdik ki, atamı tutacaqlar. Daha doğrusu, Məmmədhüseynlə Rza bilirdilər. Gəlib atamı tutdular. Qiymətli hər nə var idi götürdülər. Anam ilə məni çıxartdılar həyətə. Evin qapılarını bağladılar. Anam məni çadrasına bürüdü. Dayandıq həyətdə. Sonra bizi həyətdən də çıxartdılar, küçə və darvazaları bağladılar. Əlbəttə, qohumlar o dəqiqə Məmmədhüseyn ilə Rzaya xəbər verdilər. İki gündən sonra Məmmədhüseyn gəldi, anamla məni gətirdi Bakıya.

Bakının İstiqlaliyyət küçəsi boyunca panoram 132 saylı məktəbdə başa çatır. Məktəbin qapısından girib pillələrlə qalxırıq, Aliyə Təhmasibi görürük.

ALİYƏ TƏHMASİB: – Mən ailəmi itirmişdim. Atamı, anamı. Buna görə də ali məktəbə qiyabi sənədlərimi verdim. Məktəbdə çox gözəl oxuyurdum, 4-5 alırdım. Ali məktəbə qəbul oldum, amma işləməyə ehtiyacım var idi. Mən o zaman məktəbdə katibə işləyirdim. Otaqda əyləşib makinada nə isə yazırdım. Bu zaman qapı açıldı, arxam qapıya tərəf idi. Mən bir yumşaq,

necə deyim doğma olan bir səs eşitdim. Bu kişi səsi idi. Salam verib dedi ki, o qız gəlsin, mən o qızı görmək istəyirəm. Mən arxaya baxmadım. Kim isə durub qapıya yaxınlaşdı. Bu zaman həmin adam dedi ki, yox, yox, mən o qırmızı koftalı qızı, makinada yazan qızı çağırıram. Yaxınlaşdım qapıya. Ortaboylu, gülərüzlü bir kişi idi. Mən onu tanımırdım. Həyatımda ilk dəfə idi görürdüm. Dedi ki, qızım, sənin adın Aliyədir. Dedim, bəli. Əlində bir dəstə açar var idi. Açarları mənə verdi. Dedi ki, qızım, Bilqeys müəllimə məndən sonra gələcək. Açarı yoxdur. Bu açarları verərsən ona. Sağollaşdı, getdi. Zəng vuruldu. Bilqeys müəllimə evə gedəndə mən yaxınlaşdım, dedim ki, bu açarları sizə çatdırıblar. Dedi ki, kim gəlmişdi. Mən təsvir elədim. Güldü və dedi ki, o, Məmmədhüseyn müəllim idi. Sonra cibindən çıxardıb o biri dəstə açarları göstərdi və dedi ki, qızım, açarlarım var mənim. O, sənə baxmağa gəlmişdi.

Naxçıvanın qədim məhəllələrindən biri göstərilir. M. Təhmasibin uşaqlıq fotosu ikili təsvirlə xəyal kimi görünür… Cəmilə Təhmasibin xatirələri.

CƏMİLƏ TƏHMASİB: – Məni Bakıda birinci sinfə qoydular. 3-4 il biz Bakıda qaldıq. Sonra atamı buraxdılar, 4-5 ildən sonra anam, atam və mən qayıtdıq Naxçıvana. Əlbəttə, öz evimiz bizə verilmədi. Biz bir müddət kirayədə qaldıq. Sonra dayımgilin evinə köçdük. Dayımgil yaşayan həyətdə bizə bir otaq verdilər. Mən 5-6-cı sinfi Naxçıvanda oxudum. Sonra Məmmədhüseyn

məni gətirdi Bakıya. O vaxtdan mən elə qaldım Bakıda, onun yanında. 1-2 ildən sonra anamla atamı da gətirdilər. Yığışdıq bir yerə. Bu arada Rza Moskvaya, VGİK-də oxumağa getdi. Sonra anam ilə atam rəhmətə getdilər. Mən elə həmişə Məmmədhüseynin ailəsində qaldım.

132 saylı məktəbin sinif otağında direktor Aliyə Təhmasibin dediklərindən.

ALİYƏ TƏHMASİB: – Onun bütün hərəkətləri ailədə, işdə, dostlar arasında nə qədər ciddi idisə, o qədər də məzəli idi. Yəni hər kəlməsinin içərisində son dərəcə dəqiqliklə seçilmiş bir yumor var idi. Hər sözün içindən elə qəribə söz çıxardırdı, hərflərin yerini dəyişməklə elə qəribə sözlər yaradırdı ki, insan doğrudan da çaşıb qalırdı, axı bu insanın ağlına necə gələ bilər. Sizə deyim ki, son dərəcə ailəsini sevən, ailəsinə bağlı, övladlarına bağlı gözəl bir ailə başçısı idi. Mən həmişə fikirləşirəm, deyirlər ki, insan yarısını axtarıb tapması üçün uzun illər keçir. Bəzən olur ki, insanlar bu dünyaya gəlirlər, lakin öz yarılarını tapmırlar. Elə belə də dünyadan gedirlər. Bu iki şəxsi, yəni onların hər ikisini şəxsiyyət adlandırıram. Çünki həqiqətən hər ikisi böyük şəxsiyyət idi. Məmmədhüseyn müəllimlə Bilqeys xanımın bir-birinin yarısını tapmağı, bu, həqiqətən onların həyatının bir möcüzəsi idi. Bu, taleyin qisməti idi. Onlar bir-birinə elə bağlı idilər ki, bir-biri ilə nəfəs alırdılar.

Cəmilə Təhmasibin xatirələrindən.

CƏMİLƏ TƏHMASİB: – Böyük qardaşım Rza mənə atalıq edib. Amma mən Məmmədhüseynin yanında böyümüşəm. Rza yaşca bizdən çox böyük idi. Hətta onun məndən böyük öz oğlu var idi. İnan, mən ona heç vaxt sən deyə müraciət etməmişəm, həmişə siz deyərdim. Ata kimi müraciət edərdim. Amma onun da mənə münasibətində qəribə bir rəsmiyyət var idi. Elə bil ki, mən cəsarət etmirdim Rzaya nə isə məsləhət üçün müraciət edim. Mənim bütün işim Məmmədhüseynlə bağlı idi. Əlbəttə, Məmmədhüseynlə yanaşı, onun həyat yoldaşı Bilqeys xanım da onun qədər alicənab insan idi. O, həmişə göstəriş, məsləhət verərdi. Çox qəribə insan idi. Hətta ölümündən 30 il keçsə də onun şagirdləri Bilqeys müəlliməni unutmurlar.

Mən Nizami adına dil-ədəbiyyat institutunda işləyirdim. Onlara gedə bilərdim, onunla söhbət edə bilərdim, sual verə bilərdim. Sonra da çıxıb gələ bilərdim, heç bir çətinlik çəkmədən. Onun qəribə xüsusiyyəti var idi, yazdığı həm elmi əsərləri, həm bədii əsərləri ailədə hamını yığıb oxuyardı. Biz hamımız ona qulaq asıb öz fikrimizi deməliydik. Sonra fikirləşib onu istədiyi tərzdə dəyişərdi, bəzən də yox. Elə bil ki, onun ilk dinləyiciləri, ilk tamaşaçıları biz olurduq. QARA NAMAZOV (professor): – Məmmədhüseyn Təhmasib, ümumiyyətlə, ədəbiyyatşünaslığın, şifahi xalq ədəbiyyatının bütün sahələri ilə məşğul idi. Ancaq biz oxucular onu hər şeydən əvvəl şifahi xalq ədəbiyyatının tədqiqatçısı,

nəzəriyyəçisi kimi tanımışıq. Təhmasib müəllimə qədər şifahi xalq ədəbiyyatı toplanırdı, öyrənilirdi, amma ona elmi-nəzəri don geydirmək Məmmədhüseyn Təhmasibə qismət oldu. O, 1943-cü ildə ilk dəfə olaraq "Mövsüm və mərasim nəğmələri" mövzusunda namizədlik işi yazdı. Hətta yaxşı yadımdadır, o deyirdi ki, mənim mövzum xalq poeziyasının girişidir. Təkcə o girişə görə filologiya elmləri namizədi adı verildi və bundan sonra ardıcıl olaraq elə həmin ildə də "Bayatılar" kitabını çap etdirdi. Təhmasib 300-ə yaxın xalq dastanını tədqiqata cəlb etmişdir. Burada ilk növbədə qəhrəmanlıq dastanları, "Kitabi-Dədə Qorqud" və "Koroğlu" eposu ön plana çəkilmişdir. Onların tarixi, elmi-nəzəri şərhini vermişdir və ondan sonra məhəbbət dastanlarının təsnifatını yaratmışdır. Ona görə onu təsnifat kimi xatırladıram ki, burada astral dastanlar, romantik dastanlar, realist dastanlar deyə qruplaşdırılmışdı. O, "Əsli və Kərəm", "Tahir və Zöhrə", "Qurbani", "Qasım", "Abbas və Gülgəz" dastanlarının və bir çox başqa dastanların geniş elmi-nəzəri təhlillərini verib bu əsərdə. Bu onun həm də doktorluq işidir. 1965-ci ildə doktorluq dissertasiyasını müdafiə elədi və filologiya elmləri doktoru adına layiq görüldü. 72-ci ildə bu fundamental əsər işıq üzü gördü, çap olundu.

Kadr arxasından mətn səslənir.

MƏTN: – Hər bir xalqın mənəvi tarixinin təcəssümü onun salxanc aynası olan muzeylərdə öz əksini

tapır. Bu gün mənəvi sərvətlərimizin mühafizə olunduğu məkanlardan biri də Nizami adına ədəbiyyat muzeyidir. Folklorşünaslığın əsasını qoyanlardan biri – orta əsrlər Azərbaycan xalq dastanları, mərasim və mövsüm nəğmələri, sanballı elmi əsərlərin müəllifi, "Kitabi-Dədə Qorqud", "Koroğlu" eposlarının, Molla Nəsrəddin lətifələrinin toplanması, nəşri və tədqiqində əvəzsiz xidməti olan Məmmədhüseyn Təhmasibin yaradıcılığı da bu muzeyin eksportları arasında nümayiş olunur.

PƏNAH XƏLİLOV (professor): – Təhmasib müəllimi biz gərək o biri alimlərimizdən seçək, seçilməsi də bundan ibarətdir ki, xalq adamı idi. Görünür elə buna görə də bizim ağız ədəbiyyatı deyirlər, şifahi ədəbiyyat deyirlər. (Folklor sözü var – Avropadan gəlmə sözdür. Folklor musiqisi, folklor ədəbiyyatı var). O, folklorun respublikamızda həm tədqiqatlarına görə, həm də böyük izahatlarına görə ən görkəmli bilicisi idi. Onun çap etdiyi "Koroğlu" dastanının məndə bir neçə nəşri var. Özü yoxdur, amma kitabı durur. Paris nüsxəsi də var, onun haqqında da yazmışam və hər yerdə Məmmədhüseyn müəllimin adını çəkmişəm. Yəqin ki, bu əsərə təzədən bir də əl gəzdirərdi. Çox təəssüf olsun. Mən inanıram ki, təzədən kim isə "Koroğlu" eposunu ortaya çıxardar. Koroğlu belə bir şəxsiyyət idi ki, onun haqqında dastan yaratdıqca, əlbəttə, şəxsiyyətinin müəyyən cəhətləri itib batır. Hər kəs hər millət qəhrəmanını özünə uyğun şəkildə yaradır. Buna görə də bizim

"Koroğlu" dastanı qəhrəmanlıq dastanları içərisində nadir bir əsərdir ki, biz onu yüksək qiymətləndirməliyik. Məmmədhüseyn müəllim nadir şəxsiyyət idi, böyük adam idi, bilik dağarcığı idi, zəngin şəxsiyyət idi. O, bir universitet idi öz-özündə, bütöv bir universitet idi. Qara müəllim də, mən də onun şagirdi olmuşuq. Burada bizim nə qədər ədəbiyyatşünaslarımız, folklorşünaslarımız varsa, onların hamısı Təhmasib müəllimin yetirdiyi adamlar olublar və Təhmasib müəllimin nəfəsi inanın ki, bizdə var.

Həsən Balıyevin dediklərindən.

HƏSƏN BALIYEV: – Mən artıq 50 ildən çoxdur müəlliməm. 50-ci ildə universiteti bitirmişəm. Çox vaxt orta məktəb müəllimlərini də, ali məktəb müəllimlərini də xatırlayıram. Orta məktəbdə bir müəllimin heç vaxt yadımdan çıxmır. Ali məktəbdə də 2-3 nəfər müəllimi unuda bilmirəm. Həmin müəllimlərdən biri Təhmasib müəllimdir. Təhmasib müəllim Azərbaycanda ən məşhur folklorşünas kimi ilk yetişən alimlərimizdən biridir. O öz yerində, amma ondan başqa onun müəllimlik məharətini heç vaxt yaddan çıxartmaq olmaz. Müəllim üçün deyirlər ki, bilik əsasdır. Bəli, birinci növbədə bilik əsasdır. Bilik olmayandan sonra olmayanı vermək olmaz başqasına. Amma müəllim üçün təkcə bilik əsas deyil. Müəllim gərək həm bilsin, həm də bildiyini verməyi bacarsın. Bax, belə məharətli müəllimlərdən biri də Məmmədhüseyn Təhmasibdir. Mənim heç yadımdan çıxmaz onun

bir misalı. Folklor elminin, folklorun əhəmiyyətindən danışanda deyirdi ki, bir gün radioda qulaq asırdım, xanəndə oxuyurdu ki, günü yarpıza dönsün, bizə gül göndərən yar. Bu tibb işçisini cəlb edir ki, nə üçün belə deyirlər. Sirri nədədir bunun? Maraqlanırdı. Məlum oldu ki, yarpız dərman bitkisidir. Ata-babalarımız da bilirlər ki, bundan soyuqdəymə dərmanı kimi istifadə edirlər. Bunu demək, özü də inandırıcı şəkildə demək hər müəllimin işi deyildi. O biri müəllimlər bunu əzbərləyib deyə bilər. Amma o, elə şəkildə deyirdi ki, bu günə qədər də mənim yadımdan çıxmayıb. Deməyi bacarmaq, biliyini çatdırmaq hər müəllimin işi deyil. Bunu mən bir tələbə kimi deyirəm. Onun tələbəsi olmuşam. Amma burada müəllim işləyəndə də onu müəllim bilmişəm. Məmmədhüseyn Təhmasibi bizim folklorşünaslığın əsas yaradıcısından biri hesab edirlər. Bu həqiqətdir.

İnqilab Kərimovun dedikləri.

İNQİLAB KƏRİMOV: – 1940-cı ildə Məmmədhüseyn Təhmasibin "Bahar" adlı pyesi M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrında tamaşaya qoyulub. Onun quruluşçu rejissoru Ələkbər Şərifovdur. Tamaşa, əlbəttə ki, birmənalı qarşılanmadı. Bəziləri orada irəli sürülən fikirlərin, qoyulan məsələlərin düzgün olmadığı fikrini irəli sürürdülər. Bəziləri də əsərin həqiqətən həm ideya, həm məzmun etibarı ilə çox dəyanətli və ləyaqətli əsər olduğu fikrini deyirdilər. Ancaq əsas cəhət onda idi ki, 40-cı illər Azərbaycan teatr ictimaiyyəti əsəri və tamaşanı yüksək qiymətlən-

dirdi və onun doğrudan da ləyaqətli, lazımlı bir əsər olduğu fikrinə gəldilər. Aradan heç bir ay keçməmiş Moskvada təhsil alıb qayıdan gələcəyin görkəmli aktyoru, rejissoru Mehdi Məmmədov onu Gəncə Dövlət Dram Teatrında diplom işi kimi tamaşaya qoydu. Özü də yaxşı qiymət aldı. Məmmədhüseyn Təhmasib sonrakı illərdə də dramaturgiyadan ayrılmadı, gözəl pyeslər yazdı. Mən birini də xüsusi ilə qeyd etmək istəyirəm ki, onlardan biri Gənc Tamaşaçılar Teatrında oynanılan "Rübailər aləmində" pyesi idi. Ümumiyyətlə, Məmmədhüseyn Təhmasib bir dramaturq kimi Azərbaycan teatrının forma, janr, üslub xüsusiyyətləri axtarışında öz əhəmiyyətli rolunu oynayıb.

Məleykə Ağazadənin xatirələrindən.

MƏLEYKƏ AĞAZADƏ: – 1954-cü ildə mən Musiqili Komediya Teatrında işləyirdim. Bir gün görkəmli rejissor Rza Təhmasib məni kinostudiyaya dəvət etdi. Mənə dedi ki, sənin oynadığın rollardan çox razıyam, istəyirəm səni kinofilmə çəkəm. Soruşdum ki, filmin adı nədir? Dedi ki, "Onu bağışlamaq olarmı?" Qumru rolunda çəkmək istəyirdi. Ssenari müəllifi M.TəhmAsib, bəstəkar T.Quliyev, quruluşçu rejissor R.Təhmasib. Oxuyanda ssenari mənim çox xoşuma gəldi. Maraqlı mövzu idi. Sonra bizi – bütün artistləri çağırdılar müəllif ilə görüşə. Məmmədhüseyn müəllim gəlib alicənab, mədəni şəkildə bizi qarşıladı. Artistlər öz fikirlərini deyirdilər, rollardan danışırdılar. Çox mehriban keçdi bu görüş. Bizə

uğurlar arzuladılar, təbrik etdilər. Beləliklə, film başlandı çəkilməyə. Mən minnətdaram Rza müəllimə, Məmmədhüseyn müəllimə. Məni böyük ekrana gətiriblər. O film mənim üçün ən əziz filmdir. Mən çox filmdə çəkilmişəm. Amma "Onu bağışlamaq olarmı?" birinci məhəbbət filmimdir. O, birinci filmimdir mənim, birinci addımımdır. Mən fəxr edirəm ki, bu kollektivlə işləmişəm.

Bəhlul Abdullanın dedikləri.

BƏHLUL ABDULLA (professor): – Məmmədhüseyn Təhmasibin yaradıcılığı "Kitabi Dədə-Qorqud"la ayrılmazdır. Biz bilirik ki, Azərbaycanda "Kitabi Dədə-Qorqud"a vaxtı ilə yasaqlar qoyulmuşdu. Və o yasaq qoyulduğu dövrdə heç nədən çəkinmədən, qorxmadan sinəsini irəli verən Məmmədhüseyn Təhmasib, Həmid Araslı, Əbdüləzəl Dəmirçizadə, Məmməd Arif kimi şəxsiyyətlər bu eposun qorunmasında böyük rol oynayırdılar. Və təbii odur ki, yəni Bartovld hələ 1894-cü ildə "Kitabi Dədə-Qorqud"un bir qolunu çap etdirmişdisə, sonra onun dörd qolunu çap etdirdi. "Dədə Qorqud"u 1950-ci ildə akademik H.Araslı ilə Məmmədhüseyn bir yerdə çap etdirdilər. Və bu kitabda yazılan izahlar, şərhlər bugünkü Qorqudşünaslıq üçün də öz əhəmiyyətini yüksək səviyyədə qoruyub saxlamaqdadır. Təhmasib müəllim şifahi ədəbiyyatda, ümumiyyətlə, folklorşünaslıqda, ədəbiyyatşünaslıqda bir etimologiya deyilən sahə ki vardır, onun çox görkəmli bilicilərindən idi. Səməni sözünün izahı, xüsusilə, Abşeron sözünün izahı bu cəhətdən diqqəti cəlb edir. Onun yaradıcılığında

fəhm əsas aparıcı yer tuturdu. Və o sübut etdi ki, Abşeron sözü bəzi bizim tarixçilərimizin gecə-gündüz izah etdiyi kimi nə abı-şirin deyil, nə də abı-şoran deyil. Bu, əfşarandır. Əfşar tayfalarının adı ilə bağlıdır. Buz söz ilə bağlı buzqor, Buzovna sözlərinin kökünü, etimologiyasını tədqiq edərkən Təhmasib bunların bu tayfalarının adı ilə necə bağlı olduğunu elmi faktlarla üzə çıxardı. Bu, Təhmasibin fəhmlə yazması, fəhmlə dünyanı görməsi idi.

İSRAFİL ABBASLI (professor): – Təhmasib müəllim elmdə çox ciddi adam idi. O, ciddi olmaqla bərabər eyni zamanda şəxsiyyət etibarı ilə, xarakter etibarı ilə çox səmimi, həm də çox sadəlövh adam idi. Məhz Təhmasib müəllimlə, onun rəhbərlik etdiyi şöbənin əməkdaşı ilə bir sıra səfərlərdə olmuşuq. Biz Naxçıvana ekspedisiyaya getmişdik. O zaman məqsəd bu idi ki, Azərbaycan folklorunun regional şəkildə öyrənilməsi və onun tədqiqi, nəşri planlaşdırılsın və gələcəkdə həyata keçirilsin. İlk addımı Naxçıvanda atdıq. Azərbaycan folklorunun regional şəkildə ilk nəşrinin əsası qoyuldu. “Azərbaycan folkloru”nun ilk cildi 1993-cü ildə nəşr olunmuş Naxçıvan cildidir ki, Təhmasib müəllimin ideyaları, arzuları əsasında həyata keçib.

HÜSEYN İSMAYILOV (filologiya elmləri namizədi): – Bu gün Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutunda, mən deyərdim ki, ən əlamətdar günlərdən biridir. Çünki bu gün Azərbaycan folklorşünaslığının taleyində misilsiz

rol oynamış Azərbaycan xalqının görkəmli folklorşünas alimi Məmmədhüseyn Təhmasibin ailəsi, yaxınları, doğmaları, gözəl övladları Folklor İnstitutundadır. Təhmasib müəllimlə bağlı çox xatirələr danışıldı, söylənildi. Onun mənalı ömründən, onun həyatının mənalı çağlarından çox xatirələr dil açdı. Bizimlə həmsöhbət oldu. Baxıram, Təhmasib müəllimin hər bir övladında onun cizgilərini görürəm. Təhmasib müəllim ona görə adi alimlərdən deyildi ki, onun yaradıcılığı, apardığı elmi-tədqiqat işləri bu gün də bütün folklorşünasların, o cümlədən mənim üçün də stolüstü kitaba çevrilibdi. Təhmasib müəllimin dövründə folklor ilə məşğul olmaq qəhrəmanlıq idi. Xoşbəxtlikdən Təhmasib müəllimin kitabları ilə yanaşı indiki müasir dövrün imkanları belə bir şərait yaradıb ki, biz bu gün Təhmasib müəllimi sizinlə birlikdə səsini dinləmək imkanı əldə edə bilərik.

Mətn kadr arxasından səslənir.

MƏTN: – İşıqlı təbiətə malik Məmmədhüseyn Təhmasib ömrü bugünkü gənclər üçün örnək olmaqla qəlblərdə həmişə yaşayar, işıqlı xatirəyə dönmüşdür. Ömrünü öz tələbələri üçün şam təki əridən həssas qəlbli pedaqoq, tədqiqatçı alim Məmmədhüseyn Təhmasibin yetirmələri indi respublikamızın sayılıb-seçilən alimləridir. Elə onun mənəvi ömrünü yaşadanlar da tələbələridir. Deməli, belə bir ömrü yaşamağa dəyərmiş.

SON

2002-ci il

ƏSRİN ŞAHİDİ

(Lətif Hüseynzadə)

Qaranlıqda şimşək kimi çaxan işıq zolağında solub saralan köhnə fotolar diqqəti cəlb edir. Payız yarpaqlarına bənzəyən bu fotolar ön plana gətirildikcə ekran tamam işıqlanır. Xəzəl kimi görünən fotolar haradansa əsən küləklə sanki canlanır. Kamera geri çəkildikcə (PNR) qoca bir kişinin həmin köhnə fotolara baxdığını görürük. Bu, əsrin şahidi, qocaman müəllim, maarif və mədəniyyət xadimi Lətif Hüseynzadədir. O, köhnə fotolara baxır. Bu baxışlarda bütöv bir əsrlik ömrün ağrı-acıları da, sevincləri, ümidləri də var Beləcə, köhnə fotolara, keçib gəldiyi 100 illik ömür yollarına baxa-baxa danışır, sanki həyatının monoloqunu söyləyir Lətif Hüseynzadə.

LƏTİF HÜSEYNZADƏ: – O zaman Naxçıvanda şəhər məhəllələrə bölünmüşdü. Küçələrlə müəyyən edilmirdi, məhəllələrlə müəyyənləşdirilmişdi ki, bu adam hansı məhəllədəndi. O məhəllədə hansı işlərlə, nə işlə məşğul olan adamlar yaşayır. Məsələn, Naxçıvanda bizim ailəmiz Sarvanlar məhəlləsində olurdu. Naxçıvanda Şahab, Əlixan, Zaviy, Xoylu, Cığataylı məhəllələri var idi. Əlbəttə ki, bu məhəllələrin hərəsinin özünün müəyyən bir tarixi var. Məsələn, Cığataylı məhəlləsi qədimdən mövcud idi, sonra ora gətirdilər ermənilər yerləşdirdilər. Cığataylar, ümumiyyətlə, orta əsrdən gəlmiş özbəklərdi. Teymurləngin zamanında və sonradan Şahruxun

zamanında Naxçıvana gəlib, Naxçıvanda yerləşib qalmışdılar. Onlar, ümumiyyətlə, türk tayfaları idilər, Naxçıvandakı türk tayfaları ilə yaxın əlaqələri var idi. Ondan sonra Şahab, Əlixan məhəllələri yadıma gəlir. Əlixan məhəlləsi tarixən Kəngərli tayfaları ilə bağlı olub. Ümumiyyətlə, Xanlar Kəngərli tayfası idi. Naxçıvanda böyük tayfadan birisi idi Kəngərli tayfası. Əlixan da o tayfaların bir qolu olmuşdu. Bu Kəngərli tayfasının adı ilə də, o məhəllə adlandırılmışdı. Orda olan əhalinin çox hissəsi, Əlixan məhəlləsinin çox hissəsi ticarətlə məşğul olurdular, sənətkarlıqla məşğul olurdular, dəmirçiləri var idi, dülgərləri var idi, xarratları var idi və sairə sənət adamları da bu məhəllədən idilər. Şahab məhəlləsi var idi. Şahab sözü, ümumiyyətlə, bu göydən gələn daşlar ki, var idi – meteoritlər, onlara şahab deyilir. Çox güman ki, ora düşən bir daşın adı ilə o məhəllə Şahab məhəlləsi adlanmışdı. O məhəllənin adamları, ümumiyyətlə, dindar, mömin, çox təmiz insanlar idilər. Onlar da qədim türk tayfaları idilər.

Mənim indi əlimdə bir yazı var: "Naxçıvan teatr tarixi". Naxçıvanda teatr 1883-cü ildə yaranmağa başlamışdır. O zaman Naxçıvanda mütərəqqi ziyalılar: Eynəlibəy Sultanov, Paşa ağa Sultanov, Məşədi Qurbanəli Şərifov (Əziz Şərifin atası Eynəlibəy idi), Mirzə Əlibəy Bektaşı – bunlar Naxçıvanda teatr tamaşaları təşkil edirdilər, məktəb açırdılar, qəzet çıxarmağa cəhd edirdilər, muzey yaratmağa səy göstərirdilər. Onlar Azərbaycanda 1873-cü ildə teatr tamaşaları göstərməyə başlamışdılar. Bu, Həsən bəy

Zərdabinin təşəbbüsü idi. Naxçıvanda düzdür ondan bir az sonra başlamışdı, amma Naxçıvanda dram cəmiyyəti çox əvvəldən mövcud idi. Ona görə ki, o zaman ruslar Naxçıvanda tamaşa təşkil etmişdilər, hətta deyilənə görə, birinci tamaşa Qriboyedovun "Ağıldan bəla" əsəri əsasında hazırlanmışdı. Naxçıvan ziyalıları bundan çox narahat idilər. Necə olur ki, gəlmə adamlar özləri üçün teatr yaradırlar, bizim böyük mədəniyyətimiz, tariximiz ola-ola, biz burada bir teatr yarada bilmirdik. Teatr necə yaranmışdı? Naxçıvanda, bizim həmən Sarvanlar məhəlləsinin yanında bağ vardı. İndi ora "Böyük bağ" deyirlər. 14-15-ci illərdə mənim yadıma gəlir ki, ora "Padşahlıq bağı" deyirdilər. Bu "Padşahlıq bağı"nın yeri qədim hun qəbiristanlığı olmuşdur. Oradakı qoca adamların dediyinə görə, o qəbiristanlıqda çoxlu qədim abidələr varmış, türbələr, qəbirlər varmış. Onlar orda hamısını söküb, onun yerinə bir park salmışdılar rus çinovnikləri üçün. Və eyni zamanda orada mədəni mərkəz yaratmışdılar, adına klub deyirdilər. Əslində, orada istirahət edirdilər, yeyib-içirdilər, həm də konsert və teatr tamaşaları verirdilər. Bu tamaşalar Naxçıvan ziyalılarına da çox böyük təsir göstərirdi. Onlar həm yaratmağa cəhd göstərirdilər, həm də ruslara qibtə edirdilər. Bu yad adamlar gəlib burda teatr tamaşaları versinlər, özü də bizim bu tarixi abidələri söküb-dağıdıb, onun yerinə özləri üçün teatr tiksinlər, biz qalaq qıraqda… Naxçıvanda belə bir ziyalı təbəqəsi yaranmışdı. 14-cü ilin Cahan müharibəsi vaxtında, məscidin

qarşısında, mən tez-tez görürdüm ki, böyük şəkil sərgiləri düzəldirdilər. O şəkillər, ümumiyyətlə, rus-türk müharibələrini təsvir edən şəkillər idi. Məsələn, rusların türkləri toplarla qovmaqları göstərilirdi, təbliğ olunurdu. Ondan başqa orada İsanın, Məryamın şəkli olan ikonalar satılırdı. Çox qəribə mənzərə yaranmışdı, sanki təzədən xristianlığı yaymaq üçün cəhd göstərirdilər. Ruslara qarşı rəğbət yaratmaq üçün cürbəcür vasitələrdən istifadə edirdilər. Amma xalqın iradəsi, istəkləri tamamilə başqa idi.

14-cü ilin Cahan müharibəsində Qarsda, Ərdəhanda, Ərzurumda rusların və ermənilərin törətdiyi cinayətlər nəticəsində çoxlu insanlar, xüsusilə, müsəlmanlar, türklər Naxçıvana tərəf gəlmişdilər. Naxçıvanda xüsusi qutular hazırlanmışdı. Adamlar boyunlarına lent asıb üstünə yazmışdılar ki, "Müharibə hərbilərinə yardım". Belə bir yardım yığıb-toplanırdı, pul yığılırdı və sonra göndərilirdi Qars, Ərdəhan, Ərzurum qaçqınlarına. Naxçıvanda, ümumiyyətlə, türklərə rəğbət böyük olduğundan onlara yardım göstərmək üçün camaat böyük səy göstərirdi. Nəhayət, 17-ci il hadisələri, 18-ci il hadisələri baş verdi. O zaman mənim yadımdadı ki, bizim böyük, görkəmli şairimiz "Molla Nəsrəddinçi" Əliqulu Qəmküsar Nəcəfov da bizə müəllimlik etdi bir müddət Rüştiyə məktəbində. Onun "Maarif" adında bir şeiri var idi:

Cəhd elə, səy elə, elm öyrən!
Cəhalətlə, nadanlıqdan
Uzaqlaşmağa çalış!

Bizi düzərdi, oxudardı. Beləliklə, milli şüurumuzun yaranması üçün bu adamlar böyük səy göstərirdilər. O zaman bizim hörmətli şairimiz, dramaturqumuz Hüseyn Cavid Bakıda işləyirdi. Ermənilər burada mart hadisələri yaratdıqları zaman Hüseyn Cavidi tutub əsir aparmışdılar. Yaxşıdır ki, xoşbəxtlikdən xilas olmuşdu. Ənzəliyə gedən gəmi ilə gedib ordan Təbrizə, Təbrizdən Naxçıvana gəlmişdi. Naxçıvana gəldiyi zaman bizə əvvəlcə "Ədəbiyyə", ya da ki, "Ədəbiyyə nəzəriyyəsi" adlanan elmdən dərs deməyə başladı. Onun gözəl, şirin danışığı, gözəl şeirlər söyləməsi, ədəbiyyatımızın tarixi haqqında maraqlı söhbətləri hamımıza ciddi təsir göstərir, onu bizə sevdirirdi. O, hətta dilimizin saflığı, təmizliyi uğrunda söhbətlər aparırdı. Hüseyn Cavidin söhbətləri, bu cür danışıqları bizə ədəbiyyatımızı sevdirirdi. Hətta mənim sonralar Şərq fakültəsinə, Bakıya oxumağa gəlməyimdə də belə demək olar ki, onun dərslərinin böyük təsiri oldu. O, məsələn, Xəyyamdan, Hafizdən misallar gətirirdi, ondan sonra türk şairlərindən gözəl misallar gətirirdi və ədəbiyyatımızı bizə öyrədirdi.

Naxçıvanda müxtəlif adlar ilə müxtəlif tayfalar var idi. Məsələn, var idi Kəngərlilər. Məşhur rəssamımız var idi bizim Bəhruz Kəngərli. Azərbaycan realist rəssamlığının banisidir Bəhruz Kəngərli. Bəhruz Kəngərli mənimlə çox yaxın dost idi. Baxmayaraq ki, o, məndən çox yaşlı idi. Məsələn, onun bir böyük qutusu var idi, içərisində müxtəlif rənglər var idi, onu mənə verərdi ki, bunu götür, bərabər gedək şəkil

çəkək. O, gələrdi, oturardı bağda, həmin dediyim bağda bizim məhəllənin şəkillərini çəkərdi, qoca kişilər, qırmızı saqqallı kişilər çəkərdi. O zaman qaçqınlar var idi 18-ci ildə. O, qaçqınların uşaqlarının şəkillərini çəkmişdi. O zaman Naxçıvanda çox qədim, qədim deyəndə ki, bəşər tarixinin 2-ci əsası olan Nuhun məzarı da Naxçıvanda idi. Çünki Nuhun tufanından sonra rəvayətə görə Nuh Naxçıvana gəlmişdi. Naxçıvanda Gəmiqaya deyilən, Qapıcıq deyilən yerdə onun məzarı vardı. Həmin məzarın şəklini Bəhruz Kəngərli bir neçə formada çəkmişdi.

18-ci ildə Naxçıvanda (Naxçıvan o zaman Azərbaycandan təcrid edilmişdi) ermənilər bir siyasət qurmuşdular. Naxçıvanın Zəngəzur tərəfi işğal ediləndən sonra Naxçıvanın Mehri, Megri deyirlər ermənilər, həmin o yerləri tutandan sonra Naxçıvan demək olar ki, Azərbaycandan tamamilə təcrid edilmiş vəziyyətdə qalmışdı. O zaman Naxçıvanın ziyalıları, müəllimləri, məsələn, mənim müəllimim Həsən Səfərli, İbrahim Xəlil Axundov, sonra bir çox mütərəqqi adamlar Mirzəbalı Əliyev bunlar çalışmışdılar ki, burada bir müvəqqəti hökumət qursunlar, əks təqdirdə ermənilər Naxçıvanı işğal etməyə çalışacaqlar. “Böyük Ermənistan” yaratmaq arzusu ilə ermənilər Naxçıvan kəndlərində başlamışdılar qan tökməyə, kəndli evlərinə girib evlərini talayıb yandırmışdılar. Bu xəbərlər Naxçıvanda yavaş-yavaş yayılmağa başlayırdı. Və həmin ziyalıların təşəbbüsü ilə Naxçıvanın mötəbər xanı Cəfərqulu xan Kəngərli müvəqqəti bir hökumət qurdu; Milli Komitə deyirdilər onun adına,

Komitə adlandırılırdı. Onun oğlu Kalbalı xan var idi, o da Rusiyada hərbi təhsil, mükəmməl təhsil almış bir gənc idi, o da hərbi baş komandan təyin olunmuşdu. Hətta İrandan gələn rus qoşunlarının silahlarını əlindən alan Şeyx Şamilin nəvələrindən bir nəfər özünü "Böyük xan" adlandırmışdı; o, rus ordusunun zabiti idi, bütün silahları alıb vermişdi Milli Komitəyə. Və beləliklə, mükəmməl bir ordu yaranmışdı. Amma buna baxmayaraq, Ermənistandan gizli şəkildə daşnak qüvvələri, terroristlər Naxçıvana gəlir, Naxçıvan şəhəri ətrafında özlərinə gizli yerlər hazırlayır və kəndlərdə qan tökməyə başlayırdılar. O zaman Hüseyn Cavid və onun ətrafında toplanan ziyalılar vəziyyəti danışıb söhbət edirdilər. Biz də onları dinləyirdik. Hüseyn Cavidin ətrafına toplananlardan Cəlil Məmədquluzadənin dayısı Mirzə Kəlbiristan Məhbus, o da şair idi, Mirzə Bağır Əliyev Səyyar, o da şair idi, Məmmədəli Sidqi yadıma gəlir. Sonra Əli Səbri Qasımov, Bəhruz Kəngərli gələrdi bizim məktəbimizə. Hüseyn Cavidin yanına, ondan məsləhət alardılar. Öz dərdlərini deyərdilər, hətta kənddən müəllimlər də gələrdilər, danışardılar. Kəlbiristan bir dəfə bir şeir də gətirmişdi, oxudu. O şeir belə idi:

Hər baxanda bağrım olur qan, ey Vətən,
Hər yerin viranədir, suzan olubsan, ey Vətən!

Bu ruhda böyük bir şeir yazmışdı. O zaman ətrafına toplanan şairlər, alimlər, müəllimlər hamısı onu təbrik edirdilər. Cavid də təbrik etdi,

alqışladı, dedi ki, bu şeir gələcək tariximiz üçün çox əhəmiyyətlidir. Qoy dünya görsün ki, ermənilər Naxçıvanda nə kimi cinayətlər, nə kimi vəhşiliklər törətmişlər. Amma indi elə bir zamandır ki, biz gənclərimizi mübarizəyə çağıran şeirlər yazmalıyıq. O belə deyirdi:

Şimdi qeyrət edərsə, millətimiz
Yenə yoldaş edər, səadətimiz.

Əgər indi qeyrət göstərmiş olsaq, mübarizə aparmış olsaq, köhnə səadətimiz özümüzə qayıdar. Hüseyn Cavidin belə məsləhətləri var idi. O məsləhətlərin nəticəsində doğrudan da həm gənclərin yeni şeirlər təbliğinə kömək edirdi, həm də Milli Komitə dəfələrlə çağırırdı Hüseyn Cavidi, onun məsləhətlərini dinləyirdi. Naxçıvan camaatı ermənilərin bu vəhşiliklərinə qarşı sakit durmamışdılar. Doğurdan da Cavid deyən kimi qeyrət göstərməyə başlamışdılar.

Şəhərdə ermənilər bizim Sarvanlar məhəlləsini mühasirəyə alıb yandırdılar. Bizim məhəllənin əhalisinin yarısını öldürdülər, yarımız da qaçdıq getdik Araz çayı qırağında Qaraçux kəndinə. Ondan sonra Xoylu məhəlləsini, Bomgumayi məhəlləsini, Gilə məhəlləsini işğal etdilər. Zaviyyə məhəlləsinə hücum etdilər, şəhərin qədim abidələrini dağıtdılar. Hətta Naxçıvanın məşhur Came məscidi vardı, o məscidi topla vurub minarəsinin ortasını deşdilər. Bütün bu vəziyyətdə Naxçıvan camaatı onlara qarşı mübarizə apardı və axırda onları susdura bildi. Onlar ağ bayraq qaldırıb təslim oldular, barışdılar. Amma bu barışma, sonra

aydın oldu ki, bir hiylə imiş. Bunun arxasınca Naxçıvana Andronikin 15 minlik ordusu gəldi. Cənubi Azərbaycandan keçən, Xoy, Mərənd, Salmas şəhərlərini, Təbrizdə, Cənubi Culfada qarşılarına çıxan adamları – 80 minlik əhalini qırmışdılar, öldürmüşdülər. Gəlib Arazı keçəndən sonra körpünü dağıdıb, körpünün yanında Yazi kəndi var idi, o Yazi kəndinin əhalisi etiraz edəndə ki, bu körpünü niyə dağıdırsız, onlar kəndə hücum edib, bütöv əhalini qılıncla, xəncərlə öldürüb, ağaca çəkmişdilər. Və ordan gəlib Naxçıvanın Nehrəm kəndini mühasirəyə almışdılar. Nehrəmə girə bilməmişdilərsə də, amma çox böyük cinayətlər törətmişdilər. Nəhayət, şəhəri mühasirəyə alıb işğal etmək üçün çoxlu cəhd göstərmişdilər. O zaman Türkiyəyə nümayəndələr göndərildi. O nümayəndələrə baxmayaraq ki, türklərin vəziyyəti o zaman bizimki kimi idi, ermənilər oralarda da çox böyük qanlar tökürdülər. O zaman oranın baş komandanı, Şərq cəbhəsinin baş komandanı Kazım Qara Bəkir paşa, Ənvər paşa onlara demişdi ki, gedin, lazım olsa vuruşun, amma çalışın ki, şəhərə daxil olmasınlar. Biz yaxın zamanda yardımınıza gələcəyik.

Doğrudan da 3 gündən sonra, 1918-ci il iyul ayının 7-də türk ordusu zəfər marşı ilə Naxçıvan şəhərinə daxil oldu. Və Naxçıvan camaatı onları böyük məhəbbətlə, hərarətlə qarşıladı. O zaman Naxçıvan Türkiyənin bir vilayəti hesab olunurdu. Cənubi-qərbi Qafqaz cümhuriyyəti var idi. O cümhuriyyətə Qars cümhuriyyəti deyilirdi. Çünki qarslar da ora tabe idilər. Qars Milli Şurasında Naxçıvanın məsələsi müzakirəyə qoyulmuşdu. O

zaman Kazım Qara Bəkir paşa Mustafa Kamal paşaya müraciət edərək demişdi: "Naxçıvanda belə bir cümhuriyyət yaratmaq arzusundadır. Camaat, mən də bu işin tərəfdarıyam, siz nə məsləhət görürsüz?" O da demişdi ki, Naxçıvan türk qapısıdır, bunu nəzərə alaraq onun mövcudiyyatını qorumaq üçün əlinizdən gələni yapınız.

Azərbaycan xalqı heç bir zaman türk ordusunun, Kazım Qara Bəkir paşanın bu qardaşlıq yardımını unutmamışdır və heç bir zaman da unutmayacaq. Naxçıvanda hörmətli prezidentimiz Heydər Əliyev cənablarının olduğu zaman, onun təşəbbüsü ilə Kazım Qara Bəkir paşanın adına bir Came məscidi də inşa edildi. Və bu açılış zamanı hörmətli prezidentimiz böyük və tarixi bir nitq söylədi.

Kazım Qara Bəkir paşa camesinin açılışından əsas fraqmentlər göstərilir. Heydər Əliyev açılış mərasimində çıxış edir.

HEYDƏR ƏLİYEV: – 1918-ci illərdə bu bölgədə Türkiyə, türk xalqı, böyük Atatürkün sərkərdəliyi və başçılığı ilə istiqlal savaşı apararkən öz torpağını ermənilərdən və başqa düşmənlərdən təmizləyərkən türk xalqı, Türkiyə Azərbaycana da, Naxçıvana da öz xidmətini göstərdi. Bəli, Ənvər paşanın, Nuru paşanın başçılıq etdiyi Türkiyə ordusu Azərbaycana gəldi, Gəncəyə gəldi, Bakıya gəldi və Azərbaycanı o vaxtkı fəlakətdən qurtarmağa yardım etdi, şəhidlər verdi. Ən gərgin vəziyyət burda yaranmışdı. Çünki erməni daşnakları hücum edib, buraları işğal edirdilər. Və yenə də

türk qardaşlarımız, türk ordusu, Mustafa Kamal Atatürkün ordusu buram erməni daşnaklarından, bizim düşmənlərimizdən xilas etdi. Türk ordusunun, xüsusən, Kazım Qara Bəkir paşanın adı Azərbaycanda və xüsusən bu bölgədə məşhurdur və böyük hörmət-ehtiramla həmişə yad edilir.

1921-ci ildə Naxçıvanın ətrafında yenə də mübarizə gedirdi. Ermənilər bu ərazini öz əllərinə keçirmək istəyirdilər, ancaq Naxçıvan camaatı öz iradəsini göstərdi. Və 1921-ci ildə Qarsda Azərbaycan xalqı üçün əhəmiyyətli olan "Qars müqaviləsi" imzalandı. Onu Türkiyə imzaladı, Azərbaycan imzaladı, Ermənistan imzaladı və bu imzalarla Naxçıvanın Azərbaycanın tərkibində olması təsdiqləndi. Və burda əsas rolu Türkiyə oynadı. Həmən o Qars müqaviləsinin altında bizim hörmətli Kazım Qara Bəkir paşanın imzası da var.

Köhnə fotolardan panoram edilir və qocanı – Lətif Hüseynzadəni görürük. O, dərin düşüncələrə dalıb, qədim Naxçıvan foto mənzərələrinə baxır. Sonra Kazım Qara Bəkir paşa camesi göstərilir. Lətif Hüseynzadə sanki o cameyə baxa-baxa danışır.

LƏTİF HÜSEYNZADƏ: – 30-cu ildə mən universiteti bitirdim. Məni təyin etdilər Yerevan şəhərindəki pedaqoji texnikuma. Çünki o zaman Yerevanda əhalinin 75 faizdən artığı azərbaycanlı idi, azəri türkləri idi – oğuz türkləri adlandırırdılar onları. Onda hər yanda azərbaycanlılar idi demək olar ki, danışıqlar, söhbətlər də azərbaycanca gedirdi. İclaslar da Azərbaycan dilində aparılırdı. Heç bir zaman mən görmədim ki, orada ermənicə iclas

aparılsın və yaxud da söhbətlər ermənicə olsun. Restoranlara gedirdik, yeməkxanalara gedirdik, orada da danışıqların hamısını ancaq Azərbaycan dilində eşidirdik, ermənicə söz eşitmək olmurdu. Hətta ermənilər özləri-özlərindən şübhələnirdilər, çünki azərbaycanlılardan o zaman bərk qorxurdular. Azərbaycanlılar onları həmişə üstələyirdilər. Mən pedaqoji texnikumda işlədiyim zaman orada qədim abidələr var idi, çoxlu məscidlər var idi. O məscidlərə ekskursiyaya gedərdik uşaqlarla. Yerevanda çoxlu Azərbaycan şairləri olmuşdu, alimlər olmuşdu. Mən o alimləri, şairləri araşdırmağa başladım. O zaman böyük bir Əlyazmalar İnstitutu var idi. Demək olar ki, o institutun əlyazmalarının böyük hissəsini, yəni türkcə, ərəb əlifbası ilə yazılmış hissələrini mən qeydə aldım və sonra onların hamısını hissə-hissə, məqalə şəklində "Sovet Ermənistanı", "Azərbaycan", "Naxçıvan" qəzetlərində çap etdirdim. Sonra bir gün mən eşitdim ki, həmən o materiallar Amerikaya universitetə bir bağlamalar şəklində göndərilib. Qəzetdə yazılmışdır ki, 2900-ə qədər kitab və əlyazma kitablar göndərilibdir. Mən də getdim icazə aldım, komissiyaya daxil etdilər, çünki ərəb əlifbasında yeganə oxuyan mən idim. Bağlamalar açıldığı zaman, ondan qabaq mən bilirdim ki, bizim böyük şairlərimizin əsərləri, "Dədə Qorqud" kimi və başqa əsərlərimiz xaricə satılıb gedibdi, aparıblar. Bu böyük şairlərdən biri də Cahan şah Həqiqi idi. Ədəbiyyat tariximizdə, mən ədəbiyyat dərsi deyəndə, icmal hissələri var idi. O icmalları araşdıranda gördüm ki, yazıblar Cahan şah Həqiqi farsca yazan bir şair olmuşdur.

O, Azərbaycanın böyük hökmdarı olmuşdu. Və ətrafına da farsca yazan şairləri toplamışdı. Mən də elə o zaman maraqlanırdım ki, görüm bu adamın əsərləri hardadır; guya itibdir, yoxdur, mən də tapım. Bəli, o kitabları açdığım zaman mən kitabların üstünü oxuyurdum, orda da ermənicə siyahılar çıxırdı, onları da oxuyurdum. Baxdım, kitabın birinin üstündə yazılıb ki, "Divani-Həiqi". Bunu oxuyanda dərhal başa düşdüm ki, bu həmən Cahan şah Həqiqinin divanıdır. Sonra mən bu kitabın üstünü vurmadım, getdim onu alam, bir də baxam. Dedilər ki, bu kitabı da, o biri kitabların hamısını da göndərmişik Əlyazmalar İnstitutuna. Çox çətinliklə onun yeni nömrəsini, yerini tapdım, aldım və baxdım ki, məndə onun bir-iki şeiri var idi. Gördüm ki, eyni ilə həmən adamın əsəridi. Elə bir təsadüf yarandı ki, mən onun mikrofilmini ordan çıxarmalı oldum, amma ordan çıxarılan yazını yoxlayırdılar, hətta lazım olmayanda əllərindən alırdılar. Məndən də bir-iki dəfə aldılar, sonra gördüm ki, bu kitabı çıxarda bilməyəcəyəm. Və onun mikrofilmini əldə etmək üçün, onların da çox zəngin bir xəzinəsi var yer altında. Orada işləyən adama dedim ki, onun mikrofilmini çıxart ver mənə. Çox çətinliklə də olsa, baha qiymətə mən onun mikrofilmini əldə etdim. Türkiyədə çalışdığım zaman dedilər ki, siz Ermənistanı aldatmısız, o kitabı oradan çıxartmısız. O kitabı alandan sonra mən baxdım ki, Həqiqi nəinki farsca yazan gözəl şair idi, onun gözəl türkcə, azərbaycanca da, azəri ləhcəsində yazılmış gözəl əsərləri var, qəzəlləri, farsi-divani var, rübailəri var. Yerevanda olduğum zaman, mən onun türkcə,

yəni azərbaycanca divanını tərtib edib hazırlayıb çap etdirdim.

Naxçıvanda pedaqoji texnikum var idi. Ondan sonra gəldim pedaqoji texnikumda müəllim və dərs hissə müdiri vəzifəsində çalışdım. 38-39-cu tədris ili idi. Pedaqoji texnikumda mən dərs hissə müdiri vəzifəsində çalışırdım. O zaman bizim hörmətli prezidentimiz Heydər Əliyev cənabları da bizim texnikumun tələbəsi idi. Əlbəttə, mən bu gün də fəxr edirəm ki, pedaqoji əməyim var onun böyük dünya miqyasında tanınmış şəxsiyyət olmasında. Bu mənim üçün böyük iftixar hissi doğurur. O, pedaqoji texnikumda təhsil aldığı zaman indi sevildiyi kimi, doğurdan da o zaman da bütün müəllimlər, tələbələr tərəfindən böyük hörmət, məhəbbət qazanmışdı. Onun hərəkətləri, danışıqları, intizamı, tərbiyəsi hamının xoşuna gəlirdi, hamı onu sevirdi. Məktəbdə gözəl təşkilatçı idi. Dərnək məşğələlərinin aparılmasında onun böyük fəaliyyəti var idi uşaqlar arasında.

Yarışlarda həmişə o birinciliyi qazanırdı. Onda elə bir gözəl təbii keyfiyyət var idi ki, o yəqin ki, ailəsindən gəlmişdi; onda fitri qabiliyyət var idi. O, gözəl danışırdı, çox gözəl nitqi var idi onun, istər-istəməz müəllimlər, tələbələr heyranlıqla qulaq asırdılar ona.

Heydər Əliyev Naxçıvan Pedaqoji texnikumunda oxuduğu illəri xatırlayır.

HEYDƏR ƏLİYEV: – Burada mənə dərs verən, ana dili, türk dili, Azərbaycan dili dərsi verən müəllimim oturubdur, Lətif Hüseynzadə. Təntənəli mərasimdə mən dünən öz müəllimlərimi yada salırdım,

onlardan birinci 60 il bundan öncə, bəlkə də, 65 il bundan öncə mənə dərs deyən müəllimlərdən birinci mənim, əziz müəllimim Lətif Hüseynzadənin adını çəkdim. Bu gün bura gəlib, mən burada onunla görüşdüm, çox məmnunam, çox sevinirəm ki, indiyə qədər yaşayır, indiyə qədər öz fəaliyyətini davam etdirir və böyük işlər görür. Mən o ağır dövrdə Naxçıvana gəldim. Burada mənim bacım yaşayırdı. Onun bir kiçik evində, komasında yerləşdim və məni sevən adamlar gəlib mənimlə görüşürdülər. Demək olar ki, məni səhərdən axşama kimi gəlib ziyarət edirdilər. Kiçik, balaca bir həyətə mənim müəllimim Lətif Hüseynzadə gəldi. Nə qədər sevindim, çünki ondan 39-cu ildən ayrılmışdım, bu isə 90-cı il idi. Nə qədər sevindim, oturduq çox söhbət etdik, mən onun o vaxt dediyi sözləri indi sizə bildirmək istəyirəm. Dedi ki, əzizim Heydər, sən çalış, bu erməni düşmənlərimizin burada qarşısını al, Naxçıvana təcavüzə imkan vermə. Çünki 18-ci ildə onlar Naxçıvana hücum etdilər.

Əgər türk ordusu gəlməsəydi, əgər Kazım Qara Bəkir paşanın ordusu Naxçıvana gəlməsəydi, bizim hamımızı qıracaqdılar, bu mənim gözümün qabağında olan şeydir. Lətif müəllim, Lətif Hüseynzadə 1918-ci ili yadına saldı və o illərin şahidi kimi mənə, bir ağsaqqal kimi öz tövsiyələrini, bir müəllim kimi öz tövsiyələrini verdi. Mən ona dedim: "Əziz müəllimim, mən böyük bir həyat yolu keçmişəm, bu gün Naxçıvana gəlmişəm məcburətən. Amma eyni zamanda gəlmişəm ki, sizlə bir yerdə olum, siznən bərabər olum, öz həmvətənlərimlə bir yerdə olum və

Vətənimi qoruyum. Əgər qoruya billərəmsə qoruyacağıq, qoruya bilməyəcəyəmsə, hamımız bir yerdə şəhid olacağıq”.

Lətif Hüseynzadə qədim Naxçıvana baxa-baxa danışır. Sonra müasir Naxçıvan mənzərələrini görürük.

LƏTİF HÜSEYNZADƏ: – Son zamanlar Naxçıvanın tarixinə aid materiallar, xatirələr yazmışam və bir daha yazmaq istəyirəm. Naxçıvanın 120 illik teatr tarixi vardır. Mən onu Üzeyir Hacıbəyovun yardımı ilə 50-ci ildə bir dəfə çap etdirmişəm. İndi onun 100 illik yubileyi münasibətilə yenidən çapa hazırlayıram, onun üzərində işləyirəm. Sonra mən bu yaxınlarda böyük yazıçı, şair, müəllim və Naxçıvanı erməni işğalından xilas edən Kazım Qara Bəkir paşa haqqında belə bir əsər yazmışam: “Araz şahiddir”. Kazım Qara Bəkir paşanın Naxçıvandakı xidmətlərinə. Hörmətli prezidentimiz Heydər Əliyev. Dünən görüşdüyümüz məsciddə görüşdüyümüz zamandır (şəkli göstərir). Bu da Kazım Qara Bəkir paşanın qızı Timsal xanımla görüşlərimizin şəklidir (o birisi şəkli göstərir və əlinə başqa kitab götürür). Bu həmin əsərdir – “Cahan şah Həqiqi”. Bu əsər itmişdi, 500 il itəndən sonra mən bunu tapdım və 64-cü ildə Yerevanda çap etdirdim. Bu əsər Türkiyə kitabxanasından oğurlanıb, Misirə aparılmış, Misirdən aparılıb Londona, Londondan oğurlanıb aparılıbmış Amerikaya, Amerikadan da gəlib çıxıbmış Yerevana. Yerevanda mən onu tapıb çap elətdirdim. (3-cü kitabı əlinə götürür, tamaşaçılara göstərir). Cahan şah Həqiqini, yəni Azərbaycanın böyük hökmdarı

Cahan şah Həqiqinin divanını o cür tapmışdım, onun divanını birinci dəfə çap elətdirdim Yerevanda. Sonra Bakıda onun farsca olan əsərlərini tərcümə etdirdim, divanını çap edirdim (4-cü kitabını tamaşaçılara göstərir). Bu da yenə onun divanıdır, onu bu cür çap elətdirmişəm. Və beləliklə, Azərbaycanın dövlətçilik tarixində öz izi olan böyük hökmdar, böyük dövlət başçısı və şair Cahan şah Həqiqinin əsərlərini, onun həyatını öz varislərinə, öz xalqıma çatdırmışam. Əlbəttə, bu, bizim dövlətçilik tariximiz üçün qiymətli bir sənətdir. Mən bu xidmətimlə fəxr edirəm.

Filmin əvvəlindəki ümumi fotolar göstərilir. Panoram edildikcə 100 yaşlı qocanın o köhnə fotolara baxdığını görürük. Kadr arxasından mətn səslənir.

MƏTN: – Mənalı, keşməkeşli, əsrə bərabər bir ömür. Öz həyatına, ömrünə, dünəninə boylanan bu adamın maraqlı, zəngin hadisələrlə, faktlarla bağlı xatirələri. Bunlar tariximizin hələ qələmə alınmamış məqamlarıdır. Bütöv bir dövrə – XX əsrin salnaməsinə, əsrin şahidinin şəxsi töhfələridir bunlar.

SON

2003-cü il

TÜRK DÜNYASI.
QİTƏDƏN – QİTƏYƏ

Birinci film

Ekranda yer kürəsinin xəritəsi. Türksoylu dövlətlərin, xalqların, topluluqların yaşadığı yerlər, ərazilər məxsusi cizgiləmək, fərqləndirməklə göstərilir. Ekranın sol tərəfində kinolenti təki oxunduqca çevrilib dolanan lentin üzərində bu xalqların adı yazılır. Yazılar bitib-tükənmir: azərbaycanlılar, altaylılar, balkarlar, başqırdlar, qaqauzlar, qazaxlar, qaraqalpaqlar, qaraimlər, qaraçaylılar, qumuklar, qırğızlar, dolqanlar, yakutlar, yuyqular, noqaylar, özbəklər, salarlar, tatarlar, tofalar, tuvalılar, türklər, türkmənlər, uryanxaylar, uyğurlar, xakaslar, çuvaşlar, şorlar…

MƏTN: – Yer kürəsinin sərhədləndiyi bu xəritələr bəzi xırda ərazi dəyişiklikləri nəzərə alınmasa, bölüşdürülüb başa çatdırılan dünyanın milyonlar, milyardlarla kiçildilmiş görüntüsüdür. Ölkələr, torpaqlar qarış-qarış cizgilənib bu xəritələrdə. Sizinlə qarşıda nəzərdə tutduğumuz görüşlərdə bu günlə yanaşı sərhədləri salnamələrin, uzaq tarixlərin yaddaşında qalan, dəyişən, təzələnən sivilizasiyalarla birgə adı çəkilən qədim türklərin izlərini axtarmağa çalışacağıq. Bu görüşlərdə ulu əcdadlarımızın ilk boy götürdüyü bölgələrdən danışacağıq.

Qitədən-qitəyə, iqlimdən-iqlimə öz köçü ilə insan ayağı dəyməyən torpaqlara əkin-biçin, maldarlıq, sənət, sənətkarlıq mədəniyyəti daşıyan,

bu dünya köçünə bəzən nahaqdan "köçərilər" deyib haqqı tapdanan türklər haqqında yazılan kitablara, yazılara, uzaq-uzaq əsrlərə baş vuracaq, müraciət edəcəyik.

Bu gün azadlığını, müstəqilliyini qazanan türksoylu ölkələrdən, respublikalardan aralı düşən, öz kimliyini el içində el, dil içində dil bəsləməklə qoruyan, az qala qəhr olunmaqda olan xalqlarımız var. Adət-ənənəsi, nəsildən-nəslə ötürülən genetik yaddaşı ilə türk etnik yaddaşını yaşadan topluluqlara, azsaylı xalqların keçmişinə, bu gününə güzgü tutmağa çalışacağıq. Zaman, dövran, sərhədlər dəyişsə də, dəyişməz qalan, minilliklərin əbədiyyət yolçusu, ən böyük güvənc yerimiz, dilimizin nitqə gəldiyi, yazıya, əlifbaya alındığı əsrlərə baş vuracaq, qol-budağını, ona yaxın, doğma olan, ondan bəhrələnən dil qohumlarını arayacağıq.

Türksoylu xalqların nümayəndələrindən hər birinin 2-3 cümləlik birliyimizi ifadə edən sözlərlə çıxışları səslənir.

MƏTN: – Bəşər tarixində qədim türklərin əhəmiyyəti cahanşümuldur, əvəzsizdir. Fəqət, təəssüflər olsun ki, bu tarix günümüzə bütöv şəkildə yetişməyib, dəyərincə öyrənilməyib, ötəri və müxtəsər şərh olunmaqla üstündən keçilib. Mənbəşünaslıq, onomastik, etnonimik, toponimik sarıdan çətinliklər törənib. Salnamələrə, mənbələrə ciddi baxış bu tarixi vahid proses kimi izləməyə imkan verir. Bunun üçün istinad edəcəyimiz kifayət qədər maddi dəlil, tarixi faktlar, tozu alınmamış salnamələr yatır zamanın yaddaşında…

* * *

MƏTN: – Beləliklə, Türkyutların vətəni, Göytürklər, uyğurlar… Zamanın, tarixin axarında bir-birini əvəz edən, özünəməxsus yeri, mövqeyi olan türklər… Bu gün sayları üç yüz milyondan yuxarı, tarixin yaddaşına yüz iyirmi min dövlət quruculuğu, onlardan on yeddisi dünya miqyaslı imperatorluqların adını həkk edən ulu əcdadlarımız, qəhrəman, yenilməz, fəqət zaman-zaman haqqına yetişməyən türklər…

Nadejda Altaylı türk xalqlarının ortaq mərasimlərindən söz açır.

NADEJDA ALTAYLI: – Mən bütün altaylılar adından Azərbaycan xalqını salamlayır və babalarımın mənə miras etdiyi şaman duaları ilə onlara xoşbəxtlik, uğurlar diləyirəm. Bəşər tarixində böyük rolu olan Altay xalqlarının haqqı çox tapdanıb. Bu gün bu xalqlar belə demək mümkünsə, öz dirçəliş dövrünü yaşayırlar. Kimliklərini təsdiq etmək üçün dilinə, dininə, adət-ənənəsinə qayıdışı bərpa edirlər. Bizim xalqların əksəriyyətinin dini baxışları şamançılıqdır. Bu ən əski türk xalqlarının inancıdır. Azərbaycanda olarkən mən burada şamançılığın izlərinə rast gəldim. Dədə Qorqud duaları ilə altaylarda insanları müalicə edirəm. Yazqabağı qış yuxusunda olan təbiəti oyadırıq. Xalqımızın xeyirxah sözlər, müqəddəs kəlmələrlə zəngin folkloru, şifahi ədəbiyyat nümunələri var ki, bu gün alimlər, elm adamları tərəfindən öyrənilir, yazıya, siyahıya almır.

Koqumey, Altay Buçay, Maday-Qara və digər epos və nağıl nümunələri bu sıradandır. Azərbaycanda xalq ədəbiyyatına, el sənətinə sonsuz maraq gördüm. Bu böyük millətimizin yaşarlılığını, mədəniyyətimizin rəngarəngliyini göstərir.

Əks-səda ilə, qeybdən gələn səslə ekranda yazılan sözlər…

MƏTN: – "…Üstdə mavi göy, altda əsmər yer qaldıqda ikisi arasında insan oğlu yaradılmış. İnsan oğullarını idarə etmək üçün atalarım Bumin, İstemi xaqan taxtına oturmuşlar. Taxta oturunca türk millətinin elinə, nəslinə sahib olmuş, işini yoluna qoymuşlar. Xaqan atalarım bilgə imiş, igid imiş, buyuqquları da alim imiş, igid imiş. Bəylər də, milləti də doğru imiş. Onun üçün eli qorumuşlar. Eli qoruyub nəsil yetişdirmişlər. Türk bəyləri, millət eşidin: üstə mavi göy basmasa, altda yer dəlinməsə türk milləti, sənin elini, sənin adətini kim poza bilər? Ey türk milləti! Titrə və özünə dön! Sən özünə dönəndə böyük olursan".

Bilgə xaqan

Uzaq Sibir çölləri, tayqa, tundra – sıx meşəliklər, çöllərə sığınan insan məskənləri, çadır evlər, marallar… İnterşumla kadr arxasından mətn təqdim olunur.

* * *

MƏTN: – Bəşər övladı üçün sirr olaraq qalan, Altay

dağlarının köksünə sığman bu qədim insan məskənlərində hələ də qədim türkcəmizin az qala ilkin ləhcələrində danışılır. İnsanların ailə, məişət, həyat tərzi tanrıçılıq adət-ənənələri üstə davam edir.

Şaman ayin icra edir. Türkcənin ən müxtəlif ləhcələrində danışıqlardan fraqmentlər. Altay dağları ətrafında, Tyan-Şan dağları ətəklərində yurd quran insanlar. Körpəsinə layla, ninni çalan bir ana… Bacası tüstülənən evlər, meşəliklər, qoyun-quzu sürüləri… Təqdim olunan yerlərin sakinlərindən bir neçə nəfərin öz dillərində söylədiyi, bölüşdüyü fikirlər…

Türksoylu xalqların dil təsnifatını göstərən bölgülər, cədvəllər…

MƏTN: – Türk dilləri ən böyük dünya dilləri ailəsindən hesab olunur. Əhatə dairəsi Şimali Çindən başlamış, Şərqi Sibir, Yakutiya, Qərbi Sibir, Altay, Ural, Volqaboyu, Şimali Qafqaz, Zaqafqaziya, Cənub-Şərqi Avropa, Balkanlar, Kiçik Asiya, İraqın şimal və şərq hissələri, Xəzər hövzəsi, Orta Asiya ərazilərində yayılmışdır. Hazırda otuza qədər müasir türk dili var. Peçenek dili, poloves dili, çağatay dili, qədim uyğur dili, bulğar dili, xəzər dili kimi ölü dillər varlığını, mövcudluğunu qədim salnamələrdə, tarix səhifələrində yaşadırlar.

Qazax Jumaş bəy Xocaverdi Qazax televiziyasında türk dünyası ilə bağlı hazırladığı proqramlardan danışır.

JUMAŞ BƏY XOCAVERDİ: – Azərbaycanda ilk dəfə oluram. Amma Azərbaycan ziyalılarından, dahilərindən kifayət qədər tanıdıqlarım var. Böyük Nizami Gəncəvi, Məhəmməd Füzuli haqqında işlədiyim Qazax televiziyasında xüsusi proqramlar hazırlamışam. Bu siyahıya digər türksoylu xalqlara mənsub böyük insanların adlarını da əlavə edə bilərəm. "Dədə Qorqud" təki Nəvai də, Uluq bəy də, Nəsimi də, Qaracaoğlan da, Yunis İmrə də bizim ortaq mənəvi dəyərlərimizdir. Onları hər birimizin tanımağı vacib şərtdir. Qazaxıstan televiziyası ilə ayda bir dəfə mənim hazırladığım "Dahilərimiz" adlı proqram efirə gedir. Hər birinizi bu proqramların tamaşaçısı olmağa dəvət edirəm.

* * *

"Orxon-Yenisey", qədim runik yazılar, abidə daşlardan görüntülər…

MƏTN : – Qədim türk əlifbasının meydana çıxması, tarixi kökləri alimlər tərəfindən hələ də tam aydınlaşdırılmamışdır. Bu əlifba elmə "Hun yazısı", "Hun dili" kimi daxil olan çox vaxt "runi" və ya "türk-runi", "runi-türk" yazısı kimi tanınan, əslində bir çox məşhur alimlərin yekdil qərara gəldiyi Göytürk əlifbasıdır. Bu yazının ilk izləri Böyük Hun İmperatorluğunun eramızdan əvvəl 318-ci ildə qonşu dövlətlə bağladığı saziş sənədindən günümüzə çatan məlumatlardandır. Böyük Hun imperatorluğu eramızdan əvvəl 58-ci ilə qədər davam etmişdir. Sonralar Şərq və Qərb

hunları olaraq ikiyə bölünmüşdür. Bundan öncəki tarixsə türk olduğu anlaşılan sakalardan, böyük bir türk hökmdarı olduğu bilinən əfsanə qəhrəmanı Alp Ər Tunqadan danışır. Eramızdan əvvəl 1050-ci illərdə Çinə axın edən və burada Çu xanədanını qurduqları söylənilən döyüşkən türk qövmündən söz açır.

Əsik kurqandan çıxan qızıl əşyalar, "Altun geyimli vəliəhd"in təsvirləri şəkillərdən, kitablardan təqdim olunur.

MƏTN: – Özgə dillərdə, yad yazılarda tarix kitablarına qısqanclıqla adı düşən ulu əcdadlarımızın yazı dilini, Orxon kitabələri həkk olunan tarixdən – XIII əsrdən çox-çox əvvələ, zəmanəmizdən 2500 il öncəyə aparan dünya elminin ən böyük tapıntılarından 1970-ci ildə Əsik kurqandan tapılan xəzinəyə üz tuturuq. Türk yazı dilini 2500 il əvvələ aparan məlumat Alma-Atanın 50 km yaxınlığında İssık-Göl ətrafındakı Əsik kurqandan tapıldı. Qızıldan tökülən döyüşçü paltarında qızıl tacı ilə dəfn olunan Altun geyimli türk vəliəhdinin kurqan qəbrindən 4800 parça qızıl və çoxlu qiymətli əşyalar aşkarlandı. Altun geyimli bu türk vəliəhdinin məzarı Misir fironu Tutanhamodan sonra ən çox qızıl çıxan məzar oldu. Fəqət, böyük tarix – türk tarixi üçün əvəzsiz dəyərdəki məlumatlar nə bu qızıllar, nə də digər qiymətli əşyalar deyildi. Bir hissəsi qaralmış gümüş tabaq üzərindəki 26 hərfdən ibarət 2 sətirlik yazı kurqandan tapılan bütün qızılları kölgədə qoydu. Türk tarixinin eramızdan öncəki 100 illərini aydınlatdı. Yazı Orxon

əlifbasının hərfləri ilə yazılmışdı. Polad qələmlə metal üzərində həkk olunan türk yazısı, runik yazı idi. Əski türk damğalarında görünən şəkillərə bənzər bir yazı: "Xanın oğlu 23 yaşında öldü. Əsik xalqının başı sağ olsun" idi.

Yazını oxumağa çalışan tarixçi öncə və düzgün olaraq "üç utiz" (iyirmi üç) sayını, sonra "Xan uya" (Xan oğlu) kəlmələrini oxudu. Yazı kimi lisan da göytürkcəyə bənzəyirdi. Tabağın dibindəki bu iki sətir yazı əski türklərin inancına və adətlərinə çox uyğun gəlirdi. Qədim türklər Göy – Tanrıya tapınar və üzərinə istəklərini həkk etdikləri bardaq və ya kasanı göyün simvolu sayar, onun qoruyuculuğuna inanardılar. Bunun üçün də ölünün məzarındakı su qabında, ya da bu anlamda olan şəxsi əşyalarda belə bir motiv, ya ağını andıran bir neçə söz olurdu.

Kim idi bu vəliəhd? Hansı xalqın oğlu idi? Nə zaman yaşamışdı? Lazerlə, radiokarbonik təhlillərlə kurqanın da, kurqandakı əşyaların da eramızdan öncə V yüzilliyə aid olduğu anlaşıldı. Altun geyimli vəliəhdinsə türk köklü sakaların hökmdarı olduğu qərarına gəlindi. Məzardan tapılan yazı Orxon əlifbasının ən azı 2500 il öncə də işlədilən bir türk yazısı olduğunu ortaya çıxardı.

Başqırd Gülnur Gülsənay türk xalqlarının birliyindən danışır.

GÜLNUR GÜLSƏNAY: – Azərbaycanı, Bakını görmək çoxdankı arzum idi. Nəhayət, gəlib gördüm. Əslində o qədər də məsafə uzaqlığımız yoxdur, xalqlarımızın oxşar cəhətləri lap çoxdur. Sizdə

də bu günlər yaşlılar, qocalar günü keçirilir. Onlara böyük ehtiram göstərirlər. Bizlər də eləcə. 91-ci ildən Rusiya Federasiyası tərkibində azadlığımızı elan etdikdən sonra ilk qəbul edilən sənəd "Yaşlılar günü"nün dövlət, hökumət səviyyəsində qeyd edilməsi oldu. Mən Başqırd Türk Gəncləri Təşkilatının nümayəndəsi kimi Azərbaycana gəldim. Biz gənclərin qarşısında böyük işlər durur. Başqırdların sayı son hesablamalara görə 2 milyona yaxındır. Dili başqırd dilidir. Əsasən Başqırdıstan Respublikasının ərazisində yaşayırlar. Qismən Çelyabinsk, Orenburq, Perm, Yekaterinburq vilayətlərində, habelə Qazaxıstan Respublikasında məskunlaşıblar. Başqırdlar haqqında ilk yazılı məlumat IX-X əsrlərə aiddir. XIII əsrdə Qərbi Başqırdıstan Bulqar Türk xaqanlığının tərkibinə daxil idi. Həmin vaxtdan burada islam dini yayıldı.

Titr yazılır:

QƏDİM TÜRKLƏR – TURLAR, TƏRÜKLƏR, TÜRÜKLƏR, ƏRKLƏR-TÜRKLƏR, ULUĞ-TÜRKLƏR TUKYUTLAR – TÜRKYUTLAR …

Təsvirlərin davamı.

MƏTN: – "Türk" sözünün mənası güclü, möhkəm deməkdir. Salnaməçilərin fikrincə bu söz sonralar tayfa birləşməsinin etnik adına çevrilmiş məcmu anlayışıdır.

Türklər eramızdan əvvəl 2000-ci illərdə və bundan da qədim çağlarda Orta Asiyada, Sayan

Altay dağlarının şimal-qərb bölgəsində, Yenisey çayı boylarında yaşamışlar. Tanrı dağları, qərbdə Urallar, cənubda Balxaş gölü, Xəzər dənizi və şimali-şərq çöllərini əhatə edən bu böyük ərazi qədim türklərin ilkin vətənidir. Eramızdan əvvəl 1100-cü illərdə türklər şərqi və qərbi Türküstana qədər yayılmışdılar, Ordos, Volqa və Şimali-qərbi Asiya olmaq üzrə üç istiqamətə köç etmişdilər. Yakut türkləri şimali-qərbi Sibirdə, onlarla bir müddət bərabər yaşayan çuvaşlar isə daha çox Ural dağlarının cənubunda məskunlaşmışdılar.

Müasir türk xalqlarının hər birinin öz etnik adı, ənənəvi təsərrüfat həyatı, maddi və mənəvi mədəniyyəti, formalaşmış dili vardır. Müəyyən coğrafi koordinatlar daxilində yerləşən ölkənin xalqı tarixən yerli, avtoxton ola da bilər, olmaya da bilər. Türk xalqlarında da belədir. Məsələn, yakutlar, altaylar, qazaxlar, şorlar, tuvalılar və başqa türkdilli xalqlar məskun olduqları indiki ərazilərin avtoxton əhalisidir. VI əsrə aid runi türk yazısında Qapağan xaqanın bu sözlərinə diqqət verək: "…Elmi, yəni mənsub olduğu türk səltənətini Yabğa oğlu Sabra Tamğançur, onun kiçik qardaşı Hoca ilə birgə Sabra Tamğan Tarxan – ümumən mənim altmış beş ulu babam yaratmışdır".

Uyğurlar məhdud halda qonşu ərazilərə miqrasiya etsələr də tarixən bir ərazini – Çin Türküstanını özlərinin ilkin və sonuncu vətəni seçmişlər. Yakutlar Şimal Buzlu okeanı sahillərində – Kamçatka, Çukotka və hətta, Alyaska (Şimali Amerika qitəsi) torpağında da

məskunlaşmışlar. Türkdilli xalqların əksəriyyəti əsasən indi məskunlaşdığı yerlərdə yaşamışlar. Şimali, Mərkəzi və Cənubi Amerikada, Avstraliyada, Afrikanın və Asiyanın müxtəlif ölkələrində məskunlaşmış hind-Avropa mənşəli ingilis, ispan, fransız, alman və digər xalqlardan fərqli olaraq, türklər tarixən yaşadıqları ərazilərdə məskundurlar. Bu ərazi əsasən Asiya qitəsinin müəyyən hissəsini – Avropanın cənub-şərqini, Şimali Qafqaz, Zaqafqaziya, Cənubi Azərbaycan daxil olmaqla böyük bir arealı əhatə edir. Çox minillik tarixə malik türk dünyasının vahid mənbədən başlamış tarixinin, mədəniyyətinin, etnoqrafiya və toponimiyasının tədqiqi həmişə öz aktuallığını saxlayır.

Tuva elindən Vasili Sabar yaratdığı qədim türk ansamblı haqqında məlumat verir.

VASİLİ SABAR: – Tuva ellərindən bütün azərbaycanlılara salam söyləyir, öz soy-kökünə, tarixinə bağlı xalqımın bir nümayəndəsi kimi yaratdığım folklor-etnoqrafik ansambldan sizlərə söz açmaq istəyirəm. Bu ansamblda istifadə olunan bütün musiqi alətləri illərlə, əsrlərlə tuva xalqının məişətinə, həyat tərzinə daxil olan, daha doğrusu bu yaşamdan, mövcudluqdan doğan görüntülər, əsaslardır. Bizim xalq musiqiçiləri də, elə sizlərdəki kimi milli geyimlərdə çıxış edir. Mərasim nəğmələrində, oyunlarda, xalq gəzintilərində hər kəsi özünə cəlb edirlər. Ali məktəbdə dərs deməklə yanaşı, mən həm də bu ansamblın bədii rəhbəri, xamus musiqi alətinin

ifaçısıyam. Ağızla çalınan bu maraqlı alətdə sirli-sehrli meşə səsləri – tayqanın, tundranın, yazda çayların, suların ifa etdiyi əsrarəngiz təbiət musiqilərini səsləndirmək olur.

* * *

Məluncan türklərinin yaşadığı yerlərdən görüntülər.

MƏTN: – Türksoylu xalqların izinə bu gün sayı 3 milyondan yuxarı olan Altun dərili türklər, məluncanlara və çoxsaylı coğrafi adlara Amerika qitəsində – Alyaskada rast gəlinir. Ulu əcdadlarımızın nəsilləri Hindistanın şimalında və qərbində, Ərəb ölkələrində yaşamaqdadırlar. Və bu yerlərin tarixində, maddi-mənəvi mədəniyyətində öz izlərini qoruyub saxlamaqdadırlar.

Sizlərə tarixi əfsanələşən, bayatılaşan, nağıl qəhrəmanlarına çevrilən məluncan türkləri haqqında bir hekayət təqdim etmək istəyirik. Bəlkə də bu tarixi qədim, taleyi faciəli məluncan çağırılan, sayları üç milyondan yuxarı qızıl dərili türklərin varlığı haqqında nəql edilən yüzlərcə hekayətdən biridir.

Məluncanlar Tanrı tərəfindən tərk edilənlər anlamını verir. Onlar Virciniyanın Güneyi, Quzey Karolinanın qərb bölgəsi, Güney Karolinanın yuxarı hissəsində dağlara sıxışdırılıb o yerləri özlərinə Vətən edənlərdir. Yarı yalan, yarı gerçək birtərəfli yazılan tarix kitabları onları min yeddi yüzüncü illərdən Amerika torpaqlarına gəlmə hesab edir. Fəqət qədim əfsanələr, qızıl dərili türklərin qəhrəmanlığından danışan xalq

nəğmələri, dastanlar Altun türklərin bu yerlərin çox qədim sakinləri olduqlarından xəbər verir. Hətta qədim bir Amerika nəğməsində buz bağlamış suların üstündən bu yerlərə köç edən çox döyüşkən, ağıllı adamlardan məhəbbətlə söz açılır. Berinq boğazının buzları üstündən qitədən-qitəyə adlayan bu gəlmələr azsaylı yerli qəbilələrlə qaynayıb-qarışır, torpaqlarına basqın edənlərə ləyaqətlə cavab verib, ümumi düşmənə qarşı qəhrəmancasına vuruşublar.

1700-cü illərdən bu yerlərə səfər edən ispan, portuqal döyüş gəmilərindən sakin qalan osmanlı dənizçilərinin varisləri, məluncan türklərindən də öncə bu torpaqların yerliləri sayılan qızıl dərili türklərlə bağlı son tədqiqatlar çox gizlinlərə aydınlıq gətirir.

Məşhur Avraam Linkolnın anası, 60-cı illərdə bütün Amerikanı, Avropanı heyrətə gətirən Elvis Presli, Kennedilər sülaləsi Amerika tarixinin qızıl hərflərlə yazılan səhifələri altun dərili türklərin adı ilə bağlıdır.

Bu soya mənsub insanlarla – məluncan türkləri ilə kiçik sorğu.

MƏTN: – Qədim salnamələr ilk böyük Türk imperatorluğunu quran hunların Orxon-Selen çayları ətrafı, bu çayların qərbindəki Ötükən və daha aşağıda qalan Ordos ətrafında yaşadıqlarını söyləyir. Bu bölgə Monqolustan və . Şimali Çini əhatə edir. Sonralar elə bu yerlərdə qədim türklərin izlərini qoruyub saxlayan kurqan-məzarlar, yazılı balballarla rastlaşacağıq.

Türklərin şan-şöhrətli hun tarixindən günümüzə yetişən söz-sənət, mədəniyyət nümunələri ağızdan-ağıza, dildən-dilə keçərək qəhrəmanlıq, məhəbbət motivləri üstə köklənən dastanlar, əfsanə və rəvayətlərdir.

Alp Ər Tunqa adlı bir xaqan vardı,
Ona Yer üzü dar, Göy üzü dardı.
Tuğ yapmışdı göy üzünə günəşi
Bilikdə də yoxdu bir bərabəri.
Göytürk, Uyğur, Qarluk və Qaraxanlı
Daha neçə türklər adları şanlı.
Onu özlərinə ata saydılar,
Zəfərini dörd bucağa yaydılar…
Uçmağa varınca o ulu xaqan,
Yıxıldı üstlərinə göydən bir zindan.
Xalqı adət üzrə dəfn etdi onu,
Göz yaşı selinin yox idi sonu.

"Alp Ər Tunqa" dastanından

Mənbələr Alp Ər Tunqanın eramızdan əvvəl yeddinci yüzillikdə yaşamış, çox sevilən qəhrəman bir türk hökmdarı olduğunu nəql edir. Tarixçilər də bu Alp hökmdarın idarəsindəki dövlətin Saka Türk imperatorluğu olduğunu sübuta yetirmişlər. Bu dövlətin adı bəzi Çin salnamələrində Peçenek Kazan adı ilə adlandırılmışdır. İranlılar Peçenek Turanlıların hökmdarı Alp Ər Tunqaya Əfrasiyab da deyirmişlər. Əfrasiyabın Alp Ər Tunqa olduğunu həm "Kutatqubilik", həm də "Divani-lüğət-it-türk" öz səhifələrində məxsusi qeyd edir. Əfrasiyab qədim iranlıların şər, pislik ilahisinə verdikləri addır. Onlar Alp Ər Tunqadan çox

qorxduqları üçün ona bu adı vermişdilər. Alp Ər Tunqa İran (Med) hökmdarı Keyxosrov tərəfindən bir ziyafətə çağırılaraq hiylə ilə öldürülmüşdür. Bu hadisə eramızdan əvvəl 624-cü və ya 625-ci ildə olmuşdur. Assuriya qaynaqlarında Maduva, Herodotda Madyəs olaraq adı hallanan qəhrəmanın da Alp Ər Tunqadan başqası olmadığı anlaşılır. Quveyini ona Buğu xan, Mərcani isə Buqu xan Bin Piçinik deyir. Dastan bütöv şəkildə zəmanəmizə yetişməsə də, son hissələri saqu – ağı deyilən misralar "Divanü-lüğət-it-türk"də, Alp Ər Tunqanın xalqına öyüd nəsihəti "Kutatqu-bilik"də əbədiləşib.

Alp Ər Tunqa öldümü?
Yalan dünya qaldımı?
Fələk öcünü aldımı?
İndi ürək dağlanır?!

Altay elindən bir el aşığının xamusla çalğısı.

Şor türkü Nadejda Saymanın Altay xalqlarının yaranışı, burada yaşayan topluluqlarla bağlı çıxışından.

NADEJDA SAYMAN: – Bəzən dünyanın damı, papağı deyirlər Altay xalqlarının yaşadığı yerlərə. Təbiətin sərt, insanların bu sərtliyə öyrəndiyi yerlərdir altaylıların vətəni. Acılar olsun ki, belə möhkəm adamları zaman-zaman assimlə edib, qarışdırıblar digər millətlərə. Müasir altaylıların yaşadığı Dağlıq Altay, Böyük Altay diyarı türk xalqlarının qədim tarixində, ulu keçmişində, folklorunda mühüm rol oynayıb, adət-ənənəsini bu gün də qoruyub saxlaya bilib. Altay kiji, altay kişi, altay adamının ən böyük

etnoqrafik qrupları teleutlar, tubalar, ilkənlər, telenqitlər, teleslər, kumandilər, çelkanlardır. Təbiətə, mövcudluğa dünya baxışları eynən azərbaycanlılar kimidir. Atalar sözləri, adət-ənənələri, folkloru eləcə… Azərbaycanda olmasam da qonaqpərvər, dost-qardaş canlı Azərbaycan haqqında geniş məlumatım, araşdırmalarım var.

Altaylıların yaşadığı ərazi e.ə. III əsrdən eramızın XIII əsrinədək Hun, Göytürk, Uyğur xaqanlığı və Qarakitaylar dövlətinin tərkibində olmuşdur. Xeyli hissə Oyratların yaratdığı Cunqar xaqanlığının ərazisində yaşayırdılar. Vaxtilə çarizmin güclü xristianlaşdırma və ruslaşdırma siyasətinə baxmayaraq, altaylılar öz etnik varlıqlarını və dini inanclarını – şamançılığı bu günədək qoruyub saxlayıblar. Bəzi bölgələrdə hələ də seok (sümük) nəsillərinin adları qalmaqdadır. Hər seok nəslinin öz adı var və hər bir nəslin üzvləri ata xətti ilə qohum sayılır, adət-ənənələrini davam etdirirlər.

* * *

Ekranda ən qədim dövrlərdən üzü bəri tarixi ardıcıllıqla türk dünyasının mədəniyyəti, söz-sənət dünyasının kökündə, təməlində duran, dahilərin yaratdığı sənət inciləri görünür. Mətnə uyğun olaraq əvvəlcə iki çayarası – Dəclə-Fərat ovalığı, Şumer mədəniyyəti qalıqları, əski Mesopatomiya, indiki İraq əraziləri – əzəmətli heykəllər, labirint yollar…

Səmərqənd, İçərişəhər, Buxara, memarlıq inciləri, Tac Mahal… və s. kadr arxasından oxunacaq mətnlə səsləşən təsviri materiallar təqdim olunur.

MƏTN: – İnsanlığın yaratdığı ən qədim mədəniyyətlərin, elm, tədris və sənət ocaqlarının, ən qədim dövlətlərin, bütöv sivilizasiyaların beşiyidir türk dün-

yası! Dünya tarixçiləri bu gün Mesapotamiyada yüksək mədəniyyət qurmuş şumerlərin türk köklü olduğunu iddia etməkdə, dayanıqlı olaraq şumer dil yazısının türk dil yazısı ilə çox yaxın olduğunu və şumer yazılarındakı bir çox kəlmələrin qədim türk dilində də eyni olduğunu göstərir. Aparılan son tədqiqatlar onu deməyə, o qənaətə gəlməyə imkan verir ki, kodlaşdırılmış, qamsistemi qədim türk dünyagörüşünün prinsipləri əsasında özünü büruzə verir. Gözəgörünməz, dərkedilməz kodaltı mahiyyət qədim türk idrakının aynasında tam aydınlığı ilə özünü təqdim edir, tanınır, tanıdır. Bu tanınma əski Altay, Çin, Hindistan, Şumer, Misir və nəhayət, qədim yurdumuz Azərbaycanın mədəni irsinin vahid bir sistem kimi formalaşdığını göstərir. Min illər əvvəl Qobustan qayalarında əksolunan qam dünyagörüşünün çox-çox sonralar qədim Şumerdə, Misirdə özünü göstərməsinə aid çoxlu faktlar müəyyənləşdirmək mümkün olmuşdur. Türk-şumer dünyagörüşünün, yaranış miflərinin qədim yunan mifologiyasında, fəlsəfəsində deformasiyaya uğradılaraq orijinal kimi təqdim olunması, əsl mənbənin min illər boyu gizlədilməsi bu dünyagörüşündən qidalanan monoteist dini zümrənin mənimsədiyi mənbəyə, kökə, onu yaradan xalqın, etnosun özünə, mədəniyyətinə düşmən kəsilməsi, həmin sirli aləmə bələd olan bu kökləri göstərmək istəyən düşüncəli başlara divan tutulması zaman-zaman yaddaşlardan öz idrakının məhsulunun itirilməsinə gətirib çıxarmışdır. Yüz illər boyunca Atillaların, Çingiz xanların, Əmir Teymurların, Səfəvi, Osmanlı imperatorlarının qisasını almışlar türk

xalqlarından. Tarixdə misli görünməmiş qanlı müharibələr, qırğınlar, qətllər, vəhşiliklər, bir sözlə hər cür qeyri insani metodlarla doğma yurd-yuvalarından, dillərindən, dinlərindən, mənəvi və maddi sərvətlərindən məhrum edilmişlər türk xalqları.

Qaraçaylı Bilal Laypanın çıxışı.

BİLAL LAYPAN: – Qaraçaylılar Şimali Qafqazın ən hündür dağ yerlərində məskunlaşıblar. Bu torpaqlar onların dədə-baba yurdudur. Bu gün qaraçaylılar Rusiya Federasiyası Qaraçay-Çərkəz Muxtar Vilayətinin əsas əhalisidirlər.

Qaraçay dilində danışırıq. Əhalimizin bir xeyli hissəsi Stavropol diyarında məskunlaşıb və hesablamalara görə sayı iki yüz minə yaxındır. Qaraçaylıların soy-köklərində başlıca olaraq türk tayfaları – qıpçaqlar, bulqarlar, xəzərlər qismən də alanlar iştirak etmişlər. Tariximizin ən qanlı səhifələri 1943-cü ildə Stalin rejimi tərəfindən Qaraçay Muxtar Vilayətinin ləğvi, qaraçaylılarınsa kütləvi şəkildə Qazaxıstan və Orta Asiya çöllərinə sürgünü oldu. Stalinin ölümündən sonra qaraçaylıların milli muxtariyyəti bərpa olundu. 1957-ci ildə yenidən Qaraçay Çərkəz Muxtar Vilayəti yaradıldı. Amma o sürgün illəri, repressiyalar millətin çox ziyalılarını sıramızdan apardı. Bu gün də bütün Qaraçay xalqı bu ağrıları çəkir. Və bir daha bu sürgünlərin, repressiyaların olmaması üçün birliyimizə qovuşmağımızı arzulayıram.

Deyildikcə əks-səda ilə ekrana həkk olunan sözlər:

MƏTN: – "Ey oğullarım, mən çox yaşadım, çox vuruşlar gördüm. Çox qarğı, çox ox atdım, ayğır ilə çox yürüdüm. Düşmənlərimi ağlatdım, dostlarımı güldürdüm. Mən Göy Tanrıya borcumu ödədim. Sizlərə yurdumu verirəm. Ordumuzun qarğıları dəmirdən bir meşə, göy üzü çadırımız, günəş isə bayrağımız olacaqdır".

Oğuz Xaqan

Ekranda yaşlı kişi aktyor şam işığında və rəmzi olaraq əlində quş lələyi qələm götürərək Murad Acının "Qıpçaq çölünün yovşanı" kitabından mövzuya uyğun bir səhifəni oxuyur. Təqdim olunacaq mətnin təsvir həlli qədim çuvaşların Tanrıya sitayiş mərasimi, şaman görüşlərindən fraqmentlər ola bilər.

MƏTN: – Ulu Tanrıya sitayiş, Tanrıçılıq türk xalqlarının ən qədim inancı, dini idi. Qəzəbli anlarında öz varlığını göy gurultusu və ildırım çaxması ilə bildirən Tanrı – Tenqri xan bütün Altay türk xalqlarının yeganə Allahı idi. Zaman-zaman, tarixi dönəmlərdə islamı, buddizmi, xristianlığı, iudaizmi və başqa dinləri qəbul etmələrinə baxmayaraq, Mərkəzi Avropadan Uzaq Şərqədək geniş ərazidə yaşayan bir çox türk xalqları Tanrı xanın adını müxtəlif formalarda indi də yaşatmaqdadırlar.

Arxeoloqların aşkar etdikləri və demək olar ki, bir-birinin təkrarı olan qədim mədəniyyətlər, qaya təsvirləri öz aralarında lüğətsiz danışan "Orxon-Yenisey" yazıları, "Kitabi-Dədə Qorqud", "Manas", "Madaay Qara", "Ural-Batır", "Yedi-

gey", "Alpamış", "Koroğlu" və digər xalq qəhrəmanlıq dastanları, şifahi xalq ədəbiyyatı nümunələri, bir-birilə səsləşən, bəzən də eyniləşən məişət və düşüncə tərzi türk dünyasını eyniləşdirir, vahidləşdirir, daha da əzəmətli edir.

Qədim Səmərqənd, orta əsrlər dövrünün başı çalmalı filosofu, alimi üzü sonsuzluğa, əbədiyyətə yol alıb gedir. Dağlar, daşlar, yarıuçuq əzəmətli abidələr…

MƏTN: – Türk xalqlarının dühası bu xalqlara mənsub olan nadir sənətkarların iştirakı ilə ucaldılan məşhur Səmərqənd və Buxara abidələridir, Tac Mahaldır, Şeyx Səfi kompleksidir, təkrarsız Təbriz və İsfahan abidələridir. Bakının Şirvanşahları, Türkiyənin məşhur Sultaniyyə günbəzidir… Bu şanlı tarixin əzəmətli yadigarları və misilsiz sənət inciləri! …

Sovet imperiyasının süqutu nəticəsində hazırda Qıpçaq düzü və Qafqazdan Uzaq Şərqə qədər geniş ərazidə türk xalqlarının və onların ulu mədəniyyətlərinin dirçəlişi dövrü başlanmışdır. Xalqlarımızın Ərgənəkondan yeni çıxışıdır bu dirçəliş!

Müstəqil türk dövlətlərinin göylərə ucalan bayraqları, qədim mərasim – Ərgənəkon bayramından fraqmentlər, qoç döyüşü, şahə qalxan atlar. Türksoylu xalqların nümayəndələri – hər kəs milli geyimdə qol-qola, çiyin-çiyinə… "Atilladan Atatürkə…" qəhrəmanlıq mahnısının motivləri təqdim olunur…

BİRİNCİ FİLMİN SONU

2002-ci il

TÜRK DÜNYASI.
QİTƏDƏN – QİTƏYƏ

İkinci film

Kadrda birinci filmin proloqu, ardınca bir qırğız kəndi görünür. Kamera bu kənd evlərindən birini panoram edir. Pəncərədən beşikdə şirin layla səsində uyuyan körpə… Həmin layla səsinə Azərbaycan türkcəsində daha bir beşik nəğməsi qoşulur və insanı duyğulandıran bu səslərin fonunda kadr arxasından mətn səslənir.

MƏTN: – Min illərdir bu laylaların – ilk vətən nəğmələrimizin əks-sədası, şipşirin pıçıltıları ilə nəsillər bir-birini əvəz edir. Hər doğulanla ruhu təzələnir millətin, hər dünyaya gələnlə bir boy da ucalır, bir qalası da artır vətənin…

Nəsillər dəyişsə də, dəyişməz əbədi qalan türk övladının torpağına, od-ocağına sevgisi, bağlılığı, türklüyün dünyaya örnək olası maddi, mənəvi dəyərləri olub. Bu görüşümüzdə sizinlə bu əbədi dəyərlərə, ulu əcdadlarımızın nəsil-nəsil qan yaddaşı ilə soydan-soya, eldən elə dədə-baba əmanəti etdikləri kökümüzə, dil, din tariximizə, böyük kimliyimizə üz tutmuşuq…

Əbədi odlar ətrafında qol-qola girib "Yallı" gedən insanlar görünür. Ekrana əks-səda ilə bu sözlər yazılır:

MƏTN: – "…Tanrının səadət günəşinin türk bürclərindən doğurmuş olduğunu və onların

ucsuz-bucaqsız mülkləri üzərində batmadığını gördüm. Onlara türk adını Tanrının özü verdi. Tanrı dünya millətlərinin idarə edilməsini onlara tapşırdı və zamanımızın hökmdarlarını da onlardan seçdi. Türk dilini öyrənin, – dedi, çünki onların hakimiyyəti uzun sürəcəkdir…”

Mahmud Kaşğarlı
“Divanü-lüğət-it-türk”dən

Xakasiyalı Vladimir Boqayl Ol çıxışında xakas xalqının tarixindən söz açır.

VLADİMİR BOQAYL OL: – Azərbaycanlılara böyük salamlarımı yetirib, mənsub olduğum xalq haqqında sorğunuza cavab vermək istəyirəm. Xakaslar dünyanın ən qədim xalqlarından sayılır. Bu doğrudan da belədir. Son dövrlərə – ötən əsrin 20-ci illərinə qədər bizim əhalini tatar, Minusinski tatarları, Abakan tatarları, kaçan tatarları adlandırırdılar. Təkcə bizlər deyil, bir çox türk xalqları da belə çağrılırdı. Xakaslar əsasən 5 müxtəlif türk tayfasının birliyindən törənən, belə demək mümkünsə, kaçinlilər, saqaylılar, belirlər, kızıllar, koyballarının nəsilləridir. Dilimiz Altay dil ailəsinin şərqi Hun qoluna mənsub xakas dilidir. Əhalinin əksəriyyəti bu dildə danışır. Bizim yerlərdə ruslar da çoxdur. Onlar vaxtilə çar Rusiyası dövründə torpaqlarımıza sürgün edilən siyasi cəhətdən dövləti təmin etməyən adamların nəsillərindən qalmalardır. Xakaslar xristianlaşdırılsa da əski türk inanclarını, o

cümlədən şamançılığı da qoruyub saxlayırlar. Xakasların tarixdə Tubin, Altısar, Altır kimi müstəqil dövlətləri, xanlıqları mövcud olub ki, bu gün bu şərəfli tarix gənc nəsillərə öyrədilir, məktəblərdə tədris edilir. Türk birliyinin böyük bir qolu olan xakaslar özlərini bu dünyanın bir parçası hesab edirlər.

* * *

Qədim tarixi yerlər, qalalar, qıpçaq çölləri… Xaqanlar haqqında yığılan bobsley. Xaqanlıqlar bayraqları, adları ilə təqdim olunur.

MƏTN: – Türklər tarixlərini yaradan, yazıya, qələmə alan olmamışlar-deyir dünya alimləri. Yazıya alanlarsa bu tarixə çox qısqanclıqla yanaşıb, zaman-zaman təhrif olunub, əcdadlarımızın payı azaldılıb tarix səhnəsində.

Ən müxtəlif məxəzlərə baş vurduqca, tarixi salnamələri səhifələdikcə bu haqsızlığa ürəyin ağrıyır.

Qəhrəmanlığına, igidliyinə şərik çıxılan Atillaların, Teymurların tarixin sonrakı qatlarından boy verən folklor – el nəğmələri, dastanlar, eposlarda əbədiləşən adları türk oğlu türkün dünyaya diktə etdiyi kimliyidir. Bəşər tarixində yenilməzlik, qorxmazlıq, igidlik rəmzidir. O xalqın tarixə düşməyə haqqı var ki, ta yaranışından, mövcudluğundan dahilər – qəhrəmanlar və sərkərdələr, filosoflar və şairlər, ədiblər və bəstəkarlar, rəssamlar, qəlbləri fəth edən böyük sənətçilər yetirmiş olsun. Bu sarıdan xoşbəxt

xalqlardan biri türklərdir. Əgər bir gün bir cəngavər mərd türk övladı türk xalqlarının yetirdiyi böyük sərkərdələrin təkcə adlarını, qısa tərcümeyi-halını yazmağa başlasa yəqin ki, cild-cild kitablar seriyası kifayət etməyəcək.

Bu xalqın təkcə bir Atillası kifayətdir ki, tarixin yaddaşına həkk olunan yenilməzlik şöhrəti, qüruru ilə dünya sərkərdələrini kölgədə qoysun.

Ondan əvvəl doğulan və sonra gələn sərkərdələrin heç biri dünya xalqlarının zehnində Atilla qədər dərin iz buraxmamışdır.

"Nibelunqlar nəğməsi", "Böyük Edda" və "Kiçik Edda", "Skandinav saqları" kimi Qərb xalqlarının ən parlaq folklor abidələrində Etsəl və Atli adları ilə türk oğlunun əzəmətli obrazı əbədiləşib. Orta əsrlər tarixçisi Herbert öz traktatında yazır ki, hətta əfsanəvi Artur haqqında ingilis romanlarının qəhrəmanları da Atillanın proobrazıdır. Türk oğlunun adını və əməllərini ölməz edən bu misilsiz dastanlar qaliblərin sifarişi ilə və ya qızıl hədiyyələrlə yazılmayıb. Yox, bunlar böyüklüyə və qəhrəmanlığa heyranlıq və minnətdarlığın ifadəsidir.

Runik əlifbanın göstəriciləri olan bəngüdaşlar… Yenisey sahilləri, Talas irmaqları, Ötükən çölləri…

MƏTN: – Eramızın I minilliyinin VI-VIII əsrlərində türk xalqlarının tarixinin tədqiqində runik, uyğur və ərəb əlifbaları ilə yazılmış mətnlər mühüm yer tutur. Pərakəndəliyinə və məlumatların bəzən azlığına baxmayaraq, bu mənbələrdə türk

xalqları haqqındakı məlumatlar daha dəqiq və mötəbərdir. Qədim türk mətnləri əsas etibarı ilə Monqolustanda, Yenisey sahilində və Talas vadisində tapılmışdır. Bu yazılar çox hallarda qəbirüstü iri daşlarda və qayalarda həkk olunub. Xüsusilə Kül Təqinin (732-ci il), Bilgə xaqanın (735-ci il), Tonyukukun (716-cı il) şərəfinə olan yazılar və 731-ci ilə aid Ongin yazısı mənbəşünaslıq baxımından çox qiymətlidir. Bu yazılar bugünkü Monqolustanda, Baykal gölünün güneyində, Orxon nəhri vadisində, Kaco-Saydam gölü yaxınlığında aşkarlanıb. Bəngüdaşların olduğu yerdə son dərəcə dəyərli, çox sayda heykəllər, şəhər xarabaları, daş yollar, su kanalları, qoç və tısbağa heykəllərinin sınıq daşları da tapılmışdır. Arxeoloji tapıntılar buranın müqəddəs bir türk torpağı olduğundan xəbər verir. Heykəllər arasında Kül Təqinə aid büst yaxşı vəziyyətdədir. Bəngüdaşlar üzərində həkk olunan yazılar düzgün və gözəl xətlə, runik hərflərlə yuxarıdan aşağıya doğru yazılıb. “Türk millətinin, türk dövlətinin adı-sanı yox olmasın” – deyə görülən işləri və özlərindən sonra görülməsi gərəkli olanları anladır.

Qədim türk yazılı mənbələri içərisində XI əsr müəllifləri Yusif Balasaqunlunun 1069-cu ildə tamamladığı “Kutatqu-bilik” və Mahmud Kaşğarlının 1072-1074-cü illərdə yazdığı “Divanü-lüğət-it-türk” əsərləri xüsusi yer tutur. Yusif Balasaqınlu Türküstanın Balasaqun şəhərində 1015 və ya 1016-cı ildə doğulub. Mahmud Kaşğarlı da soy adından göründüyü kimi Kaşğar şəhərində dünyaya göz açmışdır.

"Kutatqu-bilik" xoşbəxtlik verən elm, uğurlu məlumatlar kitabı deməkdir. İslam dövrü türk ədəbiyyatının ilk böyük əsəri olan bu kitab mənzum şəkildə, məsnəvi tərzində yazılmışdır və 6645 beytdən ibarətdir. Mahmud Kaşğarlının "Divanü-lüğət-it-türk" əsəri ilk türk qrammati-kasıdır və eyni zamanda türk elləri haqqında ən mühüm bilgi verən, türk xalq ədəbiyyatından nümunələrlə zəngin kitabdır. Qeyd edilməlidir ki, X əsrdə Orta Asiyanı əhatə etmiş Qaraxani dövləti və onun mərkəzi Kaşğar şəhəri haqqında dəqiq faktlar məhz Mahmud Kaşğarlının bu əsərindədir. Beləliklə, yolumuz Yusif Balasa-qunlu, Mahmud Kaşğarlı kimi dahilər yetirmiş, bu gün də türklüyün keşiyində ləyaqətlə duran Uyğurstandır.

Ekranın üst küncündən hərflər yığılmaqla "Uyğurlar" yazılır və uyğurstanlı Hasan Kaşğarın uyğur xalqının taleyi ilə bağlı çıxışı.

HASAN KAŞĞAR: – Tamam uyğur elləri adından Azərbaycan televiziyasının mənə verdiyi bu gözəl imkandan istifadə edib bütün türk dün-yasına salam söyləyirəm. Belə imkan bizim yerlərin adamlarına çox az-az düşür. Uyğurlar öz yerlərinə, torpaqlarına bağlı xalqdır. Amma bə-zən dünyanı daha yaxından tanımaq, qapıları möhkəm-möhkəm üzümüzə bağlanan sərhədlər-dən kənarda baş verənləri gözlərinlə görmək, həmsoylarını ziyarət etmək istəyirsən. Bax, bəlaların, ürək ağrıların onda başlayır. Hər bir millətin, xalqın, fərdin yaşamaq haqqı, insani

hüquqları var. Elə bilirəm bu bəşəri qanun-qaydalar uyğurlara da aiddir. Biz dünyadan, insanlardan bunu istəyirik. Sizlərəsə, həmişə var olun deyirik. Bizləri ağrı və acınızda, xoş günlərinizdə sıranızda görün, əziz azərbaycanlılar!

Qədim el adətincə süfrə başında böyüklü-kiçikli öz yerini alan bir uyğur ailəsi təqdim olunur. Ekranda qədim və bugünkü Uyğurstan, onun tarixi yerləri görünür. Müşayiətedici musiqi sədaları altında kadr arxasından mətn səslənir.

MƏTN: – Mərkəzi Asiyanın qədim türk xalqlarından olan uyğurlar Çin Xalq Respublikasının Sinszyan Uyğur Muxtar rayonunun əsas əhalisidirlər. Uyğur adı mənbələrdə III əsrdən çəkilir. Uyğurlar əvvəlcə hunların, V-VIII əsrlərdə juan-juanların, Göytürk xaqanlığının tərkibində olmuşlar. Uzun müddət müxtəlif dövlətlərdən asılı olduqlarından uyğurlar yaşadıqları ərazinin adı ilə kaşğarlılar, turfanlılar, ilisulular, xatanlılar və ya məşğuliyyətlərinə görə tarançılar (əkinçi) adı ilə tanınmışlar. Altay dil ailəsi türk qrupunun karluk qoluna daxil olan uyğur dilində danışırlar. Antropoloji cəhətdən ağ (Avropa) irqə mənsubdurlar. Müsəlmandırlar. Sayları 30 milyondan yuxarıdır. Soyköklərində hunlar və başqa türk xalqları durur.

745-ci ildən – Göytürk xaqanlığının süqutundan sonra artıq etnik cəhətdən formalaşmış uyğurlar Selenqa, Orxon və Tola (Tula) çayları hövzələrində özlərinin erkən feodal dövlətini – Uyğur xaqanlığını yaratmışdılar. Uyğur xaqanlığı qısa müddət ərzində böyük ərazini əhatə edən

dövlətə çevrilmişdi. Dövlət Altaydan Mancuriya-ya və cənubda Qobi səhrasına qədər geniş əra-ziyə malik idi.

840-cı ildə Uyğur xaqanlığı Yenisey qırğız-ları tərəfindən süquta uğradıldıqdan sonra uyğur-ların bir hissəsi Şərqi Türküstana və Qansu əyalətinin qərb hissəsinə köçür. Burada Turfan vadisində və Qansuda yeni dövlətlərini yaradırlar. Digər böyük bir toplum isə Tuvaya köç edir. Uyğurlar, tuvalılar, tofalar tva-tocinlərlə doğmalaşıb çiyin-çiyinə yaşayırlar.

Uyğurlar son dərəcə döyüşkən xalqdır və qədim dövlətçilik ənənələrini bərpa etmək üçün tarixin ən müxtəlif dönəmlərində uzun illər aramsız azadlıq mübarizəsi aparmışlar. İkinci dünya müharibəsindən sonra Çində yaşayan uyğurlar müstəqillik mübarizəsinə qalxdılar və Sinszyan əyalətində müstəqil Uyğur Respublikası yaratdılar. Lakin Çinin kommunist rejimi uyğurların azadlıq mübarizəsini boğdu. 1955-ci ildə nəhayət, Sinszyan Uyğur Muxtar rayonu yaradıldı.

Uyğurlar çox qədim mədəniyyətə malik xalqdır. Onlar həm qədim türk runik əlifbası, həm də arami əlifbasını işlədirdilər. Türk runik əlifbası ilə uyğurca yazılmış ilk yazılı abidələr 744-cü ilə, yəni Uyğur xaqanlığının yarandığı vaxta düşür. Uyğurların istifadə etdiyi arami əlifbası vertikal vəziyyətdə yazılırdı. Sonralar monqollar bu əlifbanı uyğurlardan mənimsədilər. Ənənəvi məşğuliyyətləri suvarma əkinçiliyi, dağlıq ərazilərdə heyvandarlıq idi. Sənətkarlıqda toxuculuq, xalçaçılıq, dulusçuluq, misgərlikdən

istifadə edirdilər. Uyğur ədəbiyyatının şah əsərləri “Kutatqu-bilik” və “Divanü-lüğət-it-türk”lə birgə Yuqnakinin “Hibət-əl-həqayiq” poeması, məşhur “Oğuznamə” də eyni zamanda bütün türk xalqlarının müştərək abidələridir. Xirqətin yaradıcılığı uyğur ədəbiyyatında yeni bir mərhələdir. XX əsrin 40-50-ci illərində uyğur yazılı ədəbiyyatının inkişafında Ziya Səmədin, Yusif İlyasın böyük xidmətləri olmuşdur.

Başqırdıstanlı professor Əhməd Başqırd öz xalqının etimologiyasından, tarixindən söz açır.

ƏHMƏD BAŞQIRD: – Uzun illərdir Başqırdıstan Respublikası Elmlər Akademiyasının dil, ədəbiyyat qurumuna rəhbərlik edirəm. Bizim mərkəzdə ümumi türk dilləri və ədəbiyyatı başqırd dili ilə bağlı çoxlu tədqiqat işləri aparılır, maraqlı nəticələr əldə olunur. Bu gün də bu işlər – digər türk respublikaları ilə əlaqələrimiz yüksək səviyyədə davam edir. Mən sizə son dövrlərdə özümün məşğul olduğum qədim türklərin ordu sistemi, döyüş taktikası haqqında danışmaq istəyirəm. Biz türklərin ulu əcdadları, ata-babalarımız çox döyüşkən olublar. Zəmanə-dənmi, dövrdənmi, ya nədənsə biz övladlar elə bil bu cəhətdən bir qədər başqalaşmışıq. Odur ki, ordu quruculuğunu diqqətə çəkmək, önə gətirməkdən ötrü qədim döyüş ənənələrini araşdırıb bugünkü nəsillərimizə örnək etmək istədim. Bu sarıdan azərbaycanlılara da uğurlar diləyib, hər kəsə qələbə arzulayıram.

Ekranın üst küncündən "Döyüş-qələbə " titrləri yazılır. Ekran boyu ayaqlarından ildırım qopan, şahə qalxan atlar, döyüşçü igidlər görünür.

MƏTN: – Döyüş məharəti, döyüşkənlik ta əzəldən qədim türksoylu xalqların qanında, canındadır. At çapmaq, ordular, ölkələr fəth edib, zəfər çalmaq nəsildən, soydan gəlmə xüsusiyyətləri olub. Adətən, sülh tərəfdarı olub dədə-babalarımız. Amma bir əyri baxışa, çəp sözə ləyaqətlə cavab verib, düşməni yerində oturdublar. Kimsənin payına göz dikməz, haqsızlığa heç dözməzlərmiş.

Əskidən orduya sü deyilirdi. Ordu sözü isə xaqanın qərargah və ya paytaxtını ifadə edirdi. Sonradan ordu qoşun mənasında işləndi. Ta qədimdən bu orduda muzdlu əsgər olmazmış. Gərəksə hamı bir nəfər kimi döyüşə yollanırdı. Bütün xalq ordu ilə savaşa getməyə hər an hazır olan döyüşçülərdir.

Türk ordusu atlılardan ibarət olurdu. Piyada sayı az olub atlılara kömək mahiyyətində idilər. Orduda ən böyük dəstə on min nəfərdən təşkil olunurdu və ona tümən deyilirdi. Minlik, yüzillik və onluq vahidlərinə bölünən dəstələrə və bunların başındakılara minbaşı, yüzbaşı, onbaşı deyirdilər. Türkləri bineyi-qədimdən "ordu millət" adlandırıblar. Ordu və ailə türk cəmiyyətinin iki əsas dayağını təşkil edirdi.

Ulu əcdadlarımızın ən mühüm silahları ox və yay idi. Mete xan zamanında səs çıxarıb vıyıldayan ucu dəmirdən sadə və çəngəlli oxlardan daha çox istifadə olunardı.

Yaxından savaşmaq üçün nizə, qalxan

işlədirdilər. Müqəddəs bayraqları olan tuğun ucuna at hörüyü, ipək lentlər bağlanardı. Döyüş bayraqlarını göylərə ucaldıb, rənglərinə görə sıralanan savaş atları ilə yürüşə yollanardılar. Hərbdə əsirlərlə yaxşı davranardılar. Birisi savaş meydanında öldüyü vaxt onun cəsədini özlərilə cəbhənin arxasına gətirməyə çalışardılar.

Uzun çəkən savaşlarda turan taktikasını işlədirdilər. Turan taktikası süni geriyə çəkilmə və düşmənə qarşı qurulan pusqudan ibarət idi. Buna qurd oyunu da deyilirdi. Ordu düşmən qarşısından qaçar kimi görünüb, onu istədiyi tələyə salır və nəhayətdə başının üstünü alıb qalib gəlir. Bu taktika sonralar Alp Arslanın ordusu tərəfindən Malazgird savaşında – 1071-ci ildə işlənmişdi. Türklərin atlı qoşunlar sistemi eramızdan 318 il əvvəl Çin ilə başladıqları müqavilədən sonra Çində də tətbiq edildi və çinlilər e.ə. 117-ci ildə mənimsədikləri turan taktikası ilə türkləri məğlub etdilər.

Bozqır türk ordusu sistemi üzrə islahatlardan ilk dəfə Kuraş, İran ordusunda, ondan sonra isə İsgəndər turanlılarla savaşandan sonra Makedoniya ordusunda tətbiq etdi. İlk dəfə Sezar turan taktikasını işlədib atlı ordu yığdı. Bizanslarda turan sistemi üzrə ordu islahatı V-VI əsrdə başlamış və tez də başa çatdırılmışdı. Tarixçilər kesariyalı Prokopi və mirineyli Aqafinin yazdıqlarına görə bu islahat bizansların qotlar üzərində qələbəsinə səbəb oldu. Fransızlar öz ordularında türk əsgəri sistemini işlədərək VII əsrdə avarları məğlub etdilər. Bu şəkildə almanlar və qərblilər XI əsrin ərəfəsində bozqır əsgəri sisteminin tət-

biqi ilə qələbələr qazanmışdılar. Ruslar IX əsrdən başlayaraq xəzərlər, peçeneqlər və qıpçaqlardan turan taktikası və nizami ordu sistemini öyrəndilər.

Beləcə ölkələr, dövlətlər, adlı-sanlı sərkərdələr türk nizami ordu sistemini öz ölkəsinə, ordusuna tətbiq etməklə dünyanı fəth edəcəyini düşünürdü. Əlbət ki, qələbələr olurdu. Amma dünyanı fəth etmək bizim dədə-babalarımızın, qədim türklərin adına yazılmışdı. Döyüşdə qələbənin ilk təminatçısı hər şeydən öncə əsgərin yenilməz ruhu, igidliyi, qorxmazlığı, döyüş cəsarəti idi. Bu da yalnız bu soya mənsub insanlara, bu nəsildən törənənlərə məxsus idi.

Onlar qəsbkar, soyğunçu deyildilər. Adlarını zamanın yaddaşına, tarixin səhifələrinə, dünyaya həkk etməyə, nəsillərini əbədiyaşar etməyə gəlmişdilər. Və çiyinlərinə düşən bu vəzifənin öhdəsindən ləyaqətlə gəldilər. Türkün dünyaya örnək olası mədəniyyətini, zamanı, vaxtı qabaqlayan tarixini, insanlığın məhz onlara məxsus bəşəri dəyərlərini qitədən-qitəyə, obadan-obaya, eldən-elə, nəsildən-nəslə daşıdılar. Bu gün o yeraltı xəzinələr, misli-bərabəri olmayan sərvətlərin sirləri açıldıqca, yerüstü yaddaşlara aydınlıq gəldikcə qədim türklərin adı dünya intibahında yenidən dəyərləndirilir, tarixin yaddaşı təzələnir. O böyük tarixi bu günlərimizə daşıyan həmsoylarımızdan qədim suvarların, itil bulqar xaqanlığının varislərinin yurduna üz tutmuşuq.

Qədim və bugünkü Çuvaşıstanla bağlı təsvirlər, insanı duyğulandıran görüntülər…

MƏTN: – 1992-ci ildən Rusiya Federasiyası tərkibində suverenliyini elan edən Çuvaşıstan Respublikasının ötən illər ərzində milli dövlətçilik baxımından qazandığı uğurlar az deyil. Az qala sıradan çıxmaqda olan çuvaş dilini dövlət dili elan edib respublika daxilində bütün yazışmaların məhz bu dildə aparılmasını, Çuvaşıstan sərhədlərindən kənarda rus dili ilə bərabər işlədilməsini təmin etmişdir. Çuvaşlar Altay dil ailəsi türk qrupunun bulqar qoluna mənsub çuvaş dilində danışırlar. Sayları 3 milyona yaxındır ki, onların da yarıdan çoxu öz vətəni Çuvaşıstanda, qalanı Tatarıstan Respublikasında, Başqırdıstan Respublikasında, habelə, Samara, Simbirsk, Kemerova, Perm, Yekaterinburq, Tümen vilayətlərində yaşayırlar. Çuvaşların əcdadları olan bulqar və suvarlar X əsrin əvvəllərində Şərqi Avropanın qüdrətli dövlətlərindən olan Volqa-Kama Bulqarıstanı böyük türk dövlətinin yaradıcısı kimi tarixdə möhtəşəm ad qoymuşlar.

XIII əsrin ikinci yarısında monqolların Volqa-Kama Bulqarıstanı işğal etməsi ilə çuvaşlar böyük monqol imperiyasının, sonra isə Qızıl Ordanın tərkibinə qatıldılar. Kazan xanlığının idarə olunmasında çuvaş yüzbaşıları, knyazları və tarxanları mühüm rol oynayırdılar.

1552-ci ildə Kazan xanlığının Rusiya tərəfindən işğalı nəticəsində çuvaşlar rus çarizminin zülmü altına düşdülər. Rusiya zülmünə baş əyməyən qəhrəman çuvaş xalqı 1551-1573,

1606-1610 və 1615-ci illərdə müstəmləkəçilərə qarşı üsyana qalxdılar. 1842-ci ildə baş verən "Şurça varsi" üsyanı xüsusilə güclü idi. XIX əsrin sonu və XX əsrin əvvəllərində milli azadlıq mübarizəsinin daha da qüvvətləndiyi şəraitdə çuvaş millətinin formalaşması prosesi başa çatdı. Milli şüurun formalaşmasında 1906-cı ildə nəşr olunmağa başlayan "Xıpar" (xəbər) qəzetinin böyük rolu oldu. Çar mütləqiyyəti devrildikdən sonra 24 noyabr 1920-ci ildə təşkil olunmuş Çuvaş Muxtar Vilayəti 21 aprel 1925-ci ildən Çuvaş Muxtar Respublikasına çevrildi.

Özlərini "çavaş" adlandıran çuvaşlar öz milli adət-ənənələrinə çox bağlıdırlar. Məşhur folklor abidələri "Sonuncu çuvaş tarxanı haqqında" və Sarı Batırın igidliyindən bəhs edən "Kazanın alınması haqqında" adlı rəvayətlərdir. XVI əsrdən başlayaraq Rusiya tərəfindən zorla xristianlaşdırılmalarına baxmayaraq, özlərinin Keremet və Tora adlı Tanrılarına inam saxlayırlar.

Çuvaşlar dünya tarix elminə türk xalqlarının tarixini Çin qaynaqları əsasında öyrənilməsində mühüm xidmətləri olan N.Y.Biçurin (İakinf) kimi görkəmli şərqşünas alim bəxş etmişlər. Kosmosu ilk dəfə fəth edənlərin sırasında çuvaş xalqının oğlu A.Q.Nikolayev də vardır.

Çuvaşıstan hazırda inkişaf etmiş sənaye və kənd təsərrüfatı respublikasıdır. Paytaxtı Çeboksarı (Şupaşkar) şəhəridir. Alatır, Kanaş, Urmarı şəhərləri inkişaf etmiş sənaye mərkəzləridir.

Çuvaşıstanda yaşayan azərbaycanlılarla

yerli xalq çuvaşlar arasında möhkəm birliyin dostluq və qardaşlığın rəmzi olan "Çuvaşıstan-Azərbaycan Dostluq Cəmiyyəti" fəaliyyət göstərir. Bu cəmiyyətin xətti ilə azərbaycanlı şair və yazıçıların yaradıcılığı, Azərbaycan tarixinə aid əsərlər Çuvaşıstanda nəşr olunur. Eləcə də respublikamızın oxucuları son illərin çuvaş ədəbiyyatı nümunələri ilə öz dilimizdə tanış ola bilirlər.

Çuvaş şairi Raisa Sarbinin türk dünyasının birliyinə həsr olunan şeiri səslənir.

MƏTN: – Sizə həsr etmişəm mən bu şeirimi
Qəhrəman igidlər, dönməz igidlər.
Türkün şöhrətini dünyaya yayan
Siz ey Nizamilər, Yunis İmrələr
Əhməd Yəsəvilər, böyük Sabirlər…

Tarixə, gözəl bir təbiət lövhəsinə açılan pəncərə. Xoca Əhməd Yəsəvinin türbəsi. Ekranın sağ küncündə: "Ulularımız-Xoca Əhməd Yəsəvi" sözləri yazılır.

MƏTN: – Bəşərin "övliya şairi", "türklər piri" kimi andığı Xoca Əhməd Yəsəvinin türbəsini ziyarət edirik. Müqəddəs adı kimi az qala həyatı da əfsanələşib. XI əsrin sonlarında Türküstanın Sayram şəhərində doğulduğu, 1166-cı ildə dünyasını dəyişdiyi güman edilir. Əfsanələşən, rəvayətləşən "türklər piri"nin gerçək həyatını anlatmasa da, ona verilən dəyəri və ehtiramı göstərmək baxımından Yəsəvinin həyatı ilə bağlı üləmaların söylədiyi bir əfsanəni xatırlayaq:

Əhməd Yəsəvi 7 yaşında ikən çox dəyərli bir insan olan atasından yetim qalır. Hicazdan gələn Şeyx Arslan baba kiçik Əhmədin mənəvi atası olur. Şeyx Arslan baba peyğəmbərimiz Həzrəti Məhəmmədin nəslindən idi.

Bir savaşda ac qalan əyanlarına Həzrəti Peyğəmbərimiz Cəbrayıl vasitəsilə cənnətdən bir tabaq xurma göndərir. Yeyilərkən ayrılıb tabaqdan düşən xurma dənəsini Arslan babaya verərək: "Bu cənnət xurması türküstanlı hümmətimiz Əhməd Yəsəvinin qismətdir" – deyir. Məndən sonra Əhməd adında bir uşaq doğulacaq. O, hümmətimin seçilmişlərindən olacaq, xurma ona yetişməlidir.

Arslan baba Peyğəmbərin duası ilə 500 ilə qədər yaşamış, nəhayət, yetim Əhmədi tapıb, xurmanı ona verərək, bu ağıllı uşağa müəllimlik etmişdi. Bu bir rəvayət olsa da Arslan babanın doğrudan da Əhməd Yəsəvinin müəllimi olduğu, ona yol göstərdiyi tarixdən məlumdur.

Rəvayətə görə, islamiyyəti bilgiyə, sevgiyə vurğunluqla insanın ruhuna hopduran, yəsəviliyi yaradan Xoca Əhməd Yəsəvinin 99 min müridi varmış. Onun üçün dünyanın hər yerindən dəyərli hədiyyələr gəldiyi halda, o, bunları özü üçün götürmür, ehtiyacı olanlara paylayırdı. Hər bir müsəlman yeməyini, geyimini əməyi ilə qazanmalı, müftəxor olmamalıdır. O, ibadətdən sonrakı vaxtlarını taxta qaşıq, əşyalar düzəltməyə sərf edib, bununla dolanırdı.

Bu gün tamaşasına durduğumuz Türküstanın Yəs şəhərində qərarlaşan Əhməd Yəsəvi türbəsini onun ölümündən 200 il sonra bu yerə

ibadətə, xeyir-dua almağa gəlmiş Əmir Teymur tikdirmişdir. Teymur bir gecə Yəsəvini yuxuda görür, ondan zəfər müjdələri alır və bu yuxu doğru çıxdığı üçün indiyə qədər görənləri valeh edən bu əzəmətli türbəni – gözəl sənət əsərini Şeyx Yəsəvinin şərəfinə ucaldır.

Əhməd Yəsəvinin soyu, qızı Gövhər Şahnaz tərəfindən davam etdirilmişdir. Dünyalarca məşhur səyyahımız Övliya Çələbi də onun nəslindəndir. Xoca Əhməd Yəsəvi bir təsəvvüf, sufilik şairidir. Onun şeirlərinə "Hikmət", bu şeirlərin toplandığı divanına isə "Divani-hikmət" deyilir. Hikmətlərində islamiyyətin əsaslarını anladır, Peyğəmbər sevgisini tərənnüm edir. Təəssüflər olsun ki, bu əlyazmaların qədim surətləri günümüzə gəlib yetişməmişdir.

"Kaşğay tarixi" kitabının müəllifi Mənuçöhr Kəyani öz çıxışında kaşğayların yaşadığı yurd yerlərindən söz açır.

MƏNUÇÖHR KƏYANİ: – Bəzən mənə elə gəlirdi ki, biz unudulmuşuq. Biz böyük türk dünyasından kənarda qalıb unudulanlardanıq. Məni sevindirdiniz, kaşğayları yada saldınız. Əslində türkiyəli dostlar da bizi yaddan çıxarmırlar. Hamıya təşəkkür edirəm. Quzey Azərbaycana gəlməmişəm, Bakını görməmişəm, hələ bir ayağım Təbrizdədir – Xoyda, Mərənddə, Səlmasda… Biz böyük bir millətin dünyaya yayılan övladlarıyıq. Həmişə yaşıl, əbədiyaşar, köklü-köməcli bir ağacın qol-budaqlarıyıq. Allah qorusun və sizlərə özümün yenicə işıq üzü görmüş "Kaşğay tarixi" kitabımı hədiyyə edirəm.

Kaşğay elindən görüntülər, təsvirlər. Bunlar döyüşkən xalqa mənsub musiqi ilə müşayiət olunur.

MƏTN: – Ey dağları göylərə salam verən zor ölkə,
Nədir sənin üstündə o qaranlıq, o kölgə.

Cənnətlərin kövsəri tək pakizə,
Sədəflərin danəsi tək təptəzə.

Ağ suların dağda qanad açarkən,
Damcıları yağmur kimi uçarkən.

Nədən söylə ağlar kimi inləyən,
Düşmənmi var dörd tərəfi dinləyər?!

Sənin polad ürəyini əzim-əzim əzənlər,
Başın üstə at oynadıb, kürəyində gəzənlər.

Sənin abad torpağını bərbad edən ağalar
Nədən səni bir qul kimi hey qırmanclar,qamçılar.

Neyçin sənin məğrur səsin rədd ol demir onlara,
Neyçin sənin azad könlün nicat vermir qullara?

Neyçin qisas buludları sellərini yağdırmaz?
Neyçin qüvvət, güc tanrısı var səsiylə hayqırmaz?!

Kaşğaylar İranın cənubunda Hind okeanına yaxın ərazidə daha çox dağlıq yerlərdə yaşayırlar. Sayları son hesablamalara görə iki milyondan yuxarıdır. Tarixi salnamələr kaşğayların çox döyüşkən, qoçaq çöl-bayır adamı, eləcə də incə ruhlu söz, sənət aşiqi olduğundan xəbər verir.

Kaşğay sözü qoçaq-qaçaq mənasını versə də bir çox alimlər onları məşhur kaşğarlarla, daha bir türk toplumunun adı ilə bağlayırlar. Kaşğay dili ortaq türkcəmizin ən şirin "xəqaniyə" ləhcəsinə yaxındır. Azərbaycan türkcəsində gözəl anlaşılır. Tarixi yazılar Elxani hökmdarı Hülakü xanın dövründə – 1256-1265-ci illərdə kaşğayların qəhrəmanlığından ağız dolusu söz açır, döyüşkənliyini, qələbə əzmini öyür. Onların yayda Şiraz ətrafı yaylağa çıxdığından, qışda Fars körfəzinə yaxın qışlaq yerlərindən danışır. Üç cildlik "Kaşğay tarixi"nin müəllifi Şiraz Universitetinin professoru Mənuçöhr Kəyani öz kitabında bu elin, toplunun qədim tarixi ilə yanaşı bu günündən söz açır. Qədim dastanları ağız ədəbiyyatını adət-ənənələri araşdırır.

Kaşğay ellərindən qələmə alınan "Koroğlu" dastanının bir variantında qəssab oğlu Eyvaz Kaşğay xanın oğlu kimi təqdim olunur. Sevdikləri musiqi aləti bizim sazla kamanın ortağı ola biləcək geyçək deyilən, hər evin bəzəyi olan xüsusi musiqi alətidir.

Soy-köklərinə son dərəcə hörmətlə yanaşan kaşğayları adətən milli geyimdə görərsən. Gəzintilərdə, adi məişətdə elə bu filmdə olduğu kimi…

Mənuçöhr Kəyaninin "Kaşğay tarixi" kitabından bir neçə cümləni ekrandan tamaşaçılara təqdim etməklə kaşğaylar haqqında süjet bitir.

Çanaqqala görüntülərinə keçid. Qədim qala divarları, dünənini ziyarətə gələn insanlar…

MƏTN: – Qəhrəman Çanaqqala döyüşçülərinin xatirəsini özündə əbədiləşdirən fateh Sultan Mehmetin qalib əsgərlərini, yenilməz gücünü, şan-şöhrətini göylərə qaldıran İstanbulun baş qərargahı Çanaqqala…

Bu qala divarları böyük qələbələrin, yenilməz gücün, qalibiyyətli savaşların şahididir. Bu gün elinin, ulusunun and-iman yerinə çevriliblər. Avropa ilə Asiyanı bir-birindən ayıran Mərmərə ilə Egeyin sularını qovuşduran, keçmişdən bu günə körpü salan Çanaqqala…

Zaman axarından çıxıb bu yerdə, dünya müstəvisini dəyişib. Tarix qələbə zəfərləri ilə yenidən yazılmağa başlayıb bu qala divarları boyunca.

Dünyanın əsəb sınırları Çanaqqalada kəsişib, fələyin qovğaları başından əskik olmayıb bu yerlərin. Hər yaddan, yadellidən bir dağ alıb, fəqət yenilməyib, basılmaz olub. Farslar bir özgə həvəslə qoşun ləşgər çəkib. İskəndər dirilik suyunun eşqinə gəlmişdi, ordusundan əlini üzüb çıxdı Çanaqqaladan. Bir kimsə bu sirdən agah olmadı ki, bu qala divarlarının hər daşı bir dirilik mənbəyidir, hər çınqısının əsgər kimi düşmənlə mərdi-mərdanə döyüşə çıxmağı var. Dirilik suyu da fateh əsgərlərinin qismətin-dəymiş, qələbə zəfərləri də… Arxasınca gələcəkdilər bir xoşbəxt gündə və nəhayət, mənzil başına yetişdilər.

Fateh Sultan Mehmet yenilməz aslanları ilə İstanbulun qapılarını burdan açdı. Torpağı, daşı, divarları Çanaqqala boğazının suları ilə çiyin-çiyinə, nəfəs-nəfəsə bir ordunun əsgəri təki qələbə çaldı, qalib oldu.

Getdikləri hər yer Vətən,
Gördükləri hər iş dastan.
Onlar Peyğəmbərdən muştuluqluydu
Onlar Allahın ordusuydu.

1453-cü ilin böyük qələbəsindən sonra fateh Sultan Çanaqqala boğazının ən dar keçilməz yerində "Qaleyi Sultaniyyə" tikdirdi. İki əsr sonra Sultan dördüncü Mehmet və Köprülü Mehmet Paşanın qəran ilə "Kumkale" və sanki ağac kimi, gül təki yerin, torpağın təkindən bitib-göyərən "Sethülbayır" qalasının tikilişinə başladı.

Ərtoğrul Qazi oğlu Osman Qazinin başçılığı altında Söyütdə parlayan Osmanlı günəşi, qısa zamanda üç qitəni aydınlatmağa başladı… Dövlət sarayı əvvəl Söyütdə, sonra Bursada tikildi, sorağı Ədimədən eşidildi. Kosovada, Nijboluda, Vamada gücü sınandı Osmanoğlunun. Və nəhayət, müqəddəs Peyğəmbərimizin arzusu yerinə yetirildi. Gözəl əsgərlər Tanrının buyruğuna baş əyərək: "Bu da bir türk yurdu!" deyib İstanbulda qələbə çaldılar.

Övliya Çələbi İstanbulun qapısında durub onu qoruyan bu qalaları salnamələrində məxsusi vəsf edib. Dünyada heç yerdə belə möhtəşəm qala, uca zirvələr görmədiyini yazıb. Kim bilirdi ki, türklüyün böyük sınaqları hələ qarşıdadı: özülü qalibiyyətlə qoyulan Çanaqqalanın bir zəfər tacını da Mustafa Kamal Atatürk öz əsgərləri ilə onun əbədiyaşar tarixinə həkk edəcək.

Çanaqqala qapısında aynalı çarşı,
Ana mən gedirəm düşmənə qarşı…

Bu qalanın daş üzərində gül açan naxışından, oymasından, gecə-gündüz uyumadan nəql etdiyi hekayətlərdən, əfsanələrdən danışmadıq… Göylərə ucaİan sütunlar suların bağrından qopan bürclər, yeraltı yollar… Öz gərdişində, gedişində olan dövran, bəlkə də Mərmərənin, Egeyin suları altında hələ də öz ömrünü yaşayan, zamanını sürən şəhərlər, kəndlər… Elə biz də, özümüzdən olan tariximizlə nə vaxtsa rastlaşacağıq. Hələ ki, "fəth" marşının eşidiləcəyi yurd yerləri, bayraqlarımızın dikiləcəyi zirvələr yolumuzu gözləyir.

Sən də keçə bilərsən yardan, anadan, bacıdan,
Sənin də dastanını oxuyarıq əzbərdən,
Xəbərin yox kimidir, daşıdığın dəyərdən.

Eldə sənsən, dildə sən: könüldəsən, başdasan,
Fatihin İstanbulu fəth etdiyi yaşdasan!

Üzünə vurmaq gərək zamanının fəndini!
Göstər, qabaran sular necə yıxar bəndini!
Kiçik görmə, xor görmə dəliqanlım kəndini.

Bir qırıq abidəni yüksəldəcək daşdasan;
Fatihin İstanbulu fəth etdiyi yaşdasan!

Bu kitablar Fatihdir, Səlimdir, Süleymandır;
Bu mehrab Sinanüddin, bu minarə Sinandır;
Haydı artıq, uyuyan dastanını oyandır!

Bilməm nədən gündəlik işlərdə tələşdasan…
Qızım, sən də Fatihlər doğuracaq yaşdasan!

Dəliqanlım, işarət aldığın gün atandan,
Yeriyəcəksən… millət yeriyəcək arxandan!
Sənə salam gətirdim Ulubaxtlı Hasandan;

Sən ki, bürclərə bayraq olacaq qumaşdansan,
Fatihin İstanbulu fəth etdiyi yaşdasan!

İkinci filmin sonluğu türksoylu xalqların nümayəndələrindən hər birinin öz dilində 2-3 kəlmənlik vətən, yurdla bağlı sözləri ilə bitir…

İKİNCİ FİLMİN SONU

2002-ci il

TÜRK DÜNYASI.
QİTƏDƏN – QİTƏYƏ

Üçüncü film

Ekranda ikinci filmin proloqu… Yenisey abidələri, türkün tarixən qazandığı maddi-mənəvi dəyərlərdən görüntülər…

MƏTN: – Bəşəriyyət tarixində elə xalqlar var ki, onların təşəkkül və inkişaf tarixi, dünya sivilizasiyasında tutduğu qanuni mövqe başqa xalqların, dövlətlərin, qədim mədəniyyətlərin tarixinin araşdırılması ilə müqayisədə çox az öyrənilmişdir. Tarixə dərin marağın artdığı və gücləndiyi indiki dövrdə qədim xalqların təşəkkül və inkişaf tarixini tədqiq edib geniş ictimaiyyətə, elm aləminə çatdırmaq, hər bir xalqın dünya xalqların ailəsində mənsub olduğu layiqli yeri, obyektiv mövqeyi açıb göstərmək, nəhayət, xalqların, dövlətlərin, mədəniyyətlərin ümumdünya sivilizasiyasına təsirini üzə çıxarmaq, hamının malı etmək bütövlükdə keçmişin düzgün, təhrif olunmadan öyrənilməsində böyük əhəmiyyət kəsb edir. Çox təəssüf ki, tarixin, zamanın az öyrənilmiş xalqlarından biri də qədim dövlətçilik və mədəniyyət ənənələrinə malik olan türk xalqlarının tarixidir.

Ən müxtəlif bölgələrdə yaşayan türksoylu xalqların həyatından görüntülər, etnoqrafik kadrlar…

MƏTN: – Türk xalqlarım bir-birindən təcrid etmək, onların qədim dövlətə, mədəniyyətə malik olduğunu göstərməmək, yeni yaranan nəsillərin dünyagörüşündə bu xalqın qədimliyinə aid baxışların dərin kök atmasına yol verməmək sovet milli siyasətinin başlıca tendensiyalarından idi. Lap yaxın vaxtlara qədər, əgər mütəxəssisləri nəzərə almasaq, əhalinin böyük əksəriyyəti türk xalqlarının qədim tarix və mədəniyyəti, dövlət quruluşu ilə keçmiş SSRİ ərazisində çoxsaylı türkdilli, türksoylu xalqların yaşadığını bilmirdilər. Başqa xalqlar öz tarixlərini qondarma üsullarla sübuta yetirmək üçün dəridən-qabıqdan çıxdıqları, bütün dünyaya car çəkib "biz qədim xalqıq" haray-həşiri saldıqları halda, türk xalqlarının başı elə qarışdırılmış, hakim milli siyasətin qurduğu tor elə möhkəm toxunmuşdu ki, bizləri tariximizi başqa-başqa xalqların tarixindən ayırmağa, yaxın zamanlarda meydana gələn bir xalq kimi təqdim etməyə çalışırdılar. Bu isə məlum olduğu kimi, türk xalqlarının tarixinin təhrif olunmasına, vahid öyrənilmə məcrasından uzaqlaşdırılmasını güdən, 70 il ərzində bu siyasəti yeritməklə türk övladlarının mənəviyyatını dəyişdirməyə çalışan qüvvələrin qayəsi idi. Məhz bu tendensiya ilə keçmiş ittifaqda çoxcildli "Всемирная история" – 3 cilddə, "История древного мира" – 2 cilddə, "История средних веков", "Советский энсиклопедический словарь", habelə yüzlərlə dərslik və dırnaqarası tədqiqat əsərlərinin adını sadalamaq olar ki, bu kitablarda türk xalqlarının

qədim tarixi oxucu diqqətindən kənarda qalır, bəzən də haqqında çox səthi məlumat verilirdi. Bu məkrli, uzaqgörən siyasətdən baş çıxardıqda isə mövcud tədqiqatların nəşri, üzə çıxarılması və yayılması qadağan edilirdi. 37-ci ilin dəhşətli repressiya illərinin türkologiya elminə, eləcə də digər bütün sahələrdə insanlığa vurduğu zərbə keçmiş sovetlər dövlətində yaşayan türksoylu xalqların vətənlərindən sürgün olunması, məhv edilməsi, bu dəhşətli siyasətin göstəricisi idi. Sovetlər ittifaqının dağılması ilə dünya elmində qədim türklər haqqında yazılan saysız-hesabsız kitablar, elmi-tədqiqat əsərləri əsl auditoriyasını, öyrənilmə məkanı tapdı. Dövlətçiliyini bərpa edən türksoylu respublikaların, sürətlə özünəqayıdışını təsdiq edən azsaylı türk xalqları arasında böyük mənada kimliyini təsdiq etmək sarıdan görülən işləri əvəzsizdir. Qədim türklərin hələ eradan əvvəl dövlət qurumlarının mövcudluğu, Sibir və Altay çöllərində, Asiyada, habelə müxtəlif vaxtlarda zəfərli yürüşlər zamanı Avropanın, Asiyanın bir çox regionlarına geniş yayılması, məskunlaşması bu yerlərdə zəngin mədəniyyət və məişət izlərinin qalması dünya elmi, alimləri tərəfindən dönə-dönə təsdiqlənir. Mövcud arxeoloji, epiqrafik, etnoqrafik materiallar, yazılı mənbələr türklərin qədim tarixə malik olduqlarını isbat edir.

Bu görüşümüzdə böyük türk dünyasına malik xalqların ayrı-ayrılıqda həyat tərzi, dünəni, bu günü, etnoqrafiyası ilə yanaşı dünyanın mədəni sərvətinə çevirdiyi söz-sənət inciləri ilə daha yaxından tanış olacağıq.

Qədim İtil – Bulqar xaqanlığının yurd yerləri, əski abidələr, şəhər, kənd dağıntıları, məzar daşları, tatarların daha sıx yaşadığı yerlər, qədim və bugünkü Tatarıstan…

MƏTN: – Qədim türk boylarından olan tatarlar, tarixin çox uzaq qatlarından, əski salnamələrdə, qədim Oğurlar-İtil bulqarları kimi xatırlanır. Oğur və Oğuz sözləri eyni mənalıdır. Oğuzların qardaşı sayılan Oğurlar miladdan öncəki zamanlarda bir-birindən ayrılmış, qərbə doğru yönələnlərin dilində "z" hərfinin yerini "r" hərfi aldığından "Doqquz-Oğuz", "On-Oğuz", "Otuz-Oğuz" deyimləri qərbdə "Doqquz-Oğur", "On-Oğur", "Otuz-Oğur" şəklində söylənmişdir.

453-cü ildə Atilla öldükdən sonra kiçik oğlu İmək özünə yaxın olan böyük çoxluqla – "On-Oğur" boyundan olan türklərlə Qara dəniz sahilinə gəlmiş, buradakı digər türk boyları ilə qaynayıb qarışmışdır. Bu Bulqar türklərinin bir hissəsi sonrakı əsrlərdə Dunay boylarına yerləşəcək, xristianlığı qəbul etdikləri üçün slavlar arasında əriyib türklüklərini itirəcəklər. Buna qarşılıq İtil (Volqa) dolaylarına yerləşənlər türklüklərini qoruyub saxladılar və "tatar" adı ilə anıldılar. Demək kimliklərini itirən bulqarların da, sonradan müsəlman olan və türklüklərini qoruyan tatarların da ataları qədim türklərin On-Oğur (On-Oğuz) boyudur. Oğurların ilk yurdu Qərbi Sibir idi. Bunlar Çiçi Tanhu dövləti yıxıldıqdan sonra şimala çəkilmiş, digər Oğurlara qarışmışlar. Sonrakı əsrlərdə və bir qədər öncə söylənən kimi Atillanın oğlu İrnəklə birlikdə

səfər edən hunlar (Oğurlar) digər Oğurlarla (Beş Oğur, Altı Oğur, Doqquz Oğur, Otuz Oğurlarla) birləşib Bulqar dövlətini qurdular. Bu ərəfədə oğurların başçıları Hun xaqanları sülaləsindən Qurd idi. Türklüklərini qoruyan və tatar adlanan bu oğurlar "Oğuzlar" islamlaşan ilk türk tayfalarındandır. Onların möhkəm siyasi təşkilat halında qurduqları dövlət monqol istilasına qədər beş əsr yarım davam edib yaşamışdır. Bulqar türkləri oturaq həyat sürürdülər. Əkinə yararlı torpaqların qədrini bilir, çeşidli məhsul yetişdirir, heyvan bəsləyirdilər. Meşələri çox idi. Bu yerlərdə dəriçilik, kürkçülük inkişaf etmişdi. Ticarət üçün quzeydə Şimal Buzlu okeanına, cənub-şərqdə Xəzər, Aral dənizlərinə və Xarəzmə, daha şərqdə Türküstana, İran və Misirə qədər karvan göndərir, xüsusilə kürk və dəri məmulatları ixrac edirdilər. Bal, fındıq, qılınc, zireh satırdılar. "Bulqari" deyilən bulqar aşılanmış dəriləri və çəkmələri öz dövründə bütün dünyada məşhur idi. Bulqar türklərinin paytaxtı Bulqar adı daşıyırdı. Bu şəhər bugünkü Kazan şəhərindən 115 km güneydə yerləşirdi. Bulqar türklərinin əvvəllər tabe olduqları Xəzər xaqanlığı zəiflədikdən sonra Bulqar xanlığı gücləndi. Paytaxt Bulqar şəhəri IX-XII əsrlərdə Şərqi Avropanın ən mühüm ticarət mərkəzi idi. Suvar, Osal, Tətiş, Cükə-Tav, Kazan, Kərməncüm kimi dövrünün məşhur şəhərləri də paytaxtdan geri qalmırdı.

İtil-Bulqar dövləti 1236-cı ildə monqol istilasına uğradı və paytaxtı dağıdıldı. Bulqar şəhərləri ikinci dəfə 1361-ci ildə Qızıl Orda

(Pulat Teymurxan) tərəfindən, üçüncü dəfə 1391-ci ildə Qızıl Ordaya qarşı çıxıb Toxtamış xanı məğlub edən Teymurxan tərəfindən işğal olundu.

Xalq dağılmağa başladı. Oğurların bir bölümü Kazan çayı boyuna köçdü. Sonralar qurulacaq Kazan xanlığının əsas hissəsini məhz bu Qıpçaq-Oğur (Bulqar) qarışığı olan türklər təşkil edəcəkdi. İtil bulqarlarının böyük şəhərlər saldığından, paytaxtı Bulqar şəhərinin gözəlliyindən, çox məşhur olduğundan söz açmışdıq. Bu şəhərin yerləşdiyi ərazidə zaman-zaman ruslar tərəfindən qazıntılar aparılmış və dəyərli tapıntılar, sənədlər əldə olunmuşdur. Şəhərin xarabalıqları indi də qalır. Çar I Pyotr 1722-ci ildə bu yerləri gəzmiş və bu tarixi torpaqlara arxeoloji ekspedisiyalar təşkil etməyi əmr etmişdi. Bu abidələrin çoxunu saraylar, came, türbə bulaq və hamamlar təşkil edirdi. Fəqət daha sonralar xalqın sərvəti olan bütün bu tikililər, nadir sənət inciləri fanatik rus rahibləri tərəfindən dağıdıldı. Daşlarından, gözəl sütunlarından monastırlar tikildi.

1767-ci ildə bu yerlərin şöhrətinə gələn Yekaterina tarixi şah əsərlərin dağıdıldığını gördü. Qalan, ələ gələnlərdən bir çox tapıntılar, muzey əşyaları Rusiyaya daşındı. Şəhər qalıqları, onun məşhur "Ağ saray" və "Qara sarayı"nın dağıntıları bu günə qədər qalmaqdadır. "Ağ saray"ın döşəmələri altındakı qızdırıcı sistem bu gün də mürəkkəbliyi ilə mütəxəssisləri valeh edir. Zəmanəmizə qədər qalmış məzar daşları və digər qiymətli tapıntılar, üzərindəki yazılar həm o zamankı türkcəni, həm də gözəl işləmələrilə

bu yerin mərmər ustalığını göstərir. Bulqar şəhərində Bulqar xanları tərəfindən basdırılan bir çox pul növləri də tapılmışdır ki, bunlar həm Kazan şəhərində, həm də Peterburqdakı muzeylərdə nümayiş etdirilməkdədir.

XX əsrin əvvəllərinə qədər Rusiya imperiyasının hakimiyyəti altında yaşayan bütün türk xalqları tatar adlandırılırdı. Tatar etnonimi ilk dəfə VI-IX əsrlərdə Baykal gölündən cənub-şərqdə yaşayan tayfalar arasında meydana gəlmişdir. Ümumi bir adla – tatar adı ilə tanınan Krım, Volqaboyu, Uralətrafı və Sibir tatarları vahid soykökə malik olsalar da müstəqil xalqlardır. Bu gün Tatarıstan Respublikasının dörd milyondan artıq əhalisinin əksəriyyətini bu yerin köklü-köməcli sakinləri olan tatarlar, qalanını ruslar, çuvaşlar, mordvalar, marilər təşkil edirlər.

Ekranda bayram təntənələrində meydanda at çapan igid sevgilisi ilə qədim bir mərasim oyununu nümayiş etdirir.

MƏTN: – Hələliksə, meydan sevgilisini sınağa çəkən, məhəbbət dastanlarının qəhrəmanı, xanımlar xanımı, gözəl tatar qızının və onu sevən igidindir; atını dördnala səyirdib, özünü sevgilisinə yetirən, ona məhəbbətini izhar edən gənc bu dastan qəhrəmanınındır. Tatarıstanda bütün bayram təntənələri atçapma yarışları və bu ibrətli rəvayətlə başlayır: Böyük türkün qadınına, sevgilisinə verdiyi ən yüksək qiymətlə… Bu oyuna hər kəs girişməz. Meydan igidin eşqi, məhəbbəti yolunda ən keçilməz sədləri aşan,

cəfalara dözə bilənindi. Məğlub gənc atı ilə baş-başa qələbə əzmi ilə gələn cıdıra hazırlaşar. Yoxsa kim idi beləsini özünə adaxlı seçən?!

Türk övladı belə bir sevgidən, istəkdən, qarşılıqlı məhəbbətdən doğulub. Zamanın yəhərsiz, yüyənsiz atı üstündə dünyanı dördnala çapıb, bu gününə yetişib. Yenə də atı, vəfalı sevgilisi, eli-obası ilə birgə zalım düşmənə: "Yolumdan çəkil" – deyir, biz zəfərlərdən zəfərə adlayacağıq.

Tatarıstan Respublikasının müstəqillik günü ilə bağlı bayram təntənələrindən, Şəhabətdin Mərcani məscidindən görüntülər…

MƏTN: – 1991-ci ildən Tatarıstan Respublikası Rusiya Federasiyası tərkibində suveren dövlətdir. Öz milli bayrağı, dili, himni ilə hər il bu tarix, suverenlik haqqında bəyannamənin qəbul edildiyi gün – avqustun 30-u Tatarıstanın bütün bölgələrində – şəhərlərdə, kəndlərdə bayram təntənələri ilə qeyd olunur.

Naberejnı, Çelnı, Nijni Kamsk, Almetyevsk, Leninaqorsk, Zelenadolsk və digər şəhərlər… Ölkə ərazisində yerli tatar dili ilə yanaşı rus dili də dövlət dili sayılır. Burda yaşayan ən müxtəlif xalqların nümayəndələri arasında azərbaycanlılar da az deyil. Bu yerin ən böyük azərbaycanlısı isə bu torpağa – Kazana şan-şöhrət gətirən həmyerlimiz, rusların qibtə ilə "rus şərqşünaslığının atası" çağırdıqları Mirzə Kazımbəydir.

Ekranda Tatarıstan elləri – kəndlər, şəhər tipli qəsəbələr, yurdlar…

MƏTN: – Tatarların yaşayış məskənləri, qala adlandırılan şəhərlər il (el) və avul (aul) adlandırılan kəndlərdir. Volqa-boyu və Uralətrafı tatarların zəngin folklorlarının başlıca janrları nağıllar, əfsanələr, baitlər (bayatılar), tapmacalar, atalar sözləri, kıska jırlar (qısa şeirlər), ozın jırlar və zərb-məsəllərdir. Yazılı ədəbiyyatın ən məşhur nümunələri XII əsrdə yaşamış bulqar şairi Kol-Qilinin "Yusuf və Züleyxa", XVI əsrdə yaşamış Muhəmmədyarın "Tuxfayi Mərdan", "Nuri Sodur" poemalarıdır.

Təsvirlərdə əski Anadolu görüntüləri. Tarixi yerlər, qalalar, Kapadokiya-Pəribacaları…

MƏTN: – Qədim Bulqar ellərindən sonra türklüyün əzəmətli yurd yerlərindən əski Anadoluya üz tuturuq. Yolumuz Kapadokiya-Pəribacalarınadır. Seyr etdiyimiz görüntülər eramızdan iki min il öncənin tarixi yaşantıları, yadigarlarıdır. İşlək vulkan püskürmələri mənbəyi Göllüdağ və Həsən dağına söykənən Kapadokiya-Pəribacaları indi muzey kimi qorunur.

Kapadokiya at ayaqlarının əks-sədasından əmələ gələn səs-sözdür. Gözəl atların vətəni deməkdir. Onunla yanaşı işlənən Pəribacaları ifadəsi qədim bir əfsanənin yadigarıdır. Belə nəql edirlər ki, bura yolu düşən səyahətçilər, karvanlar, kimsəsiz bildikləri qalaların gecələr

bacalarından çıxan tüstünü görcək bu yerə Pərilərin evi, məskəni, yaşayış yeri demiş və o vaxtdan Pəribacaları hekayəti dilə-dişə düşüb.

Lap yaxın vədələrə – 1950-ci illərə qədər bu mağaralarda, yeraltı şəhərdə özünə sığınacaq tapanlar, yaşayış var idi. İçəri keçdikcə çeşidli mədəniyyət göstəriciləri insanı heyrətə gətirir. Bu yerlərdən kimlər keçməyib, kimlərin izi qalmayıb… Müharibələr, qırğınlar… İnsanlar canından, qanından keçib bu torpaqlar uğrunda. Farslar, roma, bizans dönəmləri, səlcuqlu türklərinin Anadoluya zəfər yürüşü, Osmanlılar…

İndi böyük zaman məsafəsindən bir qədər ibtidai baxdığımız qədim insanlar bu yeri məxsusi seçmişlər. Sönmüş vulkan püskürmələrindən təpələnən, şırımlanan lava axınlarının əsrarəngiz rənglərə boyadığı vahələrdən müxtəlif formalara salınmış Pəribacalan ucalır. Bu yerdə təbiətlə insan çiyin-çiyinə dünyanın daha bir möcüzəsini gələcəyə nişan verib. Hələ ki, bu yeraltı şəhəri tam axıra qədər gəzib dolaşan, kimsədən soraq verən yoxdur.

Muzey şəhərin lap qapısında yurd salan "Görəmə" qəsəbəsinin sakinləri öz tarixi keçmişi ilə baş-başa yaşayırlar. Burada Pəribacalarından, ətraf təpələrdən hündür ev, tikili bənd eləmək qəti qadağandır. İnsanlar tarixinə, üzü göylərə, yuxarılara boylanırlar. Kimsəyə bu keçmişə üstdən aşağı baxmağa izn verilməz.

Qədim Anadolunun yaxasında dünyanın tamaşasına axışıb gəldiyi dipdiri bir şəhər zamanlara, əsrlərə şahidlik edərək əbədiyyət ömrünü yaşayır. Yerlilərin söylədiyinə görə

gecələr bəzən at nallarının səsindən qulaq tutulur bu yerdə. Pəribacalarının tüstüləndiyini görənlər olub yenə də…

Pəribacalarının bugünkü sakinləri onun dörd ətrafına cəmlənib qədim şəhərlərinin, müqəddəs ruhların keşiyini çəkir, yuxusunu qoruyur, sənət, söz, maraq dünyasını yaşadır, davam etdirir.

Ekranda qədim türkmən elləri, məşhur türkmən atları, elat həyatı, məişəti, etnoqrafiyası…

MƏTN: – Altay xalqları türk qrupunun oğuz qoluna mənsub türkmənlərin sayı son siyahıyaalmaya görə beş milyondan yuxarıdır. Türkmənlər Altay dil ailəsinin Oğuz qrupuna mənsub olan türkmən dilində danışırlar, müsəlmandırlar. Soy köklərində başlıca olaraq oğuz-türk tayfaları iştirak etmişlər. Türkmənlər əsasən Türkmənistan Respublikasında, həmçinin İran İslam Respublikasında, İraqda, Türkiyədə, Suriyada, Rusiya Federasiyasının Stavropol diyarında, Özbəkistanda, Tacikistanda və başqa ölkələrdə yaşayırlar.

Türkmənlərin vahid xalq kimi təşəkkülündə Türkmənistanın ən qədim sakinləri olan iskit (skif) – massaget tayfaları, həmçinin eramızdan əvvəl bu ərazidə yaşayan başqa yerli tayfalar da iştirak etmişlər. Oğuz türkləri olan səlcuqlar bu prosesdə daha mühüm rol oynamışlar. Səlcuq türkləri XI əsrdə ərazisi Aral dənizindən Aralıq dənizinə qədər geniş əraziləri əhatə edən böyük bir imperiya yaratmışlar. Böyük Səlcuq imperiyasının süqutundan sonra türkmən

torpaqları əvvəlcə Xarəzmşahların, sonra isə Böyük Monqol imperatorluğunun tərkibinə qatıldı. XIV əsrin sonlarından XVI əsrin əvvəllərinədək ölkə Teymurluların hakimiyyəti altında olmuşdur. XVI-XVII əsrlərdə isə Türkmənistanın bir hissəsi Xivə və Buxara xanlıqlarından, digər hissəsi isə Səfəvilər dövlətindən asılı idi.

XIX əsrin əvvəllərindən Türkmənistanın Rusiyanın təsiri altına düşməsi dövrü başlanır. 1899-cu ildə salman Krasnovodsk (indiki Türkmənbaşı) limanı Rusiya işğalları üçün bu ərazilərdə əsas baza rolunu oynayırdı. Türkmən xalqı Rusiya zülmünə qarşı 1905-1907 və 1916-cı illərdə bütün Orta Asiyanı bürüyən milli-azadlıq hərəkatında fəal iştirak etmişdir. Rusiyada çar mütləqiyyəti devrildikdən sonra – 1924-cü ilin oktyabrında Türkmənistan Sovet Sosialist Respublikası yaradıldı. 1925-ci ilin mayında bu respublika SSRİ tərkibinə qatıldı. 1991-ci ildən Türkmənistan Respublikası müstəqil dövlətdir.

Türkmənlərin əsas məşğuliyyətləri suvarma əkinçiliyi və qaragül qoyunçuluğudur. Əkinçilər çomur, maldarlar çarva adlanırlar. Türkmənlər həm də məşhur xalça ustalarıdır. Türkmənlərin zəngin folkloru var. Digər qardaş türk xalqları ilə müştərək olan ən məşhur dastanları “Kitabi-Dədə Qorqud”, “Koroğlu”, “Şahsənəm və Qərib”, “Yusif və Züleyxa” və başqalarıdır. Nağıllarının əsas personajları gözəl pərilər və qorxunc divlərdir. Xalq lətifələrinin qəhrəmanları Aldar Kosa və Nəsirəddin Eppendidir. Əsas musiqi alətləri tuyduk (tütək),

qiçek (kamança) və qoşa simli dutardır. Türkmənlər dünya mədəniyyətinə Mehtimqulu, Kormolla, Bayram Şair və Durdı Qılıc kimi böyük şairlər, məşhur "Türkmənlərin şəcərəsi" adlı əsərin müəllifi Əbülqazi xan Xiveli kimi tarixçilər bəxş etmişlər. Ən iri şəhərləri ölkənin paytaxtı Aşqabad, Marı və Türkmənbaşı şəhərləridir.

Ekranda qırğız elləri, Tanrı dağları, Bişkek şəhəri görünür.

Qırğızlar haqqında təsəvvür yaradan, məlumat verən təsvirlər…

MƏTN: – Bu dağlara Tanrı dağları deyərlər. Tanrı dağlarının göylərə bülənd yeddi min metrlik civarlarına söykənən Bişkek şəhəri, Qırğızıstanın baş kəndi. Bişkekin adı sovet dönəmində Frunze çağırılırdı. Bu şəhərin sakinlərinə keçmişini unutdurmaqdan ötrü, küçələr, xiyabanlar – hər yer sovetlərin əsli-kökü bilinməyən heykəllərinə bürünmüşdü. İnsanların yaddaşında, könlündə isə min, milyon illərin adət-ənənəsi, silinməz yazısı, səsi, havacatı kök salıb.

Tarix öz axarına qayıtdı nəhayət. Bişkekin ən hündür, ən görümlü yerində and yerləri, igidlik, qəhrəmanlıq simvolu Manasa heykəl – anıt ucaltdılar Manasın övladları…

Tarixən yaşayıb-yaşamadığı bilinməyən, fəqət iyirminci yüz ilin sonunda heç bir dastan qəhrəmanının Dədə Qorqud, Manas qədər diriliyi, varlığı, həyatiliyi, yaşarlılığı sübuta yetirilməyib. Dipdiri, sappasağ bir varlıqdır

qəhrəman Manas öz milləti, öz xalqından ötrü.

Bu yerlər ulu Türküstan çöllləridir. Böyük türkün boy götürdüyü, qədim yurd yerlərinin ilkinlərindən biri. Çu və Talas irmaqlarından tapılan, torpağın altından çıxarılan tarixi əsərlər – balballar, daş sütunlar qayaya, dağa dönmüş insanlardır. Zamanın qəhrinə düşüb, torpağırı üstündə silahı əlində, nizəsi belində əbədiyyətə qovuşublar. Şaman babaların gizlinlərini aça bilsək, sinə daşlarındakı ox şəkilli yazılar yəqin ki, bu daş insanların kimliklərindən danışar. Fəqət sirləri açılmamış yadlar, özgələr bu sirli daşları yağmalayıb, Sankt-Peterburqun Ermitajına daşıyıblar. Nə müddətdir ki, sıra sayları pozulub, yaddaşları pərən-pərən düşüb.

Qədim Balasaqun şəhərinin təsvirləri, insan nəfəsinə, hənirinə həsrət qalan çöllər, irmaqlar…

MƏTN: – Qarış-qarış dolaşdığımız qədim Balasaqundur. Doğu və Batı Türküstanın dörd yüz illik hakimiyyətinin baş kəndi, baş şəhəri. İlk türk islam dövləti – Qaraxanlıların hakimiyyət qurduğu xanədanın xarabalıqları. Burada zaman da, vaxt da öz məhvərindən çıxıb. Tarix dağıtdıqlarına qan-yaş tökür. Qədim balballarla bır məzarlıqda uyuyan müsəlman məzar daşları keçmişin yox edilməyən anıtlarıdır. Yeni ailə quran qırğızlar bu abidələr qarşısında nəslinə, soyuna layiq olacaqlarına, övladlarını dədə-baba ənənələrinə köklənmiş böyüdəcəklərinə söz verirlər.

Qırğız qocalarının dilindən bir neçə kəlmənlik xeyir-dua…

MƏTN: – Bozqır çöllərinin ən doğma sıcaq evləri çadır-yurdlardır. Bir neçə saata yığılır, qurulur, oba-oba dolaşır Vətəni. İnsanların ən yaxın dostu, həmdəmi isə savaşda igid, şeirdə qəhrəman, oyunda arxadaş, bir sözlə tarixən türkün özünə süd qardaşı saydığı yenilməz, basılmaz atıdı. Sizlə birlikdə tamaşa etdiyimiz bu kadrlar hər il Qırğızıstanda, Qarabalta şəhərində şair Osmanın xatirəsinə həsr olunan anma mərasimlərindən bir yadigardır, lentlərin yaddaşında əbədiləşib.

Qədim xalq mərasimindən görüntülər, insanı düşündürən kadrlar. İssık-göl ətrafı…

MƏTN: – Məzarların kəndləşdiyi, şəhərləşdiyi İssık-göl isti göl yaxınlığından Çolpan atadan Bişkekə qədər uzanan yollar, səhralar boyunca məskunlaşan məzarıstan – türbələr, qəbirlər əbədiyyətə qovuşan daşlar, sükuta bürünən ölü şəhər. Sanki bu yerin sakinləri harasa uzaq bir səfərə çıxıb. Böyük bir kənd, bəzəkli bir şəhər boş qalıb. Gedənləri geri dönəcəkmiş kimi yolunu gözləyir. Onu ziyarət edənlərin gəlişinə müntəzirdir. Kimdir əzizinin yoxluğundan dünyasını tərk edən kimi danışan? Xatırlanırsa min il bundan öncə dünyasını dəyişibsə də dipdiridi, sıra saylarımızdan birisidi. Millət, xalq üçün onun oduna yananlar, tarixinə, yaddaşına düşənlər, sözü, əməli xatırlananlar həmişə əbədiyyən yaşayacaqlar. Bu yerlər – Talas çölləri vaxtilə Qaraxanlılar dövründə islam ordularına və çin əsgərlərinə qanlı səhnə meydanı olub. Aişə

bibinin məşhur türbəsi isə o tarixi olduğu kimi nəql edən soydaşımızdır.

Yarımsəhralar, qumlu çöllər, tək-tənha kurqan qəbirlər…

MƏTN: – VII əsrdə Asiyanın qədəri bu torpaqlarda düyünlənib. Hun babalarımızın kurqanlarından çıxan altun varidat – tamğalar, simvollar, əşyalar, at yükü, araba yükü deyil, vaqonlarla rus muzeylərinə daşınıb. Sərgilənənləri bir adla, gizlində saxlananları başqa-başqa adlarla yadların sərvətinə çevrilib. Beləcə Altay dağlarından, Pazırıq kurqandan, əbədiləşən buzlar arasından tapılan dünyanın ilk xalısı, miladdan öncə üçüncü yüzillə tarixlənən türk düyünü texnikasında toxunan xalça Ermitaj muzeyində qazıntı əşyası adı altında saxlanılır. Onu toxuyan əllər, nəslimizin ən ulu ərişarğacı olub. Nə yazıqlar ki, hətta adları, soyadları dəyişdirilən bütöv bir xalq, qədim bir ulusun – Altay xalqlarının əlindən alınaraq başqalarına qismət olub. Bu gün təkcə Ermitajda iki yüzdən artıq hun kurqan qəbirlərdən yağmalanan zinət əşyaları, maddi-mənəvi sərvətlərimiz üstündəki sözü, yazısı, deyəcəkləri ilə gözü yollarda sahiblərini gözləyir. Babalarımız üstündə səltənət qurub, dövlət yaratdıqları torpağa arxayın olub, gələcəyə deyəcəklərini bu torpağın altına öz nəsli tərəfindən açılacaqlarına ümid edib, əmanət qoyub. Bu əmanətə layiqli vərəsəlik etməyimiz gərək.

Ekranda bu sözlər yazılır.

“Biz ki, mülkü Turan, əmiri Türküstanıq. Biz ki, türk oğlu türkük. Biz ki, millətlərin ən qədimi və ulusuyuq”.

Əmir Teymur

Özbəkistanın Daşkənd Dövlət Dram Teatrının yaradıcı heyəti H.Cavidin “Topal Teymur” əsəri üzərində yaradıcılıq işi barədə danışır. Tamaşadan fraqmentlər göstərilir. Əmir Teymurun vətəni, dəfn olunduğu türbə…

MƏTN: – Əmir Teymur öz adı ilə anılan böyük bir imperatorluğun qurucusudur. 8 aprel 1336-cı ildə Türküstanın Keş şəhərində dünyaya gəlib. Səmərqəndin cənubunda yerləşən həmin yerin bugünkü adı Şəhrisəbizdir. Atası Barlas Oymağının bəyi Turaqay, anası Təkinəxatun idi.

Tarixçilər Teymuru uşaq yaşlarından at minən, qılınc qurşayan, atdığı oxu üzük həlqəsindən keçirən, 12 yaşından müharibəyə başlayan bahadır adlandırır.

Aman diləyənə aman verən, düşmənlərinə rəhmsiz olan, əsgərlərinin sitayiş etdiyi hökmdar, “millətin atası” çağırılıb Teymur. İldırım Bəyazidlə savaşması və qardaş orduları bir-birinə qırdırmasında onu günahlandırırlar. Tarixçilər Teymurun son ana qədər müharibəni başlamamaq üçün danışığa getdiyini, İldırım Bəyazidin isə müharibəyə cəhd göstərdiyini yazırlar. İmperatorluğun sərhədlərini Volqadan Hindistandakı Qanq çayına, Tanrı dağlarından Şama qədər genişləndirən Teymur deyirdi: “Biz ki, mülki Turan, əmiri Türküstanıq. Biz ki, türk oğlu türkük. Biz ki,

millətlərin ən qədimi və ulusuyuq”.

Teymurun özü, oğulları və nəvələri mədəniyyət və ədəbiyyatda türk intibahını meydana gətirmişlər. Bu dövr tarixdə haqlı olaraq “Teymur oğulları intibahı” ilə tanınır.

Teymurun ölüm yatağında vəsiyyətlərindən: “Oğullarım! Millətin dərdinə dərman tapmaq vəzifənizdir. Zəifləri qoruyun! Yoxsulları zənginlərin zülmünə verməyin! Ədalət və yaxşılıq etmək həyat düsturunuz, əməliniz olsun! Mənim kimi uzun səltənət sürmək istəsəniz, qılıncınızı yaxşı düşünərək çəkiniz. Aranıza nifaq toxumu səpilməmək üçün diqqətli, bir də diqqətli olun!”

Teymur 1405-ci il martın 19-da vəfat edib. Cənazəsi mumyalanaraq Səmərqəndə aparılıb. Sağlığında çox sevdiyi nəvəsi Məhəmməd Sultan üçün tikdirdiyi türbədə, nəvəsinin yanında dəfn edilib.

Qədim türk mədəniyyətinin göstəriciləri yazılı daşlar, kitablar, yurtalar, məişət həyatı…

MƏTN: – Türk xalqlarının folkloru qəhrəmanlıq eposları ilə çox zəngindir. Qədim türklərin folklorunun müxtəlif janrları yazılı şəkildə hələ Kül-Təqin və Bilgə Xaqanın şərəfinə yazılmış bəngüdaşlarda əksini tapmışdır. Qırğızların məşhur “Manas” dastanı, azərbaycanlıların ᵘDədə Qorqud”u, bunun kimi başqa eposlar da yarandıqları vaxtdan çox-çox sonralar yazıya alınıb toplanmışdır. Orta Asiya türk xalqlarının “Alpamış” və Altayın “Alp-Manaş” dastanlarının bəzi süjetləri türk xaqanlığı dövrünü əhatə edir. 500 min misrası ilə “Manas” dastanı

nəzm şəklində dünyanın ən böyük eposlarından biri sayılır. Qırğızlarda dastan söyləyənlər "manasçı" adlanır. "Manas"ın məzmununu xalqın milli istiqlaliyyət uğrunda mübarizəsi təşkil edir. Dastanda deyilir ki, Manasın başçılıq etdiyi igidlər qırğızların Tyan-Şanda torpaqlarını düşmənlərdən geri alır.

Belə məşhur eposlardan biri də "Ər-Təştük" adlanır. Təştük dastan qəhrəmanının adıdır. O, igiddir, yeraltı dünyada müxtəlif hadisələrlə üzləşir.

Qazax qəhrəmanlıq eposlarından "Qarabək", "Koblandı" və başqa dastanlar tədqiqatçılara görə XII-XIII əsrlərdə yaranmışdır. Bu dastanların bir çox süjetləri digər türk xalqlarının dastanları ilə uzlaşır. Məsələn, qazaxların "Alpamış" dastanı özbəklərdə və qara-qalpaqlarda da vardır. Yaxud, "Koroğlu" eposu Azərbaycan, özbək, türkmən və qaraqalpaq şifahi xalq ədəbiyyatının da əsas nümunələrindəndir. Bu sözü qazaxların "Şora Batır" eposu haqqında da demək olar. Kökləri ilə "Oğuznamə"lərə bağlı olan "Dədə Qorqud" eposumuzun baş qəhrəmanı olan Qorqud haqqında qırğızlarda və qazaxlarda da müxtəlif xalq rəvayətləri vardır. Qazaxlarda "Xorxut" adı ilə bu obraz haqqında qazax tarixçisi Çokan Vəlixanovun əsərlərində danışılır.

Məlumdur ki, "Koroğlu" Azərbaycanda geniş yayılmış qəhrəmanlıq dastanıdır. "Qeroğlu" formasında bu dastan türkmənlərdə, özbəklərdə və hətta taciklərdə də vardır. Orta Asiya "Koroğlu"sunda deyilir ki, Koroğlu türkmən olmuşdur və onun türkmənlərin Yomud adlı tayfasından çıxması göstərilir. Türkmənlərdə bu eposun 40-a qədər boyu məlumdur.

XVI-XVII əsrlərdə türkmənlərdə "Şahsənəm və Qərib" dastanı yaranır. Məlumdur ki, azərbaycanlılarda bu epos "Aşıq Qərib" adı ilə məşhurdur.

Türk xalqlarının folkloru çoxlu janrlara malikdir. Müəyyən mənada demək olar ki, folklor bu türk xalqlarının həm də tarixi abidələridir. Eposlarında onların qədim tarixi, ayrı-ayrı dövrlərdə baş vermiş müxtəlif hadisələr öz əksini tapır. Hər bir xalqda folkloru yaşadan, nəsildən-nəslə ötürən sənətkarlar olmuşdur. Məsələn, azərbaycanlılarda qədimlərdə ozan, sonra aşıq olduğu kimi, qazaxlarda belə sənətkar "akın" adlanır. Məhz akınlar dastanı yadda saxlayıb xalq kütləsinə çatdırmaqla yanaşı, həm də bilavasitə yeni dastanlar yaradanlardır. Qədim türklərdə belə sənətkarlar "ozan" adlanırdı.

Türksoylu xalqların xalq sənətkarları – akınlar, ozanlar. Aşıqların dilindən bir oxuma, bobsley yığılır…

MƏTN: – Bir-birindən çox az fərqlənən bu xalq deyimləri, nağıllar, eposlar, onların oxşar süjetləri eyni soy-kökə, adət-ənənəyə malik türk xalqlarının çox qədim tarixi birliyindən, onların həyat tərzi birgə yaşayışından xəbər verir. Və sevindiricidir ki, bu tarixi yaşantılara bu gün zaman yeni naxışlarını, gələn nəsillər yeni söz, iş, əməl birliyini ərməğan etməkdədir.

ÜÇÜNCÜ FİLMİN SONU

2002-ci il

TÜRK DÜNYASI.
QİTƏDƏN – QİTƏYƏ

Dördüncü film

Kadrda üçüncü filmin proloqu. Təsvirlərin üstündə kadr arxasından mətn səslənir.

MƏTN: – Tarix yeni-yeni səhifələnməyə başlayırdı, zaman məcrasına düşürdü. İnsan öz varlığının, kimliyinin, ağlının, düşüncəsinin, idrakının ona diktə etdiyini daş kitabələrə, gil lövhələrə, sal qayalara həkk edir, gəlişindən xəbərdar edirdi dünyanı…

O zaman bu adlar beləcə bölünməmişdi, torpaqlar sərhədlənməmişdi. Dünyanın bu başından o başına köç edən qədim türklərin ulu əcdadları Yer üzünə sanki gələcək naminə insanlıq qarşısında çiyninə götürdüyü müqəddəs missiyası ilə gəlir, ayağı dəydiyi yerlərə bar, bərəkət gətirir, çadırını qurduğu məskən obaya, kəndə, şəhərə dönürdü.

Bu görüşümüzdə sizinlə birlikdə ulu əcdadlarımızın izlərini uzaq tarixlərdən arayacaq, dünya mədəniyyətinə bəxş etdiyi incilər, söz, sənət dünyasından günümüzə yetişən nümunələri ekrana gətirəcəyik.

Qədim tarixi görüntülər… Dəclə-Fərat iki çayarası sahilləri… Şumer mədəniyyəti ilə bağlı təsvirlər, heykəllər, yazılı gil lövhələr…

MƏTN: – Xalqın varlığını şərtləndirən mühüm amillərdən ən əsası dil məfhumudur. Həmin xalqa mənsub xüsusiyyətlər, maddi-mədəniyyət göstəriciləri, dünya tarixində tutduğu mövqedir. Özünəməxsusluğunu beş-altı min il müddətində mühafizə etmək, bu günədək az-çox qoruyub saxlaya bilmək baxımından qədim şumerlərlə müqayisəyə gələsi bir xalq çətin ki, tapıla.

Məşhur dünya alimlərinin, tarixçilərin, tədqiqatçıların fikirlərindən.

MƏTN: – Q. Vinkler yazırdı: "Bizə gəlib çatmış şumer mətnlərinin çoxunun dil xüsusiyyətlərini hələlik izah edə bilməsək də, dünyada ən qədim mədəni dil olan şumer dilinin ümumi xarakteri barədə kifayət qədər təsəvvür yaranıb. Bu dil əsas əlamətlərinə görə türk dillərinə uyğun iltisaqi dildir və semit dillərinin quruluşundan tamamilə fərqlənir".

D.Q.Reder yazırdı: "Şumer dili iltisaqi dillər ailəsinə daxildir və quruluşuna görə ən çox türk dilləri ilə müqayisə edilə bilər".

Yelize Reklü yazırdı: "Qədim yazıların şəhadətinə görə Babil sivilizasiyasını inkişaf etdirənlər Hind-Avropa dillərində danışıb, özlərini dil və məişətcə Avropanın həqiqi və yalançı ari xalqlarının qohumu sayan qəbilələr olmamışlar. Arilərin bütün sahələrdə tam üstünlüyünün təsiri altında olan assirioloqlar özlərinin bu kəşfindən xeyli heyrətə gəldilər. Onlar heyrət içində gördülər ki, ən qədim

oxşəkilli yazıların dilində İran və semit dillərinə xas olan cizgilər qətiyyən yoxdur. Əksinə, Turan və Ural-Altay dilləri ilə birbaşa qohumluq var. Bu ilkin yazılı işarələrin ifadə etdiyi dil iltisaqi dillər tipinə aiddir və öz xarakterinə, özünəməxsus daxili fleksiyasına görə tamamilə başqa bir dildir. Babilistanın digər müxtəlif sakinlərinin danışığına heç cür uyğun gəlmir".

F. Qommel Babilistanın Tanrı adlarından danışarkən yazırdı: "Əgər desək ki, bütünlüklə Tanrıların adları Babil mifologiyasından götürülüb, onda bu adlar demək olar, hamısı şumer əlamətlidir. Bunun üçün ilk növbədə bu cəhətə diqqət etmək gərəkdir ki, semitlər şumerlərin yazısını və dilini tanımış, qəbul etmişlər. İlk şumerlər göyü və yeri ulu ruh sayırdılar, onlarla qonşuluqda yaşayan və babilləşən qərbi semitlər isə günəşə sitayiş edirdilər".

Beləliklə, xatırlanan məşhur qədim dövr tədqiqatçılarının şumerlərin kimliyi, hansı müasir xalqların əcdadları olduğu barədə fikirləri əsasən bir nöqtəyə doğru yönəlir: şumerlər müasir türk xalqlarının əcdadları, ulu babalarıdır.

Akademik N.Y.Marr əsrimizin əvvəllərində "Orxon-Yenisey" kitabələrindən bəhs edərkən türk dillərinin inkişaf müqəddəratı ilə bağlı qarşıya çox mühüm problemlər qoymuşdu: "Türklərin tarixdə fəallığı VI əsrdən məlumdur və əgər çinlilər onları təxminən min il ondan qabaq tanıyırdısa… mütəxəssislər deyirdilərsə ki, "türk dilləri öz mühafizəkarlığı ilə fərqlənir (necə ki, VI əsrin kitabələri elə dialekt

qruplarından danışır ki, onlar elə indi də mövcuddur), onda belə çıxır ki, bu dil min üç yüz il ərzində pozulmadan dəyərincə mühafizə olunmuşdur. Bununla yanaşı, türk dilləri öz təbii mühafizəkarlığını təkcə bu min üç yüz ildə qoruyub saxlamamışdı; deməli çinlilər hələ o vaxtlar və xeyli əvvəl bunu xatırlamağı vacib saymışlar".

Alma-Ata yaxınlığında altun geyimli türk vəliəhdinin kurqan məzarından aşkarlanan "İssık" yazısı, həqiqətən yəqin etdi ki, türklərin miladdan öncəki V-IV əsrlərdə, yəni "Orxon-Yenisey" kitabələrindən min il əvvəl yüksək yazı və dil mədəniyyəti olub və söz yox bu yazı və dil mədəniyyətinin özü də həmin əsrlərdə birdən-birə yarana bilməzdi: bunun üçün dərin kök, güclü ənənə lazım idi. Yazıldığı 2479 il bundan əvvələ aid edilən "İber yazısı"nın qrafik üslubu açıq-aşkar "Orxon-Yenisey" və "İssık yazısı"nın qrafik üslubudur. Yazı işarələrinin, hərflərin yarıdan çoxu isə bir-birinin tam eynidir. Bu fakt qədim türk yazısının İssık yazısından da min il əvvəl mövcud olduğuna işarə edir ki, bu da həqiqətən miladdan öncəki II minilliyin ortaları və I minilliyin sonlarına gedib çıxır. Bütün bunlar son dövrlərin tapıntılarıdır və N.Y.Marrın Çin mənbələrinə əsaslanaraq dediklərini inkar deyil, təsdiq edir. Miladdan öncəki II və I minilliklərdə, nəinki türk dilləri və türk yazısı mövcud idi, habelə onun öz təbii mühafizəkarlığı, öz müstəqilliyini qoruyub saxlamaq keyfiyyəti belə çinlilərin diqqətini cəlb etmişdi. Bu isə həqiqətən təkcə son min üç yüz ilə aid deyildi, çox qədim

dövrlərdən keçib gəlirdi…

Bir sıra mötəbər tədqiqatlarda şumer-türk münasibətləri, onların qohumluğu, şumer-türk kökünün yaxınlığı, hətta bir kök olduğu barədə maraqlı fikirlər söylənilir.

Şumer dilinin Turani dillərə bənzədiyi artıq qəbul edilmişdir. Şumerlər haqqında ən yeni və mötəbər əsər nəşr etdirən Vulli şumerlərin morfoloji cəhətdən "əski türkcəyə bənzər" bir dildə danışdığını qəbul edir.

Şumer tarixini – əski türk tarixini öyrənən alimlər – türklər, Asiyanın dərinliklərinə düşüncəyədək müəyyən həyat yolu və müxtəlif mədəni inkişaf mərhələlərindən keçdiyini, nəhayət, burada cəmləndiyini və yurd saldığını yazırlar. Lakin bu yurd da sabit qalmamış, onlar Asiyaya da sığmamış, zaman-zaman qərbə tərəf hərəkət etmişlər…

Tarixin məntiqi təsdiq edir ki, bu hərəkətetmə, Asiyanın dərinliklərinə, yenidən qədim ata-baba torpağına qayıtma şumerlərdə iki çay arasından başlamışdı. Ulu babalar: "Harada su var, orada həyat var" – demişlər. Şumerlərin Dəclə-Fərat çayları arasından gəlib yenə iki çay – Yenisey, Orxon çaylarına sığınması, burada özlərinə təzə məskən salması təbii görünür. Bu yerlər əslində onlar üçün yad da deyildi… Torpağı, suyu tanrı sayan və ya Tanrı səviyyəsində dərk edən şumerlər Dəclə-Fərat çayları arasında yaratdığı mədəniyyəti Yenisey-Orxon vadilərinə "köçürmüş" və ya onu davam etdirmişlər. "Yenisey-Orxon" yazıları bu mədəniyyətin canlı şahidi sayıla bilər. Belədə

“Yenisey-Orxon” yazılarının tarixi indiyədək göstərildiyi kimi miladi tarixin IV-V əsrlərindən və hətta ondan da min il əvvəlki, məlum “İssık” yazısından deyil, miladdan öncəki tarixlərdən, daha dürüst desək, Dəclə-Fərat – iki çay arasında parlayan və parlayıb da sönən mədəniyyətin digər Yenisey-Orxon – yenə iki çay arasında parlayan tarixindən başlanır…

Arxeoloq Vullinin şumerdə dəfn yerində aşkarladığı metal qabla Yevtuxova və Kiselyovun Altay kurqanından tapdıqları üstü yazılı metal kasa, Akişevin Alatau yaxınlığındakı kurqandan üzə çıxardığı yazılı metal qab, onlarla, yüzlərlə belə tapıntılar arasındakı yaxınlıq, paralellər adi oxşarlıq, təsadüfi bənzətmələr deyil. Aralarında min kilometrlərlə məsafə, min illərin zaman ayrılığı olan bu insanların, xalqların adət-ənənəsi, dünyabaxışı, olumla ölümü arasında doğmadan-doğma bir yaxınlıq, eynilik, tarixi ardıcıllıq, xronologiya var. İstər Alatau yaxınlığındakı qəbirdən aşkarlanan, üzərində türk-run hərfləri ilə “Azman” və “Yiyə-ağa” sözləri yazılan gümüş qab, istərsə şumerlərə mənsub məzardan tapılan üstü yazılı oxşar cizgilərlə nəqşlənən camlar və ya bir qədər sonrakı tarixə aid edilən Alma-Ata yaxınlığındakı kurqandan tapılan gümüş qabdakı yazı və ya işarələr böyük bir məkandan, ya da böyük tarixi köçdən xəbər verir. Məzarların əksəriyyətində mərhumlar böyrü üstə uzadılmış, əlində metal qab, ətrafda gil əşyalar var. Və bu qabların heç də hamısı üstü yazılı deyil, forması və metalın növü qaba rəmzi məna verir.

Altay yazılı əşyalarının – qablarının biblioqrafiyası daha genişdir. Daş balbalların hamısı sanki bu əşyanın mərasim əhəmiyyətini gözə çapdırılmış kimi əllərində qab tutublar. Nizami Gəncəvinin yazdığına görə, köçəri türklər islamdan əvvəlki dövrlərdə əlində qab tutmuş balbala Allah kimi sitayiş edirmişlər.

Qəbirlərdəki metal əşyalarla balbalların əlindəki qabların qeyri-adi forma oxşarlığı əsasında L.R.Kızılasov belə qənaətə gəlmişdi ki, hər daş balbal bir öləni təmsil edir. Şumerdə də əlində bardaq tutmuş balbalların aşkarlanması şumer-türk paralellərinin qanuniliyini sübut edir. Həmin balbal Babil yazılı mənbələri sayəsində öz ilahi funksiyasını qoruyub saxlaya bilmişdir. Babillərdə bu dirilmə ilahəsi İştordur. Doğan Günəş, Tamuzun – Odun anasıdır. Əsatirə görə, İştor yeraltı dünyaya enir, Tamuzu tapıb dirildir. Şumer heroqlifi – günəşin qrafik təsviri heykəltəraşlıqda yarı əyilmiş cam şəklindədir. Ölən adamın baş tərəfində dirilik rəmzi olan dolu cam qoyulurdu. Hər sındırılmış cam ömürdən keçən ili göstərirdi. Əbədiyyətə qovuşan hökmdarın yaşı sayında qəbirə gil, yaxud taxta qab qoyulur və sındırılırdı. Metal, sınmayan qab isə dirilmə ideyasını əks etdirirdi. Ölmüş adam günəş – Tamuzla eyniləşdirilirdi. Əyri qab dirilməyə işarə idi. Qıpçaqlarda “Tamuz, tamuz, tamuzik” nəqəratı var. Hər bir el şeirinin mətnini yeri gəldi-gəlmədi bu nəqərat müşayiət edirdi. Bəlkə də bu Günəş tanrısı Tamuzun şərəfinə oxunan duanın qalığı, onun ən çox təkrarlanan hissəsidir. Qədim Ön Asiya dualarının izləri bəzi

müasir dillərdə də məhz xalq mahnılarının nəqəratı şəklində qalmaqdadır.

Hazırda elmi ədəbiyyatda çox-çox qədim və şumerdən əzəli olan Kür-Araz mədəniyyətindən söz açılır; Kür-Araz mədəniyyəti, onun daha qədimliyi, inkişafı, əhatə dairəsi barədə tədqiqatlar aparılır, fikir və mülahizələr söylənir. Azərbaycanın Kürlə Araz qoynuna sığınmış Qarabağında, bu ana torpağın dağlı-düzənli yerlərində miladdan öncəki çox qədim mədəniyyətin nişanələri olan çoxsaylı kurqanlar, "təpələr dünyası" məhz bu mədəniyyətin canlı yadigarlarıdır: Diridağ abidələri, Dağtumas mağarası, saysız-hesabsız kurqan-məzarlar…

Təbii şəraitcə bir-birinə bənzər, bir-birinin davamını əks etdirən bu üç qoşa çayarası mədəniyyət, onların arasındakı əlaqə, mənəvi yaxınlıq, bir-birini tamamlayan tellər, hadisələrin inkişafı, bu müqəddəs köç – ulu tariximizin qaranlıq səhifələri elm adamlarının, bu tarixə könül verənlərin yolunu gözləyir.

Hələliksə, məşhur şumer qəhrəmanı, tarixi şəxsiyyət olan, miladdan öncə 2800-2700-cü illərdə yaşamış Şumer şəhəri Urukun kahini və hərbi rəhbəri olmuş Bilqamısın adına bağlanan dastandan bir şeir parçasına nəzər yetirək:

O, hər sirri bilərdi, o hər şeyi görərdi,
Yeri su basmasından bizə xəbər verərdi.
Uzun yollar dolaşıb, yorulub əldən düşdü,
Başına gələnləri sal bir qayaya döydü,
Sonra hasara alıb adını Uruk qoydu.

Müqəddəs Eananın qalası oldu Uruk,
Divarlara nəzər sal, bürcləri düzüm-düzüm,
Bu cür səddə bərabər sədd görməz əsla gözün.
Keçmişin yadigarı, bu qədim divara bax,
İştarın mənzilinə – Eanaya gəl çıxaq.

Zəngin mədəniyyətə, dilə, ədəbiyyata, elmə və sənətə malik olan şumerlər semitlərə məğlub olandan sonra Babilistanda – Dəclə və Fərat çayları arasında qalmadılar. Bu yerlərdə özlərindən zəngin bir mədəniyyət, tarixi ad qoyaraq qədim ata-baba torpağına – "El-Obeyd"ə – yeni el-obalarına Orta-Asiyaya, yollarını gözləyən əbədiyyən türk yurdu olan Orxon-Yenisey ətrafına, Altay Sayana, Xəzər ətrafına üz tutdular. Zaman-zaman müxtəlif adlarla – iskit, massaget, sak, hunqunn, kaspi, buntürk, türk, xəzər, peçenek, qıpçaq və digər tayfa birlikləri, dövləti, dövlətçiliyi ilə tarixdə özünəməxsus iz qoyublar.

Xakas Naima Aysunun çıxışından fraqmentlər.

NAİMA AYSUN: – Tarixi səhifələyin, bu xalq qədər qədim, döyüşkən qalib bir qövm yoxdur dünyada, sevənləri də çox olub, düşmənləri də. Tarixini özü yazıb, qələbə zəfərini də özü çalıb. İnadcıllığı, emosionallığı, tələsik nəticə çıxarmağı uğursuzluqlara da çox düçar edib bu xalqı. Qardaş qırğınına da gediblər. Amma son qərar, son nəticə özünün olub, özü dəf edib çətinliklərini. Dünya türkün qazandığı, insanlığa bəxş etdiyi kəşflər üstündə duruş gətirib.

Maldarlığı, əkin-biçini qədim türklər, ulu əcdadlarımız bəxş edib bəşərə. Rus dilində hərbi terminlər, döyüş, savaş sözlərinin əksəriyyəti qədim türkcəmizdədir. Bəzən bizlərə köçəri deyirlər, bizi köçəri xalq çağırırlar. Amma ev qurmaq, yurd salmaq da türklərdən qalmadır. Dünya qədim türklərin mədəniyyətindən bəhrələnib, zaman-zaman bunu danan bədxahlarımız olmuşsa da, bu gün bu həqiqəti təsdiq edənlər daha çoxdur.

Kadrda Altay-Sayan dağları, Yenisey çayı ətrafı, əbədiyyət ömrü qazanan türk qövmü, qədim heykəllər, daş, qoç şəkilli abidələr, kitabələr, maddi-mənəvi mədəniyyət nümunələri. Ucqar kənd həyatı, məişəti, qədim türkün izlərini yaşadan məskənlər, yurdyerləri…

MƏTN: – Böyük türkün qədim yurd yerlərindən – Güney Sibirdən, Altaylardan başlanan Yenisey, Yenisu çayı sahilləri. Məşhur Yenisey kitabələri, qiymətli arxeoloji tapıntılar bu çayın sahili boyunca Abakan türklərinin məskun olduğu indiki Andronovo kəndindən tapılıb. Abakan həm də Yeniseyin qollarından birinin adıdır. Yeri gəlmişkən dilimizin şipşirin sözlərində ifadəsini tapan digər adları da xatırlayaq: Yeloquy, Turuxan, Tuba, Kan, Ankara, Aşağı Tunquska… Bu bölgədə yaşayan türklər uzun müddət "Abakan tatarları" kimi anılıb. Daha sonra ruslar onlara "Minusinsk" tatarları dedilər. Minusinsk Abakan şəhəri yaxınlığında çox sonralar salınan yaşayış məskəninin adıdır. Qədim türk tayfası olan Abakan tatarlarını təşkil edən boylardan

yaddaşlarda qalanları – Saqay, Katasin, Beltir, Şor, Qızıl Qaya, Aba Qızıl, Tuba-Köyərik və Xakaslardır…

Abakan türkləri ənənə və adət baxımından Altay türklərindən fərqlənir. Abakan qadınlarının geyimləri Anadolu qadınlarının geyimlərinə çox bənzəyir. Qız istəmə, toy-düyün, yas adətləri bizim Naxçıvan bölgəsinə xas olan ənənələrlə yaxındır.

Ən qədim inanclara söykənən dağı, daşı, ormanı öz dilində danışdıra bilən bu şaman duaları bu gün də təzə, tərdir. Əski inancı ilə ulu əcdadlarının yanar oddan, ağacdan, göy börü, ağ, boz qurddan törəndiyi inamındadır insanlar.

Çox qədim bir xakas əfsanəsində deyilir ki, yer üzünə gələn ilk insan hardan gəldiyini, nədən yarandığını düşünə-düşünə fikrə dalmışdı… Necə doğuldum, dünyaya necə gəldim? – əgər göydən düşsəydim, onda qarla, buzla örtülü olardım, buzdan adam olardım. Güney-qüzey, gündoğan, günbatan yerlərin birindən gəlsəydim, onda məndə o yerin ağaclarının, çaylarının izləri olardı. Yox əgər yerin ən dərin qatlarından gəlsəydim, onda tozun, palçığın içində olardım. İlk insan beləcə düşünə-düşünə qalmışdı. O axırda bu qərara gəldi: “Məni dünyaya gətirə bilsə yenə böyük ana Kübey Xatun doğmuş olardı. Çünki onun içərisində yaşadığı ağacın sinəsindən süd axır”. Bu fikirlə ilk insan həyat ağacının yanına gəldi və dedi: “Məni doğan ana sənsən, məni yaradan, meydana gətirən ana sənsən!” Ağac ilk insana, ilk insan da ağaca baxdı. Axırda insan bu ağacın öz anası olduğunu

başa düşdü. Bu əfsanə "Anam adın sorar olsa, Qaba ağac, atam adın sorar olsa, Kağan aslan" – deyən Dədə Qorqud boyları ilə də səsləşir.

Kadrda başı qarlı uca dağlar, axar çaylar, sular, Altayların vətəni, cızman ağaclar, yollar, izlər, qədim insan məskənləri…

MƏTN: – Altaylılara görə yer üzündə hər şeydən əvvəl Talay deyilən su yaranmışdır. Onun Qaran xüsusi Suyiyəsi adlı ruhu da var. Xakaslar su ruhuna Qaran deyirlər. Altaylıların fikrincə Tanrılar Xatun çayının mənsəbində yaşayırlar. Qıpçaqlar İrtışı, yeniseylilər Tom və Kama çaylarını müqəddəs hesab edirlər. Göllərdən ən uğurlusu İssık göldür. Qırğızlar hər il bu gölə qurbanlar verərdilər, İssık gölə çinlilər "isti dəniz", monqollar isə "dəmirli göl" deyirlər. Dağ zirvələrindəki göllərə isə Göy-Göl adı verilib. Bu göllər həmişə müqəddəs sayılıb. Müqəddəs suların ətrafında yaşayanların əksəriyyəti türk xalqları olublar – başqırdlar, tatarlar, kızıllar, azərbaycanlılar, qırğızlar, qazaxlar, cəmi türklər… Dünya durduqca əbədi olsunlar öz yurd-yuvalarında.

Bu əfsanələr, xalq deyimləri, rəvayətlər millətin mənsub olduğu mənəvi dəyərlər, onun tarixinin, iç dünyasının göstəricisidir.

Özbək xalqının nümayəndəsi, professor Əlixan Xocaverdibəyin çıxışı.

ƏLİXAN XOCAVERDİBƏY: – Qədim türk tarixini zaman-zaman oyanışlar, intibahlar dövrü müşayiət etmişdir. Türkiyənin "Anadolu mədəniyyəti", "Azərbaycanın XI əsr intibah dövrü", Orta Asiyanın "Xarəzmşahlar dövrü sivilizasiyası" və beləcə tarixin qızıl səhifələrinə düşən altun zamanlarımız olub.

Xarəzmşahlar dövrünün göstəriciləri, qədim tikililər, elm, incəsənət ocaqları, əski muzey əşyaları, el-oba, yurd yerləri...

MƏTN: – Aral gölünün cənubunu, Xivə ətraflarını və Amu-Dərya çayının şimal sahillərindəki ovalıqları əhatə edən bölgə Xarəzm adı ilə həmişə məşhur olub. Bura şərqdən qərbə və cənubdan şimala uzanan yolların qovşaq nöqtəsindədir. Onun üçün həm hərbi, həm ticarət baxımından mühüm bir bölgə, əkinçilik üçün bərəkətli torpaqlardır. Ta qədimlərdən bəri türklərin çox sıx yerləşdikləri Xarəzmin mərkəzi Urgənc şəhəri zaman-zaman, elm, mədəniyyət mərkəzi kimi tarixdə özünəməxsus ad qazanıb. Ölkəni idarə edən əmirlər, baş valilər burada otururdu. Başçıya Xarəzm şahı deyilirdi.

Böyük Səlcuq hökmdarı Sultan Məlikşahın tabeliyində olan Anuş Tiqin Xarəzm valisi kimi bu ölkəni 1128-ci ildən 1156-cı ilədək idarə etdi. Anuş Tiqin öldükdən sonra yerinə keçən oğlu Qazi Əlaəddin Atsız başda Sultan Səncər olmaqla torpaqlarının müstəqillik mübarizəsinə başladı və bu mübarizə o dünyasını dəyişənə qədər – 1156-cı ilə kimi davam etdi. Nəhayət, 1172-ci ildə

Xarəzmşah Əlaəddin Təkiş dövründə dövlət tam müstəqilliyinə qovuşdu və qısa vaxtda imperatorluq halına gəldi. Artıq Xarəzmşah dövləti Şərqi Türk Xaqanlığı olmuşdu. Əlaəddin Təkiş müsəlmanlığı qəbul etməyən qara kitayları məğlubiyyətə uğratmışdı. Daha sonra kanlıq və qıpçaq türklərini də tabeliyinə keçirdi. Qıpçaq şahzadəsi ilə evlənən Əlaəddin Təkiş gücünü daha da artırdı. Əlaəddin Təkişin zamanında xarəzmşahların – Şərqi Türk Xaqanlığının sərhədləri Aral gölündən Bağdad yaxınlarına qədər uzanırdı. Təkişin yerinə keçən Əlaəddin Mahmud dövlətin sərhədlərini daha da genişləndirdi.

1212-ci ildə Qara Kitay dövlətini tamamilə aradan qaldırdı. Daha sonra Kirman, Sicistan və Ümman dənizinə qədər olan geniş bölgələri – Təbəristanı, Arranı, o vədələrdə hətta Azərbaycanı da hakimiyyəti altına aldı.

Xarəzmşahlarda mədəniyyət, elm, sənət sahələri çox yüksək səviyyədə inkişaf etmişdi, danışıq dili türk dili idi. Elm və mədəniyyət baxımından başqa türk dövlətlərilə (səlcuqlar, qəznəlilər, qıpçaqlar) bağlı idilər.

Elm və sənət adamları bu türk ölkələrinə sərbəst gedib gəlirdilər. Məsələn, məşhur türk alimi İbn-Sina əvvəl Qəznədə olduğu halda, sonralar Xarəzmə köçmüşdü. Zəməxşəri, Fəxrəddin Razi, Şihabəddin Xivaki kimi məşhur elm adamları və şairlər də Xarəzmdə yaşayıblar. Xarəzm özünə dövrünün böyük mədəniyyət mərkəzi adı qazanmışdı. Gürgənc, Mərv, Nişapur kimi şəhərlərdə dünyanın ən böyük kitabxanaları yerləşirdi.

Türk dünyasının tarixi, mədəni birliyindən söz açan anadolulu Səlim Uslunun çıxışı.

SƏLİM USLU: – Türksoylu xalqların tarixi çox qədimdir. Vaxt vardı ki, onlar indiki kimi müxtəlif adlara bölünməmişdilər. Sonra sərhədlərə də bölündük. Amma kökümüz, adət-ənənəmiz bölünməzdi. Bu birlik daha çox mədəniyyətimizdə, xalq adət və ənənələrimizdə özünü göstərir. Qan yaddaşımızda, tarixi yaşantılarımızda bizdən əvvəlki nəsillərin qoruyub saxladığı bu gözəl ənənələri, qiymətli saxlancımızı biz də eləcə gələcək nəsillərə dəyərincə çatdırmalıyıq...

Avropada, ərəb ölkələrində türk izləri – mədəniyyət abidələri, məscidlər, kitabxanalar, muzey eksponatları, arxeoloqların aşkarladığı qədim yazılı əşyalar...

MƏTN: – Qədim türklərin, ulu babalarımızın ruhu qorunur bu abidələrdə. Tənhalaşan məzarlar, abidə daşlar, məscidlər, karvansaralar, bu gün heykəlləşən əzəmətli binalar, göylərə baş vuran minarələr sonralar bu yerlərdən dədə-baba yurdlarına qayıdan həmsoylarımızın izləridir dünyaya yayılıb. Qədim hunlar, Göytürk imperatorluğu, Xəzər, Böyük Səlcuq Xanədanı, Xarəzmşahlar, Teymur imperatorluğu, Səfəvilər, Baburlar, 700 illik Osmanlı hakimiyyətinin nişanələri bu gün bəşəriyyətin sənət, mədəniyyət inciləridir. Bu dövlətləri, hakimiyyətləri quranların başında Tanrının “böyük”, “əzəmətli” adını alan

məğrur əsgərləri, "yenilməz" sərkərdələri durublar. Qələbələrini, qalibiyyətlərini dünyaya beləcə – insanlığı heyran edən sənət inciləri ilə bəyan ediblər.

Bu gün Avropada, ərəb ölkələrində, Asiyanın az qala hər bucağında türklərin adı ilə bağlı saysız-hesabsız abidə tikililərə, müqəddəs yerlərdə vaxtilə dədə-babalarımız tərəfindən əsası qoyulan, inşa edilən kəndlərə, şəhərlərə, yaşayış yerlərinə rast gəlmək mümkündür. Qədim türkcəmizin dil xüsusiyyətləri, sözləri bir çox dillər üçün əsas baza rolunu oynayıb. Muzeylər, mədəniyyət mərkəzlərinin eksponatları türksoylu xalqların zaman-zaman yaratdıqları sənət inciləri ilə zənginləşib, gözoxşayan olub. Belə nadir sənət incilərindən bu görüşümüzdə sizlərə dünyanın sevgi, gözəllik mücəssəməsi olan Tac-Mahaldan söz açacağıq. Hələliksə bu qədim torpaqlara türk damğası vuran Hindistanda Türk-Məmlük dövlətini quran qıpçaq türkü Qütbəddin Aybəgin xatirəsini yad edirik.

Qıpçaq türkü İzzəddin Aybəgin 1250-ci ildə Misirdə bir Türk-Məmlük dövləti qurduğunu yazır tarix kitabları. Hindistanda Məmlük türk dövlətini quran sərkərdənin adı da Aybəg idi və o da qıpçaq türklərindəndir. Yaxşı bir idarə sistemi quran bu qüdrətli sultanı təəbəsi çox sevirdi. Aybəgin oğlu yox idi, üç qızı vardı. Kürəkənlərindən Şəmsəddin El-Tutmuş Badəvun şəhərində, ikinci kürəkəni Kabaçı Uç şəhərində, onun təyin etdiyi Kaynam isə Benqalda vali idilər. Aybəgin ölümündən sonra 1210-ci ildə kürəkəni El-Tutmuşla başlayan yeni xanədana "Şəmsiyə Xanədanı" deyirdilər. Dövləti,

hakimiyyəti daha da möhkəmlədən El-Tutmuşu Hindistan sultanı çağırırdılar. El-Tutmuşdan sonra Nəsirəddin Mahmud, onun ardınca hökmdar Balaban Hindistan Türk dövlətini ləyaqətlə idarə etdilər. Qüdrətli Balabanın ölümündən sonra nəvəsi Keyqubad şahın hakimiyyəti də uzun sürmədi. Qədim türk tayfalarından Xalac türkləri hakimiyyətə gəldilər, ardınca Tuğluqlar. Nəhayət, 1526-cı ildə Hindistan Türk dövləti quruldu.

Hindistanda türk sultanlığının əsasını qoyan Qütbəddin Aybəgdən başlamış sonrakı nəsillərin hər biri öz hökmdarlığı dövründə bu torpaqlarda elə sənət inciləri yaratmış, memarlıq əsərləri ucaltmışdılar ki, bunlar Hindistanda bu gün də türklərin silinməyən izləridir. Dünyanın ən böyük, ən möhtəşəm 73 metr yüksəklikdə yerləşən Qütbəddin minarəsi, Qiyasəddin Tuğluq tərəfindən Multanda ucaldılan çini, xəttatlıq və memarlıq sənətini özündə birləşdirən 1334-cü ildə vəfat edən Şeyx Sufi Rüknəddin Multaninin uyuduğu türbə və beləcə saysız-hesabsız sənət inciləri... Adları salnamələrdə, rəvayətlərdə yaşayan sirli, möcüzəli tikililəri ucaldan ustad sənətkarlar, hər biriniz bu ulu məmləkətin ən layiqli övladlarısınız.

Hindistanda Baburlar dövrünün memarlıq xarüqələri çoxdur və bunlar bu gün bütöv şəkildə mövcud olmaqda, görənləri heyran etməkdədir. Bu gün Hindistanın ən çox turist cəlb edən yerlərindən biri olan Lahor sarayı, həmin şəhərdə dünyanın ən geniş və yaraşıqlı padşah məscidi, Aqra, Dehli, Heydərabad və digər şəhərlərdəki saray və məscidlərin hər biri ayrı-ayrılıqda memarlıq sənətinin şah əsərləridir.

Ancaq yer üzündə heç bir türbə, heç bir memarlıq əsəri Tac-Mahal qədər gözəl, möhtəşəm və məşhur deyildir.

Cahan şahın arvadı Ərcümənd Banu gözəlliyi, zəkası, yaxşı əməlləri, xeyirxahlığı ilə bütün imperatorluğun könlünü fəth etmişdi. O, həm də Mümtaz Mahal kimi tanınırdı. Cahan şah ona hələ 16 yaşında ikən aşiq olmuş, evlənmək üçün 5 il gözləmişdi. Cahan şah çox sevdiyi arvadını getdiyi hər yerə aparır, onun fikirlərini, zövqünü əsas götürürdü.

Bu həssas, ağıllı və gözəl qadın 1631-ci ildə on dördüncü övladını dünyaya gətirərkən vəfat etdi. Cahan şah arvadının ölümünə yas saxladığı səkkiz gün ərzində yeməkdən, içməkdən qalmış, evdən eşiyə çıxmamışdı. Doqquzuncu gün mənzilindən bayıra çıxdığı zaman saçlarının ağappaq olduğu, xeyli qocaldığı göründü. Həqiqi aşiq, vəfalı hökmdar ölüncəyə qədər qəlbində yaşadacağı sevgili arvadı üçün bir türbə tikdirməyi qərara aldı. Bu türbə saf eşqi simvollaşdıracaq şəkildə gözəl, qəlb açan, eyni zamanda möhtəşəm olmalı idi. Bunun üçün dünyanın ən böyük ustalarını tapacaq, xəzinəsini bu əsərə xərcləməyi onların ixtiyarına verəcəkdi. Bu məqsədlə İstanbuldan memarlar gətirtdi. Gələnlər memar Sinanın tələbələrindən olan memar Məhmət İsa əfəndi və onun dəstəsi idi. Məhmət İsa əfəndinin aylarca çalışaraq planını cızdığı Tac-Mahalın tikintisində son dərəcə parlaq ağ mərmər işlədildi. Bu mərmərdən tikilən möhtəşəm qübbənin yerdən yüksəkliyi 82 metrdir. Qübbənin üzərindəki qızıl aypara bu yüksəkliyi daha da artırdı. Türbənin ağ

mərmərdən dörd minarəsi də var. Tac-Mahalın tikintisinə 1631-ci ildə başlanılmış və 1652-ci ildə başa çatdırılmışdı. Mümtaz Mahalın və öldükdən sonra onun yanında dəfn edilən Cahan şahın tabutları mavzoleyin üst qatındadır. Qübbənin altında olan bu tabutlarda mərmər oymaçılığın ən gözəl nümunələri əksini tapıb. Tabutların olduğu yerdə insanın dilindən çıxan hər kəlmə, səs möhtəşəm qübbədə yeddi dəfə əks-səda verir.

Sənət əsəri kimi ayrıca bir xəzinə olan Tac-Mahalın divarları həqiqi xəzinə qaş-daşları ilə örtülüdür. Yüz minlərcə əqiq, sədəf, firuzə bəzənmiş divarlarında 42 zümrüd, 142 yaqut, 625 brilyant, 50 dənədən artıq böyük inci yerləşdirilib. Planını İsmayıl əfəndi çəkmiş, divarlardakı şahanə yazıları xəttat Sərdar Əfəndi yazmışdır. Bir çox xarici ustalar, o cümlədən italyan memarları da orada çalışmışdır.

Böyük sevginin, təmiz eşqin şahanə simvolu olan Tac-Mahal gözəlliyi, əzəməti ilə yanaşı həm də yüksək mənəvi, əxlaqi, tərbiyəvi bir dəyər daşımaqda, türk ailəsinin sədaqət, ailə, birlik rəmzini dünyaya göstərməkdədir.

Tatar Nalan Aysiminin bu gün dünyanın sənət inciləri olan türk mədəniyyət əsərləri ilə bağlı çıxışı.

NALAN AYSİMİ: – Bu gün Rusiya ərazisində, eləcə də Avropanın, Asiyanın, Amerikanın türksoylu xalqlar yaşamadığı bölgələrində saysız-hesabsız mədəniyyət abidələrimiz, sənət incilərimiz başqa adlar altında tamaşaçılara təqdim olunur. Görkəmi, quruluşu, üzərindəki tarixi yazılar (düzdür, çox vaxt

bu yazılar qəsdən silinir) özü haqqında kifayət qədər məlumat verən bu tarixi abidələr hər birimiz tərəfindən aşkarlanıb, kimliyinə qaytarılmalıdır. Abidələr, yer-yurd adları barədə kitablar yazılmalı elmi məqalələr nəşr edilməli, ictimaiyyətin diqqəti onlara cəlb edilməlidir. Bu sıradan Tatarıstanda böyük işlər görülür. Məşhur Kazan Universitetinin nəzdində yaradılan elmi mərkəz bu gün Tatarıstan ərazisində, eləcə də qonşu Çuvaşıstan, Başqırdıstan torpaqlarında mövcud olan abidələrin qeydiyyatını aparır, onların yarandığı, tikildiyi zamanı aşkarlayıb, xüsusi siyahıya götürür...

Mətnə uyğun təsvirlər – Azərbaycanın adları çəkilən qalalar, şəhərlər, mədəniyyət abidələrindən görüntülər… Dərbənd Narın-qalası, Gilgilçay səddi, Çıraqqala və s.

MƏTN: – Babalarımızın "Tikdim ki, izim qala" yadigarları… Bir ucu Dərbənd divarları, Narınqala, Gilgilçay səddi ilə dünyaya, cahana işıq tutan Çıraqqalada tamamlanan nağılların, əfsanələrin, dastanların gerçəkləşdiyi şimal bölgəsi.

Bineyi qədimdən Başbarmaq qalalarına, Beşbarmaq dağlarına bizim tərəflərdə çox rast gəlinir. Birliyin, diriliyin timsalı olan bu zirehli qalaları babalarımız Tanrı dərgahına yetişənə qədər ucaldıblar. İstər Şirvan qalaları, istərsə Beşbarmağın Muğana, Milə uzanan qolları olsun, fərqi yoxdur, sanki hər biri bir ustanın, bir hörgünün, bir böyük millətin eyni düşüncə qaynağından, amalından boy verib, güneyli-qüzeyli böyük vətənin yenilməz əsgərinə çevrilib.

Nə bu daşlar adi daşdı, nə bu xarabazarlığa

çevrilmiş qəbiristanlıq adi məzarıstan… Yolu, rizi itmiş, əbədiyyət yuxusuna dalmış "ölülər şəhəri"nə çoxdandır kimsənin ayağı dəymir. O məzarlıqda yatanların "dirilik" şəhəri də elə onlar kimi zamanını, dövrünü sürüb, indi torpaq altda uyuyur. Qalan elə bu yarı çökmüş başdaşlarıdır. Sənduqə qəbirlər üzərindəki işləmələr, piktoqrafik yazılar, epitafiyalar sahibinin kimliyindən, zamanın gəldi-gedər, ömrün vəfasız olduğundan danışır…

Cavanşir, Koroğlu, Babək qalalarının bir ucu Vətənin quzey sərhədlərini, o biri ucu güneyini qoruyur…

İsmayıllının Cavanşir qalası. Bu qalaların ən cavanı, ən gəncidir. Şabranın məşhur su kəhrizlərindən günümüzə saxsı qırıntıları, bir də torpağı qazıdıqca bitib-tükənməyən, hər kəsi heyrətə gətirən böyük bir şəhərin tarixi görüntüləri, maddi dəlilləri çıxır.

Naxçıvan divarlarından danışan Övliya Çələbi Gədəbəyin Məhmət qalasını xatırlayır.

ÖVLİYA ÇƏLƏBİ: – 1162-ci ildə Əcəmi Əbubəkir tərəfindən Yusif Küseyirin adına tikilən məqbərə, Möminə Xatun türbəsi xalqımızın incə zövqündən, sənətindən, sənətkarlığından xəbər verir. Böyük memarın ardıcılları tərəfindən bina edilən məşhur "Qarabağlar", Culfa rayonunda qərarlaşan şərqin nadir sənət incilərindən sayılan "Gülüstan" məqbərəsi günümüzədək gözəlliyini itirməyib, bu gün də hər kəsi heyrətə salmaqdadır.

Bu gün düşmən əlində qalan, Qarabağın Qanzasar, Kəlbəcərin Xotavəng məbədləri Ağvan

mədəniyyətinin yadigarlarıdır. Tariximizin daha qədim göstəricilərindən sayılan Zaqatala atəşgahı, ətraf əhalinin üz tutduğu Xəngəldağ ibadətgahı zərdüştlüyün, atəşpərəstliyin nişanələridir.

Məşhur Abşeron qəsrlərinin 1188-ci ildə Şah Axsitan tərəfindən bina edildiyi nəql olunan daş yazılar Sankt-Peterburqun Ermitajında mühacir ömrünü yaşayır. Əzəmətli Abşeron tikililərinin sonrakı nəslinə mənsub I Xəlilullah tərəfindən bina edilən Bakı Şarvanşahlar sarayı bu gün də dünyanın ən nadir sənət incilərindən sayılır.

Nardaran ibadətgahının, Ramana qəsrinin 1224-cü illərdə bina edildiyini yazır tarix kitabları.

Diribaba türbəsi Şirvanşah I Axsitan sarayının müəzzini olmuş Dirili babanını adı ilə bağlıdır, onun əbədiyyətə qovuşduğu məkandır.

Qədim Təbrizin "Ala qapısı"na, Qazan xanın tikdirdiyi "Şam qapısı"nın bugünkü bəxtsiz taleyinə məşhur Ərk qalasının dağıntıları da əlavə olunmaqdadır. Cənubi Azərbaycan türklərinin birbaşa taleyi ilə bağlı Elxanilərdən Ərkəli şahın tikdirdiyi, zaman-zaman kitabxanası, varidatı talan edilən Ərk qalasının bu gün daş-divarının mövcudluğu, qorunması şübhə altındadır. Kərpic-kərpic dağıdılır nişanələri, məhv edilir. Qorumağımız, həyəcan təbili çalmağımız gərək.

Yazılı, şifahi mənbələrin məşhur mövzusu – sulara qərq olmuş şəhərin cavabsız məktubları – Səbayel daşları, sirli-sehrli İçərişəhər, dünyanın əbədiyyət yolçusu Qız qalası…

Ulu əcdadlarımızın, ata-baba əmanəti – qalalar, abidələr, milyon illərin saxlancı, qan yaddaşımız hər biri dövlətçiliyimizin, mədə-

niyyətimizin nişanələridir. Tarixdən-tarixə, zamandan-zamana, qitədən-qitəyə şəstlə addımlayan kimliyimizdir.

Tarixin uzaq qatlarından gələn səslərə qulaq versək, dəyərincə qiymətləndirsək, əsgərinə, qalasına çevrilsək, yurdumuza zaval gəlməz, nə Tanrı qıyar, nə də yadlar yaxınına düşə bilər.

Göylərə bülənd odun ətrafında əl-ələ yallı gedən insanlar. Təsvirlərin üzərində "Filmin sonu" sözləri yazılır.

SON

2002-ci il

TÜRKLƏR

Tarixi-etnoqrafik televiziya filmi

Birinci film

Xalq kəmiyyət deyil, keyfiyyətdir.
N.Berdyayev

Ucsuz-bucaqsız çöl At ilxıları. Qoyun sürüsü, yamyaşıl irmaqlar. Çay vadiləri. Qərbdən şərqə hərəkət edən yer kürəsi. Bir türk bahadırı at belində qərbə doğru çapır. Atlı bir dağın zirvəsində dayanır. Fırlanan çərxi-fələk. Çərxi-fələk fırlandıqca döyüş səhnələri, görkəmli türk oğullarının solmuş çöhrələri, daş kitabələr ötüb keçir və filmin ilk titri yazılır.

"TÜRKLƏR"

5 saniyədən sonra ilk titr ekrandan çıxır. İkinci titr onu əvəzləyir.

"DÜNYANI SİLKƏLƏYƏNLƏR"
(QƏDİM TÜRKLƏR)

Bir neçə saniyədən sonra titr yığılır. Kadr arxası mətn verilir.

MƏTN: – İnsan xəlq olub dünyaya gələndən üzü bəri nəsillər dəyişmiş, xanədanlar, imperiyalar, sərkərdələr bir-birini əvəz etmişdir. Dəyişməyən,

əbədi yaşayan, bir nəsildən digərinə ötürülən isə hər xalqın tarix salnaməsinə yazdığı zəfərlər, qələbələr, qoyub getdikləri maddi və mənəvi abidələrdir. Elə tarix səhnəsində duruş gətirən xalqların böyüklüyü də onun keçmişinə güzgü tutan bu abidələrdə yaşayır. Bəzən bir xalqın qədimliyini, ululuğunu sübut etmək üçün tarixi saxtalaşdırmaq cəhdləri də olmuş və bu günümüzdə də davam etməkdədir. Heç bir tarixi abidəsi, mənəvi dəyərləri olmayanlar onun-bunun tarixinə əl uzadır, faktları saxtalaşdırır, "özününkü" etməyə çalışır, gəlmə xalq olduğu halda, yerli xalqı gəlmə adlandırırlar. Belə ədalətsizliyə məruz qalan xalqlar arasında çox təəssüflər olsun ki, ayrı-ayrı türk boylarına da rast gəlinir. Amma tarix tarixliyində qalır, gec-tez hər şey öz yerini alır.

Kadr dəyişir. Filologiya elmləri doktoru, professor, əməkdar elm xadimi Nizami Xudiyevin çıxışı efirə verilir.

NİZAMİ XUDİYEV: – Bəşər tarixində xalqların Böyük köçü dünyanın kəşfi, insanlığın intibahı ilə şərtlənirdi. Etnik mənşəyi, dili, mədəniyyəti bəşəriyyətin, insanlığın yarandığı tarixə qədər gedib çıxan türklər də Sakit okean sahillərindən Atlantik okeanına qədər geniş bir ərazidə saysız-hesabsız maddi və mənəvi dəyərlər yaratmış, dünyanın beş qitəsində türk adını, türk soyunu əbədi yaşatmışlar. Sizlərə təqdim etdiyimiz "Türklər" filmini bütövlükdə türk xalqlarının tarixinə bir baxış kimi də qəbul etmək olar. Məqsədimiz ən qədim dövrlərdən üzü bəri yol

gələn, tarixdə 100-dən artıq dövlət quran, 15 imperiya yaradan, on minlərcə tarixi, mənəvi dəyərlərin müəllifi olan türkdilli xalqların mənşəyi, həyat tərzi, yazılı abidələri barədə geniş tamaşaçı kütləsinə məlumat verməkdir.

Türklərin savaş meydanındakı igidliyindən, əsirə, qula mehribançılığından, dövlət, dövlətçilik səriştəsindən müxtəlif dövrlərin təzkirəçiləri böyük heyranlıqla söz açıblar. Orta əsr təzkirəçisi İbn Haldunun yazdıqları bu mənada böyük maraq doğurur: "Bütün qövmlərin içərisində şücaət, cəsarət baxımından türklərdən üstün, böyük məqsədlərə çatmaq üçün onlardan daha dəyanətli bir qövm yoxdur. Cənab Haqq onları Aslan sifətində yaratdı".

1206-cı ildə farsca yazılan "Tarixi-Mübarək şah" əsərində türklərin hörmət və şərəfi haqqında belə deyilir: "Yad bir ölkəyə gedən qəribi fəna aqibət gözləyir. Bunun əksinə, türklər müsəlman bir ölkəyə gedərkən orada hörmət və təqdir görürlər. Əmir və ordu başçısı olurlar. Həzrət Adəmdən bu günə qədər pulla satın alınan qulun Sultan olması heç bir yerdə görünməmişdir. Türklər müstəsnadır".

Bəşəriyyət qədim türklərin oynadığı cahanşümul rolu qəbul etsə də, bu tarix mükəmməl şəkildə yazılmayıb. Mənbəşünaslıq, onomastik, etnonimik, toponimik çətinliklərlə yanaşı son vaxtlar bir çox başqa süni əngəllər də meydana çıxır. Bir sözlə, bu gün də türk sözü, türk varlığı Avropanı heyrətə gətirməkdədir. Kim idi qədim türklər? Hansı coğrafi məkanın sakinləri idi bu comərd insanlar?!

Bir çox tarixi mənbələrdə, yazılı daş kitabələrdə türklərin miladdan öncə 2500-2000-ci illər arasında mərkəzi Asiyada, Sayan-Altay dağlarının şimali-qərb bölgəsində, Yenisey çayı boyunca yaşadıqları qeyd olunur. Daha sonralar onların məskənləri Sayan dağlarından Altaylara və Tanrı dağlarına qədər uzanır, qərbdə Urala çatır, cənubda Balxaş gölünü, Xəzər dənizini, şimali-şərq çöllərini əhatə edən böyük bir coğrafi məkana çevrilir. Son tədqiqatlar türklərin yayıldığı coğrafi ərazilərin daha geniş olduğunu deməyə imkan verir. Bu ərazilər Mesapotamiyadan Mərkəzi Amerikaya qədər uzanır. Buradakı hindu qəbilələri ilə Sibir-Altay türklərinin mənşəyində, adət-ənənələrindəki paralellər Böyük köçlərdən xəbər verir. Şumer və türk dillərindəki yaxınlıq da bu iki xalqın qohumluğunu sübut edən amillərdəndir.

M.ö. 1100-cü ildən türklər Altaylara yenmiş, Şərqi, Qərbi Türküstanda məskunlaşmışdılar. Eradan 8 əsr əvvəl isə Ordos, İtil və Şimali-qərbi Asiya olmaq üzrə üç istiqamətdə köç etmişlər. Elə bu vaxtlar da Saxa türkləri Şimali-qərbi Sibirə gəldilər. Onlarla bir müddət birlikdə yaşayan çuvaşlar isə Ural dağlarının cənubuna köçdülər.

M.ö. 4 və 3-cü yüzillikdə türklərin həm qərbdə, həm də şərqdə sayları artdı. İrtış çayının qərbində, Xəzər çevrəsində yaşayanlara qərbi türklər, şərqdə, Mərkəzi Asiyanın münbit ərazilərində, Şimali-qərbi Çində yaşayanlara isə şərqi türklər deyildi.

Güc, qüvvə, qoşun, ordu mənası verən türk

sözü türk soyundan olan toplumların ümumi adı kimi işlənirdi. Qədim uyğur mətnlərində "türk" sözü bəzən "ərklər-türklər" mənasında başa düşülür, isim anlamında "güc-qüvvət", sifət anlamında isə "güclü-qüvvətli" mənasını verir. Mənbələr "türk" sözünün uyğurlar və göytürklərdən çox öncə işlədildiyini göstərir. Mahmud Kaşğari "Divanü-lüğət-it-türk" əsərində yazır: "Allah demişdir ki, mənim bir ordum vardır, onlara türk adını verdim və şərqdə yerləşdirdim. Hər hansı bir qövmə qəzəblənsəm, onda bu türkləri onların üzərinə göndərərəm". M.Kaşğari həmin əsərində peyğəmbərin söylədiyi: "Türk dilini mütləq öyrənin. Zira mülk və səltənət uzun zaman onların əlində olacaqdır" hədisinin şərhini belə verir: "Bu hədis əgər səhih isə, ona inanmaq və türkcəni öyrənmək vacibdir. Əgər səhih deyilsə, ağıl və məntiq türk dilinin mütləq öyrənilməsini tələb edir".

"Türk" kəlməsi türk xalqlarının, türk dövlətlərinin rəsmi adı kimi ilk dəfə 552-582-ci illərdə Göytürk imperatorluğunda işlədilmiş, sonradan digər türklərə də şamil edilmişdir. Bəs belə geniş coğrafi əraziyə sahib olan, özünəməxsus abidələr yaradan, bir-birləri ilə ortaq ünsiyyət vasitəsi kimi qədim türk dilini yaradan tayfaların bir yerdən başqa yerə köçməsinə səbəb nə idi?

Kadr dəyişir. Mərkəzi Asiyanın, Şimali Çinin düzənlik ərazilərindən görüntülər ekrana gəlir. Kadrları ney musiqisi müşayiət edir.

MƏTN: – Coşqun ruha, çevik ağıla malik olan türklər daima hərəkət etməyi, yeni-yeni torpaqlar ələ keçirməyi az qala özlərinin həyat tərzinə çevirmişlər. Əhalinin sayının artması, ilkin yurdlarındakı otlaqların getdikcə darısqallaşması, bəzən bir neçə il dalbadal quraqlığın vurduğu ziyanlar da bir yerdən başqa yerə köçmənin səbəblərindən idi. Bəzən türklər də çöllərdə dolaşan yabançı tayfaların hücumuna məruz qalaraq öz yurdlarını tərk etməyə məcbur olurdular. Azadlıq sevən türk tayfaları əsarətdə yaşamaqdansa, digər yerlərə üz tutmağa üstünlük verirdilər.

M.ö. III minillikdə türklərin yaşadığı ərazilər Avrasiyanın çox geniş sahələrini əhatə edirdi. Bu yerlərdə yaşayanlar ayrı-ayrı tayfa ittifaqları halında meydana çıxan türklər idi. İlk böyük türk imperatorluğunu quran hunların isə Orxon-Selança çayları ilə bu çayların qərbindəki, Ötükən və daha aşağıda qalan Ordos ətrafında məskunlaşdıqlarını bilirik. Bu bölgələr müasir Monqolustan və Çinin şimalını əhatə edir. Miladdan əvvəlki 25 əsr ərzində davam edən yayılmalar miladdan sonra da dayanmadı. Qədim türklər sevə-sevə yaratdıqları dövlətlərin sərhədlərini şərqdə Sakit okeana, qərbdə Avropanın mərkəzinə, şimalda Sibir buzlaqlarına, cənubda Hindistanın içərilərinə çatdırdılar. Bu yayılmanın miladdan sonrakı tarixi də təqribən bu qaydada olmuşdur.

Mətni oxunduqca monitorda həmin tarixləri qaçan sətirlərlə göstərmək olar.

– Eramızın ikinci yüz ilində hunlar Orxon bölgəsində Güney Qazaxıstan çöllərinə və Türküstana.

– 350-ci illərdə Ağ hunlar Əfqanıstan və Şimali Hindistana.

– IV əsrin son rübündə Avropaya.

– 461-465-ci illərdə oğuzlar Cənub-qərbi Sibirdən Cənubi Rusiyaya, sabarlar isə Aralın şimalından Qafqazlara.

– VI yüz illiyin ortalarında avarlar Orta Asiyadan Mərkəzi Avropaya.

– VII əsrdən etibarən bulqarlar Qara dənizin şimalından Balkanlara və Volqa çayı sahillərinə.

– IX əsrin birinci rübündən etibarən madyarlar və bəzi türk boyları Qafqazın şimalından Mərkəzi Avropaya.

– 840-cı ildən sonra uyğurlar Orxon bölgəsindən Mərkəzi Asiyaya.

– X və XI əsrlərdə peçenq, kuman və oğuzların bir qolu olan uzlar Şərqi Avropaya və Balkanlara.

– X əsrdə oğuzlar Orxon bölgəsindən Ceyhun çayı sahillərinə, XI əsrdə isə İran və Avropaya köçdülər.

Kadr dəyişir. Professor N.Xudiyevin çıxışı.

NİZAMİ XUDİYEV: – Çoxəsrlik köçmələr, yerdəyişmələr çoxsaylı türk tayfalarının dilinə də öz təsirini göstərmişdi. Türk dillərinin kök dildən ayrılıb parçalanması eradan əvvəl IV və III minilliyin əvvəllərində baş verir.

Dil prosesləri ictimai mahiyyətinə görə etnik proseslərlə sıx bağlıdır. Çünki onu eyni etnosun "yaradıcılıq" təcrübəsi müəyyən edir. Ümumtürk dilinin yaranması, inkişafı prosesi bir neçə mərhələdən keçir:

– Ən qədim zamanlardan m.ö. V əsrə qədərki dövrü əhatə edən qədim türk dili;

– M.ö. V əsrdən XI-XII əsrlərə qədərki dövrün əski türk dili;

– XI-XII əsrlərdən XVI-XVII əsrlərə qədərki türkü;

– XVI-XVII əsrlərdən bu günə qədərki dövrün milli türk ədəbi dilləri.

Qədim türk dili barədə təsəvvürümüz natamamdır. Onun əsas nümunələri şifahi formadadır, yazılı nümunələrinə demək olar ki, təsadüf olunmur, yaxud da sonrakı dövrlərdə yazıya alındığı üçün müəyyən dərəcədə dəyişməyə məruz qalmışdır. Əski türk dili isə müəyyən qədər zəngin yazılı mənbələrdə təmsil olunur.

Türk dilinin ən qədim zamanlardan mövcud olduğu geniş ərazidə qeyri-türk mənşəli müxtəlif etnoslar da yaşamışlar. Heç şübhəsiz, ayrı-ayrı türk etnik-mədəni regionlarının formalaşmasında həmin ərazilərin etnolinqvistik əlaqə özünəməxsusluqları müəyyən rol oynamışdır.

Azərbaycan türklərinin tarixi mövqeyini müəyyənləşdirən məsələlər içərisində ən mübahisəlisi şumer-türk etnolinqvistik əlaqələri məsələsidir. Son dövrlərin davamlı tədqiqatları Şumer mədəniyyətinin təşəkkülündə türk etnoslarının iştirakını sübut etməkdədir. Tarixçilərin yekdil rəyinə görə Şumer qəbilələri eramızdan qabaq təxminən VII-VI minilliklərdə Orta Asiya, Altay ətrafında Elam və Kiçik Asiya yolu ilə ardı-arası kəsilməyən axınlarla gəlib Dəclə-Fərat hövzəsində məskən salmışlar. Çex alimi V.

Qroznı yazır: “Şumer dili saitlərin ahəngdarlığı baxımından müəyyən qədər Altay, türk-tatar xüsusiyyətlərinə, digər tərəfdən isə hind-Avropa cizgilərinə malikdir”.

Dimitri Rederə görə isə Şumer dili öz quruluşu ilə ən çox türk dilləri ilə müqayisə edilə bilər.

Türk dilləri ilə qədim Ön Asiyanın yazılı mənbələri, Şumer dili arasında mövcud olan çoxsaylı paralelizm əyani surətdə göstərir ki, türk tipli dil sisteminin tərkib hissəsi – Azərbaycan dilinin qədim layları eramızın ilk əsrlərinə deyil, azı üç-dörd min il bundan əvvəllərə aiddir. Azərbaycan türkcəsi ilə Şumer dilindəki yaxınlığı nəzərdən keçirək.

Şumercə	**Azərbaycan dilində**
uzun –	uzun, uzaq
ud –	günəş
dinqir –	Allah, göy, Tanrı
uş –	uç
en –	(ali, yüksək) ən
izi –	(od, atəş) isti
U-ma –	(arzu, istək) -ummaq
Ka –	(qapı) -qapı
qum –	(qum, çınqıl, xırdalamaq, əzmək) -qum
pu –	(bulaq, çeşmə) – bulaq

Müqayisədən protürk etnoslarının Şumer dövründə Ön Asiyada yaşaması faktı ortaya çıxmış olur. Çox təəssüf ki, tarixin ən qədim

qatlarında fəaliyyət göstərən türk dövlətlərinin adları günümüzə qədər gəlib çatmamışdır.

Amma nə yaxşı ki, tarixi mənbələr m.ö. VII yüzilliyin türk dövləti, onun yenilməz başçısı haqda məlumatı qoruyub saxlaya bilib.

Kadr dəyişir. Ucsuz-bucaqsız türk çöllərindən görüntülər ekrana gəlir. Bu görüntüləri üz-üzə dayanmış ordular əvəz edir. Sonra ekrana iki sətirlik bir yazı gəlir

İnsan qəlbi ətdir, çürür, məhv olub gedər,
Ey insan, onu yaxşı-yaxşı qoruyub saxla.
Alp Ər Tunqa

Bir neçə saniyədən sonra yazı ekrandan çıxır.

MƏTN: – Alp Ər Tunqanın m.ö. VII yüzillikdə yaşamış çox sevilən, qəhrəman bir türk hökmdarı olduğu bir çox mənbələrdən məlumdur. Bu mənbələrdə o, türk bəyləri içində adı və igidliyi ilə tanınmış məlumatlı, əxlaqlı, böyük elləri idarə etməyi bacaran, bir çox dövlətə hökm edən… xaqan kimi göstərilir.

Bu Alp hökmdarın tabeçiliyində olan dövlətin Saka türk imperatorluğu olduğunu söyləyən tarixçilərin sayı getdikcə artmaqdadır. İranlılar peçeneq turanlıların hökmdarı Alp Ər Tunqaya Əfrasiyab da deyirdilər. Əfrasiyabın Alp Ər Tunqa olduğunu həm “Kutatqu-bilik”də, həm də “Divanü-lüğət-it-türk”də bildirirlər. Əfrasiyab qədim farslarda pislik, şər Allahlarına verilmiş bir ad idi. Qədim farslar türk bahadırı Alp Ər Tunqadan çox qorxduqları üçün ona bu adı

vermişdilər.

Firdovsi öz "Şahnamə"sində onu belə təsvir edir: "Bu türk bəyləri içərisində adı bəlli, kökü bəlli Alp Ər Tunqa böyük ədəb-ərkanlı bir hökmdardır. Çox məlumatlı, məziyyətli bir böyükdür. Taciklər (əslində farsdilli xalqlar) ona Əfrasiyab deyirlər. Bu Əfrasiyab mərdi-mərdana döyüşlərlə, yazdığı məktublarla ölkələr fəth edir".

Alp Ər Tunqanın öyüd-nəsihətli bir hökmdar olduğunu yenə "Kutatqu-bilik"dəki misralar çox yaxşı anladır: "Tunqa Alp Ər Xaqan nə deyir eşit. Bax gör, o bu öyüdü bilib söyləmiş. İnsanın qəlbi ət kimidir, çürüyər, məhv olub gedər. Ey insan, sən onu yaxşı qoruyub saxla".

Göytürklər, uyğurlar, qarluqlar, qaraxanlılar, səlcuqar və başqaları Alp Ər Tunqanı özlərinə ata olaraq qəbul etmiş və onun soyundan olmaqları ilə öyünmüşlər.

Alp Ər Tunqanın uzun ömrü iranlılarla müharibədə keçmişdir. Bu çarpışmalar qaynaqlardan süzülüb gələn Alp Ər Tunqa haqda olan dastanda da öz əksini tapmışdır.

… O zamanlar Turan ilə İran bir-birinə qonşu və düşmən olan iki dövlət idi. İran taxtında Məniçöhr, Turan taxtında isə Alp Ər Tunqanın atası Peşenq Xaqan oturmuşdu.

Məniçöhr öldükdən sonra Xaqan Peşenq oğlu Alp Ər Tunqaya belə dedi: "Bu iranlıların bizə etmədiyi pislik yoxdur. İndi türkün öc almaq zamanı gəlmişdir!"

Gənc, qüvvətli Alp Ər Tunqa da bunu istəyirdi: "Aslanlarla belə çarpışacaq qədər gücüm var və İrandan öc alacağam" – dedi.

Peşenqin o biri oğlu Alp Aruz iranlılarla müharibə tərafdarı deyildi. Amma hökm verilmişdi.

Mənbələrə görə Alp Ər Tunqa aslan ürəkli, sərv boylu idi. Hücumda timsah qədər cəsur, ov ovlarkən erkək aslan kimi çevik, vuruşmada savaş fili qədər qüvvətli idi. Yüyürdüyü zaman yeri titrədir, dalbadal atdığı oxlar vıyıldayaraq göyü inlədirdi. Dostlarına ümid verən, güc verən dili düşmənləri üçün kəskin bir qılınc idi. Bilikdə də ondan üstünü yox idi. Ürəyi dərya qədər geniş, əli isə yağmur yağdıran bulud qədər comərddir.

Alp Ər Tunqanın övladları çox idi. Qızlarından birinə gözəl olduğu üçün Qaz adını vermişdilər. Atası ona İlə suyuna axan böyük bir çayın kənarında bir qəsr tikdirmişdi. Daha sonra şahzadənin yaşadığı bu əraziyə "Qaz oynı" adı verdi ki, bu da bugünkü Qəzvin şəhəridir.

Alp Ər Tunqa ordusu ilə İran üzərinə yeridi. İki ordu Dehistan bölgəsində üz-üzə gəldilər. Türk ordusunda Barman adlı bir igid atını irəli sürərək təkbətək döyüşmək üçün iranlılardan ər dilədi. Onun qarşısına düşmən sərkərdəsinin qardaşı Qubad çıxdı. İki savaşçı axşama kimi vuruşdular. Sonda Barman nizə ilə Qubadı vurub yerə saldı və zəfərlə geriyə döndü.

Bu döyüşdə türk ordusu qalib gəldi. İranlılar Dehistan qalasına çəkildilər. Lakin qala divarları onları məğlubiyyətdən qoruya bilmədi. Alp Ər Tunqa İran şahını əsir aldı.

… Beləliklə, Turanın İran üzərindəki ilk qələbəsi təmin edildi. Amma bu müharibələrin sonu görünmürdü. Qələbə gah bu, gah da digər tərəfin əlinə keçirdi. Sonda hiyləgər düşmən

özünün sınanmış taktikasına əl atdı.

Alp Ər Tunqanın mərdliyinə, igidliyinə, sözündən dönməzliyinə bələd olan İran hökmdarı Keyxosrov onu ziyafətə çağırdı. Bu dəvəti qəbul etməməyi öz mənliyinə sığışdırmayan Alp Ər Tunqa getdi və zəhərlənərək öldürüldü. Türk ellərini matəm bürüdü. Ozanlar onun ölümü şərəfinə dastanlar, ağılar qoşdular.

Kadr dəyişir. "Yuğ" teatrının aktrisası Mehriban Zəkinin ifasında Alp Ər Tunqaya həsr olunmuş ağıdan bir hissə verilir.

AĞININ MƏTNİ: – Alp Ər Tunqa öldümü,
Yaman dünya qaldımı,
Fələk öcünü aldımı?!
İndi ürək dağlanır!

Zaman fürsət gözlədi.
Gizli silah uzatdı.
Bəylər bəyin şaşırtdı
Qaçsa necə qurtular.

Ərlər qurt kimi ulaşır,
Yaxa yırtıb bağrışır
Yarlayıcı kimi inildər, inlər
Ağlamaqdan gözü örtülür.

Bəylər atlarını yordu,
Qayğı onları durdurdu.
Bənizləri, üzləri saraldı,
Sanki satran dürtülür.

İfa başa çatır. Kadr dəyişir. Professor N.Xudiyevin çıxışı.

NİZAMİ XUDİYEV: – İlk böyük türk imperatorluğunu, dünyanı lərzəyə salan cahan dövlətini hun türkləri yaratdılar. Bundan əvvəl də güclü türk dövlətləri vardı. “Alp Ər Tunqa”, “Şu”, “Oğuz xan” kimi qədim türk eposları hunlaraqədərki türk dövlətlərinin taleyindən xəbər verir.

Böyük Hun imperatorluğunun m.ö. 220-209-cu illər arasında hökmdarlıq etmiş ilk hökmdarı Touman (Teoman) ayrı-ayrı türk tayfalarını öz hakimiyyəti altında birləşdirdi. Məmləkətin dincliyi üçün sərhədlərini genişləndirdi, qonşu Çin dövlətinin bir çox əraziləri də hunların tabeliyinə keçdi. Məhz hun axınlarının qarşısını almağa çalışan çinlilər bu gün Çin səddi kimi tanınan qala divarları o zamandan çəkməyə başladılar.

Touman hökmdarlığının sonlarına doğru çox sevdiyi arvadlarından birinin təsiri altına düşməyə başladı. Bu qadın Toumanın böyük oğlu Mətənin yerinə öz oğlunu taxta çıxarmağa çalışırdı. Bu isə qəbul olunmuş adət-ənənələrə zidd idi. “Tanhu da olsa, bu Tanhu atam da olsa, türkün adətini dəyişdirə bilməz” deyən Mətə ilə atasının arası dəydi. Tanhu hun dilində “ucalıq, ululuq” olub, bugünkü imperator sözünü əvəz edirdi. Tanhu müəyyən dövrlərdə “yabqu” şəklində işlənərək sonralar “Kağan”, “Xaqan” şəklinə düşdü.

Tarixdə 15 imperiya, 37 dövlət, 33 bəylik, 3 atabəylik, 20 xanlıq qurmuş türklərin ilk imperiyası Asiya Hun imperatorluğu oldu.

Kadr dəyişir. Ekrana geniş çöllükdən görüntülər gəlir. Sonra ordular, nizami atlı dəstələri ötür. Mətənin şəkli ikili təsvirlərin üzərindən boylanır.

MƏTN: – "Madam ki mən xaqanınız oldum, ordularımızın qarğıları dəmirdən bir meşə, göy üzü çadırımız, günəş isə bayrağımız olacaqdır". Bu sözlər m.ö. 209-cu ildə dövlətin bütövlüyü naminə atasını öldürən Mətə xaqana aiddir. Onun hökmdar olduğu 35 il ərzində türklər saysız-hesabsız qələbələr qazandılar. Türk adı, türk bayrağı dünyanı lərzəyə saldı.

Mətə taxta çıxar-çıxmaz yeni qaydalar qoydu. Ondan torpaq istəyən monqol, tunquz birliyini məğlub etdi. Bundan sonra bütün istiqamətlərdə ərazilərini genişləndirdi, Mərkəzi Asiyada irili-xırdalı 26 dövləti özünə tabe etdirdi. Çin səddi də onu dayandıra bilmədi. Dəfələrlə bu səddi keçərək yürüşlər təşkil etdi.

M.ö. 174-cü ildə öldüyü zaman dövlətin mərkəzi Orta Asiya, paytaxtı Ötükən idi. Hüdudları şimalda Sibirə, cənubda Himalay dağlarına, şərqdə Sakit okeana, qərbdə Xəzər dənizi və Ural dağlarına qədər uzanırdı. Mətədən sonra 14 il hökmdarlıq edən oğlu Kiok, 36 il hakimiyyətdə qalan nəvəsi Kun xaqan zamanında da bu ərazilər qorunub saxlanıldı. Lakin onların heç biri Mətə kimi məşhur deyildilər.

Çin qaynaqları Mətədən söz açarkən türk deyimi ilə ona "Tanrı kutu" deyirlər. "Tanrı kut" Tanrının yer üzündə siyasi iqtidar verdiyi adamdır.

Kun xaqanın dövründə imperiyanın mövqeyi zəifləməyə başladı. Buna səbəb onun

bir Çin şahzadəsi ilə evlənməsi oldu. Bu izdivacdan istifadə edən çinlilər ona qılıqlanaraq türk torpaqlarına girib, türklərin döyüş taktikasını öyrəndilər. Hun vəliəhdləri arasında nifaq salan çinlilər türklərə vergi verməkdən də boyun qaçırırdılar. Bu isə dövlətin iqtisadiyyatını olmazın dərəcədə zəiflədirdi.

M.ö. 58-ci ildə Hoxanyəh xaqan oldu. Anası çinlı olan Hoxanyəh dayılarından yardım, diləməklə kifayətlənməyib onların himayəsini də istədi. İmperiya fəlakət qarşısında idi. Bunu anlayan və anası türk olan Çiçi Hoxanyəhə qarşı çıxdı. Bu hadisə hunları ikiyə böldü. Çiçi tərəfdarlarını toplayaraq dövlətin mərkəzini ələ keçirdi, özünü xaqan elan etdi. Hoxanyəh isə Çinin şimal-qərb hüdudlarına çəkildi.

Beləliklə, Böyük Hun imperatorluğu ikiyə bölünmüş oldu.

Çiçi xaqan dövlətini gücləndirmək üçün onun hüdudlarını qərbə uzatmağa çalışdı. Tanrı dağlarının şimali ilə İssık-Göl dolaylarında vursunları məğlub etdi. Farbaqatay bölgəsindəki oğuzları, daha yuxarıdakı qırğızları və İrtış boyundakı tinqminqləri özünə birləşdirdi. İki il içində Qərb hunlarını təkrar imperiya halına gətirdi. Qonşuluqda yenidən güclü bir imperiyanın yarandığını görən çinlilər 70 min ordu ilə hərəkətə gələrək başqa dövlətin ordularını da bu hücuma cəlb etdilər. Ağır döyüşlərdən sonra İpək yolu üzərində yerləşən 50-yə yaxın türk şəhəri düşmən əlinə keçdi. Daxili və xarici çəkişmələr, nəhayət ki, Şərqi Hun dövlətini yıxmış oldu.

* * *

Kadr dəyişir. Professor N.Xudiyevin çıxışı.

NİZAMİ XUDİYEV: – Dövrünün ən böyük, ən güclü imperatorluğunu quran, 100 illərcə hökm sürən hun türklərinin inkişaf etmiş yüksək mədəniyyəti, özlərinə məxsus adət-ənənələri, sənətləri, sözlü-yazılı ədəbiyyatları var idi. Hun sənətkarlarının yaratdıqları maddi mədəniyyət nümunələri dünyanın bir çox muzeylərində qorunub saxlanılmaqdadır. Hunlara aid ən dəyərli abidələr bu gün Rusiyanın sərhədləri içərisində qalan Şərqi Altayda, Balıqgöl yaxınlığındakı Paziriq vadisində tapılmışdır.

Hunların Göytürk yazısının başlanğıcı saya biləcək yazıları olduğu barədə mənbələr dolayısı ilə məlumat verir. Təəssüf ki, bu yazı mətnləri hələlik əlimizdə yoxdur.

Mətənin m.ö. II yüzillikdə Çin xaqanına məktublar yazdığı şifahi, yazılı qaynaqlardan bəlli olur. Bu gün Çin qaynaqlarında m.ö. 119-cu ildə türkcədən tərcümə edilmiş bir ağı, yaxud türkü dördlüyü vardır ki, bu "altun geyimli adamın" məzarından çıxan iki sətirlik yazıdan sonra türk ədəbiyyatının ən qədim nümunəsi sayıla bilər. Hunlar bu bayatını yəqin ki, itirdikləri torpaq ağrılarından sonra söyləmişdilər. Ağının Çin dilindən tərcüməsində belə deyilir:

Yen-çi-şan dağını itirdik,
Qadınlarımızın gözəlliyini aldılar
Silan-şan yaylalarını itirdik,
Heyvanlarımızın otlağını aldılar.

* * *

Kadr dəyişir.

MƏTN: – Eramızın IV yüzilliyinin ortalarından başlayaraq Qərbi Hun imperatorluğu getdikcə güclənməyə başladı və yüksək zirvəsinə – Atilla zamanına çatdı. Qərblilər Atillanın onları cəzalandırmaq üçün Tanrı tərəfindən göndərildiyinə inanır, ona "Tanrının qamçısı" deyirdilər. 434-cü ildə hakimiyyətə gələn Atilla hələ xaqan olacaq yaşda deyildi. Ona görə də ona əmisi Rua himayədarlıq edirdi. Əmisi öləndə Atillanın 39-40 yaşı vardı. İmperiyasının sərhədlərində təftiş aparan Atilla möhkəm nizam-intizam yaratdı. Onun sarayında danışıq dili türk dili idi. Türk dilini başa düşməyənlərlə tərcüməçilər vasitəsi ilə söhbət aparılırdı. Sarayda 45 xalqın nümayəndələri birləşmişdi. Bütün Avropanı əsarətdə saxlayan şanlı türk oğlu Atilla 452-ci ildə Ro ovalığına gəldi və o zamankı Roma paytaxtı Revennaya doğru irəlilədi. Bütün Roma səltənətinə, xristian dünyasına bir vəlvələ düşdü. Yeganə çıxış yolu Papa I Leonun Atillanın yanına göndərilməsi idi. Papa nümayəndə heyəti ilə xahişə gəldi. Atilla onu qərargahda qarşıladı, Papanın yalvarışını qəbul etdi. Roma şəhərini işğal etmədi, dağıtmadı, yandırmadı.

Beləliklə, Atilla həm qərbin, həm də şərqin imperatoru oldu.

Qot tarixçisi Enordan Atillanı belə təsvir edir: "Atillanın adı hər kəsi qorxuya salırmış. Çünki ən kiçik yamanlıqdan dəhşətli hirslənir, həmin vaxtda döyüşə təhrik edirdi. Beləcə

istədiyi bir çox şeyləri savaşsız da ala bilirdi. Diktator olmaqla bərabər, sadə idi. Mədəniyyətə də böyük dəyər verirdi. İşğal etdiyi şəhərlərdə mədəniyyət əsərlərinə toxunmazdı. Sadəliyi də sevirdi. Qonaqlarına qızıl, gümüş qablarda yemək qoyduğu halda, özü taxta qablarda yeyərdi. Geyimi də bəsit, fəqət təmizdi. Qızıl kəməri özündən əvvəlkilər kimi möcüzələrlə süslənmiş deyildi.

* * *

Kadr dəyişir. Professor N.Xudiyevin çıxışı.

NİZAMİ XUDİYEV: – 453-cü ildə Atilla vəfat etdi. Onun ölümü bir çox xalqların tarixində öz əksini tapıb. Qot dilində mühafizə olunmuş bir ağıda deyilir: "Hunların ən böyük hökmdarı, Muncunun oğlu cəsur tayfaların hökmdarı Atilla özündən qabaq heç görünməmiş bir qüvvə ilə Skitiya və Germaniya kimi böyük ölkələrə sahib oldu. O, həmin ölkələrin bir çox şəhərlərini zəbt edib Romanı qorxutdu. Başqa yerlər də onun pəncəsinə düşməsin deyə Roma Atillanı xahişlərlə, hər il verdiyi vergilər sayəsində sakitləşdirə bildi. Bütün bunları etdikdən sonra düşmənlərin zərbələri altında, yaxud öz adamlarının xəyanəti ilə deyil, taleyin xüsusi bir yardımı ilə öldü. Düyün nəşələri içərisində, qüvvələrinə heç bir xələl gəlməyən xalqı arasında, ən azacıq acı belə duymadan öldü".

M.Kaşğarinin "Divan"ında da bir münasibətlə bir ağı var. Hun dilində olan ağı belə səslənir:

Mətn:	**Tərcümə:**
İrdi aşın tatrdan	Yeməyini daddıran
Yavlaq yağıq katarqan	Yağı düşməni qovan idi,
Boynun tutub kadırqan	Boynun tutub qıran idi,
Basti ölüm ortarı	Ölüm basıb, yerə saldı.
Erdi aşın tatrdan	Yeməyini daddıran idi,
Yavlaq yağıq qasurqan	Yağı düşməni qovan idi.
Oqrak Süsin qaytarqan	Qoşun qabağında duran idi,
Bastı ölüm aqtarı	Ölüm basıb yerə saldı.

Göründüyü kimi, bu dilin ədəbi səviyyəsi çox yüksəkdir. V əsrdən xəbər verən bu ədəbi nümunələr Hun imperatorluğu zamanında türk dilinin püxtələşmiş ədəbi dil səviyyəsinə yüksəldiyini sübut edir.

Böyük Hun imperatorluğundan sonra ikinci nəhəng türk imperatorluğunu Göytürklər qurdular. Türk millətinin adı da dövlətin adına o vaxtdan yazıldı.

Kadr dəyişir. Qədim tarix xəritəsi. Ucsuz-bucaqsız çöl bu xəritənin üzərinə salınır.

MƏTN: – Böyük Asiya imperatorluğunun dağılmasından sonra Altay dağlarının şərq ətəklərində yerləşən 500 ailəlik bir qrup burada hökm sürən juan-juanlara sığınmışdı. Onlar dəmirçiliklə məşğul olur, silah düzəldirdilər. Juan-juanlarla bağlı olmaqla bərabər, öz aralarında tam birlik vardı və bura gələn türk qəbilələri ilə qarışaraq çoxaldılar, gücləndilər.

Göytürklərin başçısı Bumin Xaqan artıq özünü müstəqil hesab edirdi. 552-ci ildə juan-juanları məğlub edən Bumin özünü El Xaqan elan etdi. Beləcə xaqanlığını, yəni Göytürk dövlətini qurmuş oldu. Hun imperatorluğunun paytaxtı Ötkükən də mərkəz oldu.

553-cü ildə imperatorluq taxtında Buminin oğlu Mukan oturdu.

Mənbələrə görə Mukan Xaqan heybətli, zəkalı, sərt, gözləri çox parlaq və təsiredici bir insan idi. İlk yürüşlərini Çinə doğru başlayaraq, xeyli irəlilədi. Əmisi İstəmi Xaqan da çox güclü idi. Altayların qərbini, İssık-Göl və Tanrı dağlarına qədər olan bölgəni tezliklə ələ keçirdi, iç Asiya karvan yoluna hakim oldu. Bizansı Sasanilərin üzərinə qaldıra bildi.

571-ci ildə Sasani-Bizans savaşından istifadə edərək Xarəzm başda olmaqla 10-na qədər bölgəni ələ keçirdi və orduları Azərbaycana girdi.

Mukanın ölümündən sonra qardaşı Tapo xaqan oldu. Torpaqlarının çox geniş olduğundan onu iki hissəyə böldü. Bu səhv bir hərəkət idi. Daha böyük səhv isə onun buddistləri himayə etməsi və Buddaya heykəllər qoydurması idi. Qərb xaqanı İstəminin yerinə Fardu keçdi. Lakin o, şərq xaqanlığını istəyirdi. Beləcə taxt qovğası başladı. Şərq xaqanlığına tabe olmadığını elan etdi. Beləliklə, Böyük Göytürk imperatorluğu ikiyə bölünmüş oldu.

630-cu il həm Şərqi, həm Qərbi Xaqanlığın sonu oldu. Göytürklər tam 50 il çox ağır vəziyyətdə Çin hakimiyyəti altında yaşamalı oldular.

639-cu ildə Gürşad adlı bir türk igidi 39 dostu ilə birlikdə üsyan qaldırsa da məğlub oldular. Bir neçə üsyan da yatırıldı. Amma artıq azadlıq məşəli alovlanmışdı. Aşina soyundan olan Kutluq 680-ci ildə Şimali Çində bir təşkilat yaratdı. Tezliklə 5 min igidi öz ətrafında birləşdirdi. Qobi Çölü ilə Orxon çayı arasındakı əraziləri nəzarət altına aldı. Digər türk boylarını da birləşdirərək Ötükəni yenidən paytaxt etdi.

Kutluq Eltəriş adı ilə xaqan elan olundu, Tonyukuq isə vəzir oldu.

692-ci ildə Eltəriş Xaqan oldu. Öldüyü zaman böyük oğlu Bilgə 8, kiçik oğlu Kül Təqin 7 yaşında idilər.

Artıq Göytüruk imperatorluğunun sərhədləri Böyük okeana çıxmışdı.

Jnal Böğünün pis idarəçiliyindən qəzəblənən xalq Bilgə və Gül Təkini hakimiyyətə gətirdilər. Bilgə qardaşı Gül Təkinin israrı ilə Xaqan oldu.

Ağıllı siyasət nəticəsində bütün türk boyları mərkəzi hakimiyyətə tabe edildi. İmperatorluğun sərhədləri şərqdə Sarı dənizə, qərbdə Xəzər dənizinə və Krımın qərbinə, şimalda Sibirin yuxarılarına, güneydə Kəşmirə qədər uzandı.

Çin qaynaqlarının məlumatına görə, 725-ci ildə Çin sarayında Göytürklərlə bağlı bir toplantı keçirildi. Çin imperatoru Nyantsunqqın rəqibləri barədə belə məlumat verdi: “Bu göytürklərin nə zaman nə edəcəkləri bilinməz…”

Bilgə Xaqan yaxşı bir hökmdardır. O, türkləri, türklər də onu çox sevir. Qardaşı Kül Təqin hərb sənətinin böyük ustasıdır və ona qarşı çıxacaq qüvvə çətin ki, tapılar. Baş vəzirləri

Tonyukuq isə çox ağıllıdır, sözü ötkün, niyyətləri, biliyi isə çoxdur. İndi bu üç tam fikir birliyi, anlayış birliyi içində birləşmişlər…

Adları və gördükləri işlər kitabələrə yazılacaq, gələcək nəsillərə tanılacaq üç türk böyüyü həyatda ikən ölkələrində dirilik, rahatlıq heç pozulmadı.

Ulu baş vəzir Tonyukuq tam 46 il türk millətinə qulluq etdi. Sonralar qərb tarixçiləri ona "Türklərin Bismarkı" deyəcəklər. Bu böyük zəka sahibinin ölümü 731-ci ildən əvvələ qeyd edilir. Onun şərəfinə Orxonun şərqində tikilən daş kitabə türk ədəbiyyatının ən qədim, uzun mətnlərindən biridir.

731-ci ildə göytürklər daha bir faciə yaşamalı oldular. 47 yaşlı Kül Təqin də öldü. Onun şərəfinə ucaldılan kitabədə Bilgə Xaqanın dilindən belə deyilir: "İnsan oğlu ölmək üçün yaradılmışdır, amma onun ölümü bizi o qədər üzdü, o qədər ağlatdı ki, gözümüzdən yaş, könlümüzdən fəryad qopdu, yanıb yaxıldıq. Görür gözüm görməz oldu, bilər ağlım bilməz oldu. Ağlamaqdan millətimizin gözü qapanacaq deyə qorxdum…"

Kül Təqin haqda Bilgə Xaqanın sözlərini onun ağzından kitabəyə yazan oğlu vəliəhd Yoolıq Fəqindir. Bu kitabə türk xitabət sənətinin əvəzsiz örnəklərindən biridir.

Qardaşının ölümündən sonra Bilgə Xaqan çox yaşamadı. Vaxtilə nazir vəzifəsindən uzaqlaşdırdığı Buyruq çor tərəfindən zəhərlənərək öldürüldü. Öldüyü vaxt 50 yaşında idi. Bu hadisə 734-cü ildə oldu. Bilgə Xaqanın ölümündən sonra tez-tez hakimiyyət dəyişiklikləri baş verdi. Daxili

çəkişmələr imperiyanı parçalamağa doğru apardı. 745-ci ildə hakimiyyətə uyğur başçısı Kutluq Bilgə Kül gətirildi. Göytürk dövlətinin yerinə Uyğur dövləti təşəkkül tapmağa başladı. Kadr dəyişir.

Professor N. Xudiyevin çıxışı.

NİZAMİ XUDİYEV: – Mərkəzi Asiyada miladdan çox-çox qabaqlar türklərin yazıya malik olması barədə çoxlu fikir ayrılıqları dolaşırdı. Bütün bu mübahisələrə 1970-ci ildə Alma-Atanın 50 kilometrliyindəki Esik qəsəbəsində açılan kurqandan tapılan bir yazı son qoydu. Məzar açıldı, oradan 4800 ədəd qızıl əşya tapıldı. Əşyaların arasında arxeoloqun gözləri qəfildən bir gümüş tabağa sataşdı. Bu tabağın üzərində yazı vardı. 26 hərfdən ibarət iki sətirlik yazı Orxon əlifbalı runik yazı idi. Yəni fırça ilə yazılan Çin yazısı deyildi. Polad qələmlə ağaca, daşa həkk olunan türk yazısında deyilirdi: "Xanın oğlu 23 yaşında öldü. Esik xalqının başı sağ olsun!"

Beləliklə, bu iki sətirlik yazı Orxon yazısının tarixini ən azı 2500 il əvvələ çəkdi.

Təəssüflər olsun ki, hələlik əlimizdə qədim türk yazısının digər nümunələri yoxdur. Ona görə də türk dilinin məziyyətlərindən söhbət açarkən ən çox Orxon abidələri üzərində dayanmaq lazım gəlir.

Göytürk bəngüdaşları 12 ədəddir. Bunların ən məşhurları baş vəzir Tonyukuk, Kül Təqin və Bilgə xaqan üçün tikilmiş abidələrdir. Digər bəngüdaşdakı yazılar bizə ölən türk boyunun kimliyini, vəzifəsini, öyüdlərini çatdırır.

Bəngüdaşların aşkar olduğu yerdə son dərəcə dəyərli, çox sayda heykəl, şəhər xarabaları, daş yollar, su kanalları, qoç, tısbağa heykəlləri də tapılmışdır. Şübhəsiz qədim türk əlifbası bir neçə min il davam edən mürəkkəb təkamül yolu keçmişdir. Sevindirici haldır ki, bu əlifbanın təşəkkül tapdığı ilk damğa işarələrə, hərf formalarına, yazılara ölkəmizin ərazisində də rast gəlinir.

Beləliklə, deyə bilərik ki, Azərbaycandan çox-çox uzaqlarda mövcud olan qədim türk yazıları eyni zamanda dolayısı ilə Azərbaycan türklərinin də dil təfəkkürünün materialıdır.

Tonyukuk abidəsindən bir nümunə ilə bugünkü türkcəmizi müqayisə edək: "Bilgə Tonyukuk bən. Özüm Tabqaç ilində kalindim. Türk budun Tabqaçka görür erti. Türk budun kanın bulmayan Tabqaçda adrildi, kanlandı".

Nümunə bu gün dilimizdə belə səslənir: "Mən Bilgə Tonyukukam. Çin ölkəsində dünyaya gəldim. Türk xalqı Çində dustaq idi. Türk xalqı xanını tapmayınca Çindən ayrıldı, xan sahibi oldu".

M.ö. IV-III minilliklərdən eramızın VII-VIII əsrlərinə qədər türk tayfaları, türk birlikləri, nəhayət, türk dövlətləri Sakit okeandan Atlantik okeanına qədər ərazilərdə çoxsaylı dövlətlər, birliklər, maddi, mənəvi dəyərlər yaratmış, bəşəriyyətin inkişaf tarixinə misilsiz töhfələr bəxş etmiş, onlarla yazılı abidələr qoyub getmişlər.

Qədim türklərdən bəhs edən bu filmi də Oğuz xanın sözləri ilə tamamlayırıq.

Kadr dəyişir. Qədim türk abidələri, Orxon yazıları ekrana gəlir.

MƏTN: – Türk milləti! Bəylər! Sözümü eşidin!

Türk millətini toplayıb el-obanın vəsfini bu daşa yazdım. Millət yenə, səhv edərsə, öləcəyini də bu daşla həkk elədim. Hər nə sözüm varsa, yazdım. Ona baxaraq bilin, indiki Türk bəyləri!

Türklərim, cəmi bəylərim, cəmi millətim!

Qazanıb el tutduğum bu yerdən, xaqanından ayrılmasan, yaxşılıq görəcəksən. Evində oturacaq, dərdsiz olacaqsan. Sözlərimdə yanlış varmı? Ey Türk! Titrə və özünə dön!

Mətn başa çatır. Filmin yekun titrləri qaçan sətirlərə abidələrin üstündə verilir.

BİRİNCİ FİLMİN SONU

2003-cü il

TÜRKLƏR

İkinci film

İgidin dəyəri qorxulu zamanda,
Suyun dəyəri dərinliyində.
Uyğur atalar sözü.

Daş kitabələr, heykəllər, müxtəlif fiqurlar ekranda bir-birini əvəz edir. Orta Sibir yaylası. Yenisey çayı. Bu kadrların üstündə ikili təsvirlə filmin ilk titri yazılır.

"TÜRKLƏR"

3-5 *saniyədən sonra ikinci titr ekrana gəlir.*

"TANRI DAĞLARINDAN ALTAYLARA DOĞRU"

Bir neçə saniyədən sonra ikinci titr də ekrandan çıxır. Professor Nizami Xudiyevin çıxışı.

NİZAMİ XUDİYEV: – M.ö. IV minillikdən üzü bəri olan tarix türk tarixinin, türk yazı dilinin, türk dastanlarının çiçəkləndiyi bir dövr idi. Şumer yazılı dili ilə Azərbaycan türkcəsindəki oxşarlıq, eynilik, Esik kurqanından tapılan iki sətirlik runik yazı, eramızın V-VIII əsrlərə aid edilən Orxon-Yenisey, Talas yazılı abidələri sübut etdi ki, qədim türklər nəinki döyüşməyi, eyni zamanda yüksək maddi, mənəvi abidələr, ədəbi yazı nümunələri yaratmağı bacaran bir xalq olmuşdur.

Avrasiya çöllərindəki kurqanlarından tapılan qızıl və gümüşdən hazırlanan 100 minlərlə bəzək əşyaları, silah nümunələri qədim türklərin həm də oturaq həyat tərzi keçirdiyindən xəbər verir.

Göytürk imperiyasının sərhədləri şərqdə Sakit okeana qədər uzanır, Çinin şimal-qərbini, Mancuriyanı əhatə edirdi. Şimalda isə Orta Sibir ərazilərinə, İtil çayından Xəzər dənizinin aşağı ətraflarına qədər çatırdı. Qədim İpək yolu üzərindəki vacib şəhərlər də göytürklərin əlində idi.

Lakin göytürklər artıq tarix səhnəsində öz rolunu oynamışdılar. Dünyanın siyasi üfüqlərində yeni bir ulduz parlamaqda idi. Bu sonralar tarix səhnəsində 100 il hökmranlıq edəcək Uyğur türk dövləti idi.

Kim idi uyğurlar?!

Kadr dəyişir. Qədim uyğur çölləri. Uyğur dövlətinin ərazisini əks etdirən xəritə.

MƏTN: – Tarixin daş yaddaşında, saysız-hesabsız maddi və mənəvi abidələrdə, şifahi və yazılı ədəbiyyatda dərin izlər buraxmış türk dövlətlərindən biri də Uyğur xaqanlığıdır.

Uyğurlar hun türklərinin “töləs” qolundan gəlir. “Uyğur” sözünün mənası müttəfiq, uyuşan deməkdir. Doqquz uruqdan, doqquz qoldan meydana gələn uyğur türkləri birləşib bir bəylik qurdular. Sonra oğuzlardan doqquz uruq-doqquz oğuz da onlara qatılmış, “on uyğur” adını almışlar.

Uyğur bəyliyi V əsrin II yarısında Selenqa

çayı ətrafında qurulmuşdu.

İlk uyğur bəyləri "Erkin" adı daşıyırdı. "Erkin" sözü müstəqil olmaq mənasını verirdi. Uyğur erkinləri I Göy-türk xaqanlığı zamanında xaqanatın tabeçiliyində idi.

630-cu ildə I Göytürk xaqanlığının süqutundan sonra Uyğur bəyliyi gücləndi və qismən müstəqil oldu. Uyğur bəylərinə "El-təbər" deyə müraciət edirdilər.

Uyğur "El-təbər"ləri Çinin bir hissəsini işğal etdi. Çin uyğurlarının müstəqilliyini tanıdı. Dövlətin başçısı 646-cı ildə özünü xaqan elan etdi. Lakin II Göytürk imperatorluğu qurulan kimi onların tabeliyinə keçməyə məcbur oldu.

745-ci ildə II Göytürk imperiyası çökdü və onun yerində bir əsr yaşayan Uyğur xaqanlığı təşəkkül tapdı.

İlk Uyğur xaqan Kutluk Bilgə Kül idi. Orxon sahilindəki paytaxt Ordu-Balıq şəhərini o tikmişdi. İlk xaqan elə 745-ci ildə öldü və yerinə oğlu Moyən-Çor keçdi.

Moyən-Çor tezliklə qırğızlar, türkeşlər, bastinlər, çiklər və digər türk boylarını mərkəzi hakimiyyətdə birləşdirdi, oğullarını bu boylar üzərinə başçı qoydu.

Beləcə güclənən, sərhədlərini genişləndirən Moyən-Çor üzünü Çinə tutdu.

751-ci ildə Talasda Qarluq türkləri tərəfindən müdafiə edilən Xilafət qüvvələri ilə Çin arasında böyük bir savaş oldu. Ağır məğlubiyyətə uğrayan Çin Orta Asiyadan çəkildi və həmin ərazilər də uyğurların əlinə keçdi.

Talas məğlubiyyətindən sonra Çində

mərkəzi hakimiyyət devrildi. Uyğurlardan kömək diləyən devrilmiş Çin imperatoru bu xidmətin əvəzində hər il uyğurlara 20 min ton ipək verməyə məcbur oldu.

Görkəmli sərkərdə Moyən-Çor 759-cu ildə vəfat etdi. Hakimiyyətə oğlu Alp Külüq Bögü xaqan keçdi. Bögü xaqan Çinin ticarətini nəzarət altına aldı.

762-ci ildə tibetlilər Çinə soxuldular. Nüfuz dairəsini itirməmək üçün xaqan tibetliləri darmadağın etdi. Paytaxt Ötükənə qayıdan xaqan özü ilə yeni bir din də gətirdi və türklər arasında yaymağı qərarlaşdırdı.

Mani dini xristianlıq, məzdəkilik və buddizm qarışmasından meydana gəlmiş bir din idi. Manihenizm adlandırılan bu din heyvan əti yeməyi yasaq edir, millətin döyüşkən ruhunu sarsıdırdı. Buna görə də uyğurların həyat tərzinə uyğun gəlmirdi. Bu dini yaymaq üçün Bögü xaqan dörd min rahibi Ötükənə gətirmişdi.

779-cu ildən 833-ü ilə kimi ölkədə sakitlik, firavanlıq hökm sürürdü. 833-cü ildə xaqan Alp Külüq Bögü sui-qəsd nəticəsində öldürüldü. Yeni dinin əleyhdarları tez-tez üsyanlar qaldırırdılar. Bu qarışıqlıqdan istifadə edən qırğız türkləri 840-cı ildə hakimiyyəti ələ keçirdilər.

Uyğurların bir hissəsi iç Asiyadakı zəngin ticarət mərkəzlərinə köç etdilər. Beləliklə, uyğur tarixinin ikinci dövrü başladı.

Onlar Çinin qonşu əyalətinə gələrək burada müstəqil dövlət qurdular. Tezliklə bu ərazidə müsəlman dini təşəkkül tapdı.

Bu ərazidə islamı ilk qəbul edən qarluqlar

bu dini uyğurlara da qəbul etdirdilər. Beləliklə, Şərqi Türküstan Uyğur dövləti 1209-cu ildə Çingiz xana bağlandı, lakin nüfuzunu qoruyub-saxladı.

Uyğurlar Asiyanın şərq və qərbindəki mədəniyyətin inkişafına güclü təsir etdilər.

Kadr dəyişir. Nizami Xudiyevin çıxışı.

NİZAMİ XUDİYEV: – Uyğur türkləri biz nəsillərə çox dəyərli əsərlər qoyub getmişlər. Elm, sənət, dövlət idarəçiliyi baxımından bütün Asiyaya təsir etmiş, ərəblərə, avropalılara bir çox sahədə örnək olmuşlar.

Uyğur türkləri Altay dil qrupunun "xaqaniyə" ləhcəsində danışırdılar. Qədim türk ədəbiyyatının ən dəyərli əsərləri olan "Divani-lüğət-it-türk", "Qudatqu-bilik", "Atibə-ül-Həqayiq" kimi qızıl kitablar türkcənin bu ləhcəsində yazılmışdır.

Uyğurlar bir müddət orxon əlifbasını işlətdikdən sonra mani dininin təsiri ilə soqda əlifbasına keçmişdilər. İslamiyyəti qəbul etdikdən sonra ərəb əlifbasına keçsələr də xaqaniyə ləhcəsində danışmaqda davam edirdilər.

XV əsrdə daha çox "cığatay ləhcəsi" adlandırılan bu danışıq tərzi Çingiz xan imperatorluğunda və Teymurilərdə rəsmi dil statusu qazanmışdı. Qaraxanilər dövrünün ədəbi dili olmaqla yanaşı oğuzlar, qıpçaqlar və suvarlar arasında da geniş yayılmış bu dil Kaşğarı, Balasaqunu, digər ətraf şəhərləri əhatə etmişdi.

Tədqiqatlarda xaqaniyə türkcəsinin artıq

xüsusiləşmiş, regionallaşmış, ancaq ümumtürk ədəbi dili tipologiyasını hələ tamamilə itirmədiyi göstərilir.

Qədim uyğurlar həm də peşəkar rəssam, heykəltəraş idilər. Turfan ətrafından Bəzəklik, Martuq qazıntılarından tapılan məbədlərdə uyğur dilində yazılmış bir çox əsərlər əldə edilmişdir. Müstəqil miniatürlər, divar bəzəkləri bu sənət növlərinin çox dəyərli örnəkləridir. Çox güman ki, bu əsərlər sonralar Hind, İran miniatürlərinə süjetlər, mövzular vermişdir.

İlk musiqi alətlərini, rəqs elementlərini rəsmlərdə bizə yetirən uyğurlar təsviri sənətin modelini yaratmışlar. Mavi, qırmızı rənglərlə ipək, kətan, qumaş, taxta üzərində gözəl sənət əsərləri yaradan uyğurlar maniheizmi qəbul etdikləri ilk dövrlərdə insan boyunda, sonra isə 10 metr hündürlükdə Budda heykəlləri yaratmışlar.

Uyğur türkləri həm də böyük şəhərlər qurmuş, Şərqi Türküstanda Qarabalasaqun, Baş-balıq, Qaraxoca, Qaraşar, Xotan, Yarkənd, Tur-fan, Kaşğar, Kamal, Qulca, Urumçı, Ağsu, Suço, Kanço kimi böyük insan məskənlərini saraylar, məbədlərlə zənginləşdirmişlər. Şəhərlərarası abad yollar bu gün də işlək vəziyyətdədir.

Uyğur şəhərləri üçqat divarlardan əlavə yeddiqat , xəndəklə də əhatə olunurdu ki, bu zəmanəsinə görə modern tikinti üslubu demək idi.

Qədim salnaməçilər uyğur ellərində teatr sənətinin inkişafından, əkinçilikdə, ticarətdə əldə edilmiş uğurlardan da bəhs edirlər.

Uyğur türkləri avropalılardan 100 illərcə qabaq kağız istehsalı, kitab çapı ilə məşğul olurdular. Ərəblər kağızın nə olduğunu, necə hazırlandığını uyğurlardan öyrəndilər, avropalılar isə bu sirri ərəblərdən əldə etdilər.

Göytürklərin ağaca yazdığı yazını uyğurlar artıq kağıza yazırdılar. Zəmanəmizə gəlib çatan bir çox elmi, bədii tərcümə əsərləri bu türk qövmünün yüksək elmi, mədəni potensialından xəbər verir.

Kadr dəyişir. Altay və Xakas çöllərindən görüntülər ekrana gəlir. Həzin musiqi təsvirləri müşayiət edir.

MƏTN: – IX-XIII əsrlər arası Avrasiya qitəsinin bu və ya digər ərazilərində yaşayan türk boyları məqam yetişdikcə özlərinin dövlətini yaratmağa, müstəqillik əldə etməyə çalışırdılar. Bəzi hallarda uzun ömürlü imperatorluqlar da qurmuşdular. Avropa Avar imperatorluğu VI yüzillikdən IX yüzilliyin ilk illərinə qədər, Xəzər imperatorluğu VII yüzillikdən X əsrin ortalarına qədər, Böyük Səlcuk imperatorluğu XI əsrdən XII əsrin ortalarına kimi, Xarəzmşahlar imperatorluğu 1097-ci ildən 1231-ci ilə kimi tarix səhnəsində yaşamışdır. Eyni zamanda onlarca müstəqil dövlətlər fəaliyyət göstərmişdir.

Aradan neçə yüz illər keçmişsə də dünya hələ anlamırdı: bu necə bir millət, necə bir ordu?

Bunların savaş gəmisi qurudan, atları dənizdən gəlirdi.

Səlcuq türklərinin Anadoluya yerləşmələrindən daha sonra Osmanlıların Anadolu və

Trakyanı bütün imperatorluğun mərkəzi halına gətirmələrindən öncə Orta Asiyadan qərbə köçlər davam etmişdir. Son böyük köç dalğalarını peçeneqlər, uzlar və kuman – qıpçaqlar etdilər. Onların dalınca oğuzlar, bunların da ardınca Sibirə doğru üz tutan kiməklər olmuşdular. Orta və Cənubi Sibir, indiki Qazaxıstanın şimalı miladdan çox-çox öncə türk qövmlərinin yaşadığı ərazilər idi. Onlardan yuxarılarda – şimal-şərqdə Saxa türkləri yaşayırdılar. Altay-Sayan dağlarından Tanrı dağlarına qədər bu ərazilərdə türk mədəniyyəti öz inkişaf yolu ilə gedirdi. Yerləşdikləri geniş ərazilər faydalı qazıntılarla zəngin idi. Qədim türklər m.ö. dəmir emal etməyi, misdən və büründən müxtəlif əşyalar hazırlamağı bacarırdılar. Çox-çox qədimlərdən daş kömür istehsal edir və onun enerjisindən istifadə olunurdu.

Kuznetsk ətrafında, Kiçik Sıya kəndində tapılmış filiz qalıqlarının analizi göstərirdi ki, 34 min il əvvəl bu ərazilərdən dəmir filizi çıxaran türklər metallurgiyanın sirlərinə yaxşı bələd imiş. Şimali-şərqi Asiyadan keçən və burada daş kömür istehsalı ilə yaxından tanış olan XIII əsrin səyyahı, Marko Polo öz gündəliyində bu barədə geniş məlumat vermişdi. O zamankı avropalılar Marko Polonun yazdıqlarını əfsanə hesab etmişdilər.

1209-cu ildə Çingiz xan yeni bir imperiyanın əsasını qurdu. Qaraqum çölləri yenidən tələtümə gəldi.

Monqol-türk birləşmələrinin qərbə yeni axınları başladı. Çingiz xanın ilk yürüşləri

Mərkəzi və Cənubi Sibiri əhatə etdi. Onlar ordunun silahla təminatçıları idilər. Sonrakı illərdə bir az şimala çəkilən türk tayfaları müstəqil siyasət yürütməyə çalışırdılar.

Bir çox tədqiqatçılar Sibir sözünün türk sözü olan "Sabar" sözündən əmələ gəldiyini, sonralar "Sabir", "Sibir" halına düşdüyünü qeyd edirlər.

Sabarlar şərqdə juan-juanların basqını ilə qərbə yönəldilər. 416-465-ci illər arasında Altaylar və Ural arasındakı düzənliklərdə, Qazaxıstanın şimal çöllüklərində məskunlaşdılar. Qurduqları dövlətin bu bölgədəki təsiri çox-çox illər davam etdi. Təqribən min il sonra bu ərazidə yenə Sibir xanlığı qurulacaqdı.

Sabarlar çoxalıb gücləndilər və Şərqi Avropaya yürüşlər başladı. Bulqar türklərini özlərinə tabe etdilər və əhalinin bir hissəsi 513-cü ildən Qafqazın şimalında və Volqa-Don çayları arasında yerləşməyə başladı. Xaqan Balaqın dövründə – 516-cı ildə Bizans torpaqlarına girdilər, xeyli qənimətlə geri döndülər. Bizansla etdikləri savaşlar bu imperatorluğu çaşdırdı. Çünki sabarlar çox yaxşı taktikası, çox yaxşı döyüşçüsü olmaqla bərabər, o dövrdə bir çox ölkələrin tanımadıqları döyüş alətlərindən istifadə edirdilər.

Bizans tarixçiləri belə yazır: "Sabarlar insan hafizəsini xatırlaya bildiyi zamandan bəri İranda, Romada belə heç kimsənin düşünmədiyi mexanizmlərə sahibdirlər. Heç bir ölkə bu günə qədər bu barbarlarınkına bənzər kəşf etməmiş, təlim mexanizmlərini də onlar qədər ustalıqla

düzəldə bilməmişdilər. Onların düzəltdikləri böyük bir dahinin əsəridir”.

Türk xaqan Balaq öldükdən sonra onun yerinə arvadı Buq-Arıq xatun keçdi. Döyüşkənliyi, iradəli olması və gözəlliyi ilə məşhur olan bu türk xatunu 100 min nəfərlik ordunun başında Bizansa gəldi. Bizans imperatoru I Yustinin 528-ci ildə bir elçi heyəti, çoxlu hədiyyələrlə Buq-Arıq xatunun yanına gəldi, barış diləmək məcburiyyətində qaldı. Təəssüflər olsun ki, 576-cı ildə Qərbə gələn sabarlar məğlub oldular və bir daha dövlət halında birləşə bilmədilər.

Şərqdəki Sibir türklərinin inkişaf mərhələsi öz axan ilə gedirdi.

Çin mənbələrinin verdiyi məlumatlara görə Uyğur xaqanlığı çökər-çökməz indiki Xakasiya ərazisində Ayo dövləti meydana gəldi. Eyni zamanda salnamələr bu dövlətin çox ciddi qayda-qanunları olduğunu, orduda ən kiçik xətaya görə ölüm cəzası tətbiq edildiyini də göstərir. Sibirin geniş ərazilərində digər xanlıqlar da meydana çıxmışdı.

Lakin Monqol-tatar imperiyası meydana çıxdıqdan sonra bir çox müstəqil xanlıqlar, bəyliklər bu nəhəng imperiyanın qanadları altına sığınmağa məcbur oldular. Yalnız 1480-ci ildən sonra dirçəliş dövrü başladı.

Orta və Güney Sibirdə hansı türk tayfaları məskunlaşmışdı?

Kadr dəyişir. Sibir ərazisindən görüntülər. Çöllük. Daş pillələr. Kadrları qədim xakas musiqisi müşayiət edir.

MƏTN: – Arxeoloji abidələr sübut edir ki, 40-45 əsr öncə Sayan sıra dağlarından Kuznetski və Tanrı dağlarına qədər olan geniş ərazidə türkdilli tayfalar yaşamış, özlərinə məxsus maddi mədəniyyət abidələri yaratmışlar. Geniş çöllük, göllər, bol sulu çaylar bu yerlərin erkən məskunlaşmasına şərait yaratmış, eyni zamanda daima bu ərazilər uğrunda müharibələrə də səbəb olmuşdu.

Müasir dövrdə Yenisey ətrafı ərazidə türkdilli tayfaların on bir boyu yaşayır. Bımlar Qaş, Roybat, Saqay, Katasin, Beltir, Şor, Qızıl qaya, Aba qızıl, Tuba, Keyərik və Xakas boylarıdır.

Əvvəlcə aşina, sonra jujanların, daha sonra isə turkyutların tərkibində olan bu boylar hakimiyyət dəyişmələri nəticəsində öz müstəqilliklərini itirsələr də, varlıqlarını qoruyub saxlaya bilmişlər.

1206-cı ildə Çingiz xan tatarlarla hərbi ittifaqa girərək şərqdən qərbə doğru məşhur yürüşünə başladı. Və beləliklə, bu ərazilər monqol-tatar tabeçiliyinə düşdü. Lakin Qızıl Ordanın dağılması ilə bu ərazilərdə də müstəqil xanlıqlar meydana gəldi.

Kadr dəyişir. Monqollarla müharibədən bir süjet verilir. Sonra ağı səsləndirilir. Süjet başa çatır.

MƏTN: – XV əsrdə ruslar şərqdən gələn təhlükənin qarşısını almaq üçün naməlum çölə suvari-kazak dəstələri göndərirdilər. Ataman Yermak Cənubi Sibir ərazisinə yürüş edir.

1585-ci ildə Yermak suda boğulur. Lakin çar Rusiyası qədim türk torpaqlarının işğalından əl çəkmək istəmirdi. 1601-ci ildə Kucum xan ölür və ruslar tezliklə bu ərazilərə sahib olurlar.

XVII əsrdə bu ərazidə 4 xanlıq vardı. Altısar, Ezer, Altir və Tubi xanlığı.

Yuxarıda qeyd etdiyimiz türk boyları bu xanlıqların ərazisində yaşayırdılar.

Kadr dəyişir.

MƏTN: – Tarixən türkləri hərb işinin böyük bilicisi sayıblar. İlk dəfə atlı süvari dəstəsini də türklər yaradıblar. Çox erkən türk tayfaları maldarlıqla da məşğul olublar. Bununla belə Yenisey ətrafındakı arxeoloji abidələr sübut edir ki, eramızdan əvvəl burada suvarma şəbəkəsindən də istifadə olunub.

Tarixi qaynaqlardan məlumdur ki, hələ eramızın başlanğıcında Sayanın qərbində yaşayan baltır, şor və saqay tayfaları dəmir filizinin istehsalı ilə məşğul olmuşlar. Eramızın V əsrindən isə bu ərazidə yaşayan bütün türk tayfaları metaldan müxtəlif əşyalar düzəldirdilər. Tarixdə buna Türkyut metallurgiyası deyilir. Altay dəmirçiləri yüksək keyfiyyətli dəmirdən bir tiyəli-bıçaqlar, ox və nizələr düzəldirdilər. Bütün bu əşyalar indi Rusiyanın müxtəlif muzeylərini bəzəyir.

Arxeoloqlar sübut ediblər ki, indiki zərgərlərin istifadə etdikləri alətlərin bir çoxundan hələ 2 min il bundan əvvəl Sibir türkləri istifadə ediblər. Eyni zamanda Yenisey

türklərinə günəşdən qorunmaq üçün çətir də məlum idi. Avropalılar isə çətirdən yalnız XVI-XVII əsrdə istifadə etməyə başlamışlar. Beləliklə, Yenisey boyunca yaşayan türklərin yüksək inkişafı göz qabağındadır.

Kadr dəyişir.

MƏTN: – Demək olar ki, Yenisey boyunca yaşayan bütün türk tayfalarında şamanizm geniş yayılıb. İndi bütün tədbirlər şamanların iştirakı ilə keçirilir. Bu tayfalar şamana göylə yer arasında əlaqə yaradan kimi baxır, onların məsləhətinə qulaq asırlar. Xalq şaman təbili çalman yerə dəvətsiz axışır.

Kadr dəyişir. Şamanlıqla bağlı süjet efirə verilir.

MƏTN: – Qaş, Roybat, Qızıl qaya, Tuba boyları arasında digər bayramlar da təntənə ilə keçirilir. Məsələn, suq-tayı, yağış mövsümünün başlanması, ilk otun bitməsi, sürünün yaylağa aparılması şərəfinə keçirilir.

Tun bayram heyvandarlıqla, atla bağlı mərasimdir. Xalq dəvət gözləmədən müəyyən əraziyə gəlir. Şamanlar, musiqiçilər, pəhləvanlar, atçapanlar yarışır. Ən yaşlı adam toplananların bayramını təbrik edir, onları şadlanmağa çağırır.

Qədim türklər günəşin çıxmasına, havaların istiləşməsinə xüsusi bir qüvvə kimi baxırlar. Onların təsəvvürünə görə dünya üç təbəqəyə bölünür: aşağı, orta və ali təbəqə. Yeri idarə edən də ali təbəqədir. Odur ki, onun şərəfinə qurbanlar kəsilir.

Yenisey-Ana çayın ətrafında yaşayan türklər gecə ilə gündüzün tarazlaşmasını, günlərin uzanmasını da xüsusi bir ehtiramla qarşılayırlar. Hər il 21 martda şəhər tezdən bütün kənd bir yerə yığılır. Günəşin şərəfinə heyvanlar kəsilir. Tonqal ətrafında oturanlar mahnı oxuyur. Ət bişib hazır olanda tayfanın ən gənc oğlanı ətlə dolu sinini əlləri üzərində Günəşə doğru tutaraq üç dəfə meydanı dolanır.

Qadınlar ətdən başqa süddən və buğdadan da yemək hazırlayırlar. Ət ulu Tanrıya qurban, süd günahlardan təmizlənmə, buğda isə həyat mənbəyi hesab olunur. Sonra toz ağacının budaqlarına əski bağlanılır, bol günəş dilənilir.

* * *

Müasir Xakasiyada 30 mindən yuxarı tarixi abidə qeydə alınıb ki, bu da ərazidə yaşayan türk tayfalarının müştərək tarixə malik olduqlarını sübut edir.

Kadr dəyişir.

MƏTN: – 4-5 min il bundan əvvəl yaşamış türkdilli tayfaların tarixinin öyrənilməsində Yenisey çayı ətrafında olan abidələrin əvəzi yoxdur. İstər kurqanlarda, istərsə də qayaüstü rəsmlərdə qədim türklər öz dünyagörüşlərini, həyat tərzlərini, məişət qayğılarını əks etdiriblər. Çöllərdəki saysız-hesabsız kurqanlar və onların üstündə ucaldılan daş piltələr adamı heyran və heyrətdə qoyur. Bəzən bu daş piltələrin ağırlığı

3-4 tona çatır. Ətrafda isə çöllükdür. Bu daşların bura gətirilməsi və ucaldılması özü bir möcüzə sayılır. Yenisey boyunca isə belə möcüzəli kurqanlar minlərlədir.

Yeniseyin sağ və sol sahillərində, yoldan kənarda yerləşən çaylarda qədim türklər on minlərlə qayaüstü rəsmlər yaradıblar. Bu abidələrdəki mövzu müxtəlifliyi, işləmə texnikası adamı heyran edir.

Təəssüf ki, orta əsrlərdən, xüsusən də XVII-XVIII əsrlərdən başlayaraq ötən əsrin 90-cı illərinə qədər bu abidələrin bir çoxu məqsədyönlü şəkildə məhv edilirdi. Amma son illər dünyanın bir çox ölkələrindən Altaylara gəlir, qayaüstü rəsmlərə heyrətlə baxırlar. Bir çox xarici alimlər internet sistemi ilə bu abidələrin varlığından xəbər tutur.

* * *

Yenisey boyunca yerləşən ərazi zooloji və nəbatat aləmi ilə də zəngindir. Buradakı göllər isə xüsusilə diqqəti cəlb edir.

* * *

Cənubi Sibir ərazisi ilk baxışda adama səhra kimi görünür. Lakin biləndə ki, Sayanla Yeniseyin aşağı v axarına qədər olan ərazidə irili-xırdalı onlarla göl mövcuddur, adam heyrətlənir. Bu ərazidə göllərin də öz tarixi, öz əfsanəsi var. Məsələn, İt gölü. Bu ad ona görə verilib ki, bu gölün suyu heç vaxt qurumayıb və insanlara it kimi sədaqətli olub.

Əllilər gölünün də öz tarixi var. Əfsanəyə görə şor qəbiləsindən olan 50 türk gözəli gəlin köçməzdən əvvəl bu göldə yuyunmağa gəliblər. Və göl onları çəkib udub. Elə o zamandan da bura Əllilər gölü deyilir.

Ən maraqlı göllərdən biri də Duzlu göldür. Heç inanmaq istəmirsən ki, belə göz oxşayan gölün suyu duzludur. Çimində adam onda batmır.

Kadr dəyişir. Professor Nizami Xudiyevin çıxışı.

NİZAMİ XUDİYEV: – Qədim türk elləri olan Mərkəzi və Cənubi Sibir dünyanın ən əsrarəngiz ərazilərindəndir. Yeddinci iqlim qurşağı keçən bu ərazilərdəki türk tayfaları bütün dünyaya səs salan maddi, mənəvi sənət abidələri qoyub getmişlər. Bu yerlərdə qədim skiflərin, hunların, göytürklərin mədəniyyəti bir-birinə qarışmış, ortaq türk mədəniyyəti yaranmışdır. Daş piltələrdə əks olunmuş türkdilli runik yazıları bu abidələr içərisində əsas yeri tutur. Bu yazılar, daş piltələr, Yenisey və Abakan çayları hövzəsində yerləşən daş abidələr tarixdə Orxon-Yenisey abidələri kimi məşhurdur. Orxon abidələri barədə kifayət qədər məlumat verdiyimizdən indi Yenisey abidələrindən bəhs edəcəyik.

Qeyd edək ki, təkcə Xakasiya ərazisində 70-dən artıq yazılı abidə aşkar edilib. Bir çox alimlər, xüsusən, sovet türkoloqu S.Maslov kimi alimlər bu daş abidələrdə çox ciddi səylə qeyri-türk nişanələri tapmağa çalışsalar da faktların sərt üzü ilə rastlaşdılar.

Yenisey abidələrinin dili müasir Sibir türklərinin dilindən demək olar ki, fərqlənmir. Müqayisə üçün Yenisey abidələrindən götürülmüş bəzi sözlərin müasir tuva, qırğız, xakas dillərində səslənməsinə diqqət yetirək:

Qədim türkcə	**kırqızca**	**tuvaca**	**xakassca**
adak	ayaq	odak	azax
idik	ıyık	idık	izıx
ben	men	men	mın
bar	barun	baak	nap
beş	beş	beş	nıs

Müqayisəli təhlildən göründüyü kimi, Göytürklər zamanında və sonralar türkdilli tayfalar da çətinlik çəkmədən bir-birilə ünsiyyətdə olmuş, dilin səltənətində birləşmişlər.

Kadr dəyişir. Ekrana Yenisey abidələri gəlir. Kadrlar bir-birini əvəzləyir. Filmin son titri yazılır.

İKİNCİ FİLMİN SONU

2003-cü il

TÜRKLƏR

Üçüncü film

Ərənlər dünyanı ağılnan bulmuşlar.
Dədə Qorqud

İlkin ənənəvi başlıq efirə verilir.

MƏTN: – Hərbi dühalarının, hünər və zəkalarının sayəsində min illər boyunca Mərkəzi və Ön Asiyanın hakim qüvvələri türk dövlətləri olmuşdur. Miladdan min illər öncə üzü bəri türklər Avrasiya qitəsində öz hegemonluqlarını heç bir xalqa, heç bir tayfaya verməmiş. Avrasiya sərhədlərindən çıxaraq Afrika və Amerikanın şimalına qədər yayılmışdılar.

IX-XII əsrlər islam dininin vüsət aldığı dövr idi. İslam ideyaları türklərin tanrı ideyasına uyğun gəldiyinə görə bu din onların arasında nisbətən ağrısız yayılır, bəzən isə özləri dinin yayıcılarına çevrilirdilər. Hind okeanının şərqində Sumatra adasında meydana çıxan türk AÇE dövləti də belə yaranmışdır. XII əsrin ortalarından başlayaraq türk-ərəb tacirləri özlərilə bu əraziyə islamı da gətirdilər.

1205-ci ildə Cahan şah adanın sultanı olarkən bütün əhali artıq islam dinini qəbul etmişdi.

Sultan Əli Muqayyət şahın dövründən başlayaraq XVI əsrin ortalarına kimi AÇE dövləti

ağır və qanlı müharibələr aparmalı oldu. O dövrdə yeni-yeni torpaqlar axtaran portuqaliyalılar Sumatra adasına da göz dikdilər. Adanın sultanı Ələddin şah kömək üçün Osmanlı imperatoru II Səlimə müraciət etdi. Sultan Səlim adanın mühafizəsi üçün toplarla silahlanmış iki gəmi göndərdi. Eyni zamanda silah ustaları da buraya gəldi və odlu silah istehsalını təşkil etdilər. Sultan II Əbdülhəmidin vaxtında AÇE dövlətinə alimlər, filosoflar, dini kitablar göndərildi ki, onlar da İndoneziyada islam dininin təbliğinə başladılar.

1876-1877-ci illərdə türk-rus müharibəsində türklərin məğlubiyyəti AÇE dövlətinin də varlığına son qoydu. Hollandlar adanı işğal etdilər. Beləliklə, 600 ildən yuxarı öz varlığını qoruyub-saxlayan kiçik AÇE dövləti süquta uğradı.

Kadr dəyişir. Nizami Xudiyevin çıxışı.

NİZAMİ XUDİYEV: – Uyğur xaqanlığının süqutundan XIII əsrin əvvəllərinə qədər Avrasiyanın geniş ərazilərində türk tayfalarının yeni bir xaqanlıq yaratmaq cəhdləri puça çıxırdı. Ayrı-ayrı ərazilərdə kiçik dövlətlər yaransa da, daxili müharibələr böyük imperiyanın yaranmasına imkan vermirdi. İlk belə cəhdi qırğızlar göstərsələr də, sonra qədim türk torpaqlarının çox hissəsi monqolların əlinə keçdi. Bu dövrdə siyasi proseslərin ləngiməsi türk ədəbi dilinin inkişafını saxlaya bilmədi.

IX-XIII əsrlərdə qədim türk yazılı dilinin

funksional imkanlarının genişləndiyini görürük. Bir türk təfəkkür faktı kimi ədəbi dildə baş verən diferensiasiya IX-XIII əsrlərdə öz tarixi enerjisini etnik-mədəni regionlara "paylayır". Qeyd etdiyimiz kimi, həmin hadisə mürəkkəb siyasi-ictimai, etnik-mədəni proseslərlə müşayiət olunur.

XI-XII əsrlərdə ümumtürk ədəbi dili islam keyfiyyətlərini daha sürətlə qəbul edir. Bunun nəticəsi kimi ərəb, fars dillərindən türkcəyə sözlər, qrammatik modellər də transfer olunur. Lakin bu təsir türk ədəbi dillərini ümumxalq anlam formasından, dil modelindən məhrum edə bilmir.

Bu vaxtlar Orta Asiyada, Uralda, Volqaboyunda, Qafqazda, Kiçik Asiyada bir-birini inkar edən oxşar proseslər baş verirdi. Bir tərəfdən fars, ərəb dilləri elm və ədəbiyyat dili kimi türk etnik-mədəni regionlarında yayılır, digər tərəfdən isə qeyri-türk mənşəli etnoslar assimilyasiyaya uğrayır, türkləşir, vahid türk dilinin hakimiyyəti bərpa olunurdu.

Dil prosesləri ilə yanaşı siyasi proseslər də inkişaf edirdi. Qırğızlardan aldıqları torpaqlara axışan monqollar türklərin bütün idarəetmə sisteminə yiyələnirdilər. Türklərlə qaynayıb-qarışırdılar. Xululu xanın oğlu Temiçin də türksoylu şahzadə idi.

Ümumiyyətlə, monqol elitasını türksoylu bəylər təşkil edirdi. 1206-cı ildə monqol-tatar hərbi başçıları Temiçini Çingiz xan adı ilə özlərinə başçı seçdilər. Beləliklə, dünya yeni bir cahangirlə üzləşməli oldu. Mərkəzi Qaraqumda

yerləşən bu imperiyanın qamçısı tezliklə Çindən tutmuş Avropaya qədər hər kəsi hədələməyə başladı. Cəmi 20 il ərzində Anadoludan Ukrayna düzənliklərinə, Cənubi Çin cəngəlliklərindən Sibir buzlaqlarına qədər sonsuz ərazilər, böyüklü-kiçikli 40 dövlət bu imperiyanın qılıncı önündə diz çökməyə məcbur oldu. Ordu başçıları əsasən tatar, uyğur, karluq, qıpçaq və başqa türkdilli xalqların nümayəndələrindən ibarət olan Monqol-tatar imperiyası öz tarixlərini də uyğur əlifbası ilə yazırdı.

Bu orduların qərbə yürüşü ilə bir çox türk tayfalarının Avropaya axını başladı. Macarıstan, Rumıniya, Bolqarıstan ərazilərində türk dövlətləri yarandı.

Çingiz xanın ölümündən sonra onun ideyalarını həyata keçirən nəvəsi Batı İtil sahillərindən Adriatik dənizinə qədər əraziləri işğal etdi. 1242-ci ildə Qızıl Orda xanlığının əsasını qoydu. Tarix səhnəsində 300 il ömür etmiş Qızıl Orda çökəndə onun yerində müstəqil türk xanlıqları yarandı. Onlardan ən güclüsü Kazan xanlığı idi.

* * *

Türk adını daşıyan və türk soyundan olan insanlar bu gün dünyanın 12 milyon km-lik bir ərazisində yaşamaqdadırlar. Avrasiyanın dörd bir guşəsində məskən salan, saysız-hesabsız maddi-mənəvi abidələr yaradan və bəşəriyyətə bəxş edən türk mədəniyyətinin mərkəzlərini dörd yerə bölmək olar. Bunlar Batıda İstanbul, Doğuda

Səmərqənd, Buxara, Xivə, Güneydə Bağdad və Təbriz, Quzeydə isə Kazan şəhərləridir. Sizinlə bugünkü söhbətimiz Quzey türk dövlətlərindən biri haqqında olacaq.

Kadr dəyişir. Qədim türk çöllərindən görüntülər.

MƏTN: – "Tatar" sözü ilkin olaraq türklər və monqollar arasında hələ VI-IX əsrlərdən işlənməyə başlanıb. Sonrakı illərdə ruslar və digər Avropa ölkələri Qızıl Orda xanlığında yaşayan xalqları tatar deyə çağırıblar. Daha sonrakı əsrlərdə hətta bu söz azərbaycanlılara şamil edildi. Əslində tatarlar kimlər idi? Hansı türk tayfaları bu adın əsil sahibləridir?

Bu gün ümumi tatarların yaşadıqları İdil-Kama bölgəsində türk qövmləri çox erkən zamanlardan məskən salmışdılar. Miladdan öncə və miladdan sonra I minillikdə suvar tayfaları Çulman çayının (Kama) güney vadilərində yaşayırdılar. Miladi tarixi və birinci minilliyin əvvəllərində, yəni 100-374-cü illərdə bu ərazilər hunların əlinə keçdi və beləliklə, İdil-Ural bölgəsində güclü Hun imperiyasına ağalıq etməyə başladı. Eyni zamanda əvvəllər Don-Kuban ərazisində məskunlaşan Bulqar türkləri də V əsrin sonlarından bu əraziyə gəlməyə başladılar. Bugünkü İdil-Ural tatarlarını, Suvar, Sibir, qismən Hun və Bulqar türklərini XIII əsrdə bu ərazilərə gələn qıpçaq (Kuman) türklərinin nəvələri adlandırmaq olar.

Qeyd edək ki, Bulqar türkləri bu gün Volqa-Ural bölgəsində yaşayan tatar, başkurt və çuvaş

türklərinin ulu babalarıdır. Zaman keçdikcə onların bir qismi xristianlaşaraq öz türklüklərini itirdilər.

Bulqar türkləri müasir Kazan şəhərinin yaxınlığında, ondan təqribən 100 km aralıda yerləşən Bulqar şəhərinin əsasını qoymuşdular. Tarixi mənbələrə görə IX-XII əsrlərdə Bulqar şəhəri Doğu Avropanın ən önəmli ticarət mərkəzi idi.

922-ci ildə İdil-Ural tatarlarının həyatında əhəmiyyətli bir hadisə baş verdi. Bulqar xanı Almas xan həmin il islamiyyəti qəbul etdi.

1220-ci ildə Qızıl Orda dövləti bu bölgəni ələ keçirdi. İlk zamanlar hakimiyyəti əllərində toplamış monqollar sonrakı illərdə öz mövqelərini türk əsilli xanlara verməyə məcbur oldular.

Beləliklə, Qızıl Ordanın xarabaları arasında Kazan, Krım, Kasım, Astarxan, Sibir xanlıqları yarandı.

* * *

400 illik monqol-tatar əsarətindən azad olmuş Rusiya yavaş-yavaş dirçəlir və özü işğalçılıq yoluna qədəm qoyurdu. Rus boyarları, knyazları ilk növbədə cənubda və şərqdə yaşayan türk xanlıqlarına göz tikməyə başladılar.

O zamankı Kazan xanlığının tərkibində bir sıra xalqlar yaşayırdı. Onlardan çavuşlar, başkurtlar, fin qövmləri, udmurt, mari və mardovanları göstərmək olar. Bu xalqlar hələ Bulqar dövlətinin zamanından onlara tabe idilər.

Yuxarıda qeyd etdiyimiz kimi, Moskva knyazlığı artıq güclənmişdi və qonşuluğunda yenidən güclü bir türk dövlətinin olmasını. istəmirdi. Uzun müharibələrdən sonra, nəhayət, 1552-ci ildə Kazan xanlığı süqut etdi. Beləliklə, rusların Doğuya doğru yolları açıldı.

Qeyd edək ki, Kazan xanlığının işğalı İdil-Ural və Sibir torpaqlarında yaşayan türk tayfalarının gələcək faciələrinin başlanğıcı oldu.

Kazanın işğalından sonra müsəlman tatarlar 200 il böyük siyasi, iqtisadi və dini təzyiqlərə dözməyərək ata-baba yurdlarından çıxıb getməyə məcbur oldular.

1774-cü ildə Rusiyada məşhur Puqaçov üsyanı baş verdi. Qeyd edək ki, üsyançıların əksəriyyətini tatar, başkurt və çuvaşlar təşkil edirdilər. Sonra üsyan yatırılsa da, rus hökuməti tatarlara bir sıra güzəştlər verməyə məcbur oldu. Çarın fərmanına əsasən 1789-cu ildə Orenburq şəhərində müftülük quruldu. 1792-ci ildə isə tatar tacirlərinə başqa ölkələrlə sərbəst ticarət etmək ixtiyarı verildi. Lakin bu imtiyazlar uzun çəkmədi. 1860-cı ildən tatarlar yenidən xristianlaşma və ruslaşdırma siyasəti ilə üz-üzə qaldılar.

XIX əsrin ortalarından başlayaraq tatarlarda milli şüurun oyanması başladı. Ötən əsrin əvvəllərində bir sıra müsəlman ittifaqları meydana çıxdı. Tatar xalqının Şahabəddin Mərcani, Hüseyn Feyizxan, Kayyum Nasiri kimi aydınları fəaliyyətə başladı. 1917-ci il inqilabı tatarların da azadlıq arzularını puça çıxardı. Sovetlər birliyi dağılandan sonra – 1990-cı ildə

Tatarıstan öz müstəqilliyini elan etdi. 1994-cü ildə Rusiya ilə bağladığı sazişə əsasən Tatarıstan Rusiyanın subyektinə çevrildi.

* * *

– Qeyd etdiyimiz kimi, Kazan tatarları əsasən Volqa və Kama çaylarının bərəkətli vadilərində yaşayırlar. Bu yerlərin coğrafi iqlimi, təbii şəraiti yaşayış üçün çox əlverişlidir. Ona görə də tatarlar əsasən taxta evlərə üstünlük verirlər. Evlərin taxta döşəmələri olur, eyni zamanda taxtadan oyma üsulla bəzədilmiş yataq əşyaları və s. hazırlanır.

Müasir dövrdə bir çox tatar kəndlərində evlərin divarları tikmə və qumaş əşyalarla bəzədilir. Bayramlarda geyilən əşyalar, paltarlar və keçədən hazırlanmış xalçalar da evlərin divarlarından asılır. Tatarların rəng dünyasında əsas yeri ağ, yaşıl və mavi rənglər tutur. İstər qadın, istərsə də kişilər qumaş paltarlar geyməyi çox sevirlər. Paltarların üstləri əl işləri ilə bəzədilir. Geniş şalvarın üstündən uzunqol köynək və onun üstündən isə bəzək vurulmuş xalat geyinilir.

Tatarlar digər türklər kimi ət və xəmir xörəklərinə üstünlük verirlər. Qoyun, at, dana və quş ətləri əsas qida məhsulu sayılır. Xüsusən bayram günlərində at ətindən hazırlanmış yeməklər üstünlük təşkil edir. Ət xörəkləri kimi xəmir xörəklərindən də geniş istifadə olunur. Çox zaman bütün ailə yemək zamanı bir süfrə arxasında toplanır.

Kazan tatarlarının bayramları 2 yerə bölünür: dini və dünyəvi bayramlar. Dini bayramlar "Qurban", Oraza – yəni "Ramazan" bayramı və peyğəmbərin mövlud günüdür.

Dünyəvi bayramların içərisində əsas yeri Sabantuy tutur. Bu bayramı əkinçilik bayramı da adlandırmaq olar. Sabantuy buğda əkinindən əvvəl keçirilir. Başqa sözlə desək, bu bayram Novruzun idil variantıdır. Amma Novruzdan fərqli olaraq, Sabantuyun dəqiq keçirilmə günü yoxdur. Bu bayramlarda evlərdə şirniyyat bişirilir, yumurtalar boyanır. Bayramın ən sevimli hissəsi at çapmaq və güləş yarışlarıdır.

Kazan tatarlarının digər bayramı Ciyintoydur. Ciyintoy əsasən ailə bayramıdır. Bayram may ayının sonlarında keçirilir və iki-üç gün davam edir. Qonşu kəndlərdə yaşayan qohumlar bir-birinə qonaq gəlir, müxtəlif əyləncələr keçirilir.

Soyuq aylarda qeyd edilən digər bir bayram Qaz öməsi yəni qaz təmizləmə adlanır. Bu bayramda çoxlu qaz kəsilir, qonşular yığışıb onu təmizləyir, sonra oturub yeyib-içirlər.

Kazan tatarları musiqini, əyləncəni çox sevirlər. Heç bir bayramı musiqisiz, mahnısız təsəvvür etmək olmaz.

Kadr dəyişir. Efirə bir tatar mahnısı verilir. Mahnı başa çatır. Aparıcı kadra çıxır.

APARICI: – Müasir Tatarıstan inkişaf etmiş bir respublikadır. Dünyada yaşayan 6,5 milyonluq Kazan tatarları bu respublikanı özlərinin vətəni

sayırlar. Eyni zamanda, Tatarıstan çoxmillətli respublikadır. Burada 44 millətin nümayəndəsi yaşayır. Ölkənin baş şəhəri Kazanın 1,14 milyon nəfər əhalisi var. Qeyd edək ki, Tatarıstan Rusiya Federasiyasının tərkibinə daxil olan ən böyük türkdilli respublikadır.

Müasir Tatarıstan Respublikası Orta Volqaboyunda əlverişli coğrafi mövqeyi ilə seçilir. Respublika ərazisində Avropanın ən böyük çayları olan Volqa və onun sol qolu Kama birləşərək böyük bir su qovşağı yaradırlar. Tatarıstan ərazisi şimaldan cənuba 200 km, şərqdən qərbə 300 km-dən artıq məsafədə uzanır. Respublika iqtisadiyyatında rol oynayan faydalı qazıntılar neft və qazdır.

Ərazinin torpaq örtüyü boz-qara olmaqla çox məhsuldardır. Əhalinin orta sıxlığı 1 km^2-də 54 nəfərdir. Tatarıstan Respublikasının paytaxtı Kazan şəhəri iri sənaye, elm və mədəniyyət mərkəzidir. 700 illik tarixə malik olan Kazan şəhərinin əsasını bulqarlar qoymuşlar. Əlverişli coğrafi şəraitdə olması onu mühüm nəqliyyat qovşağına çevirmişdir. Burada maşınqayırma, metal emalı, kimya və neft-kimya, yeyinti və digər sənaye sahələri inkişaf etmişdir. Maşınqayırmanın mühüm mərkəzi olan Kazan şəhərində məşhur “Kamaz” markalı yük maşınları istehsal olunur.

Tatarıstanın yeyinti sənayesinin aparıcı sahələri ət, süd, yağ, pendir və şəkər istehsalıdır.

Respublikanın kənd təsərrüfatı taxıl və heyvandarlıq məhsullarının istehsalı üzrə ixtisaslaşmışdır.

Tatarıstan nəqliyyatının əsas növü dəmiryol nəqliyyatıdır. Ucuz çay nəqliyyatı da respublika təsərrüfatının inkişafında mühüm rol oynayır.

Bir sözlə müasir Tatarıstan dinamik şəkildə inkişaf edən qədim bir türk diyarıdır.

* * *

Şərqdə Qızıl Orda ilə yanaşı Orta Asiyada, Mavərinəhirdə, Amu və Sırdərya çayları arasında, Aralın şərq ətəklərində digər bir qüdrətli imperiya tarix meydanına qədəm qoyurdu. Bu, tarixə Əmir Teymurun imperiyası kimi daxil olacaq Teymurilər imperiyası idi. Sərhədləri Mavərinnəhirdən Hindistana, oradan da Mərmərə dənizinə qədər uzanan səltənət türk dünyasının mühüm elm və mədəniyyət mərkəzinə çevrildi.

Kadr dəyişir. Özbəkistanın xəritəsi ekrana gəlir.

MƏTN: – Tarix boyu neçə-neçə sərkərdələrin, alimlərin vətəni olan Özbəkistan Mərkəzi Asiya ölkələri arasında mühüm yer tutur. Ərazisinin əksər hissəsi Amudərya və Sırdərya çayları arasında yerləşir. Ölkənin sərhədləri cənub-qərbdən Türkmənistan, qərbdən və şimaldan Qazaxıstan, cənubdan Tacikistan, şərqdən Qırğızıstanla həmsərhəddir. Ərazisinin 4/5 hissəsi düzənlik olsa da, burada dağlara, səhralara da rast gəlmək olur.

Ərazisi faydalı qazıntılarla zəngindir. Ölkədə əlvan metallar, qaz, neft və qonur kömür

istehsal olunur. İqlim şəraiti əkinçilik üçün əlverişlidir. Ölkənin əsas su mənbəyi Amudərya, Sırdərya, Zərəfşan çayları və çoxlu kiçik çaylardır. Bu çaylar üzərində 28 su-elektrik stansiyaları və xeyli su anbarları tikilib.

Özbək xalqı çoxsaylı qohum əqrəbalardan formalaşmışdır.

Özbəklər 14 milyon nəfərdir. Bu da ölkə əhalisinin 70%-ni təşkil edir. Bundan əlavə ölkədə ruslar, ukraynalılar, qazax və qırğızlar, tatar və qaraqalpaqlar, koreyalılar və həmyerlilərimiz – azərbaycanlılar da yaşayır.

* * *

Eramızdan çox-çox əvvəl bu yerlərdə qədim türklər əsasən maldarlıqla məşğul olurdular. Su mənbələrinə yaxın ərazilərdə məskunlaşan tayfalar az da olsa əkinçilik mədəniyyətinə də yiyələnmişdirlər. Vaxtilə şərqin qüdrətli dövləti olan Şumer ətrafda olan bütün xalqlara müsbət təsir göstərmişdi. Sonra Asiya hun mədəniyyəti, göytürklər və nəhayət, 1097-ci ildə hakimiyyətə gələn xarəzmşahlar Orta Asiyanın siyasi və iqtisadi inkişafında mühüm rol oynadılar. XII əsrin sonu, XIII əsrin əvvəllərində Uzaq Şərqdə – indiki Monqolustanın şimalında – Tibetdə yeni bir türk ulduzu parlamağa başladı. İliyinə, qanına qədər türk oğlu türk olan Çingiz xan tarix səhnəsinə çıxdı. Təbii ki, bütün fatehlər kimi o da ölkələr fəth etməyə başladı. Və onun yolunun üstündə dayanan ən qüdrətli dövlət Xarəzmşahlar imperatorluğu idi.

Məhəmməd Xarəzmşah monqol qoşunlarına məğlub oldu və döyüşdə öldürüldü. Vəziyyəti belə görən gənc sərkərdə şahzadə Cəlaləddin Mənkiburun atasının qoşununu bir yerə toplayaraq döyüşə girdi. Lakin monqol-tatar zərbələri altında yavaş-yavaş geriyə, Xəzər dənizi istiqamətinə çəkilsə də döyüşdə bütün qoşununu itirdi.

* * *

Qayıdaq tarixin saralmış vərəqlərinə. XIII əsrin birinci rübü. Azərbaycanda Atabəy özbək hakimiyyətdədir. Xəzinə boş, qoşun isə başıpozuq haldadı. Dəfələrlə gürcü basqınları ölkəni bezdirib. Elə bu basqınlardan istifadə edərək xalqı öz tərəfinə çəkməyə çalışan Cəlaləddin 1225-ci ildə Azərbaycana soxuldu. Gəncəni iqamətgah seçdi. Atabəy özbəyi taxtdan salaraq onun qadını ilə evləndi.

Bu faktı yadınızda saxlayın. Üç əsr sonra Azərbaycanın böyük oğlu Şah Xətai başqa cür hərəkət edəcək.

Qayıdaq Cəlaləddinə. Onun hakimiyyəti uzun çəkmədi. 1231-ci ildə Cəlaləddin öldürüldü və Xarəzmşah sülaləsinə son qoyuldu. Təqribən 130 il özbək tayfalarına vahid dövlət halında birləşmək müyəssər olmadı. 1336-cı il aprelin 9-da dünya tarixində mühüm rol oynayacaq bir uşaq dünyaya gəldi. Bu Turqay oğlu Teymur idi.

Kadr dəyişir.

MƏTN: – Turqay kişi oğlunu o vaxtlar Mavərinnəhrin hakimi olan Qazan xanın qulluğuna gətirir. Qazan onun ağıllı, zirək və diribaş olduğunu görüb qız nəvəsi Olcay Tarxan xatunu ona verir və Teymuru minbaşı təyin edir. Lakin az sonra Qazan xan sui-qəsd nəticəsində öldürülür. 10 il Teymur qaynı Əmir Hüseynlə mübarizə aparmalı olur. 10 il günlərlə səfil və sərgərdan gəzən Teymur sarsılmır.

Döyüşlərin birində məğlub olan Teymur canın zorla qurtararaq bir kolun dalında gizlənibmiş. Birdən onun gözünə bir qarışqa sataşır. Qarışqa apardığı dənlə yarğanı çıxmağa çalışır. Buna yalnız 70-ci dəfədə nail olur. Bunu görən Teymur halından utanır. Gizləndiyi yerdən çıxaraq yeni mübarizəyə başlayır. Və tezliklə istəyinə nail olur.

1369-cu ilin 8 aprelində Bəlxdə çağırılan qurultay Teymuru Mavərinnəhrin əmiri elan etdi.

Əmir Teymurun bu zaman 35 yaşı vardı. 35 yaşlı əmir fatehliyə başladı və 20 ölkəni işğal etdi.

* * *

Əmir Teymurun Azərbaycana yürüşləri barədə geniş məlumat verməyə ehtiyac duymuruq. Ömrünü saray əyanları arasında deyil, at belində, əsgərlər arasında keçirən Əmir Teymurun Azərbaycanla bağlı yalnız bir məlumatını diqqətinizə çatdırmaq istərdik. 1402-

ci ildə Ankaranın Çubuk meşə sahəsində İldırım Bəyazidi məğlub edərək geri dönən Əmir Teymur Azərbaycandan keçərkən Ərdəbildə müqəddəs bir şeyxin yaşadığını eşidir. Şeyxin onun yanına gətirilməsini tələb edir. Bu şeyx Şah İsmayılın ulu babası şeyx Səfiəddin idi.

Əmir Teymur şeyxdən bir möcüzə göstərməsini xahiş etdi. Şeyx Səfiəddin əlində bir qab təmiz südə saldı. Süd qana döndü. Heyrətlənən Teymur şeyxdən nə xahiş olduğunu soruşdu. Şeyx: "Əgər mümkünsə azərbaycanlı əsrləri azad edin" dedi. Və 10 min azərbaycanlı əsir azad edildi.

Kadr dəyişir.

MƏTN: – Teymurilər dövründə Özbəkistan ərazisi çiçəklənməyə başladı. Əmir Teymur elmin, ticarətin inkişafına böyük diqqət yetirirdi. Səmərqəndi ölkənin paytaxtı seçdi. Və onun inkişafı, çiçəklənməsi üçün dünyanın hər yerindən memarlar, sənətkarlar çağırdı. Əmir Teymur işğal etdiyi ölkələrdəki yaxşı sənətkarları paytaxt Səmərqəndə göndərirdi. Səmərqəndin simasının dəyişməsində azərbaycanlı ustalar da az iş görməmişdilər.

Səmərqəndlilər indinin özündə də şəhərin keçmiş abidələrini göz bəbəkləri kimi qoruyurlar. XIV əsrin sonu XV əsrin əvvəllərində Səmərqənd şərqin ən gözəl şəhərləri arasında dayanırdı. Elm, sənət, musiqi yüksək inkişaf dövrünə çatmışdı.

Kadr dəyişir.

MƏTN: – Teymurun ölümündən sonra da Səmərqənd ölkənin ən nəhəng elm bazası olmaqda idi. Xüsusən də Uluqbəyin dövründə. Uluqbəy Əmir Teymurun nəvəsi idi. 1394-cü ildə Sultaniyədə anadan olmuşdu. Sultan Şəhruh Mirzənin böyük oğlu idi. Lakin Uluqbəyi tarix səhifələrində yaşadan onun hökmdar olması deyildi. Uluqbəy dövrünün böyük ensiklopedik alimi, astronomu idi. Onun riyaziyyat, astronomiya sahəsində böyük kəşfləri olmuşdu. Xüsusilə də, "Zəqi-Cədidil Sultanın" əsəri astronomiya elmində yenilik idi. Onun rəsədxanasında şərqin böyük mütəfəkkirləri çalışırdı. Onlardan biri də azərbaycanlı alim Əli Quşçu idi. Uluqbəyin ölümündən sonra səltənət ayrı-ayrı xanlıqlara parçalandı: Kokond, Xivə, Buxara və sair xanlıqlar meydana çıxdı. XVI əsrin əvvəllərində özbək Şeybani xan nisbətən mərkəzləşmiş dövlət yarada bildi. Hətta Azərbaycan ərazilərinə də göz dikdi. 1509-cu ildə Şah İsmayıl Xətaiyə təhqiramiz məktub yazdı, Ərdəbili işğal edəcəyi ilə hədələdi, onu döyüşə çağırdı. 1510-cu ildəki döyüşdə Şeybani xan öldürüldü. Şah İsmayıl vaxtilə Sultan Cəlaləddinin elədiyini etmədi. 24 yaşlı şah Şeybani xanın ailəsini hörmətlə kəcavəyə mindirərək ata evinə göndərdi. Özbəkistan ərazisində yaşayan türklərin tarixi olduqca zəngindir. Qısa zaman kəsiyində bu şanlı tayfaların həyatı ilə sizləri tanış etmək imkanından məhrumuq. Amma onu qeyd edək ki, müasir Özbəkistan türk dövlətləri arasında

özünəməxsus yer tutur. Müstəqillik əldə edən Özbəkistan qısa vaxt ərzində Orta Asiyada aparıcı dövlətlərdən birinə çevrilib.

Kadr dəyişir. Tanrı dağlarından görüntülər ekranda bir-birini əvəz edir.

MƏTN: – Teymurilər dövlətindən şərqdə müasir qazax və qırğız türklərinin ulu babaları məskunlaşmışdılar. Qırğızlar Asiya hunları zamanında Hun birliyinə daxil olaraq Baykal gölünün qərbində digər türk boyları ilə birlikdə yaşayırdılar. Hun imperatorluğunun süqutundan sonra müstəqil dövlət qurdular. IV əsrin sonlarında bu dövlətin sərhədləri Baykal gölündən Tibetə qədər uzanırdı.

Göytürk imperatorluğu zamanında, xüsusilə də I Göytürk imperiyasının süqutundan sonra bir müddət də müstəqil oldular. Lakin II Göytürk imperiyası yaranan kimi yenidən xaqanlığın tərkibinə daxil oldular.

Göytürklər əvvəlcə uyğurları, 758-ci ildə qırğız dövlətini özünə tabe etdi. Müstəqillikləri uğrunda mübarizə aparan qırğızlar 840-cı ildə Ötükəni ələ keçirərək öz dövlətlərini yaratdılar. Bu dövlətin ömrü cəmi 80 il çəkdi. 920-ci ildə Monqolustanı ələ keçirən kitanlar Qırğızıstanı da Ötükəndən köçürdülər və onlar qədim yurdlarına qayıtdılar. Artıq qırğızların əvvəlki gücləri qalmamışdı. 1207-ci ildə onlar Çingiz xanın hakimiyyəti altına düşdülər. Bundan sonra qırğızlar müstəqil olsalar da bir daha güclü dövlət yarada bilmədilər.

1606-1642-ci illər arası ruslarla ciddi mübarizə aparıldı. Qonşu türk tayfalarının köməyi ilə qırğızlar 1860-cı illərə kimi rusları bu ərazilərə buraxmadılar. Yalnız 1860-1881-ci illər arasında aparılın müharibələrdə ruslar qalib gəldi və bütün qırğız elləri Rusiyanın tərkibinə keçdi. O zamanlar qazaxlar qırğızlarla birlikdə yaşayırdı. Təbii ki, qazaxlar da rusların hakimiyyəti altına düşdülər və ruslar qazaxları ayrıca quberniya halına saldılar. Eyni kökdən, eyni uluslardan meydana çıxan qazax və qırğız abidələri eynilik təşkil edir.

Kadr dəyişir. Qazax çöllərindən görüntülər ekranda bir-birini əvəz edir.

MƏTN: – Qazaxıstanın müasir ərazisi Şərqi Hun dövlətinin tərkibində idi. Eramızın 555-ci ilində turkyutlar Orta Asiya və Mərkəzi Qazaxıstanı ələ keçirdilər. Bu əraziləri ələ keçirən hər bir türk tayfası izlərini tarixin daş yaddaşlarında qoyub getmişlər. Qazaxıstan ərazisində adı çəkilən ilk şəhər IV əsrə aid edilən Tarazdır. Bir qədər sonra bərəkətli Çu vadisində tapılan daş pillələr VI-VIII əsrlərə aid edilib. Əks türk dövlətlərinə xas olan qayaüstü rəsmlərə bu ölkənin ərazisində də rast gəlinir. Saymal daş və Tamqal Tasda tapılan rəsmlər buna sübutdur.

* * *

Qazaxıstan ərazisində türk imperiyaları dəyişdikcə onlara məxsus abidələr qazax

çöllərində artırdı. Eramızın VII-XII əsrlərinə qədər İpək yolu Qazaxıstanın cənub ərazilərindən keçirdi. Təbii olaraq bu ərazilərdə yeni şəhərlər meydana çıxır, əhali oturaq həyat keçirirdi. Müxtəlif mədəniyyətlər bu ərazilərdə qarşılaşır, biri digərinə təsir göstərirdi. Lakin XIII əsrin əvvəllərində monqol istilası bir çox tarixi abidələri məhv etdi. Amma bu günümüzə qədər gəlib çıxarılar da oldu.

* * *

Hər xalqın özünəməxsus adət-ənənəsi var. O cümlədən qazaxların da. Amma elə adət-ənənə var ki, o bütün türk xalqlarında eynilik təşkil edir. Belə adətlərdən biri oğul evləndirməkdir.

Qazaxlar deyir: "Dünyada üç şeyin cavabını əvvəlcədən bilmək olmur. Kiminlə ailə quracağını, dünyaya gələcək uşağın oğlan, yaxud qız olacağım və öləcəyin günü. Elə ona görə də qədim qazax türkləri ailə həyatına çox ciddi yanaşırlar".

* * *

Qazax türkləri qədimdə elçi gedəndə şalvarın bir balağını çəkmənin içinə, o birisini isə üstünə salarmışlar. Adətən qız qohumlar arasından seçilərdi. Əvvəlcə oğlan atası bir toğlu götürərək gözaltı etdiyi qohumunun evinə yola düşərdi. Gətirdiyi toğlunu alaçığın qapısında yerə qoyub əvvəlcə sağ, sonra isə sol ayağını içəri qoyardı.

Elçiliyə gələn adam sözü birbaşa deməz, əvvəlcə ordan-burdan söz salar, sonra atalar sözünə keçər, ən nəhayətdə isə fikrini bildirərdi. Əgər ev sahibəsi qonağa yemək təklif edərdisə, deməli, qonağı bu evdə gözləyirmişlər. Sonra oğlan atası qızın nəslini tərifləməli, həmin tayfanın adlı-sanlı adamlarından danışmalı, sonra isə gələcək bəyin yaxşı cəhətlərindən söz açmalı idi ki, qız evi oğlana yaxşı bələd olsun. Ümumi razılıq olandan sonra oğlan atası gələcək gəlinə vermək üçün boyunbağı, qız atası isə qudasına çapan bağışlayardı.

Qədimlərdə ağ qoyun kəsilər, onun qanından kasaya tökülərdi. Təzə qohumlar öz oxlarının ucunu bu qanda yuyar, sonra qanı içərdilər.

* * *

Qazax türklərində evin, ocağın qoruyucusu qadın sayılırdı. Ona görə də qızlar üçün çoxlu başlıq tələb olunurdu. Varlı ailələr üçün bu başlıq 100 ədəd at, yaxud min baş qoyun təşkil edirdi. Orta ailələrdə atların sayı 47 olmalı idi. Bəzən başlığın verilməsi bir il, bəzən isə bir neçə il çəkirdi. Yalnız başlıq veriləndən sonra oğlan qızı görməyə gələ bilərdi.

Kadr dəyişir.

MƏTN: – Elçiliyə mötəbər adamlar gəlməlidirlər. Qonaqlar yeyib-içənə qədər qızlar onların xalatını palaza tikir, çölə çıxanda isə üzlərinə un

sürtür, sonra suya atırdılar. Bunun fəlsəfi mənası qohumluğun yaxınlaşması, bir ailə şəklinə çevrilməsi idi.

Evə qayıtmaq istəyən qonaqların ayaqqabılarının sol tayını gizlədir, yəhərin üzəngilərindən sümük asırdılar. Bu əhdə vəfa etməyə işarə idi.

Qeyd etdiyimiz kimi, başlığı ödəyən oğlan qızın görüşünə gələ bilərdi. Görüşə gedən oğlan yol boyu nəslinin, tayfasının qoçaqlığından bəhs edən mahnılar oxumalıdır. Qız evinə yaxınlaşan oğlan atdan düşür, onun üçün ayrılmış yurtaya aparılır. Yurtanın qapılarını oğlan özü gətirməlidir ki, bu da doğma divarlara arxalanmaq deməkdir. Valideynlər onların görüşməsinə mane olmurlar. Amma toya kimi qızın hamilə olması hər iki ailə üçün rüsvayçılıq sayılır.

Qızı aparan zaman bəydən hədiyyələr almaq üçün onun yolunda müxtəlif maneələr qoyulurdu. Birinci maneə uzun taxta olardı. Bunun mənası bəyi qəfil ölümdən qorumaq, ikinci maneə ağ-qara sapdan toxunmuş kəndir, mənası gecə və gündüz, xeyr və şərdən qorumaq, üçüncü maneə-ölümdən qorumaq, dördüncü isə itdən qorumaq idi. Hər bir maneəni keçəndə bəy hədiyyə verməli idi.

Gəlin köçən gün qız qohum-əqrəbası ilə görüşür, özünün vida mahnısını oxuyur, sonra xalça üzərində oturur. Oğlan adamları xalçanın dörd tərəfindən tutaraq qızı çiyinlərində aparırlar. Qız isə dönüb arxaya baxa bilməz. Bununla qız bütün ayrılığa, hicrana dözəcəyini bildirirdi.

Çölün öz qanunları var idi. Ailənin dağılması Allahın cəzası kimi qiymətləndirilirdi.

Sizləri qısaca da olsa qazax türklərinin oğul evləndirmək, qız köçürmək adəti ilə tanış etdik. Əlbəttə ki, müasir dövrdə bu adətlərin çoxu öz əvvəlki dəyərini itirib. Müasir Qazaxıstan sürətlə inkişaf edən bir türk ölkəsidir.

Kadr dəyişir. Nizami Xudiyevin çıxışı.

NİZAMİ XUDİYEV: – Dövrün tarixi-coğrafi mənzərəsinə nəzər saldıqca görürük ki, türk dövlətləri bir-birini əvəzləsə də onlar əsasən ənənəvi dədə-baba torpaqlarında yaşamış, elə buralarda da elmin, ədəbiyyatın, türk ədəbi dilinin inkişafı qayğısına qalmışlar.

İslamiyyətdən sonrakı ilk böyük dastanı qırğızlar yazdı. "Manas" adlı bu dastan Orta Asiya türklərinin müştərək dastanı oldu. Bu dastanı əzbər deyən akınları qırğızlar "manasçı" adlandırırdı.

Dastanı elm aləminə ilk dəfə XIX əsrdə qırğız-qazax türklərindən olan Çakan Vəlixanov təqdim etdi. 1885-ci ildə isə türkoloq Radlov tərəfindən qismən toplanaraq 12.452 misra həcmində Almaniyada çap edildi.

Üç bölmədən ibarət olan dastanın birinci bölümündə Manasın, ikincidə oğlu Səmətеyin, üçüncü bölümdə isə nəvəsi Səytəkinin qəhrəmanlığı tərənnüm edilir.

Bu epos türk xalqlarının azadlıq mübarizəsini özündə əks etdirən qiymətli bir əsərdir.

Dilin hakimiyyəti dövlətin də hakimiyyətini əbədiləşdirirdi. Altay və Sayan dağlarından Tanrı dağlarına, Şimali Çindən Avropanın mərkəzinə qədər, Cənubda Kəşmiri də çevrələyən nəhəng bir ərazidə türk dili, türk ədəbiyyatı çiçəklənir, bəşər xəzinəsinə yeni-yeni abidələr hədiyyə edirdi.

Kadr dəyişir. Qədim abidələr üzərində filmin sonluğu verilir.

ÜÇÜNCÜ FİLMİN SONU

2003-cü il

TÜRKLƏR

Dördüncü film

Hər xalq öz dilində görünür.
İ.Q.Herder

Ekranda qədim Azərbaycan xəritəsi. Xəritənin konturları arasından çöllər, dərələr, dağlar bir-birini əvəzləyir. Qaboy musiqisi bu kadrları müşayiət edir.

MƏTN: – Əfsanəyə görə böyük daşqınlardan sonra Azərbaycanın ərazisi də daxil olmaqla türk torpaqları Nuh peyğəmbərin böyük oğlunun idarəçiliyinə verildi. Yenə də Avrasiya qitəsinin dörd bir yerindən at kişnərtisi, qoyun-quzu mələrtisi, türk uluslarının hayqırtısı, türk bahadırlarının cəngi-cida səsləri eşidilməyə başladı. Beləliklə, dünyanın qədim yaşayış məskənlərindən olan Azərbaycan ərazisi insanların yaşadıqları, can atdıqları guşələrdən birinə çevrildi. Bunu arxeoloji qazıntılar zamanı əldə edilmiş maddi dəlillər də sübut etdi.

Füzuli şəhəri yaxınlığında, məşhur Azıx mağarasından tapılan və qədim daş dövrün (paleolit) Aşel təbəqəsindən üzə çıxarılan neondertal tipli insana məxsus 350-400 min il yaşı olan çənə sümüyü ölkəmizdə məskunlaşmış qədim insanların yaşadığı zamanlardan xəbər verir. Bu tapıntı öz qədimliyinə görə dünyada üçüncü hesab olunur (Fransa və İtaliyada tapılan

insan qalıqlarından sonra).

Mağaralarda yaşayan azıx antroplar 700 min il qabaq bəşər tarixində ən mühüm kəşflərdən biri olan od əldə etməyi və onu saxlamağı, sığınacaq – koma tikməyi də bacarmışlar. Odla ocaq insanın fiziki kamilləşməsində, ibtidai cəmiyyət şəklində formalaşmasında çox mühüm rol oynadı.

Azərbaycan ərazisində aşağı paleolit dövrünə aid daş alətlər Aveydağ və Damcılı mağaralarından da aşkarlandı.

Bütün bu düşərgələr hələ orta paleolit dövründə Azərbaycanda ibtidai insanların geniş ərazidə məskən salmalarına əyani sübutdur.

* * *

Miladan öncə X minilliyin əvvəllərində Azərbaycan ərazisində qədim daş dövrünü orta daş dövrü – mezolit əvəz edir. Mezolit kaman və oxun meydana gəldiyi bir dövrdür. Kaman və oxun kəşfi insanlara istehsaledici təsərrüfata keçməyə kömək etdi.

Neolit yeni daş dövründə (m.ö. VIII-VII minillik) Azərbaycan ərazisi tamamilə məskunlaşdı. Bu dövrün abidələri istər şimali, istərsə də cənubi Azərbaycanın bütün bölgələrindən tapıldı. Enolit (mis daş m.ö. VI-IV əsrlər) dövründə də ölkəmizin ərazisində onlarla qəbilələrin yaşadığı sübut edilmişdir. Əlikömək təpəsindən çoxlu miqdarda əhliləşdirilmiş at sümükləri aşkar edildi. 6 min ildən yuxarı yaşı olan bu tapıntılar Azərbaycanda atın ev heyvanı

kimi istifadə edildiyi ən qədim ölkə olduğunu göstərir. Bu dövrdə əkinçilik və maldarlıq yüksək inkişaf səviyyəsinə çatdı.

İlk və orta tunc dövrlərində Azərbaycan ərazisində xış meydana çıxdı, müxtəlif sənət növləri yarandı. Qobustan, Gəmiqaya, Dəlidağ qayaüstü rəsmlərində bunlar öz əksini tapdı. Dəmirin kəşfi qədim cəmiyyətlərdə bir inqilab yaratdı. Sinifli cəmiyyətin və dövlətin təşəkkülü üçün əlverişli şərait yarandı.

Kadr dəyişir.

MƏTN: – M.ö. III minilliyin son rübündə Kür-Araz mədəniyyətinin süqutu ilə əlaqədar olaraq Azərbaycanın və onun qonşularının həyatında yeni mərhələ başladı. Bu dövrdən etibarən o ərazilərdə maldarlığın inkişafı əmək məhsuldarlığını əhəmiyyətli dərəcədə yüksəltdi. Əkinçilik və maldarlıqla yanaşı müharibələr də əhalinin məşğuliyyəti səviyyəsinə çatdı.

Çox güman ki, Azərbaycan ərazisində ilk böyük tayfa ittifaqı tunc dövrünün sonlarında yaranmağa başladı. Qədim Azərbaycan ərazisində yaşayan tayfalar barədə ilkin yazılı mənbələr m.ö. XXIII əsrə aiddir. Bu mənbələrdə Kutilər, Tulubilər, Hurrilər və başqaları haqqında məlumatlara rast gəlirik.

Akkad hökmdarı Naramsın (Naram-Suen) artıq m.ö. XXIII əsrin sonlarında Mesopotamiyaya soxulmuş kutilərlə döyüşməli olmuşdu. Kutilərin başçısı Enridavazik Akkad qoşunlarını məğlub etmiş, bir əsr

Mesopatomiyanın ağalarına çevrilmişdilər. Lulibi və Hurrilər də o dövrün tarixində mühüm rol oynadılar.

İlk dəmir dövründə Urmiyə, Van və Kiçik Asiyanın şərq vilayətlərində mehri tayfaları yaşamaqda idi. Eyni zamanda niqimxilər, turukkilər və başqa tayfaların da adı çəkilir.

Artıq m.ö. IX əsrin II yarısından etibarən Urmiyə ətrafında Manna dövlətinin cücərtiləri meydana gəlmişdi. Yarandığı dövrdən qonşu Assurlar və Urarut çarları ilə mübarizə aparmalı oldu. Ölkənin çiçəklənmə dövrü hökmdar İranzunun dövrünə təsadüf edir.

İranzunun dövründə Mannanın qədim şərqin ən güclü dövlətlərindən birinə çevrilməsi ətraf dövlətləri vahiməyə salmışdı. Lakin daimi müharibələr onun süqutuna səbəb oldu və m.ö. VII əsrin II yarısında Mannanı Midiya dövləti əvəz etdi.

Midiyanın ilk illərində skiflər Azərbaycan ərazisinə soxuldular. Herodot yazırdı: "Bu yerlərdə midiyalıların skiflərlə döyüşü baş verdi. Midiyalılar məğlub oldular və öz hökmranlıqlarını itirdilər. Skiflər isə 28 il bütün Asiyanın tam sahibi oldular".

Skiflər Azərbaycanın yerli əhalisinin mədəniyyətinə, xüsusilə də hərbi iş sahəsinə müsbət təsir göstərirdilər. Herodot qeyd edir ki, midiyalılar öz oğlanlarını atıcılıq işini öyrənmək üçün skiflərin yanına göndərirdilər.

Midiya hökmdarlarından ən məşhuru Kiaksar (m.ö. 625-585-ci illər) idi. Exsil onu "Asiya üzərindəki hakimiyyətin banisi"

adlandırmışdı. O, Babil-Xaldey çarlığı ilə müqavilə bağladı. Aşşur ölkəsini darmadağın etdi. Keçmiş Manna torpaqlarını geri qaytardı.

Çox təəssüf ki, satqınlıq nəticəsində m.ö. 550-ci ildə Midiya süqut etdi. Hakimiyyət fars Əhmənilər sülaləsinin əlinə keçdi.

M.ö. 334-cü ildən Makedoniyalı İskəndər Kiçik Asiyaya daxil oldu. O, bir neçə döyüşdən sonra III Daranın ordusunu darmadağın etdi. Tezliklə Azərbaycan ərazisində Atropatena dövləti yarandı (m.ö. 321-ci il). 350 il tarix səhnəsində yaşamağa nail elan Atropatena daxili və xarici müharibələr nəticəsində süqut etdi.

Antik dövrdə Şimali Azərbaycan vilayətində albanlar və onlara qohum olan tayfalar yaşayırdılar.

Ptolemey göstərirdi ki, Albaniya "şimalda Sarmatiyanın bir hissəsi, qərbdə İberiya ilə həmsərhəddir".

Strabon "Kür çayı Albaniyadan keçir" – deyə qeyd edir. Beləliklə, Alban tayfaları Cənubi Qafqazın cənub-şərq, habelə Kür və Araz çaylarının arasındakı vilayətlərin yerli əhalisi idi.

226-cı ildə İranda hakimiyyətə Sasanilər gəldi. Cənubi Azərbaycan əraziləri tamamilə onların hakimiyyəti altına düşdü.

Alban hökmranları Sasanilərdən asılı olsalar da öz müstəqilliklərini qoruya bildilər. 313-cü ildə Albanlar xristianlığı qəbul etdi. Lakin bu din ölkə ərazisinə çox ləng yayılırdı, əsasən hakim təbəqələrin dininə çevrilirdi.

Mühüm ticarət yollarının üzərində yerləşən Bərdə V əsrdən başlayaraq Albaniyanın paytaxtı

oldu.

Arşaqilər və Mehranilər də buranı paytaxt kimi saxladılar. 628-ci ildə İran-Bizans vuruşmalarında xəzərlər Bərdəni dağıtsalar da, şəhər yenidən bərpa edildi. Bu dövrdə şimalda Şabran, Şamaxı, Xalxal, Amaras, cənubda Ərdəbil, Qazara, Marağa, Təbriz, Urmiyə kimi şəhərlər ticarət mərkəzlərinə çevrildi.

Atillanın şərqdən qərbə yürüşləri, türk tayfalarının qərbə axını Azərbaycandan da yan keçmədi.

V əsrin əvvəllərindən başlayaraq türk tayfaları Dərbənd keçidi vasitəsilə Azərbaycan ərazisinə soxuldular və yerli türklərə qaynayıb-qarışdılar. VII əsrin ilk rübündə Albaniya ərazisində yeni Mehranilər sülaləsi hakimiyyətə gəldi. Girdman hakimləri bütün Albaniyanın sahiblərinə çevrildilər.

Lakin VII əsrin ortalarından başlayaraq ərəb işğalları Atlantik okeanından Hindistanadək geniş bir ərazidə yaşayan müxtəlif xalqların həyatında köklü dəyişikliklər etdi. Qısa müddətdə Sasani imperiyası kimi qüdrətli bir dövlətin varlığına son qoymuş ərəblər Azərbaycanı da fəth edib, xilafətin tərkibinə qatdılar.

* * *

Ərəblər Azərbaycanı asanlıqla ələ keçirə bilməmişdi. İlk ərəb istilasından Babək hərəkatına qədər əhali dəfələrlə ərəblərə qarşı qalxmışdı. Xürrəmilər hərəkatının ilk dövrü Ərdəbil nahiyyəsindəki Bəzz qalasının sahibi

Cavidanın adı ilə bağlıdır. 816-cı ildən hərəkata Babək başçılıq etməyə başladı və onun mübarizəsi 21 il davam etdi. Bu illər ərzində Babək xilafətin 6 ordusunu darmadağın etdi. Xalifə Əl-Mütəsim ona qarşı məşhur sərkərdəsini – Bizansla müharibələrdə ad-san qazanmış türk əsilli Afşın Heydər İbn Kavusu göndərdi. 837-ci ildə, avqustun sonunda uzun mübarizədən sonra Bəzz qalası süqut etdi, 780 min üsyançı, 100 mindən çox ərəb əsgəri həlak oldu.

Babək erməni əsilli Səhl İbn Sunbatın xəyanəti nəticəsində ələ keçirildi və 838-ci ildə Samrə şəhərində edam edildi.

Kadr dəyişir.

MƏTN: – Xilafətdə başlanmış hərc-mərclikdən istifadə edən Heysəm İbn Xalid mənşəcə ərəb olan Məzyədilər arasında ilk dəfə olaraq qədim Şirvanşah titulunu qəbul etdi. Müstəqil Şirvan dövləti bərpa oldu.

Azərbaycanın cənubunda müstəqil Sacilər dövləti təşəkkül tapdı. Dövlətin yaranması mənşəcə türk olan Məhəmməd İbn Əbusac idi.

Rəvvadi Vahsudanın (X əsrin əvvəllərini – 1059) hakimiyyəti illərində Azərbaycan tarixində mühüm hadisələr baş verdi. Orta Asiyadan Cənubi Qafqaza oğuzlar, sonra isə səlcuqlar axışıb gəldilər.

XI əsrin sonunda bütün Qafqaz ərazisi, Orta Asiyadan Aralıq dənizinədək, Qafqazdan İran körfəzinədək olan torpaqlar Böyük Səlcuq

imperiyasının tərkibinə daxil edildi.

Səlcuq dövlətinin tənəzzülündən sonra (1092-1157) hakimiyyət çəkişmələri yeni dövlət formalarının – atabəyliklərin yaranmasına səbəb oldu. 1136-cı ildə Şəmsəddin Eldəgizin rəhbərliyi ilə Azərbaycanda da atabəylik yarandı və monqol işğalına kimi davam etdi.

Kadr dəyişir. Nizami Xudiyevin çıxışı.

NİZAMİ XUDİYEV: – Tarixin bütün mərhələlərində türkdilli tayfalar bu ərazilərin aborigen əhalisi olmuş, sonradan tarixi köçlər, hərbi yürüşlər zamanı bu əraziyə köçüb gələn tayfalarla birlikdə müasir Azərbaycan etnosunun təşkilində əsas rol oynamışlar. Bir sıra tarixi mənbələrdə, xüsusən də Herodotun, Strabonun, Ptolomeyin əsərlərində Azərbaycan ərazisində yaşayan tayfaların İran dilindən fərqli dildə (türk dilində) danışmaqları barədə verdikləri məlumat fikrimizi bir daha təsdiqləyir. Qeyd edək ki, dilin tarixi elə xalqın tarixi ilə bir vaxta başlayır. Ədəbi dil isə sonrakı inkişaf prosesinin nəticəsidir.

Azərbaycan dili ən qədim zamanlardan Avrasiyada geniş yayılmış türk dilləri qrupuna daxildir. Azərbaycan dilinin yaranması, inkişafı, milli əsaslar üzərində yenidən təşəkkülü türk dillərinin ümumi tarixinin tərkib hissəsini təşkil edir. Bir çox tədqiqatçılar türk dillərinin kök dildən ayrılıb parçalanmasını eradan əvvəl IV-III minilliyin əvvəllərinə aid edirlər.

Xalqımızın etnogenezi problemlərini araşdırarkən Azərbaycan ərazisinin cənubunda

yeni İran etnolinqvistik elementlərinin meydana çıxması faktı ilə rastlaşırıq. Lakin yerli aborigen etnolinqvistik massivdə bu, heç bir dəyişiklik edə bilmir. Azərbaycan əhalisinin gələcək dilini, etnik simasını türkdilli tayfalar müəyyən etdilər.

Tədqiqatçıların bir çoxu haqlı olaraq belə nəticəyə gəlir ki, "ümumxalq Azərbaycan dilinin formalaşması III-VII əsrlərdə türk dillərinin dialektləri əsasında baş vermişdir. Bu dil Qafqazda ümumünsiyyət dilinə çevrildiyindən getdikcə kütləvi şəkil alır, sonralar oğuz əsaslı qədim Azərbaycan dili formalaşır.

Şumer dili ilə Azərbaycan dili arasında paralellər aparmış mərhum türkoloq Aydın Məmmədov yazır ki, türk dilləri ilə qədim Ön Asiyanın yazılı mənbələri, o cümlədən Şumer dili arasında mövcud olan çoxsaylı oxşarlıqlar türk tipli dil sisteminin və onu Zaqafqaziya ərazisində təcəssüm etdirən Azərbaycan dilinin qədim laylarının eramızın ilk əsrlərinə deyil, daha qabaqlara, ən azı üç-dörd min il bundan əvvələ aid olduğunu sübut edir.

M.ö. III minilliyin birinci yarısında Cənubi Azərbaycan ərazisində protürk etnosları yaşayırdılar. Burada meydana gəlmiş ilk qədim dövlət Akatta Şumerlə hərtərəfli əlaqə saxlayırdı.

Miladdan öncəki dövlətlərdən Mannanın, Midiyanın əsasını təşkil edən də türkdilli tayfalar idi ki, onları Yaxın Şərqin avtoxton əhalisi hesab edirdilər.

Azərbaycanda türk etnosunun tarixi mövqeyindən bəhs edən tədqiqatlarda kimmer-

skit-sak probleminə də toxunulur. Məlumdur ki, skitlər m.ö. VIII əsrin əvvəllərində Kür-Araz ovalığında məskən salmış, bir əsr davam edən dövlət yaratmışlar. Sonradan onların bir hissəsi Şimali Qafqaza köçmüş, bir hissəsi isə burada qalıb, Azərbaycan xalqının etnogenetik təşkilində iştirak etmişdir.

M.ö. III-II yüzillikdə hunların Azərbaycana axınına qədər etnik siyasi hərəkatda əsas rolu sak etnosları oynamış, Azərbaycanda ilk etnolinqvistik mərkəzləşmə ehtiyacı da elə bu zaman özünü göstərmişdi.

Fəzlullah Rəşidəddin "Cami ət-tavarix" əsərində hunların Azərbaycana səfərindən belə bəhs edir: "Oğuz Şirvan tərəflərdən qalxıb Arrana, Muğana gəldiyi zaman yaz mövsümü idi. Bu vilayətlərin yaylaq yerlərini – Səbəlan dağlarına, Aladağ və Andabor dağlarına qədər ərazini tam ələ keçirdilər. Azərbaycan vilayətini də aldılar. Özlərinin xas atlarını otlaqları çox geniş və gözəl olan İcan səhrasının qoynunda bəslədilər. Orada olduğu sırada bir gün oğuz hər kəsə bir ətək torpaq gətirərək burada bir təpə yapmaqlarını əmr etdi. Böyük bir təpə oldu. Bu təpənin adına Azərbaycan dedilər".

Hun türklərinin Azərbaycana axını və burada məskunlaşması ölkədə gedən etnolinqvistik proseslərə əsaslı təsir göstərmişdir. Tədqiqatçıların yekdil rəyinə görə Azərbaycan dilinin formalaşması hunların bu ərazidə möhkəmləndiyi dövrdə daha da sürətlənir.

M.ö. I minilliyin ortalarından ümumtürk ədəbi dilinin ünsürləri fəaliyyətə başlayır və

regenal türk dillərinin, bunun ardınca isə ədəbi dillərin formalaşmasına təsir edir. Qədim türk şeirinin mükəmməl şifahi örnəkləri bu zaman meydana çıxır, sonrakı illərdə bu nümunələr yazıya alınıb saxlanılır.

İslam dininin qəbulu təkcə Azərbaycanda deyil, ümumən türk dünyasında böyük təbəddülat yaradır. Mərkəzi Asiyada, Ural-Volqaboyunda, Qafqazda, Kiçik Asiyada islam türk xalqlarının yeganə dini olur. Ərəblərin istilası Azərbaycan dilinin inkişafını ləngitsə də, tezliklə ərəblərin özünün assimilyasiyası başlanır.

IX əsrin ortalarından yeni türk axınlarının güclənməsi ilə Azərbaycan ərazisində yaranın müstəqil, yarım-müstəqil dövlətlər regionda ərəblərin siyasi nüfuzunu tamamilə aradan qaldırdı, Azərbaycan ədəbi dilinin tam keyfiyyətlə üzə çıxmasına təbii-tarixi şərait yaratdı. Bu dövrdə leksikasının təxminən 75%-i qədim türkcə olan "Kitabi-Dədə Qorqud" kimi bir dastanı ortaya çıxdı.

XI-XII əsrlərdə fars dilində yazıb-yaratmış Azərbaycan söz ustalarının demək olar hamısı özünün türk olduğunu əsərlərində etiraf etdilər.

Beləliklə, X-XII əsrlərdə Azərbaycan ədəbi dili artıq formalaşmış, oturaq dilə çevrilmişdi.

Kadr dəyişir.

MƏTN: – 1136-cı ildə İraq sultanı Məsud Arranı iqta kimi qardaşı II Toğrulun oğlu Arslan şahın atabəyi Şəmsəddin Eldəgizə verir. Alban tarixçisi Muxtar Qoşun məlumatına görə Şəmsəddin

“böyük hökmdarları Özünə tabe edib, türkmənlərin qiyamını yatırdı, Arran ölkəsində bütün çıxışların qarşısını aldı”…

Şəmsəddindən sonra hakimiyyət onun oğlu Məhəmməd Cahan Pəhləvana (1174-1186) keçir.

Cahan Pəhləvan Azərbaycanın idarəsini qardaşı Qızıl Arslana tapşırır və oğlu Əbu Bəkiri atabəyi təyin edir. 12 illik hakimiyyəti dövründə ölkə sürətlə inkişaf edir, xarici basqınlara son qoyulur.

Qızıl Arslan zamanı (1186-1191) Şirvanın müstəqilliyinə son qoyulsa da bu uzun çəkmədi. Onun ölümü (1196-cı il) ölkəni iki hissəyə parçaladı. Özbəyin dövründə isə Atabəylər dövləti tamamilə süquta uğradı.

Bu dövrdə Mehranilər nəslindən olan Həsən Cəlal (1215-1261) Arsak-Xaçın knyazlığının hakimiyyətini bərpa etdi. Qədim Albaniyanın bir hissəsi olan bu knyazlıq Xaçın çayla Tərtər çayın hövzələrini əhatə edirdi. Hələ ərəb işğalının ilk illərində başlanmış qirqoryanlaşma prosesi Arsak-Xaçın əhalisinin XII-XIII əsrlərdən alban dili ilə yanaşı qədim erməni dilini işlətməsinə gətirib çıxartdı. Alban katolikosu Nersesin xahişi ilə Həsən Cəlala 1216-cı ildə “Albaniyanın baş kilsəsi” adlandırdığı Qanzasar monastırının tikintisinə başlamaq üçün əmr verdi. Özünün çevik siyasəti ilə Həsən Cəlal, hətta, monqolların hücumu dövründə və ondan sonra da hakimiyyətini saxlaya bildi.

Monqolların Azərbaycana ilk yürüşü 1220-ci ildə baş verdi. Artıq bir il sonra Azərbaycanın

Marağa, Ərdəbil, Sərab, Xoy, Səlman, Naxçıvan, Beyləqan kimi şəhərləri tamamilə dağıldı.

Monqol hücumlarının ağır nəticələri aradan qaldırılmadığı bir şəraitdə şimal vilayətlərini talan etmiş qıpçaqlar Dərbənd keçidi vasitəsi ilə ölkəyə soxuldular. 1225-ci ildə isə Xarəzmşah Cəlaləddin cənub istiqamətindən ölkəyə soxuldu. Beləliklə, Eldəgizlər dövlətinə son qoyuldu. 1231-ci il Gəncə üsyanı Cəlaləddini xeyli zəiflətdi. Həmin il tatar-monqol sərkərdəsi Cormoqon onu asanlıqla darmadağın etdi. Marağa, Gəncə, Şəmkir, Bakı ələ keçirildi.

1239-cu ildə Dərbəndin istilası ilə Azərbaycanın fəth olunması başa çatdı, Şirvanşahlar 1258-ci ildə yaradılmış Hülakilər dövlətinin vassalına çevrildi. XIV əsrin II yarısında (1357-ci il) Cəlacını hökmdarı Uveys Azərbaycan əyanlarına arxalanaraq qızıl ordalıları Təbrizdən qovdu və yeni Cəlayirlər dövlətinin əsasını qoydu. Təbriz Cəlayirlər dövlətinin paytaxtı oldu. Bu dövlətin tərkibinə Azərbaycan, ərəb İraqı, fars İraqı, Ermənistan və Şərqi Anadolu daxil idi. Qarabağ ərazisi isə köçəri Cəlayiri əyanlarının qışlaq yerinə çevrildi.

1364-cü ildə Uveys Mosulu Diyarbəkiri ələ keçirdi. Dövləti müəyyən qədər gücləndirməyə nail olsa da Mavərnəhrdə Əmir Teymurun dövləti meydana çıxdı və yaxın Şərqdə vəziyyət kəskinləşdi. Tezliklə qonşu dövlətləri istila edən Teymur Azərbaycana doğru irəlilədi.

1386-cı ildə Teymur Təbrizi ələ keçirdi. Minlərlə azərbaycanlı sənətkar Səmərqəndə göndərildi. Lakin xalq qəsbkarlara qarşı

mübarizəni davam etdirdi. Əlincə qala və Naxçıvan qalalarının müdafiəçiləri böyük igidlik və dəyanət nümayiş etdirdilər. Onlar 14 il ərzində Teymurun və onun oğlu Miranşahın qoşununa qarşı qətiyyətlə müqavimət göstərdilər.

Ölkəni viran olmaqdan qorumaq üçün digər yolun olmadığını görən Şirvanşah I İbrahim çoxlu hədiyyələrlə Teymurun hüzuruna gəldi, Şirvanın daxili müstəqilliyini qoruyub saxladı.

Cənubi Azərbaycanda isə Miranşahın varisləri (Ömər və Əbubəkr) arasında şiddətli mübarizə gedirdi. Təbriz əldən-ələ keçirdi. Əhali Şirvanşahı Təbrizə dəvət etdi və onu sevinclə qarşıladı. Bütöv Azərbaycan ərazilərinin vahid siyasi sistemdə birləşdirilməsi imkanları xeyli artmışdı. Lakin tezliklə vəziyyət dəyişdi.

Cəlayiri Əhməd müttəfiqi Qaraqoyunlu türk tayfaları birliyinin başçısı Qara Yusiflə Azərbaycana qayıtdı.

1406-cı ilin oktyabrında Naxçıvanın qərbində Teymuri Əbubəkr Qara Yusif tərəfindən darmadağın edildi. Azərbaycan ərazisində yeni Qaraqoyunlu türk dövləti təşəkkül tapdı.

* * *

Qaraqoyunlular dövləti 1410-cu ildən 1464-cü ilə kimi mövcud oldu. Həmin il Muş vadisindəki döyüşdə Qaraqoyunlu şahı, gözəl şeirlər müəllifi Cahanşah digər bir türk tayfalarına – Ağqoyunlulara məğlub oldu. Ağqoyunlu padşahı Uzun Həsənin ətrafına

Bayandır, Bayat, Qacar, Əfşar kimi türk tayfaları toplandı. Avropanın bir çox dövlətləri onunla ittifaqa girərək Osmanlı imperatoru Sultan II Mehmedə qarşı qaldırdılar. Osmanlılarla müharibə Ağqoyunlu dövlətini zəiflətdi. Uzun Həsənin vəfatından sonra (1478-ci il) ölkədə hakimiyyət mübarizəsi başladı. Və tarix səhnəsinə yeni qüvvələr – Səfəvi şahları gəldi.

* * *

Səfəvi adı "səfəviyyə" təriqətini yaratmış Şeyx Səfiyəddindən (1252-1335) gəlir. Mərkəzləri Ərdəbil şəhəri idi. Şeyx Xoca Əlaəddin zamanında sayları və nüfuzları artdı. Anadolu, İraq və İranda müridlərin sayı xeyli çoxaldı. İlk Osmanlı sultanları "Çiraq akçası" adı ilə hər il onlara hədiyyələr göndərirdilər. 1460-cı ildə Şeyx olan Heydərin Uzun Həsənin qızı ilə evlənməsi onların nüfuzunu daha da artırdı. Şeyx Heydərin müridləri qızıl tac və xirqə geydikləri üçün onları "qızılbaşlar" adlandırırdılar.

Siyasi hakimiyyət uğrunda mübarizəyə qoşulan gənc İsmayıl tezliklə bütün türk bəylərini mərkəzi hakimiyyətə tabe edərək 1502-ci ildə Təbrizdə taxta çıxdı.

Beləliklə, Azərbaycan tarixində ən uzunömürlü (234 il) dövlətin bünövrəsini qoydu. 1503-cü ildə Ağqoyunlu Murad Mirzəni, 1511-ci ildə özbək xanı Şeybanini məğlub etdi.

1514-cü ildə Çaldıranda Yavuz Sultan Səlimə məğlub olsa da tezliklə əvvəlki mövqeyini bərpa etdi.

Şah İsmayıl qurduğu dövləti qısa zamanda böyük bir imperatorluğa çevirmişdi. XIV əsrin başlanğıcında Səfəvi ərazilərinin ümumi sahəsi 3,3 milyon kvadrat kilometr idi. İran, Şərqi Xorasan, İraq, Gürcüstan, Ermənistan, Şimali Azərbaycan, Dağıstan, Türkmənistan, Şərqi Ərəbistan əraziləri, Şərqi Anadoluda bugünkü Türkiyənin on iki vilayəti Səfəvi dövlətinin tərkibində idi.

Şah İsmayıl ömrünün 38-ci ilində vəfat etdi. (1524-cü il). Ölümündən sonra əmanət qoyub getdiyi torpaqları qoruyub saxlamaq mümkün olmadı. İmperiyanın sərhədləri get-gedə daralırdı. Bu işdə Osmanlılar da əsas rol oynadılar.

XVIII əsrin başlanğıcında, daha doğrusu 1736-cı ildə Əfşar soyundan olan Nadir şah hakimiyyətə gəldi. Onun zamanında mərkəzi hakimiyyət gücləndi. Hindistanın bir çox əyalətlərini özünə tabe etdi. Lakin əfşarlar Xənadanı cəmi 13 il hakimiyyətdə qaldı. Ondan sonra Qacarlar hakimiyyətə gəldilər və bu sülalə 1925-ci ilə kimi Cənubi Azərbaycanda hakimiyyətdə oldu.

Səfəvi Xanədanın əsasını qoymuş şah İsmayılın Azərbaycan tarixində özünəməxsus yeri var. Onun dövründə bütün hakimiyyət Azərbaycan türklərinə məxsus idi. Ali saray məmurları, hərbi rəislər, vilayət hakimləri azəri türkləri idi.

Salnamələrdə deyilir: “Əlahəzrət özünün şahlıq və həyatı illərində mötəbərləri və rəiyyətlə ədalətlə, mərhəmətlə rəftar edirdi.

Onun qorxusu qarşısında heç kəs əhalinin sıxışdırılması darvazasını açа bilmirdi. O, 38 il yaşadı. 24 il hökmdar oldu. O, döyüş meydanında şirə bənzəyirdi, qılınc oynadırdı. Təntənəli məclislərdə mirvari yağdıran bulud idi. O, səxavətinin çoxluğu üzündən yüksək əyarlı qızılla adi daş arasında fərqi görmürdü. Ovu ehtirasla sevirdi. Onun əmrilə şiri izləyənlər yəhərli at, pələngi (parsı) izləyənlərsə yəhərsiz at alırdılar. O, gözəl şeirlər yazırdı.

Şah İsmayılın sarayında Avropa elçiləri və səyyahlarına tez-tez rast gəlmək olardı. Hiyləgər Avropa kralları Şah İsmayıldan digər türk imperiyası – Osmanlılara qarşı istifadə etməyə çalışırdılar. Şərqin iki qüdrətli türk dövləti üz-üzə qaldıqca avropalılar rahat nəfəs alırdılar.

Səfəvilər zamanı, xüsusən də XVIII əsrin əvvəllərinə kimi ölkə inkişaf dövrünü yaşayırdı. Sənətkarlıq, ticarət inkişaf edirdi. Böyük şəhərlərin sayı artır, yeni-yeni şəhərlər meydana çıxırdı. Bununla yanaşı vergilərin sərtliyi əhalinin narazılığına səbəb olurdu. Bu narazılıqlar xalq üsyanlarına çevrilirdi.

1707-1721-ci illər arası Şirvanda bir neçə üsyan baş verdi. Nəticədə Şirvan xaqanlığı yarandı. Tezliklə Rusiya bu ərazilərə soxuldu. 1722-ci ildə I Pyotr Dərbəndi asanlıqla ələ keçirdi.

1723-cü il iyulun 27-də Bakı qalasını tutan ruslar Peterburqda bu münasibətlə yaylım atəşi açdılar. Bu zaman II Təhmasibin bir iş görə bilmədiyini anlayan Osmanlılar hərəkətə gəldilər. Tezliklə Tiflis ələ keçirildi, qoşun

Azərbaycanın şimalına doğru irəlilədi. Ruslar 1724-cü ildə İstanbul müqaviləsini bağlamağa məcbur oldular.

Beləliklə, Azərbaycan ərazisi iki imperiyanın döyüş meydanına çevrildi. Belə ağır şərait xalqın milli-azadlıq meyillərini gücləndirirdi. 1736-cı ilin martında Azərbaycan torpaqlarının çox hissəsi Nadir şahın hakimiyyəti altına düşdü. Lakin onun ölümündən sonra (1747) vahid Azərbaycan parçalanaraq müstəqil xanlıqlara çevrildi.

Öz hakimiyyətini, ərazisini genişlənməyə çalışan xanlıqlar vahid düşmənlə deyil, bir-birləri ilə mübarizədə yadelli qüvvələrə – ruslara, dağıstanlılara arxalanırdılar. Osmanlı dövləti də əvvəlki iddialarından əl çəkməmişdi. Rusiya-İran və Rusiya-Türkiyə müharibələri Azərbaycanın taleyini faciəli şəkildə həll etdi.

1828-ci ildə bağlanmış Türkmənçay müqaviləsi qədim Azərbaycan torpaqlarını iki yerə böldü. Araz çayı bir millətin dərd, ayrılıq simvoluna çevrildi.

Kadr dəyişir. Nizami Xudiyevin çıxışı.

NİZAMİ XUDİYEV: – XIII-XIV əsrlərdə Azərbaycan dilində olan mənbələrin çoxluğu ana dilinin ictimai-tarixi nüfuzunu göstərir.

Azərbaycan dilində bizə hələlik çatan ilk yazılı mənbə İzzəddin Həsənoğlunun qəzəlləridir. Sonrakı mənbələr içərisində Əlinin “Qisseyi-Yusif” mənzumnaməsi diqqəti cəlb edir.

XIV əsrin sonu, XV əsrin əvvəllərində yaşamış İmadəddin Nəsimi öz “Divan”ı ilə bu mərhələnin son mükəmməl mənbəsini təqdim edir.

Azərbaycan əbədi dilinin inkişafı Səfəvilər dövründə özünün yeni mərhələsinə yüksəlir. Azərbaycan dili dövlət dili statusu qazanır. Bir sıra Avropa səyyahlarının verdiyi məlumatda deyilir ki, Səfəvilər hakimiyyətinin ilk illərindən Azərbaycan dili saraydan tutmuş yüksək rütbəli, mötəbər şəxslərin evlərinə kimi yayılmışdı. Vəziyyət elə olmuşdu ki, şahın hörmətini qazanmaq istəyən hər kəs bu dildə danışmağı vacib bilmişdi.

Səfəvilər dövründə Azərbaycan ədəbi dili ən çox ölkənin mərkəzi olan Təbrizdə hakim olur, dövrün görkəmli söz ustaları – şairlər, alimlər bu dilin şirinliyindən gen-bol istifadə edirdilər.

XV-XVI əsrlər həm də Azərbaycan ədəbi dilində klassik mənbələrin üzə çıxdığı dövrdür. Şah İsmayıl Xətainin, Məhəmməd Füzulinin məsnəviləri, nəsr nümunələri bu mərhələnin ədəbi-bədii dil mənzərəsini müəyyən edir.

XV-XVI əsrin ən mühüm yazılı abidələri arasında Cahan Şah Həqiqinin, Nemətullah Kişvərinin “Divan”ı, Xətai Təbrizinin “Yusif və Züleyxa” məsnəvisi, Həqirinin “Leyli və Məcnun” məsnəvisi, müxtəlif mövzulu risalələr, Qurbaninin şeirləri mühüm yer tutur.

Şah İsmayıl zamanında Təbrizdə kitabdarlıq sürətlə inkişaf edir. Saray kitabxanası böyüyür, zənginləşir. XVII-XVIII əsrlərdə Azərbaycan

ədəbi dilinin ümumxalq dili əsasında formalaşması dövrü başa çatır, milli dil əsasında formalaşması dövrü başlayır. Milli ədəbi dil təşəkkül tapır.

Şimali Azərbaycan Rusiyaya birləşdirildikdən sonra Azərbaycan dili yeni keyfiyyət qazanmışdır. Azərbaycan Rusiya imperiyasından ötrü Türkiyəyə, İraqa, Ön Asiyaya açılan qapı idi. Azərbaycan dilinin sadəliyi və ümumtürk xarakteri ruslardan ötrü də qiymətli idi. Bu səbəbdən də Azərbaycan dilinin yeni mərhələsi dilin elmi əsaslar üzərində inkişafı ilə müşahidə olunur, dünya dilləri sırasında öz layiqli yerini tutur.

Türk dünyasını öyrənmək yalnız möhtəşəm bir tarixi öyrənmək məqsədi güdmür. Eyni zamanda türk dünyasının üzvi tərkib hissəsi olan Azərbaycanın etnomədəni gələcəyi üçün zəngin potensiya verir.

Kadr dəyişir.

MƏTN: – Çox qədim və zəngin tarixə malik olan Azərbaycan xalqı XIX əsrin birinci rübündə iki hissəyə – Şimali və Cənubi Azərbaycana bölündü. Şimali Azərbaycan 150 ildən yuxarı rus və sovet imperiyasının tərkibində olsa da öz milli varlığını, dilini, dinini, ədəbiyyatını qoruyub saxlaya bildi.

* * *

Çox-çox qədimlərdən türklərin yaşadığı bölgələrdən biri də Anadolunun şərq hissələri idi. Qədim mənbələr bu tayfaları türkmənlər adlandırır. Hun imperiyasının qərbə doğru genişlənməsi, türkdilli xalqların da qərbə doğru axınına səbəb oldu. Sonrakı dövrlər də (Göytürklər və sonra) bu köçlər davam etdi. IX-X əsrlərdə oğuzlar qıpçaq və karluklarla daima müharibələr şəraitində yaşayırdılar.

Rus salnamələri 1054-cü ildə Qara dənizin şimalında oğuzlarla qıpçaqların döyüşündən bəhs edir. 964-965-ci illərdə Dunayı keçən oğuzlar qollara ayrılaraq Balkanlarda geniş bir istila hərəkatına başladılar. Trakiya Makedoniya və Səlanik bölgələrini talan etdilər. Yalnız havaların soyuması onların bu ərazilərdən çıxıb getməsinə səbəb oldu.

X əsrin başlanğıcında Temir Yalıq (Dəmir yaylı) adı ilə tanınan və Xəzər çöllərində yaşayan bütün türk boyları içərisində məşhur olan sərkərdənin ailəsində Səlcuq adlı bir oğlan dünyaya gəldi. Atasının ölümündən sonra 18 yaşlı Səlcuq oğuz bəylərinin sərkərdəsi oldu və Sırdərya çayı kənarındakı kəndə gəldi. Tezliklə islamı qəbul etdi. Bir tərəfdən güclü türk dövləti Qaraxanilər, digər tərəfdən Somanilərlə əhatə olunmaqlarına baxmayaraq, müstəqilliklərini qoruya bildi.

Səlcuq bəy öləndən sonra onun nəvələri Çağrı və Toğrul bəylər 17-21 yaşında idilər. Səlcuq dövlətinin təşkilatlanması və inkişafında bu iki ərənin çox böyük xidmətləri oldu.

Kadr dəyişir.

MƏTN: – Yarandığı ilk günlərdən qonşu dövlətlərlə, xüsusən də Qəznəvilərlə müharibə aparmağa məcbur olan səlcuqlar getdikcə Mərkəzi Asiyanın güclü dövlətinə çevrildi. 1040-cı ilin 20 mayında səlcuqlar Mərv yaxınlığındakı Dandanakan qalasının önündə meydan savaşına girdilər və Sultan Məsudun ordularını darmadağın edərək tam müstəqil bir dövlətə çevrildilər. Taxta oturan Toğrul bəy gur səsi ilə bir-bir bunları söylədi: "Bəylərim, qəhrəman ordumuzun böyük sərkərdələri, qardaşlarım, bütün millətim! Şükür olsun, min dəfə şükürlər olsun ki, Tanrı bizə bir yurd və bu gözəl yurdda yeni bir dövlət qurmaq şərəfi verdi. Bu gün bu vəzifəni yerinə yetirir, bu yeni türk dövlətinin qurulduğunu bütün cahana elan edirəm. Baş-başa verib, ayrılığa düşməsək, təməlini əzm və inamla qoyduğumuz bu dövlət əzəmətli bir qüvvətə qovuşacaq, Doğudan Batıya, güneydən quzeyə mümkün ola bildiyi qədər genişlənəcəkdir.

Ulu Tanrı türkü daima müzəffər qalsın!"

Səlcuq dövlətinin ilk sultanı Toğrul bəyin ölümündən sonra hakimiyyətə 36 yaşlı Alparslan gəldi. Alparslan Toğrul bəyin Ön Asiyanı fəth etmək siyasətini davam etdirdi.

Güclü ordu ilə Bizans sərhədlərinə çataraq Ani qalasını mühasirəyə aldı. Güclü müdafiə sistemi ilə təchiz olunmuş qala basılmaz hesab edilirdi. Lakin türk qüvvəsinin zərbələrinə dözməyən qala müdafiəçiləri təslim oldular. Anadolunun qapıları bir-bir səlcuq türklərinin

üzünə açıldı.

Bizans kraliçası Odokya: “Mən ancaq türkləri dayandıracaq bir sərkərdəyə ərə gedəcəyəm və Bizans taxtında onu oturdacağam”, – dedi. Belə bir sərkərdə Romen Diogen oldu. Lakin Anadoluya türk axınları davam etməkdə idi. Ərciş, Əhlət, Mənbic kimi qalalar alınmışdı. Diogen hərəkətə gəldi. Şərq səfərinə çıxmazdan öncə Ayasofiyada keçirilən böyük dini mərasimdə iştirak etdi. Burada olan möhtəşəm “Qızıl Xaç”ın önündə zəfər üçün dua etdikdən sonra 13 mart 1071-ci ildə əzəmətli ordusu ilə hərəkətə başladı.

Türk sərkərdəsi Əmir Sunduk qəfil hücum edərək Əhlətdəki Bizans ordusunu darmadağın etdi və “Qızıl Xaç”ı ələ keçirdi.

Alparslanın ordusu çox sürətlə Malazgirt önünə gəldi və 24 avqust 1071-ci ildə ordugahını qurdu. Lakin sultan lazımsız insan qırğınının qarşısını almaq üçün Diogenin yanına bir elçi heyəti göndərdi. Bizans imperatoru türk elçilərini istehza ilə qarşıladı və barışıq müqaviləsini Reydə imzalayacağını, atlarının isə Həmədanda qışlayacağını söylədi.

Elçi heyətinin başçısı Cav Təkin bu sözlərə dözməyərək dedi: “Atlarının Həmədanda qışlayacağı doğrudur, amma sənin harada qışlayacağını bilmirəm”.

XI əsrin ən böyük meydan savaşı cəmi üç saat çəkdi. Bu qısa müddət ərzində o böyüklükdə Bizans ordusu darmadağın edildi.

Qüdrətli Bizansa baş əydirən, Anadolunu yurd edən türklər qərb dünyasını qorxutmuşdu.

Xristianlar həm Bizansı türklərə vermək istəmir, həm də öz təhlükəsizliklərini təmin etmək istəyirdilər. Ona görə də "Qudsu azad etmək!" bayrağı altında şərqə xaç səfərləri – səlib müharibələri təşkil edirlər.

Türk sərkərdələri dəfələrlə səlibçiləri darmadağın etdilər. 1176-cı ildə Mikyakeflonda Bizans imperatoru Manuel əsir alındı. 1183-cü ildə türklər Egey dənizinə çatdılar.

Anadolu Səlcuq dövlətinin yıxılmasından sonra Ərtoğrul Qazinin kiçik köçəri tayfasının qısa zamanda böyük, güclü bir imperatorluq halına gəlməsində də səlcuqların qoyub getdikləri dəyərlər əsas rol oynadı. Sonradan bu kiçik Osmanlı bəyliyi böyüyərək Osmanlı imperatorluğuna çevrildi.

Osmanlı dövlətini yaratmış Osman Qazi oğuz türklərinin Qazi boyundan olmuş Qazi Ərtoğrulun oğludur. Bizansla müharibələrdə torpaqlarını genişləndirərək Qara və Mərmərə dənizləri ətrafındakı torpaqları tutmuşdu.

1299-cu il I Osmanın taxta çıxması və Osmanlı dövlətinin yaranması tarixi kimi qəbul edilir. Osman Qazidən sonra gələn nəsil də, onlara tabe olan millət də "Osmanlı" adlandırılırdı.

Sonradan bu dövlətin sərhədləri Avropaya – Balkanlara qədər uzandı. Bunu fateh Sultan Mehmet etdi.

İki imperatorluğu, dörd krallığı, altı prinsliyi, dörd əyaləti tutaraq 17 dövləti dünya xəritəsindən silmiş fateh 1453-cü ildə İstanbulu fəth etməklə bütün Anadoluya, sonradan isə

Balkan yarımadasına da sahib oldu.

Beləliklə, Sakit okeandan tutmuş Balkanlara, Avropanın mərkəzinə, Hindistanın şimalına kimi geniş bir əraziyə şanlı türk dövlətləri hakim oldular.

Kadr dəyişir. Filmin son kadrları efirə verilir.

SON

2003-cü il

ƏBƏDİYYƏT ÜNVANI

Naxçıvan Muxtar Respublikasının
80 illiyinə həsr olunur.

BİRİNCİ FİLM

“MİN İLLƏRİN XATİRƏSİ”

* * *

Azərbaycanın qədim və zəngin tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan diyarı mürəkkəb və çətin inkişaf yolu keçmişdir. Orta əsrlərdə Şərqin iri elm, mədəniyyət, ticarət və sənətkarlıq mərkəzlərindən biri kimi şöhrət qazanmış Naxçıvan dünya sivilizasiyasına dəyərli töhfələr vermişdir.

Heydər Əliyev

* * *

Ağır daş qapılar açılır. Naxçıvanın ən qədim dövrlərini əks etdirən muzey ekspozisiyasını, Gəmiqaya maketlərini, ən qədim qayaüstü yazıları, piktoqrafik işarələri görürük. Külək səsi gəlir. Dəyirman çarxları fırlanır.

Dəyirman çarxları tarix yolu kimi irəliləyir, fələklər kimi fırlanır. Hiss olunmadan sıldırım qayalar, Əshabi-Kəhf görüntüləri, Dədə Qorqud xatirə təsvirləri diqqəti cəlb edir.

MƏTN: – Dünyanın doğuluşundan, tarixin ilk

çağlarından baş alıb gələn türk taleli karvan yolu yeddi min il əvvəlin Gəmi-qaya zirvələrinə çatmışdı. Ümidləri, sevdaları sevinən, gülləri gülən bir yaz günü idi. Göylərə qapı kimi açılan Gəmiqayanın mübarək daşlarına əcdadlarımızın qadir əllərilə yurdun əbədiyyət avtoqrafları yazılırdı…

Min illər keçdi, mifik təfəkkürün yaddaş xatirələrinə görə, Tanrı göndərişli Nuh Nəbi bu yurd yerlərində dünya daşqınından xilas oldu, quruya çıxdı; Nuhçıxan – Naxçıvan dedilər bu yurda…

Daha min illər keçdi, qadir Allah "Quran"da müqəddəs məkan kimi nişan verdi buyurdu. Əshabi-Kəhf xatirinə "Quran"ın yüz on ayəlik on səkkizinci surəsi – Əl-Kəhf ("Mağara") surəsi nazil oldu…

Daha sonra 1300 il əvvəlin müdriklik dünyası – Dədə Qorqud dünyası dil açdı, verdiyi çoxsaylı yer-yurd adları ilə əbədiyyət avtoqrafları yazdı Ərgənəkon misallı bu doğma torpağın, əzəli yurd yerlərimizdən biri olan Naxçıvanın yaddaşına…

* * *

Naxçıvan tarixinin ən qədim dövrlərindən danışan tarixçi alim xüsusi elmi-tarixi faktlarla sübut edir ki, bu yurd əzəli türk torpağıdır, türk-Azərbaycan tarix və mədəniyyətinin yaddaş saxlancıdır. Muzeydə danışan alimin sözləri yeri gəldikcə fakt-kadrlarla təsdiqlənir.

MƏTN: – Naxçıvan toponimlərində, yer, yurd adlarında min illərin türk etnogenetik yaddaş enerjisi yaşayır, qədim tarix düşünür, mifik təfəkkür dil açır.

Mifoloji qaynaqlar soraq verir ki, dünya daşqınından xilas olmaq, quruya çıxmaq ümidilə bu yerlərə gələn Nuh peyğəmbər gəmisinin nəyə isə toxunduğunu hiss edib dedi: "İnan ki, dağdır". Bu dağa İnandağ, İlandağ, gəmi zirvəsinə toxunub böldüyü üçün Haçadağ dedilər…

Sonra Nuhun gəmisi başqa bir dağa toxundu. Nuh Nəbi gəmidəkilərə üz tutub dedi: "Bu dağ əvvəlkindən kəm ki, deyil". Beləcə İlandağın – Haçadağın qonşuluğunda ucalan bu başı qarlı dağa Kəmki dağı dedilər…

Bunlardan əvvəl isə mifoloji inama görə bəşəriyyəti dünya daşqınından xilas edən gəmi başqa bir dağa toxunmuşdu. Və Nuh demişdi ki, nə ağır dağdı… Beləcə, indi qardaş Türkiyə ərazisində ucalan, əbədiyyət ünvanlarımızdan biri olan əzəmətli dağ – Ağrıdağ adlandırılmışdı… Və Nuhun gəmisinin quruya çıxdığı bu ulu yurda, müqəddəs məkana Nuhçıxan – Naxçıvan dedilər…

Türk mifik təfəkkürünün, etnogenetik yaddaş enerjisinin diktə etdiyi belə Naxçıvan ünvanlı toponimik açıqlamalar, xalq etimologiyası yozmaları onlarla, yüzlərlədir. Bu, tariximizin dilimizdə əbədiləşən, milli təfəkkürümüzdə kodlaşan qan, gen yaddaşıdır. Bu, milli dünyadərkimizin, ümummilli duyğumuzun, düşüncələrimizin, ruhumuzun yaddaşıdır.

Bu məqamda Nuhçıxanın – Naxçıvanın Gəmiqaya zirvəsi düşür yada. Çünki Nuhun gəmisi Kəmkidən sonra Gəmiqayaya yan almış, burada qalaraq dalaşmışdır. Beləliklə, mifik təfəkkür Gəmiqayanı dünya daşqınından xilas nöqtəsi kimi təqdim edir…

Min illərin xatirələrini danışan Gəmiqaya təsvirləri dəniz səviyyəsindən 3907 metr yüksəklikdə yerləşən Qapıcıq zirvəsinin cənub və qərb yamaclarındakı Nəbiyurdu, Camışölən və Qaranquş yaylaqlarındadır…

Ulu əcdadlarımızın, qədim insanların həyat, dünya haqqında təsəvvürləri, mifoloji duyğu və düşüncələri, əsatiri, inam və etiqadları, bunlardan daha əvvəl isə yaratmaq eşqi, ilkin sənət sevgiləri əbədiləşib bu qayaüstü təsvirlərdə. Baxdıqca min illərin xatirəsi dil açır, mifik dünyamızın əbədiyyət ünvanlarından birini nişan verir. Hansı həqiqətlər kodlaşıb, nələr gizlənib bu sirli təsvirlərdə? Alimlər hələ ki, dəqiq bir elmi nəticəyə, ümumi məxrəcə gələ bilmir. Tədqiqatların, elmi axtarışların miqyası genişlənir, arxeoloji tapıntılar çoxalır. Yəqin ki, Gəmiqaya sirlərinin bütünlüklə açılacağı gün uzaqda deyil.

Kiçik Qafqaz dağlarının zirvələrindən, Gəmiqaya ucalığından enib qədim tarix yolları ilə üzü bəri gəlirik. Qarşımıza 3500 yaşlı müdriklər müdriki, ağ saçlı bir şəhər çıxır. Bu, Azərbaycan tarixinin ən qədim çağlarına imzasını atan Naxçıvan şəhəridir.

* * *

Külək əsir, qədim dəyirman daşları çərxi-fələk kimi fırlanır. Muzey ekspozisiyasından Kültəpə maketi, arxeoloji abidələr, Dəmirçilər kəndindən tapılan qədim daşüstü yazılar göstərilir. Orxon-Yenisey əlifbasını xatırladan bu daşoyma yazılarından mətndən – adı çəkilən qədim maddi mədəniyyət abidələrinə, ulu memarlıq yadigarlarına keçid edilir.

MƏTN: – Bəşəriyyətin ilkin sivilizasiya beşiklərindən biri olan, dünyanın ilkin mədəniyyət ocaqlarından birini yandıran, hələ uzaq daş dövründən insan nəfəsilə isinən, ulu türk taleyinə beşik olan Naxçıvan tarix boyu öz sözünü dedi, öz əzəli-əbədi varlığını car çəkdi. Min illər boyu qayalara, daşlara ürək sözlərini, arzu və ümidlərini həkk etdi, dağlarda qan qardaşı qalalar ucaltdı, düzlərdə ulu yurd yeri binələr saldı, şəhərgahlar yaratdı Naxçıvan. Əcəmi Əbubəkr oğlu Naxçıvani kimi dahi memarlarının, cəsarətli övladlarının yaradıcı qüdrətilə, tükənməz vətən eşqi, torpaq sevgisilə abidə-abidə, şəhər-şəhər ucaldı. Elə ucaldı ki, zaman-zaman dünyanın hər yerindən göründü Naxçıvan.

* * *

Üç min beş yüzdən çox yaşı olan, ikinci əsr yunan coğrafiyaşünası Ptolomeyin "Coğrafi təlimnamə" əsərində Naksuana adlandırılan Naxçıvan tarix boyu çox sınaqlardan şərəflə çıxıb. Eramızdan əvvəl VI əsrdə Əhəmənilər, eramızın üçüncü yüzilində Sasanilər işğal edib, 625-ci ildə Bizans imperatoru İkinci İrakli

dağıdıb, az sonra Ərəb əmiri Həbib ibn Məsləmə viran qoyub bu şəhəri.

1121-ci ildə monqollar qana qərq edib, dörd il sonra Xarəzmşah Cəlaləddin qılıncla tutub, on dördüncü yüzilin səksəninci illərində Qızıl Orda xanı Toxtamışın, Teymurun qoşunları ayaqlayıb, viran qoyub bu şəhəri. Səfəvi-Osmanlı müharibələrində dəfələrlə əldən-ələ keçən, 1797-ci ildə Ağa Məhəmməd Şah Qacarın hücumu ilə üz-üzə dayanan, otuz il sonra rus imperiyasının işğal etdiyi bu şəhər – dünyanın nəqşi, tarixin möcüzəsi adlandırılan ulu Naxçıvan heç vaxt diz çökməyib, əyilməyib, zaman-zaman dəniz kimi özünə çəkilib, Babək qeyrəti, Əlincə qüdrətilə yaşayıb. Quran möcüzəli Əshabi-Kəhfin, Nuh xatirəli İlandağın, Ağrıdağın, türk-oğuz düşüncəli Gəmiqayanın, Oğlanqalanın tarix yaşlı yaddaşına söykənib, Qorqudların, Babəklərin, Atabəylərin, Əcəmilərin, Nəimilərin qalib ruhu ilə silahlanıb. Amansız düşmənlər dağıtdıqca yenidən tikilib, ulu köklərdən güc alaraq pöhrələnib, tarix boyu azadlığın müqəddəs ucalığından enməyib Naxçıvan.

Bəli, bunlar həqiqətdir! Qadir Allahın Həzrət Məhəmmədə xatırlatdığı, nişan verdiyi Əshabi-Kəhf də, ulu əcdadımızın nəhəng Oğlanqalanı ucaltdığı qabarlı əlləri də, o əllərlə Gəmiqayada oyduğu misilsiz, mübarək rəmzlər, rəsmlər, kosmik işarələr də! Teymur qoşunlarına baş əyməyən Əlincə qüdrəti də, güneyli-quzeyli birliyimizin Araz boyu abidə-avtoqrafları da, şərq poeziyasının daş qardaşı adlandırılan Əcəmi möcüzələri də həqiqətdir!

* * *

Qədim Naxçıvan abidələri üzrə mütəxəssis uyğun bir məkanda (ən qədim bir memarlıq kompleksi önündə) danışır. O, ilkin siklopik tikintilərdən, Dədə Qorqud eposu ilə uzlaşan yurd yerlərindən, toponimlərdən söz açır və danışdıqca məlum kadrlar onun fikirlərini təsdiqləyir. Bu söhbət, əsasən, miladdan əvvəlki tarix və mədəniyyət faktlarını əhatə edir. Alim Naxçıvanla bağlı söhbətini bizim eranın IV-V əsrlərinə qədər gətirib çıxarır və bu dövrlərdə Naxçıvanın dünya miqyasında məşhur bir şəhər olduğunu xüsusi olaraq vurğulayır.

MƏTN: – Qədim tarixi mənbələr soraq verir ki, bizim eranın başlanğıcında İran, Hindistan, Çin kimi böyük şərq ölkələrindən qərbə gedən ticarət yollarının üstündə yerləşən Naxçıvan IV əsrdə "dünyanın ən gözəl və ən məşhur şəhəri idi". Burada 30 min ev, 150 min nəfər əhali vardı… Qədim qaynaqlar onu da təsdiq edir ki, Naxçıvan şəhəri eramızdan əvvəl 1539-cu ildə, yəni 3543 il bundan əvvəl salınıb.

"Tarixin atası" adlandırılan Herodot özünün "Tarix" əsərində Araz çayından söz açır, qədim yunan alimi Klavdi Ptolomey "Coğrafi təlimnamə" əsərində dünyanın yeddi məşhur şəhərindən birinin Naxçıvan olduğunu göstərirdi.

XVI əsrin nüfuzlu ərəb coğrafiyaşünası Əl-Əşrəfi Nuhun qəbrinin Naxçıvanda olduğunu dəlillərlə təsdiqləyirdi.

Əl-Məsudi, Əbu-Duləf, Əl-İstəxri, İbn

Xordadbeh, Əl Həmədani, Biruni, Əl-Həməvi, Səhabəddin, Məhəmməd ən-Nəsəvi, Əbdürrəşid Bakuvi, Məhəmməd Ravəndi, Fəzulullah Rəşidəddin, Həmdullah Qəzvini, Moisey Xorenski, Jan Şarden, Əhməd ibn Lütfullah, Vilhelm Rubrik, Roders Aleksandr, Ryun Qonsales de Klavixo, Adam Oleari, Övliya Çələbi, Həsən Rumlu, Məhəmməd ibn Hinduşah Naxçıvani, eləcə də onlara başqa tarixçi və səyyahlar, qədim və orta əsrlərin ən nüfuzlu elm-zəka sahibləri Naxçıvandan xüsusi bir heyranlıqla söz açır, onu Arranın başlıca şəhəri, dünyanın bəzəyi, "nəqşi-cahan" adlandırırdılar.

* * *

Külək səsi. Əlincəqala təsvirləri.

MƏTN: – Zaman o zaman idi ki, Əmir Teymurun 40000-lik qoşunu Əlincə qalaya hücum çəkmişdi. Dünyada 1393-cü ilin küləkləri əsirdi. 1386-cı ildəki ilk yürüşündə qalanı fəth edə bilməyən Teymurləng neçə il idi ki, Əlincəni diz çökdürməyə can atırdı. Neçə-neçə ölkələr fatehi, neçə-neçə hökmdarlar qənimi Əmir Teymur Əlincə qala qüdrəti önündə acizliyini qəbul edə bilmir, hikkə ilə deyirdi: "Əlincə təslim olmalıdır!"

Dağ çayları dənizlərə axıb sığındığı kimi Əlincə dağın ucalığına, Əlincə qalanın ürək genişliyinə sığınan Naxçıvan igidləri car çəkirdilər: "Biz ölərik, təslim olmarıq!"

Əlincə qalanın divarlarına hörülən daşlar qəlpə-qəlpə qışqırırdı: “Biz yox olarıq, təslim olmarıq!”

Əlincə qalanın qan sızan ovuc-ovuc torpaqları yovşan ətrinin sirli səsilə göynəyirdi: “Biz nəsil-nəsil əcdadların ovuc-ovuc can yığını torpağıyıq, təslim olmarıq!”

Əmir Teymur qafil qəzəblə qışqırırdı, oğlu Miranşahı qamçılayırdı, hürufilərə divan tuturdu, Nəsimi ustadı Nəimini diri-diri dörd şaqqa etdirirdi, amma Əlincə qalanı təslim edə bilmirdi. Beləcə, fateh Teymurun amansız qoşunlarına qarşı 14 il mərdliklə döyüşdü, diz çökmədi, təslim olmadı Əlincə qala…

Bu, nağıl, əfsanə deyil, Azərbaycan tarixinin Naxçıvan hünəri, Əlincə qala həqiqətidir!

Tarixi mənbələrə görə iki min il bundan əvvəl ucaldılan, 1300 yaşlı “Kitabi-Dədə Qorqud”da möhkəm istehkam kimi təsvir edilən, haqqında X əsrin Asoğik, XIII əsrin Steranos, Nəsəvi, XV əsrin Rui Qonsales Klavixo, Şəraf -əddin Əli Yəzdi kimi məşhur tarixçi, diplomat və səyyahları tərif söyləyən Əlincə qala bu gün azad, müstəqil Azərbaycanın məğrurluq, məğlubedilməzlik simvoludur. Bu, Naxçıvan tarixinin daha bir əbədiyyət ünvanıdır…

* * *

Naxçıvanın neçə min illik həyat yollarını görmək, izləmək, bu yollara şahid olmaq istəsəniz Naxçıvan Muxtar Respublikasının Dövlət Tarix muzeyinə gəlin. Son illər yeni,

orijinal memarlıq biçimli binaya köçürülən muzeydə otuz beş mindən artıq maddi mədəniyyət abidəsi qorunub saxlanılır, nümayiş etdirilir. On şöbəni əhatə edən otuz beş mindən artıq tarix və mədəniyyət yadigarı! Bu, Azərbaycanın ən zəngin, mötəbər muzeylərindən biridir.

Naxçıvan Muxtar Respublikasının Tarix muzeyi İstiqlal küçəsində yerləşir. Görünür ki, bunun da rəmzi mənası var. Naxçıvan torpağı həmişə azadlığa, istiqlala can atıb. Muzeyin ekspozisiyalarında nümayiş etdirilən, fondlarında qorunub saxlanılan ulu tarix və mədəniyyət yadigarları hər biri ayrı-ayrılıqda və hamısı birlikdə ən əvvəl milli-mənəvi ruhumuzun istiqlal abidələridir. Bu abidələrin hansı ilə ürək söhbətinə qoşulsan, gün işığı, yaz havası hiss edərsən. Və qəfildən qanında, qəlbində yallı coş-qusu pöhrələyər, qara zurnanın, tulumbun sehrli səsləri qarlı zirvələrə dönər duyğularımızda.

Batabatda çalınan tulumb və qədim abidələr assosiativ keçidlərlə göstərilir.

* * *

Tarixçi-alim Naxçıvan haqqındakı ən qədim mənbələr, məxəzlər barədə məlumat verir. Məlumat sözçülükdən uzaq olmalı, real faktlara, tarixi ünvanlara əsaslanmalıdır. Muzeydən uyğun planlar bu söhbəti təsdiq etməlidir. Sonra Mömünə xatun türbəsi və digər orta əsr abidələri təqdim olunur. Nüfuzlu bir sənətşünas dahi memar Əcəmi Naxçivani və onun sənət yadigarları haqqında məlumat verir.

* * *

MƏTN: – XIII əsrin 20-ci illərində naməlum müəllif tərəfindən yazılan "Əcaib-əd dünya" əsirə ötən əsrləri xatırlayaraq soraq verirdi ki, "Naxçıvan Eldəgizin dövründə tam tərəqqiyə çatdı. Orada padşahlıq iqamətgahı yaratdılar və dövlətxana təsis etdilər…

Deyirlər, yer üzündə bundan çox əhalisi olan şəhər yoxdur. Orada çoxlu saray, köşk və eyvan vardır. Şəhərin yaxınlığında daşdan qala tikilmişdir. Qalada mədrəsə və məscid vardır. Bütün bunlar kəcdən və bişirilmiş kərpicdən inşa edilmişdir. Köşklərin çoxları qəsrlər kimi üç-dörd mərtəbəlidir. Şəhər başdan-başa yaşıllıqlara bürünmüşdür".

Əbdürrəşid Bakuvi 1403-1404-cü illərdə ərəb dilində yazdığı "Abidələrin xülasəsi və qüdrətli hökmdarların möcüzələri" adlı əsərində Naxçıvanı belə təqdim edir: "Azərbaycanda divarları və İç qalası olan gözəl şəhərdir".

* * *

Arpaçayın sahilindən, dumduru sularından diklənən Qaratəpə dağının zirvəsində təxminən dörd min il əvvəl ucaldılan bir qalanın yeri görünür. Bu, bir vaxtlar əzəməti ilə dünyanı heyrətləndirən Oğlanqalanın göynərtili xatirələri-dir. Çayın o tayındakı Qız qalası ilə üz-üzə ucalmış Oğlanqala… Arpaçay belə nakam sevgiləri çox görüb. Bu sevgilərdən bəlkə axırıncısıdır Sara və Xançoban dastanı. Deyirlər ki, günlərin bir günü Arpaçay aşdı, daşdı… Apardı sellər Saranı…

* * *

Naxçıvan Muxtar Respublikası Tarix və diyarşünaslıq muzeyinin direktoru bu qədim yurdun tarixi faciələri, dəfələrlə işğal olunması haqqında danışır. Eramızdan əvvəl VI əsrdə Əhəmənilərin (Haxamanişilərin) işğalından başlayan bu qanlı faciələr zaman-zaman davam etdirilir, çar Rusiyasının işğalına qədər uzanır.

Mütəxəssis bu faciələri danışdıqca uyğun təsviri materiallar göstərilir və sonra onu Naxçıvanın işğal faciələri ilə bağlı mətn bloku tamamlayır.

MƏTN: – Tarix boyu dağlarına arxalanıb, qalalarına güvənib Naxçıvan. Amansız düşmənlər, yadelli işğalçılar qarşısı alınmaz bir axınla hücum edəndə Əshabi-Kəhf, Nuh Nəbi müqəddəsliyinə, Əlincə, Oğlanqala qüdrətinə sığınıb, Qaranquş, Batabat kimi yaylaqların zirvə ucalığına çəkilib. Beləcə, dağları, qalaları, müqəddəs məkanları, uluca zirvələri, yaylaqları qalxana dönüb bu yurdun.

İndi yolumuz belə əbədiyyət ünvanlarından birinə – Batabat yaylağınadır. Naxçıvan şəhərinin otuz dərəcə istisindən çıxıb Batabatın can üşüdən qar-çovğununa, tufanına düşdük… Min illərin qəhrəmanlıq ruhu, cəngi xatirəsi yenidən dilə gəldi.

Zurnada "Cəngi" ifa olunur və uyğun planlar göstərilir.

MƏTN: – Batabatın möcüzələri yazda, yayda qar yağması, dolu düşməsilə, su donduran soyuqluğu ilə bitmir. Bu zirvədə qərar tutan göllərdən biri "Üzən adası" ilə məşhurdur. Gölün sularından

baş qaldıran ada il boyu hərəkət edir, gah güney, gah quzey sahillərə yaxınlaşır. Ona görə adına "Üzən ada" deyirlər.

Sarıca güllərilə ağca qarları "öpüşən", son illər dövlət qoruğuna çevrilən Batabat yaylağı Naxçıvanın ən gözəl dilbər guşələrindən biridir. Hər dəfə adı çəkiləndə unudulmaz şairimiz İslam Səfərlinin "Batabata gəlmişəm" deyən səsi düşür yadımıza.

İ.Səfərlinin ifasında o şeir səslənir.

* * *

Ordubadın ümumi görünüşü, dağları, qədim abidələri, muzeyi və s. göstərilir.

MƏTN: – Naxçıvan şəhərindən çıxıb cənub-qərbə, Zəngəzur silsiləsinin ətəklərinə doğru gedirik. Bu yolun 75 km-liyində, ehtimala görə V-VI əsrlərdə əsası qoyulan qədim bir şəhər gözləyir bizi… Bu, Ordubaddır. Öz milli memarlıq siması, özünəməxsus mədəniyyət dünyası olan ulu şəhər… Abidələrinin daş yaddaşından qılınc, qalxan səsləri gələn, əsrlərlə yaşı olan məğrur çinarları ilə göyləri əbədilik fəth edən doğma şəhər.

On birinci yüzilin böyük türk alimi Mahmud Kaşğari ordu sözünü "xaqanın yaşadığı yer, mərkəz" mənasında izah edirdi. Ordubad toponiminin tərkibindəki ordu sözünün "qoşun"

mənası XIV əsrdən sonra yaranmışdır. On dördüncü əsr tarixçisi Həmdullah Qəzvini "Nüzhət əl-qülüb" əsərində Ordubadın çoxlu meyvə bağları ilə əhatə olunduğunu, burada üzümçülüyün, taxılçılığın, ipəkçiliyin inkişaf etdiyini xəbər verirdi.

Bəli, bu, Ordubaddır. Naxçıvan Muxtar Respublikasının qədim, şöhrətli şəhərlərindən biri. Hər abidəsində, cığırında, yolunda, məhəlləsində tarixin dil açıb danışdığı bu şəhər keçmişlə gələcəyin, dünənlə bu günün görüş yeridir. Ordubad rayon tarix-diyarşünaslıq muzeyində həmin möcüzəli görüşün tilsiminə düşürsən.

Gəmiqaya zirvəsinin əzəli-əbədi alın yazılarından, Qapıcıq ucalığının Dədə Qorqudlu dünyasından, möhtəşəm Xaraba-Gilan xatirələrindən danışır bu yaddaş saxlancı.

Təbrizdə və Səmərqənddə iki əkiz tayı olan bu Qeysəriyyə-Zorxana memarlıq kompleksi 1980-ci ildə Heydər Əliyevin təşəbbüsü, xeyir-duası ilə tarix-diyarşünaslıq muzeyi kimi fəaliyyətə başlayıb. Ötən əsrin 70-ci illərində dahi dövlət xadimi Heydər Əliyevin müdrik uzaqgörənliyi ilə bütün Azərbaycanda, o cümlədən Naxçıvan Muxtar Respublikasında geniş tarix-diyarşünaslıq muzeyləri şəbəkəsinin yaradılması əsl tarixi hünər, böyük perspektivlərə hesablanan milli-strateji uğur idi. Bu yolla xalq öz tarixi gününə, xilaskar yaddaş enerjisinə qovuşur, ruhən, qəlbən səfərbər edilir, daha böyük yollara üz tuturdu.

* * *

Dünyanın əvvəlindən baş alıb gələn Naxçıvan ünvanlı tarix yolları misilsiz uğurlar qazana-qazana, əlçatmaz zirvələr fəth edə-edə, təəssüf ki, həm də zaman-zaman amansız işğallara, qırğınlara məruz qala-qala XX əsrin əvvəllərinə gəlib çatdı. Yenə qara-qanlı küləklər əsirdi, rus çarizmi, erməni faşizmi ağlasığmaz faciələr, fəlakətlər törədirdi Naxçıvanda.

* * *

Tarixçi alim XX əsrin əvvəllərində Naxçıvandakı real vəziyyəti, fəlakətlərin miqyasım xarakterizə edir, dəqiq mənbələrə, faktlara əsaslanır.

MƏTN: – Faciəli tarixi məqamda iki beynəlxalq müqavilə Naxçıvanın taleyində mühüm rol oynadı. 1921-ci il martın 16-da Moskvada bağlanmış Rusiya-Türkiyə müqaviləsinə əsasən Naxçıvan bölməsinin Azərbaycanın tərkibində saxlanması qərara alındı.

1921-ci il oktyabrın 13-də bağlanan Qars müqaviləsinin 5-ci maddəsində göstərilirdi: "Türkiyə hökuməti, Sovet Ermənistanı və Azər baycan hökumətləri razılığa gəlirlər ki, həmin müqavilənin üçüncü əlavəsində göstərilən sərhədlər daxilində Naxçivan vilayəti Azərbay-canın himayəsi altında muxtar ərazi təşkil edir".

* * *

İstər Qərbdə, istər Şərqdə yazılan, Naxçıvanı qədim Azərbaycan şəhəri adlandıran, Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu sübut edən nüfuzlu tarixi mənbələr onlarla, yüzlərlədir. Dindirsən, daşı, torpağı da Dədə Qorqud dilində danışar, qəlbimizin dünənindən, neçə min illik keçmişindən söz açar. Mömünə xatun, Qarabağlar, Yusif Küseyiroğlu türbələrindən, Kültəpə, Əlincə qala, Oğlanqala, Qalacıq, Gülüstan binələrindən, Ağrı, İlandağ, Nuhəsir dağlarından, Nuh Nəbi, Qaranquş, Batabat yaylaqlarından, hər bir kəndindən-kəsəyindən, yerindən-yurdundan Azərbaycan ruhu boylanır, Azərbaycan səsi gəlir bu ulu yurdun. Bu, Naxçıvandır – Azərbaycanın əzəli yurd yerlərindən, əbədi yaddaş qalalarından biri. Bu, Naxçıvandır – dünyanın əvvəlindən, tarixin ilk çağlarından ulu əcdadlarımızın sinəsinə Gəmiqaya qüdrətilə avtoqraf yazdığı əbədiyyət ünvanı…

Filmin əvvəlindəki təsvir və titrlər təqdim olunur, sonluq titrləri yazılır.

BİRİNCİ FİLMİN SONU

2004-cü il

ƏBƏDİYYƏT ÜNVANI

Naxçıvan Muxtar Respublikasının
80 illiyinə həsr olunur.

İKİNCİ FİLM

"HEYDƏR ƏLİYEV VƏ NAXÇIVAN"

* * *

Naxçıvan şəhəri yaz səhərinin güllərinə qərq olub. Qədim yurd daşları, qoç heykəlləri, ulu memarlıq abidələri və şux, təravətli yaz çiçəkləri qeyri-adi assosiasiya, ruhi ovqat yaradır. 3500 yaşlı ulu yurd yerinin, Naxçıvanın qədim və yeni görüntülərini əks etdirən belə ruhlu, assosiativ mənzərələr bir-birini əvəz edir, tamamlayır…

Səhər tezdəndir. Həmin assosiativ mənzərələrin yekunu olaraq üfüqdən boylanan günəş görünür. Əcəmi seyrəngahında panoram edən kamera gül-çiçəkli Naxçıvanı və üfüqdən baş qaldıran günəşi ümummilli liderimiz Heydər Əliyevin əzəmətli abidəsi ilə birlikdə göstərir. Və bu monumental planda kompüter qrafikası ilə filmin titrləri təqdim olunur.

Naxçıvanın dağları bütöv panoramla izlənir. Sanki dağların yaddaş kitabını oxuyuruq; mətndə xatırlanan tarixi hadisələr o yaddaş kitabı kimi səhifələnir.

* * *

MƏTN: – Dünyanın əvvəlindən, sivilizasiyanın ilkin çağlarından başlayan Naxçıvanın tarix yolu min illər boyu şərəflə irəlilədi, Gəmiqaya, Əshabi-Kəhf, Oğlanqala, Əlincə zirvələrindən keçdi, Qorqudların, Babəklərin, Şəmsəddin Eldəgizlərin, Əcəmi Naxçıvanilərin adı ilə şöhrətləndi, nəhayət, XX əsrin 20-ci illərinə qovuşdu. Tarixin bütün dövrlərində olduğu kimi yenə ağır sınaqlar gözləyirdi Naxçıvanı. Qədim yunan coğrafiyaşünası Klavdi Ptolomeyin öz dövründə "dünyanın 7 ən məşhur şəhərlərindən biri" adlandırdığı, "Əcaib-əd dünya" əsərində ünvanına "Deyirlər yer üzündə bundan çox əhalisi olan şəhər yoxdur" deyilən ulu Naxçıvan namərd qonşu xəyanətləri, erməni-rus işğalı ilə üz-üzə dayanmışdı. Gərgin hərbi-siyasi mübarizələrin, beynəlxalq miqyaslı diplomatik səylərin nəticəsində bağlanan Gümrü, Moskva və Qars müqavilələri Naxçıvanın taleyini həll etdi. 1921-ci il 16 mart tarixli Moskva və 13 oktyabr tarixli Qars beynəlxalq müqavilələri Naxçıvanın Azərbaycanın tərkibində Muxtar Respublika statusunu təsbit etdi. Xüsusi olaraq vurğulanırdı ki, Azərbaycan yalnız özünə məxsus olan bu himayəni üçüncü bir dövlətə verə bilməz. Beynəlxalq müqavilələr hüququ haqqında 1969-cu il 13 yanvar tarixli Vyana konvensiyasının 26-cı maddəsinə görə "Qüvvədə olan hər bir müqavilə onun iştirakçıları üçün məcburidir və onlar tərəfindən vicdanla yerinə yetirilməlidir". Buna görə həmin müqavilələr bu gün də böyük əhəmiyyətə, real beynəlxalq qüvvəyə malikdir. Təsadüfi deyil ki, müdrik siyasətçi, uzaqgörən

dövlət xadimi Heydər Əliyev 1992-ci il 22-25 martda Türkiyəyə səfəri zamanı Moskva və Qars müqavilələri haqqında yenidən söhbət apardı, onun ayrı-ayrı məsələlərini, xüsusilə, Muxtar Respublikanın statusunun tarixi taleyini geniş təhlil etdi və müqavilələrin xalqımızın həyatında mühüm rolunu dərindən aşkarladı.

Bir vaxtlar Mustafa Kamal Paşa Atatürkün "Türkün qapısı" adlandırdığı Naxçıvan 1924-cü ildə Azərbaycanın tərkibində Muxtar Respublika elan edilərək, əzab və sevinclərə, repressiya və tarixi uğurlarla dolu sovet dövrünü yaşamağa başladı. Moskvanın gizli imperiya niyyətlərinin acı bəhrələrinə, Ermənistanın zaman-zaman min bir məkrlə qoparıb aldığı doğma torpaqların ağrısına baxmayaraq, Naxçıvan Muxtar Respublikası 70 illik sovet dövründə bütün sahələrdə uğurlar qazandı, öz tarixi böyüklüyünü yenidən təsdiq etdi. Əsrimizin 70-ci illərində bütün Azərbaycan kimi, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası da daha sürətli inkişaf yoluna çıxdı, tarixdə misli görünməyən nəhəng tikinti-quruculuq, sosial-mədəni tərəqqi meydanına döndü.

Naxçıvan Muxtar Respublikası Dövlət Universitetinin rektoru, professor İsa Həbibbəylinin söhbəti mətni praktik şəkildə davam etdirir. Digər bir ağsaqqal – Naxçıvan Yazıçılar Birliyinin sədri Hüseyn İbrahimov 70-ci illərdə Naxçıvanda tikilən binalar, park və meydanlar, sosial-mədəniyyət obyektləri haqqında danışır.

* * *

MƏTN: – “Azərbaycanın siyasi-iqtisadi, mədəni və elmi həyatında mühüm rol oynamaqda olan Naxçıvanın qədim və çox zəngin tarixi vardır. Naxçıvan Azərbaycanın qədim torpağıdır və qədim zamanlardan Azərbaycanın ayrılmaz tərkib hissəsidir”. Bu sözlər Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyevə məxsusdur. 1969-cu ilin iyulunda Azərbaycanın rəhbəri seçilən Heydər Əliyev respublikamızın bütün bölgələrinə, o cümlədən, Naxçıvana son dərəcə həssaslıqla, diqqət və qayğı ilə yanaşmış, bütün sahələrdə həqiqi dirçəlişə, intibaha nail olmuşdur. İndi Naxçıvan Muxtar Respublikasının hər bir rayonunda, yaxın-uzaq hər bir guşəsində Heydər Əliyevin təşəbbüsü, köməyilə tikilən zavod və fabriklərə, çoxsaylı yaşayış binalarına, sosial-mədəniyyət obyektlərinə, geniş şəbəkəli meliorasiya və irriqasiya sistemlərinə rast gəlmək olar. Yerli əhali bütün bunlar haqqında fəxrlə, minnətdarlıqla danışır, 70-ci illərin xüsusi bir dövr – əsil yüksəliş, intibah dövrü olduğunu dönə-dönə qeyd edir.

* * *

Kazım Kazımov 50-70-ci illəri xatırlayır. Əvvəlcə düşüncələri fonunda mətn, sonra onun söhbətini eşidirik. Daha sonra bu mövzu orta və gənc nəslə mənsub adamların çıxışında davam etdirilir.

* * *

MƏTN: – El ağsaqqalı Kazım Hüseyn oğlu Kazımovdan Naxçıvan Muxtar Respublikasının sovet dövrü haqqında fikirlərini soruşduq. Naxçıvanda Badamlı zavodunun, ət kombinatının, duz mədəninin, yeddi şərab, bir konyak zavodunun, yeddi spirt sexinin, ümumilikdə, 242 obyektin tikintisində məsul şəxs kimi iştirak edən Kazım Kazımov uzun ömrün yollarına, xatirələrinin işığına üz tutdu.

Kazım Hüseyn oğlu Kazımovun söhbəti və gənc nəslə mənsub mütəxəssisin mülahizələri bir-birini təsdiq və davam etdirir, uyğun kadrlarla tamamlanır.

Sənədli-xronikal kadrlar Heydər Əliyevin Naxçıvanda gördüyü çox böyük işlərdən söz açır.

* * *

MƏTN: – Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətinin, eləcə də Naxçıvan Muxtar Respublikası Dövlət Televiziyasının fondlarında 70 illik sovet dövrünün müxtəlif mərhələlərini əks etdirən külli miqdarda bədii, sənədli, xronikal kino, video materiallar qorunub saxlanılır. Bunlar hamısı bizimdir, bizim tariximizdir. Yeri gəldikcə, dünənə qədər yaxın və artıq dəyişmiş başqa bir cəmiyyət, başqa bir ictimai-siyasi quruluş qədər uzaq olan o dövrü xatırlamaq da lazımdır. Bu, həqiqətdir ki, ümummilli liderimiz Heydər Əliyevin müdrik, uzaqgörən siyasəti nəticəsində Naxçıvan Muxtar

Respublikası ötən əsrin 70-ci illərində əsl inkişaf, intibah yoluna çıxmış, tarixi uğurlar qazanmışdır.

* * *

Əcəmi, Nəimi… Naxçıvanın əbədi mühitini əks etdirən kadrlar: Cəlil Məmmədquluzadənin ev-muzeyi, heykəli, Məmməd Səid Ordubadinin büstü, Hüseyn Cavid türbəsi, ədəbiyyat muzeyinin barelyefləri və s. göstərilir.

* * *

MƏTN: – Naxçıvan qədim maddi və mənəvi mədəniyyət beşiyidir. Memarlığın Əcəmi zirvəsinə yüksələn, sinəsində Nəimi ruhuna yer verən, sənətin Bəhruz Kəngərli rənglərilə öyünən bu qədim yurd zaman-zaman dahi ədiblər, şair və dramaturqlar yetirib. Ədəbiyyatımızın Cəlil Məmmədquluzadə və Hüseyn Cavid zirvələri Naxçıvanda baş qaldırıb, bütün dünyanı fəth edib.

* * *

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Hüseyn İbrahimov "Heydər Əliyev və Naxçıvan" ədəbi mühiti haqqında söhbət edir. Ona digər ağsaqqal və cavan ədəbiyyat adamları da qoşulur. Naxçıvanın xalçaları ümumi və fraqmental planlarda təqdim olunur.

"Heydər Əliyev və Naxçıvan mədəniyyəti" mövzusunda mütəxəssis söhbəti filmin ümumi xəttini davam və inkişaf etdirir. Müstəqillik dövründə Heydər Əliyevin iştirakı ilə Naxçıvanda, eləcə də Muxtar Respublikanın müxtəlif

bölgələrində açılan yeni obyektlər, təntənəli açılış mərasimləri göstərilir.

"Ümid" körpüsünün, idman kompleksinin, məscidin, Hüseyn Cavid türbəsinin və s. açılışlarında ümummilli liderimiz Heydər Əliyev, eləcə də Azərbaycan prezidenti İlham Əliyev və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov görünürlər… Bu blokun sonunda Naxçıvanda son vaxtlar həyata vəsiqə alan nəhəng obyektlər, xüsusilə, Naxçıvan beynəlxalq hava limanı təqdim olunur; limanın rəisi Heydər Əliyevin xüsusi təşəbbüsü və daimi diqqəti, qayğısı nəticəsində tikilən bu nəhəng obyektin fonunda danışır, ümummilli liderimizin əməyini xüsusi olaraq vurğulayır, təqdim edir. O, danışdıqca uyğun planlar göstərilir.

* * *

MƏTN: – Zəngin ənənələrinə, özünəməxsus rəng-naxış sisteminə, bənzərsiz sənətkarlıq məziyyətlərinə malik Naxçıvan xalçaları… Nəbati naxışların bolluğu, qeyri-adi ahəngdarlığı ilə seçilən bu xalçalar yenicə yaradılan Naxçıvan Dövlət Xalça muzeyində nümayiş etdirilir. Muzeyin direktoru, Muxtar Respublikanın əməkdar mədəniyyət işçisi Arif Qədimov Naxçıvan xalçaları haqqında söhbətinə çox-çox uzaqlardan, neçə min ilin Nuh Nəbi xatirələrindən başladı. Naxçıvan ziyalıları "Nuh haqqında Arif Qədimovdan soruşun" demişdilər. Odur ki, o uzaq, mifik söhbət Heydər Əliyevlə tamamlandı. Xalq rəssamı Kamil Əliyevin yaratdığı "Heydər Əliyev" portret xalçaları indi Naxçıvan Dövlət Xalça muzeyinin bəzəyinə, şöhrətinə çevrilib.

* * *

Naxçıvan Dövlət Xalça muzeyinin direktoru Arif Qədimov "Heydər Əliyev" portret xalçalarını təqdim edir, onların tarixini danışır.

Naxçıvan Muxtar Respublikasının monumental xəritəsi panoram olunur. Xəritədə ikili təsvirlə Naxçıvan mənzərələrinə keçid edilir. Müstəqillik dövründə Heydər Əliyevin Naxçıvana daim diqqət və qayğı göstərməsi filmin bu blokunda xüsusi vurğulanır.

* * *

MƏTN: – Naxçıvan Muxtar Respublikasının sovet dövrü, xüsusilə, o dövrün 70-ci illəri çox böyük bir söhbətin – silsilə telefilmlərin mövzusudur. Muxtar Respublikanın 80 illiyinə həsr olunan "Əbədiyyət ünvanı" silsiləsindən ikinci film həmin mövzunun daha çox ümumi cəhətlərini, tarixi inkişaf yolunun bir sıra uğurlu məqamlarım diqqət mərkəzinə çəkdi. 1990-cı ilin 22 iyulundan – dahi dövlət və siyasət xadimi Heydər Əliyevin Naxçıvana xilaskar gəlişindən sonra Muxtar Respublika yenidən səfərbər olundu, bütün çətinliklərə baxmayaraq, azadlıq, müstəqillik yollarında əzmlə, inadla irəlilədi. Heydər Əliyevin tarixi qayıdışı Naxçıvan Muxtar Respublikası, bütövlükdə Azərbaycan Respublikası, Azərbaycan xalqı üçün əsl qurtuluş, xilaskar qayıdış idi.

İKİNCİ FİLMİN SONU

2004-cü il

ƏBƏDİYYƏT ÜNVANI

Naxçıvan Muxtar Respublikasının
80 illiyinə həsr olunur.

ÜÇÜNCÜ FİLM

"YENİ YÜKSƏLİŞ YOLLARINDA"

* * *

Naxçıvan Muxtar Respublikasına doğru uzanan yol. Sədərək gömrük məntəqəsindən Muxtar Respublikaya daxil olan kameranın "gözüylə" son illərin uğurları izlənir. Yeni binalar, sosial-mədəniyyət obyektləri, iqtisadi dirçəlişdən, inkişafdan xəbər verən panoram planlar göstərilir. Qədim və sovet dövrü Naxçıvanını əks etdirən görüntülər tez-tez əvəzlənir. Sonra müasir dövr Naxçıvanı – tikinti-quruculuq işləri, yeni açılan muzeylər, müxtəlif təzə sənaye, kənd təsərrüfatı, sosial-mədəniyyət obyektləri və s. diqqəti cəlb edir.

* * *

MƏTN: – Gərgin siyasi, diplomatik mübarizələrin yekunu olan Gümrü, Moskva, Qars müqavilələri nəticəsində Muxtar Respublika statusu qazanan min illərin şərəfli tarix yolçusu, əbədiyyət ünvanı ulu Naxçıvan artıq 80 ildir ki, həmin statusla yaşayır, tərəqqi edir. Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin xüsusi fərmanı ilə 80 illik yubileyi geniş şəkildə qeyd olunan Naxçıvan Muxtar Respublikası bu gün iqtisadi islahatlar, dinc quruculuq, sosial-mədəni tərəqqi meydanını xatırladır, sürətlə inkişaf edir. Bu sürətli inkişafın, tərəqqinin əsas enerji mənbəyi, hərəkətverici qüvvəsi əbədiyyət ünvanlı Heydər Əliyev ideyalarıdır.

* * *

Bəli, bu gün bütün Azərbaycan kimi, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası da Heydər Əliyev ideyaları ilə yaşayır, azadlığın, müstəqilliyin əbədi, dönməz yolları ilə əzmlə irəliləyir. 1991-ci ildə Naxçıvanda Heydər Əliyev qüdrəti, qətiyyətilə qaldırılan üçrəngli, ay-ulduzlu bayrağımız o yollara işıq saçır. Milli bayrağımızda simvollaşan üç istiqamətin – Çağdaşçılıq, Türkçülük və İslamçılığın bütöv, sivil, demokratik, dünyəvi Azərbaycançılıqla üzvi vəhdətini ehtiva edən, Azərbaycanın tarixi gücünü, elmi-ədəbi-mədəni potensialını bu günün fəaliyyət meydanında səfərbər edərək, daimi inkişafa, yüksəlişə yol açan Heydər Əliyev ideyaları əbədidir. Muxtar Respublikanın bir sıra ali məktəblərində fəaliyyət göstərən "Heydər Əliyev universitetləri"

bu ideyaların daha geniş şəkildə kütləviləşməsində, elmi-nəzəri dərkində, praktik tətbiqində özünəməxsus rol oynayır. Bu baxımdan Naxçıvan şəhərinin mərkəzində, əzəmətli bir binada yaradılan Heydər Əliyev muzeyinin fəaliyyəti, uğurları diqqəti cəlb edir…

Dahi rəhbərin, ümummilli liderin zəngin ömür yolunu işıqlandıran, onun bütünlüklə Azərbaycana həsr olunan genişmiqyaslı, fədakar fəaliyyətinə güzgü tutan muzey, xüsusilə, uşaqların, gənclərin ən sevimli yeridir.

Muzeyə gələnlər Heydər Əliyev dünyasının əbədi işığına düşür, dahi dövlət və siyasət xadiminin ömür kitabını oxuyaraq, onun əbədiyaşar ideyaları ilə səfərbər olaraq əsl Azərbaycan vətəndaşı kimi yetişir. Naxçıvanın yeni yüksəliş yolları məhz əbədiyyət ünvanlı Heydər Əliyev ideyalarından güc alır…

Naxçıvanın 1990-cı il 20 iyununu əks etdirən xronikal kadrlar bir-birini əvəz edir.

Heydər Əliyevin xilaskar qayıdışı və böyük sevgilə, ümidlə qarşılanması göstərilir. Ümummilli liderin bütöv Azərbaycan sevgisini təsdiqləyir bu kadrlar.

MƏTN: – Muzeylə tanış olduqca Heydər Əliyevin xilaskar qayıdışı bir daha yada düşür.

22 iyul 1990-cı iL Həmin gün Azərbaycan xalqının dahi oğlu, ümummilli liderimiz Heydər Əliyevin Naxçıvana tarixi qayıdışı ilə qədim yurd növbəti qanlı işğaldan xilas edildi. 22 iyul 1990-cı ildən 9 iyun 1993-cü ilədək, təxminən, üç illik

gərgin, fenomenal fəaliyyəti ilə Heydər Əliyev Naxçıvan Muxtar Respublikasında misilsiz tarixi işlər gördü, yeni dövrün – azadlıq, müstəqillik dövrünün əbədi, sarsılmaz əsasını qoydu. 1920-ci ilin 28 aprelində on birinci ordunun qanlı işğalı ilə endirilən Azərbaycanın milli bayrağı Heydər Əliyev uzaqgörənliyi ilə ilk dəfə rəsmən Naxçıvanda qaldırıldı. Beləliklə, Heydər Əliyev xeyir-duası ilə Azərbaycan istiqlalı rəsmi dövlət bayrağı zirvəsinə ucaldı.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası bütün bəlalardan, fitnəkar hücum və təxribatlardan Heydər Əliyev qüdrətilə xilas edildi. İndi həmin üç illik dövrü haqlı olaraq Naxçıvanın xilas, qurtuluş dövrü kimi qiymətləndirir, bugünkü və sabahkı inkişafın, yeni yüksəliş yollarının əsası adlandırırlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Heydər Əliyevin Əcəmi seyrəngahındakı abidəsi önündə həmin gərgin və *şərəfli üç illik dövrü xatırlayır, Heydər Əliyev xilaskarlığından danışır.*

Naxçıvan şəhərindəki "Şəhidlər xiyabanı" kompleksinin bütöv panoramını əks etdirən kadrlar göstərilir. Şəhidlərin qəbirüstü şəkilləri ön plana gətirilir. Əcəmi seyrəngahından Şəhidlər xiyabanına panoram olunur… Qızlar bulağının "göz yaşlan" və şəhidlər ikili təsvirlə göstərilir. Qəbirüstü şəkillər panoram edilir.

MƏTN: – Ermənistanın Azərbaycana qarşı ədalətsiz torpaq iddiaları, elan olunmayan şovinist müharibəsi, qanlı işğalları başlayan gündən Naxçıvan oğulları da

ayağa qalxdılar, ana Vətənin müdafiəsi uğrunda əsl igidliklər göstərdilər. Muxtar Respublikanın ən müqəddəs ziyarətgahına dönən neçə-neçə Şəhidlər xiyabanı naxçıvanlı oğulların qəhrəmanlığından, torpaq, Vətən sevgisindən soraq verir.

Naxçıvan şəhərinin Şəhidlər xiyabanı…

Qədim xatirələr yurdu Əcəmi seyrəngahının, Mömünə xatın türbəsinin yaxınlığında yerləşən Şəhidlər xiyabanında Qızlar bulağının əbədi göz yaşları ilə, dumduru sevgisilə üz-üzə uyuyan şəhidlər… Onların müqəddəs xatirəsi heç vaxt unudulmur, yaddan çıxmır. Muxtar Respublikanın bütün rayonlarında olduğu kimi, Naxçıvan şəhərinin Şəhidlər xiyabanı da son vaxtlar yenidən qurulub, xalqın müqəddəs ziyarətgahına çevrilib. Bu, şəhidlərin halal haqqıdır. Bu haqqı, əbədi ümumxalq məhəbbətini onlar azad, müstəqil Azərbaycan və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası uğrunda ölümlərilə, torpaq, Vətən sevgilərilə qazanıblar. Babəklərin, Koroğluların, Oğlanqala, Əlincə qüdrətinin, tariximizə əbədi imzasını yazan Atabəylərin, neçə-neçə qüdrətli Naxçıvan generallarının qəhrəmanlıq, hünər yolunun davamı, zirvəsidir bu Şəhidlər xiyabanı. Xalqın öz əzəli yurduna, doğma torpağına sonsuz sevgisinin əbədi simvolu, əbədiyyət ünvanıdır bu müqəddəs məkan.

Müasir dövrün şəhidləri ilə yanaşı, əsrlərin qəhrəmanlıq, hünər, müdriklik zirvələri də unudulmur. Mömünə xatun, Yusif Küseyiroğlu, Gülüstan, Qarabağlar və digər türbələrə dövlət qayğısı, bu müqəddəs xatirə komplekslərinin elmi

bərpa və restavrasiyası haqlı razılıq hissi doğurur. 1954-cü ildən bərpası başlanan və yarımçıq qalan Qarabağlar türbəsi son vaxtlar tam şəkildə konservasiya olunub. XIV əsrin əvvəllərində tikilən, sərdaba-qəbirgah və yerüstü hissədən ibarət olan bu unikal memarlıq abidəsi artıq uçulmaq təhlükəsindən xilas edilib. Bu, əsl vətəndaşlıq hünəridir.

Bərpa olunan abidələr, körpülər göstərilir. Naxçıvanda təzə tikilən məktəblər, təzə açılan muzeylər və s… Sonra Şərurun qədim və müasir memarlığı, kompleks abidələri ardıcıllıqla təqdim olunur. Rayonda kənd təsərrüfatının, bütövlükdə iqtisadiyyatın inkişaf tempini əks etdirən kadrlar və sonra Rayon İcra Hakimiyyətinin başçısının qısa çıxışı təqdim olunur.

* * *

MƏTN: – Neçə illərdir ki, ağır blokada şəraitində yaşamasına baxmayaraq, Naxçıvan Muxtar Respublikası sürətlə inkişaf edir, sənaye və kənd təsərrüfatının, elm, təhsil və mədəniyyətin, özəl sektorun, tikintinin, sosial-mədəni quruculuğun bütün sahələrində böyük uğurlar qazanır. Bu inkişaf, yeni yüksəliş yolları ümummilli liderimiz, dahi dövlət və siyasət xadimi Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasında müdrik uzaqgörənliklə başladığı genişmiqyaslı işlərin davamıdır, bəhrəsidir. Bəli, Naxçıvan Muxtar Respublikası möhkəm zəmin, strateji, perspektivli əsaslar üzərində yeni yüksəliş yolları ilə qətiyyətlə irəliləyir. Ən fərəhlisi odur ki, görülən böyüklü-

kiçikli bütün işlərdə daha ciddi perspektivlər nəzərə alınır, daha sanballı uğurların əsası qoyulur…

Naxçıvan şəhərində tikilən yeni çörək zavodu və dəyirman kompleksi… 2003-cü ildə istifadəyə verilən bu özəl müəssisə gündə 8 ton və ya 12000 ədəd çörək istehsal edərək əhaliyə çatdırır.

Yeni texnologiyanın son nailiyyətlərindən xəbər verən dəyirman kompleksində işlər bütünlüklə avtomatlaşdırılıb. Eyni müəssisədə həm keyfiyyətli un hazırlanması, həm çörək bişirilməsi əlavə xərcləri, boşdayanma hallarını azaldır, bütövlükdə sənaye kompleksinin iş tempini, məhsuldarlığı yüksəldir.

Yaxın aylarda sənaye kompleksinin daha da genişləndirilməsi nəzərdə tutulur. Makaron, peçenye, kolbasa, meyvə qurutma sexlərinin yaradılması üçün yüksək səviyyəli yeni avadanlıq alınaraq artıq müəssisəyə gətirilib. Burada süd məhsulları, quşçuluq, üzümçülük sahələrinin də yaradılması nəzərdə tutulur. Bircə müəssisənin timsalında görmək mümkündür ki, Naxçıvan Muxtar Respublikasında həyata keçirilən işlərdə böyük perspektivlər, inkişaf pillələri daim nəzərə alınır.

* * *

Son illər Naxçıvan Muxtar Respublikasının bütün rayonlarında, şəhər və kəndlərində tikinti-quruculuq işlərinin həcmi genişlənib. Qədim tarix-memarlıq abidələri elmi əsaslarla bərpa və restavrasiya olunur. Yeni-yeni yollar çəkilir, körpülər salınır. Müxtəlif sosial-mədəniyyət

obyektlərinin tikintisi, genişmiqyaslı bərpa və abadlıq işlərinin görülməsi baxımından Şərur rayonunun uğurlarını xüsusi qeyd etmək olar. İndi Şərurun hər bir guşəsində Naxçıvan memarlıq məktəbi ənənələrinin davam və inkişafı ilə qarşılaşmaq mümkündür. Rayon mərkəzindəki parkların, bağ və xiyabanların, idman komplekslərinin yüksək memarlıq prinsipləri əsasında yenidən qurulması, şəhərsalma mədəniyyətində milli memarlıq örnəklərinə əsaslanılması haqlı razılıq hissi doğurur. Naxçıvan Muxtar Respublikasının 80 illik yubileyini yeni-yeni uğurlarla, tarixə dönən quruculuq işləri ilə qarşılayan Şərur rayonunda inkişafın, sosial-mədəni tərəqqinin addım səslərini eşitdik.

* * *

Sədərək rayonunda, xüsusilə, sərhəd zonasında yerləşən Heydərabad qəsəbəsindəki kompleks tikinti-quruculuq işləri yurda, torpağa bağlılıqdan, Vətənin hər bir qarışını qorumaq, alınmaz qalaya döndərmək ehtiyacından xəbər verir. Sədərək rayonunun inzibati mərkəzi olan bu yaraşıqlı qəsəbə gündən-günə böyüyür, genişlənir, müasir abad, əbədi yaşayış məskəninə çevrilir. Ermənistanla sərhəddin lap yaxınlığında yerləşən, ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü, xeyir-duası ilə binəsi qoyulan Heydərabad qəsəbəsi Naxçıvan şəhərsalma mədəniyyətinin yeni ünvanıdır. Qədim tarix yolları yeni yüksəliş sevincilə davam edir Heydərabadda…

* * *

Müstəqillik dövründə Şahbuz rayonunda görülən kompleks abadlıq işləri də təqdirəlayiqdir. Yüksək memarlıq səviyyəsində yaradılan Şəhidlər xiyabanı vətən, xalq yolunda qəhrəmanlıq göstərən şahbuzlu igidlərin xatirəsinə sonsuz hörmət və ehtiramdan soraq verir. "Torpaq – uğrunda ölən varsa vətəndir" – deyiblər. Şahbuz igidləri doğma torpağın müqəddəs vətən olduğunu ulu şəhidlik zirvələrilə sübut ediblər.

Bu gün bütün Muxtar Respublika kimi Şahbuz rayonu da inkişaf edir, abadlaşır. Geniş yollar çəkilir, parklar salınır, müxtəlif təyinatlı sexlər yaradılaraq yüzlərlə yeni iş yerləri açılır. Son illər rayon mərkəzində, eləcə də yaxın və uzaq kəndlərdə çoxsaylı idarə binaları tikilib, müasir tələblərə cavab verən ondan çox sosial-mədəniyyət obyekti əhalinin istifadəsinə verilib. Uzun illər boyu balaca, köhnə, əlverişsiz otaqlarda yerləşən, əslində, fəaliyyət göstərməyən Şahbuz rayon tarix-diyarşünaslıq muzeyi son vaxtlar təzə bina ilə təmin edilib. Muzey yeni, zəngin ekspozisiyası ilə qapılarını tamaşaçıların üzünə açıb. Qədim arxeoloji və etnoqrafik abidələr bu bənzərsiz bölgənin özünəməxsus tarixindən, adət-ənənələrindən soraq verir.

Şahbuzun qəsəbələrində, ucqar dağ kəndlərində tikilən, istifadəyə verilən məktəblər xüsusi razılıq hissi doğurur. Bu, dağların zirvəsində yerləşən qədim Biçənək kəndinin son vaxtlar istifadəyə verilən orta məktəb binasıdır. İndi belə

yaraşıqlı, geniş, müasir tələblərə cavab verən yeni məktəb binalarına Naxçıvan Muxtar Respublikasının bütün ucqar dağ kəndlərində rast gəlmək olar. Bunlar müstəqillik dövrünün töhfələridir.

Biçənək kəndinin qonşuluğunda, Batabat yaylağının bir addımlığında – Gömürdə qaçqınlar üçün tikilən yeni binalar hər cür rahatlığı ilə seçilir. Bu binalarda Ermənistandan, əzəli dədə-baba yurdlarından didərgin düşən qaçqınlar – soydaşlarımız məskunlaşıb.

Şahbuz şəhərindəki Şəhidlər xiyabanının lap yaxınlığında ucaldılan məscid kompleksi orijinal memarlığı ilə seçilir, ətraf mühitin ümumi şəhərsalma mənzərəsini tamamlayır.

* * *

Babək, Culfa, Ordubad, Şahbuz və Şərurun yeni tikintiləri, kompleks quruculuq mənzərələri göstərilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov son illərin işlərindən, uğurlarından danışır, ən mühüm tarixi hadisələri yada salır. Naxçıvanda təzə məktəblər, onların açılışından xronikal fraqmentlər həmin danışığı təsdiqləyir, tamamlayır.

MƏTN: – Son illər Naxçıvan Muxtar Respublikasının tikinti-quruculuq mühitində birinci yeri yeni-yeni təhsil müəssisələri tutur. Naxçıvanın bütün sakinləri, xüsusilə, ziyalılar, elm, maarif və sənət adamları bunu fəxrlə bildirirlər. Doğrudan da, fəxr edilməli faktdır. Müstəqilliyimizin ilk illərindəki kütləvi məscid tikintisini getdikcə genişmiqyaslı məktəb, muzey, ümumiyyətlə, sosial-mədəniyyət

obyektlərinin tikintisi üstələyib. Bu, uzaqgörən, ağıllı siyasətin, həqiqi vətəndaşlıq mövqeyinin, vətənpərvərlik yanğısının nəticəsidir. Naxçıvanın maarif, elm-təhsil sisteminin onlarla yeni məktəb və yardımçı binalarla təmin edilməsi ən əvvəl gələcəyimizə, müstəqil, azad dövlətimizə və dövlətçiliyimizə qayğı deməkdir. Naxçıvan Muxtar Respublikası Dövlət Universitetinin müasir tələblər, beynəlxalq standartlar səviyyəsində yenidən qurulan tədris binaları, təlim-tərbiyə sistemi ilə tanışlıq bunu bir daha təsdiq etdi. İndi bu ali təhsil ocağının klassik universitet standartlarına cavab verməsini Azərbaycanın ən nüfuzlu mütəxəssisləri, alimləri də təsdiqləyirlər.

Naxçıvan Muxtar Respublikası Dövlət Universitetinin planları təqdim olunur. Sonra rektor, akademik İsa Həbibbəyli son illərdəki işlərdən danışır. O, Naxçıvan Dövlət Universitetinin həyətini, əsas binalarım gəzərək təqdim edir, danışır, bütövlükdə Naxçıvan Muxtar Respublikasının son illərdəki kompleks uğurlarını qeyd edir.

* * *

Taxıl zəmiləri, Badamlı zavodundan görüntülər, sonra Trikotaj fabriki… Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın inkişafım əks etdirən kadrlar göstərilir və bu istiqamətdə mütəxəssis məlumat verir.

MƏTN: – Bu gün Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı, sənayesi, bütövlükdə iqtisadiyyatı əsl inkişaf yolundadır. Yollar boyu göz oxşayan

yamyaşıl taxıl zəmiləri, getdikcə işini daha yüksək səviyyədə quran dövlət və özəl müəssisələri, istehsalın həcmini artıran duz mədənləri, yüngül sənaye obyektləri Muxtar Respublikanın ahəngdar həyatından, uğurlu inkişaf yollarından soraq verir.

* * *

Babək rayonunda tikilən kərpic zavodu… yaxın vaxtlarda istifadəyə verilməsi planlaşdırılan bu özəl müəssisədə yerli xammaldan istifadə etməklə altı növ kərpic istehsal olunması nəzərdə tutulur. "Uçar-İnşaat" Naxçıvan Şirkətinin bu sənaye müəssisəsində 200-dən çox iş yeri açılacaq, ətraf kəndlərdə, xüsusilə, yaxınlıqdakı Çeşməbasar kəndində yaşayan əhali işlə təmin olunacaq…

* * *

İndi sizi Naxçıvan möcüzələrindən biri ilə tanışlığa dəvət edirik. Bu, Naxçıvan şəhərinin yaxınlığında, 12 km-liyindəki məşhur Duzdağın altı ilə 1600 metrdən çox uzanan şəfalı duz tunelidir. Tunelin girişində 296 metr içəridə yaradılan Fizioterapiya xəstəxanasının, demək olar ki, bütün dünyada analoqu yoxdur. 1979-cu ildə Heydər Əliyevin şəxsi təşəbbüsü, qayğısı ilə yaradılan 50 çarpayılıq xəstəxana əsasında yenidən qurulan, müasir avadanlıqla təchiz edilən bu müalicə mərkəzi son vaxtlar istifadəyə verilib. İki qadın, iki kişi, bir uşaq palatası olan, yüksək tibbi normalara cavab verən xəstəxana pulsuz xidmət göstərir.

Çox qədim zamanlardan duzu çıxarılan, 1928-ci ildən sənaye üsulu ilə istismar edilən, müasir hesablamalara görə hələ 90 milyon ton keyfiyyətli duz ehtiyatı olan Duzdağın altında, tunellərində yerləşən bu şəfa ocağı dünyanın nüfuzlu alimləri, mötəbər mütəxəssisləri tərəfindən yüksək qiymətləndirilib.

* * *

"Sirab" Açıq Səhmdar cəmiyyəti 2003-cü il iyul ayının 15-dən fəaliyyətə başlayıb. Tamamilə yenidən qurulan sexlərdə son tamamlama işləri gedir. Türkiyə və Rusiyadan alınan yeni texniki avadanlığın yaxın vaxtlarda quraşdırılması başa çatacaq, əsas axın xətləri işə düşəcək. Üç xəttin hər birində saatda 6000 ədəd butulka yüksək keyfiyyətli sirabla doldurulacaq.

"Badamlı" özəl müəssisəsi də inkişaf yoluna qədəm qoyur. Naxçıvan Muxtar Respublikasının 80 illik etiketində xüsusi vurğulanan, yüksək keyfiyyəti ilə seçilən yeni badamlı mineral sularının kütləvi istehsalı artıq başlanıb. "Badamlı"nın əvvəlki şöhrətini qaytarmaq üçün hələ çox işlər görülməlidir.

Yerli və türkiyəli iş adamlarının qarşılıqlı fəaliyyətinə əsaslanan "Teynan" birgə müəssisəsində müqavilə yolu ilə çuğundur satışından yığılan şəkər tozu əsas xammaldır. Müəssisənin sexlərində şəkər tozu preslənərək 1, 2, 5 kq-lıq qutularda, 40 kq-luq kisələrdə qablaşdırılır, topdansatış yolu ilə əhaliyə çatdırılır. 36 nəfərin çalışdığı müəssisənin aylıq istehsal gücü orta

hesabla 25 tondur. Əsası odur ki, bu kimi yerli məhsullar yüksək keyfiyyəti ilə seçilir, bazar rəqabətində xarici mallara qalib gəlir.

Naxçıvan Alt Trikotaj fabriki əvvəlki şöhrətini qaytarmaq, 80-ci illərdəki böyük iş həcmini təzədən bərpa etmək əzmindədir… İplikdən başlamış hazır məhsula – müxtəlif çeşidli alt və üst paltarlara qədər bütün istehsal sahələrini əhatə edən fabrikin sifarişçiləri getdikcə çoxalır… Neçə illərdir ki, sağlam iqtisadi mühitin formalaşdığı Naxçıvan Muxtar Respublikası beləcə bazar iqtisadiyyatı yolu ilə irəliləyir, uğurlar qazanır…

* * *

Naxçıvan şəhərinin yeni sosial-mədəniyyət obyektlərindən biri haqqında xüsusi danışmağı lazım bilirik. Bu, Şahmat evidir.

70-ci illərdə respublikamızın bütün bölgələrində şahmat evlərinin tikintisi, şahmatın sistemli, kütləvi inkişafına xüsusi diqqət, qayğı göstərilməsi və bunun nəticəsində Azərbaycan şahmatının böyük inkişafı tarixi faktdır. Bu, Azərbaycan rəhbəri Heydər Əliyevin müdrik, uzaqgörən siyasətinin real nəticəsi idi. Hələ 1981-ci ildə Naxçıvan şəhərində xüsusi Şahmat evi tikilmişdi. O vaxt respublika rəhbəri olan Heydər Əliyev Şahmat evinin açılış mərasimində iştirak etmiş, uşaqları, gəncləri şahmatla daha dərindən məşğul olmağa, bu idman növündə böyük uğurlar qazanmağa həvəsləndirmiş, ruhlandırmışdı.

Naxçıvanın müasir tələblərə cavab verən yeni

Şahmat evi də ümummilli liderimiz Heydər Əliyevin daimi diqqət və qayğısının nəticəsidir. Şahmat uşaqları, gəncləri ağılla, müdrikliklə silahlandırır, elmin, idrakın gücünü səfərbər edir. İnanırıq ki, bu Şahmat evi gələcəyimiz olan uşaqların layiqincə yetişdirilməsində bundan sonra da müəyyən rol oynayacaq.

* * *

Naxçıvan Muxtar Respublikasının ədəbi-mədəni mühitində son illər unudulmaz hadisələr çox olub. Cəlil Məmmədquluzadə ev-muzeyinin, Naxçıvan Dövlət Xalça muzeyinin, Mömünə xatın türbəsində tarixi ekspozisiyanın açılışları, Əshabi-Kəhf ziyarətgahında əsaslı təmir, abadlıq işləri aparılması, Naxçıvan Dövlət Universitetində Elmi müdafiə şurasının yaradılması… Bu siyahını xeyli uzatmaq olar. Bu unudulmaz, çoxsaylı mədəniyyət hadisələrindən ən böyüyü, yəqin ki, Hüseyn Cavid məqbərəsinin, xatirə-memarlıq kompleksinin tikilib başa çatdırılmasıdır. Bu böyük, tarixi abidə Azərbaycanın ümummilli lideri Heydər Əliyevin ən çətin dövrlərdə gərgin əməyinin, misilsiz hünərinin, ardıcıl diqqət və qayğısının nəticəsidir. Hüseyn Cavid türbəsinin açılış günü Naxçıvan Muxtar Respublikasında, bütün Azərbaycanda haqqın, həqiqətin, ədalətin təntənəsi günü idi. Bu, ulu türbələr şəhəri Naxçıvana dahi Hüseyn Cavid ruhunun əbədi qayıdış günü idi. Bu, dahi dövlət və siyasət xadimi Heydər Əliyevin qədim və qüdrətli, əbədiyyət ünvanlı Naxçıvan uğrunda fədakar

fəaliyyətinin daha bir təsdiqi idi.

* * *

12 may 2004-cü il. Yeni yüksəliş yollarında əzmlə irəliləyən Naxçıvan Muxtar Respublikasının ən yeni tarixinin ən unudulmaz günlərindən biri. Həmin gün Azərbaycan prezidenti, ümummilli liderimiz Heydər Əliyevin layiqli davamçısı İlham Əliyevin bu qədim yurda gəlişi bütün naxçıvanlıları qəlbən sevindirdi. Onu tükənməz sevgi, böyük el məhəbbəti ilə qarşıladılar.

Azərbaycan prezidenti İlham Əliyev Naxçıvan Beynəlxalq hava limanının açılış mərasimində iştirak edir.

İLHAM ƏLİYEV: – Bu gün həyatımızda çox əlamətdar bir gündür. Bu gün Azərbaycan xalqının ümummilli lideri, müasir Azərbaycanın qurucusu Heydər Əliyevin təşəbbüsü ilə tikilmiş Naxçıvan hava limanı istifadəyə verilir. Mən sizin hamınızı bu münasibətlə ürəkdən təbrik edirəm.

Bu hava limanı bütün dünya standartlarına cavab verir. Burada gözəl aerovağzal kompleksi, uçuş-enmə zolağı, digər infrastruktur obyektləri tikilmişdir və bunlar yüksək səviyyədə inşa olunmuşdur. Mən xatırlayıram ki, xalqımızın ümummilli lideri Heydər Əliyev bu tikinti ilə əlaqədar çoxlu müşavirələr, görüşlər keçirmişdir və tikinti başlayanda da inşaat işləri daim onun nəzarəti altında idi. O çox istəyirdi ki, Naxçıvan üçün gözəl, Naxçıvana uyğun, Naxçıvana yaraşan bir hava

limanı tikilsin və insanlara xidmət etsin. Bu gün biz buna nail olmuşuq. Heydər Əliyevin əsəri – yeni Naxçıvan hava limanı öz qapılarını açır.

Bu gün çox gözəl bir gündür. Amma, eyni zamanda, kədərli bir gündür. Çünki bizim hamımızın istəyi, arzusu o idi ki, ümummilli liderimiz Heydər Əliyevin özü bu hava limanının açılışında iştirak etsin, özü bu qırmızı lenti kəssin və hava limanına öz xeyir-duasını versin. Amma onun səhhəti buna imkan yaratmadı.

Bu gün Azərbaycan Heydər Əliyevsiz yaşayır. Bu, bizim hamımız üçün böyük sınaqdır, hamımız üçün böyük imtahandır, hamımız üçün böyük kədərdir, dərddir. Amma bizə təskinlik verən odur ki, Heydər Əliyevin ideyaları yaşayır. Heydər Əliyevin fəlsəfəsi, siyasəti yaşayır. Onun qurduğu, yaratdığı müasir Azərbaycan yaşayır, güclənir və bundan sonra da yaşayacaqdır.

Biz hamımız bu siyasətə sadiqik. Biz hamımız bu siyasəti davam etdirməliyik. Azərbaycanı gücləndirməliyik, Heydər Əliyevin yolu ilə irəliyə aparmalıyıq. Mən əminəm ki, biz buna nail olacağıq. Xalq bu siyasətə alternativ siyasəti qəbul etmir və bizim gələcəkdə görəcəyimiz bütün işlərin uğurlu olması üçün bu, əsas şərtdir.

Naxçıvan çox sürətlə inkişaf edir. Bu, bizim hamımızı sevindirir. Naxçıvan hər bir azərbaycanlı üçün əziz, doğma torpaqdır. Azərbaycanın qədim torpağıdır. Naxçıvanda son illər ərzində aparılan abadlıq, quruculuq işləri bizim hamımızı çox sevindirir. Çətin şəraitdə, blokada şəraitində yaşayan naxçıvanlılar böyük işlər görüblər. Bu hava

limanının tikilməsi, şəhərdə digər obyektlərin inşa olunması, yüksək səviyyədə tikilməsi onu göstərir ki, Naxçıvan çox sürətlə inkişaf edir.

Naxçıvan həmişə Heydər Əliyevin diqqət mərkəzində idi. Təkcə ona görə yox ki, Heydər Əliyevin vətənidir və Heydər Əliyev Naxçıvanda doğulmuşdur. Ona görə ki, Naxçıvan Muxtar Respublikası Azərbaycan üçün strateji əhəmiyyət kəsb edən diyardır. Əlbəttə, Naxçıvanın hərtərəfli güclənməsinə Heydər Əliyev həmişə böyük əhəmiyyət verirdi. Bu siyasət davam etdiriləcəkdir.

Mən çox şadam, xoşbəxtəm ki, bu gün sizinlə birlikdəyəm, Azərbaycanın qədim Naxçıvan torpağındayam. Biz hələ bir neçə gün birlikdə olacağıq. Amma bundan sonra biz Bakıya qayıtsaq da, biləsiniz ki, bizim qəlbimiz buradadır, sizinlədir.

* * *

Hüseyn Cavid türbəsinin açılışı ilə bağlı qısa epizodlar və prezident Heydər Əliyevin çıxışından bir hissə təqdim olunur. Ümummilli liderimiz Heydər Əliyev Naxçıvana baxır, fərəhlə, dahiyanə müdrikliklə danışır. Sonra qədim yurdun – Naxçıvanın ümumi planları, tarixi və müasir mənzərələri göstərilir. Son illərin genişmiqyaslı tikinti-quruculuq işləri panoram planlarla göstərilir.

* * *

MƏTN: – Azad, müstəqil Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının 80 illik yubileyi və bu əlamətdar yubileyin Azərbaycan

prezidenti İlham Əliyevin xüsusi fərmanı ilə geniş şəkildə qeyd olunması mühüm tarixi, mədəni, siyasi hadisədir. Prezident İlham Əliyevin iştirakı ilə Muxtar Respublikanın paytaxtında keçirilən yubiley mərasimi Naxçıvan həqiqətlərini bir daha bütün dünyaya bəyan etdi.

* * *

Gümrü, Moskva, Qars beynəlxalq müqavilələrinin nəticəsində Azərbaycan Respublikasının tərkib hissəsi kimi yaradılan, təsdiq edilən Naxçıvan Muxtar Respublikasına qarşı xəyanətkar qonşu hücumları, bədnam erməni iddiaları yolverilməzdir. Naxçıvanın həm qədim tarixi, 3500 illik dövlətçilik yaddaşı, bütövlükdə Azərbaycana məxsus olan qüdrətli sivilizasiya yolu, həm də Gümrü, Moskva, Qars müqavilələri ilə təsdiqlənən statusu, beynəlxalq toxunulmazlıq Azərbaycana məxsusluq hüququ erməni şovinizminə, bədnam ərazi iddialarına ən yaxşı cavabdır. Bunu nəzərə alaraq, Azərbaycan Respublikasının müdrik, uzaqgörən, ümummilli lideri Heydər Əliyev demişdir: "Naxçıvan statusunun dəyişdirilməsinə yönəldilən hər hansı cəhdin, onun ərazisinə edilən hər cür qəsdin qarşısı qətiyyətlə alınacaqdır…

…Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir. Biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük amildir. Biz bu amili qoruyub saxlamalıyıq".

* * *

Filmin əvvəlindəki simvolik təsvirlər təqdim olunur. Kompüter qrafikası ilə "Əbədiyyət ünvanı" yazısı yenidən yazılır. Naxçıvan Muxtar Respublikasının panoram planları və *günəşlə bir dalğalanan üçrəngli dövlət bayrağımız görünür. Sonluq titrləri yazılır.*

SON

2004-cü il

MÜNDƏRİCAT

Müqəddəs yolun yolçusu 3
Oxuculara 10
Dil siyasətinin uğurları 13

ƏDƏBİ VƏ BƏDİİ DİL MƏSƏLƏLƏRİ

İnsanlar, görüşlər… 28
Fərdi-üslubi neologizmlər 30
Ədəbiyyatda obrazlılıq 41
Ədəbi dilimizin inkişafı və nitq mədəniyyəti məsələləri 44
Elmi-texniki tərəqqi və dilin lüğət tərkibi 53
Tərcümə ədəbiyyatı və ədəbi dilimiz (ekzotizmlər) 58
Dilimizin zənginləşməsi məsələləri 65
Müasir Azərbaycan dilinin leksikası 69
İnisiallar və nitq mədəniyyəti 72
Alınma sözlərin emosional-üslubi xüsusiyyətləri və nitq mədəniyyəti 74
Zamanın axarı ilə 77
Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişaf qanunauyğunluqları 90
Müasir Azərbaycan antroponimikasında proqressiv meyillər 100
Qədim türk onomastikası 102
Ə.Əbülhəsən nəsrinin dili 105
Türk xalqlarının birliyinə və gələcək xoşbəxtliyinə inam olmalıdır ... 110
Tərcümə və terminoloji leksika 115
Sənətkar, söz, üslub 123
Leksik-semantik sistemin təkamülü – köhnəlmiş sözlər və yeni sözlər 126
Sözlər tarixi yaşadır 134
Novruza yeni töhfə 138
Azərbaycan poemasının dili 143

Bədii tərcümənin leksik, frazeoloji və qrammatik məsələləri 172
XVIII əsr Azərbaycan ədəbi dilinin tədqiqi 180
Qanadlı sözlərin frazeologiyada yeri və struktur-semantik xüsusiyyətləri 186
Azərbaycan dilində birhecalı fellərin tədqiqi 192
Kəmiyyət kateqoriyasının tarixi-müqayisəli tədqiqi..... 196
Terminoloji lüğətlərin tərtibi prinsipləri 200
Ortaq türk ədəbi dili problemləri 204
Rus və Avropa dillərindən alınmalar haqqında 206
Müasir türk dilində köməkçi nitq hissələri 212
"Dəbistan" jurnalının dili 216
Cəlil Məmmədquluzadənin dram dili 220
İqtisadiyyat terminləri haqqında 225
Anarın nəsr dilinin tədqiqi..... 227
Bədii dildə yumor və onun tədqiqi məsələləri 231
Arxiv terminlərinin öyrənilməsi 235
Klassik aşıq poeziyasının üslubi-poetik sintaksisi 239
Xaltanlı Tağının yaradıcılıq yolu..... 243
Axısqa türklərinin dili 246
Azərbaycan ekran dramaturgiyasında mövzu, struktur, üslub və janr problemləri 253

TƏHSİL, DÜŞÜNCƏLƏR, MÜLAHİZƏLƏR

Yetmiş yaşlı, təzə adlı təhsil ocağı..... 256
Dünən, bu gün, sabah və həmişə 262
Təhsil qanunu var… Normativ sənədlər isə yoxdur 271
Ali təhsilin problemləri çoxdur..... 281
Təhsil sisteminin müqəddəsliyi cəmiyyətin sağlamlığıdır 289
Təhsil özfəaliyyətə çevrilib..... 293
Təhsil quruculuğu: problemlər, mülahizələr..... 297
Cənubi Azərbaycanda təhsil məsələləri 310

ZAMANIN YADDAŞI

Mənim əziz illərim 324
Heydər Əliyev fenomeni 326
Dərin zəka və yaddaş sahibi 340
İsmayıl müəllim xalq tərəfindən sevilən, qəbul edilən ictimai xadim idi (*İ.Şıxlı*) 344
Yazıçı, alim, ictimai xadim (*Ş.Qurbanov*) 347
Dostluğun işığında (*R.Rəhimov*) 352
Ədəbi dilimizin təbibi (*C.Heyət*) 357
Dəmirçizadə dünyası (*Ə.Dəmirçizadə*) 362
Ömrü örnək olanlar (*Ə.Əlizadə*) 374
Təbiət aşiqi, elm fədaisi (*B.Budaqov*) 382
Kamillik (*M.Süleymanlı*) 385
Mənalı ömür yolu (*M.Ələsgərov*) 391
Şeirimizin canlı klassiki (*M.Araz*) 402
Çətin və şərəfli yolun salnaməsi (*"Azərbaycan müəllimi" qəzeti*) 412
Kütləvi informasiya vasitələri və informasiya mübadiləsi 416
AzTV – milli siması olan bir televiziyadır 421
Yalnız bizim telekanal ailəliklə arxayın baxmağa imkan yaradır 425

SSENARİLƏR

Həsən bəy Zərdabi 444
Cavad Heyət varlığı 463
Məmməd Araz 487
Şıx ocağının işığı (*İ.Şıxlı*) 511
Məmmədhüseyn Təhmasib 533
Əsrin şahidi (*L.Hüseynzadə*) 546
Türk dünyası. Qitədən – qitəyə (I film) 563
Türk dünyası. Qitədən – qitəyə (II film) 583
Türk dünyası. Qitədən – qitəyə (III film) 606

Türk dünyası. Qitədən – qitəyə (IV film) 626
Türklər (I film) 649
Türklər (II film) 675
Türklər (III film) 692
Türklər (IV film) 715
Əbədiyyət ünvanı (Min illərin xatirəsi) (I film) 740
Əbədiyyət ünvanı (Heydər Əliyev və Naxçıvan) (II film) 756
Əbədiyyət ünvanı (Yeni yüksəliş yollarında) (III film) 764

«Elm və Təhsil» nəşriyyatının direktoru:
professor Nadir MƏMMƏDLİ

Kompüter dizayneri: **Zahid Məmmədov**
Texniki redaktor: **Rövşanə Nizamiqızı**

Yığılmağa verilmiş **25.04.2013**
Çapa imzalanmış **06.05.2013**
Şərti çap vərəqi **49,2.** Sifariş **№ 179**
Kağız formatı **60x84 1/16.** Tiraj 5**00**

Kitab **«Elm və Təhsil»** nəşriyyat-poliqrafiya
müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.
E-mail: elm_ve_tehsil@box.az
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.